

**Vasif Həzərxan oğlu SƏMƏDOV** Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində redaktor, "Kommunist" qəzetində müxbir, Rusiyanın nüfuzlu və populyar mətbuat orqanlarında - "İzvestiya" qəzetinin Azərbaycan Respublikası üzrə xüsusi müxbiri, "Literaturnaya qazeta"nın, "Energiya Vostoka" və "Oqonyok" jurnallarının Mərkəzi və Qərbi Asiya ölkələri üzrə müxbirlər bürosunun müdiri vəzifələrində işləyərək ölkəmizin informasiya blokadasından çıxarılmasında müstəsna xidmətləri olmuş və hazırda bu sahədə jurnalistlik fəaliyyətini davam etdirir.

Respublikanın Əməkdar jurnalistidir. Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm", H.B.Zərdabi adına mükafatları ilə təltif edilmiş, "Araz", "Azərbaycan Bayrağı" Ali ədəbi və jurnalistika üzrə bir sıra Beynəlxalq müsabiqələrin mükafatları laureatıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Jurnalistlər Konfederasiyasının üzvüdür.

Jurnalist kadrlarının hazırlanmasında Bakı Avroasiya Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğuldur. Bir neçə publisistik və dərs vəsaiti kitablarının müəllifidir. Ailəlidir.



**Rövşən Novruz oğlu VƏLİZADƏ** uzun müddət dövlət qurumlarında və xüsusi xidmət orqanlarında işləmişdir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, professor R.Vəlizadə AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşıdır. 24 kitabın müəllifidir. Bir neçə kitabı müxtəlif xalqların dillərinə tərcümə olunub nəşr edilmişdir.

Dağlıq Qarabağ mövzusunda «Qarabağ: Nəzarətsiz zona», «Qarabağ: terror edilmiş torpaq», «Genosid», «Erməni terroru və çirkli pullar», «Genosid, Ekosid», korrupsiya mövzusunda isə «Narkokorrupsiya», «Çirkli pulların yuyulması», «Korrupsiya, narkotika, terror», «İqtisadi kəşfiyyatda informasiya», «Bank təhlükəsizliyi və çirkli pulların anatomiyası» kitablarının müəllifidir.

O, Kanada, ABŞ və İtaliya universitetlərində fəaliyyət göstərən Strateji Araşdırmalar Mərkəzlərinin həmsədridir.

Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısıdır. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. Jurnalistika sahəsində fəaliyyətinə görə AJB-nin «Qızıl qələm» mükafatına layiq görülmüş, elmi tədqiqat əsərlərinə görə isə bir sıra müxtəlif mükafatların laureatıdır. Ailəlidir.

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA: «XOCALIYA ƏDALƏT!»
(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

I
CİLD


**VASİF SƏMƏDOV**
**RÖVŞƏN VƏLİZADƏ**





# LEYLA ƏLİYEVA:
# «XOCALIYA ƏDALƏT!»
## (BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

**I CİLD**

63.3(5A7e)
S 47

AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İNSAN HÜQUQLARI İNSTİTUTU

"XOCALIYA ƏDALƏT!" BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASI

«KASPİAN İZVESTİYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİ

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ

# LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"

## (BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

ÜÇ CİLDDƏ

MƏCBURİ NÜSXƏ
№ ______

I CİLD

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 83370

*Monoqrafiya AMEA-nın İnsan Hüquqları İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmişdir.*

Bakı – 2014

Araşdırmaya xüsusi rəy və ön sözün müəllifi:
**Rafael HÜSEYNOV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor**

Baş elmi məsləhətçi:
**Aytən MUSTAFAYEVA**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru, professor**

Elmi redaktorlar:
**İbrahim QULİYEV**
**Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor**
**Cəbi BƏHRAMOV**
**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, professor**

Elmi məsləhətçilər:
**Ziyafət ƏSGƏROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı, hüquq üzrə fəlsəfə doktoru, professor**
**Nazim HÜSEYNLİ**
**Bakı Avrasiya Universitetinin rektoru, fəlsəfə elmləri doktoru, professor**
**Namiq AXUNDOV**
**Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının magistratura şöbəsinin dekanı, tarix elmləri doktoru, professor**

**İlkin CAMALOV**
**Azərbaycan Respublikasıı Prezidentinin Xüsusi Tibb Xidmətinin böyük məsləhətçisi, hüquq üzrə fəlsəfə doktoru**

Redaktorlar:
**İradə MƏMMƏDOVA**
**"Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin prezidenti**

**Səbinə SADIXQIZI**
**"Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyinin vitse-prezidenti**

**Vasif Səmədov, Rövşən Vəlizadə**

**Leyla Əliyeva: "Xocalıya Ədalət!"** *(Beynəlxalq erməni terroruna qarşı yeni strateji model).* Üç cilddə. I cild. Bakı.2014. 344 səh., şəkilli.

Üç cildlik bu kitabda beynəlxalq terrorun bir qolu olan erməni terrorçularının müxtəlif tarixi dövrlərdə Azərbaycan torpaqlarında, xüsusilə ötən əsrin son illərində Ermənistan və onların havadarlarının köməyilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən, Xocalı yaşayış məntəqəsində törətdikləri kütləvi qırğınlardan, vəhşiliklərdən, soyqırımdan bəhs edilir. Kitabda Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın «Xocalıya Ədalət!» kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab dünyada terrora və zülmə, işgəncəyə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətlərin önəmli bir toplusu kimi oxucuların diqqət mərkəzində olacaqdır.

**Monoqrafiya AMEA-nın İnsan Hüquqları İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmişdir.**

ISBN: 978-9952-486-11-7

© Vasif Səmədov, Rövşən Vəlizadə, 2014

Kitab “Xocalıya Ədalət!” Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr edilmişdir.

“Xocalıya Ədalət!” kampaniyasının yaradılması təşəbbüsü 2008-ci il 8 may tarixində, Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülmüşdür. Hal-hazırda faciənin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirilməkdədir.

# XOCALI

**Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Qanununa əsasən DQMV ləğv edildikdən sonra Xocalı şəhəri və Əsgəran rayonlarının bazası əsasında Xocalı rayonu yaradılmışdır. Xocalı rayonu şimalda Ağdam, şimal-şərqdə Ağdərə rayonu, qərbdə Kəlbəcər və cənub-qərbdə Laçın rayonları, cənub-da Şuşa, cənub-şərqdə isə Xocavənd rayonu ilə həmsərhəddir. Xocalı şəhəri Xankəndindən 10 km cənub-şərqdə Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiy-yətini artıran səbəblərdən biri də Dağlıq Qarabağ bölgəsinin yeganə hava limanının məhz burada yerləşməsi idi. Hazırda Xocalıdan keçən Əsgəran - Xankəndi yolu və Xocalıda yerləşən hava limanı Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.**

**İşğal olunmuşdur** - 26 fevral 1992-ci il
**Ərazisi** – 970 kv km

## Xocalının dağıdılmış mədəni irsi

1. Kurqan - dəmir dövrü (Xankəndi yaxınlığında)
2. Xankəndi kurqanları - tunc dövrü (Xankəndindən şimalda)
3. Xaçınçay kurqanları - ilk tunc və orta tunc dövrü (Seyidşən kəndindən şimal-şərqdə)
4. Küp qəbirləri nekropolu - tunc dövrü (Armudlu kəndindən 2 km. İlis kəndinə tərəf)
5. Kurqan - tunc dövrü (Armudlu kəndindən 15 km aralı, İlis çayının sahilində)

6. Daş qutu nekropolu - dəmir dövrü (Armudlu kəndi, qəbiristanlığın yaxınlığında)
7. Köhnə qəbiristanlıq - tunc dövrü (çanaqçı kəndi)
8. Daş qutu nekropolu - dəmir dövrü (Saruşen kəndi)
9. Daş qutu nekropolu - dəmir dövrü (Saruşen kəndi, dağın ətəyində)
10. Dairəvi məbəd - 1356 - 1357- ci il (Xocalı şəhəri)
11. Türbə - XIV əsr (Xocalı şəhəri)
12. Alban məbədi - 1100 - cü il (Çanaxçı kəndi)
13. Alban məbədi - 1065 - ci il (Çanaxçı kəndi)
14. Alban məbədi - 905 - ci il (Şuşa kəndi)
15. Alban məbədi - 1122 - ci il (Xanşax kəndi)
16. Alban məbədi - 1100 - cü il (Xaçmaz kəndi)
17. Alban məbədi - 1202 - ci il (Armudlu kəndi)
18. Qala - X əsr (Maşxmaat kəndi)
19. Qırxlar qalası - orta əsrlər (Badara kəndi)
20. Məbəd kompleksi - VII əsr (Badara kəndi)
21. Qala - IX əsr ( Daşbaşı kəndi)
22. Əsgəran qalası - XVIII əsr (Əsgəran qəsəbəsi)
23. Aslan qalası - IX əsr (Anabert kəndi)
24. Məbəd - XIII əsr (Xanabad kəndi)
25. Daş qutu nekropolu - tunc dövrü (Xocalı şəhəri Əsgəran dağı)
26. Nekropol - ilk tunc və orta tunc dövrü (Xankəndindən cənubda)
27. Xocalı kurqanları - ilk tunc və dəmir dövrü (Xocalı rayonu)
28. Küp qəbirlər nekropolu - ilk orta əsrlər (Xankəndinin ərazisində)

## ERMƏNİ TƏCAVÜZKARLARI TƏRƏFİNDƏN İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN ƏRAZİLƏRİ

**Azərbaycanın 1988-1994-cü illərdə ermənilər tərəfindən işğal edilmiş əraziləri – cəmi 17.610 kv.km.: Dağlıq Qarabağ Muxtar Vilayəti (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) işğal tarixi – 1988-1994-cü illər. Ümumi sahəsi – 4400 kv. km.**

**LAÇIN** – 18 may 1992-ci il – 1835 kv. km.
1923-cü ildə yaradılıb. İnzibati rayon kimi 1930-cu ildən təşkil edilib. 1992-ci il mayın 18-də işğal edilib.

**KƏLBƏCƏR** – 3-4 aprel 1993-cü il – 1936 kv. km.
İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il aprelin 3-4-də işğal edilib.

**AĞDAM** – 23 iyul 1993-cü il – 1094 kv. km.
1828-ci ildə yaradılıb. İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il iyulun 23-də işğal edilib.

**CƏBRAYIL** – 23 avqust 1993-cü il – 1050 kv. km.
1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində Cəbrayıl qəzası kimi yaradılıb. İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1993-cü il avqustun 23-də işğal edilib.

**FÜZULİ** – 23 avqust 1993-cü il – 1386 kv. km
İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1959-cu ilə kimi Qaryagin adlanıb. 1993-cü il avqustun 23-də işğal edilib.

**QUBADLI** – 31 avqust 1993-cü il – 802 kv. km
İnzibati rayon kimi 1933-cü ildə yaradılıb. 1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan rayonu ilə birləşdirilib. 1964-cü ildə isə yenidən ayrılıb. 1993-cü il avqustun 31-də işğal edilib.

**ZƏNGİLAN** – 30 oktyabr 1993-cü il – 707 kv. km. İnzibati rayon kimi 1930-cu ildə təşkil edilib. 1957-ci ilədək Pirçivan adlanıb. 1993-cü il oktyabrın 30-da işğal edilib.

Son iki əsrdə tarixi torpaqlarımızın işğalı və ilhaqı xalqımıza qarşı vaxtaşırı soyqırımı ilə müşayiət olunmuş və bu zaman iki milyondan çox soydaşımız qətlə yetirilmişdir.

*UNUTMAYAQ!*

## XX əsrin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı zamanı:

**- 613 nəfər şəhid olub;**

**Onlardan:**

**- 106 nəfəri qadınlardır;**

**- 59 nəfəri 1 yaşından 18 yaşına qədər yeniyetmələrdir;**

**- 70 nəfəri ahıldır;**

**- 23 nəfər uşaq ata və anasız qalmışdır;**

**- 230 nəfər uşaq valideynlərindən birini itirmişdir;**

**- 487 nəfər əlil olmuşdur;**

**- 150 nəfər itkin düşmüşdür, hələ də onlardan bir xəbər yoxdur;**

**- 1275 nəfər əsir düşmüşdür və onların taleləri naməlumdur;**

**- 8 ailə və 3 nəsil tamamilə məhv edilmişdir.**





***...1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaq.***

***...Azərbaycanın dövlət rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun ədalətli həlli, ərazilərimizin işğaldan azad edilməsi üçün məqsədyönlü və ardıcıl iş aparır. Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir, zaman bizim xeyrimizə işləyir. Bu gün dövlətimiz və xalqımız iqtisadi, siyasi və mənəvi cəhətdən müqayisəolunmaz dərəcədə güclənib, müstəqil Azərbaycan dövləti dünya siyasətinin mühüm faktoruna çevrilib. İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır!***

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan xalqının Ümummilli Lideri**



***...Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Biz həm də, erməni millətçilərindən fərqli olaraq, bu məsələdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.***

***Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir.***

***Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq.***

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



*Heydər Əliyev Fondu milli fonddur. Fondun butun təşəbbüsləri milli ruha əsaslanır. Eyni zamanda Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyada təqdim edilməsi – bütün bu şərəfli funksiyalar bu fondun üzərinə düşübdür. Düşübdür deyəndə, fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görür, mən bunu da deməliyəm. Ona görə mən fondun fəaliyyətini çox təqdir edirəm, çox bəyənirəm və şübhə yoxdur ki, bundan sonra da Azərbaycanın gələcək inkişafında fondun rolu böyük olacaqdır.*

**MEHRİBAN ƏLİYEVA**
**Heydər Əliyev Fondunun prezidenti,**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**UNESCO və ISESCO-nun xoşməramlı səfiri**




*Xocalıda baş verənlərin ağrısı bu günədək hiss olunur. Əfsuslar olsun ki, bu, dünyanın digər hissələri üçün də acınacaqlı nəticələr vermişdir. Azərbaycan coğrafi baxımdan Avropa ilə Asiya arasında yerləşir və insanlığa qarşı bu cinayət XX əsrin sonlarında, düz Avropanın kəndarında törədilmişdir. Bu dəhşətli qətliam zamanı Xocalının 613 dinc sakini qətlə yetirilmişdir.*

*Heydər Əliyev Fondu və «Xocalıya Ədalət!» kampaniyası Xocalı həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoymuşdur. Bu gün etdiklərimizin heç biri Xocalı soyqırımının yaralarını sağalda bilməz. Bizim edə biləcəyimiz yalnız həmin dəhşətli tarixi yad etmək və qətliam zamanı öldürülən və ya ömürlük əlil olan uşaq, qadın və kişiləri unutmamaqdır.*

**LEYLA ƏLİYEVA**
**Heydər Əliyev Fondunun vitse-prezidenti,**
**Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri**

***QISA ARAYIŞ***

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

**Heydər Əliyev**

# HEYDƏR ƏLİYEV FONDU

**Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.**

**2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.**

**Heydər Əliyev Fondunun prezidenti Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevadır.**



**Mehriban Əliyeva**

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, UNESCO və ISESCO-nun xoşməramlı səfiri.*

## FONDUN MƏQSƏDLƏRİ

- görkəmli siyasi xadim Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;

- Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;

- elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;

- respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək;

- yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;

- insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;

- Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;

- uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək;

- Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;

- Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;

- respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək;

- elmi tədqiqatların aparılmasına yardım göstərmək;

- xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;

- uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;

- səhiyyə və tibbi təsisatları inkişaf etdirmək;

- ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;

- Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;

- uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək;

- dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək.

*ÖN SÖZ*

# SƏRT ÜZLÜ ŞAHİD



Dərd dərddir və hələ ki dərdin, faciənin şiddət dərəcəsini ölçən hər hansı cihaz ixtira edilməyib. Sadə bir insanın acısı da, bir ailənin müsibəti də, bir xalqın matəmi də özlüyündə böyük dərddir və miqyasdan asılı olmayaraq hər dərd mahiyyətiylə ağır mənəvi yük olduğundan özlüyündə böyükdür. Dərdləri o səbəbdən də ağırlıq-yüngüllük, böyüklük-kiçiklik dərəcəsinə görə müqayisə etməzlər. Amma elə müdhiş dərdlər, elə nəhəng faciələr də var ki, bir insanın, bir ailənin, bir millətin başına gəlməsindən asılı olmayaraq insanlığın düçar olduğu faciələrdən sayılır və bütövlükdə bəşəriyyətə qarşı törədilmiş cinayətlər qəbilinə daxil edilir.

Dünyanın tarixi yalnız yüksəlişlərin, inkişafın, misilsiz yaradıcılıqların tarixi deyil, həm də qanlı müharibələrin, dağıdıcı savaşların salnamələridir.

Xocalı Yer kürəsinin xəritəsində kiçicik bir nöqtədir. Amma bu balaca məkanda 1992-ci ilin 26 fevralında baş vermiş soyqırımı hadisəsi oranı bizim müasiri olduğumuz illər və bütün gələcək tarix üçün insanlığın diqqət mərkəzində əbədi ələm və ibrət nümunəsi kimi qalmağa məhkum etdi.

Mənə Xocalı faciəsini hadisə baş verəndən bir neçə gün sonra canlı olaraq ən yaxın məsafədən seyr etmək nəsib oldu. Hansısa video, yaxud kinokadrlarda deyil, canlı insan simasında.

“Amerikanın səsi” radiosu Azərbaycan bölməsinin müdiri doktor Həsən Cavadi 1992-ci ilin ilk mart günlərində Bakıya gəlmişdi və silsilə reportajlar hazırlamağı düşünürdü. O vaxtlar mən də həmin radionun Bakı bürosunun xüsusi müxbiri idim və Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılması üçün yaranmış bu imkandan maksimal istifadə etmək üçün çalışırdım. Respublika Xəstəxanasının o vaxtkı direktor müavini Rafiq İmanovla danışaraq qonağımızla məni onlarda müalicə olunan xocalılılarla görüşdürməyi rica etdim.

Ailəsinin bütün üzvləri məhv edilmiş, ayaqyalın, nazik bir paltarda dağları aşaraq düşmən əlindən qurtulmuş, bu qaçaqaçda ayaq barmaqlarını don vurmuş bir gənc qızın çarpayısının yanında əyləşmişdik. Suallar versək də, qız danışmırdı. Elə bil nitq qabiliyyətini itirmişdi, sanki heç bizimlə bir otaqda da deyildi. Onun donuq baxışları, bir neçə gün əvvəl yaşadığı dəhşətlərin gözlərində buzlaşıb qalmış vahiməsi bizə hər şeyi əyani şəkildə göstərirdi.

Yəni bu dərdin sözlə ifadəsi əslində mümkünsüz idi.

Bu dərd o qədər çəkilməz idi ki, onu söz deyil, yalnız sənədlər, dəlillər nümayiş etdirə bilərdi. Və o anda həmin qızın gözləri sənəd idi, o gözlər Xocalı qətliamını əyani şəkildə canlandıran ifşaedici ekran idi.

...Azərbaycan tarix boyu istilaları da görüb, qəsblərə də uğrayıb, yadellilərin olmazın məşəqqətlərinə də dözüb. Xocalı faciəsi bu faciələr silsiləsində bir həlqədir. Lakin çox səciyyəvi həlqədir. Çünki müxtəlif əsrlərdə Azərbaycana qarşı yönəlmiş təcavüzlərin yüzdə doxsanı mahiyyətcə sadəcə işğal, torpaq, sərvət ələ keçirmək ehtirasından törəmişdisə, XIX yüzilin üçüncü onilindən etibarən Azərbaycanın Rusiya ilə İran arasında bölünməsindən, Çar imperiyasının erməniləri özlərinə Qafqazda jandarm müəyyənləşdirməsindən sonra yurdumuza və millətimizə qarşı aparılan qamarlama siyasətinə qorxunc soyqırımı məkri əlavə olundu.

Həmin siyasət o vaxtdan indiyəcən mütəmadi olaraq gerçəkləşdirilən və daim yağı qüvvələrin diqqət mərkəzində qalan bir xətdir ki, gah terror,

gah deportasiyalar, gah qanlı repressiyalar və sürgünlər, gah kütləvi qırğınlarla müşayiət edilib.

Təəssüflər ki, əsiri olduğumuz gözüqıpıq, dilikəsik sovet onillərində bizə bu haqda danışmaq və yazmaq imkanı verilməmişdi.

Ermənilər onlara qarşı guya türklərin 1915-ci ildə törətdiklərini iddia etdikləri uydurma soyqırımı ilə bağlı Sovet İttifaqının özündə ayrıca kitablar nəşr edə bildikləri halda, biz real tarixi faciələrimizi bəyan etmək imkanından məhrum qalmışdıq.

Bizə tarixi faciələrimiz, millətimizə yönəlik erməni soyqırımı ilə bağlı həqiqətləri millətimizə və dünyaya sübutları, dəlilləri ilə çatdırmaq üçün əsr, minillik dəyişməliymiş.

Geniş miqyasda məhz XXI əsrdə, 2000-ci illərdən etibarən biz bu qəmli səhifələri  dünya boyunca ictimailəşdirmək fəaliyyətlərinə başladıq.

Yeni əsrin, üçüncü minilliyin lap başlanğıcında, 2001-ci ilin yanvar ayında Azərbaycan dünyanın ən mötəbər və nüfuzlu təşkilatlarından olan Avropa Şurası Parlament Assambleyasına həqiqi üzv qəbul edildi. Həmin ilin aprel ayından, Asssambleyanın yaz sessiyasından etibarən biz bu qurumda sənədlər hazırlamaq, çıxışlar etmək səlahiyyəti qazandıq.

Hazırladığımız ilk sənəd isə Ermənistanın Azərbaycana qarşı onillər boyu sistemli şəkildə apardığı soyqırımı siyasəti ilə əlaqədar idi.

Aprelin 22-də Böyük Britaniyadan olan deputat, daha əvvəllərdən tanıdığım cənab Con Taylor mənə yaxınlaşaraq (bu mərd, prinsipial, vücudunda terror cəhdlərindən saxlanc olan qəlpələri daşıyan obyektiv insan az sonra "lord" titulu aldı və soyadı da dəyişib Kilkloni oldu) ermənilərin 24 apreldə yayacağı təhlükəli sənəd barədə xəbər verdi, diqqətlə oxuyandan sonra imza atacağı bəhanəsi ilə götürmüş olduğu həmin mətnin surətini də mənə təqdim etdi. Məsləhət gördü ki, türkiyəli deputatları da cəlb edərək qabaqlayıcı tədbirlər görməyə çalışaq.

Bu, "Türkiyənin ermənilərə qarşı törətdiyi soyqırımının tanınması haqqında" yazılı bəyannamə idi.

Mən xəbəri Türkiyə nümayəndə heyətinə də, Strasburqdakı daimi nümayəndəliyimizə də, öz deputatlarımıza da çatdırdım.

İlk reaksiya belə oldu ki, ermənilər artıq sənədi hazırlayıb, kifayət qədər də imza yığıblar. Praktik olaraq bunun qarşısını almaq mümkün deyil.

Söylədim ki, həmin sənədin irəliləməsinin qarşısını almağın yolu var. Biz də ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları haqqında eyni tipli sənəd hazırlayaq. Onda Assambleya bu sənədlərin ya hər ikisini müzakirəyə çıxarmalı olacaq, ya da hər ikisinin elə bu mərhələdə dayanmasını lazım biləcək.

Buna da etirazlar oldu ki, ermənilərin burada əlləri uzundur, onlar imza toplaya bilərlər, bizə isə Türkiyədən başqa dəstək verən olmayacaq.

AŞ PA-dakı ilk nümayəndə heyətimizin rəhbəri sonralar Azərbaycan dövlətinin Prezidenti olacaq cənab İlham Əliyev idi. Bu vəziyyət barədə ona məlumat verincə tərəddüd edənlərin, niyyətimizin uğuruna şübhəylə yanaşanların əksinə olaraq dərhal mətni tərtib etməyi tapşırdı.

Mətni hazırlamağın öz çətinlikləri vardı. Yazılı bəyannamədə, Assambleyanın Nizamnaməsinə görə, sözlərin sayı 200-dən artıq olmamalı idi. Və bu məhdud çərçivədə Azərbaycana qarşı erməni təcavüzü, sovet repressiya və deportasiyaları, soyqırımının bütün mərhələlərini əks etdirmək nə qədər çətin olsa da, bir neçə saat sonra ilk layihəni hazırlayaraq rəhbərimizə təqdim etdim. Cənab İlham Əliyev oxudu, bəyəndi və ilk imzanı da bəyannaməyə özü atdı.

İlk dəfə 2001-ci il aprel ayının 26-da ingilis və fransız dillərində nəşr edilərək yayılan, həmin ilin 14 mayında növbəti dəfə tirajlanan həmin sənəd budur: **"Ermənistanın azərbaycanlılara qarşı soyqırımının tanınması haqqında.** ***Yazılı bəyannamə.***

**Azərbaycan torpaqlarının 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə bölünməsindən başlayaraq soyqırımları Azərbaycan tarixinin ayrılmaz parçasına çevrilmişdir.**

**"Böyük Ermənistan" yaratmaq xülyasına düşən ermənilər 1905-1907-ci illərdə Azərbaycan xalqına qarşı soyqırımı törətmişlər.**

**1918-ci ilin martında ermənilər Azərbaycanın Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və digər bölgələrində azərbaycanlıları kütləvi qətllərə məruz qoymuşlar.**

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 83370

**Sovet rejiminin dəstəyi ilə Ermənistan 1920-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini və digər torpaqlarını ələ keçirmişdir.**

**Kommunist rejimi 1948-1953-cü illərdə azərbaycanlıları Ermənistanda tarixən yaşamış olduqları torpaqlarından Azərbaycana deportasiya etmişdir.**

**1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanmasından sonra yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından zorla çıxarılmışdır.**

**1992-ci il fevralın 26-da ermənilər Xocalının bütün əhalisini soyqırımına uğradaraq şəhəri tamamilə dağıtmışlar.**

**Dağlıq Qarabağdakı erməni separatizmi və Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi nəticəsində minlərlə insan həyatını itirmiş, 1 milyona yaxın insan qaçqına və məcburi köçkünə çevrilmişdir.**

**Avropa Şurası Parlament Assambleyasının bütün deputatlarına müraciət edərək Assambleyanın aşağıda imza edən üzvləri Ermənistanın XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan xalqına qarşı törətdiyi soyqırımının tanınması üçün zəruri addımları atmağa çağırır".**

Hazırladığımız bu ilk və qəbul edilməsi, həmfikirlər tapılaraq imzalanması inanılmaz kimi görünən sənədin irəliləməsində bizə dəstək verənləri minnətdarlıqla xatırlamaq lazımdır. Təbii ki, Türkiyə bizimlə idi və imzaların çoxu da onlardan gəlmişdi. İndi Türkiyə Prezidenti olan Abdullah Gül o vaxt imzasını aldığım türkiyəli deputatlardan biri idi. Assambleyanın Türkiyədən olan ən qocaman və ən stajlı üzvü deputat cənab Akçalı da bizi qəlbən müdafiə edənlərdən idi.

Sənədi Albaniyadan, Böyük Britaniyadan, Lüksemburqdan, Polşadan, Bolqarıstandan, keçmiş Yuqoslav respublikası Makedoniyadan, Norveçdən olan və Assambleyadakı Sosialist qrupunu, Avropa Xalq Partiyası qrupunu, Avropa Demokratları qrupunu, Liberal, Demokratik və İslahatçılar qrupunu, Avropa Solları qrupunu təmsil edən və siyasi qruplarda üzv olmayan müstəqil deputatlar – cəmi 30 nəfər imzalamışdı.

Amma imza almaq üçün müraciət etdiyim deputatlar onlarla deyil, yüzlərlə olmuşdu.

Hər birinə yaxınlaşır, 5-10 dəqiqə hadisələrin mahiyyətindən bəhs edir, tarixi faktları gətirir, həmfikir olmalarını rica edirdim. Hələ tək-tək deputatlarla tanışlığımız vardı. Hər imza sanki daşdan çıxırdı.

Yaxınlaşaraq imza istədiklərimdən biri Azərbaycana bədxah münasibətilə sonradan hər kəsə bəlli olan Andreas Qross idi. O, bir neçə gün əvvəl artıq erməni lobbisi tərəfindən hazırlanmış və guya türklərin ermənilərə qarşı törətdikləri qondarma soyqırımının tanınması haqqında sənədə imza atmışdı. A.Qrossa üz tutub XX əsrin əvvəlində baş verən hadisələrlə bağlı, yetərincə mübahisəli olan erməni iddiaları əsasında hazırlanmış sənədə imza atdığını xatırladaraq lap yaxın tarix içərisində cərəyan etmiş, bütün sübutları ortada olan Xocalı soyqırımının da haqqında bəhs edilən sənədimizə imza atmasını istəmişdim. Bozarmışdı: “Xocalıda baş verənlər soyqırımı deyil, müharibədə insanlar ölüb, bu, təbiidir. Ermənilərə qarşı türklərin törətdikləri isə əsl soyqırımıdır!” – demişdi.

O zamanlar AŞ PA-nın Siyasi komitəsinin sədri olan, sonralar Avropa Şurasının Baş katibi vəzifəsinə ucalan böyük siyasətçi, qiymətli şəxsiyyət, ingiltərəli Terri Devis isə təqdim etdiyim sənədi tutduğu rəsmi vəzifənin yaratdığı maneələrə rəğmən imzalamışdı.

İlk dostlarımızı, ilk açıq və qapalı bədxahlarımızı elə o vaxtdan tanımağa başlamışdıq.

Bu sənəd bir tarixdir. Beynəlxalq təşkilatlar çərçivəsində hazırlanmış və Azərbaycana qarşı erməni soyqırımlarının bütün xronolojisini əks etdirən ilk sənəd. Və indi uzaqda qalmış 2001-ci ilin aprelində həmin vacibdən-vacib sənədin yaranmasına ilk növbədə cənab İlham Əliyevin qətiyyəti səbəb olmuşdu.

Tarixi şəxsiyyətlərin gücü və böyüklüyü onların məhz mühüm tarixi məqamlardakı cəsarəti, çox düşünüb götür-qoy etməyə macal olmayan qəfil anlarda qəbul etdikləri qərarların uzaqgörənliyi, gələcək üçün siqləti və həlledici faydası ilə ölçülür.

Prezident İlham Əliyev müstəsna azərbaycanlı, unudulmaz Heydər Əliyevin oğludur.

Heydər Əliyevə anası Heydər adını azərbaycanlılara qarşı ermənilərin XX əsrin ilk onillərində törətdikləri soyqırımları zamanı həlak olmuş

qardaşının şərəfinə vermişdi. Və böyük dövlət adamı Heydər Əliyev yaxşı bilirdi ki, hansı taleyi yaşamış dayısının adını daşıyır.

Prezident İlham Əliyevin də oğlunun adı Heydərdir. Və o adla bağlı şəcərə tarixçələrini Prezident İlham Əliyev də yaxşı bilir.

Təfərrüatları ilə agahdır ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımları yalnız doğma millətinin deyil, bilavasitə öz nəslinin, ailəsinin də taleyindən keçir.

Elə həmin səbəbdən də Prezident İlham Əliyevin qızı Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi və çox uğurlu bəhrələr verən «Xocalıya Ədalət!" hərəkatı həm ən içdən gələn vətənpərvərlik duyğularının hökmü, həm də damarlarında axan qanın diktəsi kimi qavranılmalıdır.

... "Xocalıya Ədalət!" əslində "Azərbaycana ədalət!" deməkdir. Xocalı faciəsini dünya boyunca bir soyqırımı olaraq tanıtmaq həqiqətdə dünya erməniçiliyinin vətənimizə və millətimizə qarşı onillər boyu apardığı soyqırımı siyasətinin anatomiyasını açmaqdır.

Bu yolda əməyi olan hər insan ehtirama layiqdir. Doğrudur, bir tərəfdən bu, hər yurddaşın mənəvi borcudur, lakin həmin övladlıq borcunu şərəflə, mübarizliklə, ardıcıllıqla yerinə yetirənlərin zəhmətlərini də dəyərləndirmək gərəkdir.

Dəyərli alimimiz Rövşən Novruzoğlunun bu səmtdəki çalışmalarına ən yüksək tariflər yaraşır.

Onun son illərdə işıq üzü görən hər araşdırması erməni məkri və erməni zülmünün murdar batinini açan ittihamnamələrdir.

1990-cı illərin əvvəllərində Azərbaycana qarşı erməni təcavüzü addım-addım irəlilədiyi vaxtlarda bizim ən kəsirli cəhətlərimizdən biri dünyadakı informasiya savaşında uduzmağımız idi.

Əlbəttə, bunun tarixi səbəbləri vardı. Yetərincə təşkilatlanmış, qol-qanad atmış erməni lobbisi dünya boyunca, o sıradan Sovet İttifaqında da zülmə məruz qalmış, məzlum erməni obrazını yarada bilmişdi.

Bu blokadanı yarmaq üçün illərcə çox əziyyətlər, zəhmətlər çəkəsi olduq. Məhz həmin 1990-cı illərdə Rusiya mətbuatında – "İzvestiya" qəzetində, "Oqonyok" jurnalında, bütün maneələrə baxmayaraq bu istiqamətdə mütəmadi səy göstərənlərdən, can yandıranlardan biri də jurnalist Vasif Səmədov idi.

İnanıram ki, uzaq gələcəyin işi deyil – mütləq və mütləq indiki günlərimizdə dünyanı daimi nigarançılıqda saxlayan terrorizm, narkoticarət, insan alveri kimi bəlalardan daha dəhşətli olan erməniçilik ədalət məhkəməsi qarşısında dayanmalı olacaq, Nürnberq məhkəməsi kimi bir divan Ermənistan və onun terrorçu dövlət siyasətinə də qurulacaq.

Qarşınızdakı kitab kimi əyrini əyri, düzü düz nişan verən ittihamçı və ifşaçılar ədalətin zəfər çalacağı həmin qisas, cavabvermə, cinayətə görə labüd cəza anlarını gətirən mötəbər vasitələrdən olacaq.

Vaxtilə mən Strasburqda, Avropa Şurası tribunasından çıxış edən keçmiş Ermənistan prezidenti Robert Koçaryana müraciətlə sual vermişdim: "Siz mətbuata verdiyiniz, rəsmən dərc edilmiş müsahibənizdə Dağlıq Qarabağda, o cümlədən Xocalıda keçirilən hərbi əməliyyatlarda iştirakınızla fəxr etdiyinizi etiraf etmiziniz. Orada dinc əhali, qadınlar, qocalar, uşaqlar da amansızca qətlə yetirilmişlər. Bunlarla da fəxr edirsinizmi?"

Mentalitetinə və xəbis varlığına xas olan sinizmlə sırtıqcasına cavab vermişdi ki, bu, müharibədir, hər şey ola bilər.

Köhnə qələm dostlarım Vasif Səmədov və Rövşən Vəlizadənin yazdıqları "Leyla Əliyevanın «Xocalıya Ədalət!" çağırışı Beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni strateji modeldir" əsəri, bu iki cildli kitabda ortaya qoyulan bir-birindən ifşaedici, bir-birindən danılmaz sübutlar, məntiqi dəlillər, bütün bəhanələri kəsən sənədlər bir daha isbat edir ki, yox, bunlar sadəcə müharibə gedişatındakı epizodlar deyil.

Xocalı faciəsi ermənilərin və erməniçiliyin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla bərabər, beynəlxalq terrorizmin ən qəddar örnəklərindən biri, insanlığa qarşı indiyəcən törədilmiş cinayətlərin ən ağırlarındandır.

Bizim özümüzün düşmənlərimizi bütün ayrıntıları ilə bir qədər də yaxşı tanımağımız, dünyanın da bizim hansı düşmənlə üzbəüz olduğumuzu bir qədər də dəqiq bilməsi üçün bu kitabın cildləri ən mötəbər körpülərdəndir.

Hər kitab doğruçuluğu və saxtakarlığından asılı oımayaraq artıq özlüyündə bir tarixdir. Çünki kitablar nə qədər vicdanla yazılmasına dəxli olmadan yaşayır və gələcək zamanlar içərisində də öz yaxşı, yaxud yaman işlərini davam etdirirlər. Əgər saxtakarlıqlar, uydurmalar əsasında yazılıb-

larsa, gələcəkdə eyni məqsədlərlə onlara istinad edənlərə yardımçı olaraq riyanı, təhrifi bir qədər də dərinləşdirirlər, ya da əsl həqiqətlərdən bixəbərləri çaşdırmağa, azdırmağa qadir olurlar. Namusla, insafa söykənərək, hər faktı vasvasılıqla araşdıraraq yazılmış kitablarsa, gələcək içərisində də nəcib fəaliyyətlərini icra edir, qəflət yuxusunda olanları oyadır, həqiqi salnamə kimi arxada qalmış dövrlərin və hadisələrin əyintisiz, güzəştsiz, dürüst mənzərəsini yaradır. Ən çeşidli istiqamətlərdə növ-növ rəzalətlər törətməkdə həmişə pərgar olmuş erməniçilik dünya kitab və mənbələr tarixinə də öz xəbis, çaşdırıcı, irinli izlərini əsrlərdir ki, buraxmaqdadır. Həyasızca ağı qara, qaranı ağ kimi nişan verən yüzlər və minlərlə məqalələri, kitabları tirajlayaraq ölkə-ölkə yayıblar, fitnələri lap çox qol-budaq atsın deyə həmin nəşrləri neçə-neçə dillərə də çeviriblər. Özlərinin və muzdla tutulmuş özlərinəbənzər əcnəbilərin əyri əlləriylə onlara qarşı guya türklərin törətdikləri olmamış soyqırımları haqqında kitabxanalar dolduran qəlp yazılar silsiləsi quraşdırblar. Həmin qaxsımış yalanlar bataqlığının və davam edən hiylə, şər püskürməsinin qarşısına məhz bu cür – təməlində, nüvəsində haqq, ədalət, danılmaz dəlil və sübutlar dayanan ağıllı kitablarla çıxmaq lazımdır.

Bu kitabı oxumaq çox ağırdır.

Bu dərdləri yaşamaq və daşımaq ondan da ağırdır.

Amma bu Sərt Üzlü Şahidlərin – bu cildlərin – erməni cinayətkarlara və onların havadarlarına vurduğu damğa daha ağırdır.

Çünki kitablar zaman-zaman yaşayır və hər gələn yeni nəsillərə gerçəkləri yetirir.

Bu kitabın, bu cildlərin çatdırdığı həqiqətlərsə həmişə Xocalı faciəsini törətmiş cinayətkarlara nifrət, ikrah, kin oyadacaq.

Əbədi nifrətdən müdhiş nə cəza ola bilər ki!

**Rafael HÜSEYNOV,**
***millət vəkili, AMEA-nın müxbir üzvü,***
***filologiya elmləri doktoru, professor***

*BAŞ ELMİ MƏSLƏHƏTÇİDƏN*

# "XOCALIYA ƏDALƏT!" ÇAĞIRIŞININ TARİXİ KÖKÜ

**Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır...**

**HEYDƏR ƏLİYEV**



Tarix boyu belə olub: dərk olunmayan həqiqət və yaxud dərdə çevrilmiş ədalət. Elə bir dərdə ki, insan, həqiqi bəşər övladı ona qarşı mübarizə meydanlarına atılmış, amma ölüm-dirim savaşında məğlub olmamışdır. İnsan Hüquqları İnstitutunun yaradıcısı mərhum professor Rövşən Mustafayev "Azərbaycan dövlətçiliyi" kitabında yazır: "...Azərbaycan torpağı, onun isti qucağı lap qədimlərdən bəri insanları özünə cəlb etmişdir. Minlərlə insan axını bu torpaqdan keçərək vəcdə gəlmiş, yeni ilham, yeni ideyalar almışdır. Od ətrafında gələcək barədə dərin-dərin düşüncələr içində yeni təlimlər doğularaq zəvvarlara verilmiş, onların vasitəsilə də dünyaya yayılmışdır.

...Və əgər əvvəllər bizim məmləkətə yeni fikir, yeni ideya dalınca gəlirdilərsə, indi bu torpağa, onun hər qarışına acgöz ehtiraslı xəyanətkar əli uzanmışdır. Azərbaycan atəşini söndürmək istəyiblər.

Öz tarixinin qan yaddaşına bir çox mədəniyyətləri və dinləri köçürən, dünyanı rəngarənglik spektoru kimi dərk edən bizlər üçün bir

şey aydındır: **vətən və vətəndaşlıq ideyası hər şeydən ucadır.** Dünyanın tarixi də bu həqiqəti dəfələrlə sübut etmişdir.”

Fransanın tərəqqi əsrinin (XV əsrin sonu – XVI əsrin əvvəli) siyasi olimpinin ən ciddi şəxsiyyəti sayılan Nikollo Makiavelli demişdir: **“Söhbət vətən və vətəndaşlıq borcundan gedəndə nəyin ədalətli, nəyin ədalətsiz, nəyin xeyirxah, nəyin qəddar, nəyin təqdirəlayiq, nəyin biabırçı olması fikrinə qətiyyən əhəmiyyət verilməməlidir. Hər şeyi yaddan çıxarıb, yalnız ölkənin varlığını və azadlığını xilas etmək üçün fəaliyyət göstərmək lazımdır”**.

Qarşımızdakı bu kitab zaman-zaman dövlətçiliyimizə zərbələr endirən, onun ünvanına şər və böhtanlar deyən, torpağını, milli-mənəvi xəzinəsini oğurlayan, adamlarını güllədən və süngülərdən keçirən, yurd yerlərini xarabazara çevirən və bütün bunlardan ləzzət alanlara... daxili və xarici düşmənlərə, Beynəlxalq terrorun bir qolu olan Erməni Terror Birləşmələrinə, erməni silahlı birləşmələrinə və separatçı dəstələrinə qarşı qəzəb və nifrətlə yazılıb. Əslində bu kitab Xocalıda törədilən cinayətlərin, terror hadisələrinin, bir sözlə, bəşəri nifrətə layiq erməni vandalizminin anatomiyasıdır.

Mən sülhsevər insanları, ərazi və ölkələri təlatüm və səksəkədə, qorxu altında saxlayan Beynəlxalq terrorun bir qolu olan erməni terroru ilə bağlı Azərbaycanda öz diplomatik missiyalarını yerinə yetirən Avropanın, eləcə də, qərbin nüfuzlu diplomatlarına, ictimai-siyasi xadimlərinə, NATO generallarına belə bir sual verdim: hər il ABŞ Dövlət Departamenti tərəfindən dünyada mövcud olan terror təşkilatlarının adları açıqlanır, xüsusi siyahılar tərtib olunur. Amma hansı səbəbdənsə türk dünyasında, eləcə də, Avropada, Asiyada, Afrikada... nəhayət Qərbin bir sıra ərazilərində və Azərbaycanın Dağlıq Qarabağ ərazisində, xüsusən Xocalı yaşayış məntəqəsində insanları vəhşicəsinə, xüsusi amansızlıqla məhv edən, kütləvi qırğınlar və soyqırımlar törədən, bir milyon vətəndaşımızı yurdundan didərgin salan, mədəni, mənəvi dəyərlərimizi məhv edən, insanlarımızı mənəvi, fauna və floramızı ekoloji terrora məruz qoyan bədnam “ASALA”, “DPO”, “Haydad”... kimi terrorçu dəstələrin və qruplaşmaların adları həmin sənədlərdə qeyd olunmur. Nə üçün? Sonradan bu sualın cavabı bizim üçün aydın oldu. Yəqin etdik ki, bu sənədlər ABŞ Dövlət Departamentində elə ermənilər tərəfindən hazırlanır.

Azərbaycan xalqı artıq bu yanaşmanı yaxşı dərk edir... Şübhə etmirəm ki, belə ikili yanaşma çox uzun sürməz. İşğalçı dövləti və onun terrorçu qruplarını himayə edənlərə bütün bunlar başucalığı gətirmir. İnsanları indi aldatmaq mümkün deyil.

Bu kitablar dünyaya kimin kim olduğunu bir daha açıb, göstərir, əsl terrorçuları və onların maliyyə mənbələrini, eləcə də onları dəstəkləyənlərin əsl xislətini ifşa edir. ABŞ Konqresinin və Dövlət Departamentinin kitabxanalarına, “The Washington Post” (ABŞ) qəzetinə Beynəlxalq terrorla, onun bir qolu olan erməni terroru ilə bağlı çox mühüm sənədlərin açıqlamasını verən Azərbaycan Milli Təhlükəsizlik Nazirinin müavini, general-mayor Hafis Musayev fikirlərində xatırladır: “...Azərbaycan həmişə sülhün və ədalətin keşiyində olub. Bizim torpaqlarımız və insanlarımız hər cür terrora məruz qalıb. Azərbaycan Sizlərdən nə istəyir?.. İstəyir ki, hər kəsi öz adı ilə çağırasız. Terrorçu dəstələrin siyahısı hazırlanarkən, ermənilərin bir qayda olaraq, törətdikləri cinayətlərin əsl mahiyyəti açılıb, göstərilsin. Mən Konqres kitabxanasında Amerika xalqı üçün bir kitab qoydum. İstərdim xalq o kitabı oxusun... O həqiqəti, Xocalı ədalətini, Qarabağ həqiqətini dərk etsin.”

Kitablarda qoyulan mövzunun yaddaşlardan silinməyən uzun bir tarixi olsa da, bu mövzuya yanaşma xətti, onun ideyası yenidir. Artıq dünyada özünə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun Vitse-Prezidenti, Fondun Rusiya Federasiyasındakı Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!” çağırışına münasibət əvvəlki illərdən tam fərqlidir.

Dünyanın terror tarixində qeyd olunur ki, Beynəlxalq terrora qarşı cəmi yeddi strategiya mövcuddur. Heç kəs şübhə etməsin ki, yaşadığımız yüzillikdə yaranmış bu strategiya tarixdə məhz “Leyla Əliyeva strategiyası” kimi qalacaq, təhlil olunacaq.

Erməni terrorçuları işğal etdikləri Azərbaycan torpaqlarında, Dağlıq Qarabağın yaşayış məntəqələrində, xüsusi ilə Xocalı ərazisində kütləvi qırğınlarla törətdikləri qenosidə görə BMT sənədlərinin, Konvensiya və qərarların, layihə və planların, müharibə və işgəncələr əleyhinə çıxarılan hökmlərin, direktivlərin üstündən saymazyana xətt çəkməli oldular. İnsan hüquqları ilə bağlı bütün beynəlxalq öhdəliklər tamamilə pozuldu. Xocalıda pozulan insan hüquqları sahəsindəki beynəlxalq normativlərə

gəlincə, onlar belə qeyd edilir: – İnsan hüquqları sahəsində əsas baza prinsiplərini əks etdirən beynəlxalq müqavilələr. Məsələn, BMT Nizamnaməsi; 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə; BMT Nizamnaməsinə müvafiq olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququn prinsipləri haqqında 1970-ci il tarixli Bəyannamə; 1975-ci il tarixli ATƏM-in Helsenki Yekun Aktı və s;

- İnsan hüquqları sahəsində ümumi (universal və regional) normalar. Məsələn, İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Pakt; Mülki və siyasi hüquqlar haqqında 1966-cı il tarixli Beynəlxalq Pakt; İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il tarixli Avropa Konvensiyası; İnsan və xalqların hüquqları haqqında 1981-ci il tarixli Afrika xartiyası və s;

- İnsan hüquqları sahəsində ayrı-ayrı münasibətlərin tənzimlənməsinə yönəlmiş normalar (universal və regional): Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası; Köləliyin, qul ticarətinin və köləliyə oxşar institut və ədalətlərin ləğv edilməsi haqqında 1956-cı il Konvensiyası; İşgəncə və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə 1984-cü il Konvensiyası; İşgəncənin və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında 1987-ci il Avropa Konvensiyası və s.;

- Ayrı-ayrı hüquqların və qrup şəxslərin hüquqlarının müdafiəsi istiqamətində qəbul edilmiş normalar: Qadınların siyasi hüquqları haqqında 1952-ci il Konvensiyası; Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası; Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Beynəlxalq Konvensiyası; Milli azlıqların müdafiəsi haqqında 1995-ci il Çərçivə Konvensiyası; Aparteid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Beynəlxalq Konvensiyası; Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyası, Təhsil sahəsində ayrı-seçkilik əleyhinə 1960-cı il YUNESKO Konvensiyası və s.;

- İnsan hüquqları sahəsində tövsiyə xarakterli normalar. Məsələn, İnkişafa olan hüquq haqqında 1986-cı il tarixli Bəyannamə, Yetkinlik

yaşına çatmayan şəxslərə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə dair BMT-nin 1985-ci il tarixli Minimal standart qaydaları; Milli, etnik, dil və dini azlıqlara mənsub olan şəxslərin hüquqları haqqında 1992-ci il Bəyannaməsi və s.

Müəlliflərin bu kitabı nəşr etdirməkdə məqsədləri Xocalı faciəsilə bağlı törədilən qırğınların əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etmək, ikili standart mövqeyində durmuş ayrı-ayrı dövlətləri, bəzi beynəlxalq təşkilatları haqqın səsinə səs verməyə çağırmaq, beynəlxalq qurumların bu faciə ilə əlaqədar və eləcə də insan hüquqları və azadlıqları haqqında qəbul edilmiş qərarlara, müraciətlərə hörmətlə yanaşmaq, həm beynəlxalq hüquq normaları çərçivəsində və həm də əxlaqlı, saf siyasi yanaşma yolu ilə Xocalı faciəsinə hüquqi və siyasi qiymət vermək istəyidir. Hadisələrdə iştirak edən silahlı erməni quldur birləşmələrinin fakt və sənədlərlə ifşa olunması üçün burada kifayət qədər həm daxili, həm də xarici arxivlərdən yığılmış sənədlər vardır.

Müəlliflər bu tədqiqat əsərlərilə Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın «Xocalıya Ədalət!” çağırışına qoşulduqlarını bəyan edir, güclü, təkzibedilməz məntiqi fakt və sübutlar, dəlillər və sənədlərlə bu mövzuda elmi-tədqiqat işləri ilə məşğul olan alimlərimiz, yazıçı və jurnalistlərimiz, siyasətçilərimiz üçün çox zəngin materiallar toplusu yaratmışlar. Bu iki cildlik kitabdan bəhrələnən hər kəs, inanırıq ki, ədalət sorağına çıxmış vətəndaşımız Leyla xanımın bu müqəddəs kampaniyasının aktiv iştirakçılarına çevriləcək, ədalətin təntənəsinə, zəfər çalmasına öz töhfəsini verəcəkdir.

Bu kitabın mahiyyəti göstərir ki, «Xocalıya Ədalət!” çağırışı yeni yüzillikdə beynəlxalq terrora qarşı mübarizədə humanizm dəyərləri üzərində köklənmiş güclü və yeni strateji modeldir. Şübhəsiz, kitabları oxuyan və bunları obyektiv təhlil edən hər kəs bu modelin böyüklüyünü və əhəmiyyətini hiss edəcək, görəcək və gələcək mübarizəmiz, qələbəmiz üçün lazımi nəticələr çıxaracaqdır.

Müəlliflər belə qənaətə gəlirlər ki, «Xocalıya Ədalət!” heç də təsadüfən siyasi meydana çıxmayıb. Onun böyük ictimai-məntiqi

mahiyyəti olduğu kimi, güclü siyasi-fəlsəfi dəyərləri də diqqətdən yayına bilməz.

Əliyevlər ailəsi haqqında xeyli filmlər çəkilib, kitablar nəşr edilib. Amma fikrimcə, milyonlarla insanı, (istər dost olsun, istərsə də düşmən, fərq etməz) tərbiyələndirən, onlara dünyanı dərk etdirən, təmiz, saf əqidə və zəngin mənəvi dəyərlər altında yaşamağa çağıran, zülmə, ədalətsiz işlərə qarşı barışmaz olmağa... çağıran fəlsəfi elementlər, məsələlər, həyat və cəmiyyəti, dövlət və xalqı birləşdirən, sintez edən tezislərdən yaddan çıxanı, toxunulmayanı varsa da, onu axtaranlar bu ailənin timsalında tapa bilərlər.

Düşmən bizim üçün sürgünlər də təşkil etsə, bizləri, övladlarımızı, ailələrimizi diri-diri yandırsa da, kütləvi qətliamlar törətsə də, canımızdakı və qanımızdakı "Vicdan", "Namus", "Millət", "Torpaq", "Şərəf", "Ləyaqət", "Ədalət", "Kişilik"... sözlərini çəkib çıxara bilmədi... Qeyd edim ki, bu sözlərin hər biri Beynəlxalq terrora və onun bir qolu olan erməni terroruna qarşı mübarizədə ən ciddi səngərdir. Mən Əliyevlər ailəsini məhz bu məğlubedilməz səngərdə görürəm. Fikrimcə, dünyada elə bir ikinci nəsil yoxdur ki, dünya şöhrətli siyasətçi və dövlət xadimi ilə yanaşı orada beş nəfər elmin, təhsilin və tərbiyənin ən yüksək pilləsində dayanaraq "Akademik" kimi şərəfli bir adı daşısın. Varmı? Hələki yoxdur... (Şübhəsiz, bütün bunlara düşmən heç vaxt sevinməz). Bu gün Əliyevlər ailəsi də başqa ailələr kimi itirilmiş torpaqlarımız uğrunda, yandırılan və viranə qalan Xocalı haqqında, ümumən Dağlıq Qarabağ haqqında, köçkün və qaçqın insanlar haqqında, tökülən şəhid qanı haqqında... ədalət prinsipilə beynəlxalq kürsülərə yol alıb. Bu ailə dünyaya anlatmaq istəyir ki, yer üzündə, bəşəriyyətə nəfəs verən, ona dayaq olan bir söz də var: "Ədalət". Hələki bu söz düşmən lüğətində yox dərəcəsindədir. Olsaydı onlar bu amansız, qatı cinayətləri törətməzdilər. Mənim fikrimcə, alimlərimiz, tədqiqatçılarımız, elm adamlarımız Azərbaycanın Şərəf və Ləyaqəti uğrunda vuruşurlarsa, ağsaqqallarımız və ağbirçəklərimiz, qadınlarımız kişilərimizlə birlikdə Namus və Kişilik uğrunda döyüşlərə atılıblarsa, cavanlarımız, gənc oğlan və qızlarımız ilə Ədalət və Torpaq uğrunda mübarizədə meydanlardadır. Artıq, ot kökü üstə bitib. Geriyə yol yox dərəcəsindədir. Bu yolu isə Azərbaycana Əliyevlər ailəsi açdı.

Yolun başlanğıcında, ən çətin, keşməkeşli cığırlarında, sıldırımlı, buzlu-qırovlu qayalarında isə... Ulu Öndərimiz Heydər Əliyevin özü dayandı... Ulu Öndər tarixin Şərəf və Ləyaqət kürsüsündə dayanaraq, xalqına, millətinə müraciət etdi, itirilmiş və yaxud erməni terroruna məruz qalaraq işğal olunmuş torpaqlarımızla bağlı xatırlatdı: **"...Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrdə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik nümayiş etdirməliyik. Xalqımıza qarşı törədilə biləcək hər cür xəyanətin və təcavüzün qarşısını hamımız üçün ali məqsəd olan müstəqil Azərbaycan dövləti uğrunda dönməz mübarizə əzmi və iradəsi ilə almaq olar..."**

Fikrimcə, bu siyasi-fəlsəfi müraciətin özəyini xalqa və millətə qarşı ədalətə bərqərar olunması uğrunda aparılacaq mübarizənin nüvəsi təşkil edirdi. O, xüsusən erməni təcavüzünün nəticəsi olaraq itkin düşmüş öz yaxın və əzizlərinin taleyini bu günədək bilməyən, erməni terroruna məruz qalmış minlərlə insanın faciəsini öz faciəsi bilirdi. Xocalı soyqırımını bağışlamaq heç cür mümkün deyildi. Ulu Öndər Heydər Əliyev hər çıxışında, hər görüşündə irqindən, dinindən və dilindən asılı olmayaraq təkrar-təkrar xatırladırdı:"...Ermənistanın təcavüzü başlanandan indiyə qədər təxminən 16 min azərbaycanlı şəhid, tələf olmuş, 22 minə qədər adam yaralanmış, bir milyona yaxın adam isə qaçqın düşmüşdür. İndi qaçqınlarımızın, məcburi köçkünlərimizin sayı bir milyondan artıqdır. Kəndlərimiz, şəhərlərimiz, qəsəbələrimiz viran olmuşdur... Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı faciələrin qarşısının alınmasında, o cümlədən, Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamanki rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar... Faciə haqqında dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı

dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər...”

Dünyanın nüfuzlu Dövlət və siyasi xadimi, Ümummilli Liderimizin bu çağırışı isə bugünkü nəslə, eləcə də gələcək nəslə əsl xəbərdarlıq idi. Düşmən bu xəbərdarlıqdan həmişə qorxub. Məhz buna görə də, Xocalı soyqırımını təsdiq edən fakt və sənədləri təkzib etmək üçün ABŞ-ın və Fransanın erməni diaspor təşkilatları 2003-cü ilin fevralın 26-da Vaşinqtonda bir araya gələrək, iş adamlarını və siyasətçiləri özündə birləşdirən “Xüsusi komitə” yaratdılar. Komitə üzvlərinin vəzifəsi, əsasən, beynəlxalq miqyasda Xocalı ilə bağlı baş verənləri təkzib etmək, bütün günahları Azərbaycanın üzərində saxlamaq idi. Amma alınmadı. Millət artıq oyanmışdı. O, indi ağı qaradan seçə bilirdi. O vaxt dünyanın ən məşhur telekanallarında, mətbuat səhifələrində bəşəriyyət üçün belə bir sual qoyulmuşdu: “Cənablar! Azərbaycanda nə baş verib?..” Və yaxud, “Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalından, külü göyə sovrulan Xocalı olaylarından xəbəriniz varmı?..”

Amma dünya hələ də baş verənlərə biganəliyində idi. Heç nə baş verməmiş kimi, hamı susurdu. Ulu Öndər, artıq Xocalı faciəsinin bütün dünyada tanınması və ona beynəlxalq hüquqi-siyasi qiymətin verilməsilə bağlı, eləcə də bu faciənin təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmağın Milli Fəaliyyət Proqramını vermişdi. Bu proqramın həyatda öz təsdiqini tapması bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuz, digər tərəfdən isə, insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə bir daha təkrar olunmamasına xidmət edərdi.

Bu, Ulu Öndərin qarşısında dayanan, onun taleyinə düşən tarixi bir missiya idi və o, bu missiyanı şərəf və ləyaqətlə yerinə yetirmişdi... Erməni separatçıları isə o vaxt və bu günün özündə belə tələsərək, dünyanın ən məşhur kitabxanalarında Xocalı faciəsini təsdiq edən kəşfiyyat sənədlərini, politoloqların açıqlamalarını, fotoşəkilləri, qovluqları ya məhv edirlər, ya da oğurlayıb, aradan çıxarmaqla məşğuldurlar. Maraqlı idi, bir ayın içərisində (2005-ci ilin aprel ayı) “Böyük Ermənistan”ın ideoloqlarından olan Z.Balayanın dünyanın erməni mətbuatında 36 dəfə çıxışı verildi. Çünki o, qorxurdu. Bu gün də erməni

siyasətçiləri tarixin və Azərbaycanda doğulan yeni nəsillərin üsyanından ehtiyat edirlər. Və yaxud Kaliforniyanın Qlendil şəhər meri Ara Naçaryan ABŞ Prezidenti Barak Obama ilə bir kollecdə oxuduğundan istifadə edərək, Xocalı həqiqətlərini öyrənmək istəyən Prezidentə erməni diasporunun hazırladığı, hadisələri təhrif edən "Xocalı fotoalbomu" vermişdi. Kanadada erməni diasporunun orqanı olan "Abaqa" ("Gələcək") qəzetində isə "Vətən yaddaşlarda" və "Qəriblər evi" cəmiyyətləri Xocalı hadisələrini ört-basdır etməyə cəhd edən ardıcıl yazılar verir, müsabiqələr keçirirdilər. Məsələn, məlumata görə, "Vətən yaddaşlarda" erməni cəmiyyətinin liderləri Avropa Şurasında təmsil olunan erməni millət vəkillərinə ünvanladıqları müraciətlərdə tələb edirdilər: "...Nəyin bahasına olursa olsun, Siz Avropa Şurasının sənədlərindən "işğalçı" sözünü çıxarmağa çalışın. Bu da sizlərin erməni xalqı önündə ən böyük missiyanız olardı..."

Azərbaycanda böyük quruculuq işlərini və Ulu Öndərin siyasi proqramlarını, dövlətçiliyimiz üçün vacib olan ideyaları cəsarətlə həyata keçirən Prezident İlham Əliyevin Xocalı hadisələrinə yanaşma metodu zamanın tələblərinə uyğun olaraq, ardıcıl, kəskin və barışmaz oldu. Faktiki Xocalı soyqırımı Azərbaycanın yanacaq resurslarında gözü qalan Avropanın, Asiyanın, Amerikanın, Afrikanın... neft və qaz səltənəti hesab etdikləri Azərbaycan adının geniş mənada Azərbaycanın haqlarını müdafiə edən hüquqi, siyasi qiymət verilməsi ədalətli yanaşma baxımından heç də asan məsələ deyildi. Dini və iqtisadi maraqların toqquşduğu, baş-başa dayandığı məqamlar hiss olunmaqda idi. Ata Heydər Əliyev siyasi kursunun oğul İlham Əliyev tərəfindən ardıcıl, zamanın tələblərinə uyğun olaraq cəsarətlə, şərəflə davam etdirilməsi erməni diaspor təşkilatlarını faktiki olaraq iflic vəziyyətində qoymuşdu.

Bakıda Heydər Əliyev Fondunun yaradılması isə, erməni hakimiyyətini, beynəlxalq aləmdə erməni separatçılarını çaşdırdı. Ermənilər bundan sonra dünyada anti-Azərbaycan təbliğatını daha da genişləndirmək məqsədi ilə yeni strateji taktiki seçimlər etmək zəruriyyətilə üzləşdilər.

Prezident İlham Əliyev isə Xocalı faciəsilə bağlı fikirlərini bir daha açıqladı: "Haqq anı gəlib çatmışdır. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat, beynəlxalq birlik tərəfindən mə-

suliyyətə cəlb olunmalıdır. Azərbaycan terrorizmdən çox əziyyətlər çəkmişdir. Ermənistanın təcavüzü başlandığı andan erməni terrorçu qrupları tərəfindən Azərbaycana qarşı 32 terror aktı törədilmişdir. Erməni terrorçularının Azərbaycan xalqına qarşı törətdiyi terror aktları Ermənistan silahlı qüvvələrinin Azərbaycana genişmiqyaslı təcavüzünün əsas elementlərindən biridir. Bu terrorizmin nəticəsi kimi on minlərlə azərbaycanlı öldürülmüş, bir milyon adam qaçqın vəziyyətinə düşmüş, Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur".

Bu elə bir vaxtda deyilirdi ki, onda Heydər Əliyev Fondunun Prezidenti, Millət vəkili Mehriban xanım Əliyeva yeni bir missiyanı dünyada həyata keçirməkdə idi. Mehriban xanım dünyanın ən ali məclislərində, yığıncaq və simpoziumlarda, konfranslarda insanlara və bəşəriyyətə sülh və əminamanlıq arzulayan Azərbaycan xalqının qədim və zəngin tarixi, mənəvi dəyərlərindən, bugünkü nailiyyətlərindən... danışır, onu təbliğ edir, dünya dövlətləri ilə yanaşı öz imzasını qoyurdu. Şübhəsiz, bu imza sözün əsl mənasında düşməni sarsıdan, paxıl və xainləri mənən sındırıb nəfəsini kəsən Azərbaycan imzası idi...

Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva isə tamam başqa bir missiyanı icra edir. O, artıq «Xocalıya Ədalət!" çağırışını ideoloji bir bazaya çevirmişdi. Bu çağırış, doğrudan da Beynəlxalq erməni terroruna qarşı mübarizədə güclü strateji bir model kimi diqqəti cəlb etdi.

Xatırladım ki, müəlliflərin ərsəyə gətirdikləri bu iki cildlik kitab elmi-tədqiqat əsəri kimi Beynəlxalq erməni terrorizminin vəhşiliklərini, cinayətlərini təsdiq və ifşa edən şahid ifadələri, sənədlər, sübutlar və s. faktlar toplusu kimi diqqəti cəlb edir. «Leyla Əliyevanın «Xocalıya Ədalət!» çağırışı Beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni strateji modeldir» adlı kitabı müəlliflərin vətəndaş yanğısıyla apardıqları gərgin elmi axtarışları, zəhmətləri sayəsində ərsəyə gətirib, dünya ictimaiyyətinə, tariximizə, gələcək nəsillərə təqdim etdikləri dəyərli töhfəsidir.

Həyat davam edir. «Xocalıya Ədalət!" artıq dünyanı gəzir, beynəlxalq kürsülərdən insanları haqsızlığa, zülmə və zülümkarlığa, terrorçuluğa... qarşı mübarizəyə çağırır.

Azərbaycan tarixinin qan yaddaşından qarşımızdakı bu kitabların səhifələrinə köçürülmüş erməni şovinistlərinin müxtəlif dövrlərdə xalqımıza qarşı törətdikləri fiziki, mənəvi, ekoloji terrorlar faktlarını təsdiq edən sənəd və sübutlarla tanış olduqca onlara qarşı nifrətimizi bir daha artırır. Bu tarixi vəhşilikləri, Xocalı soyqırımını törədən cinayətkarların və onların havadarlarının Beynəlxalq tribunallarda mühakimə edilib cəzalandırılmaları üçün qüvvələrimizi səfərbər edib, beynəlxalq hüquq normaları çərçivəsində torpaqlarımızı erməni təcavüzkarlarından azad etməliyik. Bu istiqamətdə Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin xalqımızın istəkləri üzərində bünövrəsini qoyduğu siyasi, strateji və tarixi kurs prezidentimiz İlham Əliyev başda olmaqla dövlətimiz, hökumətimiz tərəfindən mütəşəkkil, ardıcıl və inamla həyata keçirilir.

«Xocalıya Ədalət!» kampaniyasının yüksək səviyyədə təşkil edilib keçirilməsi nəticəsində bir çox dövlətlərdə haqq, ədalət naminə ictimai fikrin formalaşması rəsmi dairələrdə də bu məsələyə tarixi həqiqətlər baxımından yanaşma zəruriyyəti yaradırdı. Belə ki, müəlliflərin qeyd etdiyi kimi, 18 il ardıcıl olaraq Ağ Ev üçün ABŞ Dövlət Departamentinin hazırladığı «Beynəlxalq Terror Təşkilatlarının Siyahısı»na «ASALA» Erməni Silahlı Terror Birləşməsinin adı salınmırdı. Niyə? Nə üçün? Məgər dünya birliyi «ASALA» erməni terror təşkilatının mövcudluğundan, törətdiyi terror aktlarından, cinayətlərdən, erməni vandalizmindən xəbərsiz idimi? ABŞ-dakı erməni diasporu, lobbisi və digər ictimai təşkilatları, erməni iş adamlarının yaratdıqları maliyyə mənbələri, xüsusilə Erməni Milli Azadlıq cəbhəsinin üzvləri «ASALA»nın bu rəsmi siyahıya salınmasına maneçilik törədirdilər. Maraqlı bir fakt diqqəti cəlb edir, demə terror təşkilatların siyahısının ABŞ-ın Dövlət Departamentində Mərkəzi Kəşfiyyat İdarəsinin polkovniki, milliyyətcə erməni olan Martin Abramyan adlı şəxs hazırlayırmış. 2013-cü ilin oktyabrında Martin Abramyan öz vəzifəsindən uzaqlaşdırılır və sonra «ASALA» Erməni Terror Təşkilatının adı ABŞ Dövlət Departamentinin hazırladığı «Beynəlxalq Terror Təşkilatlarının Siyahısı»na salınır. Ümid edirik ki, ABŞ-ın MKİ-si «ASALA»nın tam ifşası üçün özünün arxiv materiallarını dünya ictimaiyyətinə açacaqdır.

"Ədalət" sözü müqəddəs kəlmədir. Misir ehramlarının birində hansısa bəşər övladı öz qanı ilə, kimlərdənsə öyrənib, əzbərlədiyi "Mən ədalət istəyirəm" ifadəsini yazmışdı...

Ənənəyə fikir verin: Ulu Öndər Heydər Əliyev... Prezident İlham Əliyev... Heydər Əliyev Fondunun Prezidenti, UNESKO və İSESKO-nun sülhməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva... və Fondun vitse-prezidenti, RF-dakı Moskva Nümayəndəliyinin rəhbəri, "Xocalıya Ədalət!" çağırışının təşəbbüskarı və təşkilatçısı Leyla xanım Əliyeva... Bütün bunlar ədalətin bitib-tükənməyən təntənəsi, müdriklərimizin söylədikləri «Ot kökü üstə bitər» zərb-məsəlinin mahiyyəti, fəlsəfəsidir.

Eləcə də, bu düşündüklərimiz, qələmə aldıqlarımız və təhlillərimizin nəticələri "Ot kökü üstə bitər" fəlsəfəsinin davamıdır. Həmçinin, bütün bu tarixi ənənədə ədalət axtarışı, ədalət istəyi olub. Vaxt, zaman gələcək ədalət istəyini pozan, onu dağıdıb, məhv edənlər üçün... bütün bunlar dözülməz zülm və işgəncə zəncirlərinə çevriləcək... Azərbaycan xalqının düşmənlərinin mühakiməsi üçün tarixin Nürnberq məhkəməsindən də qorxulu məhkəmələr qurulacaq. Mən buna inanıram. Leyla xanım Əliyevanın "Xocalıya Ədalət!" çağırışının təntənəsinə inanıram.

**Aytən Mustafayeva**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**AMEA-nın İnsan Hüquqları İnstitutunun**
**Direktoru, hüquq üzrə fəlsəfə doktoru**

***YADDA SAXLA, VƏTƏN ÖVLADI!***

## ƏZƏLİ, ƏBƏDİ TORPAĞIMIZ QARABAĞ!

Dünyanın görkəmli alimləri Azərbaycanı təbii muzey adlandırmışlar. Bu muzeyin ən unikal mərkəzi Qarabağdır. Kür və Araz çaylarının bərəkətli aralığında yerləşən Qarabağın tarixi kökləri çox qədimlərə gedib çıxır. Elmi dəlil və əsaslarla deyə bilərik ki, ilk insan məskənlərindən biri də Qarabağdır. Məhz burada, Azıx mağarasında insan həyatının və fəaliyyətinin qədim izləri aşkara çıxarılmışdır. Azıxda 350-400 min il əvvəl yaşamış insan çənəsinin bir hissəsi tapılmışdır.

Qarabağ öz gözəlliyi, yeraltı, yerüstü sərvətləri ilə yadellilərin diqqətini cəlb etmiş, bu gözəl diyar zaman-zaman qanlı hərb meydanına çevrilmişdir. Ac qurdlar süf-rəsində yağlı tikə olan Qarabağ didilmiş, əzilmiş, amma sınmamış, öz əzəməti, vüqarı ilə düşmənlərə meydan oxumuşdur. Böyük imperiyaların siyasətlərinin qurbanı olan füsünkar Qarabağ 20 illdən artıqdır ki, düşmən tapdağındadır.

Azərbaycanın təbii konservatoriyası adlandırılan, əfsanəvi gözəlliyə malik Şuşa, qədim muğam musiqimizin beşiyi Ağdam, şəfalı İstisuyu, qızıl yataqları ilə məşhur olan Kəlbəcər, tarix boyu düşmən gülləsinə sinəsini sipər etmiş qəhrəman Laçın, çiçəklər diyarı Cəbrayıl, qüdrətdən səngərli Qubadlı, Zəngilan, bərəkətli Füzuli, XX əsrin ən böyük faciəsini yaşamış, qan içində boğulmuş Xocalı bu gün ən ağrılı günlərini yaşayır.

Öz təbii gözəlliyi, bənzərsiz iqlimi ilə Qafqazın yaraşığı olan Qarabağ həm də müalicə ocağıdır. Təbii iqlim şəraitinə görə mütəxəssislər Şuşa kurortu iqlimini Abastumani və Kislovodsk, hətta dünyanın məşhur İsveçrə kurortu Davosdan üstün hesab edirlər. Qarabağın, Şuşanın təkrarsız gözəlliyi vaxtilə Azərbaycanda olmuş böyük rus şairi M. Lermontovun, məşhur fransız ədibi A. Dümanın, istedadlı rus rəssamı V.Vereşaginin, lirika ustası S.Yeseninin də diqqətini cəlb etmişdir. V.Vereşagin Qarabağın gözəlliyini tablolarda əks etdirmiş, səyyah və tarixçi Potto Şuşanın təsvirinə belə

başlamışdır: “Sıldırım dağlar və qayalar arasında yerləşən Şuşa qalası buludlara qədər yüksəlmişdir”. S.Yesenin isə fikrini bir cümlə ilə ifadə etmişdir: “Kim oxumursa, o qarabağlı deyil”.

Bəli, Qarabağ dünya mədəniyyətinə çox nadir incilər bəxş etmiş bir diyardır. Qarabağ bütünlüklə mədəniyyətimizin, musiqimizin beşiyidir. Təkcə XIX əsrdə balaca bir şəhər olan Şuşada 95 şair, 22 misiqiçi, 38 xanəndə-müğənni, 16 rəssam, 5 astronom, 18 arxitektor, 16 həkim yetişmişdi. Bütün Şərqdə əsrin ən böyük universal-elmi ensiklopedik biliyə malik alimi Mirmöhsün Nəvvab da şuşalı idi. Dünya korifeyləri siyahısına adını yazmış Üzeyir Hacıbəyli, Bülbül, Rəşid Behbudov qarabağlı idilər. Şuşa həm də milli-memarlıq abidələrinin ən çox və ən yaxşı qorunub saxlandığı məkan idi. Şuşa 1997-ci ildə Azərbaycan hökuməti tərəfindən tarix-memarlıq qoruğu elan olunub. Bu şəhəri bütünlükdə tarix-mədəniyyət abidəsidir.

Əfsuslar olsun ki, 1988-ci ildən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində ərazimizin 20 faizi ilə bərabər qiymətli mədəni sərvətlərimizi də itirdik. Bir milyondan artıq soydaşımız öz yurd-yuvalarından qaçqın düşdü. Qədim Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində maddi-mədəniyyət nümunələrimiz məhv edilir. Təsadüf üzündən məhv edilməmiş abidələr isə İran və ya Türkmən mədəniyyət abidələri kimi təqdim olunur.

Hamıya yaxşı məlumdur ki, Cənubi Qafqaz, o cümlədən indiki Ermənistan erməni etnosunun vətəni deyildir. Tarix göstərir ki, erməni tayfaları Cənubi Qafqazdan çox uzaqlarda yaşamışdır. XIX əsrin erməni tədqiqatçıları belə hesab edirlər ki, ermənilər qaraçılardan, daha dəqiq “qəddar ürəkli”- ayk (xayk) adlandırılan köçəri tayfadan əmələ gəliblər. Bir sıra Avropa və Azərbaycan tarixçilərinin dediklərinə görə, onların ilk vətəni Balkanlar olub ki, xristianlığı da məhz orada qəbul ediblər.

Tarix boyu təcavüzkar və hiyləgər ermənilər özlərini məzlum xalq kimi qələmə verərək dünyanın diqqətini çəkmək istəyiblər. Lakin həqiqəti gizlətmək, pərdələmək o qədər də asan deyil. Ermənilərin təcavüzkarlığı bir çox alimlərin, o cümlədən Strabonun da diqqətindən yayınmamışdır. O, əvvəllər kiçik bir ölkə olan Ermənistanın işğalçı müharibələr hesabına böyüdüyü faktını elmi dəlillərlə öz əsərlərində qeyd etmişdir.

Ermənilər işğal etdikləri ərazilərdə bir qayda olaraq o xalqın mədəniyyət abidələrini ya yox edir, ya da "qazıntılar" apararaq əsl yazıları dəyişir və erməniləşdirir. Bu barədə məşhur gürcü şairi İlya Çavçavadze də yazmışdı: "Ermənilər tərəfindən gürcü kilsələrində gürcü yazılarının pozulması, tikinti daşlarının çıxarılıb əvəzinə erməni yazıları olan daşların qoyulması haqda sübut olunmuş bir çox faktlar var".

Tanınmış rus tarixçi-alimi V.Veliçkonun kitabında da ermənilərin gürcü və alban abidələrində əsl yazıların pozulması və dəyişdirilərək mənimsənilməsi faktları verilir.

O, yazır ki, erməni himayədarları Ermənistanın yeni tarixini yazmaq və kiçik xalqını yüksəltmək üçün öz tarixi nailiyyətlərini şişirdib yüksəklərə qaldıraraq, qonşu xalqların daha zəngin tarixinə kölgə salmaq istəyirlər.

Köhnə tarix bu gün də təkrar olunur. Təkcə Şuşa şəhərindəki 199 memarlıq abidəsindən çoxu, o cümlədən Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, böyük Azərbaycan şairi M. P. Vaqifin məqbərəsi, XVIII-XIX əsrlərə aid yaşayış evləri və s. abidələr dağıdılmışdır. 1992-ci ilin may ayında işğal olunmuş Şuşa şəhərinə ermənilər köçürülmüş və tarixi keçmişimizin erməniləşməsi davam etdirilir. İşğala qədər bu şəhərin əhalisinin 95 faizini azərbaycanlılar təşkil edirdi.

Tunc dövrünə aid Xocalı-Gədəbəy arxeoloji mədəniyyətin ən xarakterik arealı olan Xocalı şəhərində ermənilər Sovet ordusunun 366-cı alayı ilə birgə misli görünməmiş vəhşiliklər törətmişlər. Bir gecənin içində şəhər yerlə-yeksan edilərək xəritədən silinmişdir.

Yaxın və Orta Şərqin ən qədim insan məskənlərindən biri olan Azıx və Tağlar mağaraları, Aquen məbədi, Qandzasar monastırı, Qaraköpək, Üzərliktəpə və s. abidələr hərbi məqsədlər üçün istifadə edilir. Xocalıda Kurqan düzü, Ağdam, Ağdərə, Füzuli və Cəbrayıl rayonlarındakı kurqanlar talan edilmişdir. Şübhəsiz ki, zəbt edilmiş muzey fondlarından və qanunsuz arxeoloji qazıntılardan əldə edilmiş materiallar gələcəkdə Azərbaycan tarixinə və mədəniyyətinə qarşı çevriləcək. Başqa xalqların mədəniyyətləri bazasında özlərinə tarix yaradan ermənilər tərəfindən təqribi hesablamalara görə 300 minə yaxın xalça qarət olunmuşdur.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazisində 547 memarlıq abidəsi, o cümlədən 5 dünya, 393 ölkə və 149 yerli əhəmiyyətli memarlıq abidəsi, 205 arxeoloji abidə, 927 kitabxana, 808 klub

müəssisəsi, 85 musiqi məktəbi, 12 monument, 22 muzey, 4 şəkil qalereyası, 10 mədəniyyət və istirahət parkı, 4 dövlət teatrı və 2 konsert müəssisəsi dağıdılmış, yandırılmış və ya qarət edilmişdir. Dünya əhəmiyyətli Kəlbəcər Tarix-diyarşünaslıq muzeyi, dünyada ikinci olan Ağdam çörək muzeyi, Zəngilandakı daş heykəllər muzeyi erməni vəhşiləri tərəfindən yerlə-yeksan edilmişdir.

Ümumdünya əhəmiyyətinə malik 40 minə yaxın qiymətli və XI-XIX əsrlərin nadir muzey əşyası, erməni təcavüzkarları tərəfindən işğal edilmiş ərazilərdəki muzeylərdən Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə qiymətli eksponatlar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları, dekorativ-tədbiqi sənət nümunələri, əlyazmalar, arxiv sənədləri, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar qarət edilmişdir.

Şuşa şəhərində dünya şöhrətli Üzeyir Hacıbəylinin, Bülbülün, Xan Şuşinskinin, Natəvanın ev-muzeyləri qarət olunmuş, bununla kifayətlənməyən ermənilər hər üç korifeyin heykəllərini gülləbaran etmişlər.

Ümumilikdə, işğal olunmuş ərazilərə dəyən zərər 6 milyard 71 milyon ABŞ dolları həcmindədir. Mənəvi zərərin həcmini isə hazırda mövcud olan heç bir ölçü meyarı ilə təyin etmək mümkün deyildir.

Ermənilər bununla kifayətlənməyərək milli musiqimizə, mətbəximizə də sahib çıxmağa başlayıblar. Çünki erməni azğınlığının qarşısı vaxtında alınmayıb. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında BMT-nin 822 (30 aprel 1993), 853 (29 iyul 1993), 874 (14 oktyabr 1993), 884 (11 noyabr 1993) nömrəli qətnamələrində və Avropa Şurasının 1416 saylı bəyannaməsində Azərbaycanın 20 faiz ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı, separatçı qüvvələrin hələ də bu regionu nəzarət altında saxladığı faktı təsdiq olunub.

Hər bir xalqın mədəni irsi bəşəriyyətin nailiyyətidir və bu irsi qorumaq bəşəriyyətin ali vəzifəsidir. Bu məqsədlə bir sıra beynəlxalq hüquqi aktlar, konvensiyalar qəbul olunmuşdur. “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası, “Arxeoloji abidələrin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyası, “Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında” 1970-ci il

Paris Konvensiyası, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Paris Konvensiyası və s. beynəlxalq konvensiyalara Azərbaycan da qoşulmuş və bu qanunlardan irəli gələn müddəalara həmişə əməl edir. Ermənistan da bu konvensiyalara qoşulmuşdur, ancaq beynəlxalq qanunları kobudcasına pozur, heç bir hüquqi normalara məhəl qoymayaraq Azərbaycan abidələrini dağıdır, torpaqlarını, meşələrini yandırır. XXI əsrdə bütün bəşəriyyətin gözü qarşısında bu cür özbaşınalıq hökm sürür və təəssüf ki, dünya susur. Damarında azərbaycanlı qanı axan hər kəs isə susmamalı, bu haqda ciddi düşünməli, əlindən gələni əsirgəməməlidir. Bu bir həqiqətdir ki, dağılmış kəndləri, şəhərləri bərpa etmək, maddi ziyanı ödəmək olar, amma itirilmiş mədəniyyəti, yaralanmış mənəviyyatı qaytarmaq, sağaltmaq mümkün olmur. Haqq səsimizi dünyaya car çəkərək milli-mənəvi dəyərlərimizə sahib çıxmalıyıq.

**M. F. Axundov adına Azərbaycan
Milli Kitabxanasının "Yaddan çıxmaz
Qarabağ" layihəsindən. Bakı, 2007.**

## XOCALI SOYQIRIMI (GENOSİDİ) GÜNÜ HAQQINDA

Azərbaycan Respublikasının Milli Məclisi erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı (genosidi) haqqında Milli Məclisin Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə komissiyasının təklifini müzakirə etmişdi.

1. 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da «Xocalı soyqırımı günü» elan olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin.

2. Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və «Xocalı soyqırımı günü»nün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilməsi barədə qərar qəbul etmişdir.

**Xocalı soyqırımı (genosidi) günü haqqında
Azərbaycan Respublikası Milli Məclisinin Qərarından.
24 fevral 1994-cü il.**

# AZƏRBAYCANLILARIN SOYQIRIMI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın, ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

«Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər.

Birinci dünya müharibəsindən və Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-53-cü illərdə azərbaycanlıların öz tarixi

torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş Sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalqı»nın obrazını yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulurdu. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verirdi.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılırdı. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalırdı.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar Sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən antiazərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi.

1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində azərbaycanlıların öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın tabeliyindən çıxarmasını

xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu.

1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı işğalçı hərəkətin nəticəsi olaraq, bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni Silahlı Qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini qeyd etmək məqsədilə **qərara alıram:**

1. 31 mart azərbaycanlıların soyqırımı günü elan edilsin.
2. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun ki, azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxsın.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 26 mart 1998-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN XOCALI SOYQIRIMININ ONUNCU İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün mən xalqımızın tarixində kədərli və faciəli bir səhifə olan Xocalı soyqırımı münasibətilə sizə müraciət edirəm. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və Sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur. Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən, Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın o zamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırlar. Əslində, o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdir.

Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağagedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycanı sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatlarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir.

Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız tərəfindən Xocalı faciəsi haqqında həqiqətlərin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atılır, kitablar yazılır, jurnalist tədqiqatları aparılır. Ayrı-ayrı ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda bu faciə müzakirəyə çıxarılır, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilir. İndi məqsəd bu işi daha müntəzəm, ardıcıl və məqsədyönlü şəkildə aparmaqdan və faciəyə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə nail olmaqdan ibarətdir.

Bu kədərli onuncu ildönümü günündə Xocalı şəhidlərinin əziz xatirəsini bir daha dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarını, doğmalarını, bütün Azərbaycan xalqını bir daha əmin edirəm ki, haqq-ədalət yerini tapacaq, Xocalı şəhidlərinin və qəhrəmanlarının uğrunda mübarizə apardığı ideallar - azad və müstəqil Azərbaycan Respublikası daim yaşayacaqdır.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**"Azərbaycan" qəzeti, 26 fevral 2002-ci il.**

## XOCALI SOYQIRIMININ 10-cu İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BƏYANATI

Xocalı soyqırımının 10-cu ildönümü bu günlər Azərbaycanda dərin hüzn içərisində qeyd edilir. Bu qəddar və amansız soyqırımı aktı insanlığın tarixinə dəhşətli terror hadisələrindən biri kimi daxil olmuşdur.

1992-ci il fevralın 26-da Ermənistan Respublikasının silahlı birləşmələri, Dağlıq Qarabağdakı yerli erməni yaraqlıları və keçmiş Sovet ordusunun 366-cı motoatıcı alayı Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Xocalı şəhərini sakinləri ilə birlikdə büsbütün məhv edərək insanlığa silinməz ləkə olan soyqırımı aktı törətmişlər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca yalnız azərbaycanlı olduğuna görə qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülmüş, 487 nəfərə ağır xəsarət yetirilmiş, 1275 sakin - köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz zülmə, təhqirlərə və həqarətə məruz qoyulmuşlar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar.

Azərbaycan Respublikasının o dövrdəki prezidenti Ayaz Mütəllibovun və digər rəhbərlərinin cinayətkar səhlənkarlığı erməni millətçilərinin bu ağır cinayət əməlini törətməsinə şərait yaratmışdır. Hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi nəticəsində Xocalının müdafiəsi lazımi səviyyədə təşkil edilməmiş, şəhərin dinc əhalisinə heç bir köməklik göstərilməmişdir.

Xocalı şəhərində törədilmiş müdhiş cinayətin xarakteri və miqyası bu soyqırımı aktının BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyada ifadə olunmuş müddəalara tam uyğun gəldiyini sübut edir.

Bu kütləvi və amansız qırğın aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş qəddar cinayət aktıdır. Erməni millətçiləri Xocalıda bu soyqırımı əməlini törədərkən

doğma torpağını qəsbkarlara vermək istəməyən Azərbaycan xalqını qorxutmaq, onun mübarizə əzmini qırmaq və məhv etmək niyyəti güdmüşlər.

Təəssüf doğuran haldır ki, dövlətlər arasında sivil birgəyaşayış qaydalarının hakim olduğu XX əsrin sonlarında Ermənistan Respublikasının Azərbaycanın ərazi bütövlüyünə qəsd etməsinə, qonşu dövlətə torpaq iddialarını həyata keçirmək üçün işğalçılıq müharibəsi və etnik təmizləmə aparmasına, Xocalı soyqırımı kimi dəhşətli cinayətlər törətməsinə dünya birliyi biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün təsirli beynəlxalq tədbirlər görməmişdir. Qəsbkar dövlət olan Ermənistan ətrafında yaradılmış bu cəzasızlıq mühitinin nəticəsidir ki, indiyədək ölkəmizin ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 1 milyondan çox azərbaycanlı yerindən-yurdundan didərgin salınmışdır. İşğal olunmuş torpaqların azad edilməsinə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə (822, 853, 874 və 884 nömrəli qətnamələr), Avropa Şurası Parlament Assambleyasının, ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərinin sənədlərinə məhəl qoymayan Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tanımaqdan imtina edir. Dağlıq Qarabağ ərazisində təkcə Ermənistandan deyil, digər ölkələrdən də gələn terrorçuların hazırlanması, Azərbaycan xalqına qarşı yeni cinayətlərin təşkil edilməsi üçün düşərgələr yaradılmışdır. Burada narkotik vasitələrin dövriyyəsindən və nəqlindən, silah alverindən əldə edilən gəlir terror məqsədləri üçün istifadə olunur.

Azərbaycan xalqına və digər qonşu dövlətlərə qarşı soyqırımı və terror Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Erməni millətçiliyinin məqsədlərinə nail olmaq üçün heç bir çirkin vasitədən çəkinməyən yerli və beynəlxalq terrorçu təşkilatların bu ölkədə sərbəst fəaliyyətinə hər cür şərait yaradılmışdır.

Son yüz ildən artıq bir dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan və digər xalqlara qarşı düşmənçilik ruhunda tərbiyə edilmişdir. Bu nifrət ideologiyasının törətdiyi faciəli nəticələr tarixdən yaxşı məlumdur.

XIX əsrin sonlarından etibarən böyük dövlətlərin himayəsindən istifadə edən erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüş, iddia etdikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə Qafqazda kütləvi terror aktları və qırğınlar törədərək, yüz minlərlə günahsız azərbaycanlını qətlə yetirmişlər. 1905-1907-ci illərdə İrəvanda və

Zəngəzurda (müasir Ermənistan Respublikası ərazisində), Tiflisdə, Bakıda, Naxçıvanda, Gəncədə, Qarabağda, 1918-1920-ci illərdə Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda dinc əhaliyə amansızcasına divan tutulmuşdur.

Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti Sovet hakimiyyəti illərində də davam etdirilmiş, SSRİ-nin ermənipərəst rəhbərliyinin köməyi ilə 1948-1953-cü illərdə, habelə 1988-1989-cu illərdə qısa bir vaxt içərisində Ermənistandan yarım milyona yaxın azərbaycanlı deportasiya edilmiş, yaxud qovulmuş, yüzlərlə azərbaycanlı milli mənsubiyyətinə görə öldürülmüşdür. Ermənilərin bu qanlı və avantürist siyasəti iki milyondan çox azərbaycanlının ayrı-ayrı vaxtlarda etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalması ilə nəticələnmişdir. Bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdır. Erməni millətçiləri qarşılarına qoyduqları məqsədə nail olmuş, Ermənistanı monoetnik dövlətə çevirmişlər.

Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasəti lap əvvəldən geniş miqyaslı informasiya müharibəsi ilə müşayiət olunmuşdur. Erməni "alimlərinin" səyləri ilə bütün Qafqazın tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Qafqazda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş, məzlum və incidilmiş erməni xalqı" obrazı yaradılmışdır. Azərbaycan xalqına qarşı düşmənçilik və soyqırımı siyasətini pərdələmək, qonşu dövlətlərə ərazi iddialarına və bunun vasitəsi kimi seçdikləri işğalçılıq müharibəsinə, erməni beynəlxalq terrorizminə haqq qazandırmaq üçün erməni millətçiləri guya 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə uydurmaları ortaya atmışlar. Beləliklə, təcavüzkar və cinayətkar özünü təcavüzün və cinayətin qurbanı kimi qələmə verərək beynəlxalq ictimaiyyəti çaşdırmağa səy göstərmişdir.

Nə qədər qəribə olsa da, Xocalı faciəsi kimi real soyqırımına göz yuman bəzi ölkələrin parlamentləri "erməni soyqırımı" əfsanəsini müzakirə predmetinə çevirmiş, hətta tarixi həqiqətlərə etinasızlıq göstərərək bu barədə ədalətsiz qərarlar da qəbul etmişlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması səylərinin Ermənistan tərəfindən indiyədək boşa çıxarılmasının səbəblərindən biri də məhz budur.

Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, dünya ictimaiyyəti, nəhayət, təcavüzkarı öz adı ilə çağırmalı, Ermənistan

Respublikası tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə, qaçqın və köçkünlərin doğma yurdlarına qaytarılmasına kömək göstərməlidir.

Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, Ermənistan Respublikasının rəhbərliyi tərəfindən təşkil edilmiş və onun köməyi ilə Dağlıq Qarabağda hakimiyyəti qanunsuz zəbt etmiş erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında ədalətli həlli üçün əllərindən gələni əsirgəməsinlər.

Xocalı soyqırımı kimi dəhşətli cinayətlər cəzasız qalmamalıdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, Azərbaycan dövləti mövcud imkanların hamısından istifadə edərək ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaqdır.

(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2002-ci il 26 fevral tarixli iclasında qəbul edilmişdir.)

**M.ƏLƏSGƏROV**
**Azərbaycan Respublikası Milli Məclisinin sədri**
**Bakı şəhəri, 26 fevral 2002-ci il**
**N: 268-IIQR**

# XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜ RACİƏT

*Əziz həmvətənlər!*
*Hörmətli soydaşlar!*

Bu gün mən Sizə insanlığın tarixində ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olan Xocalı soyqırımı münasibətilə müraciət edirəm.

Xocalı faciəsi iki yüz ildən çox müddətdə davakar erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi incəliklə yeridilən bu mənfur siyasət və düşmənçilik heç zaman dayanmamış, gah açıq qarşıdurma və qanlı toqquşmalar şəklini almış, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir.

15 il əvvəl təcavüzkar erməni şovinistlərinin irəli sürdükləri ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarına və tammiqyaslı amansız müharibəyə səbəb oldu. Nəticədə on minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Lakin 1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı motoatıcı alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaq.

Xocalı soyqırımını törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi. Lakin düşmən öz məkrli niyyətlərinə çata bilmədi. Xocalı müdafiəçiləri təpədən dırnağa qədər müasir silahlarla təchiz olunmuş düşmən qarşısında özünü itirmədi, əyilmədi, qəhrəmanlıq və rəşadət nümunələri göstərdi. Onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq, əsl fədakarlıq və vətənpərvərlik nümayiş etdirdilər.

Xocalı faciəsindən danışarkən, o zaman Azərbaycana rəhbərlik edən şəxslərin və xalqa rəhbərliyə iddialı olan qüvvələrin siyasi və mənəvi məsuliyyətini ayrıca qeyd etmək lazımdır. Öz vəzifə borcuna görə vətəndaşların asayişini və təhlükəsizliyini qorumalı olan dövlət orqanları şəhərin mü-

dafiəsini təşkil etmək üçün heç bir əməli tədbir görməmiş, şəhər sakinlərini taleyin ümidinə buraxmışdılar. Uzun müddət mühasirə şəraitində qalan, güclü düşmənlə mərdliklə vuruşan şəhərin müdafiəçilərinə heç bir kömək göstərilməmişdir. Respublikanın rəsmi rəhbərliyi baş vermiş ağır cinayət və soyqırımı aktının miqyasları və ağırlığı haqqında dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə məlumat vermək, həqiqəti çatdırmaq əvəzinə, real vəziyyəti gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik, məsuliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişdi. Sonradan da Xocalı soyqırımının mahiyyətini açmaq, onun təşkilatçılarını və icraçılarını ifşa etmək üçün heç bir iş görülməmişdir. Xalqımızın faciəsi, yüzlərlə insanın məhv olmuş həyatı o zamankı hakimiyyət və müxalifət tərəfindən yalnız siyasi mübarizədə qarşılıqlı ittihamlar üçün vasitə rolunu oynamışdır.

1994-cü ildən başlayaraq Azərbaycan hökuməti və parlamenti Xocalı soyqırımı və bütövlükdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri olduğu kimi bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq xətti yeridir. Bu, Xocalı şəhidlərinin, Vətən müdafiəçilərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuz olmaqla bərabər, həm də faciənin beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına yönəlmişdir.

Azərbaycanın dövlət rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun ədalətli həlli, ərazilərimizin işğaldan azad edilməsi üçün məqsədyönlü və ardıcıl iş aparır. Haqq-ədalət, beynəlxalq hüquq bizim tərəfimizdədir, zaman bizim xeyrimizə işləyir. Bu gün dövlətimiz və xalqımız iqtisadi, siyasi və mənəvi cəhətdən müqayisəolunmaz dərəcədə güclənib, müstəqil Azərbaycan dövləti dünya siyasətinin mühüm faktoruna çevrilib. İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsi, sərhədlərinin toxunulmazlığının və ərazi bütövlüyünün təmin edilməsi Xocalı şəhidlərinə və xalqımızın bütün qəhrəman övladlarına ucaldılan möhtəşəm abidə olacaqdır!

Bu milli matəm günündə Xocalı şəhidlərinin və qəhrəmanlarının müqəddəs ruhu qarşısında baş əyərək, Allahdan onlara rəhmət diləyir, onların yaxınlarına, bütün xalqımıza başsağlığı verirəm!

***Heydər ƏLİYEV***
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 25 fevral 2003-cü il*

# XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün Sizə xalqımızın tarixində kədərli və faciəli bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən olan Xocalı soyqırımı münasibətilə müraciət edirəm.

Xocalı faciəsi iki yüz ilə yaxın bir müddət ərzində erməni millətçilərinin və onların havadarlarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamı və qanlı səhifəsi idi. Bu mənfur siyasət xalqımıza saysız-hesabsız müsibətlər və əzab-əziyyətlər gətirmişdir.

Ötən əsrin 80-ci illərinin ikinci yarısında təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı irəli sürdüyü yeni ərazi iddiaları azərbaycanlıların doğma torpaqlarından kütləvi surətdə zorla qovulmasına, çoxsaylı terror aktları ilə müşayiət olunan geniş miqyaslı amansız müharibəyə gətirib çıxardı. Nəticədə on minlərlə insan həlak oldu, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri tərəfindən qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi, onun müdafiəçilərinə və dinc sakinlərə qanlı divan tutulması bu faciələrin ən dəhşətlisi idi. Yüzlərlə insan - qadın, uşaq, qoca xüsusi vəhşiliklə qətlə yetirildi və işgəncələrlə öldürüldü. Xocalı faciəsi öz qəddarlığına, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə bəşəriyyətə qarşı ağır cinayətlər sırasına daxil olmuşdur.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri məkrli məqsədlər güdürdü: xalqımızı qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqların işğalı faktı ilə barışmağa məcbur etmək. Lakin hiyləgər və amansız düşmən məqsədinə çata bilmədi. Xocalı müdafiəçiləri qəddar düşmənlə mübarizədə əyilmədilər, qəhrəmanlıqla vuruşaraq Vətənə sədaqət nümunəsi göstərdilər.

Xocalı faciəsindən danışarkən o zamankı rəsmi Azərbaycan rəhbərliyinin və ölkədə vəziyyətə ciddi təsir edən siyasi qüvvələrin acizliyini, səriştəsizliyini, xalqın taleyinə biganəliyini xüsusi qeyd etmək lazımdır. Dövlət rəhbərliyi xalqın qəzəbindən qorxaraq, hadisənin miqyasını kiçiltməyə cəhd etmiş, bu qanlı cinayət barədə beynəlxalq ictimaiyyətə operativ və ətraflı məlumat vermək üçün heç bir iş görməmişdi. O zamankı müxalifət isə faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək üçün istifadə etdi. O zaman Azərbaycanda hökm sürən hərc-

mərclik, hakimiyyətin nüfuzsuzluğu, lidersizlik bu qanlı fəlakətin baş verməsinə şərait yaratdı.

1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan hökuməti və parlamenti erməni millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətləri bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırmaq, bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq üçün inadlı və ardıcıl fəaliyyət göstərir. Məqsəd Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə, insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir.

Hazırda Azərbaycan rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunması üçün ardıcıl fəaliyyət göstərir. Aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar getdikcə daha artıq dərəcədə Azərbaycanın ədalətli mövqeyini qəbul edir, ərazilərimizin işğalı faktını etiraf edir, Ermənistandan Azərbaycan torpaqlarını azad etməyi tələb edirlər. Biz dövlətimizin iqtisadi, siyasi qüdrətinə və qazanılmış təcrübəyə arxalanaraq, problemin ədalətli həlli istiqamətində səylərimizi inadla davam etdirəcəyik.

Vətəndaşlarımız, soydaşlarımız unutmamalıdırlar ki, erməni millətçilərinin anti-Azərbaycan təbliğatı getdikcə daha incə, daha mənfur formalarda davam etdirilir, ərazi iddialarını əsaslandırmaq üçün yeni-yeni əsassız tezislər uydurulur. Buna görə də belə ideoloji təxribatlara qarşı ayıq olmalı, onları vaxtında ifşa etməliyik.

Hazırda Azərbaycan dövləti, vətəndaşlarımız, xaricdəki soydaşlarımız Xocalı həqiqətlərinin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində ardıcıl tədbirlər görürlər. Belə tədbirlər hər il daha əhatəli və peşəkar səviyyədə keçirilməli, xaricdəki soydaşlarımız isə öz fəallığını daha da artırmalıdırlar.

Bu kədərli matəm günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini bir daha dərin hüznlə yad edərək Allahdan rəhmət diləyir, onların yaxınlarına, bütün xalqımıza başsağlığı verirəm. Uğrunda çalışdığımız müstəqil, güclü, firavan Azərbaycan onların ruhu üçün ən böyük təsəlli olacaqdır.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 fevral 2004-cü il.**

# XOCALI SOYQIRIMININ İLDÖNÜMÜ MÜNASIBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Bu gün Sizə xalqımızın tarixində kədərli və ağrılı bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən olan Xocalı soyqırımı ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlarından birini yaşadı. Həmin gün qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən yer üzündən silindi. Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyidləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur. Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi. Bu siyasət erməni diasporunun və lobbisinin imkanlarından istifadə edilməklə bütün dövrlərdə hərbi, iqtisadi, ideoloji və mədəni vasitələrlə aparılmışdır. Keçən əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irimiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Zaman-zaman davam etdirilən bu məkrli siyasət nəticəsində azərbaycanlılar əzəli torpaqlarından qovuldular, didərgin salındılar, yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Dəhşətli Xocalı faciəsini törətməklə ermənilər uzağa gedən taktiki məqsədlər güdürdülər. Bununla xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin hiyləgər düşmən məqsədlərinə çata bilmədi. Xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə daha da mətinləşdi, qəhrəmanlıq və dəyanət nümayiş etdirdi.

Faciənin miqyasına və ağırlığına baxmayaraq, hakimiyyətdə olan qüvvələr o zaman bu qanlı cinayət barədə beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə vaxtında lazımi məlumat verməmiş, həyəcan təbili çalmamış, əksinə, xalqın qəzəbindən və hakimiyyəti itirəcəklərindən qorxaraq əsl həqiqəti xalqdan gizlətmişlər. Müxalifətdə olan qüvvələr isə həmin dövrdə ümumxalq müsibətindən hakimiyyətə gəlmək üçün əlverişli vasitə kimi istifadə etmişdilər. Yalnız ümummilli liderimiz Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra bu qanlı

cinayət siyasi-hüquqi qiymətini almış, onun dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün tədbirlər görülmüşdür.

Hazırda Azərbaycan rəhbərliyi Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həlli, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası, qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması uğrunda ardıcıl səylər göstərir. Beynəlxalq təşkilatlar, aparıcı dövlətlər münaqişənin kökləri, səbəbləri və nəticələri barədə getdikcə daha artıq məlumatlandırılır, Azərbaycanın ədalətli mövqeyini etiraf edirlər. Bu gün Xocalı faciəsi dünyanın böyük dövlətlərinin parlamentlərində müzakirəyə çıxarılır, onun təfərrüatları ictimaiyyətə açıqlanır. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri tərəfindən Ermənistanın işğalçı, təcavüzkar dövlət olduğu təsdiq edilir, ondan işğal etdiyi Azərbaycan ərazilərini geri qaytarmaq tələb olunur.

Xocalı faciəsindən keçən illərin təcrübəsi göstərdi ki, xalqımız, ölkə ictimaiyyəti ayıq-sayıq olmalı, dezinformasiya və təxribat sahəsində böyük təcrübəsi olan ermənilərin planlarını daim ifşa etməlidir. Ermənistan dövlətinin və erməni millətçilərinin Qafqaz bölgəsində həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının bəşəriyyət üçün təhlükəsi açılıb göstərilməlidir. Bu sahədə bizim görəcəyimiz işlər çoxdur. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması daha səmərəli və ardıcıl aparılmalıdır. Xarici ölkələrdə getdikcə öz mövqelərini gücləndirən soydaşlarımız da bu işdə yaxından iştirak etməli, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri Xocalı soyqırımı kimi hadisələrə yaşadıqları dövlətlərdə lazımi qiymət verilməsinə çalışmalıdırlar. Düşünürəm ki, müstəqil, güclü və demokratik Azərbaycan dövlətinin mövcudluğu və getdikcə inkişaf etməsi Xocalı şəhidlərinin ruhuna təsəlli ola bilər.

Bir daha Xocalı qəhrəmanlarının və şəhidlərinin əziz xatirəsini dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyərək, xalqımıza başsağlığı verirəm.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2005-ci il**

# XOCALI SOYQIRIMININ 15-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizə xalqımızın tarixində kədərli və faciəli bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olan Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin maraqları çərçivəsində cərəyan edən bu siyasət bütün məqbul və qeyri-məqbul vasitələrlə - siyasi, iqtisadi, hərbi, terror və ideoloji yolla davam etdirilmiş, soydaşlarımız yaşayış yerlərindən sıxışdırılmış, tarixi Azərbaycan əraziləri zaman-zaman ermənilər tərəfindən zəbt edilmiş və ələ keçirilmişdir. XX əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana yeni ərazi iddiaları genişmiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Bu məkrli siyasət nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi erməni hərbi birləşmələri tərəfindən işğal edildi, on minlərlə insan həlak oldu və yaralandı, yüz minlərlə soydaşımız ev-eşiyindən didərgin salındı, qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Xocalı qırğınını törətməklə erməni millətçiləri hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin düşmənin niyyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi. Xocalı faciəsi həm də ölkədaxili hakimiyyət mübarizələrinin dövlətimiz üçün nə qədər təhlükəli və fəlakətli nəticələr verdiyini göstərdi. O zaman həm Azərbaycanın rəsmi rəhbərliyi, həm də ölkədə vəziyyətə təsir etmək imkanı olan siyasi qüvvələr xalqın taleyinə tam biganəlik nümayiş etdirdilər. Dövlət rəhbərliyi

bu dəhşətli cinayət haqqında dünya ictimaiyyətinə tam və operativ məlumat vermək üçün heç bir addım atmadı, müxalifət isə qanlı faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək məqsədi ilə istifadə etdi.

Yalnız ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Biz həm də, erməni millətçilərindən fərqli olaraq, bu məsələdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist millətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Hazırda Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında quruculuq və yüksəliş dövrünü yaşamaqdadır. Respublikamız iqtisadi inkişaf templərinə görə dünyada lider mövqelərə çıxmışdır. Ölkəmiz regional və beynəlxalq enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsüdür. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı, digər sosial və infrastruktur layihələri uğurla reallaşdırılır. Dövlətimizin iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu günü-gündən artır, insanlarımızın vətənpərvərliyi, milli mənlik şüuru güclənir. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri Ermənistanın işğalçı dövlət olduğunu qəbul edir, ondan işğal etdiyi Azərbaycan ərazilərini azad etməyi tələb edirlər. Təcavüzkar Ermənistan özünü bütün regional layihələrdən kənarda qoymuş, hərtərəfli təcrid vəziyyətinə düşmüşdür. Bütün bunlar və mövcud vəziyyət qarşıda duran vəzifələrin yerinə yetirilməsində, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həlli istiqamətində bizim başlıca arqumentlərimizdir, gücümüzün və uğurlarımızın əsasıdır.

Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə

çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir. Bu işdə Azərbaycan və türk diaspor təşkilatlarının yeni yaradılan birliyi, fəaliyyətinin əlaqələndirilməsi böyük əhəmiyyətə malik ola bilər. Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq.

Hörmətli həmvətənlər və soydaşlar! Əziz Xocalı sakinləri!

Bu kədərli anım günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini ehtiramla yad edərək, Allahdan onlara rəhmət diləyir, yaxınlarına, bütün xalqımıza dərin hüznlə başsağlığı verirəm.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2007-ci il**

# XOCALI SOYQIRIMININ 15 İLLIYI İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARI

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlılara qarşı soyqırımı aktı törədilmişdir. Təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün insanlığa«qarşı yönəlmiş bu müdhiş cinayətin iştirakçı-ları məlumdur. Bunlar Ermənistan Respublikası silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin üzvləridir.

Əvvəlcə Xocalı toplardan və digər hərbi texnikadan şiddətli atəşə tutularaq darmadağın edilmişdir. Şəhər ərazisində yanğınlar başlanmışdır. Sonra piyada qüvvələr bir neçə istiqamətdən şəhərə girmişlər, Sağ qalmış sakinlərə vəhşicəsinə divan tutulmuşdur. 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürülmüşdür. 8 ailə bütünlüklə məhv edilmişdir. 487 nəfər şikəst edilmişdir. 1275 sakin — qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qalmışlar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Mühasirədən çıxmağı bacarmış dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar.

Xocalı şəhərinə hücum əməliyyatına 366-cı alayın ikinci taqımının komandiri Seyran Ohanyan, üçüncü taqımının komandiri Yevgeni Nabokix, birinci taqımının qərargah rəisi Valeri Çitçyan rəhbərlik etmişlər. Əməliyyata alayın 90-dan çox tankı, piyada döyüş maşını və digər hərbi texnikası cəlb edilmişdi. Dinc əhaliyə qarşı soyqırımı cinayətlərində alayın hərbi qulluqçularından Slavik Arutyunyan, Andrey İşxanyan, Sergey Beqlaryan, Movses Akopyan, Qriqori Kisebekyan, Vaçik Mirzoyan, Vaçaqan Ayriyan, Aleksandr Ayrapetyan və başqaları, erməni silahlı birləşmələrinin üzvlərindən Karo Petrosyan, Vitali Balasanyan, Seyran Tumasyan,

Valerik Qriqoryan və digərləri fəal iştirak etmişlər. Dinc əhaliyə qəddarcasına divan tutanlar arasında Xankəndi şəhər daxili işlər şöbəsinin rəisi işləmiş Armo Abramyanın, Əsgəran rayon daxili işlər şöbəsinin rəisi işləmiş Mavrik Qukasyanın, onun müavini Şaqen Barseqyanın, Dağlıq Qarabağda erməni xalq cəbhəsinin sədri olmuş Vitali Balasanyanın, Xankəndi şəhər həbsxanasının rəisi işləmiş Serjik Koçaryanın və başqa şəxslərin də olduğu müəyyən edilmişdir.

Bu gün cinayətkarlardan 30 nəfərinin adları Azərbaycanın istintaq orqanlarına məlumdur. Xocalı soyqırımı zamanı işğal edilmiş Dağlıq Qarabağ bölgəsində mayor rütbəsində olan S.Ohanyan indi general paqonları gəzdirir və Ermənistan Respublikasının "müdafiə naziridir". Cinayətin bir sıra digər iştirakçıları da oyuncaq qurumda və Ermənistan Respublikasının dövlət orqanlarında müxtəlif vəzifələr tuturlar.

Xocalı şəhərində hərbi əməliyyatdan sonra 366-ci alayın cinayətdə iştirakının izlərini itirmək üçün alay tələm-tələsik Dağlıq Qarabağdan çıxarılıb Gürcüstana aparılmış, bu zaman hərbi texnikanın böyük hissəsi, yəni 9 tank, 4 zirehli transportyor, 70 piyada döyüş maşını, 4 "Strela-10" raket qurğusu, 8 top, 57 minaatan və digər silah-sursat erməni birləşmələrinə təhvil verilmiş və azərbaycanlı əhaliyə qarşı sonrakı cinayət əməllə-rində istifadə edilmişdir.

Xocalı faciəsi son yüz ildən artıq dövrdə davakar erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımı və etnik təmizləmə siyasətinin yeni bir səhifəsi olmuşdur. XIX əsrin sonlarından etibarən çar Rusiyasının və digər dövlətlərin gizli və açıq himayəsindən istifadə edən erməni millətçiləri "böyük Ermənistan", yaratmaq xülyasına düşmüş, ələ keçirmək istədikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə müxtəlif dövrlərdə Şərqi Anadoluda və Cənubi Qafqazda soyqırımı və terror aktları törədərək, 2 milyona qədər günahsız türkü və azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər. 1905-1907-ci illərdə, habelə 1918-1920-ci illərdə Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və Azərbaycanın digər yerlərində, habelə Tiflisdə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmışdır. Qeyd etmək yerinə düşər ki, 1918-ci ildə Ermənistan Respublikasının yaradılması elan edilərkən onun ərazisi 9,8 min kvadrat kilometr olmuşdur. Əslində bu süni dövlət qurumu Azərbaycanın əzəli torpaqlarında, yəni keçmiş İrəvan xanlığının (çar Rusiyası dövründə İrəvan quberniyasının) ərazisində təşkil edilmişdir. Sonralar İrəvanda, Göyçədə və Zəngəzurda törədilən kütləvi qırğınlar nəticəsində bölgənin demoqrafik vəziyyəti erməni əhalinin xeyrinə dəyişdirilmiş, azərbaycanlılardan təmizlənən yeni ərazilər Ermənistan Respublikasına qatılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi Ermənistanın tərkibinə daxil edilmiş, nəticədə onun sahəsi 30 min kvadrat kilometrə çatdırılmışdır. Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında yığcam halda yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində ermənilər üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdir. Beləliklə, davakar erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün zəmin yaradılmış, Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulmuşdur.

Davakar erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymət verilməməsi sovet hakimiyyəti dövründə də xalqımıza qarşı düşmənçilik siyasəti yeridilməsinə gətirib çıxarmışdır. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR-in hakim dairələri 1948-1953-cü illərdə Ermənistandan yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar.

1988-ci ildə keçmiş SSRİ mərkəzi hökumətinin ermənipərəst siyasətindən istifadə edən davakar erməni millətçiləri Ermənistan ərazisində etnik təmizləməni başa çatdırmaq niyyəti ilə azərbaycanlıların yaşadıqları rayon və kəndlərə basqınlar etməyə, azərbaycanlıları doğma torpaqlarından qovmağa başladılar. Cinayət əməllərinə haqq qazandırmaq üçün SSRİ xüsusi xidmət orqanlarının birbaşa iştirakı və təşkilatçılığı ilə Azərbaycanın Sumqayıt şəhərində məlum ixtişaşlar törədildi. Əvvəlcədən hazırlanmış plana əsasən bu hadisələr bəhanə gətirilərək, qısa müddət ərzində Ermənistandan 250 minə yaxın azərbaycanlı kriminal ünsürlərlə əl-bir olan hakimiyyət orqanlarının nümayəndələri və silahlı quldurlar tərəfindən qovulub qaçqın salındı. Bu zaman yüzlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsini başa çatdırdıqdan sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana ilhaq etmək üçün fəal döyüş əməliyyatlarına başlandı. Qarşı duran tərəflərin qüvvələri heç də bərabər deyildi. Nizami ordusunu təşkil etməyə macal tapmamış əliyalın azərbaycanlı əhali əvvəlcədən xüsusi hazırlıq keçmiş erməni silahlı birləşmələri, xarici ölkələrdən gətirilmiş muzdlu dəstələr və keçmiş sovet ordusunun tör-töküntüləri ilə üz-üzə dayanmışdı. Nəticədə Azərbaycan Respublikası ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı daha yeddi rayon — Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları işğal olunmuş, 18 mindən çox azərbaycanlı qətlə yetirilmiş, 20 mindən çox dinc sakin yaralanmış, 50 mindən çox adam əlil olmuşdur. 4750 adam əsir və itkin düşmüş, girov götürülmüşdür. 877 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən qovulub didərgin salınmış azərbaycanlıların sayı 1 milyondan çoxdur.

Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni-tarixi irsini xüsusi qəddarlıqla məhv etmişlər. Ələ keçirdikləri ərazilərdə onlar vandalizm aktları törədərək, 500-ə qədər tarixi və 100-dən çox arxeoloji abidəni, 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmış, 44 məbədi və 9 məscidi təhqir etmişlər. Dağıdılan və yandırılan 927 kitabxanada 4,6 mil-yon kitab və misilsiz əlyazma məhv edilmişdir.

XX əsrin əvvəllərində azərbaycanlıların məruz qaldıqları fəlakətlərin əsrin sonlarında yenidən təkrar olunmasının bir çox səbəbləri vardır. Əlbəttə, başlıca səbəb 1920-ci ildə Azərbaycanda və Ermənistanda sovet hakimiyyətinin qurulması,

yeni nəsillərin saxta beynəlmiləlçilik ruhunda tərbiyə olunması, "xalqlar dostluğu"nun tərənnüm edilməsi olmuşdur. Azərbaycan xalqının başına gətirilmiş faciələri unutdurmaq üçün sovet ideoloqları xalqımızın xeyirxahlıq, alicənablıq, rəhmdillik, sülhsevərlik, düşmənçiliyi unutmaq kimi yüksək mənəvi keyfiyyətlərindən məharətlə istifadə etmişlər.

Lakin davakar erməni millətçiləri Azərbaycan xalqına nifrət hissini sovet hakimiyyəti illərində də yaddan çıxarmamışlar. Ümumiyyətlə, son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilmişdir. Erməni "alim"lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, ermənilərin tarixi şişirdilərək qədimləşdirilmiş, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Cənubi Qafqazda baş verən hadisələr bilərəkdən təhrif edilmiş, dünya ictimaiyyətinin nəzərində "əzabkeş və məzlum" erməni xalqı obrazı yaradılmışdır.

Qonşu dövlətlərə, o cümlədən Azərbaycan Respublikasına qarşı ərazi iddialarına haqq qazandırmaq, bu yolla özlərinin işğalçılıq, soyqırımı və dövlət səviyyəsində terror siyasətini pərdələmək üçün erməni millətçiləri 1915-ci ildə ermənilərin soyqırımına məruz qaldıqları barədə heç bir tarixi əsası olmayan uydurmalara rəvac vermişlər. Beləliklə, təcavüzkar və cinayətkar özünü təcavüzün və cinayətin qurbanı kimi qələmə verərək beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhdlər göstərmişdir. Təəssüf ki, Xocalı faciəsi kimi real soyqırımına göz yuman ayrı-ayrı dövlətlərin parlamentləri bir sıra hallarda yalançı erməni təbliğatının təsiri altına düşərək, yaxud siyasi konyunkturaya əsaslanaraq "erməni soyqırımı" əfsanəsini müzakirə mövzusuna çevirmiş, hətta bu barədə əsassız və əda-lətsiz aktlar qəbul etmişlər.

Davakar erməni millətçilərinin azğın təbliğat kampaniyasına qarşı mütəşəkkil müqavimət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli Fərmanı tarixi həqiqətlərin üzə çıxmasına və öz yerini tutmasına təkan vermişdir. Bu mühüm sənəddə tariximizdə ilk dəfə olaraq azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınların – soyqırımlarının rəsmən adı çəkilmiş, Cənubi Qafqaz miqyasında xalqımıza qarşı aparılmış etnik düşmənçilik siyasətinin kökləri açılmışdır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakinləri olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarix və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görmüş davakar erməni millətçilərinin mənfur fəaliyyətinə siyasi qiymət verilmişdir. Fərmana əsasən 31 mart günü son yüz ildən artıq dövrdə davakar erməni millətçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklərin qurbanı olmuş günahsız

insanların xatirəsinə ehtiram əlaməti olaraq azərbaycanlıların soyqırımı günü elan edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar dəfələrlə xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, beynəlxalq təşkilatlardan, dünya ölkələrinin parlamentlərindən və hökumətlərindən XIX-XX əsrlərdə erməni millətçilərinin və onun havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərini tanımağı, gələcəkdə bu cür cinayətlərin cəzasız qalmasının qarşısını almaqdan ötrü təsirli beynəlxalq hüquq mexanizmlərinin yaradılması işini tezliklə başa çatdırmağı, azərbaycanlılara qarşı yeni soyqırımı cinayətlərinə yol verilməməsi üçün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla ədalətli həllinə kömək göstərməyi xahiş etmişdir. Milli Məclisin müvafiq qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Xocalı şəhidlərinin xatirəsinin, əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmış, Xocalı faciəsi haqqında məlumatlar orta məktəb proqramlarına daxil edilmişdir.

Məlum olduğu kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar aparılır. Erməni tərəfi sülh arzusunda olduğunu göstərməyə çalışsa da, münaqişənin dinc vasitələrlə həllini çətinləşdirən bəyanatlara və hərəkətlərə yol verir, o cümlədən "erməni soyqırımı" haqqında əfsanənin daha çox ölkədə yayılmasına cəhdlər göstərir. Xocalı şəhərində dinc əhaliyə vəhşicəsinə divan tutanların təmizə çıxarılması üçün iddia olunur ki, guya Xocalıda erməni hərbçiləri tərəfindən dinc əhaliyə qarşı heç bir zorakılıq əməlinə yol verilməmişdir. Faciənin yara-ları hələ qaysaq bağlamamış vəhşilik əməlini unutdurmağa cəhdlər göstərilir. Üzdəniraq təbliğatçıların həyasızlığı ildən-ilə daha da artır, Xocalı soyqırımı haqqında həqiqətlərin dünya birliyinə çatmasına əngəllər törədir, yeni-yeni yalanlar uydurulur.

Erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı törədilmiş faciələri, o cümlədən Xocalı soyqırımım ört-basdır etmək və unutdurmaq, qondarma "erməni soyqırımı"nı qəbul etdirmək üçün beynəlxalq miqyasda apardıqları təbliğat kampaniyasının qarşısının alınması sahəsində göstərilən səylərin artırılması indiki dövrün ən aktual vəzifələrindən biridir. Bu sahədə parlamentin hər bir üzvünün də üzərinə vəzifələr düşür. Bu məqsədlə Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda şərh edilənləri nəzərə alaraq, 27 fevral 2007-ci ildə qərar da qəbul edib. Həmin qərarda deyilir:

1. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına bir vəzifə olaraq tapşırılsın ki, xarici ölkələrə səfərlər zamanı, o cümlədən beynəlxalq təşkilatların




*Erməni terrorçularının qanlı cinayəti:*
*"Vartan cəngavərləri"nin Kəlbəcərdəki terroruna məruz qalmış uşaqlar*




*ŞUŞA: "ASALA" beynəlxalq erməni terror təşkilatının üzvləri tərəfindən yandırılmış ailə*




*ZƏNGİLAN: erməni terrorçuları tərəfindən diri-diri oda atılmış azərbaycanlı əsir*




*KƏLBƏCƏR: erməni terrorçuları tərəfindən yandırılmış azərbaycanlı əsir*




*LAÇIN: Terror qurbanı olan körpə*




*Cəbrayıl: "ASALA" erməni terrorçuları tərəfindən yandırılmış ailə*




*Valideynlərini itirmiş, yurdu erməni terroruna məruz qalmış uşaq*




*FÜZULİ: Terror zamanı ailəsini itirmiş körpə*




*Ailəsi erməni terroruna məruz qalmış uşaq*




*Güllələnmiş əsir*



*Erməni terrorçularının amputasiya otağındakı əsir azərbaycanlı balası*




*XOCALI: erməni terroruna məruz qalmış bir ailə*



*LAÇIN: ermənilərin amputasiya etdikləri uşaq*




*ŞUŞA: erməni terrorçuları tərəfindən övladı gözunun qarşısında güllələnmiş ana*




*Yurdu erməni terrorçuları tərəfindən viran edilmiş azərbaycanlı ailəsi*




*Evini, ailəsini, qohum-əqrəbasını itirmiş,*
*erməni terroruna məruz qalmış uşaq*

tədbirlərində iştirak edərkən son yüz ildə azərbaycanlıların məruz qaldıqları soyqırımı aktları, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etsinlər, bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etsinlər.

2. Ermənistan Respublikasının ölkəmizə silahlı təcavüzü, ölkəmizin Dağlıq Qarabağ bölgəsini və ətraf rayonların işğal etməsi gedişində azərbaycanlılara qarşı törədilmiş soyqırımı aktları, xüsusən Xocalı faciəsi ilə bağlı materialların toplanılması, öyrənilməsi, ümumiləşdirilməsi və yayılması məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi yanında informasiya-tədqiqat mərkəzi yaradılsın.

3. Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarına tövsiyə edilsin ki, Xocalı şəhərində soyqırımı aktının törədilməsində iştirak etmiş şəxslərin hamısının müəyyən edilməsi, onların cinayət məsuliyyətinə cəlb olunması üçün görülən tədbirləri gücləndirsinlər.

4. Azərbaycan Respublikasının müvafiq dövlət və qeyri-dövlət qurumlarına, o cümlədən qeyri-hökumət təşkilatlarına tövsiyə edilsin ki, Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların geniş yayılması, yalançı erməni təbliğatının ifşa edilməsi üçün səylərini birləşdirsinlər.

Terrorçuluq – ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədir.

**“Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu”ndan**

**Bakı şəhəri, 18 iyun 1999-cu il.**

## XOCALI HAQQINDA MƏXFİ ARAYIŞ

Ermənistan Milli Təhlükəsizlik Nazirliyinin mətbuat xidmətinin başçısı, polkovnik Armaik Mamukyan iddia edir ki, Xankəndində, ümumən Dağlıq Qarabağ ərazisində, eləcə də Yerevanda heç bir azərbaycanlı əsir yoxdur. 2000-ci ilin dekabr ayının 16-da isə Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki, cənab Vladimir Romanoviç Savelyevin Birləşmiş Millətlər Təşkilatına ünvanlanmış məktubunda isə Ermənistan ərazisindəki əsirlərin sayından, düşərgə zonalarından bəhs olunur.

«Jmanak» qəzeti (Türkiyə erməni diasporunun qəzeti) 1992-ci ilin fevral hadisələrini, qanlı qırğını şərh edərək yazır: «…Biz vəcdə gəldik. Ermənilərə öz dədə-baba torpaqları uğrunda vuruşmaq üçün güc və qüvvət verilmişdi. Bu işdə Allahın razılığını görürdük. Və vuruşurduq. Azərbaycanlılar isə bizim qədər torpaq istəyə bilmədi. Məhəbbət və Vətən sevgisi olduğu üçün biz qalib gəldik… Bakıdan da xəbərdarıq. Orada torpaq uğrunda yox, sülalə və vəzifə, səltənət və şöhrət uğrunda daha çox güc sərf olunur. Çünki Bakıda da bilirdilər ki, bu torpaqlar bizimdir, bizim dədə-babalarındır… Bu barədə rus zabiti Vladimir Savelyev adlı birisi meydanda atılan topların yanında bizdən sorğu etdi. O, bizim müxbirdən tələb edirdi ki, bu yerlərdən çıxıb getsin…» (1992-ci il, 24 fevral).

**Vladimir Savelyev 366-cı alayda yerləşən 02270 nömrəli (Dağlıq Qarabağda) hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi olub. Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci ilin iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına… sonda Baş Kəşfiyyat İdarəsinə «Məxfi arayış»ını təqdim edir. O, son arayışlarını «zabit Puqaçov» imzası ilə göndərib.**

**Polkovnik erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyərək fakt və sənədlərdə, «agentura» gücü ilə əldə etdiyi informasiyalarda bütün olub keçənlərin şərhini verib etiraf edir: «…Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərim önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm də MN-ə, BKİ-nin generallarına göndərdim. Oxuyun – dedim. Biz rusların zabit şərəfi görün**

**necə ləkələndi… Mən Bakıdakı hadisələri də izləyirdim. Hiss olunurdu ki, Prezident Ayaz Niyazoviçi aldadıb tora salıblar. O, kələfin ucunu itirmiş, hər şeyi nəzarətdən çıxarmış, qarşıdurmanın mərkəzində dayanmış, nüfuzunu itirmiş Ali Baş Komandandır… Azərbaycan hərbi əks-kəşfiyyatına gəlincə… belə bir qurum iflic olub. Aldığımız məlumata görə, bu qurumun əməkdaşları orduda kartof kisələrinin, soğan və ətin… oğurlanıb-oğurlanmaması ilə maraqlanır, əsas məsələlərə girişə bilmirdilər. Prezident Xocalıda nəyin baş verməsini dərk etmirdi. Azərbaycan ordusunun BQ-də hamı özünü qərargah rəisi kimi aparırdı. Dördüncü ümumordu qoşun birləşmələrində isə gərginlik genişlənirdi… Bu qoşun birləşmələrində hər şey Azərbaycan əleyhinə idi. Vəziyyət nəzarətdən çıxmışdı. Zabitlər başlarını itirmişdilər…**

**Məlumat aldıq ki, Azərbaycanda Prezident Aparatında və güc nazirliklərində ikitirəlik var. Məqsəd və fikirlər bir-birini tamamlamırdı. Hamı siyasi məqsədləri üçün «Müharibə kartından» yapışmışdı. Bu kartı paylayanlara gəlincə, onların bir qismi Azərbaycanın Ali Baş Komandanının, bir qismi də müxalifətin və nəyə xidmət etdiklərini anlamayan savadsız və küt generalların yanını kəsdirmişdilər…».**

Fransada çıxan «Frans katolik-ekklezia» – aylıq jurnalında (1992-ci il, 12 mart) «Hücumdan öncə» yazısını çap etdirən erməni jurnalisti Berain Siracyan yazır: «…Xocalını gözlərimlə gördüm. Döyüşən, hər qarış torpaq uğrunda vuruşan artsaxlıların igidlikləri məni valeh etdi. Amma mən torpaq uğrunda gedən vuruşmanın bu tərzdə aparılmasının tərəfdarı deyildim… Hər yerdən qan iyi gəlirdi. Qar üstündə qalaqlanmış kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum… Qorxdum ki, bu qan üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın… Bu gün ruslar bizimlədir. Bəs sabah?… Biz tənha qala bilərik… Digər tərəfdən, Xocalıda vuruşanların, erməni qardaşlarımın gözlərindəki alovun sönməyəcəyinə də şübhəm yoxdur. Bu alov vətən torpağı üçün yandırılmış ocağın alovlarıdır. Belə alovlar isə heç vaxt sönmür…»

Halbuki, 1992-ci ilin yanvar ayında Paris yaxınlığında qeyri-leqal məxfi təlim düşərgəsi yaratmış «ASALA» erməni terrorçu təşkilatının bir qrup üzvü – 26 nəfərlik dəstə, mayor Aşin Simonyanın başçılığı ilə Xankəndiyə təşrif gətirmişdi. Onlar başlı-başına buraxılmış 366-cı alayın içərisində asanlıqla öz dayaqlarını qura bildilər. Polkovnik Yevgeni Zarviqarova nağd 36 min ABŞ dollarını tanışlıq üçün «hədiyyə» etdilər. Məlumata görə, 23-cü diviziyanın komandiri, general-mayor Boris Budeykin polkovnik Zarviqarovu buna görə ittiham da edib. Dördüncü Ordu komandanlığı qarşısında

onun «zabit şərəfinə xəyanəti» üstündə azad olunmasını, qovulmasını tələb edib.

Lakin bütün bu ittiham və tələblərə baxan yox idi. Çünki qanunlar artıq işləmirdi.

**Polkovnik V.Savelyev yazır: «…Əslində millətlərarası münaqişəyə cəlb olunmuş 366-cı alay ətrafında həmin problemlər daha qabarıq nəzərə çarpır. Hərbi əməliyyatlarda alayın ermənilər tərəfinə keçib azərbaycanlıları qırması, hərbi texnika və silahları ermənilərə verməsi məsələsi artıq siyasi əhəmiyyət daşıyırdı…».**

**Polkovnik 1992-ci ilin aprel ayının 12-də MN-nə göndərdiyi məktubunda isə yazırdı: «Öldürülmüş, məhv edilmiş adamların bir qisminin şəxsiyyətlərini təyin edən sənədlərdən 46-sını nömrələyib Azərbaycanın MN-nə, Prezident Aparatına göndərdim. Mənə cavab gəldi ki, biz həmin sənədləri araşdırırıq. Onda mən Tbilisidə idim və məktubu da oradan yola salmışdım. Amma dərk edə bilmirdim ki, Azərbaycan hərbi kəşfiyyatı nəyi araşdırır…».**

1992-ci il fevral ayının 19-da isə İrəvanın Teatr meydanında Firdos Ərəbyan adlı bir erməni emissarı (Livan) Dünya ermənilərinin «iqtisadi gəlir mənbəyi» kimi ad çıxarmış «Qaragin» erməni mərkəzində on üç nəfər varlı erməninin imzaladığı məktubu oxudu: «…Oyanmış xalqa eşq olsun! Müdrikliyini, ağıl və idrakını dərk edən, babalarımızın, əcdadlarımızın külünü təzədən alışdıran erməni qəhrəmanlarını alqışlamaqla yanaşı, onlara dünya ermənilərinin salamlarını yetirirəm. Parisdə, Kölndə, Romada, Vaşinqtonda, Küveytdə, Londonda, Moskva və Ankarada, Tehran və Latın Amerikasında…ayağa qalxan ermənilər sizinlədir… Biz sizə hər cür yardıma hazırıq…» (Bax: "Qaragin " erməni mərkəzinin aylıq "Bülleteni". 1992. II-19).

İki milləti qarşı-qarşıya qoyan bu «millət qəhrəmanları» bir məsələni dərk etmirdilər. Dərk etmirdilər ki, heç kəsin qanı yerdə qalmır. Edilən cinayətlər üçün, tökülən qanlar üçün cavabdehlik və məsuliyyət nə Vaşinqtonun, nə Londonun… üstündə qalırdı. Bütün bu vəhşiliklərin cavabdehliyi İrəvanın üstündə idi… Bunu isə, sadəcə, dərk etmək lazım idi. Necə ki, kəşfiyyatçı V.Savelyev bunları görür və dərk edirdi…

Polkovnik Zarviqarov və başqa vəzifəli şəxslər isə ermənilərə cavab atəşini açan döyüş nöqtələrinin susdurulması barədə ordu və dairə komandanlığının rəsmi icazəsilə 366-cı rus alayı Xocalı istiqamətində gedən əməliyyatlarda ermənilərlə birləşdi. Nəticədə bir gün ərzində 49 nəfər azərbaycanlı meydanlara yığılıb güllələndi… Qərargah rəisi, podpolkovnik Sergey Kraulenin verdiyi tapşırığa əsasən, birinci motoatıcı batalyonun komandiri,

polkovnik Arkadi Moiseyev, 2-ci batalyonun komandiri mayor Serj Ohanyan, 3-cü batalyonun komandiri mayor Qavril Nabokix, kapitan İshaq Lixodey… Xankəndini atəşə tutmaqla yanaşı, ayrıseçkilik edir, dinc əhalini zonalarından uzaqlaşdırarkən ermənilərlə daha çox məşğul olurdular. Köçürmə zamanı (bu yarımçıq qaldı) 58 nəfər azərbaycanlı öldürüldü…

Öldürülən azərbaycanlıları isə yarım metr qazılmış çalalara atıb, üstünü torpaqlayırdılar. Polkovnikin qeydlərinə görə, axşamlar belə çalaların ətrafından «itlərin və çaqqalların səs-küyündən, dartışmalarından» qulaq tutulurdu, adam vahimələnirdi. Hər yerdən laxtalanmış qan və cəsəd iyi gəlirdi.

Bu arada Livanda fəaliyyət göstərən erməni diasporu tərəfindən radikal mövqeyi ilə seçilən «Ramkavar» partiyasının liderlərindən olan **Rafael Messayan (Qriqoryan) Beyrutda çıxan «Zartunk» («Oyanma») qəzetində «Bir erməni yardımı»** yazısında qeyd edir: «…Xocalı uğrunda vuruşan, döyüşə atılanları unutmaq, yaddan çıxarmaq biz ermənilərə yaraşan iş deyil. Onlara – o igidlərə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları «Artsax yardım fondu» təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür… Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Süleyman öz ticarət mərkəzindən gələn illik gəliri… Parisdə «Erməni ana dili» cəmiyyətinin üzvləri topladıqları ianələri… Xocalı qəhrəmanları üçün ayırdılar…» (1992-ci il, 24 mart).

Bakıda isə boş qalmış kreslolar üstündə adamlar dəstələrə bölünür, qruplarda cəmləşir, hakimiyyətə can atırdılar. Ali Baş Komandanın buraxdığı strateji səhvləri isə nə siyasi mühitdən ayrı düşmüş, başını itirmiş millət, nə də ayrı-ayrı siyasi liderlər dərk etmirdilər. Düşdükləri burulğandan çıxmaq üçün heç kəs bir-birinə əl uzatmırdı, yardım etmirdi. Xocalı isə qan içində can verirdi. Ordudakı xəyanətlə Prezident Aparatındakı xəyanətlər üst-üstə düşdüyündən hamı çaşıb qalmışdı… Bütün bu çaşqınlıqları araşdıran kəşfiyyatçı V.Savelyev Kremlə, Bakıya… üst-üstə 18 eyni məzmunlu tele-qram göndərir. Amma heç kəs onun teleqramlarını oxumurdu…

**1992-ci ilin fevral ayının 4-də isə Roma Papası II İohanın Dağlıq Qarabağ özünümüdafiə dəstələrinə (!) və 366-cı alayın zabitlərinə məxfi məktubu daxil olur.** Həmin məktub 1992-ci il fevral ayının 6-da Xankəndində erməni iş adamı İşxan Qriqoryanın təşəbbüsü ilə nəşr olunan "Xüsusi vərəqə"də yayılır.Roma Papası erməni müdafiə dəstələrinə «Allahdan aldığı gücü» (?) göndərirdi. Ruslara isə bu vuruşmanın «dini bir vuruşma» olduğunu xatırladır, onlara dua edəcəyini açıqlayırdı. Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşmanı «Dini vuruşma… Din uğrunda vuruşma» kimi qiymətləndirib, yazır: «…İmkan olarsa, Xocalıya gəlib orada həlak olan er-

məni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm…» (2003-cü ilin sentyabrın 21-də Roma Papası Ermənistana gəlir. Qarabağın işğalı zamanı öldürülən ermənilərin məzarlarını yad edir).

**Polkovnik V.Savelyev daha sonra yazır**: «…Xocalının işğalında, ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm… Bu necə Vətəndir? Bu necə ordudur?… Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaltdılar, şərəfinə lənət damğasını vurdular…

Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmədim. Allahın mənə lənət edəcəyi gündən qorxuram…» Lənətlənmiş günlər isə bir-birini əvəz edirdi. Həmin ərəfədə Fransadan gəlmiş «Operator-II» özəl studiyasının erməni əməkdaşları isə (Jül Barelyan, Şerin Sitaryan) Xocalı ətrafında qalaqlanmış meyitlərin yandırılmasını lentə köçürürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Karabelnikovun verdiyi məlumata görə bu yer «…Xocalının şimal-şərq hissəsində kiçik təpəcikləri olan bir yer idi…»

Xocalı faciəsini «işıqlandırmaq» (ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndinə dünyanın 32 ölkəsindən 47 nəfər erməni jurnalisti gəlmişdi. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınların gözlüklərindən, qərargah mərkəzlərindən hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: «…Azərbaycanlılar günahsız erməniləri qırırlar…» (?)

Bizim təbliğat maşınımız isə Prezident Aparatından kənara çıxmırdı. Bakıdakı adicə diplomatik korpusların nümayəndələrinə həqiqəti deməkdə çətinlik çəkirdik. Susmağımız isə erməni təbliğatı üçün qol-qanad verirdi… Ermənilər Xocalı ilə bağlı Azərbaycanı «qan tökməkdə günahlandıran» bir materialı, əllərinə keçən hər hansı bir faktı və yaxud sənədi təkrar-təkrar çap edirdilər. Tutalım «Azərbaycanlılar Xocalını yandırıb, getdilər…» fotoreportajını ermənilər 49 dəfə dünya mətbuatında çap etdiriblər (Bu bizim təqribi hesablamalarımızdır).

Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da «…çox düşünüblər». Nəticədə birinci batalyonun qərargah rəisi, mayor Abram Çitçiyan mayor Q.Nabokix və kapitan İ.Lixodey hərbi əməliyyatlarda bilavasitə vuruşublar. Zabit İ.Karabelnikovun məlumatına görə, A.Çitçiyan 13 nəfərlik «Babayevlər ailəsini… gülllədən keçirib…». Ona 1993-cü ildə Fransa Erməni Diasporu tərəfindən 150 min ABŞ dolları mükafat və ən böyük «Kilsə mükafatı» verilib. A.Çitçiyan 1994-cü ilin sentyabr ayının 2-də Fransaya mühacirət edib və orada yaşayır.

366-cı alayın sıravi qulluqçusu, rabitəçi Afik İsbeliyevin məlumatına görə isə, o, fevralın 24-də (1992) kapitan İ.Lixodeyin komandasında topçu dəstəsində vuruşub və Xocalının işğalında iştirak edib.

– Siz necə vuruşurdunuz? – sualına belə cavab verib:

– Biz həm də qorxurduq. Ölümdən qorxurduq. Əlimizə keçənləri məhv edirdik. Bəzən küləkdən tərpənən ağaclar, xışıldayan yarpaqlar da bizi qorxuya salırdı… Mən bilmirəm, Azərbaycan xalqı məni bağışlayarmı?… Anam azərbaycanlılara qarşı ermənilərlə əlbir olub vuruşduğum üçün məndən imtina edib… Mən artıq evə gedə bilmirəm, hamı məndən üz döndərib. Amma məni məcbur etdilər. Əmr verdilər. Biz isə əmrə tabe idik… Məni artıq heç kəs bağışlamır… («Bir erməni məzarı». Müəllif: Əbdül Fateh. «Beyrut» nəşri. 1994-cü il).

A.İsbeliyev bunu da deyir ki, ermənilər ruslara məxsus hərbi texnikanı satın almışdılar. Bir «Kalaşnikov» avtomatına 1500 ABŞ dolları verilirdi…

**…Fevral ayının 25-dən 26-sına keçən gecə Xocalı yandırıldı, işğal edildi. Qoşun isə sakitləşmək bilmirdi. Polkovnik V.Savelyev «Məxfi arayış»ında qeyd edir:**

«Üçüncü batalyon Xocalı işğal olunan gecə müharibə zonasından çıxarıldı, amma oranı tərk etmədi. 366-cı alay isə ərazidən çıxarılmadı. Ordu tərksilah olundu. Zabitlər satqınlıq etdilər. Silahlara gəlincə, işlənməmiş silahları ermənilər üçün ayırdılar. Qərara alındı ki, ermənilərdən bunun müqabilində pul və zinət şeyləri alınsın. «Böyük Ermənistan» adlı bədnam və rüsvayçı plan uğrunda vuruşanlara gəlincə, bu, hələlik açıq qalmış bir məsələdir».

1992-ci ilin mart ayının 19-da (müsəlman təqvimində bu gün Novruz günü, bahar bayramı idi) Xocalıda öldürülmüş azərbaycanlılar üçün kiçik bir qəbiristanlıq salındı. Orada əlli dörd nəfər öldürülmüş günahsız azərbaycanlı dəfn edildi. Ermənilərin Fransa Diasporunda telekanal müəllifi Surik Şaqenyan bu mənzərəni elə həmin günün axşamı İranın, Türkiyənin, Moskvanın, Yerevanın, Vaşinqtonun, Londonun, Parisin, Bonnun telekanallarına çıxartdı. Ermənilərin öldürülmüş azərbaycanlıların meyitlərinə etdikləri «hörmət və ehtiramdan…» (?), təşkil olunmuş dəfn mərasimindən danışdı.

Bakıda isə əslində hələ heç kəs hadisələrin, Xocalıda baş vermiş faciənin səbəblərini araşdıra bilmirdilər. Yaradılmış deputat komissiyasından tutmuş, müxalifət partiyalarınadək hamı iflic vəziyyətində idi, hakimiyyət çat vermişdi. Təhlükəsizlik orqanları öz informasiya mənbələrinin əsas dayaqlarını itirmişdi. Təhlükəsizlik sisteminin böyük bir qrupu müxalifətlə, necə deyərlər, «əhd-peyman» bağlamışdılar. A.Mütəllibov hakimiyyəti cəmiy-

yətdə və dövlətdə siyasi gücünü artıq itirmişdi. O, öz səriştəsizliyinin, komandasındakı fitnə-fəsadın qurbanı olmuşdu.

Həmin ərəfədə rus kəşfiyyatçısı V.Savelyev Azərbaycan hakimiyyətini təsvir edib, yazırdı: «…Xocalının işğalından sonra A.Mütəllibov hakimiyyəti öz yaşamaq hüququnu itirdi… Nazirlər isə Baş nazirin ətrafında dövlət daxilində dövlət yaratmışdılar…»

Alayın çıxarılmasında, hərbi sursatların ermənilərə verilməsində bilavasitə iştirak edənlərə baxın:

– General-polkovnik Qromov.
– General-leytenant Qrekov.
– General-leytenant Ohanyan.
– İ.Andronov – deputat.
– Polkovnik Y.Zarviqarov (sonra general oldu).
– Polkovnik O.Kraule…

Dördüncü Ordu 23-cü motoatıcı Diviziya nümayəndələrinin Xocalı əməliyyatında iştirak etmələri üçün şərait yaratdı. 23-cü motoatıcı Diviziyanın komandan müavini A.Babukov və K.Yermolayev isə erməni yaraqlılarına verilmiş hərbi texnikanın geri qaytarılmasını tələb edirdi. Onları isə kim idi eşidən?!»

**RF hərbi əks-kəşfiyyatının rəisi işləmiş polkovnik V.Savelyev məsələləri şərh edərək, qeyd edir:** «…1992-ci ilin fevral ayının 23-də hərbi şəhərcik «Qrad» qurğularından atəşə tutulduqdan sonra polkovnik Y.Zarviqarov alayın daimi dislokasiya məntəqəsindən ehtiyat bölgəyə keçirilməsi haqqında qərar verib. Qərar isə erməni silahlı dəstələrinin heç bir müqaviməti olmadan həyata keçirilib. Dislokasiya yerinin dəyişdirilməsi heç də zərurətdən irəli gəlməyib. Bu zaman bir sıra bölmələrin döyüş texnikaları çıxarılmayıb. Həmin günlərdə Xankəndi şəhərinə gələn general-leytenant İ.Ohanyan (mayor Ohanyanla qarışdırmayın) təkid edib ki, artilleriya diviziyası, zenit artilleriya diviziyası, tank rotası texnikası saxlanılsın. Nəticədə ermənilər heç bir maneə ilə rastlaşmadan 23 ədəd «PDM», 3 ədəd «ZSU-23-4», 8 ədəd «D-30» və xeyli digər döyüş texnikası ələ keçirdilər…».

Həmin gün ermənilərin özünümüdafiə dəstəsi adı ilə vuruşan, əslində «ASALA» terror təşkilatının Xankəndində yaradılmış özəyinin başçısı kimi tanınan İllarion Allaverdiyan 24 nəfər rus zabitinə və əsgərinə pul mükafatlarını elan etdi. Məsələn, dəstənin önündə çıxarılmış rus zabiti Yevgeni Qolubevə üstündə «ASALA» yazılmış 25 qramlıq qızıldan tökülmüş orden və beş min ABŞ dollarını təntənəli surətdə təqdim etdi. Və yaxud həmin gün sıravi Anastas S.İvanova 10 min ABŞ dolları təqdim etməklə yanaşı İrəvanda onu gözləyən «Hunday» markalı avtomobilin sənədlərini verdi.

Nəticədə erməni silahlı dəstələrilə rus zabitləri arasında şəxsi bağlaşmalar, «Döyüş müqavilələri» də imzalanırdı.

Yadınıza salaq ki, bütün bunlar, yəni ermənilərlə ruslar arasında olan bu hərbi bağlaşmaların bir qismi şifahi sərəncamlarla edilirdi. Bunun üçün hər sərəncamın, general sözünün öz qiyməti var idi. Məsələn, Xankəndi şəhərindəki 463-cü Əlahiddə Kimyəvi Mühafizə Batalyonu və 909-cu Əlahiddə Kəşfiyyat Batalyonunun döyüş planları ilə bağlı, ermənilər tərəfdən vuruşması barədəki əmrin qiyməti 18 min ABŞ dolları idi.

**Polkovnik V.Savelyev bütün bunlara toxunaraq yazır:** «…Birinci batalyon ehtiyat bölgəyə keçirilən zaman polkovnik İvan Moiseyev texnikanı və şəxsi heyəti dağlar arasındakı Çapar dərəsində saxlayıb, gözləmə mövqeyi tutub. Sonra onun batalyonu Çixani yaşayış məntəqəsinə daxil olub. Ermənilərin mühasirəsinə düşüb. Nəticədə batalyon könüllü surətdə öz döyüş texnikasını ermənilər üçün qoyub. İvan Moiseyevə və şəxsi heyətə pul təklif edilərək, birlikdə vuruşmağa çağırılıblar…»

Xocalının ətraf yaşayış məntəqələrini də dağıdan, külünü göyə sovuran da elə İvan Moiseyevin batalyonu olub. Və bu batalyon da ermənilər arasında «İvanın vəhşi batalyonu» kimi tanınıb.

Tədqiqat zamanı 02270 saylı hərbi hissənin əks-kəşfiyyatının materiallarından aydın olur ki, 366-cı alaydakı hərbi texnika və silahların 85%-i ermənilərin əlinə keçib. Üstəlik, Fransadan göndərilən 142 ədəd avtomat, 7 min 600 ədəd güllə, 460 ədəd bronejilet, 11 ton konservləşdirilmiş yemək, min iki yüz cüt ayaqqabı (altı cür ölçüdə), 146 ədəd tapança… ermənilərin istifadəsinə verildi. Amerikada istehsal olunmuş 149 ədəd ratsiya da ermənilərə paylanıldı.

Fransa senatı isə Xocalı ilə bağlı heç bir məlumatın olmamasından gileyləndi və bütün günahları Azərbaycanın Fransadakı diplomatik korpusunda gördü. Və 2001-ci ilin fevral ayının 14-də bu da məlum oldu ki, Fransada «Xocalı faciəsi»ni ermənilərin faciəsi kimi təbliğ edib tanıdıblar. Bizim səfarətxanaya gəlincə, onları sadəcə, geri çağırıb ittiham etməkdən başqa … ayrı heç nə qalmırdı. Digər tərəfdən, erməni diplomatı O.Ter-Qriqoryan 1992-ci ilin aprel ayında İrəvanın Teatr meydanındakı çıxışında deyirdi: «…Erməni təbliğatı Bakının diplomatik mərkəzlərində artıq özünə istənilən mövqeyi tutub…» (?) Bu çıxışla bağlı düşünməli, operativ zəruri reaksiya verməli olan məmurlar isə susmuşdular.

Diplomat çıxışının bir yerində xatırladırdı ki, ermənilərlə rusların dostluğunun sınmayan sütunları var. Diplomat Ter-Qriqoryan deyir: «…Hələ 300 il bundan qabaq ermənilər I Pyotrdan xahiş edirlər ki, yadelli işğalçılara qarşı vuruşanda onlardan da istifadə etsinlər… Əgər Moskvada (təkcə şəhə-

rin özündə) 1959-cu ildə 18,4 min nəfər erməni var idisə, indi bu rəqəm 47 min nəfərdir… RF-in xaricdəki diplomatik korpuslarında çalışan ermənilərin sayı 142 nəfərdir. Onların 59 nəfəri jurnalist kimi fəaliyyət göstərir...

Sıravi əsgər Qriqori Voroşilovun məlumatına görə, Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S.Lukaşovun əmrilə yandırıldı. **Polkovnik V.Savelyev xatırladır**: «…Ermənilər ruslara məxsus «02-19–MM» nömrəli «KAMAZ»la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular… İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim… Mən Sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm:

1. Polkovnik B.Baymukov – arxa cəbhə üzrə alay komandirinin müavini;
2. Polkovnik İ.V.Moiseyev – birinci batalyonun komandiri;
3. Mayor S.İ.Ohanyan – ikinci batalyonun komandiri;
4. Mayor E.A.Nabokix – üçüncü batalyonun komandiri;
5. Mayor V.İ.Çitçiyan – birinci batalyonun qərargah rəisi;
6. Mayor V.Q.Hayriyan –alayın kəşfiyyat rəisi;
7. Baş leytenant O.V.Mirzaxayzarov – rota komandiri;
8. Baş leytenant S.V.Xrinxua–kəşfiyyat bölməsinin rəisi;
9. Baş leytenant V.N.Qarmaş – tank rotası komandiri;
10. Baş leytenant N.T.Hakopyan – rota komandiri;
11. Baş leytenant V.İ.Valilovski – rota komandiri;
12. Baş leytenant A.B.Lısenko – bölmə komandiri;
13. Baş leytenant V.A.Azarov – batareya komandiri;
14. Baş leytenant İ.S.Abraimov – tank əleyhinə batareya komandiri;
15. Leytenant O.V.Balezni – üçüncü tank rotasının komandiri;
16. Leytenant A.V.Smakin – tank bölməsinin komandiri;
17. Leytenant S.İ.Raçkovski – mühəndis-istehkam rotası komandiri;
18. Leytenant V.İ.Bondaryev – kəşfiyyat rəisinin müavini;
19. Leytenant A.İ.Kulov – radiokimyəvi bölmənin rəisi;

(eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər)».

1992-ci il fevral ayının 24-də saat 21.15 dəqiqədə general rütbəsi almış Y.Zarviqarov zabitlər önündə belə bir çıxış edir ki, regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir. O, çıxışında göstərirdi: «…Dünyanın islam ölkələrinin nümayəndələri, hərbi müşavirlər Bakıya (?) yığışıblar ki, bizim xaçı necə sındırıb, əzsinlər… Xristianlığa qar-

şı bir yürüş var. Bu yürüşdə ya dinimizi, şərəfimizi qorumalıyıq, ya da şərəfsizliyi qəbul edib tabe olmalıyıq».

**V.Savelyevin – vicdanlı rus kəşfiyyatçısının «Məxfi arayışı» səriştəli, haqsızlıqlarla barışmayan bir zabitin ən böyük etirafıdır.**

P.S: 366-cı alayın təhlükəsizlik zabiti V.Savelyevin Xocalıda törədilən cinayətlərlə bağlı məktub və arayışlarını, şifroqramlarını, telefon danışıqlarını oxumaq üçün, bax: keçmiş İttifaqın Baş Kəşfiyyat İdarəsinin (MN) və hərbi Prokurorluğun V.Savelyevin göndərdiyi sənədlərlə bağlı 1992-ci ilin martın 10-da birgə başladıqları 204/22 saylı "Sənədlər toplusu"na. Əvvəl qrifsiz olan bu qovluq ("Sənədlər toplusu") 1992-ci ilin martın 29-da "Məxfidir" qrifilə bağlanıldı. İstintaq dayandırıldı. Hazırda "Sənədlər toplusu" RF-nın hərbi prokurorluğunun arxivində "Polkovnik V.Savelyevin işi" adı ilə 473121 saylı qovluqda saxlanılır. İşin həcmi 142 s. 2008-ci ilin iyul ayının 14-də isə RF MN-nin əməkdaşları M.A.Komarov və İ.S.Stepanovun imzası ilə "Polkovnik V.Savelyevin işi" ölkənin Baş Prokurorluğundan alınaraq, götürülüb.(?!)

## LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"

"Xocalıya ədalət" kampaniyası 2008-ci ildə irəli sürülüb və İslam Konfransı Gənclər Forumu tərəfindən həyata keçirilir. İlk dövrlərdə adı "Xocalıya ədalət, Qarabağa azadlıq" olub. Kampaniyanın bilavasitə beynəlxalq icrası isə 2009-cu ilin fevral ayından başlayıb.

Bizim kampaniyanın məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqınların və məcburi köçkünlərin düşdüyü ağır vəziyyət haqqında bütün həqiqəti dünya birliyinə çatdırmaqdır. Torpaqlarımız hələ də işğal altındadır, erməni cəlladlar öz tamahkar məqsədlərinə çatmaq üçün günahsız insanları amansızcasına qətlə yetirmişlər. Xocalı faciəsinin beynəlxalq birlik tərəfindən insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanınmasına nail olmaq hər bir azərbaycanlının vəzifəsi, o cümlədən mənim də vəzifəmdir. Bu cinayət bir daha təkrarlanmamalıdır.

Heydər Əliyev Fondu dalbadal neçənci ildir ki, dünyanın 70 ölkəsində Xocalı faciəsinə həsr edilmiş tədbirlər keçirir. Fond konfranslar, xatirə gecələri təşkil edir, kitablar, bukletlər dərc edir, DVD-disklər buraxır, filmlər çəkir. 2008-ci ildə başlanmış "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində bütün dünyada yüzlərlə aksiya keçirilir. Avropa İttifaqının üzvü olan dövlətlərin demək olar ki, hamısında, MDB, Asiya, Cənubi və Şimali Amerika ölkələrində konfranslar, seminarlar, piketlər keçirilir. Bu kampaniya sayəsində bir sıra beynəlxalq forumlar Xocalı faciəsini tanıyıblar. Bir ay bundan əvvəl Fondun və İKT Gənclər Forumunun təşəbbüsü ilə 31 ölkənin deputatları Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanıyıblar.

Bu gün dünyanın 20 ölkəsində aparıcı universitetlər arasında gənclərin fleşmobları keçirilir. Bununla bərabər, keçən il bizim kampaniyanın yeni mərhələsi - dövlət və hökumət başçılarına, ATƏT-in Minsk qrupuna, AŞPA-ya, BMT Baş Katibliyinə, dünya parlamentlərinə və beynəlxalq təşkilatlara ünvanlanıb, bu faciəni soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbi irəli sürülən petisiya və müraciətlər yayılması mərhələsi başlanıb. Petisiyanın mətni saytımızda yerləşdirilib və artıq 140 mindən çox insan

həmin mətni imzalayıb. Bu barədə qısa danışmaq mümkün deyil. Hər halda, bildirim ki, son 3 ildə dünyanın 40-a yaxın ölkəsində Milli Koordinatorluqlarımız formalaşıb. Burda həmin ölkələrin vətəndaşları çalışırlar və könüllü olaraq həmin ölkələrdə "Xocalıya ədalət" kampaniyasını həyata keçirirlər.

Beləliklə də, böyük bir şəbəkə yaranıb. Qeyd edim ki, həmən koordinatorlar arasında xeyli tanınmış adam, məsələn, Hollandiyanın milli qəhrəmanı Gert van Dam da var. Kampaniyanın əsasını dünya liderlərinə petisiya təşkil edir. Həmin petisiya dünya liderlərini Xocalı hadisələrini bəşəriyyətə qarşı cinayət kimi tanınmasına çağırır. Bu sahədə xeyli nailiyyətlər əldə olunub. Hazırda Meksika, Kolumbiya, Çexiya və Pakistan parlamentlərində Xocalı hadisələrini soyqırım kimi tanıyan qətnamələr qəbul edilib.

İslam Əməkdaşlıq Təşkilatının ölkələrini birləşdirən Parlamentlər İttifaqı 2012-ci ildə Xocalı faciəsini soyqırım kimi tanınmasına dair qətnamə qəbul edib. Həmçinin ABŞ-ın 6 ştatı – Nyu-Meksika, Texas, Corciya, Men, Nyu-Cersi və Arkanzasın parlamentləri də 1992-ci il 26 fevral hadisələrini soyqırım kimi tanıyıb. Bundan başqa, İKGF-nin təşəbbüsü ilə İƏT Xarici İşlər Nazirlərinin toplantılarının 38 və 39-cu sessiyasında da Xocalı faciəsi soyqırım hadisəsi kimi tanınıb. Eyni zamanda həmin toplantılarda Xocalı hadisəsi ilə bağlı bir sıra digər qərarlar da qəbul edilib, məsələn, İƏT-ə üzv ölkələrdə orta məktəb dərsliklərinə bu barədə məlumatların salınmasını tövsiyə edib.

2009-cu ildən bu yana dünyanın bir çox ölkələrində müxtəlif tədbirlər keçirilib. Bura konfranslar, sərgilər, küçə yürüşləri və s. daxildir. 2010-cu ildə "Qremi mükafatı laureatı Qordon Lyuisin prodüserliyi ilə Toni Blekmen və "Dəyirman" qrupu tərəfindən ifa olunmuş "Xocalıya ədalət" klipi çəkilib, həmin klip dünyanın 40-dan artıq ölkəsində nümayiş olunub. Ötən il Skandinaviyadan olan kinematoqraflar tərəfindən Xocalı ilə bağlı "Sonu görünməyən dəhliz" adında sənədli film lentə alınıb. Keçən il və bu il həmin sənədli filmin bir neçə yerli və beynəlxalq baxışı keçirilib və həmin filmin beynəlxalq film festivallarına təqdim edilməsi də planlaşdırılır. Həmçinin 2012-ci ildə İstanbulda 1 milyon insanın qatıldığı izdihamlı yürüş təşkil olunub. Bunlar ən əlamətdar tədbirlər idi, amma bunun yanında bütün bu sadalanan nailiyyətlərin həyata keçməsinə kömək etmiş onlarla başqa

tədbirlər də olub və sözsüz ki, bütün tədbirlər haqqında qısa müsahibədə söz açmaq mümkünsüzdür.

Kampaniya davam edir. Məqsədimiz Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi müstəvidə tanınmasına nail olmaqdır. Eyni zamanda Xocalıda törədilən faciənin dövlət başçıları səviyyəsində soyqırım kimi tanınmasıdır. Gələcək tədbirlərimiz də məhz buna hesablanıb.

# XOCALIDA «MARKAROV QARDAŞLARI»NIN TÖRƏTDİKLƏRİ CİNAYƏTLƏR

## (AZƏRBAYCAN RESPUBLİKASININ HƏRBİ PROKURORLUĞUNUN «XOCALI» QOVLUĞUNDAN)

– Ermənistanın hərbi separatçı birləşmələri, Dağlıq Qarabağın silahlı quldur dəstələri Xankəndindəki rusların 366-cı motoatıcı alayının hərbçiləri ilə birlikdə beynəlxalq miqyaslı, ağır və qanlı cinayət törətdi. Bu, müstəqil Azərbaycanın genofonduna qarşı açılan ən böyük atəş idi. Fikrimizcə, dünyanın heç bir münaqişə zonasında bu qədər din xadimi məhv edilməyib. Dağlıq Qarabağda «Markarov qardaşları»nın din xadimlərimizə qarşı xüsusi krematoriyası fəaliyyətdə olub. Aparılan çoxsaylı araşdırmalara görə Xocalıda Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin «Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında» 9 dekabr 1948-ci il tarixli Konvensiyasının, eləcə də 1949-cu il 12 avqust tarixli «Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında», «Hərbi əsirlərlə rəftar haqqında» və «Müharibə zamanı mülki əhalinin qorunması haqqında» Cenevrə Konvensiyalarının tələbləri pozuldu. Azərbaycan xalqı erməni genosidinə məruz qaldı.

* * *

1988-ci ildə ermənilər Xankəndində yaşayan azərbaycanlılara qarşı kütləvi hücumlar təşkil edib, onların evlərini yandıraraq, şəhərdən məcburən çıxarmış, azərbaycanlılara qarşı zor tətbiq edərək, onların əmlaklarını qarət etmişlər. Xankəndində yaşayan 15 min nəfərdən çox azərbaycanlı şəhərdən məcburən köçürülmüşdür. Dörd islam mədrəsəsi yandırılmış, 25 nəfər islamşünas ilahiyyatçı alim öldürülmüşdür.

1988-1991-ci illərdə Ermənistan tərəfindən Dağlıq Qarabağ ərazisinə qanunsuz yolla silahlı dəstələr yeridilərək, həmin ərazidə yaşayan azərbaycanlı əhaliyə qarşı mütəmadi olaraq terror aktları həyata keçirilirdi.

1991-ci ilin sentyabrından başlayaraq, ermənilər tərəfindən azərbaycanlıların yaşayış məntəqələrinə edilən basqınlarda keçmiş SSRİ-yə məxsus, Xankəndində yerləşən 366-cı motoatıcı alayın komanda heyəti və hərbi texnikası da iştirak etmişdir. Onlar Xocalını yandırıb, viran qoydular.

366-cı alayın tərkibində Xocalı qırğınlarında iştirak edən, Özbəkistanın Urgenic yaşayış məntəqəsindən 1987-ci ildən hərbi xidmətə çağırılmış gizir U. Muhəmmədcanov 1995-ci ilin yanvarın 14-də Daşkənd şəhər prokurorluğuna verdiyi ifadədə yazır:

«... Baş verən çoxsaylı ölüm halları məni çaşdırmışdı. Mən vuruşmaqdan imtina etmək qərarına gəldim. Çünki ölən günahsız insanlar idi... Nəhayət mən oradan qaçmalı oldum.»

Gizir U.Muhəmmədcanov verdiyi ifadələri olduğu kimi bizə də danışıb, etiraf etdi.

* * *

Ermənilər Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalini son nəfərinə kimi qırmaq məqsədilə kənd və şəhərləri mühasirəyə alaraq, dinc əhaliyə qarşı müxtəlif çaplı odlu silahlardan istifadə etməklə, ağır hərbi texnika vasitəsilə hücum edir, mühasirədən çıxıb qaçmağa cəhd edən şəxsləri isə yollarda, meşələrdə pusqu quraraq məhv edirdilər.

24.09.1991-ci ildə erməni silahlı dəstələri 366-cı alayın hərbi texnikasının köməyi ilə əhalisi ancaq azərbaycanlı olan Ağdərə rayonunun İmarət Qərvənd kəndinə basqın etmiş, kənd əhalisinin bir hissəsini xüsusi amansızlıqla qətlə yetirmişlər. Azərbaycanlıların bütün əmlakları qarət olunmuş, evləri yandırılaraq xarabalığa çevrilmişdir. 30.10.1991-ci ildə Tuğ və Səlakətin kəndləri, 12.11.1991-ci ildə Axullu, 19.11.1991-ci ildə Xocavənd, 15.12.1991-ci ildə Cəmilli kəndləri də erməni silahlı qüvvələri tərəfindən 366-cı alayın hərbi texnikası və komanda heyətinin iştirakı ilə işğal olunmuşdur. Həmin kəndlərin azərbaycanlı əhalisinin bir hissəsi məhv edilmiş, bir hissəsi isə bütün əmlaklarını ataraq, qaçmağa məcbur olmuş, evləri yandırılmışdır.

Erməni silahlı qüvvələri və terrorçu dəstələri 1991-ci ilin dekabrından başlayaraq Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə amansız və ardıcıl hücumlara başlayıblar. Bütün bu kəndlərin işğalı zamanı azərbaycanlılar vəhşicəsinə, xüsusi amansızlıqla öldürülmüş, kəndlər isə yandırılmışdır. İşğal ərzində Axund Məcid Sultanzadə, Hacı Qasımoğlu Hacı, Şeyx Mümtaz Mürşüdoğlu,... günahı olmadan güllələnmiş, meyitləri isə heyvanlar basdırılan «Qara torpaq» deyilən əraziyə tullanmışdır.

Xocalı Dağlıq Qarabağda Şuşadan sonra azərbaycanlıların yaşadıqları ikinci böyük yaşayış məntəqəsidir. 1990-cı ildə şəhər statusu almışdır. 1991-ci ilin məlumatına görə əhalisinin sayı 7 min nəfər idi. Dağlıq Qarabağdakı yeganə təyyarə meydanı Xocalıda yerləşirdi. Erməni separatçıları,

silahlı muzdlu dəstələr, terrorçu qruplar Xocalıda 7 min nəfər silahsız azərbaycanlıya ən dəhşətli və amansız divan tutdu.

* * *

Erməni silahlı birləşmələri Xocalını hər tərəfdən mühasirəyə almışdılar, yolları, keçidləri tutmuşdular. Elektrik enerjisi yox idi. Xocalının xarici aləmlə əlaqəsi 1991-ci ilin noyabrından etibarən ancaq radiotelefonla və mülki vertolyotlarla idi. 28.01.1992-ci ildə ermənilər tərəfindən Dağlıq Qarabağ üzərində Azərbaycan Hava Yolları Dövlət şirkətinə mənsub Mİ-8 markalı mülki vertolyot vurulduqdan və vertolyotda xeyli azərbaycanlı həlak olduqdan sonra Xocalı şəhəri ilə hava əlaqəsi də kəsilmişdi.

25.02.1992-ci il tarixdə saat 22 radələrində erməni silahlı qüvvələri Xocalı şəhərinə 366-cı motoatıcı alayının komanda heyəti və hərbi texnikası ilə birgə hücuma keçmişdi. Mayor Ohanyan Seyran Muşeqoviçin komandası (bu gün işğal olunmuş Dağlıq Qarabağdakı separatçı rejimin müdafiə naziridir) altında 366-cı alayın 2-ci batalyonu, Yevgeni Nabokinin komandası altında 3-cü batalyonu, qərargah rəisi Çitçiyan Valeriy İsayeviçin rəhbərliyi ilə isə həmin alayın 1-ci batalyonu Dağlıq Qarabağda ağır cinayətlər törətmiş, etnik təmizləmə siyasəti aparmışdır.

* * *

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələri Xocalı şəhərinə gecə saat 22 radələrində quldurcasına basqın etmiş, əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutmuş, sonra isə çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olmuş, evlərində yatmış dinc əhalini vahiməyə salaraq, onları vəhşicəsinə məhv etməyə başlamışlar. Bu zaman qadın, uşaq və ya qocaya aman vermədən qarşılarına çıxanı atəş yağışına tutmuş, tank, PDM və digər texnikanın altına salaraq əzmiş, məhv etmişlər.

Azğınlaşmış ermənilər azərbaycanlıları xüsusi amansızlıqla işgəncə verərək öldürürdülər. Onlar mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları da yollarda, keçidlərdə, meşələrdə pusqu quraraq tutur, vəhşicəsinə məhv edir, meyitlərə od vurub yandırırdılar.

1987-ci ilin oktyabrından 366-cı alayın tərkibində kiçik leytenant kimi hərbi qulluq edən, Tacikistanın Qarle yaşayış məntəqəsindən olan X.Sabirov Düşənbə şəhər prokurorluğuna verdiyi ifadələrdə qeyd edir: «Mən Xocalıda edilən güllələbaranlarda iştirak etmədim. Çünki ermənilər

məni alayın tərkibindən çıxarıb, qovmaq istədilər. Amma gec idi. 366-cı alayın rus, erməni silahlı birləşmələri Xocalı camaatını artıq qırırdılar. Günahı olmayan və silahsız insanlara hücumlar olunmuşdu».

* * *

Meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları: **baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, erməni qəbrinin üstündə azərbaycanlı başının qurbanlıq kimi kəsilməsi faktları müəyyən edilmişdir. Silahlı quldurlar qadına, qocaya və uşağa da fərq qoymadan hamıya işgəncə vermişlər. Qadınların döşlərinin kəsilməsi adi hal olmuşdur.**

**Müəyyən edilmişdir ki, 1956-cı ildə anadan olmuş din xadimi, RF-da islam dini təhsili almış Orucov Telman Ənvər oğlu Xocalı şəhərindən mühasirədən çıxıb qaçarkən, 26.02.1992-ci ildə Naxçıvanik kəndi yaxınlığında ermənilər onu güllə ilə vurub öldürmüş və başının dərisini soymuşlar.**

**Araşdırmalar zamanı məlum olmuşdur ki, təşkilatın din xadimlərindən: 1963-cü ildə anadan olmuş Mustafayev Vidadi Şəfa oğlu, 1962-ci ildə anadan olmuş Nuriyev Hafiz Yusif oğlu, 1968-ci ildə anadan olmuş İlyasov Əhməd Məmməd oğlu və başqalarının başı kəsilmişdir. Bakıdan olan Bədəlov Tofiq, 1961-ci ildə anadan olmuş Rəcəbov Cəbrayıl Mehti oğlu tankın altına atılmış, gözləri çıxarılmış, qulaqları kəsilmişdir.**

**Məmmədova Tamara Səlim qızı, Dadaşova Əsli Bəbir qızı, Əmirova Mahı Bəbir qızı, Hümbətova Ənahət Eldar qızı, Nuralıyeva Dilarə Oruc qızı və başqalarının gözləri çıxarılmış, döşləri kəsilmişdir. D.O.Nuralıyevanın qızıl dişləri isə öldürüldükdən sonra çıxarılmışdır.**

**Səlimov Bahadır Mikayıl oğlu, Aslanov İqbal Qulu oğlunun cinsiyyət üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışdır.**

**Səlimov Arzu Bahadır oğlunu tutaraq, körpə övladının gözü qarşısında dəmir dəyənəklə işgəncə verərək, döyüb öldürmüşlər.**

**Kərimova Firəngül Məhəmməd qızının bədəni tam doğranılmış, gözləri çıxarılmış, qulaqları və döşləri kəsilmişdir.**

Erməni separatçılarının din xadimlərinə qarşı terrorçuluğu ilə bağlı 27.02.1992-ci il tarixdə Qarabağ üzrə rayonlararası prokurorluq tərəfindən Azərbaycan Respublikası CM-nin 70-ci maddəsi, 94-cü maddənin 4, 6-cı bəndləri, 255-ci maddənin «v» bəndi ilə cinayət işi qaldırılmışdır.

* * *

1992-ci il fevralın 28-də Vyanada (Avstriya) nəşr edilən «Kudir» qəzeti belə bir məlumat dərc edir: «…Keçmiş Sovetlər İttifaqının məkanlarından birində baş verən dəhşətli yanğınlar fevralın 25-dən davam edir. Ermənilər bir yerə yığışaraq, rusların köməyi ilə Qara şəhəri (Qarabağı –***V.S., R.V.***) viran etdi… Moskvanın Vyanadakı diplomatlarından olan Oleq Aleksandroviç Ayvazyan iddia etdi ki, onun heç nədən xəbəri yoxdur» (?).

İspaniyada nəşr edilən «Levante» qəzeti isə 1992-ci ilin martın 3-də Valensiyadakı erməni icmasının başçısı Leon Toroyanın müsahibəsini dərc edir. O deyir: «…Ucqar bir yerdə torpaqlarımız uğrunda vuruşduq. İnsan azadlıq uğrunda vuruşa-vuruşa özünü dərk edir. Biz ermənilər indi-indi ayağa qalxırıq. Hər yerdə torpağımızı əlimizdən alıb, bizi qovublar…» (?).

1992-ci il martın 26-da isə eyni qəzetdə Kanada ermənisi, hüquqşünas Vaskel Sitaryan çıxış edərək göstərir: «…Biz ermənilər özümüz-özümüzü dünyada rüsvay etdik. Bizim üçün ağır olan Beynəlxalq məhkəmələr qurulacaq. Kimdir erməni millətini məhkəmə qapılarına sürükləyən?…».

* * *

Törədilmiş cinayətlərin nəticələri ağır, miqyası genişdir. Yaradılmış «Xocalı İstintaq Qrupu» bütün baş verənləri hələ də araşdırır, yeni fakt və sənədləri üzə çıxarır.

Qrupun üzvləri Tbilisi şəhərinin Vaziani stansiyasında cinayət törətmiş 366-cı alayın komandiri Y.Y.Zarviqarovu və alayın digər zabitlərini dindirməyə səy etsələr də, Xankəndi hərbi qarnizonunun keçmiş prokuroru Lazutkin, Zaqafqaziya Hərbi Dairəsi Qoşunları Komandanının müavini general Ohanov (milliyyətcə ermənidir) müstəntiqlərə maneçilik törədib dindirmələrə imkan vermədi.

Bütün bunlara baxmayaraq, Qırğızıstanın Qara-Balta yaşayış məntəqəsindən xidmətə çağırılan, 366-cı alayın tərkibində kiçik leytenant M.Umudyarov Bişkek şəhər prokurorluğuna verdiyi ifadələrdə etiraf etdi: «Xocalıda azərbaycanlıların kütləvi qırğınlarında iştirak etmişəm. Amma

heç kəsə güllə atmamışam... Orda uşaqları sıraya güzüb, gülləbaran edirdilər. Mən oradan qaçmalı oldum…»

* * *

Müəyyən edilmişdir ki, Xocalıda erməni quldurları vəhşicəsinə, xüsusi amansızlıqla **339** nəfər azərbaycanlını öldürmüş, **371** nəfəri əsir götürmüşlər. Onlardan əksəriyyəti müxtəlif vasitələrlə azad edilmişdir. **30** nəfər Xocalı sakini isə indiyədək ermənilərin əsirliyində qalmaqda davam edir. **421** nəfər Xocalı sakini müxtəlif dərəcəli bədən xəsarətləri alaraq, məhv olub sıradan çıxıb. Aparılan istintaq zamanı müəyyən edilmişdir ki, Xocalı hadisələri zamanı 120 nəfər də itkin düşüb.

* * *

Xocalı Beynəlxalq terrorizmin və separatizmin qurbanı oldu. Bu işğalçılıq siyasətinin də başında erməni silahlı birləşmələri, cinayətkar qruplar dayanırdı. İndi onların üzvlərinin bir qismi Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında müxtəlif vəzifələrə təyin edilib.

İstintaq zamanı müəyyən edilmişdir ki, Ermənistan Respublikası Yuxarı Qarabağda münaqişənin ilk günlərindən silah, döyüş sursatı, hərbi texnika ələ keçirərək, silahlı dəstələr yaradılması sahəsində güclü fəaliyyətə başladığı, respublikamızın ərazisinə təxribatçı qruplar göndərdiyi bir vaxtda respublika rəhbərliyi müdafiə qüvvələrinin yaradılmasını ləngitmiş, gözləmə mövqeyi tutmuşdur.

31 avqust 1991-ci il tarixdə SSRİ-in müdafiə naziri Şapoşnikov Azərbaycan Respublikası Prezidenti Ayaz Mütəllibova məktubla müraciət edib, müttəfiq respublikalarda Milli Qvardiya və ya Müdafiə Nazirliyi yaratmaq təklifi irəli sürmüşdür.

Mərkəzin bu təşəbbüsündən sonra respublika prezidenti 334 №-li 5 sentyabr 1991-ci il tarixli Fərmanla Azərbaycan Respublikası Müdafiə Nazirliyini yaratmış, müdafiə naziri vəzifəsinə Bərşadlı Valeh Əyyub oğlunu təyin etmişdir və bununla da işini bitmiş hesab etmişdir. Faktiki olaraq, ordu quruculuğu işi ilə heç kim məşğul olmamışdır. Müdafiə Nazirliyi və Silahlı Qüvvələr yalnız kağız üzərində yaradılmışdır.

* * *

Respublika ərazisində yerləşən SSRİ Silahlı Qüvvələrinin 4-cü Ordu hissələri respublika Ali Sovetinin 09 ok-tyabr 1991-ci il tarixli qərarı ilə milliləşdirilərək, respublika prezidentinin sərəncamına verilməsinə baxmayaraq, ordu komandanlığı hissələrin inventarlaşdırılıb, respublika tabeçiliyinə keçirilməsinə imkan verməmiş və Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyinin qorxaqlığından, cəsarətsizliyindən və habelə Azərbaycan Xalq Cəbhəsinin keçirdiyi ağılsız tədbirlərin nəticəsindən hər şey pozulmuşdur. Faktiki olaraq, Azərbaycan dövləti başsız qalmışdı. Onun dağılması, parçalanması labüd idi.

Altı ay ərzində dörd Müdafiə Nazirinin dəyişdirilməsi respublika Silahlı Qüvvələrinin qoşun kontingentinə böyük psixoloji, mənəvi ziyan vurmuşdur (məsələn, V.Bərşadlı 05.09.1991-ci ildən 11.12.1991-ci ilə kimi, T.Mehdiyev 12.12.1991-ci ildən 11.02.1992-ci ilə kimi, Ş.Musayev 11.02.1992-ci ildən 24.02.1992-ci ilə kimi, T.Əliyev 24.02.1992-ci ildən 07.03.1992-ci ilə kimi müdafiə naziri işləmişlər).

* * *

Oktyabr-dekabr aylarında keçirilməli olan həqiqi-hərbi çağırış üç ay gecikdirilmişdi (çağırış barədə fərman Respublika Prezidenti tərəfindən 05 dekabr 1991-ci ildə verilmiş, çağırış kampaniyası isə 1991-ci ilin dekabrından 1992-ci ilin 1 martına kimi keçirilmişdir). Halbuki, qüvvədə olan hərbi təlimatlara görə bir döyüşçünün hazırlanmasına üç ay vaxt tələb edilir. Kurslara görə gənc döyüşçünün hazırlıq proqramı 72 saat, döyüş hazırlığı proqramı 120 saat, mütəxəssis hazırlanması proqramı 520 saat olduğu nəzərə alınarsa, çağırışın üç ay gecikməsi nəticəsində respublikamızın Silahlı Qüvvələri yaradılması prosesinə hansı həcmdə ziyan vurulduğu aydın olur.

* * *

O vaxt ordu sıralarına çağırış da yarıtmaz təşkil olunurdu. Müdafiə naziri və respublikanın hərbi komissarı vəzifəsini eyni vaxtda icra edən T.Mehdiyev bütün çağırışçıların ordu sıralarına aparılmamasının səbəbini 4-cü Ordunun kazarmaları təhvil verməməsində görürdü.

Halbuki, istintaq zamanı müəyyən edilmişdir ki, respublikamızda kifayət qədər çağırışçı qəbul edib döyüşçü hazırlamaq üçün baza var idi. Bu hərbi-təlim bazalarında 30 min döyüşçü hazırlamaq imkanı olub. Eyni za-

manda 1992-ci ilin yanvar-fevral aylarında təşkil olunmuş hərbi hissələrə də biganə yanaşılırdı.

* * *

İstintaqla müəyyən edilmişdir ki, müdafiə naziri, general V.Bərşadlının 19.11.1991-ci il tarixli əmri ilə respublikanın Ermənistan və Dağlıq Qarabağla sərhəd olan 22 rayonunda, o cümlədən də Xocalı şəhərində ərazi özünümüdafiə batalyonları yaradılmışdır. Xocalı şəhər özünümüdafiə batalyonu əsasən Xocalı əhalisindən təşkil olunmuşdu. Batalyonun komandiri Xocalı şəhər orta məktəbində hərbi təlim üzrə müəllim, ehtiyatda olan baş leytenant Tofiq Mirsiyab oğlu Hüseynov təyin edilmişdir. Batalyonun şəxsi heyəti 237 nəfər zabit və əsgərdən ibarət idi.

* * *

Xocalı şəhəri uzun müddət ermənilərin mühasirəsi vəziyyətində olmuşdur. Xocalı şəhərinə gediş-gəliş hərbçilərin müşayiəti ilə və ya hava yolu ilə həyata keçirilirdi.

1991-ci ilin noyabrında keçmiş SSRİ DİN-in qoşunları Dağlıq Qarabağdan çıxarıldıqdan sonra Xocalıya quru yolla gediş-gəliş tam kəsilmişdir. Xocalı ilə əlaqə ancaq Zabrat xüsusi aviasiya birliyi «Azalaero»nun vertolyotları vasitəsilə həyata keçirilmişdir. 28.01.1992-ci ildə Ağdam-Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulduqdan sonra, Xocalı şəhəri ilə vertolyot əlaqəsi də kəsilmişdir.

* * *

Faciəsi baş verən ərəfədə yalnız bir dəfə Xocalı şəhərinə 4 Mİ-26 markalı nəqliyyat vertolyotu uçmuş və 120 nəfərdən çox sakin Xocalıdan çıxarılmışdır. (120 nəfərin hansı istiqamətdə aparılması haqqında heç bir məlumat yoxdur.) Sonralar vertolyot üçün dəfələrlə müraciət edilməsinə baxmayaraq, MDB hərbi vertolyot eskadrilyasının komandiri Zolotuxin Xocalı şəhərinə vertolyot göndərilməsindən imtina etmişdir. Bu məsələ ilə əlaqədar müraciət edən şəxslərə isə Zaqafqaziya Qoşunları Hərbi Dairəsi komandanının müavini Qrekov və başqa yüksək rütbəli zabitlər Azərbaycanın MDB-yə daxil olması zərurətinə işarə etmişlər.

Müəyyən edilmişdir ki, Xocalının mühasirədə olması, əhalinin çıxılmaz vəziyyətə düşməsi Xocalı şəhərinin ermənilər tərəfindən işğal olunacağının

labüd olduğu respublikada hamıya: hakimiyyətdə, eyni zamanda müxalifətdə olan qüvvələrə məlum idi. Dağlıq Qarabağda hadisələrin inkişafı bunu göstərirdi. Lakin fərasətsizliyi, səriştəsizliyi və qətiyyətsizliyi bir yana qalsın, özünün birbaşa konstitusion səlahiyyətlərini icra etmək fikrindən uzaq, xalqın düçar olduğu və baş verəcəyi açıq-aşkar görünən fəlakətə biganə yanaşan, onun qarşısını almaq haqda düşünmək belə istəməyən respublika Prezidenti Ayaz Mütəllibov və başqa rütbəli məmurlar, Təhlükəsizlik Şurasının üzvləri sanki qəflət yuxusunda idilər.

* * *

Qarabağ zonasında vəziyyətin ağırlaşması ilə əlaqədar olaraq, respublika prezidenti 02.01.1992-ci il tarixli Fərmanı ilə Xankəndi şəhəri, Şuşa, Ağdərə, Xocavənd, Xocalı, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xanlar, Goranboy və Tərtər rayonlarını əhatə edən ərazidə Prezident İdarə Üsulu tətbiq etmiş, ərazinin idarə olunmasını prezident müvəkkili M.S.Məmmədova tapşırmışdır.

21.01.1992-ci il tarixdə prezident müvəkkili M.S.Məmmədov Qarabağ zonasında vəziyyət və onun sabitləşdirilməsi üçün lazım olan tədbirlər barədə respublika prezidentinə arayış təqdim etmişdir. Arayışda ermənilərin hərbi gücünün həm canlı qüvvə, həm də texnika cəhətdən azərbaycanlılardan üstün olduğu göstərilir, eyni zamanda vəziyyəti sabitləşdirmək üçün təkliflər irəli sürülürdü. Birinci təklif Qarabağda olan pərakəndə silahlı qüvvələrin vahid komandanlıq altında birləşdirilməsi olmuşdur.

* * *

10.02.1992-ci il tarixdə Prezident Ayaz Mütəllibov Qarabağ ərazisində olan silahlı qüvvələrin üzərində vahid komandanlıq yaradılması barədə 2 və 3 №-li əmrlər vermişdir.

2 №-li əmrdə vahid komandanlıq Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, Qarabağ zonası üzrə Daxili İşlər idarəsinin rəisi T.Əliyevə tapşırılmışdır. Elə həmin əmrdə Goranboy ərazisində müdafiənin təşkili respublika müdafiə nazirinin müavini D.Rzayevə həvalə olunduğu göstərilir. Əmrin başqa bir bəndində Qarabağ zonasına daxil olan Şuşa şəhərinin müdafiəsi R.Qazıyevə həvalə edilmişdir.

* * *

Hadisələrin sonrakı inkişafı göstərdi ki, prezident sərəncamları elə havada qalası kağız parçası kimi idi. Həmçinin T.Əliyev prezidentin 18.02.1992-ci il tarixli 577 №-li Fərmanı ilə üzərində olan üç vəzifə saxlanılmaqla Ağdam şəhərinin komendantı təyin edilmişdi. O, 21.02.1992-ci il tarixdə Bakıya, prezident iqamətgahına çağırılıb, 24.02.1992-ci il tarixli Fərmanla respublikanın müdafiə naziri təyin edilir.

T.Əliyev göstərilən vəzifələrə təyin edilərkən, əvvəllər tutduğu vəzifələrin heç birindən azad edilməmiş, həmin vəzifələrə heç bir şəxs təyin olunmamış, ancaq 28.02.1992-ci ildə Xocalı hadisələrindən sonra Qarabağ zonası üzrə Silahlı Qüvvələrə komandanlıq D.Rzayevə, Ağdam şəhərinin komendantlığı isə Ağdam rayon DİŞ-nin rəisi R.Məmmədova tapşırılması barədə Fərman verilmişdir.

* * *

İstintaqla müəyyən edilmişdir ki, Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri olan Hacıyev Fəhmin Əhmədpaşa oğlu Nəsimi rayon Xalq Məhkəməsinin 11 yanvar 1983-cü il tarixli hökmü ilə Azərbaycan Respublikası CM-nin 147-ci maddəsinin 2-ci hissəsi ilə dələduzluq üstündə məhkum edilmişdir. 1989-cu ildə Biləcəri çağırış məntəqəsinin normal iş fəaliyyətini pozduğuna görə haqqında Azərbaycan Respublikası CM-nin 188-3-cü maddəsi ilə cinayət işi qaldırılmışdır. O,1990-cı ilin fevralında Sovet Ordusunun polkovniki rütbəsində Qubadlı rayonu ərazisində saxlanılmış, üstündə qanunsuz gəzdirdiyi silah müəyyən edildiyindən həbs edilmişdi. Haqqında Azərbaycan Respublikası CM-nin 220-ci maddəsinin 1-ci hissəsi ilə cinayət işi qaldırılmışdır. Hər iki iş bir icraatda birləşdirilərək, baxılmasından ötrü Bakı şəhər Məhkəməsinə göndərilmiş, 05.11.1990-cı ildə iş əlavə istintaqa qaytarılmışdı. Əlavə istintaq zamanı Hacıyev haqqında seçilmiş həbs-qəti imkan tədbiri dəyişdirilərək, o, azadlığa buraxılmışdır. Haqqında olan cinayət işinə isə 08.07.1992-ci il tarixli qərarla xitam verilmiş, onun törətdiyi cinayət hərəkətləri respublikanın azadlığı uğrunda mübarizə kimi qəbul edilmişdir (?).

* * *

Prezidentin Fərmanı ilə 11.12.1991-ci ildə V.Bərşadlının yerinə T.Mehdiyev müdafiə naziri təyin edildikdən sonra F.Hacıyev onun əleyhinə piketlər təşkil edərək istefasını tələb etmişdir. T.Mehdiyev piket təşkilatçılarını qəbul edərək, onlardan Müdafiə Nazirliyinin işinə maneçilik törətməməyi

xahiş etmiş, Müdafiə Nazirliyi ilə əməkdaşlığa çağırmışdır. F.Hacıyev bu təkliflə razılaşdıqda, T.Mehdiyev 03.01.1992-ci il tarixli əmri ilə ehtiyatda olan serjant F.Hacıyevi tərbiyə işləri üzrə nazir müavini vəzifəsinə təyin etmişdir. Bundan üç gün sonra isə MN müavini vəzifəsinə təyin etmək hüququ prezidentin səlahiyyətlərinə aid olduğundan T.Mehdiyev 06.01.1992-ci il tarixli əmri ilə F.Hacıyevin müdafiə nazirinin müavini təyin edilməsi barədə öz əmrini ləğv etmişdir.

* * *

06.01.1992-ci ildən 01.02.1992-ci ilə kimi F.Hacıyevin Müdafiə Nazirliyində hansı vəzifədə işləməsi barədə heç bir əmr müəyyən etmək mümkün olmamışdır. Ancaq ifadələrlə müəyyən edilir ki, həmin vaxt ərzində F.Hacıyev Silahlı Qüvvələrin qərargahında işləmişdir. 01.02.1992-ci ildən isə müdafiə nazirinin vəzifəsini icra edən Ş.Musayevin əmri ilə (törətdiyi ağır cinayətlərə görə bu gün axtarışda olan rus generalı) F.Hacıyev leytenant rütbəsində hərbi qulluğa qəbul edilib, Əməliyyat İdarəsinin baş zabiti vəzifəsinə təyin edilmişdir (?).

15 fevral 1992-ci il tarixdə Ş.Musayev F.Hacıyevə müdafiə naziri əvəzi və baş qərargah rəisinin səlahiyyətli nümayəndəsi olması barədə vəsiqə verib onu Ağdama göndərmişdir (ona həmçinin qarşıya çıxan çətinlikləri (?) yerindəcə həll etmək hüququ da verilmişdi).

* * *

Həmin gün Ağdama gələn F.Hacıyev Qarabağ zonası üzrə silahlı qüvvələrin vahid komandanı T.Əliyevin iş otağını zəbt etmiş, giriş qapılarını qorumaq üçün silahlı şəxslər təyin etmişdir. Az keçmir ki, o, özünü prezident tərəfindən göndərilən səlahiyyətli nümayəndə, bütün Silahlı Qüvvələrin komandanı elan edir.

* * *

17.02.1992-ci il tarixdə Ağdam rayon daxili işlər şöbəsinin rəisi kabinetində keçirilən, Ağdamda yerləşən bütün silahlı qüvvələrin komandirlərinin iştirak etdiyi müşavirədə Qarabağ zonası üzrə Daxili işlər idarəsi rəisinin müavini Ş.Cahangirov Xocalı əhalisinin mühasirədən çıxarmaq üçün D.Rzayev tərəfindən hazırlanmış əməliyyat planını təqdim edir. Müşavirədə özünü komandan kimi aparan F.Hacıyev əməliyyatın həmin plan əsasında keçirilməsini qadağan edir və Xocalını mühasirədən çıxarmaq üçün əməliy-

yatın aparılmasına rəhbərliyi öz üzərinə götürdüyünü bildirir (bu fakt «Xocalı işi»ndə ətraflı şərh olunub – *R.V.*).

* * *

21, 22, 23, 24, 25 fevral 1992-ci il tarixlərdə, hər gün F.Hacıyev Xocalı şəhərini mühasirədən çıxarmaq üçün əməliyyatın başlama vaxtını təyin etmiş, hər dəfə də müxtəlif bəhanələr irəli sürərək əməliyyatın keçirilməsini Xocalı faciəsi baş verənədək başqa günə keçirmişdir.

23.02.1992-ci il tarixdə «Qrad» qurğularını səbəb göstərmədən Ağcabədi rayonunun aeroportuna apartdirmışdır. Xocalı faciəsi baş verərkən «Qrad» qurğuları Ağdamda yerləşdirilmədiyindən, hücum edən ermənilərə qarşı həmin qurğulardan vaxtında istifadə etmək mümkün olmamışdır.

25.02.1992-ci il tarixdə axşam saat 22 radələrində erməni quldurları Xocalı şəhərinə hücum edərkən F.Hacıyev Ş.Mirzəyevin batalyonunda olmuş, Xocalı əhalisini qırğından qurtarmaq üçün nə o, nə də Ş.Mirzəyevin batalyonu heç bir tədbir görməmişdir.

* * *

Asif Məhərrəmov, Allahverdi Bağırov və Yaqub Rzayevin başçılığı altında Ağdam rayonunun özünümüdafiə dəstələri Xocalı şəhərindən qırğından canlarını qurtarıb qaçan əhalinin yolunu ermənilərdən təmizləmək üçün, erməni mövqelərinə hücum edib döyüşə atılanda F.Hacıyev gizlənmişdir. Ş.Mirzəyevin və X.Xudiyevin komandir olduğu batalyonlar isə gözləmə mövqeyi tutmuşdular. Səlahiyyətlərinin alındığını bəhanə edən F.Hacıyev isə onlara heç bir əmr verməmişdir.

Həmçinin, F.Hacıyev Xocalı əhalisinin gizli yollarla mühasirədən çıxarılmasından ötrü Qarabağ zonası üzrə Milli Təhlükəsizlik İdarəsi tərəfindən ona təqdim edilən bələdçiləri yanından qovmuş, insanları qırğına vermişdir.

* * *

1991-ci ilin payızından başlayaraq, ermənilərin Dağlıq Qarabağdan kütləvi surətdə qovduqları azərbaycanlılar, əsasən, Ağdam şəhərinə pənah gətirirdilər. 15.02.1992-ci il tarixdə Qaradağlı kəndinin işğalı Ağdamda hadisələri daha da şiddətləndirdi. On minlərlə qaçqın hər gün Ağdam şəhərinin mərkəzi meydanında mitinqlər keçirirdi. Qaçqınlar əhalinin təhlükəsizliyinin təmin edilməsi tələbi ilə Qarabağ zonası üzrə Daxili İşlər İdarəsinin binasına basqın edib, pəncərə şüşələrini sındırır, telefon xətlərini qırırdılar. Belə bir vəziyyətdə respublika Daxili İşlər nazirinin 18.02.1992-ci il tarixli

əmri ilə Ağdam rayon DİŞ-in rəisi İslah Paşayev vəzifəsindən azad edildi. Onun yerinə Rəşid Məmmədov adlı bir zabit təyin edildi. Ayaz Mütəllibovun 21 fevral 1992-ci il tarixli Fərmanı ilə Ağdam rayon İcra hakimiyyəti başçısı Səyyaf Verdiyev vəzifəsindən azad olundu. Bütün bu gülünc və həm strateji, həm də taktiki cəhətdən səhf olan yerdəyişmələr regionda yeni faciələrin başlanğıcını qoyurdu.

* * *

Xocalı hadisələri ərəfəsində Ağdam şəhərində əsl özbaşınalıq idi. Hakimiyyətsizlik, mənəm-mənəmlik, savadsızlıq və səriştəsizlik əhalini əldən salmışdı.

24 fevral 1992-ci il tarixdə saat 22 radələrində Ağdam-Əsgəran yolu ilə Xramort kəndinə kəşfiyyata gedən Xüsusi Təyinatlı Milis Dəstəsi ilə «Qarabağ» könüllülər dəstəsinin 18 üzvü yük maşınında naməlum səbəbdən qəzaya düşürlər. Nəticədə döyüşçülərdən üç nəfəri partlayış nəticəsində ağır bədən xəsarəti alaraq, ömürlük şikəst olur.

23-26.02.1992-ci il tarixlərdə Ağdam rayonu ərazisində yerləşən Uzundərə hərbi sursat anbarının və mühəndis-istehkamçı batalyonunun əmlakı zəbt edilir. Böyük miqdarda döyüş və hərbi sursat hər necə gəldi dağıdılıb, sıradan çıxarılır.

İstintaq zamanı tam sübuta yetirilmişdir ki, 15-25.02.1992-ci il tarixlərdə Xocalı əhalisini mühasirədən itkisiz, hava yolu ilə, vertolyotlar vasitəsilə çıxarmaq üçün respublikamızda imkan var idi.

* * *

İstintaq zamanı aydın olub ki, Respublika müdafiə nazirini əvəz edən, insanları qırğına verən Baş Qərargah rəisi Ş.Musayevin bilavasitə öz tabeçiliyində 8 ədəd Mİ-24 markalı hərbi vertolyot olub. Sonra bu vertolyotlar Səngəçal ərazisindəki hərbi hissədən Zabrat aeroportuna gətirilib. Kimin üçün, nə üçün? Bütün bu sualların cavabları hələlik açıq qalıb.

* * *

Müəyyən edilmişdir ki, Xocalı hadisələri ərəfəsində «Azalaero» aviaşirkətin sərəncamında onlarla sərnişin daşıyan Mİ-8 markalı vertolyot uçuşa hazır vəziyyətdə olub. Doğrudur, 28.01.1992-ci il tarixdə Şuşaya uçan vertolyotlar ermənilər tərəfindən vurulduqdan sonra mülki vertolyotlarla uçuşlar dayandırılmışdı. Ancaq hərbi vertolyotların müşayiəti ilə sərnişin vertolyotlarının uçuşunu təmin etmək mümkün idi. Buna hər cür imkan var idi.

Şübhəsiz, Xocalı şəhər əhalisinin evakuasiyası barədə qərar hökumət səviyyəsində qəbul edilməli idi. Çünki belə göstəriş var idi. 1986-cı il

DNQO-0014 №-li direktivinə görə, hər hansı bir yaşayış məntəqəsinin evakuasiyası barədə qərar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilməli idi.

* * *

Törədilən cinayətlər nəticəsinə görə həm təəssüf doğurur, həm də bizi düşündürməyə bilmir. Səhlənkarlıq, etinasızlıq, səriştəsizlik və bir də ağılsızlıq (başqa cür demək mümkün deyil) insanların kütləvi şəkildə qırılmasına, yurd yerlərinin böyük dağıntısına, ağlagəlməz itkilərə səbəb oldu.

O vaxtkı Azərbaycan rəhbərliyinin buraxdığı bağışlanmaz kobud taktiki və strateji səhvlərdən istifadə edən erməni terror birləşmələri, silahlı separatçıları, muzdlu dəstələr Dağlıq Qarabağın yaşayış məntəqələrini viran qoydular, Qaradağlıda, Meşəlidə, Xocalıda, Bağanis-Ayrımda… əsl etnik təmizləmə siyasəti apardılar. Azərbaycanlılara qarşı erməni genosidinin yaratdığı faciələr artıq inkar edilə bilməz. Buna heç kəsin, heç bir beynəlxalq qurumun, erməni havadarlarının… və qəyyumlarının gücü çatmaz. Fakt faktlığında qalır. Maraqlıdır ki, bu gün ermənilərin özləri də 1990-94-cü illərdə Azərbaycanın Qarabağ bölgəsində törətdikləri vəhşiliklərdən artıq qorxurlar. Qorxurlar ona görə ki, nə vaxtsa bütün bunların qisası alınacaq, işğal altında saxlanılan torpaqlar azad olacaq.

* * *

Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımıza, millətimizə qarşı aparılan soyqırımla bağlı, törədilən cinayətlərlə bağlı xüsusi kartotekalar tərtib olunub. Burada cinayətləri sübuta yetirilmiş, ermənilərdən ibarət böyük terrorçu qrupun üzvlərinin hər biri haqqında kifayət qədər material var.

Xocalı soyqırımı ilə bağlı 200 nəfərdən çox cinayətkar (erməni və rus millətindən olan) haqqında dəyərli fakt və sənədlər yığılıb. Əldə olunan videolentlər, sənədlər, dindirmə protokolları, foto-şəkillər, ifadələr… təkzib olunmaz fakt kimi saxlanılır. Çünki Azərbaycan xalqına qarşı törədilən qanlı erməni faciələri ilə bağlı istintaq hələ bitməyib. İstintaq davam edir…

Tarix separatçıların liderləri olan Zori Balayanı, Arkadi Qukasyanı, Robert Köçəryanı, Serj Sarkisyanı, Seyran Ohanyanı… ifadələri alınmaq üçün «həqiqət kürsüsü»nə «dəvət edəcək».

İstintaq materiallarından, dindirmə protokollarından və lentə alınmış foto-şəkillərdən aydın olur ki, erməni separatçıları Xocalıda insan hüquqlarına dair bütün qəbul olunmuş Beynəlxalq Konvensiyaların şərtlərini kobud şəkildə pozmuşlar.

P.S: Materiallar Respublika Baş Prokurorluğunun, MTN-nin və DİN-nin birgə "İstintaq qrupu"nun 1994, 1995-ci illərin 25093, 32996, 44323, 52119, 55263 saylı istintaq sənədləri, şahid dindirmə protokolları əsasında hazırlanıb.

### *Azərbaycan xalqına qarşı Dağlıq Qarabağda Xocalıda etnik təmizləmə siyasətinə başçılıq edən, qırğınlar törədən qruplara yardımçı olan TERRORÇU ERMƏNİLƏRİN SİYAHISI*

| Sıra № | Adı, soyadı, atasının adı |
|---|---|
| 1 | İsrayelyan Boris İsraeloviç |
| 2 | Qriqoryan Anton Artsronikoviç |
| 3 | Qaramyan Suren Nikolayeviç |
| 4 | Arakelyan Marat Borisoviç (yepiskop) |
| 5 | Balayan Emil Vartanoviç |
| 6 | Qriqoryan Aleksandr Stepanoviç |
| 7 | Qayamayan Qabriel Gevorkoviç |
| 8 | Vartanyan Melik Yenokoviç |
| 9 | Cavaxyan Qriqoriy Eduardoviç |
| 10 | Akopyan Armais Yaşayeviç (keşiş) |
| 11 | Terzikyan Sergey Vanikoviç |
| 12 | Arutyan Movses Aşotoviç (Suriyadan gəlmiş keşiş) |
| 13 | Dulunts Movses Qaraşoviç |
| 14 | Saroyan Armais Vladimiroviç |
| 15 | Saakyan Qrışa Sergeyeviç (keşiş) |
| 16 | Ayanyan Sarkis Taşisoviç (keşiş) |
| 17 | Gevorkyan Nikolay Mixakoviç |
| 18 | Safaryan Mixail Abramoviç |
| 19 | Nolyan Aleksandr Robertoviç |
| 20 | Mejyan Albert Manveloviç (keşiş) |
| 21 | Akopoxvyan Melki Armaisoviç |
| 22 | Qriqoryan Karen Papikoviç |

| | |
|---|---|
| 23 | Markosyan Papik Aykazoviç |
| 24 | Zarkaryan Daniel Vasilyeviç |
| 25 | Caqaryan Mixail Sarkisoviç |
| 26 | Akopyan Sarkis Arutyunoviç |
| 27 | Qriqoryan Qevorq Vaqanoviç |
| 28 | Xaçatryan Valeriy Mövsesoviç |
| 29 | Saakyan Martik Aleksandroviç |
| 30 | Markosyan Nikolay Rantikoviç |
| 31 | Qurqazaryan Papik Arşakovıç |
| 32 | Ağacanyan Aşot Arşaviroviç |
| 33 | Markosyan Yurik Aykazoviç |
| 34 | Ayriyan Seyran Qriqoryeviç |

**QEYD:** Separatçıların ideoloqu Z.Balayanın, R.Köçəryanın, A.Qukasyanın, S.Sarkisyanın adları, zaman gələcək, beynəlxalq qurumlarda dünyanın ən qəddar terrorçuları ilə eyni cərgədə çəkiləcək. X-XV əsrlərdə baş verən müharibələri, münaqişələri araşdıran, tədqiq edən müsəlman sərkərdəsi Əmir Saleh «Qiyamət günü» əsərində yazır: ***«…İnsanları diri-diri yandıranları, uşaqları, şikəst qocaları, hamilə qadınları əzib, məhv edən, öldürən, təhqir edən kəslərin əslnəcabətləri olmaz. Belələri ilə yol getmək, süfrələrində çörək kəsmək, onlara yardımçı olmaq… bütün bunları mənsub olduğun millətə xəyanət sayıram…»***. (Bax:Saleh Ə.Ş. "Qiyamət günü". Tarixi-siyasi roman. Beyrut (Livan). "NİA"-informasiya agentliyinin mətbəəsi. 1982. s.41)

## XOCALI KONFRANSI

Araşdırma materiallarına görə, Ermənistanın Eçmiədzin (üç kilsə) yaşayış məntəqəsi tədricən «Qadağan olunmuş zona» statusunu alacaq. Bu status ona Ermənistan Prezidentinin Təhlükəsizlik Şurasında verildi. 2012-ci il sentyabrın 4-nə olan məlumata görə Eçmiədzində «Xüsusi Kəşfiyyat Xidməti Mərkəzi» yaradılıb. Kəşfiyyat Mərkəzi Amerikanın Federal Təhqiqat Bürosunun planı əsasında qurulub və Fransa tərəfindən ən qiymətli elektron-kəşfiyyat qurğuları ilə təchiz edilib. Eçmiədzin-dəmiryol stansiyasından 15 km aralı yerləşən və Yerevanın təqribən 30 km.liyində mövcud olan bu ideoloji mərkəzin yeni kəşfiyyat xidmətində Ermənistanın xaricdəki diplomatik korpusları və diaspor təşkilatları üçün də kadrlar hazırlanır. 1914-cü ildən Vatikanla sıx əlaqələrə malik olan bu qurumun illik büdcəsini isə fantastik rəqəmlər təşkil edir. Məlumata görə, xaricdəki erməni diaspor təşkilatları bu qurumun büdcəsinin artırılmasında maraqlı olaraq qalırlar.

Məlumata görə, mərkəz erməni terrorçuları tərəfindən işğala məruz qalmış Qarabağla əlaqəli yeddi yüz altmış beş müxtəlif məxfi sənəd əldə edib. Sənədlərin böyük qismi Parisdən, Vyanadan, Strassburqdan, Vaşinqtondan, Ankaradan, Bakıdan, Tehrandan, Londondan, Moskvadan, Tbilisidən... və eləcə də, bir sıra Şərqi Avropa ölkələrindən əldə edilib.

Dövlətlərin hüquq və vəzifələri haqqında 1933-cü il tarixli Montevideo Konvensiyasında qeyd edilmişdir ki, heç bir dövlətin digər dövlətin daxili və xarici işlərinə qarışmaq hüququ yoxdur. 1965-ci ildə isə bu məsələ BMT-nin Bəyannaməsində ətraflı təhlil edilmişdir. Məsələn, «Dövlətlərin daxili işlərinə qarışmamaq prinsipinin normativ məzmununa aşağıdakılar daxildir: dövlətin suverenliyinə və onun siyasi-iqtisadi (həmçinin tarixi – ***V.S., R.V.)*** əsaslarına qarşı yönəlmiş silahlı müdaxilə və digər müdaxilə formaları qadağandır; heç bir dövlət başqa bir dövlətin onun öz suveren hüquqlarını həyata keçirmədə özünə tabe edilməsinə və bununla ondan hər hansı bir imtiyaz əldə edilməsinə nail olmaq üçün hərbi, siyasi və ya istənilən digər məcburiyyət tətbiq edilə bilməz; başqa bir dövlətin qurulmasının zorakı yolla dəyişdirilməsinə yönəlmiş təxribatçı və ya terrorist fəaliyyətinin təşkili və ya dəstəklənməsi yolverilməzdir; başqa bir dövlətdə silahlı münaqişəyə müdaxilə qadağandır; hər bir dövlət digər bir dövlətin (və beynəlxalq hüququn digər subyektlərinin) müdaxiləsi olmadan öz siyasi, iqtisadi, sosial və mədəni sistemini seçmək hüququna malikdir…»




*Xocalıda erməni terrorçularının bir ailənin başına gətirdikləri müsibət*




*Erməni terrorizmi. Bakı-Gəncə avtobusunun partladılması*




*“ASALA”nın vurduğu sərnişin vertolyotu*




*Xocalıda baş verən erməni terrorunun qurbanları*




*Qarabağda ermənilərin diri-diri yandırmağa cəhd etdikləri qadın*



*''ASALA'' xətti. Partladılmış Azərbaycan qatarı*




*Erməni terroruna məruz qalmış ailə*




*Erməni terrorçuları tərəfindən*
*başı kəsilmiş azərbaycanlı*




***Bu cinayətə kim cavab verəcək?***




*Viranə qalmış Şuşa*




*"ASALA" erməni terror təşkilatının törətdiyi cinayət*




*Erməni işğalçıları tərəfindən dağıdılmış Zəngilan*




*Erməni işğalçıları tərəfindən dağıdılmış Qubadlı*




*Gözü çıxarılmış azərbaycanlı*




*Partladılmış qatar*




*Xocalıda kimyəvi silahlara məruz qalmış azərbaycanlılar*

Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın Beynəlxalq terrora qarşı yeni yüzillikdəki ən yeni strateji model kimi qəbul etdiyimiz «Xocalıya Ədalət!» çağırışının əsas mahiyyətini də əslində, qeyd olunmuş prinsiplər təşkil edir.

Erməni separatçıları Xocalıyla bağlı on yeddi dəfə məxfi qaydada yığıncaq və görüşlər keçiriblər. İstintaq materiallarına görə həmin görüşlərdən ikisi Bakıda baş tutub.

Araşdırma materiallarına görə, 2013-cü il aprelin 24-də adları ABŞ Dövlət Departamentinin rəsmi sənədlərində çəkilən terror qruplarının üzvləri və rəhbərlərinin iştirak etdiyi «Üçüncü Eçmiədzin Konfransı»nda Xocalının adı qeyd olunub. Ciddi bir konfrans olub. (Birinci Eçmiədzin Konfransı 1989-cu ilin dekabrın 14-də olub). Türkiyənin sağ ekstremist təşkilatının (DEB sol) lideri olan Dursun Kartaş oradakı çıxışında ümumən Avropada fəaliyyət göstərən türk diasporunu zəifllədəcəyinə, onun liderlərinə qarşı amansız mövqe tutacağına söz verdi. Və yaxud sənədlərində nəzarətsiz zona kimi qeyd olunan «Müstəqil Aqex hərəkatı»nın (İndoneziya) lideri Dr. Zeyni Abdullanın birbaşa Eçmiədzinlə  Azərbaycana qarşı Qarabağ torpaqlarının azad olunması istiqamətində mübarizəyə qoşulması və xaricdəki erməni diaspor təşkilatlarına dəstək olması ilə bağlı tutduğu separatçı mövqe, eləcə də, «Fərhanə Qrupu»nun (Hindistan) «19 aprel hərəkatı» (Kolumbiya), «Anarxist təxribat fraksiyası» (Yunanıstan), «DRO» (Ermənistan), «Kürd Demokratik Partiyası» (İran), eləcə də Meksikada, Argentinada, Avstraliyada fəaliyyət göstərən erməniyönümlü terrorçu qrupların nümayəndələrinin separatçı baxışları müzakirə olundu. 1996-cı il avqustun 22-də davam edən «Dördüncü Eçmiədzin Konfransı»nda Böyük Britaniyadan, ABŞ, Fransa, RF, Estoniya, İraq, Livan, Suriya, İran, Türkiyə, İsraildən dəvət olunmuş terrorçu nümayəndələr, etnik qrupların üzvləri də iştirak edirdilər. Məsələn, talış xalqının (?) nümayəndəsi hesab edilən Qibləzadə Tofiq və Moskvada əsası qoyulan «Böyük Ləzgistan» separatçı dəstəsinin liderlərindən olan Əlixan Daşdayeviç iddia edirlər ki, Qarabağ «Müstəqil Artsax Respublikası» kimi tanınmalıdır. Buna onun hüququ var və bu istiqamətdə ermənilərin keçmiş İttifaq ərazisindəki diaspor təşkilatları ilə sıx əlaqə yaradacaqlarına söz verdilər (?).  Başqa bir məlumatda isə bildirilir ki, 2012-ci il aprelin 19-da qondarma «Artsax erməni respublikası», «Böyük Ləzgistan respublikası», «Böyük Talışıstan respublikası» (Talış Muğan respublikası) arasında, müəmmalı da görünsə, «Təhlükəsizlik Haqqında Memorandum» imzaladılar.

Məlumata görə, «Eçmiədzin» konfranslarında təqribən 500 separatçı iştirak edib. İstintaq materiallarında toplanmış separatçı erməni ifadələrindən aydın olur ki, erməni terror birləşmələri Qarabağ torpaqlarının işğalında, günahsız insanların öldürülməsində,qadın və uşaqların əsir götürülməsində, talançılıq missiyasının icrasında iştirak ediblər. 2010-cu ildə Xocalı soyqırımı ilə bağlı RF-dakı Azərbaycan Diasporu ilə görüşündə, Heydər Əliyev Fondunun Rf-dakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyeva qeyd edib: "Biz bu işğalçılıq proseslərində – azərbaycanlıların kütləvi qırılmasında, ərazi bütövlüyünə edilən qəsdlərdə, torpaqların, kənd və şəhərlərin yandırılmasında bilavasitə iştirak edən erməni silahlı birləşmələrini, bu qanlı cinayətlərin həyata keçirilməsində iştirak edənlərin mühakimə edilməsi üçün terrorçuları ittiham edirik, bütün bunları göstərməklə, bu qanlı hadisələrdə iştirak edənlərin mühakimə edilməsi üçün milliyyətindən, irqindən, dinindən asılı olmayaraq hamını ədalətin bərpa edilməsi naminə Beynəlxalq hüquq normaları çərçivəsində araşdırılıb qiymət verilməsinə yardımçı olmağa çağırırıq."

BMT-nin 1970-ci ildə qəbul olunmuş Bəyannaməsində qeyd olunur ki, hər bir dövlət istənilən digər dövlətin və ya ölkənin milli birliyinin və ərazi bütövlüyünün tam və ya qismən pozulmasına yönəlmiş hər hansı bir hərəkətdən çəkinməlidir. Həmçinin qeyd olunur ki, dövlət ərazisi Nizamnamə müddəalarını pozmaqla zor işlətməyinin nəticəsi olan hərbi işğal predmeti olmamalıdır və dövlət ərazisi güc tətbiq etmək və güc tətbiq etməklə hədələmək nəticəsində digər dövlətin qazanc obyekti olmamalıdır. Həmçinin Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi ərazi bütövlüyünün müdafiəsini əsas məqsədlərdən biri kimi təyin etmişdir (maddə 1). Analoji vəziyyət Afrika Birliyi Təşkilatının Xartiyasında da əksini tapmışdır (2-ci və 3-cü maddələr).

Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışının digər prinsiplərlə yanaşı əsas mahiyyətini, əsas özəyini də məhz Müstəqil Azərbaycan Dövlətinin ərazi bütövlüyünün təmin olunması prinsipi təşkil edir.

Məlumata görə, 57,5 min nəfər əhalisi olan Eçmiədzindəki Ali İlahiyyat Məktəbində Xocalıya hücum taktikasında «Xüsusi Kəşfiyyat Xidməti»nin materiallarından geniş istifadə edilib. Xatırladaq ki, yeni qurum «Böyük Ermənistan» ideyası əsasında iş aparır. Bilavasitə Müstəqil Azərbaycan istiqamətində özünün təxribatçılıq planlarını həyata keçirən bu erməni terror

mərkəzində, artıq, yeni terror planları hazırlanır (baxmayaraq ki, ermənilər bu planları çox hiyləgərliklə həyata keçirməyə cəhd edirlər).

Araşdırma materiallarına görə, ermənilər əldə etdikləri məxfi sənədlərlə bağlı «General Martirosyanın dəftəri» kitabının nəşrinə çalışırlar. Kitabda erməni generalı Xocalı qırğınları istiqamətində əldə olunmuş məxfi materiallar əsasında özlərinin işğalçılıq siyasətinə haqq qazandırır və iddia edirlər ki, bu vuruş «...torpaq uğrunda vuruşdur».

Azərbaycan torpaqlarının işğalı ılə bağlı hazırlanmış bu dəftərin müəllifi general Draetmamat Kononyanın özüdür. «DRO» Kononyanın hərbi ləqəbidir. «Martirosyan» isə onun əsl familiyasıdır. O, 1992-ci ildə Xocalı yaşayış məntəqəsinin işğalında başqa (bu barədə danışacağıq) terror birləşmələrilə birgə qanlı əməliyyatlarda iştirak edib. Xocalı əməliyyatında dəstəyə əslən Livandan olan erməni mənşəli Qrant Markaryan başçılıq edib. İsfahandakı erməni İcmasının və diaspor təşkilatının maliyyə dəstəyilə Xocalı ərazisində hərbi sursatların daşınmasını, ermənilər arasında bölüşdürülməsini təşkil edib. Qrant Markaryan Qarabağ ərazilərində qeyri-qanuni yolla salınmış narkoplantasiyalara nəzarəti öz üzərinə götürüb.

**Araşdırma zamanı əldə etdiyimiz materiallardan göründüyü kimi, DRO-nun başçılığı ilə, həmçinin, Xocalının davamı olaraq Laçın rayonunun Mollalar, Qızılca, Malıbəyli kəndlərinə od vurulub. 1992-ci il mayın 16-da Göytala kəndinə məxsus kiçik fermaya salınmış 28 nəfər yerli əhali öldürüldükdən sonra yandırılmış, ətraf kəndlərdən yığılmış 31 nəfər azyaşlı uşaq naməlum istiqamətdə aparılmışdır. Eləcə də, DRO-nun başçılarından olan Suriya ermənisi, 34 yaşlı «Dəclə gəlini» adlı, qadınlardan ibarət snayperçilər qrupunun başçısı Emilya Umaryanın cinayətləri isə daha amansız olub. Məsələn, hadisələri müşahidə edən rus kəşfiyyat mayoru S.A.Podolski MN-in Baş Kəşfiyyat İdarəsinə ünvanladığı «Arayış»da qeyd edir ki, mən müharibədə «müşahidəçi» missiyamı yerinə yetirdim. Suriyadan gətirilmiş qadın terrorçular həbs olunmuş yerli adamlara – əsasən qızlara və qadınlara qarşı daha amansız işlər görürdülər...** (Bax: "Krasnaya zvezda" "S.A.Podolski ilə sual-cavab" 1992.VI-10)

Başqa bir araşdırma materiallarına görə isə, kəşfiyyat mərkəzində saxlanan qovluqlardan birində Qarabağda yaşayan azərbaycanlıların «Genetik kodları» araşdırılır və öyrənilir. **Tarixçi Edvard Simonyan**

(hazırda Moskvada SAM-də işləyir) QHT-nin yığıncağında ***iddia edib ki, Qarabağda və Ermənistanda yetişən yeni erməni nəsillərinin formalaşmasında və inkişafında, onlarda güclü immunitetlərin yaradılmasında azərbaycanlıların «Gen kodları»ndan bəhs edən materiallar böyük və bəlkə də əsas strateji materiallardan birinə çevrilib.*** Edvard Simonyan daha sonra qeyd edib: «...Bunu da qeyd edim ki, mən Eçmiədzinin qovulan tələbələrindən biriyəm. Məni daha Eçmiədzinə buraxmırlar. Ora mənim üçün, artıq, «Lənətlənmiş Eçmiədzin» adlanır. Çünki, orada xeyirxah hisslərdən yox, murdarlanmış hisslərdən daha çox danışırlar. **Eçmiədzin türk dünyasına qarşı yepiskoplar ordusu hazırlayır...»** (Bax: E.N.Simonyan., A.E.Simonyan "Biz orada idik". Kiyev,2001.s.39-48)

Biz Qarabağın genetik mənzərəsinə bir daha nəzər salmaqla qarşımıza məqsəd qoyduq. Şübhəsiz, işğal olunmuş ərazilərimizin genetik dünyası erməni təhlükəsilə hələ də üz-üzə qalıb....

Bu məsələ geniş şəkildə BMT Baş Məclisinin 39 leyhinə, 7 əleyhinə və 100 ölkə bitərəf olaraq qəbul etdiyi «Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyət haqqında» 15 mart 2008-ci il tarixli Qətnaməsində ciddi narahatçılıq ifadə edilərək qeyd olunur ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində və onun ətrafındakı hərbi münaqişə beynəlxalq sülh və sabitliyə təhlükə yatarmaqda davam etməklə Cənubi Qafqaz ölkələrində dinc və sakit vəziyyətə təsir edir. Eləcə də 2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş «ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə»yə dair 1690 (2005) saylı Tövsiyyədə xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla, əlaqədar tərəfləri BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə əməl etməyə təkid edilib. Ulu Öndərimiz Heydər Əliyev vaxtılə BMT tribunasında dövlətimizin xarici siyasət xəttini bəyan edərək demişdir: «...Azərbaycan Respublikasının mövqeyi həmişə əməli mövqe olmuşdur və sülhsevər xarakter daşıyır. Bizə vurulmuş ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik...». Əslində Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!»inin sərhədlər aşması, böyük rezonans yaratmasına səbəblərdən biri də bəşəri ideyaların təbliğidir.

«Embrion» – yunan sözüdür (embryon). Embriologiya isə elmi və fəlsəfi mənşəyini bu sözdən alan, insan orqanizminin gen hüceyrələrini araşdıran, onu yeniləşdirən, «saf qan», «sağlam ruh» fikirlərini aşılayan... bir elmdir. İnsan embrionlar üzərində qərar tutur, formalaşır. Hippokrat yazır ki, insanın əxlaqi görüşləri, onun cəmiyyətə və gördüyü hər hansı bir şeyə immuniteti embrionlarda formalaşır. Zəif və xəstə embrion ... xəstə əxlaq, xəstə dünyagörüşü deməkdir. Aristotel isə qeyd edir ki, embrionu şikəst olan şəxsin daxili aləmi də, cəmiyyətdə və həyatda tutduğu mövqe də şikəstdir. O, cəmiyyətdə və həyatda bütün bəlaların kökünü şikəst embrionlu şəxslərdə görür. Dünyanın aparıcı dövlətləri (həm Qərbdə, həm də Şərqdə) bu barədə ciddi düşünür, hər kəs öz millətini (ailəsini yox) xəstə embrionlardan xilas etmək üçün yollar axtarır, elmi-tədqiqat laboratoriyaları, strateji araşdırma mərkəzləri açır, milli maraqlar istiqamətində «milli təhlükəsizlik konsepsiyaları»nı hazırlayırlar.

Məsələn, Çin Xalq Respublikasının «XXI əsr Milli Təhlükəsizlik Proqramı»nda belə adamlar (məsələn, erməni mənşəli şəxslər – V.S. *R.N*) cəmiyyətin xəstə təbəqəsi elan olunur və onlara dövlət strukturlarında heç bir vəzifə həvalə olunmur. «Gələcək hadisələrdə Milli Təhlükəsizlik Problemləri üçün» 200 müxtəlif ixtisas sahibi olan alim, tədqiqatçı bu istiqamətdə iş aparır. Çin Dövlət Şurasında bu məsələnin reallaşması üçün hər il 2,5 milyard 300 milyon dollar vəsait ayrılır. (Bax: "Pekinq Review"("Pekin icmalı") ingilis dilində nəşri.2004, X.)

İsraildə isə İudaizmin Ali Dini Şurası «Tora müdriklər Şurası» – həqiqi yəhudilər üçün «Əsasnamə»lər hazırladı. 2000-ci il iyun ayının 13-də hazırlanmış əsasnamədə 2020-ci ildən təmiz və sağlam embrionlar uğrunda görüləcək işlər açıqlandı. «Ümumdünya Ravvinlər Komitəsi»nin başçısı Nahum Eyzenşteyn dünya yəhudilərinə belə bir müraciət edir: «...Sizi «təmiz yəhudi qanı» uğrunda mübarizəyə çağırırıq. Həqiqi yəhudilərə özgələrilə ailə qurmağı qadağan edirəm...» (Bax: İsrail (Tel-Əviv) ÇPK-nın "Bülleteni" №6.2012.)

ABŞ-ın Federal Təhqiqat Bürosunun millli Akademiyasında (Kuantiko şəhəri, Virciniya ştatı) belə qərara gəliblər ki, ölkənin, xüsusən, təhlükəsizlik xidmətlərində, məxfi və tam məxfi qrifli idarə və müəssisələrində, laboratoriyalarında «Embrionu kölgəli olan» şəxslərin uzaqlaşdırılması milli maraqların qorunması və inkişafının birinci və əsas mərhələlərindəndir. 2007-ci il iyul ayının 7-də Senatda ABŞ Milli Şurasının Kəşfiyyat üzrə analitik şöbənin

rəisi, politoloq cənab Con Maklaflin FTB-nin özündə ölkənin milli maraqlarını əks etdirən belə bir proqramın geniş təbliğini «məsləhət bilib», onun iyirmi il ərzində tamamlana biləcəyini müzakirəyə çıxardı.

«ABŞ kimi böyük bir dövlətdə, şübhəsiz, rüşvət alan da, oğru da var. Yalan danışıb dövləti aldadan da var, milli maraqları alt-üst edən də... terrorçu da var, adam öldürən də... vəzifəyə həris olanlar da mövcuddur. Ölkənin dövlət və təhlükəsizlik strukturlarını bu şəxslərdən, xəstə embrionlu adamlardan təmizləmək lazımdır. XXI əsr yaşamağımız üçün bunu bizdən tələb edəcək...» (Bax: "The Vashinqton Post", 1996, XI. Professor E.Keldmanla müsahibə). Azərbaycana gəlincə, bunları yaşadığımız cəmiyyət və mühitdə biz də görürük. Ermənistanda isə bu məsələ artıq genetik bir məsələdir. Gen kodlarının şikəst və xəstə olmasına işarədir. Politoloq E.Zolyan yazır ki, XXI əsr Ermənistan üçün faciələrdən başqa bir şey gətirmədi. Artıq «...bizim uşaqları «terrorçu» – deyib, nişan verirlər» (Bax: «Sovetskaya Rossiya» qəzeti. M., 2010, VI.2.). Canlarında və damarlarında şeytan embrionları olan şəxslər həyatı və cəmiyyəti elə şeytan kimi də görür, düşünürlər... İnsanın bənizində və gözlərində şeytan embrionlarına məxsus cizgilər aşkarlamaq üçün sivil dövlətlərdə (məsələn Yaponiyada) kəşfiyyat şəkillərdən geniş istifadə edir. Bunun uçun bir adamın son yeddi ildə çəkdirdiyi şəkillərdən istifadə olunur. (Bax: "Asia Quatery" jurnalı(Tokio). 1992, №2, ingilis nəşri.) Mütəxəssislər və ekspertlər həmin şəkillər vasitəsilə insanın – daha dəqiq desək (bu, hələ kütləviləşməyib), dövlət strukturlarında mövqe tutan bir nazirliyin və yaxud idarənin taleyini həll edən rəhbər şəxsin kimliyini aşağıdakı tərzdə təsnifat edirlər:

a) xəstəliyi; b) alın və sifətinin quruluşuna görə insana xas olmayan embrionların mövcudluğu (buna «şeytan embrionları» deyirlər); c) natəmiz və yaxud mənəvi cəhətdən çirkin olması: ç) oğru və yaxud terrora meylli olması: d) millətə, mənsub olduğu dinə və torpağa bağlanması; e) nəhayət, necə və hansı şəraitdə ölməsi... (Bax: E.Xobeboma. "İngilis tarixinin konsepsiyası və milli məsələ".1994,Nyu-York (ABŞ).İngilis nəşri s.224-228).

Kəşfiyyat bütün bunları şəkillər vasitəsi ilə açır. Bu da tam məxfi qrif altında XXI əsrin birinci 20 ilinədək qalacaq. Yəni, məsələlərin tam tədqiqinə ən ciddi qaydada elektron sistemlərinin, kompüter «set»lərinin qoşulması da planlaşdırılıb və bütün bunlar da «şeytan embrionları»nın olması ilə əlaqələndirilir. Ümumiyyətlə, «şeytan» pisliklərin və alçaqlıqların təzahürü kimi götürülür. İnsan psixologiyası nə qədər mürəkkəb olsa da,

elmin müasir səviyyəsi «şeytan embrionlarını» tapmağa müvəffəqdir. Çin filosofu Toy Man yazır: “...dini kitabları, ilahi dəftərləri yandırmaq, məscidləri, ziyarətgahları, kilsə və sinaqoqları dağıtmaq, yüksək rütbəli din xadimlərini öldürmək, qəbirləri çevirmək, baş kəsmək, əsir və girov düşənlərə rəhm etməmək şeytani əlamətlərdir. Heç vaxt insanların dini heysiyyatları ilə oynamayın. Onların mənəvi dünyalarını rahat buraxın, zorla ora soxulmayın...” (Bax:T.Mann “Kainat və insan...” 1992.Krasnoyarsk. “Relyef” nəşriyyatı, s.29-53).

**Araşdırma materiallarından görünür ki, Leyla xanım Əliyevanın şəxsində Heydər Əliyev Fondunun «Xocalıya Ədalət!» strateji layihəsi həmçinin mənəvi cəhətdən əzilmiş və təhqir edilmiş hər bir Xocalı sakini üçün həqiqətin, ədalətin zəfər çalması baxımından böyük siyasi hərəkatların, yürüşlərin... başlanğıcı deməkdir. Hər bir xalqın, etnik qrupun, dini qurumun inanc yerlərinə hörmət və ehtiram bəsləmək, insanlar arasında dini və irqi ayrı-seçkilik və terrorizmə qarşı çıxmaq, onların pozulmuş hüquqlarının bərpası kimi beynəlxalq hüququn, insan hüquqlarının əsası sayılan bu amillər «Xocalıya Ədalət!»in müdafiə etdiyi məsələlərdəndir. Bütün bunlar 1992-ci il BMT-nin Milli və ya etnik, dini və dil azlıqlarına mənsub olan şəxslərin hüquqları haqqındakı Bəyannaməsində də geniş şərh edilmiş və beynəlxalq təşkilatların bu qəbildən qəbul etdikləri sənədlərin reallaşması yolunda “Xocalıya Ədalət!” kampaniyası diqqəti cəlb edir və böyük tarixi əhəmiyyət kəsb edir.**

Əlimizdəki mövcud materialları araşdırdıqca aydın olur ki, erməni terror qruplaşmaları Azərbaycanın işğal olunmuş ərazilərində, Xocalının yaşayış məntəqələrində əsl mənada böyük bir etnik təmizləmə siyasəti həyata keçirirlər. Eçmiədzin sənədlərində belə siyasəti ermənilər «hökm və icra» adlandırırlar. *Məlumata görə, Azərbaycançılıq əleyhinə, Azərbaycan millətinə qarşı 1980-ci ilin aprelin 24-də yaradılmış «Eçmiədzin fondu» 1990-cı ildən daha aktiv bir mövqe tutdu. Təhlillərə görə Azərbaycan və türk millətinə qarşı bütün «hökmlər» Eçmiədzin Fondundan verilir. İcra isə dünyanın müxtəlif qütblərinə səpələnmiş erməni diaspor təşkilatları tərəfindən yerinə yetirilir.* Məlumata görə, işğal olunmuş ərazilərimizdə ermənilərin etnik təmizləmə planı 1988-ci il iyulun 5-də Eçmiədzində imzalanıb. Orada 14 ölkənin erməni diaspor təşkilatının rəhbəri iştirak edib. Onlarla yanaşı, 1988-ci il sənədinin imzalanmasında Jorj Kassabın başçılıq

etdiyi «Livanın gücü», polkovnik Həmid əs-Surrinin başçılıq etdiyi «Milan qrupu» (Tunis və Mərakeş terror qrupu), Portuqaliyada qərar tutan və polkovnik Otello Sarayvanın başçılıq etdiyi «25 aprel xalq birliyi» terrorçularının üç üzvü iştirak ediblər. (Bax: "Qərar" qəzeti. 1996,VI-4.). Dörd səhifədən ibarət olan bu qəzet 1992-ci ilin avqustun 5-dək ayda iki dəfə nəşr olunub. 1997-ci ilin 17 avqustunda qəzetin təsisçisi, vaxtilə Azərbaycanda işləmiş təhlükəsizlik zabiti A.A.Akopyan öləndən sonra həmin qəzet bağlandı.

Araşdırma materiallarına görə, «Livanın gücü» terrorçuları, bilavasitə Beyrutdakı erməni diasporu ilə sıx təmasda olan ən güclü mərkəzlərdən olub. Bu dəstənin 11 üzvü 1993-cü il aprelin 2-də Kəlbəcərin Məmmədușağı, Keşdan, Mazıkənd yaşayış məntəqələrini yerlə yeksan ediblər. Kəndlərdən yığılan yaşı 9-11 arası olan qız uşaqlarını naməlum yerə aparmış, onların valideynlərini isə qazılmış çalalarda diri-diri torpağa basdırmışlar. Digər tərəfdən, erməni terrorçular rayonun Milli kəndində 14 nəfəri, Xallanlıda 16 nəfəri güllələdikdən sonra yandırıblar. Bu terror təşkilatının üzvləri həmçinin Xocalı qırğınlarında Beynəlxalq Konvensiyaların kobud şəkildə pozulmasında... iştirak ediblər (Bax: "Kompas". Moskva. O.Krılov, "Qafqazda müharibə".1994, №9).

Məsələn, **professor Rövşən Mustafayev qələmə aldığı "İnsanlara qarşı cinayətlər..."adlı kitabında erməni terrorçularının və bandit qruplaşmalarının beynəlxalq miqyasda törətdikləri cinayətlərə işarə edərək, yazır:**

**"... Onların (yəni ermənilərin) "Yeni erməni tarixi" dərsliyini vərəqləsən, 61-ci və yaxud 87-ci səhifələri oxusan, düşənməyə bilmirsən. Yazırlar ki, "erməni" sözü -böyük sözdür. Ötmüş və qədim zamanları düşündürən sözdür (?). Yazırlar ki, erməni xalqı Allah tərəfindən seçilmiş xalqdır"(?).**

**Diqqət edin! 150 ildə onların törətdikləri qanlı cinayətlərə, tarixin terror səhifəsinə nəzər salaq: Moskva, Nyu-York, Paris, Lissabon, Cenevrə, Roma, Ankara, London, Bakı, Tiflis, İstanbul, Vyana, Amsterdam, Madrid, Ottava, Bonn, Milan, Bern, Afina, Lion, Lüksemburq, Los-Anjeles, Kislovodsk, Xocalı, Sumqayıt, Axalkalaki, Rostov-partlayışlar, dağıntılar, kütləvi insan təlafatı... Bunları törədənləri- erməni terrorçularını yaddan çıxarmaq olarmı?! Onlar "Böyük Ermənistan" uğrunda saysız-hesabsız cinayətlər törədiblər.**

***Həyatın iki dəyişməyən qanunu var: dünyaya gəlib, yaşamaq hüququ qazanmaq və sonda ölmək. Bu iki qanun bütün yaranmışlara şamil edilmiş «konstitusiyadır». Bu qanunlar heç vaxt pozulmur, dəyişmir. Doğulmaqla ölüm arasındakı qanunları isə biz özümüz yazırıq. İstədiyimiz kimi də həmin qanunları dəyişirik, əlavələr, düzəlişlər edirik. Bəzən öz əleyhimizə anlaşılmaz, dolaşıq qanunlar yazırıq. Bu qanunlar çərçivəsində də etik-əxlaqi normalarımızı formalaşdırırıq, dövlət atributlarını qururuq... və nəhayət, özümüzü dərk edirik. Kimliyini, cəmiyyətdə və həyatda nəyə qadir olduğunu dərk edən millət üçün bu vacibdir. Millətin bünövrəsi olan onun geni, sağlam qanı, toxumu isə bu dərketmənin sübutu, dayağıdır. Əxlaqsızlıq, nəfsə qul olmaq, tamah və hiylənin əsiri olmaq, yalan və əclaflıqla «zirvə»yə çatmaq, yaltaqlıq, qorxaqlıq, saxtakarlıq, rüşvətxorluq və yaramaz işlərə qurşanmaq millətin genini gücdən salır, onun normal inkişafını öldürür."***

Müasir Çində qədim çinlilərə məxsus döyüş strategiyası və taktiki məsələləri araşdıran bir institut fəaliyyət göstərir. Həmişə dövlətin ciddi nəzarətində olan bu mərkəz qədim Çin strateqi Sun-Tszının hərb və qalibgəlmə sirlərini öyrənir. Sərkərdə Sun-Tszının hərbdə təhlükəsizlik və milli maraqların qorunması məsələlərində, regionda sülh və sabitliyin təmin olunmasında irəli sürdüyü planların, taktiki gedişlərin maraqlı məntiqi nəticələri var. Eramızdan əvvəl V əsrdə yaşayan bu şəxsi çinlilər «Çin xalqının, qədim Çinin böyük hərbi strateqi» kimi qiymətləndirirlər. Onun 13 hərbi doktrinası var. Sərkərdə fikirlərini əsasən kəşfiyyat məsələləri və ordunun siyasəti üstündə cəmləyir. Çin xalqına məxsus sağlam bioloji varlıq, orduda, millət və vətənə xidmətdə sağlam gen uğrunda mübarizə ölkənin yeni bir strateji səhifəsidir. Milli təhlükəsizliyin və milli maraqların qorunmasında bu gün Çin Silahlı Qüvvələrində onun yeni bir məktəbi yetişir. Hazırda NATO-ya üzv ölkələrin marağına səbəb olmuş Çinin bu gedişi kəşfiyyat orqanlarını ciddi məşğul edir.

Araşdırma materiallarına görə, **hələ 1936-cı ildə Almaniyadan Bakıya tədqiqat qrupu gəlib. Bu qrupun işi Azərbaycan şifahi xalq ədəbiyyatını araşdırmaq, tədqiq edib öyrənmək olur. Şifahi xalq ədəbiyyatında təsvir olunan milli qürur, qəhrəmanlıq, şücaət, mərdlik, mübarizlik, dürüstlük, təmizlik, xeyirxahlıq, torpaq və vətən sevgisi kimi komponentlər alman alimləri tərəfindən ciddi araşdırılır. Bu dəfə araşdırmalar künc və kitab rəflərində, arxiv sənədləri arasında deyil, birbaşa millətin**

**özündə, qanında aparılır. Çünki şifahi xalq ədəbiyyatımızın qüdrəti hesab olunan bu keyfiyyətlər alman genetiklərini çox məşğul edir.** Həmin il bakılı həkim Namazəliyevin başçılıq etdiyi qrup alman ekspedisiyasının tərkibində Laçına, Kəlbəcərə gedir. İlk əvvəl dağətəyi rayon və kəndlərin coğrafi quruluşu tədqiq edilir. İlk nəticələr uğurlu olduğundan, Azərbaycanın qütbləri üzrə aşağıdakı tədqiqat qrupları işləyir: birinci qrupa Laçın, Kəlbəcər, ikinci qrupa Ağdam-Şuşa, üçüncü qrupa Lerik-Lənkəran, dördüncü qrupa isə Şəki-Zaqatala-Gəncə daxil edilir. Hər qrupda altı nəfər yerli həkim və milliyyətcə erməni olan bələdçi, iki nəfər də alman həkimi olur (Bax: A.S.Bıkov "Sayıq olmaq üçün..." s.91-114. Moskva, "Pravda" nəşr., 1938 ).

**Bu, elə vaxt təşkil edilmişdi ki, həmin illər Hitler ordusunun döyüş qabiliyyəti, vətənpərvərlik əhval-ruhiyyəsi aşağı səviyyədə idi. Həmin vaxtlarda alman hərbi kəş-fiyyatı elmi-tədqiqat laboratoriyalarının qarşısında maraqlı bir vəzifə qoyurdu: güclü immunitet yarada biləcək vaksinlərin, dərman preparatlarının axtarılıb tapılması. Çünki alman millətində Koroğlu və yaxud Qaçaq Nəbinin... mübarizliyinin, igidliyinin, təmizliyin, vətən və millət sevgisini özündə cəmləyən hisslərin «bərpa»sı üçün «Qafqaz xalqları»nın, o cümlədən, Azərbaycan millətinin geninin araşdırılması lazım idi. O genlərdən hazırlanan vaksin və digər dərman preparatları ilkin nəticələrini verirdi.**

Almanların tərtib etdikləri Laçın-Kəlbəcər kartotekasında 23 nəslin geni araşdırılıb tədqiq edilir və onların özləri də sonradan üç qrupa ayrılır. Araşdırma materiallarına görə erməni terrorçu qruplar bu nəsillərin məhv olunmasında ən böyük cinayəti törədən erməni diaspor təşkilatları xüsusi qəddarlıq göstəriblər. ***Milliyyətcə yunan olan və ömrünün 6 ilini alman elmi-tədqiqat laboratoriyalarında qoyan, 1940-cı ildə alman vətəndaşlığını qəbul edən Fransua Melli (o, böyük «Hans» kimi tanınır) bu kartotekaların təşkilatçısı olur. O, 1940-cı ildə Almaniyanın Aşağı Saksoniyasında fəaliyyətə başlayan, Qafqaz xalqlarının genlərini tədqiq edən Bakı hərbi elmi-tədqiqat laboratoriyasına yekun arayışında göstərirdi: «...Qafqazda döyüşkən millət, fikrimizcə, Azərbaycan millətidir (onlara «türk» də deyirlər). Mən bunun coğrafi mövqeyini yazmıram. Bu, Alman Silahlı Qüvvələri Baş Qərargahına məlumdur. Tədqiqatımızın nəticəsi olaraq göstəririk: bu millətin mənsub olduğu ayrı-ayrı qrupların hər birinin özünəməxsus geni var. Bu genləri gəzdirən bir nəsil, yaxud millət dunyanı məğlub edə bilər. Genlərdə araşdırdığımız nəticələrə gəlincə,***

***vücudlarında bu genləri, bu təmiz («möcüzəli») qan qrupunu saxlayan genlərin boyu, dözüm qabiliyyəti, düşüncə və məntiq tərzləri, döyüşkən əhval-ruhiyyəsi, məğlubedilməzliyi, vətən və millət sevgisi, torpağa bağlılığı... başqa Qafqaz xalqlarınınkından fərqlidir. Onları öyrənmək, öyrənmək və yenə də öyrənmək lazımdır. Biz gördük ki, ermənilər Qafqazın bu sağlam qrupundan necə qorxurlar. Azərbaycan müqəddəs islam məkanıdır. Bu torpagı zəbt etmək üçün bura çox bayraqlar sancılıb... Amma hamısını sərt Bakı küləyi götürüb aparıb... Bu xalqı öyrənmək üçün bir ekspedisiya azdır»*** (Bax: SSRİ MN-nın polkovniki A.İ.Popov, "Qafqaz xalqları və onların qenetik təhlili" , s. 165-173. Moskva, 1949).

***22 gün sonra Fransua Melli ikinci məktubunu yazır: «Möcüzəli bir millətdir. Nağıllarda oxuduğumuz, öyrəndiyimiz millətdir. Bu millətin genində mərdlik və əyilməzlik (?) adlı bir immunitet qolu var. Onlar ən ekstremal şəraitdə dözməyi bacarır. Onlar kəklik və qırqovul yeyir, süd içir, dağ qoçlarını bütöv şişə keçirib közdə qızardırlar. Onlar öz qanlarını hər cür murdarçılıqdan qorumağı bacarırlar. Buralar laboratoriyadır... Alman ordusunun bu «dözüm» immunitetindən istifadə etmək şansı yaranarsa, maraqlı nəticələrə gələrik. Təkcə bu mıllətin neftini düşünmək acizlik olardı... Bomba yağdırmadan, topsuz-tüfəngsiz bu millətin neftini də, ərazisini də işğal etmək mümkündür. Əvvəlcə gərək bu millətin genini zəbt edəsən, işğal edəsən..., dilini yandırasan, dinini parça-parça edib, onun sığındığı «Müqəddəs Quran»ı məhv edəsən... Peyğəmbərini əlindən alasan... Bunu etdikdən sonra, hər şeyə sahib olmaq mümkündür...»*** (Bax: F.Melli, "Millətlər", s.143-172 (tərcümə). Leninqrad, 1950).

Alman həkimi hələ o vaxt «Genin işğalı» məsələsini qoyurdu. Almaniyanın SQ Baş Qərargahı belə bir diaqram cızmışdı (Bax: eyni mənbə, s.76-92).

«Kəlbəcər-Laçın qrupu üzrə elmi-tibbi araşdırmalarımızın nəticələri bunlardır: – Buradakı insan genlərini iki qrupa böldük. A qrupuna mənsub olanlar daha qədim genlərdir. Onlar dağ bəbirlərinə bənzəyirlər. İti baxışları var, hər cür xəstəliyə davamlı və dözümlü olurlar. Döyüşkənlik və mərdlik, doğru-dürüstlük, torpağa bağlılıq bu qrupun genlərində daha möhkəmdir. Belə genləri gəzdirən nəsillərin bir neçəsi arasında möhkəm qohumluq əlaqəsi var. Onları nəyəsə cəlb edıb aldatmaq, məqsəd və məramlarından döndərmək çətindir. Bu qrupa mənsub olan genlər Laçının cənub və şərq hissəsində, Kəlbəcərin isə şimal hissəsində daha çoxdur... B qrupuna məxsus

olan genlər nisbətən cavan nəsillərdir. Bunların geni immunitet baxımından «A» qrupuna nisbətən zəifdır. «B» qrupuna məxsus genlərin qarışıq tərkibi «A» qrupuna nisbətən iki dəfə artıqdır (Bax: professor N.S.Xromovun (Moskva) 1974-cü ilin aprelin 19-da Stepanakertdə (indiki Xankəndində) keçirilən "Dünya qenetiklərinin konfransı"nda söylədiyi məruzədən. MDTU-nun "Elmi əsərlər" məcmuəsi. 1974, №8 ).

Ağdam-Şuşa qrupuna məxsus genlərin isə tərkibi, xəstəliklərə dözüm immuniteti kövrəkdir. Bu genlərin sahibi heç nədən qorxmur. Onlar az aldanır, tez inanır və tez də qəzəblənirlər. Cəsur və əyilməzdirlər. Bu üçünün genlərindən istifadə edərək, gələcəkdə güclü təbliğat işləri qurmaq mümkündür.

Əgər bu millətin belə genləri ölərsə, onda Qafqazda gələcəkdə Azərbaycan millətinin bir etnik qrup kimi yaşaması və məhv olması labüd olacaq. «İnkubator» şəraitində yetişən yaş genlər (mən buna süni genlər deyərəm) azərbaycanlıların taleyində müstəsna rol oynamaq qabiliyyətindən məhrum olacaq. Onların yaddaşlarından keçmişi silmək asan olacaq». Tədqiqat arayışında daha sonra yazılır; «... Elə bir vaxt və zaman gələcək ki, bu regionda bütün sindromlar bir-birinə qarışacaq. Süni şəraitdə «yetişdirilən» genlər» özlərinin mübariz, qəhrəmanlıq və döyüşkən əhval-ruhiyyəsini əks etdirən səhifələrinə biganə olacaq və zaman keçdikcə onlar öz məkanlarını unudub yaddan çıxaracaqlar. Bu gedişi biz görürük...»

Alman ekspedisiyasının bu nəticələrinə xüsusi xidmət orqanlarında da biganə qalmadılar. Hələ 1942-ci il oktyabr ayının 16-da «Böyük və məğlubedilməz Almaniya» ideyasını ortaya atan və bütün bunların bir nömrəli təbliğatçısı olan Qebbels Türkiyə kəşfiyyatına soxulmuş alman casusu «Henri-1»in məxfi məlumatlarını verərkən bildirir: «...38-ci paralleldə belə bir yer var – Azərbaycan. Onun nefti var. Lakin orada mübariz və qədd-qamətli adamlar var. Onların geni, qanı bizim laboratoriyalar üçün maraqlı olar...»

Həmin ərəfədə alman filosofu Ernest Kassirar «The Muthef thetate» adlı gen və qanla bağlı araşdırmalarında məxfi laboratoriyaların işindən bəhs edərək yazlr: «...Son illər bu işin (qanla bağlı tədqiqatların) çox mahir mütəxəssisləri, mif ustaları meydana gəlmişdir. Bu baxımdan irqlə, qanla bağlı mifin... özü əslində silah növüdür, özü də hər hansı müasir tank və mərmilərdən daha dəhşətli bir silah. Çünki bu silah ən başlıca sahəni – insan

beynini zədələyir, onu bütövlükdə özünə tabe edir...» (Bax: E.Klassiraz, "Qan". Sankt-Peterburq).

Almaniya, İngiltərə, ABŞ, Fransa, İsveç, Yaponiya, Çin, Türkiyə, İran... mütəxəssisləri millətin qanı, geni haqqında məxfi tədqiqatlarını hazırda davam etdirirlər (Bax: o vaxtkı NKVD-nın polkovniki E.M.Qriqoryevin qeneral L.Beriyaya 1942-ci ilin noyabrın 2-də ünvanladığı "Xüsusi arayış"dan. E.M.Qriqoryev, "Mənim işim" oçerklər kitabı. Minsk,1946). Xüsusi xidmət orqanlarının, ayrı-ayrı dini qurumların xəttilə... bu istiqamətdə iş aparan «həkimlər», «mütəxəssislər», «alimlər», artıq, işin nəticələrini müzakirə edirlər. Qəbul olunmuş məxfi qərarlardan da biri bu olub ki, meydandan silinməsi, XXI əsrdə itməsi mümkün olan bəzi millətlər özlərini yaşatmaq, cavanlaşdırmaq üçün (Azərbaycana) «səlib yürüşü»nə çıxsınlar, təcrübə mübadiləsi keçsinlər. Xarici ölkələrdə Azərbaycan millətinin genini öyrənən laboratoriyalarda, eləcə də xüsusi xidmət sahələrində, genetik nəsildəyişmə proseslərində, hərbi molekulyar biologiya institutlarında... bu sahədə görülən işlər gündən-günə aktuallaşır (Bax: "Beynəlxalq yəhudi qəzeti", 1984-cü il, V-VII. "Moskva xəbərləri", 1986, V-IX. Rus tədqiqatçısı, qenetik L.Qalkinin "Cənubi Qafqazlıların qenetikası" dissertasiyası, s. 241, 1989).

**Xocalı-Laçın-Kəlbəcər Qrupu:** həkim ekspedisiyasının məxfi arayışı bu gün Almaniyanın məxfi idarələrində – «BND»-də qorunur. O arayışda irəli sürülən müddəalar hələ ki qüvvəsini itirməyib. «Laçın, Kəlbəcər və Xocalı sindromları» eyni olmasa da, genlər arasında yaxınlıq və sıx bağlılıq var. Bu genlərdən, qan qruplarından hazırlanmış preparat və vaksinlər 18-25 yaş həddində adamlarda süstlüyü, iflici götürür, beyin qatlarını «təmizləyir», fikirlərə aydınlıq gətirməklə yanaşı, xüsusilə, vərəm xəstəliyinə qarşı orqanizmdə güclü immunitet yaradır. Alman ordusu, həmçinin dünyanın əksər silahlı qüvvələri əsgərləri arasında yayılmış bu xəstəlikdən əziyyət çəkirdilər. Xəstəlik əleyhinə istifadəsi nəzərdə tutulan bu preparat və vaksinlər hələ də axtarışda idi.

Həkim Namazəliyev qeydlərində yazır: «...Alman həkimləri çantalarını açanda orada xeyli kitab gördüm. Alman dilində çap olunmuş bu kitabların üz qabığını oxumaq mənum üçün çətin olmadı. Az-çox alman dilini bilirdim. Bu kitabların hamısı bizim dastanlardan və nağıllardan ibarət idi. Kitabı vərəqləyəndə gördüm ki, orada «güclü» «cüssəli», «qüdrətli», «nəhəng vücudlu», «mərd», «varlı», «dözümlü», «təmiz», «sözündə qəti», «inadkar»,

«qəhrəman», «Məlik Məmməd», «buz baltası», «torpağı öpdü», «suyu içib dirildi» və s. sözlərinin altından xətt çəkilib. Mən alman həkimi Yulian Fişerdən soruşdum ki, bu nə kitablardır? Bu sözlərin altından nə üçün qələm çəkmisiniz? O, gülümsündü və təzədən kitablardan birini götürüb vərəqlədi. – Bu kitablar bizim üçün «Atlas»dır, – dedi. Altından xətt çəkdiyimiz sözlər elə-belə sözlər deyil. Bizim tədqiqatımız həmin sözlərin mahiyyətini təsdiqləyir. Sizinkilər əbəs yerə bu torpağı öpüb ona səcdə etmirlər. Bunun tibbi-elmi əhəmiyyəti böyükdür. Bu kitablar, sadəcə nağıl yox, həqiqətdir...» Mən bundan sonra düşündüklərimi Bakıya, Səhiyyə Nazirliyinə göndərdim. Oradan mənə dedilər ki, sənin yazdıqlarınla Bakının və Moskvanın Dövlət Təhlükəsizlik orqanları maraqlanır...» (Bax: "Muğan" -həkim Maqsud Namazəliyevinn gizli adı olub. O, bu ad altında dörd dəfə L.Beriya ilə görüşüb. Məxfi açıqlamalarını verib. Onun məktubları əsasında Kremldə qeneral E.Lavrovun rəhbərliyilə kiçik müşavirə keçirilib. Hazırladığımız materiallarda ondan istifadə etmişik. Hazırda RF-nın MN-də BKİ-nin arxivində "Muğan-02" saylı (bu Maqsud Əmiraslan oğlu Namazəliyevə məxsus qovluqdur) qovluq var. Qovluq 1947-ci illədək bağlanıb. Qovluğu qeneral M.A.Kruqlov, polkovnik F.Ş.İmaşov və L.D.Xaydarov imzalayıblar. Həkim M.Ə.Namazəliyev 1946-cı ilin yanvarın 28-də itkin düşür. Əlavə olaraq, "Pravda" qəzetinin (Moskva) 1946-cı il yanvar tarixinə baxın).

Xocalı, Laçın və Kəlbəcərdə tədqiqat aparan, «Millətlərin ölüm tarixi» kitabını yazan alman alimi 1943-cü ildə vəfat edir. «Millətlərin ölüm tarixi» kitabının Qafqaz bölməsində Yulian Fişer yazır: «Qafqaz zəngin bir yerdir. Oradan, sadəcə, ötüb keçmək alim şərəfimə toxunardı. Qafqazda sıradan çıxmış etnik qruplar çoxdur. Bu etnik qruplar ən çox bir-birilərilə ədavət edir, vuruşur, bir-birilərini məhv edir. Amma nəticədə nə qalib millət var, nə də qalib xalq. Bu, mənim fikrimdir. Fikrimcə, qanı təmiz millət yer üzündə gəldi-gedər olmur. Təmiz və sağlam qan, güclü və dözümlü gen mənsub olduğu millətin ən güclü və böyük silahıdır. Bu silahın sahibini nə məğlub etmək olar, nə də susdurmaq. Belə olarsa, həmin sağlam qana və genə mənsub millətlərin özlərini qalib saymağa haqları çatır. Mən bütün bunları Azərbaycanda gördüm...».

Sağlam gen uğrunda mübarizə strateji mübarizədir. Həm Şərq həm də Qərbdə «sağlam gen uğrunda» yeni mübarizə cəbhələri açılır. NATO-ya üzv ölkələrin hər biri ayrı-ayrılıqda «Sağlam ordu haqqında» özlərinin «Qızıl proqramları»nı tərtib ediblər. Bu proqramlar da həmin ölkələrin «XXI əsr

milli maraqların və təhlükəsizliyin qorunması» strateji proqramların tərkib hissəsidir. Regionlarda ipə-sapa yatmayan etnik qrupların yer üzündən silinib itməsini və bununla da böyük dövlətlərin strateji maraqlarının təmin edilməsini müəyyənləşdirən məxfi proqramların da varlığını unutmayaq. ABŞ-nın Pensilvaniya ştatında alim R.Petersonun 1999-cu ildə tamamladığı "Məxfi olan nədir?" elmi-tədqiqat əsəri buna misaldır. Almanlar isə yenə bizə güclü meyl edir, səhiyyə sahəsində elmi tədqiqatlarını təzələyirlər. Olsun. Bunu təbii qəbul edirik. Lakin bütün bu məsələlər əməkdaşlıq çərçivəsində, milli maraqlar çərçivəsində getməlidir. Şübhəsiz respublikanın dövlət qurumları bu sahəyə xüsusi önəm verir və müvafiq zəruri tədbirlər həyata keçirirlər. Ölkəmizdə bu cür fəaliyyət növləri yalnız dövlətin nəzarəti altında həyata keçirilməli, hökumət bu sahədə milli təhlükəsizlik və xüsusi xidmət orqanlarının, digər aidiyyəti nazirliklərin, dövlət qurumlarının fəaliyyətini əlaqələndirməklə çox ciddi nəzarət funksiyasını yerinə yetirməlidir. Və hətta respublikamıza humanitar yardım adı ilə göndərilən hər növ yardımlar-istər dərman preparatları, istər ərzaq məhsulları, istərsə də geyim və s. malların, əşyaların keyfiyyətinin hərtərəfli yoxlanılmasını tam məsuliyyətlə həyata keçirilməlidir. Bu işlərə millətinə, xalqına, dövlətinə və dövlətçiliyinə sadiq mütəxəssislərin cəlb edilməsi ən zəruri şərtlərdən hesab edilməlidir. Əks təqdirdə, nəticədə uduzmaq təhlükəsi var və bu da sabahkı faciənin bünövrəsi ola bilər. Çünki burada fərdlərdən yox, millətdən və dövlətin əsasını təşkil edən xalqdan söhbət gedir.

Londonun hərbi ekspertlərinin rəyincə, bir sıra ölkələrdə artıq «Etnik silah»ların istehsalına başlanılıb. Bu ölkələr sırasında İraq, İran və Rusiya da var. Bu kimyəvi silah, eləcə də «virus»lar insan orqanizminə düşərkən bir müddət gizlənir. Sonra onun əlamətləri dərinin qaşınması, öz-özünə qanqren, çürümə... halsızlıq və qan qusma... müşahidə olunur. Bu günədək ona qarşı heç bir vaksin və preparat ixtira edilməyib. İngiltərə Səhiyyə Nazirliyi ölkənin Silahlı Qüvvələri komandanlığına göndərdiyi «N» saylı məxfi hesabatında göstərir ki, (2010-cu il, may) belə bir virus mövcuddur. Bu virusun da qorxulu xarakterik xüsusiyyətlərindən biri budur ki, o, ancaq avropalı irqinə mənsub olanları məhv edir. Bu viruslar bədəvi ərəblərə heç bir təsir göstərmir. NATO qüvvələri tərkibində fəaliyyət göstərən ingilis əsgərlərinin bu təhlükə ilə üz-üzə dayanması (xüsusən, Fars körfəzində) ölkənin məxfi elmi-tədqiqat laboratoriyalarını yeni vaksinlər hazırlamaq üçün səfərbər etdi. "Güclü gen" axtarışına çıxmış xarici ölkələrin hərbi

kəşfiyyat orqanları, elmi-tədqiqat institutları üçün ölkəmizin, vətəndaşlarımızın material kimi elmi laboratoriyalara çevrilməməsi üçün bütün mövcud imkanlardan maksimum istifadə edilməli, dövlət və vətəndaşlarımız hər an son dərəcə sayıq olmalıdırlar.

Yardımları ılə «strateji axtarışlara» çıxmış xarici dövlətlərin ekspedisiya qrupları bu gün MDB məkanında, o cümlədən Azərbaycanda, öz işlərini davam etdirirlər. Əsasən, genetik tədqiqatlar üzərində qurulmuş bu işlərin nəticələri həmişəki kimi yenə məxfi saxlanılır. Millətin geninə və qanına böyük maraq göstərən Almaniya hökuməti Cənubi Qafqaz regionunda genetik tədqiqatlarla bağlı hər il 4,5 milyon marka ayırır. Ölkənin Federal Nazirliyi elmi araşdırmalar və texnoloji iş üçün MDB ölkələrində, əsasən, Cənubi Qafqazda, Azərbaycanda «Yardım Fondu» adı altında tədqiqat laboratoriyaları təşkil etdı. Əsas məqsəd də genlərin cavanlaşması, xəstəliklərdən təmizlənməsi və inkişafı, müxtəlif viruslara, xəstəlik daşıyıcılarına qarşı davamlı genlərin əmələ gəlməsi istiqamətində elmi axtarışların planlı şəkildə qurulması idi (Bax: “Sabah” qəzeti. İstanbul,1993, VI).

«Sağlam gen axtarışı». Bu məsələ – yəni ilkin nəticələr 2010-2020-ci illər ərzində «Birinci Proqram» kimi başa çatması nəzərdə tutulub. Bir hissəsi Azərbaycan ərazisində görülməsi nəzərdə tutulan «Sağlam gen axtarışı» işinin layihəsinə Almaniyanın «Bruker France Analitik» şirkəti (Bremen şəhəri) 6 milyon marka ayırıb. İşi isə Berlindəki Maks Plank adına Molekulyar Genetika İnstitutunun və Bremen Universitetinin alimləri-genetikləri görür.

Bura, həmçinin, regionlarda (Azərbaycanda) ayrı-ayrı qüdrətli və tanınmış uzunömürlü nəsillərin, Azərbaycan xalq qəhrəmanlarının doğulduqları məkanlarda və ərazilərdə bu günədək yaşayan və həmin «cəngavərlər»lə qohumluq əlaqəsi olan şəxslərin, ayrı-ayrı adamların nəslinə, kökünə mənsub genlərin «baza»larını yaratmaq və bu «gen bazaları»nı kompüter yaddaşına köçürmək, internetdə saytların açılmasını təmin etmək planları da daxildir.

Bu bazada Azərbaycana məxsus proqramın ayrılması, millətə mənsub genlərin öyrənilməsi və onun hesabına tam məxfi işlərin qurulması diqqəti cəlb edir. Əslində, bu elmi-tədqiqat işlərini Almaniya ərazisindəki «Avraam» məxfi laboratoriyasında da aparırdılar. Yəhudi genetiki Devid Arad yazır: «...Bu işlər gələcək yəhudi ordusu və yəhudi millətinin inkişafı naminə görülürdü»(Bax: RF MDU-nun Elmi əsərləri. Biologiya. Analitik təhlillər, 1998, №3). Paralel olaraq irsi və qan xəstəlikləri üzrə alman həkimlərinin əldə etdikləri vaksinlərin bir qismini (birinci mərhələsini) sınaqdan çıxarmaq

üçün Freyburq Universitetinin professoru, genetik Hervard Volf qrupu yaradıldı. Genetik Hervard Volf qrupu alman millətinin genində xərçəng xəstəliklərinin, vərəm sindromlarının yayılmasından narahatlıq keçirdiyindən, «milli maraqlar çərçivəsində», milli təhlükəsizliyin təmin edilməsi yolunda işlərin planlaşdırılmasını, «gen axtarışı» çərçivəsində məxfi işləri həyata keçirməyi qərara aldı. (Bax: “Zerkalo” qəzeti. Bakı, 1998, №43).

Azərbaycanda canlı orqanizmdə hüceyrələrin araşdırılması, hüceyrələrin tək halda öyrənilməsi ön plana çəkilir. Qanda infeksiyanın olmasına qarşı «P-53» kodlu gen hüceyrəsinin kəşfi maraq doğurmaya bilməz. Çünki bu hüceyrənin uzunömürlü olması, effektli nəticələr üçün Freyburq klinikasında «Qafqaz genləri»ndən (Azərbaycanın cənub rayonlarının genləri) istifadə edilməsi məsələsi irəli sürülür. Digər tərəfdən bu da nəzərdə tutulurdu ki, həmin vaksinlər, əsasən, qan hüceyrəsindəki infeksiyalara qarşı preparatlar Alman ordusunda, silahlı qüvvələrdə geniş tətbiq olunacaq. Beləliklə, Almaniyada «Gen Araşdırması» proqramının birinci mərhələsi belə başa çatır... Maraqlıdır ki, Almaniya hökuməti 2012-ci ilin fevral ayından etibarən elmi-tədqiqat laboratoriyasında, hərbi-sənaye kompleksinə məxsus araşdırma mərkəzlərində milliyyətcə alman olan şəxslər üzərində heç bir təcrübə aparılmaması barədə qəti qərar qəbul edib. Bu, Almaniyada qadağan olunur (bu qərar başqa millətlərə şamil edilmir).

NATO-ya üzv olan ölkələr kəşfiyyat maraqlarını gizlətmədən ayrı-ayrı humanitar yardım proqramları çərçivəsində MDB ölkələrində, o cümlədən Azərbaycanda «gen toplama» əməliyyatına başladılar. Strateji cəhətdən ciddi əhəmiyyət kəsb edən bu məsələnin sabahkı faciəsini düşünməyə dəyərdi.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında formalaşan, Azərbaycanın milli-mənəvi dəyərləri çərçivəsində onun genetikası uğrunda, sağlam və dözümlü genetik fondu uğrunda mübarizə meydanlarında görünən Heydər Əliyev Fondu ölkə mühitində baş verə biləcək faciələrin, aşınmaların qarşısına sədd çəkdi. Azərbaycanlıya məxsus gen kodlarının zədələnmələrdən qorunması, onun öz kökü üstündə şaxələnməsi, inkişaf etməsi, formalaşması kiçik məsələ deyil. Heydər Əliyev Fondunun belə bir xətti beynəlxalq mühitdə Azərbaycançılıq ideyalarının formalaşmasında əsas strateji xətlərdən birini təşkil edir. Çünki araşdırma materiallarından aydın olub ki, Ermənistan MEA-nın A.Orbeli adına fiziologiya institutunda «əsəb sistemləri üzrə» aparılan elmi-tədqiqat materialları sırasında erməni alimlərindən O.Baklovadcanyan, N.Poqosyan, A.Darbinyan, A.Arşakyan öz araşdırmalarını Azərbaycanın erməni terroruna məruz qalmış ərazilərindəki

əsir və girov götürülmüş azərbaycanlıların üzərində aparıblar. Məlumata görə azərbaycanlıya məxsus əsəb hüceyrələrindəki immunitetin yüksək olması, gen kodlarındakı təmizlik erməni alimlərini faktiki olaraq sarsıdıb. Digər tərəfdən Stavropol Dövlət Tibb Akademiyasının (RF) Farmokologiya kafedrası əməkdaşlarının (professor E.B.Aruşanyan başçılıq etdiyi) 2010-cu ildə Şuşa və Xankəndində apardıqları elmi-tədqiqatların nəticələri isə məlum deyil. Heç bir Beynəlxaq hüquq normalarına sığmayan erməni alimlərinin əsir və girovlarımız üzərində apardıqları elmi tədqiqat işləri elə zənn olunmasın ki unudulub.

Edinburqdakı «Pi-Pi-El» Terapeutkus» firmasının (genetika üzrə tədqiqatlar aparan firma) elmi direktoru Elen Kolmen isə erməni alimləri üçün bu işlərin məxfi layihəsini hazırladı. Hərbi hissələr üçün preparatlar, vaksinlər hazırlayan əczaçılıq fabrikləri ilə əlaqələr quruldu. Genlərin bioloji inkişafı istiqamətində orduda yaranan sarılıq, vərəm, cüzam, hemofiliya, osteoporoz, SPİD xəstəliklərinə davamlı, immuniteti yüksək olan genlərin «yetişdirilməsi» istiqamətində məxfi işlərin görülməsi də həmin əlaqələrdən biridir.

Bu ərəfədə İngiltərədə «Q.O.Kazaryan genetiklər qrupu»nun münaqişə gedən zonalarda, o cümlədən Dağlıq Qarabağda etnik təmizləmə siyasətini tamamlayan «Separatçı proqram» irəli sürüldü. Bu proqramın ilk səhifələrində islam dəyərlərinin dağıdılması, məhv edilməsi səbəbləri göstərilir və onlar «...Gələcək erməni nəsilləri üçün...» məhv edilirdi. Proqramın hazırlanmasında və tətbiqində ölkənin xüsusi xidmət orqanlarının hər biri ayrı-ayrılıqda özlərinin taktiki planını hazırlayırlar. Bu gözlənilməz xəbəri də Britaniyanın Tibb Assosiasiyası verib. Mərkəzin «insanlar əleyhinə biotexnologiya silahı» adlı məruzəsində göstərilir ki, «Etnik təmizləmələr» üçün cızılmış bu plan «Eyç-ci-pi» layihəsi ilə reallaşır. Genetiklərin dili ilə desək, lazım olmayan etnik qruplar onlardan xəbərsiz bu silahlar vasitəsilə məhv edilə bilər. Bu proses bu gün dünyanı sarsıdan nüvə silahlarının proqramı kimi hazırlanır. Lakin ilkin olaraq, «Eyç-ci-pi» layihəsinin mütəxəssisləri insanın genetik qrupunu – xəritəsini tamamlayacaq. Britaniya genetiki, doktor Maykl Delstern yazır: «Xocalı yalnız müasir dövrün müharibələrində deyil, bəlkə də bəşəriyyətin bütün tarixində iz qoyacaq bir işdir...» Olsun. Lakin, beynəlxalq terrorizmin tüğyan etdiyi bir dövrdə bu silahın terror təşkilatlarının əlinə keçmə ehtimalını (tutaq ki ermənilərin) də yaddan çıxarmayaq. Bir neçə dövlətin kəşfiyyat planlarında «Milli-strateji maraqların» qorunması naminə Müstəqil Azərbaycanın xəritədən silinməsi, etnik qrup

kimi məhv olması (?), millətin millət kimi bir neçə əlavə etnik qrupa parçalanması ehtimalı hələ ki, Beynəlxalq separatizmin bir qolu olan erməni separatçılarının payına düşür. Çoxsaylı araşdırılma materiallarının təhlillərinə görə, Heydər Əliyev Fondunun yaranma səbəblərindən biri məhz dünyada «Azərbaycan genetik fondu»nun qorunması olub. Ulu Öndər Heydər Əliyev ətrafda baş verən hadisələrin nəticəsi olaraq bilirdi ki, müstəqillik qazanmış Azərbaycanın genetik inkişafını düşmən təhdidlərindən qorumaq əsas strateji faktlardan biridir..

Erməni separatçıların «Toksikoloji proqramlarında» Azərbaycanın dağ və dağətəyi, sərhəd rayonlarında keçirilməsi nəzərdə tutulan xüsusi «əməliyyat səhifələri» var. Bilavasitə kəşfiyyatın nəzər nöqtəsində saxlanılan bu proqramların icrası, həyata keçirilməsi yolları ciddi nəzarət altındadır.

Hər il növbəti görüşlər və sammitlər ərəfəsində bizdə ümid oyanır ki, nəhayət, dünya bizim ərazinin beşdə bir hissəsini qəsb edən Ermənistanı işğalçı dövlət kimi tanıyacaq. Hər dəfə də bu beynəlxalq yığıncaqlardan sonra yenidən qənaətə gəlirik ki, işğal edilmiş torpaqları sülh yolu ilə qaytarmaq olmaz və biz ermənilərə qarşı müqəddəs müharibəni başlamağa borcluyuq. Biz ermənilərin həyasızcasına təbii sərvətlərimizi oğurlamalarından, mədəniyyət və tarixi abidələrimizi məhv etmələrindən, sülh rejimini pozmalarından, ölkəmizin təbii sərvətlərini oğurlamalarından, su, torpaq və meşə fondlarına son dərəcə ciddi ziyan vurmalarından və s.-dən çox danışırıq. Eyni zamanda atəşkəs dövrü olmasına baxmayaraq, indiyə qədər xeyli sayda əsirlərimizin taleyi naməlum olaraq qalır.

Şübhə etməyək ki, əsir və girov götürülmüş soydaşlarımızın bir qismi dünyanın «Genetik araşdırmalar laboratoriyalarında araşdırılır, tədqiq edilib öyrənilir. Ulu Öndəri narahat edən bu məsələ onun üçün regionda həll olunası ən vacib məsələlərdən biri idi. O, xüsusi xidmət orqanlarının qarşısında məsələni kəskin şəkildə qoyurdu: «Axtarın… Onları xilas edin…».

Məsələn, kəşfiyyat qovluqları»nda, xüsusilə, Çar Rusiyasının «Məxfi Polis» idarəsinin qovluqlarında bu günədək qorunan (1850-ci ildən bəri yazılmış materiallar qovluğu) sənədlər arasında bioloq, professor L.Sidorov yazır ki, elə məsələlər var ki, dünyada onun uğrunda bitib-tükənməyən müharibələr olacaq. Məsələn, fərqli, heç yerdə təkrarlanmayan çox böyük strateji əhəmiyyəti olan insan geni uğrunda lokal müharibələr olacaq (Bax: L.M.Sidorov, "Bitmiş vaxt" (elmi araşdırmalar, tədqiqatlar), MDU-nun nəşri. Moskva, 1979). Məsələn, 20-ci əsrin tanınmış səyyahlarından olan Məlik Məhəmməd əl-Fateh öz araşdırmalarında qeyd edir ki, Qarabağ

ərazisində yaşayan azərbaycanlılar arasında elə nəsillər var ki, onların gen kodları dünyanı həmişə düşündürəcək və bəzi dövlətləri bu gen kodlarını formalaşdıran Qarabağ uğrunda müharibəyə çağıracaq. Filosof-bioloq Məhəmməd Fateh yazır: «Bu, müəyyən nəsillərə verilən tanrı vergisidir. Atam Xalis əl-Fateh bizə deyirdi ki, övladlarımı Qarabağdan evləndirəcəyəm. Çünki bu yer dünyada yeganə yerdir ki, orada qan xəstəlikləri olmur...». Fikrimizcə «Heydər Əliyev Fondu» Azərbaycanın başının üstünü alan bu fəlakətə cavab olaraq, bəşəriyyətin sağlam təbəqəsinin ayıq və vicdanlı insanlarını millətin köməyinə çağırdı. Azərbaycan özünün xilas yollarını düşünürdü. Araşdırma materiallarına görə «Heydər Əliyev Fondu»nun strateji proqramlarından sayılan «Xocalıya Ədalət!» harayı xilas yollarından biri oldu.

*Leyla Əliyevanın «Xocalıya Ədalət!» - harayı bir məkanla, məsələn, Xocalı yaşayış məntəqəsilə məhdudlaşmır. Bu çağırış bəşəriyyəti bürüyən terrora, ədalətsizliyə, zülmə və istibdada qarşı bir çağırış kimi dünyanı dolaşmaqda davam edir. Hazırda dünyada beynəlxalq terrora qarşı on beş (15) ən məşhur strategiya formalaşıb. Lakin «Xocalıya Ədalət!» çağırışı onlardan nizamnaməsinə görə fərqlənir. Məsələn, professor Erginin (ABŞ) terrora qarşı strateji proqramı dünyanın yeddi ölkəsində qəbul olunubsa, «Xocalıya Ədalət!» strategiyası dünyanın 50-yə yaxın ölkəsində qəbul olunub. Eləcə də bu strategiya Böyük Britaniyanın, RF-nın, Fransanın, Almaniyanın, Çinin, İtaliyanın, İranın, Türkiyənin, bir sıra Şərqi Avropa ölkələrinin Beynəlxalq terrora qarşı strateji proqramından əsaslı şəkildə fərqlənir.*

Bunun üçün səbəblər var:

1. «Xocalıya Ədalət!» strateji proqram zülmə, ədalətsizliyə qarşı hərəkat proqramıdır.

2. «Xocalıya Ədalət!» əzilən, günahsız təqib olunan, qaçqın və köçkün halına düşən, ev-eşiklərini, yaxınlarını, qohum-əqrəbalarını itirən milyonlarla insanın həyat tərzinə, mübarizə ideologiyasına çevrilmiş proqramdır.

3. «Xocalıya Ədalət!» yeni yüzilliyin xalqların milli-mənəvi sərvətlərinin qorunması, torpaqların azad olunmasına, ədalətsiz döyüşlərin, müharibə və qarşıdurmaların əleyhinə hazırlanmış çağırış və səfərbərlik proqramıdır.

Əslində filosofun söylədiyi fakt bizim üçün maraqlı olduğundan (elə zənn etməyin ki, mövzudan kənara çıxdıq) bir daha araşdırmalı olduq. Keçmiş SSRİ Səhiyyə Nazirliyinin 1957-ci il 27 yanvar tarixli Azərbaycanda

Səhiyyə Sisteminin yenidən qurulması məruzəsində respublikanın kuratoru, professor-toksikoloq Eduard Maksimoviç Melnikov göstərirdi ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisində yaşayan insanlar arasında qan xəstəliyi iki il ərzində, yəni 1955-1957-ci illər ərzində üç nəfər yaşlı adamda qeydə alınıb. Alim daha sonra yazır: «Apardığımız yoxlamalar bir daha təsdiq etdi ki, fakt düzdür. Roma alimləri bizə müraciət ediblər ki, o yerlərdə işləmək üçün birgə ekspedisiya hazırlayaq. İsrail və Fransa alimləri də Akademiyaya müraciət ediblər. Lakin hamısına etiraz edilib. Ərazidə yaşayan insanların hər hansı bir epidemiyaya qarşı güclü immuniteti var. İran şahının şəxsi müraciəti əsasında Tehrandakı hərbi klıinikanın üç həkimi Xocalı, Şuşa, Laçın və Kəlbəcər zonalarında işləmək üçün buraxıldı. Onları Dövlət Sərhəd Xidmətinin əməkdaşları, kəşfiyyat kadrları müşayiət edirdilər...»

Araşdırma materiallarından məlum olur ki, iranlı alimlər təqribən IX əsrə gedib çıxan «Tarixi-Afitab» (Günəşin tarixi) kitabından kompas kimi istifadə edərək, bu yerlərdə bitən adları qeyd olunan gül, ağac, ot və çiçək növünü öyrəniblər. Məlum oldu ki, bu çiçək növləri insanı uzun ömürlü etməklə yanaşı, onu gümrah saxlayır. İnsan bunların (məsələn, alman səyyahı «Xocalı çiçəkləri» adı ilə məşhur olan dərman preparatlarının) qəbulundan sonra qan xəstəliyinə, sümük ağrılarına, göz və beyin, ürək ağrılarına heç vaxt tutulmur (Biz burada mövzunu saxladıq. Çünki bu, bizim mövzu deyil).

O da məlum olub ki, Dağlıq Qarabağda 1861-ci ildə üç əsir düşərgəsi olub. Onlardan biri «Xocalı» yaşayış məntəqəsində olub. İngilis və yəhudilər bu əsir düşərgələrində yerli camaat arasında elmi tədqiqatlarını aparıblar. Çünki o vaxt həm İngiltərədə, həm də ayrı-ayrı yerlərdə yaşayan yəhudilər arasında orta ömür 48-50 yaş arasında idi...

* * *

**Ermənilərin işğal etdikləri ərazilərdə girov götürdükləri əsirlərə – vətəndaşlarımıza qarşı etdikləri vəhşilikləri heç faşist Almaniyasının əsir düşərgələrində də etməyiblər. İnsan da insanla bu cür rəftar edə bilərmi?**

**Bunun üçün sadəcə «Miatsum»un baş ideoloqu Zori Balayanın «Воскрешение души нашей» kitabına baxmaq lazımdır.**

**Bu kitabda Balayan, əsasən, Xocalıda törədilən cinayətləri özünün «Şərəfli hərbi çağırışı» kimi təsvir edir. Bu vəhşi, yırtıcı canavar (onun**

**yazdıqlarını oxuduqdan sonra həmin şəxsi başqa cür adlandırmaq olmaz) dinc azərbaycanlılara işgəncə verilməsində necə iştirak etdiyini fəxrlə yazır. Heç bir şərh vermədən həmin kitabdan bir hissəni oxuculara təqdim edirik:**

**«Yalnız xalqının ürəyi çıxarılan və qəm-qüssə alovuna atılan erməni bu sətirlərdən böyük qürur duya və məmnunluq hissi keçirə bilər.**

**Biz Xaçaturla uşaqların saxlandığı zirzəmiyə enən vaxt, əsgərlərimiz artıq onlardan birini ovuclarından pəncərə çərçivəsinə mıxlamışdılar. Uşağın səs-küyünü azaltmaq üçün Xaçatur uşağın ağzına onun öldürülmüş anasının kəsilmiş döşünü soxdu. Sonra mən onun başının, döşünün və qarnının dərisini soydum. O, qan itirməsindən 7 dəqiqə sonra öldü. Birinci ixtisasıma görə həkim olduğum üçün humanistəm və ona görə də uşaqla edilən hərəkətlərdən sevinc duymadım. Lakin qəlbim şadlanırdı.**

**Xaçatur bədəni hissələrə böldü və onları itlərə atdı. Axşam eyni şeyi biz daha üç türk uşağı ilə etdik. Mən erməni, vətənpərvər və vətəndaş kimi borcumu yerinə yetirdim. Xaçatur da xeyli tər axıtdı. Mən onun və digərlərinin gözündə intiqam və güclü humanizm mübarizəsi gördüm. Sonra isə mənim uşaqlıq dostum mayor Suren dedi: «Biz vəhşi deyilik, lakin ürəyimizi soyuq saxlamalıyıq…»**

**Sonrakı gün biz kilsəyə daxil olduq, dünən gördüyümüz və etdiyimiz yaramazlıqlardan ruhumuzu təmizləməyi xahiş edərək dua etdik…» («Воскрешение души нашей». Ванадзор. 1996, səh. 260-262).**

*Kitabın çapından sonra bədnam yazıçı Zori Balayan tələsərək 2011-ci ildə «Nuh gəmisi»ndə erməni "həqiqətlərini" (?!) yaymaq üçün dünya səyahətinə çıxır.* Erməni terrorçularının, silahlı birləşmələrin Xocalıda törətdikləri cinayətləri cəhd edirdi ki, azərbaycanlıların adına yazsın. Bu qabaqcadan düşünülmüş və hiyləgərcəsinə edilən təbliğat idi. Artıq Moskvada nəşr olunan «İzvestiya» qəzeti iddia edirdi ki, Zori Balayan səyahət zamanı dünyanın müxtəlif qütblərinə səpələnmiş erməni ailələrinə 100 mindən artıq «Xocalı həqiqətləri» (?!) adı ilə buraxılmış DVD və SD çarxlarını hədiyyə etdi.

Zori Balayanın hiyləgər və şeytani səfərində məqsəd Heydər Əliyev Fondunun vitse-prezidenti, RF Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın bəşəriyyətə ünvanladığı «Xocalıya Ədalət!» çağırışını zərərsizləşdirmək, kampaniyaya qarşı inamsızlıq toxumu səpmək, gözdən salmaq idi. Lakin onun bu istəyi ürəyində qaldı. Kor-peşiman özünün ilan yuvasına qayıtdı. Bir aydan sonra səfərdən qayıdan *Zori Balayan yerli agentliklər vasitəsi ilə etiraf edirdi ki, o hər evdə, hər yerdə «Xocalıya Ədalət!»in sədasını eşidirdi.*

Adamlar Dağlıq Qarabağda, Azərbaycanın işğal olunmuş ərazilərində nələrin baş verdiyini öyrənmək istəyirdilər.

**Kimdir Zori Balayan? Özlərini dünya birliyinə məzlum, əzilmiş, təhqir edilmiş kimi təqdim etməyə cəhd edən erməni xalqının ziyalası, yazıçısı, ictimai xadimi, yoxsa zülm, işgəncə verməklə insanların həyatına qəsd etməkdən, körpə əsirlərin dərilərini soymaqdan zovq alan qatil? Əgər bu xalqın ziyalısı, yazıçısı, ictimai xadimi budursa, bəs onun hərbçiləri, əli silahlıları təsəvvür edin ki, necədir? Dünya ictimaiyyətinə, insan haqlarının müdafiəçilərinə, parlamentarialara, dövlət başçılarına, bir sözlə bütün beynəlxalq təşkilatlara, mühakimə orqanlarına sualımız var: İndi söz Sizindir, Siz deyin, kimdir əxlaqsızlığını, insan qatili olduğunu öz əsərində fərəhlə etiraf edən Zori Balayan?**

İki qüvvə üz-üzə dayanmışdı: bir tərəfdə insan qanından ləzzət alan, Azərbaycanlıların yandırılan, dağıdılan, viranə qalan yurd yerlərini ermənilərin qəhrəmanlıq nümunəsi kimi göstərməyə çalışan, mənliyni itirmiş Zori Balayan dayanmışdı. Digər tərəfdə isə ömrünü, gününü əsrin qəhrəmanlıq tarixinə çevirən, dediklərini və çağırışlarını milyonların müzakirəsinə buraxan, Azərbaycanlı imicini qoruyub saxlamağa cəhd edən və bunu həyatda, tarixdə təsdiq edən siyasətçi Leyla xanım Əliyeva idi. (Moskvada, 1110-saylı erməni məktəbində təhsil alan 5-ci sinif şagirdi Susannanın çəkdiyi şəkil yadıma düşdü: bir tərəfdə leşə qonan göreşən dayanmışdı, o biri tərəfdə isə dağların arxasından boylanan möhtəşəm bir günəş.)

Məsələn, Kanada Hərbi Hava Qüvvələrinin mayoru Levon Sevants Xocalıda əsir uşaqlar üçün düşərgə yaradılmasında şəxsən iştirak etmişdir. Bu düşərgədə 9-dan 11 yaşına qədər olan 180 uşaq saxlanılırdı. Uşaqların bir qismi dünya təbabətində öz vaksinlərini sınaqdan çıxarmaq üçün həmin qapalı elmi-tədqiqat mərkəzlərinə göndərilib. Ermənilər Xocalı əsirləri ilə bağlı qanlı izləri ört-basdır etmək üçün əsirləri kütləvi qətlə yetirdikdən sonra onları yandırıblar. Bəzilərinin «bəxti gətirir» – onları işğal edilmiş Azərbaycan ərazilərində yerləşən qızıl və mis mədənlərində qul kimi işləməyə göndəriblər.

Azərbaycan Hərbi Prokurorluğunun İstintaq qrupunun topladığı materiallarda, Milli Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinin əməkdaşlarının topladıqları materiallarda kifayət qədər sübutlar var. Məsələn toplanmış fakt və sənədlərin sırasında əslən Xocalıdan olan Mehdi Səmədağa oğlu Babayevin və onun ailəsinin yandırılaraq məhv olunması

səhnəsini istintaqa cəlb olunmuş keçmiş hərbçi Emil Daniloviç Petrosyan etiraf edir. Ermənilər uzun müddət çalışdılar ki, bu və buna bənzər fakt və sənədləri gizlətsinlər. Lakin «Heydər Əliyev Fondu»nun RF-dakı Nümayəndəliyinin qaldırdığı «Xocalıya Ədalət!» strateji layihəsi hər şeyi alt-üst etdi. Nəticəyə baxın: bundan sonra ermənilər törətdikləri tarixi cinayətlərdən yaxa qurtarmaq üçün Fondun Moskvadakı Nümayəndəliyinə məktub yazmağa cəhd edirlər. Bu məktubu keçmiş hərbi kəşfiyyatın on bir nəfər üzvü imzalamışdı. Bu onların etiraf məktubu idi. Şübhəsiz, «Xocalıya Ədalət!» çağırışının erməniləri diz çökdürtməsi, qanlı cinayətlərin etirafı böyük siyasi bir məsələ idi. Lakin bu etiraf məktubu RF-nın Erməni İcmasının rəhbəri A.Abramyan tərəfindən məqsədəuyğun hesab olunmamışdı. Bu fakt isə Tehran radiosuna (İran) müsahibə verən (2005-ci il aprelin 22-si, saat 19.30 (Bakı vaxtı) akademik L.Xurşidyanın fikrinə əsaslanır. Maraqlısı burasındadır ki, belə etiraf məktublarından «Heydər Əliyev Fondu»nun Moskva Nümayəndəliyi demək olar ki, mütamadi alır. Nümayəndəliyin siyasi lideri Leyla xanım Əliyevaya bu etiraf məktublarının xalqımıza, millətimizə qarşı törədilən tarixi cinayətin bir parçası kimi qəbul etdi.

Araşdırma materiallarına görə, Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışında məşhur Qrotsian və Kant konsepsiyalarının elementləri var (bu konsepsiyalar həm də qarşılıqlı və müştərək təhlükəsizlik konsepsiyasıdır, bunun da «Qrotsian» və «Kant» qolları var). Məsələn, Qrotsian konsepsiyası təhlükəsizliyin təmin olunmasını güc tətbiq etməklə deyil, razılıq əsasında formalaşdırılır. Kant konsepsiyasında isə BMT-nin səmərəsiz bir quruma çevrildiyi iddia edilir. Humanitar dəyərlər və iddialar əsas zərurət kimi götürülür. Qeyd edək ki, bu modelin tərəfdarları təhlukəsizliyə nail olmaq üçün əsas güc və dayaq mənbəyini NATO-da axtarırlar. Leyla xanım Əliyevanın «Xocalıya ədalət» çağırışında da insanları güc və təzyiq əleyhinə səfərbər edən bir qüvvə var. Və yaxud BMT-nin fəaliyyətsizliyinə işarə edən (Dağlıq Qarabağın işğalı ilə bağlı dörd qətnamələr) hökm var. Bu hökm isə ancaq və ancaq humanitar dəyərlər çərçivəsində özünü beynəlxalq miqyasda təsdiq edir. Zülmün və ədalətsizliyin, insanlığın əleyhinə formalaşan beynəlxalq terror qruplarının, erməni separatçılarının ifşasına yönəlmiş «Xocalıya Ədalət!» çağırışı məntiqi dəyərlərinə görə özü bir möhtəşəm konsepsiyadır.

Digər tərəfdən, Xocalıda törədilmiş qırğınların, terror nəticəsində kəsilən nəsillərin, genetik fondumuza vurulan zərbələrin mahiyyəti haqqında «Xocalıya Ədalət» çağırışı çox şey deyir.

«İş yerlərində» – Vəjnəli, Söyüdlü, Qızılbulaq, Zod və s. yataqlarda ölən əsirlərimizin sayı barədə biz heç vaxt dəqiq məlumat ala bilməyəcə-

yik. Bu ona görədir ki, biz bu sahədə beynəlxalq monitorinqin keçirilməsinə nail ola bilməmişik. Beynəlxalq monitorinq keçirilməyənə qədər Vardienisdə, Razdanda, Cermukda, Kəlbəcərdə olan xüsusi qadın həbsxanalarının «fəaliyyəti» barədə heç kim, heç nə bilməyəcək.

Lakin ermənilərin özləri isə azərbaycanlı əsirlərlə vəhşicəsinə rəftar etdiklərini gizlətmirlər. Xocalı ərazisindən verilişlər hazırlayan «Artsax» telekanalında 14 fevral 2006-cı ildə erməni zabiti Yefram Bababekyanın «vətən buradan başlayır» hərbi verilişində bəyan etdi ki, onun rəhbərlik etdiyi qrup azərbaycanlı əsirlərlə çox «sakit» işləmişdir. Erməni zabitinin sözünə görə, o, Xocalının işğalında çox primitiv bir üsulla tikilən həbsxanada 150 nəfər azərbaycanlının saxlanıldığını xatırlayır.

2006-cı ilin martından beynəlxalq monitorinqin mümkünlüyü barədə danışıqların sürətlənməsi anında, Xocalı əsirlərinin böyük bir qismini Ermənistana köçürməyə başlayıblar.

Məlumata görə, onların arasında 27 yəhudi, 19 ləzgi, 21 kürd, 8 talış, 25 rus, 13 belorus ailələri olub. Bu günədək onların taleyi haqqında heç bir məlumat yoxdur
( bax: "Özbəkistan axşamları" qəzeti. 2006, VII. 26). Törədilmiş bu cinayətləri heç bir faktla təkzib etmək mümkün deyil. Məsələn, erməni terrorunun ideoloqlarından biri olan Zori Balayan bütün bu qanlı olayları unutdurmaq üçün, RF-nin prezidenti V.Putinə "Qarabağ problemi yoxdur-Rusiya problemi var" adlı məktubunda (2013-cü il, 14 oktyabr. Məktub RF-nin prezidenti V.V.Putinin saytında yerləşdirilib) sərsəmləyir. O, kökü bilinməyən fakt və sənədlərə istinadən iddia edir ki, Dağlıq Qarabağ əzəldən Ermənistana və ermənilərə məxsus ərazi olub. Ermənistan heç vaxt işğalçılıq siyasəti yeritməyib (?). RF-nin prezidenti saytına yerləşdirilmiş erməni separatçılarının ideoloqu Z.Balayanın məktubunu cavabsız qoydu. Çünki o, heç vaxt əsası olmayan məktubu tarixi sənəd hesab edə bilməz. Z.Balayana Azərbaycan yazıçısı, tanınmış ictimai-siyasi xadim Anar Bakıda rus dilində nəşr olunan "Zerkalo" qəzetində (Bax: 2013, XII) sil-silə yazılarla cavab verdi. Yazışı Z.Balayana göstərdi ki, onun yazdıqları başdan-başa cəfəngiyatdır. O cəfəngiyatları isə, nəinki RF-nin prezidenti, heç ağlı başında olan erməni ziyalıları da oxumur. Z.Balayan kimilər Xocalı qətlanının qatilləri kimi əsrlər boyu tarixdə qalacaqlar. Onu isə silmək mümkün olmayacaq.

## XOLOKOST, RUANDA, XOCALI

(*Azərbaycan millətinin məhv edilməsi istiqamətində aparılan etnik təmizləmə siyasətində ssenarinin müəllifi eyni idi. Biz faşist Almaniyası tərəfindən qırğına məruz qalmış yəhudilərin genosid olunması faktlarını – «Xolokost tarixi»ni xatırlamağı lazım bilsək də, onun haqqında danışmırıq. Çünki bu fakt, artıq, məlum bir faktdır. Ruanda və Xocalı arasında isə oxşarlıq daha çoxdur.*)

1994-cü ilin aprelində Ruandada (Afrika) baş verən genosidin 10-cu ildönümü sadə və sakit keçdi. Bəşəriyyət tarixində ən müdhiş faciə kimi düşünülən tədbirlər ətraf dünyada, demək olar ki, əks-səda vermədi. Ruandalılar növbəti dəfə inandılar ki, Afrikada nə baş verirsə versin, afrikalıların əzabları hansı miqyaslı və dərin olursa olsun, qalan dünya, ən yaxşı halda, öz kədərini ifadə edəcək (bax: «Qarakənddə erməni terroru» yazısına nəzər salın. I cild). Və yaxud, Kiqalidəki 3 günlük konfrans, orada memorialın açılışı, Ruanda səfirlikləri tərəfindən digər ölkələrdə aparılan bəzi tədbirlər – Xocalı ilə bir sırada XX əsrdə baş verən hadisələrin layiq görüldüyü tədbirlər sırasına daxildir. Hətta 7 apreli «Düşünmə günü» elan edən BMT özünün Nayrobi və Cenevrədəki mərkəzlərində normal mərasimlərlə kifayətləndi. Ruanda paytaxtına, bir neçə Afrika dövlətlərinin prezidenti ilə yanaşı, yalnız Belçikanın baş naziri gəldi. Qalan Qərb liderləri və BMT-in keçmiş Baş katibi Kofi Annan hadisəni öz şəxsi iştirakları ilə şərəfləndirməyi lazım hesab etmədilər.

Məlumata görə, RF-nın subyektlərində biri-birinin ardınca Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» layihəsi ən yüksək dövlət səviyyəsində öyrənilir, araşdırılır və nəticədə qəbul olunur. Çünki bu çağırışda humanizm prinsiplərinə və Beynəlxalq hüquq normalarına inam, insanlara, insanlığa məhəbbətdən doğan güclü məntiq və məğlubedilməz bir cəsarət var.

Milyonların həyatını silmiş qırğının dərslərinə Kiqali konfransında böyük maraq göstərməli olan dövlətlər – Belçika, Fransa, ABŞ, BMT – etinasız qaldılar. Məhz onlar dəfələrlə xatırlatmışdılar ki, vaxtında hadisələrə müdaxilə etməmək arzusu görünməmiş təhlükəli hadisələrə gətirib çıxara bilər. Necə ki, Xocalı qırğınları bütün bunları təsdiq etdi. Beynəlxalq Təşkilatlar Xocalıda Monitorinq keçirməkdən imtina etdilər. Lakin «Xocalıya Ədalət!» çağırışı Bəşəriyyət üçün ən ciddi bir prinsip olaraq müzakirə mövzusuna çevrildi.

İldönümü ərəfəsində Amerika ictimai təşkilatı-Təhlükəsizliyin Milli Arxivi - informasiya azadlığı aktına apellyasiya verərək, məhkəməyə müraciət

etmiş, Ruanda faciəsinə dair öz hökumətinin materiallarına giriş qazanmışdır (eyni beynəlxalq addımı Xocalıya görə də atmaq olardı). Onlardan aydın olurdu ki, eks-prezident Klinton administrasiyası genosid haqqında bilirdi, lakin müdaxilə etməməyi üstün tutdu. Bundan başqa Ağ Ev məqsədəuyğun şəkildə və çox dəqiqliklə «genosid» sözündən istifadə etməkdən qaçırdı, lakin bununla belə daxili sənədlərdə ondan müntəzəm istifadə olunurdu.

Araşdırma materiallarına görə, Ruandalı ictimai-siyasi xadim Bek Butlez öz ölkəsində baş verən qardaş qırğınlarının, tökülən qanların… ümumən cinayətlərin əleyhinə gedərək «Biz terror edildik!» şüarını ortaya atdı. Amma ictimai xadimin çağırışının heç bir siyasi auditoriyası olmadı. Çünki ölkədə ictimai-siyasi xadim kimi formalaşan cənab Butlezin bu çağırışında şəxsi mənafeyi ortaya qoyuldu. Nəticədə ona inananlar olmadı. Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın isə dünya ictimaiyyətinə təqdim etdiyi «Xocalıya Ədalət!» çağırışında heç bir şəxsi mənafe güdülmürdü. Bu bir faktdır ki, dünyanın ən məşhur və tanınmış siyasi ekspertləri «Xocalıya Ədalət!» kampaniyasının mahiyyəti haqqında danışarkən birmənalı şəkildə qeyd edirlər ki, bunun əsas məramı insan haqlarının, hüquqlarının qorunması faktorları təşkil edir. İnsan və onun hərtərəfli təhlükəsizliyi «Xocalıya Ədalət!»in əsas məramlarından biri sayılır. Buna görə də «Heydər Əliyev Fondu»nu dünyanın məşhur Endryu Karneqi (Karnegi fondu) fondu ilə eyni siyasi məcrada təhlil etməyə cəhd edirlər. Lakin hər bir fonda yanaşma metodologiyası müxtəlifdir. Məsələn, araşdırmalar zamanı məlum olur ki, «Heydər Əliyev Fondu»nun Rusiya Nümayəndəliyinin yeddi əsas (əlbəttə, bizim təhlillərə görə) prinsipi var: 1.Ədalət prinsipi. 2.Qədim və tarixi mənəvi dəyərlərin qorunması. 3.Genetik kodların terror və hücumlardan mühafizəsi. 4.Cəsarət prinsipi. 5.İnsan faktoru və onun təhlükəsizliyi. 6.Əxlaq prinsipi. 7.Azərbaycançılıq prinsipi.

«Xocalıya Ədalət!» kampaniyasının əsas siyasi sütunlarını təşkil edən bu yeddi prinsip bu çağırışın dəyəri, zəruriliyi və əhəmiyyətindən xəbər verir. 2000-ci ildə Vyanada keçirilən "Cinayətkarlıq və ədalət mühakiməsi: XXI əsrin çağırışlarına cavab" adlı Bəyannamədəki prinsiplərlə üst-üstə düşən «Xocalıya ədalət» prinsipləri diqqəti cəlb edir.

Məşhur E.Karneqi Fondunun isə (ABŞ) mövcud olduğu gündən (1910-cu il) öz işini üç prinsip çərçivəsində formalaşdırıb və üç prinsip sonradan üç departamentdə strateji proqram kimi proqramlaşdırılıb və həyata keçirilib: 1.Beynəlxalq hüquq və konfliktlərin tənzimlənməsi. 2.Baş verən müharibələrin səbəblərinin öyrənilməsi. 3.Beynəlxalq əlaqələr və anlaşmalar.

Qayıdaq Ruanda hadisələrinə. Orada nə baş verirdi? Sənədlərə görə, qırğının başlanmasından sonra artıq iki həftə keçmiş Amerika prezidenti və hökuməti Ruandada törədilən hadisələrin dəhşəti, müdhişliyi barədə xəbərdar edilir. Hər halda, prezidentin, vitse-prezidentin və ali məmurların iş stolu üzərində olan Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatlarında Afrika ölkəsindəki hadisələr (eləcə də, Azərbaycanda aparılan erməni etnik təmizləmələr – ***V.S., R.V.***), demək olar ki, hər gün xatırlanırdı. Məsələn, 1994-cü ilin 23 aprelində, yəni qırğının başlanmasından 16 gün sonra verilən məlumatda Ruandanın «cənubuna doğru yayılan genosid barədə» danışılırdı. Dövlət katibi Uorren Kristaferin aldığı Dövlət Departamentinin məlumatında 3 gündən sonra təkcə «genosid» haqqında xatırladılmırdı, həm də qırğını törədənlərin məqsədlərini dəqiq ifadə edən formulirovka (xülasə) vardı: «bütün tutsiləri məhv etməklə qəti qərara nail olmaq».

Buna baxmayaraq, Ağ Ev administrasiyası ilk dəfə «genosid» terminindən rəsmi olaraq yalnız 1994-cü ilin 25 mayında istifadə etmişdir. Həm də maraqlı burasıdır ki, bu qorxulu sözün ictimaiyyəti narahat etməsindən və genosidin qarşısının alınması barədə beynəlxalq Konvensiyanın müddəalarının yerinə yetirilməsi çağırışından qaçmaq üçün «genosidin ayrı-ayrı aktları» formulundan istifadə etməklə onu yumşaltmağa çalışırdılar (hadisələr eynilə Xocalıdakı kimi davam edir).

Müstəqil ekspertlərin fikrincə, görünməmiş faciə qarşısında Amerika hakimiyyətinin hərəkətsizliyi, əsasən, üç amillə izah edilir. Birincisi, bir il əvvəl Somaliyə müdaxilənin uğursuzluğa düçar olması. Bir gündə 18 hərbi qulluqçu itirən Amerika ordusu yerli xaosda heç bir qayda yarada bilməyərək, oranı tərk etdi. İkincisi, Vaşinqton üçün strateji maraq kəsb etməyən, qiymətli təbii ehtiyatlardan məhrum Afrika ölkəsində risk etməmək arzusu. Nəhayət, Ağ Ev sahibi üçün kiçik xətanı total səviyyəyə çevirməyə qabil olan qaynar seçki kampaniyası.

**1998-ci ildə, ikinci prezidentlik dövrü vaxtı Klinton Afrikaya səfəri zamanı Ruandaya getdi və vaxtında hadisələrə reaksiya verməyi bacarmadığına görə üzr istədi.** (Azərbaycan Xocalı hadisələrinə soyuq münasibətə görə həm ABŞ-dan, həm RF-dən, həm Fransadan belə bir addımın atılmasını gözləyir – ***V.S., R.V.***). Bununla bərabər o, və onun ətrafı həmişə təsdiq edirdilər ki, hərəkətsizlik, müstəsna olaraq, faciənin həqiqi miqyasının bilinməməsindən doğmuşdur. Məsələn, **ABŞ prezidenti Kiqalidə dayandığı vaxt demişdir: «Sizin üçün, xüsusən də ailə üzvlərini itirən əksəriyyət üçün ola bilər ki, qəribə görünsün, lakin o dövrdə dünyanın hər yerində mənim kimi ofisdə oturan adamlar üçün hadisəni dərinliklərinə qədər tam səviyyədə qiymətləndirmək hədsiz çətin idi».**

Bu etiraf idi. Elə bir etiraf ki, onu bütün dünya ictimaiyyəti ABŞ Prezidentindən gözləyirdi. Məlumata görə Ağ Ev administrasiyası ölkədəki strateji araşdırma mərkəzindən, xüsusən E.Karneqi Fondundan baş verənlərin səbəblərini gözləsə də hamı susdu. Bu isə ABŞ dövlətinin dünyadakı «Demokratik imici»nə ağır zərbə idi.

Güman edirik ki, vaxt və zaman gələcək Azərbaycanın Dağlıq Qarabağ itkisində, Xocalı yaşayış məntəqəsindəki faciələrdə imzası olan irili, xırdalı dövlətlərin hamısı Azərbaycan dövlətindən, Azərbaycan xalqından baş verənlərə görə üzr istəyib, etiraf edəcəklər. «Heydər Əliyev Fondu»nun Moskva Nümayəndəliyindən səslənən «Xocalıya Ədalət!» harayı və yaxud çağırışları, təhlillərimizə görə, artıq bütün bunların əsasını qoyub. Ruanda faciəsi ilə bağlı ittihama Fransa xüsusilə ürək ağrısı ilə reaksiya verdi. Heç kim üçün sirr deyildi ki, hakim rejimi dəstəkləyən rəsmi Paris, genosidi təşkil edən hökumətə fəal kömək edirdi və birgə əməkdaşlıq R.Kaqomenin hakimiyyətə gəlməsinin son gününə qədər davam etmişdir. Bundan başqa, ABŞ-dan fərqli olaraq, Fransa oradan qərb ölkələrinin vətəndaşlarını çıxartmaq üçün Kiqaliyə ordu göndərmiş və ruandalılar üçün təhlükəsizlik zonası təşkil etməyə çalışmışdır. Lakin əksinə alınmışdır: bu zonada qırğın davam etmiş, fransız ordusu isə genosidi dayandırmağa, hökumət qoşunlarına qarşı hücumu genişləndirməyə çalışan Ruanda partizanlarının yolunda faktiki maneə olmuşdur.

Genosid vaxtından etibarən Ruanda və Fransa arasındakı münasibətlər, yumşaq desək, soyuq olmuşdur. İldönümü ərəfəsində yeni qalmaqal qopmuşdur. Fransa məhkəməsi elan etmişdir ki, Ruandanın prezidenti Pol Kaqomenin 1994-cü ilin 6 aprelində Kiqaliyə qayıdan sabiq dövlət başçısı Juvenal Habiarmanın təyyarəsinin atəşə tutulmasında əli var. Təyyarə düz paytaxtın üstündə vurulmuşdur (bu fakt bizə Qarakənd səmasında vurulan vertalyotu xatırlatdı. Görünür, ssenari eyni olub. Yaxud da, Ulu Öndər Heydər Əliyevə qarşı qurulan, lakin baş tutmayan terror aktını yada salın). J.Habiarman həlak olmuş və onun qohum-əqrəbası, yaxınları bundan qisas almaq üçün istifadə etmişlər. Artıq bir neçə saatdan sonra tutsi xalqının nümayəndələrinin talan və qırğını başlanmışdır.

İttiham Kiqalidə hiddətlə qarşılanmışdır. Tutsilərdən gəlmə olan və 1994-cü ildə Ruanda üsyançı vətənpərvərlər cəbhəsinin rəhbəri P.Kaqomenin dəstələri xutu hökümətini devirmiş və genosidə son qoymuşdur. O da öz növbəsində Parisi genosid hazırlanmasında «birbaşa iştirak etmədə» ittiham etmişdir.

1994-cü ilin aprelində Ruandada BMT-in xeyli miqdarda «mavi dəbilqəlilər» kontingenti yerləşmişdi. Sülhməramlıları əvvəlcədən hazırlanan qırğın barədə xəbərdar etmişdilər, missiyanın başçısı Nyu-Yorka məlumat vermişdi, lakin bütün bunlara baxmayaraq heç bir profilaktik tədbirlər görülməmişdi. Bundan başqa qırğın başlayan vaxtı BMT-nin sülhməramlı korpusu 90%, yəni 270 hərbi qulluqçuya qədər azaldılmışdı ki, bu da qatillərin əl-qolunu tamamilə açmışdı. Yeni kütləvi qətllər barədə təzyiq altında məlumatlar verilən vaxtı müdaxiləçi korpus formalaşdırılması və hadisələrə müdaxilə edilməsində gecikmələr yarandı. ABŞ, məsələn, zirehli maşınları hansı boya ilə rəngləməyi və buna görə pulun kimin ödəməli olması məsələsini müzakirə edərək, həmin maşınları dərhal vermədi.

Hətta tutsilərin harada gizləndiyi barədə məlumat verən və utanmadan qatilləri tərifləyən «Mintəpə» Ruanda radiostansiyasını susdurmaq üçün razılaşmaya belə nail olunmadı. Bunu tez və effektli eləməyə hər cür texniki imkanları olan Vaşinqton qeyd-şərt etdi ki, «Söz azadlığı haqqında» Qanun kütləvi informasiya vasitələrinin işinə mane olmağa imkan vermir.

1994-cü ildə diplomat, BMT-nin keçmiş başçısı K.Annan BMT-də sülhməramlı əməliyyata başçılıq edirdi. Faciənin qarşısını ala bilməmək qabiliyyətinə görə, o, da üzr istəməsinə baxmayaraq, ruandalılar daha çox şey gözləyirdilər. «Genosidin harada baş verməsindən asılı olmayaraq, o həmişə beynəlxalq birliyin iflasına dəlalət edir» fikrini P.Kaqome konfransda söyləmişdir. Daha sonra o, bildirmişdir: «Bu iflası mən müəyyən məqsədli kimi səciyyələndirərdim. Milyonlarla ruandalıların həyatının heç kim üçün belə əhəmiyyətsiz olduğunu necə düşünmək olardı? Doğrudanmı nəhəng ölkələrin hansısa gizli məqsədləri var? Düşünmək istəməzdim ki, bu məqsədlər nasist düşüncələrdən və ya dərinin rəngindən diktə olunur. Ümid edirəm ki, bu belə deyil». (Xocalıya ədalət məsələsinə ikili standartdan yanaşma).

Kiqali konfransının iştirakçıları qeyd etdilər ki, genosidin qarşısını almaq olardı, çünki o əvvəlcədən düşünülmüş və təşkil edilmişdi, gözlənilməz, spontan çıxış deyildi (Xocalı genosidini yadınıza salın). Xutunun hakimiyyətində olan kütləvi informasiya vasitələri, ilk növbədə «Mintəpə» radiostansiyası xutu və tutsilərin uyarsızlığını təbliğ etməklə, bunun üçün uzun müddət səylə zəmin hazırlamış və tutsilərdən həmişəlik xilas olmanın zəruriliyini əsaslandırmışlar. Əvvəlcədən silah anbarları yaradılmışdı. Şovinist əhvali-ruhiyyəli xutular «İnteraxmve» dəstələrinə toplaşır və onların hazırlığı barədə ciddi şayiələr dolaşırdı. Xutu Prezidenti J.Habiarmanın təyyarəsinin vurulması ilə tutsilərin fiziki məhv edilməsi planı hərəkətə başladı.

Analoqu olmayan sayda adamların kütləvi məhv edilməsi Ruandanın tarixi xüsusiyyətləri hesabına mümkün oldu. Müstəsna olaraq, Avropa müstəmləkəçiliyi sayəsində yaranan, özbaşına sərhədlərdə bərqərar olan, cəmi bir neçə onillik yaşı olan Afrika ölkələrindən fərqli olaraq Ruanda əsrlərlə mövcud idi. Avropalıların gəlişinə qədər orada dəqiq sosial strukturlu, güclü mərkəzləşmiş feodal dövləti vardı.

İlk qırğın hələ keçən əsrin 50-ci illərinin sonunda, müstəqillik elan edilmə ərəfəsində baş vermişdi. Onda minlərlə tutsi, o cümlədən P.Kaqomenin valideynləri ölkədən qaçmış, qonşu ölkələrdə bərqərar olmuşlar. Onların uşaqları sonda 1994-cü ildə xutu rejimini devirmiş partizanların əsas özəyini təşkil edirdi.

Növbəti dəfə ruandalılar sübut etdilər ki, digər afrikalılardan fərqli olaraq, onlar yüksək dərəcədə təşkil olunmuş şəkildə hərəkət etməyi bacarırlar. Qurbanların siyahısının tərtibi, onların aşkar edilməsi, planauyğun olaraq qılıncla, kətmənlə (qənaət üçün odlu silahlar yalnız zəruri hallarda tətbiq edilirdi) məqsəd kimi qarşıya qoyulmuşdu. Ruandada o zaman fəaliyyət göstərən şahidlərin ölüm konveyeri haqqındakı danışıqları hətta faşist vəhşilikləri fonunda adamı heyrətə salır. Sürətinə və effektivliyinə görə bu dəhşətli konveyeri yalnız hitlerçilərin ölüm konveyeri ilə müqayisə etmək olar (Xocalı ssenarisi).

Genosid üç ay və ya 100 gün davam etdi. Bu gün həmin dəhşətli tarixdə çoxlu ağ ləkələr var. Mahiyyətcə yalnız o mübahisəsizdir ki, birincisi, ağılsız qırğın baş vermişdir, ikincisi isə onun qurbanları minlərlə adam olmuşdur. Qalan şeylər isə qeyri-müəyyəndir.

Ondan başlayaq ki, milli barışıq siyasəti aparmağa cəhd edən ölmüş xutulu prezident J.Habiarmanın ölümünün səbəbləri indiyə qədər aydınlaşdırılmamışdır. Versiyaların birinə əsasən, onun təyyarəsini şovinist həmtayfalar vurmuş və bundan millətlərarası düşmənçiliyi qızışdırmaq üçün istifadə etməyə çalışmışlar. Digər versiyaya görə, təyyarəni böhran yaratma və hakimiyyəti ələ keçirmək üçün P.Kaqomenin yaxşı silahlanmış və təlim görmüş üsyançıları məhv etmişlər. Uçan aparata hətta neçə raket dəydiyi belə məlum deyil: bir, yoxsa iki.

Genosid qurbanlarının sayı haqqında dəqiq məlumatlar yoxdur. Rəsmi rəqəm milyondan bir az yuxarıdır. Bəzi müstəqil ekspertlər həlak olanların sayının yarım milyon olduğunu bildirirlər. Tarixçilərin bir hissəsi isə bu rəqəmin 800.000-i ötdüyünə üstünlük verir (hadisələr Xocalı genosidinin eyni olaraq qalır).

Nəhayət, həlak olanların etnik tərkibi də mübahisə doğurur. Məsələn, Merilend Universitetinin professoru İ.Kristian hesab edir ki, ölənlərin əksəriyyəti tutsilər deyil, öz şovinist əhvali-ruhiyyəli tayfalarının baxışlarını bölüşdürməyən dinc xutulardır. Belə, ilk baxışda təxribatçı görünən bu fikir əsaslardan məhrum deyil. Əgər rəsmi rəqəmi götürsək – milyon nəfər öldürülən – sadəcə, deyə bilərik ki, 1994-cü ildə ölkədə bu qədər sayda tutsi yox idi.

Əhalisinin etnik tərkibi Ruandanı təkrarlayan qonşu Burundidəki vəziyyət optimizm üçün əsas vermir. 6 aprel 1994-cü ildə Kiqali üzərində vurulan təyyarədə Ruanda Prezidenti J.Habiarmandan başqa Burundi Prezidenti Siprian Ntaryamir də uçurdu. Onun da həlak olmasına baxmayaraq, Burundidə genosiddən qaçmaq mümkün oldu. Lakin keçmiş onillər ərzində daim etniklərarası toqquşmalar nəticəsində orada da 200-300 min adam həlak olmuşdur. Toqquşmalar davam edir və indi də yeni həyatlara son qoyulur, yeni köçkünlər yaranır. Xutu və tutsi siyasi partiyalarının barışması, koalision hökumətin yaradılması cəmiyyətə qəti sakitlik və stabillik gətirmədi. (Bu hadisəyə görə ABŞ-ın eks-prezidenti B.Klinton Ruanda xalqından üzr istədi. Bəs Xocalı genosidinə görə Azərbaycan xalqından kim və yaxud kimlər üzr istəyəcək?)

Nəzarət edilən demokratiya yolunu seçən Ruanda uçurumdan çıxmağı bacardı. Hələlik onun vəziyyəti aşkar yaxşıdır, lakin bu o demək deyil ki, gələcəkdə də onun vəziyyəti münaqişələrdən sarsılan Burundiyə nisbətən həsəddoğurucu olacaq. Ölkənin tutduğu yoldan geri çəkilməyəcəyinə, genosidin və ya irimiqyaslı etniklərarası qırğının təkrar olunmayacağına heç kim təminat verə bilməz.

Biz baş verən tarixin bu nadir hadisələrini Azərbaycanın DQ ərazisində baş verən qırğınlarla oxşar olduğunu, hətta təkrar baş verdiyini nişan verdik, təhlil etdik. Maraqlıdır ki, o vaxtlar bilərəkdən dünya mətbuatında elə yazılar dərc olunurdu ki, Azərbaycan, onun zorakılığa məruz qaldığı DQ ərazisi, yandırılan Xocalı yaşayış məntəqəsi Ruanda ilə, Somali ilə… Afrikanın digər geridə qalmış ölkələri ilə müqayisə edilir, Azərbaycanda insan haqlarının və azadlıqlarının pozulduğu, insanların təhlükəsizliyinin təmin olunması mümkün olunmayan bir ölkə kimi tanıtdırmağa səylər edilirdi. Respublikamızın, xalqımızın nüfuzuna xələl gətirmək üçün bizə qara yaxan yaxın və uzaq xarici ölkələrdəki erməni separatçılarının lobbisi ilə yanaşı onların cinayət əməllərini ört-basdır edən havadarları idi. Nə

qədər acınacaqlı olsa da qeyd etməliyik ki, bu işlərdə din xadimləri, kilsələr də ədalətsiz mövqelərini gizlətmirdilər.

Dünya «Heydər Əliyev Fondu»nun Rusiya Nümayəndəliyinin «Xocalıya Ədalət!» məntiqi qarşısında susurdu. Biz dünyanın əsas demokratik dövlətləri cərgəsində xeyli araşdırma materiallarına nəzər saldıq. Lakin etiraf edək ki, həmin dövlətlər (məsələn, ABŞ, Böyük Britaniya, Rusiya Federasiyası, Fransa, Almaniya…) tarixi sənədləri qəbul edir və «Xocalıya Ədalət!» çağırışı və tələbləri qarşısında susurdular.

P.S. Hadisələri müqayisə edərkən, Ruandanın fransız dilində nəşr olunan "İnformator", "Smena", "Rəsmi qəzet" mətbuat orqanlarında ölkənin "RAP" agentliyinin xəbərlərində yayılan materiallarından istifadə olunub(1992-1995). Eləcə də, İsraildə ərəb, ingilis və ivrit dillərində nəşr olunan "Əl-Ajba", "Haares" ,"Davar", "Maariv" qəzetlərində 1992-1995-ci illərdə çap olunmuş materiallardan istifadə  edilib.

## «XOCALIYA ƏDALƏT!»
## «HAYASTAN» DOKTRİNASINA QARŞI

Dünya kütləvi qırğın silahları önündə acizdir. Məhz bu səbəbdən ABŞ-da kütləvi qırğın silahları əleyhinə tədbirlər üçün yeni hərbi-strateji qurum yaradıldı. «Hərbi-məxfi əməliyyatlar» adlı yeni quruma briqada generalı Bryus Loulor başçılıq edir. Qurumun Baş Qərargahı isə Norfolk şəhərində (Virciniya ştatı) yerləşdirildi. İllik büdcəsi 4 milyon dollar olan bu hərbi-siyasi təşkilatın 28 eksperti var (Bax: "Ararat qəzeti. Beyrut (Livan).1993, VI).

Xocalı qırğınlarından dörd il sonra 1996-cı ilin aprelin 20-də yuxarıda adını qeyd etdiyimiz beynəlxalq təşkilatın üç eksperti Dağlıq Qarabağ ərazilərində görünürlər. «Asun» informasiya mərkəzinin əməkdaşı S.Karapetyan iddia edir ki, bu ekspertlər «...boşalmış əraziləri...» xeyli gəzdilər. Məlumata görə bu ekspertlərin gəlişlərində məqsəd külü göyə sovrulmuş, dağıdılmış, əhalisinə divan tutulmuş Xocalıda olmaq, oralarda ekspertiza aparmaq olub. 1995-ci ilin 13 may tarixli nömrəsində «The Vaşinqton Post» qəzetinin müxbirinə müsahibə verən briqada generalı Bryus Loulor qeyd edirdi: «...Biz dünyanın müharibə ocaqlarında xeyli iş aparmışıq. Məqsədimiz bu olub ki, öyrənək görək müharibələrdə tərəflərin hansı birisi kimyəvi silahlardan və digər kütləvi qırğın silahlarından istifadə edib. Biz bunları araşdırırıq…» (Bax: eyni mənbə, s.3).

Əslində ermənilərin «Asun» mərkəzi bu məsələni gizlətməyə nə qədər cəhd etsə də, mümkün olmadı. Generalın fikirlərinə istinad etsək, ekspertlərin Xocalıda olmalarında məqsəd aydın olur. Bu gün çalışmaq lazımdır ki, həmin ekspert nəticələri geri alınsın, oxunsun. (Qeyd edək ki, təşkilatın ekspert rəyi 50 il qorunub saxlanılır).

Fikrimizcə, bütövlükdə türk dünyasının irili-xırdalı xalqları artıq «Regional Vahid Təhlükəsizlik Doktrinası»nın yaradılması uğrunda düşünürlər. Maraqlıdır ki, ərəb ölkələri artıq belə bir birləşmənin istəyi ilə çıxış edir. Birləşmiş Ərəb Əmirliklərinin generalı, BQ rəisi Şeyx Məhəmməd bin Zahid əl-Nahayyan təklif edir: «…Təcili birləşmək vaxtıdır. Təhlükəsizlik doktrinasını yaratmaq lazımdır. Xarici silahlı qüvvələr müvəqqətidir. Ərəblərin mənafeyi naminə İraqı da bu birliyə dəvət etmək lazımdır… Birləşmək… Birləşmək… Birləşmək…»

Bu, dünyanın infrastrukturlarını neftlə hərəkətə gətirən ərəb aləminin kütləvi qırğın silahları hazırlayan və ya istehsalı üçün düşünən məkrli düşmənlərə qarşı strateji proqramıdır.

Nefti, zəngin yanacaq resursları olan Xəzəryani ölkələrinsə belə bir

strateji proqramı yoxdur və sabah buna da şübhə etməyək ki, kütləvi qırğın silahları üçün çalışan Ermənistan ayrı-ayrılıqda bu dövlətlərin (Xəzəryanı dövlətlərin) hər birinə meydan oxuyacaq. Artıq Nyu-Yorkdakı Henri Stimson Araşdırmalar Mərkəzi kimyəvi və bakterioloji silahlarla bağlı 20 dekabr 2000-ci ildə «Toksikoloji Arxipelaq» adlı strateji hesabatını və onun yeni variantını (2012.X-5) Ağ Evə təqdim edib. Bu hesabatın 14-cü və 22-ci səhifəsində – «MDB ölkələri» paraqrafında Ermənistanın adı çəkilir. Göstərilir ki, Yerevan yaxın beş ildə bakterioloji və kimyəvi silahların potensial bazasına çevriləcək (Bax: SAM-nın "Bülleten"i.2001,II, s.9).

Araşdırma materiallarına və istintaq məlumatlarına görə, erməni separatçıları əldə etdikləri kimyəvi silahlardan sınaq məqsədləri üçün Azərbaycanın yaşayış məntəqəsi olan Xocalıda istifadə ediblər.

Qırğın necə baş verib? Fikrimizcə, xocalıları əvvəlcə kimyəvi zəhərdən keçiriblər. Sonra öldürülən insanları yenidən güllələyərək, təkrar öldürüblər. Biz o vaxt müşahidə etdik ki, qırğına düşənlərin demək olar ki, böyük bir qisminin ağzından ağ köpük gələrək boğublar. Bu vaxt tənəffüs orqanları 9 dəqiqə ərzində çürüyüb tökülür, damarlar sıxılır və nəticədə birinci olaraq daxili orqanlarda kiçik «partlayış»lar baş verir. Bundan sonra zəhərin təsirindən qanda çürümə ehtimalı çoxalır, hüceyrələr iflic olur. Hələlik Xocalı qırğınları hansı üsulla həyata keçirildi? Heç bir xarici və daxili mətbuat, kütləvi məlumat vasitələri bunu yaza bilmədi. (Qeyd edək ki, bu kitabın mülliflәri 80-ci illərdə (İraq-İran müharibəsi illəri) Hələbcə (İran yaşayış məntəqəsi) ərazisində İraq əsgərlərinin istifadə etdikləri kimyəvi silahların təsirindən yüzlərlə uşaq, hamilə qadın… həlak olduğunu bilirlər, onun şahidi olublar. Zəhərdən ölənlərin içərisində farslarla, kürdlərlə yanaşı… 876 nəfər azərbaycanlı iflic oldu (Bax:"İran" qəzeti (Tehran). 1982, I, №5). Onların bir qismi hələ də əlil arabalarına sığınaraq, danışa bilmirlər. Xocalı qırğınlarına düşən insanlar kimi onların da ağzından ağ köpük tökülür… oqranizmdə qan çürüməsi başlayır. Bədənin dərisi rəngbərəng xətlər və işarələrə tutulur. Biz Suriyada da eynilə həmin hadisələrin davamını gördük…) Artıq müşahidələrimizə və apardığımız tədqiqatlara görə «Xocalıya ədalət!» siyasi hərəkatı günahsız və silahsız öldürülən azərbaycanlıların taleyinə vurulmuş məxfi düyünləri getdikcə açır, onun səbəb və nəticələrini, mahiyyətini beynəlxalq aləmə göstərməkdə təsirli vasitəyə çevrilməkdədir.

Araşdırmalarımıza görə, nə qədər qəribə də olsa, Ermənistanın Naxçıvanla sərhəd ərazilərində – Armaş, Rind, Zəritap, Aqdui, Kəcəran yaşayış məntəqələrindəki quru qoşun birləşmələrində, sərhəd dayaq dəstələrinin tərkibində 9 xüsusi təyinatlı qrup kimyəvi və bakterioloji müharibədə təhlü-

kəsizlik məsələlərini icra edəcək (hər dəstədə 18 nəfər xidmət edir)…

Moskvada belə bir ünvan var: Leninqrad prospekti, ev 80 (ora radiocihazlarla bağlı saxta bir lövhə də vurulub). Araşdırmalar apararkən maraqlı faktlardan biri də bu oldu ki, altı mərtəbəli bozumtul binada tam məxfi şəraitdə kütləvi qırğın silahları, eləcə də radarların hazırlanması üzrə təcrübələr aparılır. Bu qruplardan birinə doktor Ambarsum Georgiyeviç Muradyan başçılıq edir. 1988-90-cı illərdə Ermənistan MEA-nın Toksikoloji İnstitutunda çalışan bu şəxsin doktorluq dissertasiyasının mövzusuna fikir verin. «Qafqaz genlərində toksikoloji proseslər və immunitetli preparatlar». Erməni tədqiqatçı bu istiqamətdə ilk araşdırmalarını 1994-cü il iyul ayının 22-dən 1995-ci il iyunun 14-dək Azərbaycanın işğal olunmuş ərazilərində, əsir düşərgələrində, xüsusən Xocalı ərazisində, Şuşa həbsxanasında saxlanılan azərbaycanlı dustaqlar üzərində aparıb. 1995-ci il iyulun 21-də A.Muradyan Radiocihazların Hazırlanması üzrə Elmi-Tədqiqat İnstitutunun katibliyinə ünvanladığı hesabatında yazır: «***…Mən sınaq təcrübələrimin ilkin variantından razı qaldım. Mənim üçün ayrılmış sınaq palatasında altı nəfər «könüllü»dən üçü preparatlara dözə bilmədi. Qalan üç nəfər isə artıq sağalıblar. Özlərini yaxşı hiss edirlər. Sifətlərində müşahidə olunan səpgilər keçib. Qan dövranları normaldır…***» (Bax: İnstitutun "Bülleten"i.1995, №3).

Araşdırma zamanı aydın oldu ki, mərkəzi bazası Vaşinqtonda yerləşən Qafqaz İnvestisiya Bankının livanlı başçısı Adnan Haşoqqi tərəfindən erməni aliminə 147 min ABŞ dolları dəyərində texniki avadanlıq yardım edilib.

Başqa bir erməni alimi, Ermənistan hərbi xüsusi idarəsinin mayoru Xocalı qırğınlarında tədqiqat üçün topladığı materialları Anastas Qurgenoviç Karpov isə Tehrandakı Mikrobiologiya Elmi Tədqiqat İnstitutunda sınaqdan keçirmək üçün İrana getmək istəsə də, bu baş tutmur. Halbuki İran İslam Respublikasında kimyəvi və bakterioloji silahlardan əziyyət çəkənlərə yardım assosiasiyasının baş katibi doktor Abdulla Mazandarani 2001-ci il 3 dekabr tarixli parlament hesabatında qeyd edir: «…İraqla müharibədə 25 min iranlı əsgər və zabit kimyəvi və bakterioloji silahlardan ölüb. 65 min nəfər isə iflic vəziyyətindədir». Digər tərəfdən, «Aştarak-2»-də çalışan (Ermənistan MEA-nın ərazisi) erməni mikrobioloqlarından olan E.Aşkinazyan, D.Davidyan, O.Ohanesyan Şimali Koreyada da sınaq təcrübəsində oldular. Maraqlı və ciddi məsələdir. Çünki Şimali Koreya dünyada məhz kimyəvi və bakterioloji silahların hazırlanması və istifadəsi yönümündə ən böyük arsenala malikdir. Şimali Koreyada gündə 15 ton kimyəvi-zəhərləyici maddələr və bakterioloji viruslar hazırlamaq gücündə olan səkkiz müəssisə var. Ölkənin şimal-şərqindəki dörd elmi tədqiqat mərkəzindən biri tam məxfi qaydada işləyir. Ölkədə altı müxtəlif anbar var. Həmin «Umfi-3» tipli, tutumu

25 ton olan anbarlardan birinin 2003-cü ilin DQ ərazisində tikilməsi də artıq planlaşdırılmışdı.

Nyu-York politoloqu Cudit Millerin məlumatına görə («New York times» qəzeti, 16 aprel 2000-ci il və 2013-cü il), Rusiyada «Noviçok» adlı yeni kimyəvi silah istehsal edilib. İki kimyəvi element birləşərək, ölümsaçan silah yaradır. Həmin birləşmələr mərmilərdə də istifadə edilir… 2001-ci il fevralın 2-də və 2011-ci ilin martın 10-da Moskvada çap olunan «Sintez» jurnalında isə erməni alimi L.M.Teroyants qeyd edir: ***«…«Noviçok» adlı silah «binar» silahıdır. Orada silahın istehsalında və hazırlanmasında mənim xidmətimə qiymət verən rus alimlərinə minnətdaram… Biz əsəb sistemini iflic edib «insanı əridən» bu silahı «Şuçe» poliqonunda sınaqdan çıxartdıq…»***.

Vaşinqtondakı Henri Smitson Mərkəzinin baş elmi işçisi Ami Smitson isə göstərir: «…Ruslar bu silahları heç vaxt könüllü məhv etməyəcəklər. Əksinə, öz müttəfiqlərinə və partnyorlarına da satacaqlar… Amerika bu haqda ciddi düşünməlidir»… (ABŞ. Pentaqona hazırlanmış hesabat. 16 oktyabr 2001-ci il. Əlavə olaraq bax: A.Smitsonun "Tədqiqatın başlanğıcı" kitabı. Vaşinqton, 2008-ci il ).

Yerevandakı Orbeli küçəsi 22-də yerləşən əsəb sistemləri üzrə fiziologiya laboratoriyası əməkdaşlarından V.A.Toqosyanın və A.V.Arşakyanın 1998-ci il noyabrın 4-də DQ-a yandırılan Xocalıya ezam olunmaları və orada bu laboratoriyanın filialını yaratmaları nəzərdən qaçmamalıdır. Çünki alimlər ilk sınaq təcrübələrini də məhz Qarabağda «Hayastan» Xeyriyyə Cəmiyyətinin dəstəyi çərçivəsində əsirlərimiz üzərində eləcə də xocalılar üzərində aparıblar.

Araşdırma materiallarında olan fakt və sənədlər təhlil olunarkən, yəqin etdik ki, erməni separatçılarının və 366-cı rus alayının əsgərlərinə qoşularaq Xocalı yaşayış məntəqəsində törətdikləri cinayətlər Ermənistanın MN-də, hərbi əks-kəşfiyyat və kəşfiyyat idarələrində hazırlanan «Hayastan Doktrinası» adı altında keçirilib. Yazılan bu kitabın müəllifləri ötən əsrin 90-cı illərində, yəni ermənilərin törətdikləri rüsvayçı və cinayətkar hadisələrin araşdırılmasında iştirak edib, erməni kəşfiyyatının «Hayastan Doktrinası»nı ifşa edən sənədlər əldə ediblər. O vaxt Azərbaycan prezidenti olmuş Ulu Öndərin təsis etdiyi «Prezident Yanında Xüsusi İdarə»nin əməkdaşları (1994-cü il) «Hayastan Doktrinası» adı altında keçirilən «Xocalı əməliyyatı»nı ifşa ediblər. Biz Xocalıda keçirilən bu əməliyyat Doktrinasının xeyli vaxt idi ki, səbəb və nəticələrəni axtarırdıq. Bu doktrinanın fərqli cəhətlərindən biri onun «Hərbi terror Doktrinası» olması idi. Bu ifadə hələ özünə vətəndaşlıq hüququ qazanmayıb. İctimai, siyasi,

fəlsəfi aspektlərdən fərqli olaraq, Xocalıda icra olunan hərbi terror doktrinası insanlığa, ictimai-siyasi mühitə, milli dəyərlərə, ilk növbədə azərbaycançılığa, əvvəlcədən qeyd etdiyimiz kimi millətin genofonduna qarşı, bəşəriyyətin uğrunda mübarizə apardığı Demokratiya insan hüquqlarının qorunması və təhlükəsizliyinə qarşı qurulan cinayətkar bir sistemdir. Biz baş verən hadisələri araşdırarkən, Xocalıda 366-cı alayın tərkibində vuruşan, milliyyətcə özbək olan Ulyar Mühəmmədcanovla, Tacikistanda doğulan zabit Xusay Sabirovla, Qırğızıstandan olan Murad Umudyarovla, milliyyətcə rus olan Leonid Pakrovskilə (RF) görüşdük. Bu zabitlər bir həftə öncə bilirdilər ki, Xocalıda ermənilər böyük bir əməliyyat üçün hazırlıq görür. Zabit Xusay Sabirov iddia edir ki, hazırlanmış əməliyyatın adı «Hayastan» idi. «Hayastan əməliyyatı» başlanmasına yarım saat qalmış, yəni saat 23:30 dəqiqədə 366-cı alay döyüş hazırlığına gətirildi. Saat 23:45-də alaydakı qeyri- erməni millətlərin nümayəndələrinə elan olundu ki, alayı tərk edin. Qeyd edim ki, 366-cı alayın tərkibində yeni silahlı adamların gəlməsini gördük. Onların hamısı Sövet əsgər və zabitinə məxsus hərbi geyim və sursatla təmin olunmuşdular. Sonradan eşitdim ki, xidmət etdiyimiz alayın əsgər və zabitləri Xocalıda terror aktları törədiblər. Biz Xocalıda törədilmiş cinayətlərin təsirindən ayrıla bilmədik…»

Həmçinin, bu çağırışın siyasi fəaliyyəti bütövlükdə insan hüquqlarının müdafiəsi üzərində qurulub. Məsələn, araşdırma materiallarına görə Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı Fransa Kralı Karl Martellin (737-751) «Ədalətsiz olmayaq», İngilis Kralı Böyük Knudun «Göz yaşlarına qarşı», Aleksandr Nevskinin (1252-1263) «Xalqıma qürurlu bir müraciət», Roma imperatoru Konstantinin (337-350) «Mən sizdən sülh istədim...» və s. dünyanın tanınmış sərkərdələrinin çağırışları ilə üst-üstə düşür.

Məlumata görə, erməni silahlı birləşmələrinin Xocalıda törətdikləri terror aktlarının dairəsi geniş olub. Məsələn, araşdırma materiallarında qeyd olunur ki, Xocalı sakini 28 yaşlı Səltənət Zülal qızı Məmmədova iki azyaşlı uşağı ilə (6 yaşlı Məleykə, dörd yaşlı Ümid) fevral ayının 24-də ermənilərin «DRO» hərbi qruplaşmasının üzvləri tərəfindən əsir götürülür. Xocalıda övladları ilə yandırılan ilk əsir qadın da Xocalı şəhər sakini Səltənət Zülal qızı Məmmədova olub. Fikrimizcə bu Xocalıda «Hayastan hərbi Doktrinası»nın başlanğıc səhifələrindən biri olub. Bu qanlı, insanlığa qarşı atılan ən qəddar və dəhşətli bir erməni «aksiyası» idi. Yandırılan ailənin faciəsi ilə materialları BMT-nin İnsan Hüquqları üzrə Ali Komissiyasına, Cenevrə-Britaniya Tibb Assosiasiyasına (BMT), London Ümumdünya Tibb Assosiasiyasına, Boston Qlobal Təhqiqatlar İnstitutuna göndərsək də heç birindən səs çıxmadı. Bütün Beynəlxalq Konvensiyalar pozulmuşdu.

Xocalının Mehdişan yaşayış məntəqəsində yaşayan Məmmədovlar ailəsinin diri-diri yandırılması faktını adi fakt kimi qarşılanmağın özü də bizim üçün cinayət hesabındadır. «İzvestiya» qəzeti (1992-ci il) fevral nömrələrində ardıcıl olaraq baş verən faciəni milli faciə kimi dəyərləndirir, terror qruplaşmalarının törətdikləri cinayətlərin mahiyyətini təhlil edirdi. Siyasətşünas Q.Alekseyev Xocalı ilə bağlı yazısında qeyd edirdi: «…Birdən-birə nə baş verdiyini anlamaq istəyirdim. Mən Xocalıya girmək istəmədim, hər şeyi gözlərimlə görmək fikrində idim. Amma məni ora buraxmadılar. Xocalı ətrafında öldürülən adamları isə məndən gizlədə bilmədilər. Mən orada çox eybəcərliklər gördüm. Dağıdılmış, yandırılmış və viran qalmış Xocalıda nələrin baş verdiyini, törədilmiş cinayətlərin əsl mahiyyətini isə çox araşdırmaq lazım gələcək…» («İzvestiya», 1992.II.27).

Parisdə (Fransa) olarkən ölkənin Xarici İşlər Nazirliyinin əməkdaşlarından olan tarixçi Fransua Şevenmaş etiraf etdi ki, o, bizim Xocalıda yandırılan Məmmədovlar ailəsilə bağlı məktubu oxuyub. (?) ABŞ-da nəşr olunan (Nyu-York) «Jeridasrt Hayastan» («Gənc Hayastan») qəzeti isə Xocalıda yüzlərlə erməninin qırılmasından danışırdı. (?) İctimaiyyəti aldatmaq isə mümkün olmadı. Xocalı faciəsilə bağlı ilkin məlumatlar çap olunmuş xəritələrdə öz əksini tapırdı.

Xüsusən, Şərqi Avropa mətbuatı (məsələn, Rumıniya mətbuatı) yazırdı ki, «Heydər Əliyev adına Beynəlxalq Fond»un Moskva Nümayəndəliyinin rəhbəri, fondun vitse-prezidenti Leyla xanım Əliyevanın yaratdığı «Xocalıya Ədalət!» çağırışı milyonlarla təhqir olunan, əzilən, öldürülən, basqı və təzyiqlər altında can verən, gücsüz və köməksiz, taqətsiz, müharibələrdə evlərindən-eşiklərindən didərgin olub, qovulanların, kütləvi şəkildə qırılıb, məhv olanların…. haqlarını, ədalətlərini axtaran insanların, ana südünə həsrətli olanların çağırışıdır. Mahiyyətinə görə fəlsəfi və bəşəri, məqsədinə görə yatmış vicdanları oyadan, cəmiyyət, hökumət və dövlət qurarkən insanlara münasibətdə ədalətli olmağı, onların rahat və firavan, müharibəsiz, qansız-qadasız yaşamağa səsləyən bir çağırışıdır. Materialların məzmununu təhlil edərkən aydın olur ki, Leyla xanım Əliyeva təkcə Xocalıya deyil, dünyada pozulmuş, məhvərindən çıxmış ədalətin bərpasına haray çəkir. Fikrimizcə onun «Xocalıya Ədalət!» çağırışı yeni yüzilliyin ən möhtəşəm simfoniyası kimi qalacaq. Çünki insan üçün Ədalət prinsipi çərçivəsində yaşamaqdan gözəl heç nə yoxdur.

Xocalı qırğınları dünya tarixinin ən öyrənilən, araşdırılan, təhlil olunan sahəsi olacaq (bu missiya artıq icra olunur). Ermənistan nə qədər cəhd etsə də «Xocalıya Ədalət!» çağırışı qarşısında acizdir. Çünki hər aparılan araşdırmalarda yeni sənədlər, faktlar çıxır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xüsusən beynəlxalq simpoziumlarda, görüş və konfranslarda, BMT-nin ən ali kürsüsündə tez-tez xatırlayır: ***Azərbaycanın timsalında qaçqın və məcburi köçkünlərin meydana gəlməsinin səbəbi Ermənistanın hərbi təcavüzü, erməni işğalçıları tərəfindən həyata keçirilən etnik təmizləmə, terrorçuluq, təcavüzkar separatçılıq və Azərbaycan ərazisinin işğal edilməsidir. Qəribədir ki, xalqımıza qarşı bütün bu bəşəri cinayətləri törətmiş Ermənistan nümayəndələri Avropa Şurasında bizimlə oturmuşlar. Nə vaxta kimi Avropa belə bir fakta göz yumacaq ki, Avropa Şurasının bir üzvü olan Ermənistan təşkilatın başqa bir üzv dövlətinin – Azərbaycanın ərazilərinin 20%-ni hələ də işğal altında saxlamaqda davam edir?***

…Araşdırma materiallarına görə, Xocalıda və onun coğrafi ərazisi hesab olunan Dəhrəv, Horagün, Mehdişan yaşayış məntəqələrində, (X əsrdə Şərqin dava-dərman məskənləri sayılan Rəmzigül, Paşabağı, Qızılsu… ərazilərində) məskunlaşan ailə başçılarından sağ qalanlar gözlərinin qabağında güllələbaran edilmiş uşaqları ilə bağlı ABŞ-ın RF-nin, Böyük Britaniyanın, Fransanın, bir sıra Şərqi Avropa ölkələrinin hökumət və dövlət nümayəndələrinə, kəşfiyyat xidmətinin rəhbərlərinə, BMT-nin insan hüquqlarının təminatçısı hesab etdikləri Konvensiyalara imza atan dövlət başçılarına, Avropa Şurasında yer alan deputatlara, İslam ölkələri başçılarına… məktublar, teleqramlar, fotoşəkillər, sənədlər göndərdilər, imdad dilədilər. «Ədalət» axtarışına çıxdılar. Səsverən olmadı. Məsələn, 7 yaşlı Baharın anası Səlimə BMT-yə bütün bunlarla yanaşı bir bağlama da göndərdi (məktub 1997-ci ildə BMT-nin RF-dakı qərargahına təqdim olunub). Bağlamada Səlimə Cəfər qızı Dadaşova öldürülən uşağının-Baharın oyuncaqlarını, gülədən qana bələnmiş paltarını, saçlarına vurulan bantları, darağı və bir də əri Əbdül kişiyə dəyən güllənin (əri beş gün öncə güllələnmişdi) gilizini (bu güllə Fransada özəl şirkət olan «Lyuşer və Jevelo» şirkətində istehsal olunmuşdur). Erməni separatçılarının «DRO» hərbi terror təşkilatının üzvləri Xocalıda uşaqların güllələnməsində məhz bu şirkətin hərbi sursatlarından geniş istifadə edirdi) qoymuşdu. Xeyli vaxt ötsə də bütün bunlardan xəbər çıxmadı. Nə istəyirdi Dadaşovlar ailəsi? Onlar heç kəsdən heç nə istəmirdi. Sadəcə hamı ədalət axtarışında idi. Məhvərindən çıxan, bəşəriyyəti çaşdıran, həyatın axarını pozub dağıdan, demokratik anlayışlara və prinsiplərə şübhələr oyadan ədalətsiz əmrlər, sərəncamlar verən, qətlyamlarda, Xocalı faciəsində imzası olanlara qarşı ədalətli bir sorğu, çağırış axtarırdılar…

Xocalı yaşayış məntəqəsində verilən işgəncələrin sayı-hesabı bilinmir.

Halbuki işgəncələrin qadağan olunması sahəsində 9 dekabr 1985-ci ildə qəbul edilmiş və 28 fevral 1987-ci ildə qüvvəyə minmiş işgəncələrin aradan qaldırılması və onların tətbiqinə görə cəza haqqında Amerika Konvensiyası mühüm əhəmiyyət kəsb edir. Lakin bu konvensiyanın da beynəlxalq terror qarşısında gücü hiss olunmadı. İşğal olunmuş ərazilərimizdə (Dağlıq Qarabağ əraziləri) məxfi qaydalarda tikilmiş və cəmiyyətdən gizlədilmiş həbsxanalarda saxlanılan (bir qismi) əsir və girov götürülmüş azərbaycanlılar isə susdular.

…1994-cü ilin sonlarında Ermənistan xüsusi xidmət orqanları, məqsədi siyasi rəqibləri, siyasi və iqtisadi kəşfiyyatı məhv etmək, narkotiklərin tranzitini təmin etmək olan gizli «DRO» terrorçu təşkilatını üzə çıxardı. Biz araşdırma materiallarında «DRO» haqqında geniş məlumatlar versək də, onun Xocalıda törətdiyi cinayətlər hələ də bitib-tükənmir. Axtarış zamanı aşkar olunan sənədlər və Azərbaycan Respublikası Hərbi Prokurorluğundakı təqsirkarların etirafları şəksiz sübut etdi ki, «Dro» – erməni «Daşnaksütyun inqilabi federasiyası»nın törəməsidir (EDİF) və bu partiyanın ali rəhbər orqanı – Büronun gizli qərarı ilə yaradılmışdır (bütün bu sənədlər 1994-cü ilin fevral-martında parlament qəzeti «Hayastani Ayropetutyun» qəzetində dərc edilmişdir). Hesablarında bir sıra qətllər olan «DRO» üzvlərinin böyük əksəriyyəti, həmçinin, terrorizmi öz mübarizəsinin əsas metodlarından biri hesab edən və bunu heç vaxt gizlətməyən EDİF-in üzvləri idi (Bax: Ermənistan Respublikası Parlamentinin orqanı «Hayastani Ayropetutyun» qəzeti.1994, II-V).

Bu dəfə erməni ictimaiyyəti artıq daxili terrorizmlə üz-üzə gəldi. Lakin cəmiyyət, faktiki olaraq, bu təhlükəli hadisəyə biganə qaldı. Terror təşkilatının yaradılması və fəaliyyəti faktlarına belə sakit münasibətin səbəbləri çoxdur.

Erməni cəmiyyətində «İnsan hüquqları» ilə «Sağlam düşüncə» üz-üzə qalmışdı. Əyalətdə insan hüquqları daraldıqca, sıradan çıxdıqca, sağlam düşüncə və təfəkkürə daha ehtiyac qalmırdı. Erməni separatçılar bütöv Qafqazda beynəlxalq terror üçün qara bazara çevrilməkdə idi. Ən adi insan hüquqları pozulmuşdu. Xocalı yaşayış məntəqəsinin yandırılması, insanların, dinc əhalinin güllləbaran edilməsi əsl terror idi. Belə anlarda rus yazarı, hadisələri təsvir etməyə çalışan N.Prokovyev verdiyi açıqlamasında qeyd etdiyi «…ermənilər vəhşiləşmişdi…» ifadə yaddaşımdan çıxmır (Bax: "İzvestiya" qəzeti.1995, VI. 4). Xocalıda işgəncə və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə 1984-cü il Konvensiyası, eləcə də, işgəncənin və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında 1987-ci il Avropa Konvensiyası

pozulmuşdu. Maraqlı idi ki, Xocalı ilə bağlı hadisələrin şərhi, təhlili də mətbuatda verilmirdi. Bu konvensiyalara imza atan ölkələrə gəlincə, onların bir qismi hələ də Xocalıda baş verənlərdən xəbərsizdir.

2001-ci il iyulun 21-də Amerika Birləşmiş Ştatlarının hərbi strategiyasının əsas müddəalarını əks etdirən 30 səhifəlik məxfi bir hesabat dinlənildi. Həmin müddəalardan birində deyilir: «***…Amerika nüvə, kimyəvi, bakterioloji silahlardan qorunmalıdır. O, planetin vacib nöqtələrinə nəzarəti artırmalıdır…***» (Bax: «Armed Forces Journal»

( "Hərbi qüvvələrin jurnalı").Vaşinqton, 2002, №11).

«Vacib nöqtə» deyəndə, sənəddə Avropa, Şimal-Şərqi Asiya, Şərqi Asiya rayonları, Yaxın Şərq, Cənub-Qərbi Asiya və Cənubi Qafqaz nəzərdə tutulurdu. İçməli su, torpaq üstündə başlanan münaqişə və ya müharibə zonaları xatırladılırdı. Təəssüf ki, bu cərgədə torpaqları qəddarlıqla bölünmüş, kütləvi terror planları ilə işğal olunmuş, Azərbaycan torpaqlarının-yandırılmış Xocalının, Laçının, Zəngilanın, Qubadlının, Füzuli və Cəbrayılın, Ağdamın adı çəkilmir…

…İşğal olunmuş Qubadlıda ermənilər öz «nüvə qəbiristanlıqları»nı bir az da genişləndirdilər. Bərgüşad və Həkəri çayları arasındakı ərazidə, vaxtilə yurd yerlərimiz olmuş (şimal və şimal-şərq hissələri) Qayalı, Mahmudlu, Qaracallı, Sarıyataq kəndlərində nüvə tullantılarının basdırılması üçün xüsusi sahələr ayrılıb. Bu işi bir qayda olaraq, «Dağlıq Qarabağ ordusu»nun «radiokimyəvi qrupu»nun əsgərləri həyata keçirirlər. 2000-ci ildə Xankəndinin hərbi hospitalına qan xərçəngi ilə müraciət edən gənclərin (onların hamısı vaxtilə orduda «radiokimyəvi qrup»da xidmət edənlərdir) sayı 22 nəfər olub(Bax: eyni mənbə). Digər tərəfdən, ordudan tərxis olunmuş ermənilərin ailələrində dünyaya gələn uşaqlarda kütləvi sepsis – yəni qanın zəhərlənməsi xəstəliyi müşahidə olunub.

Maraqlı cəhət budur ki, ABŞ-ın Tennesi ştatında Vanderbilt və Nasivil universitetlərinin milliyyətcə erməni olan həkim qrupu da həmin zonalarda tədqiqatlarını davam etdirmək niyyətində olduqlarını bildiriblər. Onlar Xankəndində erməni uşaqları arasında yayılmış sepsis xəstəliyinin, qandakı bakterioloji infeksiyanın qarşısını alan «Zovan» preparatlarından geniş istifadə edəcəklərini də qeyd ediblər.

Bunlarla yanaşı, Qarabağda ermənilərin yeraltı nüvə anbarlarının sayı artmaqda davam edir.

Qeyd edək ki, Türkiyədə «İki saat yarım ərzində müharibə strategiyası» adlı hərbi konsepsiya hazırlanıb. Əsasını mobil zirehli korpuslar təşkil edən bu konsepsiya üç istiqamətdə müəyyənləşib:

**1. Terror qruplarına qarşı;**

**2. Kütləvi aksiyalara qarşı;**
**3. Dini radikal təşkilatlara qarşı.**

Həmçinin «Xüsusi taktiki kəşfiyyat» məktəbi də yaradılıb. Fikrimizcə, Azərbaycanın da belə bir quruma ehtiyacı var.

Dünyada terror aktlarının 49 faizi ABŞ-a yönəlib. Bu, 2010-cu ilin sentyabr ayının 25-nə olan məlumatdır. 2011-ci il martın 15-nə olan məlumata görə bu rəqəm 59 faizə çatıb. 2012-ci ilin məlumatında isə bu rəqəm 61 faizdir. 2013-cü ilin yekun məlumatında isə bu göstərici 72% çatıb (Bax:"Bakı informasiya" SAM məlumat", s.290, q.4, s.26). Deməli, ABŞ terror təhlükəsindən hələ qurtarmayıb, əksinə, məlum radikal qüvvələrdə bu planları reallaşdırmaq həvəsi artıb. Mərkəzi Kəşfiyyat İdarəsinin, Federal Təhqiqat Bürosunun istintaq sənədlərindən məlum olur ki, törədilən terrorlarda 74 nəfər milliyyətcə erməni var. Onların 32 nəfəri Qarabağın işğalında iştirak edib (Bax: eyni mənbə). On dörd nəfəri «Xocalı»da qətlanlar törədən «DRO»-nun üzvləridir. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi başqa bir məlumata görə hər il törədiləcək hər hansı faciə ilə bağlı 1400 məlumat alır. Bunun 800-ü sırf terrorla, 600-ü, yəni 42 faizi terror aktları törətmək istəyənlərlə bağlıdır. 1400 məlumatın təqribən 24 faizi ABŞ ərazisində fəaliyyət göstərən erməni terror qrupları haqqındadır. MKİ-nin əməkdaşı, xanım Leyton Marian Vaşinqton Beynəlxalq Araşdırmalar və Strateji Tədqiqatlar Mərkəzinin bülleteni olan «Postsovet prospekti»ndə yazır: «…Əvvəllər terror bizdən xeyli uzaqda idi. İndi isə o evimizin içindədir. Dünya insanları bu qanlı cinayətlərdən geri çağıran ədalətli bir tribuna sorağındadır… » (Bax:eyni məmbə, 206, №4).

Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı rəhbəri, Leyla xanım Əliyevanın yaratdığı, qurduğu «Xocalıya Ədalət!» çağırışı, bəşəriyyətin gözlədiyi çağırış, milyonların sığındığı tribuna olaraq qalır və bu çağırış xanım Leyman Marianın fikirlərilə üst-üstə düşür.

Əldə etdiyimiz məlumata görə, artıq dünyanın bir sıra kəşfiyyat mərkəzləri, Strateji Araşdırmalar İnstitutları «Xocalıya Ədalət!»in beynəlxalq erməni terroruna qarşı mübarizəsində mühüm və yeni səhifə olduğunu, haqsızlığa, ədalətsizliyə qarşı ciddi və barışmaz strateji mövqe nümayiş etdirildiyini etiraf edir, onun əsl mahiyyətini tədqiq edirlər.

Məlumata görə, Xocalı qırğınlarında Beynəlxalq Terror Təşkilatlarının Avropa, Asiya, Afrika, Amerika ərazilərinə səpələnmiş silahdaşlarına paylanılan, tərkibində radioaktiv uran izotopu (U-238) olan, 50 mm kalibrli «Barret M81-A1» və «Barret M82-A1» snayper silahlarından istifadə olunub (Bax: "Soldatı udaçi".Moskva,2000-ci il, №3).

Hər il avqustun 14-də «Əl-Qaida» qruplaşmalarına müxtəlif dini etiqadları olan şəxslər islam bayrağı altından keçib, Üsəma bin Ladendən qalan «İslamın Təhlükəsizlik Dəstəsi»nə qoşulurlar. Məlumata görə, 2013-cü ilin andiçmə mərasimində keçmiş SSRİ ərazisindən gedən 6 gürcü, 12 erməni, 14 ləzgi, 5 rus… islamı qəbul edərək dəstəyə qoşulub. «DRO» ermənilərinə müntəzəm olaraq partlayıcı maddələrin sirlərini öyrədən ərəb Əbu Şeyxu İbrahim Küveyt erməniləri öz əqidələri uğrunda həmişə müharibəyə hazır olmağa çağırır və bu yolda geri çəkilməyi qorxaqlıq bilir…

Qərbdə və «Hayastan hərbi-terror Doktrinası»nda «Kiçik laboratoriya» adlandırılan «DRO» terrorçu təşkilatı ilə qurulan internet əlaqələrində milliyyətcə erməni olan analitiklər güclü rol oynayırlar. Üsəma bin Ladenin «Əl-Qaidə» qrupunun «Hizbullah» və «Həmas» qrupları arasındakı əlaqələrin təhlili maraqlıdır. Məsələn, araşdırmalarımıza görə, «Əl-Qaidə»nin Lahordakı internet qrupuna 1954-cü ildə Yerevanda anadan olmuş və on iki yaşından Pakistanda yaşayan Yozen Surenoviç Malikyants, «Hizbullah»da (Livan) Mohanes Yəhya Aslanyan, «Həmas»da (Livan) isə Harri Bablumyan başçılıq edir. Araşdırma materiallarına görə eləcə də erməni separatçılarının verdikləri ifadələrə görə (istintaq materiallarından) bu şəxslərin hər ikisi 1989 və 1991-ci illərdə Xocalıda, Laçın və Kəlbəcərdə olmuş, ərazilərdə fərdi qaydada ermənilərə hərbi sursat paylamışlar. Bu əlaqələr NATO-ya üzv ölkələrin, o cümlədən ABŞ ərazisində də davam etdirilir. Onlar internet saytlarında gizli əlaqələrini qurur, xüsusən Xəzəryanı dövlətlərin (o cümlədən Azərbaycanın) yanacaq resurslarının mənbələri haqqında məlumatlar yığır, bank hesablarını açır, məxfi kodları bağlı olan «sifariş»ləri ötürürlər. ABŞ-da çıxan «Yu-Es-Ey» qəzeti hələ 2010-cu ilin aprel nömrəsində yazırdı ki, arxasında ermənilərin də əyləşdiyi bu internet «punkt»larına Şeyx Vadih Əl-Heyc başçılıq edir. Bunlardan sonra ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi etiraf etdi: «Erməni terrorçuları islam və xristian terrorçuları ilə birləşərək Azərbaycana qarşı elektron cihadında iştirak edirlər…». Amerika Milli Təhlükəsizlik Agentliyinin direktoru, general-leytenant Maykl Hayden hesabatında açıqlama verir: «***…Onların (terrorçuların) ən yaxşı texniki və elektron imkanları, ən güclü telekommunikasiya sistemləri var…***» (Bax: ABŞ MKİ-nin Milli Arxivinə 2000-ci ilin avqustun 16 istifadə üçün təqdim etdiyi materiallar. “Cənubi Qafqaz qovluğu”, s.146).

…Amerikada belə bir terror dəstəsi var: «13-lər» (Kaliforniya ştatı). Bu terror təşkilatı 1989-cu il mayın 24-də yaradılıb. «13-lər»in liderlərindən olan hüquqşünas Sirus Badamçıyan «Vadi-Əl Kaid» şirkətilə əməkdaşlıq qurdu. ABŞ FTB-nin əməkdaşlarına artıq məlum olub ki, ermənilərin can atdıqları, əlaqələr qurduqları «Vadi-Əl Kaid» şirkəti dünyanın varlı ərəb şeyxləri ailəsi

tərəfindən maliyyələşdirilir. Sirus Badamçıyan isə Xocalı qırğınlarında iştirakına görə 1993-cü ilin martında «Qızıl qartal» erməni ordeninə layiq görülmüşdür. O, bu ordeni «Xocalı qırğınlarında bənzərsiz və əvəzsiz iştirakına» görə almışdı (Bax: "Ararat qəzeti. Beyrut (Livan),1995, №39). Xatırladaq ki, «Xocalı Ordeni» 1992-ci ilin dekabrın 5-də hazırlanıb. Bu ordeni ermənilərin RF-dakı icması təsdiq edib. (?)

Elə həmin il Xankəndində «13-lər»lə «ASALA»çıların və «DRO»nun (Yerevan) «Vuruşan xalqın müraciəti» yayıldı. Müraciəti Tiqran Hovanesyan və Sirus Badamçıyan imzalamışdılar (Bax: həmin mənbə, №40).

Azərbaycan ərazilərində qanlı terror əməliyyatları törədən «ASALA»nın ideoloqlarından Aram Qalustyanın, Birma Səlcuqyanın, Varin Adamyanın… «Vaçaqan Barepoşt», «Müqəddəs Georgi», «Böyük Stepan», «Andrianik»… və «Böyük Ermənistan» orden və medalları ilə təltif olunmaları həm düşündürücü idi, həm də təəssüfedici. Biz onu da qeyd etməliyik ki, bu təltifetmə kampaniyalarında xaricdə yaşayan nüfuzlu ermənilərlə yanaşı bir sıra konvensiyalara imza atmış diplomatlar da iştirak ediblər. Həmin il *qondarma «Dağlıq Qarabağ Respublikası»nın «müdafiə naziri»nin belə bir bəyanatı yayıldı: «Bu şəxslər ABŞ-dakı «13-lər»lə birgə Xocalının türklərdən azad edilməsində göstərdikləri fövqəladə qəhrəmanlıqlara görə həmişə tarixin yaddaşında qalacaqlar...»* (Bax: həmin mənbə, № 42,43).

…1992-ciilədək Ermənistanın Berd, Çil, Çövak, Daşkənd, Tex, Tatev, Aldərə… yaşayış ərazilərində Baş Qərargahlarını quran «Türk qanı» və «Azərbaycan» adlı terror mərkəzləri 1999-cu ilin iyul ayının 9-dan başlayaraq, qərargahlarını dislokasiya etdilər, Kəlbəcər, Laçın və Şuşada məskunlaşdılar. Hər iki təşkilat yeni idi və hər ikisinin də yaradıcısı Armen Mxitaryan adlı Argentina biznesmeni idi. 1969-cu ildə mədəniyyət və incəsənət xadimləri cərgəsində Bakıdan Fransaya gedən musiqiçi A.Mxitaryan bir daha geri qayıtmadı. 37 ildən sonra onun səsi Laçından gəldi. O, Laçına məhz «Türk qanı» adlı bir təşkilatın proqramı ilə gəlmişdi… Sonra bu dəstə böyüdü, şaxələndi. Bu şəxs «Hayastan hərbi-terror Doktrinası»nın maliyyə dəstəyini təşkil edənlərdən biri idi (Bax:Suriya İnformasiya Agentliyinin materialları.1995, X-XI).

*«Türk qanı» terror təşkilatının yaranma tarixi o qədər də mürəkkəb deyil. Bu təşkilat 1961-ci il aprelin 23-dən 24-nə keçən gecə Bakıda, indiki Bakı şəhər İcra Hakimiyyətinin binasında dindar ermənilər tərəfindən yaradılıb* (Bax: "Hop Aşxar" qəzeti, ("Yeni dünya") Bruklin. (ABŞ) 1999, X-5 ). Bu təşkilatın məramnaməsindən belə çıxır ki, ermənilərin daimi yaşaması, onların inkişaf etməsi… türk qanının çox axıdılması ilə bağlıdır

(?). Nə qədər gülünc və axmaq bir siyasət. Türk qanına susayan bu təşkilatın Bakıda az müddət ərzində 36 nümayəndəsi olur. O vaxt Azərbaycanın hüquq-mühafizə orqanları bu yönümdə heç bir informasiya və məlumata malik olmayıblar. Məlum olub ki, bu təşkilatı Moskva erməniləri yaradıb və oradan da idarə olunub. Təşkilata əsasən hüquq-mühafizə orqanlarından istefaya çıxan ən məlumatlı və millətçilik ideologiyası ilə zəhərlənmiş erməni zabitləri qəbul olunurdular. *Vaxtilə Azərbaycan KP Mərkəzi Komitəsində işləyən erməni qadını Susanna Nasiryan bu təşkilatın əsas qurucularından biri idi.* Məlumata görə bu təşkilatın üzvləri Bakıda bir-birinin ardınca üç dəfə bazarların və yeməkxanaların, məktəb dükanlarının kütləvi zəhərlənməsində iştirak edib. Bununla bağlı həbs olunan təşkilat üzvlərindən beş nəfəri haqqında həbs qəti imkan tədbirləri icra olundu. Həbs olunmuş erməni terrorçuları Moskvada cəmi 11 gün qaldı, onlar azad edildilər və daimi yaşamaq üçün Dağlıq Qarabağa göndərildilər (?). Məlumata görə, *1967-ci ilin iyul ayında o vaxt Azərbaycan DTK-na rəhbərlərindən olan Heydər Əliyev bu məsələni yenidən qaldırmağa müvəffəq oldu. Şuşada və Xocalıda «Krunk» erməni separatçı təşkilatını təsdiq edən Q.O.Ambarsumyan, T.M.Sarkisyan və oğlu D.T.Sarkisyan həbs olundu. Həmin illərdə Ulu Öndərimiz Heydər Əliyevə Xocalıdakı erməni separatçılarının dağıdılmasında ona yaxından köməklik edən, Dağlıq Qarabağ Vilayət prokuroru general X.Samvelov və ərazidə yeganə azərbaycanlı, Mühüm işlər üzrə prokuror Firdovsi Həmzə oğlu Sadıqov əsl fədakarlıq göstəriblər. Araşdırma materiallarına görə, ondan sonra Ulu Öndər cavan prokuroru Dövlət Təhlükəsizlik Komitəsinə işə dəvət edib, onu yanında görmək istəyib. General X.Samvelov isə prokuror F.H.Sadıqovsuz işləyə bilməyəcəyini bildirib.*

***«Azərbaycan» adlı erməni təşkilatı da Bakıda yaradılıb (Bax: "Hayqaqan lyuzer" qəzeti. ("Erməni xəbərləri". Vaşinqton (ABŞ) 1996, VI. 19). Şübhəsiz, bu ad aldadıcı idi. Ermənilər bu ad altında Bakıda və onun digər yaşayış məntəqələrində 100-dən artıq separatçı özəklərini yaratdılar. Təşkilat 1962-ci il martın 11-də, (nə qədər təəccüblü olsa da V.S. R.V.)Azərbaycan KP MK-nın binasında yaradılıb. Təşkilatın başçısı kənd təsərrüfatı şöbəsində işləyən Türyan Allahverdiyan adlı bir alim idi. Doqquz nəfərdən ibarət olan bu təşkilat sonra Dövlət Təhlükəsizlik Komitəsində, Nazirlər Sovetində, Dövlət Televiziya və Radio verilişləri Komitəsində, Hərbi Komissarlıqda… özünün özəyini yaratdı. 1962-ci il aprelin 24-də isə Dövlət Filarmoniyasının binasında Türkiyəyə qarşı ilk genişmiqyaslı iclasını keçirdi. 1915-ci ildə ermənilərin kütləvi şəkildə türklər tərəfindən «qırğın edilməsilə» bağlı müxtəlif tənqid və təhqiredici***

***çıxışlar eşidildi (Bax: "Birləşmiş Erməni Fondu" (ABŞ) "Bülleten", 1998, №4. A.Akopyanın "İcmal yazısı").***

***İlk dəfə idi ki, həmin yığıncaqda «Qarabağ erməni torpağıdır» - ifadəsi səsləndi. Amma bu ifadəni səsləndirənin ardınca düşən olmadı. Lakin bir müddət sonra, yəni 1970-ci ilin avqustun 14-də o vaxt Dövlət Təhlükəsizlik Komitəsində nüfuz sahibi olan Ulu Öndərin təkidilə həmin erməni alimi – Maravi Qriqoryan ekstremist fikirlərinə görə Azərbaycandan qovuldu.***

***Məlumata görə, «Azərbaycan» adlı erməni təşkilatı respublikanın bütün arxiv idarələrində Azərbaycan tarixilə bağlı qədim sənəd və əlyazmaları yığıb-yığışdırmaqla, talamaqla məşğul oldu. Ali məktəblərdə və institutlarda çalışan yüksək nüfuza malik elm adamlarının, siyasətçilərin şərlənərək həbs olunmalarında, qovulmalarında, ləkələnmələrində… aktiv rol oynadı…***

E.D.Saakyan (professor-tarixçi):

«...Mən bu gündən «Krunk»dan *(təşkilatdan –V.S., R.V.)* imtina edirəm. Mən bu gündən üzv olduğum «Naxçıvan» icmasından gedirəm. Bunların heç biri mənim millətimə başucalığı gətirmədi...

Dağlıq Qarabağı tərk etmək vaxtıdır... Xocalı faciəsi üçün gələcəkdə qurulacaq məhkəmələrə hazır deyiləm"

(Bax: İran. «Araz» jurnalına verdiyi müsahibədən. 2002. XI. 6)

# YENİ YÜZİLLİYİN MANİFESTİ

2001-ci il noyabrın 14-də Yerevan vaxtilə saat 12:30 dəqiqədə Ermənistan MEA-nın üçüncü mərtəbəsində (Orbeli qardaşları küçəsi, 22) «Taliban» hökumətinin Əfqanıstandan kənarda fəaliyyət göstərən qanunvericilik orqanı üzvlərinin – deputatlarının bir qrupunun iştirakı ilə qeyri-leqal yığıncağı keçirildi. Maliyyə xərclərini isə iş adamı, Yerevanda dərman fabriki tikən Məhəmməd Nəbinin investisiya qoyduğu «Yerevan» Bankı çəkdi. «Taliban»çı deputatların 12-si iclasda iştirak edirdi (İran, Məşhəd radiosu, 15 noyabr 2001-ci il). Bu həmin talibançılar idi ki, onlar ermənilər tərəfindən aldanılaraq 1991-ci ilin martın 26-da Qarabağ ərazilərinə əldə silah və hərbi-sursatla gəlmişdilər (Bax: "ASUN"-EXA-nın məlumatı.2001,XI-22). Araşdırma materiallarına görə bu taliban dəstəsi erməni separatçıları ilə birgə 1992-ci ilin Xocalı qırğınlarında iştirak ediblər.

2001-ci il martın 19-da Ermənistanın Nazirlər Kabinetinin sərəncamı əsasında «Talibançıların maliyyə dəstəyi ilə» fabrik açıldı. Fabrikin gəlirinin 50 faizini «DRO»nun iştirakçıları arasında yardım kimi bölməli idilər. Fabrikə «DRO»nun müharibə iştirakçısı, iki qıçından şikəst olan Esmak Bahaduryan başçılıq edirdi. Onun rəhbərliyilə fabrikdə Qarabağ döyüşçüləri üçün hərbi paltarlar tikilirdi.

Yerevanın şərqində salınmış bu fabrikə Şərqdə iş adamlarının koordinasiya mərkəzi kimi tanınan «Pirimyan qrupu»nun xəttilə Çin istehsalı olan 80 ton pestisid daşınıb. Bu zəhərli materialdan dərman preparatlarının hazırlanmasında Ermənistan Toksikoloji İnstitutunun alimləri, mikrobioloqları yardımçı olublar. Onların bir qismi ilə fabrikdə artıq müqavilə də imzalanıb. Əfqan taciklərindən olan Məhəmməd Nəbi investisiyalarından bir qismini «Razdanmaş», «Lizin-1», «Lizin-2» şirkətlərinə, Sənaye Komplekslərinə qoyub. Razdan şəhərində bununla bağlı saziş də imzalanıb (21 sentyabr 2001-ci il). Araşdırma materiallarına görə bu şirkət və fabriklər illik gəlirlərindən 2 faiz Avropadakı erməni diaspor təşkilatlarına və onları himayə edən terrorçu qruplara verir. «DRO» təşkilatına ayrılan gəliri hesabladılar.

Ermənistanın dövlət büdcəsinə daxil olan gəlirin 23 faizi narkobiznes qaçaqmalçılığından, 11 faizi isə işğal olunmuş Qarabağ ərazisində qeyri-qanuni işlər aparan və nəzarətdən kənar yaşayış məntəqələrində təşkilatlanmış terrorçu dəstələrin silah və nüvə texnologiyası komponentlərinin alverindən gəlir. Bu məlumatı Rusiyanın keçmiş baş prokuroru Yuri Skuratova silah alveri ilə məşğul olan və buna görə vaxtilə sorğu-suala tutulan iş adamı Aleksandr Prokopenko yazıb (Y.Skuratovun A.Prokopenkonun işi ilə bağlı

verdiyi müsahibə: «Советская Россия» qəzeti, 11 dekabr 2000-ci il). Bilavasitə qaçaqmalçılıq məsələləri ilə məşğul olan «RRR» – erməni-rus iş adamlarının birgə firması (A.Prokopenko+M.Risahyan) ilk mərkəz idi ki, özünün strateji araşdırma bölməsi vardı və bu bölmədə bilavasitə nüvə texnologiyası ilə, kvant fizikası, riyazi hesablamalarla məşğul olan 13 alim çalışırdı. Bu gün həmin bölmə öz BQ-nı Xankəndi ərazisindəki hərbi hissələrin birində – motoatıcı alayın içərisində yerləşdirməyə müvəffəq olub.

Araşdırmalarımız zamanı, Ermənistana, eləcə də erməni terrorçular tərəfindən işğala məruz qalmış, Xocalının yandırılmış və zəhərlənmiş məntəqəsinə və nəzarətdən çıxmış zonaya çevrilmiş Qarabağa daşınan nüvə texnologiyasının, eləcə də raket sənayesində istifadəsi zəruri sayılan materialların, hərbi sursatların marşrutlarını da əldə etdik. Bu işlərdə Xocalı qırğınlarını törədən «DRO»çular aktiv rola malikdirlər. Ümumiyyətlə, bütün bunlar haqqında ilkin məlumatlar ABŞ Dövlət Departamentinin sənədlərində qeyd olunub. Vaşinqton, hətta, «Lizin-1», «Lizin-2», «Razdanmaş» şirkətlərilə bağlı sanksiya da irəli sürüb. Nüvə marşrutları belədir:

– **Kamenka (RF-Penza) – Gümrü (Ermənistan) – Xankəndi (DQ) («AN-124» təyyarəsi. 23 iyun 2000-ci il);**

– **Mazdok (RF) – Yerevan (Ermənistan) – Xankəndi (DQ) («İl-76» təyyarəsi. 14 mart 2001-ci il);**

– **Novorossiysk – Batumi (General «Ryabikov» gəmisilə) («AN-12» təyyarəsi. 1 iyul 2001-ci il);**

– **Aktübinsk (RF) («Jasmin» təyyarə meydanı) – Yerevan («Zvartnots» təyyarə meydanı) («İl-76» təyyarəsi, 3 fevral 2001-ci il).**

Məhz bu şirkətlərin liderləri «Xocalı» ilə aparılan istintaq materiallarının açılmasına, dinləmələrə mane oldular. Bizim üçün ən maraqlı cəhətlərdən biri bu idi ki, öz nizamnamə və proqramları ilə dünyanın, ümumən, insan hüquqlarının keşiyində dayanmağı, insan faktorunun, onun təhlükəsizliyinin qorunması məsələlərini əsas götürən, bunu həyatın, yaşamağın başlanğıcı hesab edən Beynəlxalq Fondların hərəkətsiz dayanmaları Xocalı kimi, dünyada analoqu olmayan qətlanı törədənlərə, günahsız uşaqların güllələnməsində, insanların diri-diri yandırılmasında iştirak edənlərə qarşı susdular. Nə üçün? Məsələn, 1936-cı ildən fəaliyyətdə olan diplomat iş adamı Henri Fordun təsis etdiyi «Ford Fondu»nun məsləhətçisi olan hüquqşünas Riçard Bissemin «Sülh və əmin-amanlıq üçün şəraitin yaradılması» kitabçasını açan olmadı. «Ford Fondu» beynəlxalq aləmdə öz missiyasını sanki unutmuşdu. Biz gözləyirdik ki, «Heydər Əliyev Fondu»nun Moskva Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın dünyanı təhlükəsiz görmək istəyinə, Xocalıda

törədilən bədbəxtliklərin iştirakçılarına «Ölüm hökmü» oxumağa, ədalət və əxlaq prinsiplərinə, «Xocalıya Ədalət!» istəyinə, harayına «Ford Fondu», «Karneqi Fondu», «Corc Soros Fondu», «Avropa Asiya Fondu», «Rokfellerlər nəsli» Fondu, «Qumboltd Fondu», (Almaniya), «Təbiəti müdafiə edən ümumdünya Fondu» (Böyük Britaniya), «İsveçrənin elmi araşdırmalar Fondu» (İsveçrə), «Akademik P.L.Kapitanın Fondu» (RF), «Fissek Fondu» (Fransa), «Bodyen Krallığı Fondu» (Belçika) və beynəlxalq təşkilatlar səs verəcəklər, memorandumlar imzalayacaqlar. İctimaiyyət bunu gözləyir. Lakin Leyla xanım Əliyeva bu imdadı (?) gözləmədi. O, bütün bunlardan fərqli olaraq bir addım da irəli çıxdı. Beynəlxalq təşkilatları, parlament üzvlərini, diplomatları, ümumən, bəşəriyyəti Xocalı qırğınları haqqında, nəhayət ki, düşünməyə məcbur etdi. Bu «Xocalıya Ədalət!»ə çağıran bir siyasətçi xanımın qələbəsi idi. Fikrimizcə, «Xocalıya Ədalət!» çağırışdan və haraydan öncə, bir gəncin həyat fəlsəfəsi, yeni yüzilliyə məktubu və yaxud manifesti olaraq qalır.

Biz Leyla xanım Əliyevanın Beynəlxalq terrora qarşı yönəlmiş «Xocalıya Ədalət!» çağırışını 1999-cu ildə Haaqada Qadınların Sülh Çağırışı Konfransının tərkib hissəsi hesab edirik.

Araşdırma materiallarına görə, Xocalı qırğınlarında aktiv rol oynayan «Vahan Ovanesyan+31» terror təşkilatı başqa bir missiyanı da yerinə yetirib. Maraqlı fakt budur ki, hər il ABŞ Dövlət Departamentinin analitikləri Beynəlxalq terror təşkilatlarının siyahısını açıqlayırlar. Lakin Dövlət Departamenti sənədlərində bir dəfə də olsun "ASALA"nın "Haydad"ın", "DRO"nun, "Daşnaksyutyun"un adları çəkilmədi. Məlum olur ki, Dövlət Departamenti üçün siyahını milliyyətçə erməni olan Martin Abramyan tərdib edib, hazırlayır. Və yaxud ölkənin Konqres kitabxanasında "Xocalı" qovluğunun materiallarında Azərbaycan tərəfi ittiham olunur. Fakta görə, bu kitabxananın başçısı milliyyətcə erməni olan Armaik Abramyandır.

Bu qrup 1995-ci ilin iyulunda ifşa olunmuşdu. Qrupun başçısı Vahan Ovanesyan «Daşnaksutyun» partiyasının üzvlərindən biri olaraq, baş verən qətllərdə iştirak etmişdir. Onların mənzilində gizli silah anbarı aşkar olunmuşdur. Saxlanılmaya cəhd zamanı qrupun bəzi üzvləri müxtəlif atıcı silahlardan, o cümlədən, dəzgahlı pulemyotdan istifadə etməklə, quduzcasına müqavimət göstəriblər. Onlar məhkəmə qarşısında dayanaraq, məhkum ediliblər. Lakin dövlətin keçirdiyi tədbirlərin lazımi informasiya təminatı olmadığı ucbatından, bir çox respublika vətəndaşları bunu siyasi rəqiblərin təqibi kimi qiymətləndirdilər. Yeri gəlmişkən, baş naziri və parlament spikerini güllələyən beş terrorçudan dördü (o cümlədən də, Unanyan), elə hə-

min «Vahan Ovanesyan + 31» qrupunun üzvləri olmuşdur.

Ekstremizm və zorakılıq ermənilərin siyasi həyatının ayrılmaz atributuna çevrildi. «Məxməri İnqilabdan» sonra prezident vəzifəsini icra edən (fevral 1998), baş nazir Robert Koçaryanın ilk Fərmanı ilə «Daşnaksutyun»un lideri Qrant Markaryan («DRO» işi üzrə uzun müddətə həbs edilən) və Vahan Ovanesyan («Vahan Ovanesyan + 31» işi üzrə məhkum edilən) həbsxanadan azad edildilər. Hər iki xadimin buraxılması barədəki Fərmanın xülasəsi ən təcrübəli hüquqşünasları belə təəccübləndirdi: «siyasi şəraitin dəyişməsi ilə əlaqədar». Bunun arxasınca hətta formal olaraq belə qəti imkan tədbirlərinin dəyişdirilməsi, vaxtından qabaq azad etmə və ya işin xətm edilməsi barədə məhkəmə qərarı olmadı. İctimaiyyət bu biabırçı qanun pozuntusunu və terrorçulara mane olmamanı da «həzm etdi». Elə buna görə də bu terrorçular ölkənin siyasi marionetlərinə çevrildilər. Nə olsun? Ölkədə yenidən qətllər dalğası yüksəlməyə başladı. Bir il ərzində respublikanın Baş prokuroru, Müdafiə və Daxili işlər nazirlərinin müavinləri qətlə yetirildi. 27 oktyabr 1999-cu ildə parlamentdə qırğın təşkil edildi. 2000-ci ilin martında «Qondarma Dağlıq Qarabağ Respublikasının» separatçı lideri Arkadi Qukasyana sui-qəsd törədildi. Onun avtomobilini güllələrlə deşik-deşik etdilər, o özü yaralandı və möcüzə sayəsində sağ qaldı.

Nümunə yoluxucu oldu. Tələbə, ədalətsizliyə qarşı etiraz edərək, öz həmkurslarını girov götürür… Belə nümunələrin sayı çoxdur (bax: əlavə olaraq «Sentralnaya Aziya i Kavkaz». İsveç, 2002, №23, səh. 177-179).

Araşdırmalarımıza görə, ermənilər tərəfindən işğal olunmuş və bu gün nəzarətsiz qalan Dağlıq Qarabağın yaşayış məntəqələrində gedən ictimai-siyasi proseslər sürətlə bir-birini əvəz edir. Heç bir diplomatik danışıq, diplomatik güc və yaxud siyasi məsləhətləşmələr bu regionda tarazlıq yaratmaq iqtidarında deyil. Məsələn, Xocalı qırğınlarında qadın və uşaqlara qarşı amansız və qəddar işlər daha çox görülüb. Əlbəttə bütün bunları araşdırmaq bilavasitə BMT Qadın Fonduna (UNIFEM) aid olsa da, beynəlxalq təşkilatın sənədlərində bu məsələ açıqlanmır. Lakin bütün bunlara baxmayaraq Xocalı haqqında ən geniş və müfəssəl məlumatlar Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı ilə çatdırılıb. Nəticədə BMT Qadın Fondu «Xocalıya Ədalət!» kampaniyasına qoşuldu, onun beynəlxalq aləmdə nüfuzlu bir çağırış olduğunu etiraf etdi. Heç kəs Xocalı qırğınlarından bəhs edən qovluqları vərəqləmək iqtidarında deyil. Bunu hər şeydən əvvəl müdrik düşüncə, vicdan və insan sevgisi olan şəxs düşünə bilər. Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı insanları bürüyən bütün

ümidsizliklərin üstündən qələm çəkdi. Çünki arzuolunan şans və məqamlardakı ümid, ümid olaraq qalırdı. 2010-cu il aprelin 19-dan 21-dək Şuşada «Şaumyansız illər» adlı bir konfrans keçirilir (Şaumyan deyəndə, ermənilər indiki Goranboy ərazisini nəzərdə tuturlar). Bu konfransa Rusiyadan, Livandan, Suriyadan, ABŞ-dan, Fransadan «Böyük Ermənistan» ideoloqları təşrif gətirmişdilər.

Araşdırma materiallarında bu da qeyd olunur ki, **Liviyada, İordaniyada və Suriyada Ermənistanı «Şeytan dərəsi» kimi tanıyıblar. Məsələn, Suriyalı yazıçı, diplomat Yusif Cəfər «Getdiyim, gördüyüm… yerlər» kitabında qeyd edir ki, Sovetlər Birliyindəki «Şeytan dərəsi» haqqında eşitmişdim… «Şeytan dərəsi» – Ermənistan ərazisi idi. Suriyaya qayıtdıqdan sonra «Şeytan dərəsi» haqqında, oradakı ermənilər haqqında istədim yazı hazırlayım. Amma qoymadılar. Dedilər ki, bu mümkün deyil. Onlar bizim qardaşlarımızdır. Mən isə onlara dedim: «Mən, suriyalı Yusif Cəfər özümə belə qardaş istəmirəm.» Bu mümkün olan məsələ deyil. Ermənilər tərəfindən yandırılan Xocalı ərazisinin miskin görüşlərini unuda bilmirəm. Bu beynəlxalq terrorun qanlı cinayətlərini özündə əks etdirən ən böyük canlı muzeydir. Yolumu Moskvadan saldım. «Xocalıya Ədalət!» deyən o cavan azərbaycanlı balasını görmək istədim. Mən sizi bilmirəm, amma demək istədiyim sözləri deyən adamam: "…Bu insanda nə qədər vətən sevgisi, nə qədər humanist baxışlar, qeyrət, qüdrət və məhəbbət varmış…»** (Bax: eyni mənbə. Dəməşq (Suriya).1997,s.104).

Artıq adlarını qeyd etdiyimiz və bilavasitə Ermənistan ərazisində və Qarabağın işğal olunmuş məntəqələrində nüvə texnologiyası sahəsində üçüncü dövlət üçün bazar rolunu oynayan şirkətlərin təhlükəsizliklərini tam təmin etmək üçün ayrı-ayrı terrorçu qrup və dəstələr görünməkdədir. Bu dəstələrin bir qismi 1992-1995-ci illər arasında Qarabağ ərazisində törədilmiş cinayətlərdə yerli ermənilərlə əlbir olub. Məsələn, «Qayıdan qəhrəmanlar» terrorçu təşkilatına nəzər salaq (Bax: "Yeridaşard Hayastan" ("Gənc Ermənistan" ) qəzeti.1998, IV). Bu təşkilat kiçik qrup kimi Xocalıda 366-cı alayın tərkibində ancaq hamilə qadınları öldürməklə, girov götürməklə məşğul olub. Xocalının işğalında iştirak edən bu dəstəyə Beyrut ermənisi Orlik An-
drianoviç Ter-Qriqoryants başçılıq edib.

**Qısa arayış:** ***1962-ci ildə Beyrutda anadan olub. 1992-ci il mayın 1-dən Dağlıq Qarabağda terror aktlarında iştirak edib. İxtisasca həkim olan***

***Orlik 17 nəfərlik muzdlu dəstə ilə Şuşada vuruşub və Şuşa həbsxanasında olan dörd azərbaycanlını qətlə yetirib. Digər bir məlumata görə, Orlikin başçılıq etdiyi bu dəstə 1992-ci il sentyabrın 12-də Ermənistan Ədliyyə Nazirliyində qeydə alınıb, özü də xeyriyyəçi təşkilat kimi.***

Maliyyə mənbələri:

**a) narkotik maddələrin qaçaqmalçılıq yolu ilə alınıb daşınmasından əldə olunan gəlir;**

**b) qarabağ ərazisindən nüvə texnologiyasının üçüncü dövlətə ötürülməsindən gələn gəlir;**

**v) hamilə qadınların üçüncü dövlətə satılmasından əldə olunan vəsaitlər.**

Təşkilatın Baş Qərargahı Livandadır. 1993-cü il aprelin 9-dan etibarən «Qayıdan qəhrəmanlar» təşkilatı Kəlbəcər rayonunun (1936 kv.km. ərazi) Başlıbel yaşayış ərazisində fəaliyyət göstərirdi. 2002-ci il yanvarın 10-dan etibarən bu təşkilat həm Başlıbeldə, həm də Şuşanın Xəlfəli kəndində öz ofisini açdı ( Bax: «Zartunk» qəzeti, 13 iyul 1994-cü il. Beyrut, «Ramqavar». Erməni partiyasının qəzeti, səh. 2. «Orlikin dəstəsi qayıtdı», müəl. O.Allahverdiyan).

Araşdırdığımız sənədlərdən aydın olur ki, Şuşa şəhərinin mərkəzində 1992-ci il mayın 8-də 22 nəfər, mayın 9-da isə 16 nəfər tanınmış elm adamları sorğu-sualsız güllələnib. Şuşa şəhər mərkəzində fəaliyyət göstərən «Göy Məscid» yandırılıb. Musiqi məktəbi yerlə yeksan edilib. Terror təşkilatının ən aktiv liderlərindən olan, İzmirdəki erməni diaspor təşkilatının üzvü Beno İsmizailyan dahi müğənnimiz Bülbülün heykəlini gülləyə tutmuş, qrupun üzvləri Vaqifin məqbərəsini viran qoymuşlar. Sonra Üzeyir Hacıbəyovun, Natəvanın heykəllərini gülllədən keçiriblər. Şuşa qəbiristanlığında onlarla azərbaycanlı şair və yazıçının, digər nüfuzlu şəxslərin məzarlarını alt-üst ediblər.

Xatırlatmaq yerinə düşər ki, Xocalıda insan resurslarıyla yanaşı, minlərlə milli-mənəvi dəyərlərimizin nişanələri olan qədim tarixi abidələr yerlə yeksan olunmuş, terrora məruz qalmışdır. Məsələn, bir faktı yada salmaq bizim üçün çox maraqlıdır. Tarixi sənədə görə Xocalı ərazisindən keçən Qarqar çayının sol və sağ sahillərində salınmış Noragün (X əsrin Norveç alimi və səyyahı Temblinq bu yerlərdən keçib. «Yaşıl xətt» kitabında yol qeydlərində Noragünü Narıngün kimi göstərib) və Kötük yaşayış məntəqələrində «Xumarlı», «Yağış gətirən», «Ballı ləçək»… gülləri ilə məşhur olub. Bu çiçəklərin şirəsi ilə ən ağır xəstəliklər sağalarmış. Norveçli səyyah Temblinq yazır ki, Xocalıda bitən bu çiəklərin

şirəsilə həmin dövrdə Azərbaycanın hərbi-siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsi öz əsgərlərini müalicə edirmişlər. Daha dəqiq desək, qoşun heyətinin hər bir üzvünə bu şirədən içirdərmişlər. Bundan sonra əsgər heç vaxt xəstələnməz, ruhdan düşməz, məğlubiyyətin nə olduğunu bilməzmişlər. Başqa bir mənbədən isə öyrənirik ki, Şah İsmayılın Vatikanla (1507-ci il) bağlaşmasında bu çiçəklərin şirələri xüsusi qablarda Vatikana daşınırmış. Başqa bir məlumatda isə bildirilir ki, məhz bu bağlaşmadan gəlirin qorunması üçün Vatikanın başçısı II Yulinin imzası ilə Vatikan xəzinəsində toxunulmazlığı təmin edilən sandıq ayrılıb. 1521-ci ildə isə Vatikanın başçısı X Lev bütün bunları xatırlayaraq Şah İsmayılın adını çəkir. Onun sandığının ancaq yetim-yesir üçün nəzərdə tutulduğunu qeyd edir. Çünki qaydalara görə Vatikanda qorunan sandıqlar ancaq sandıq sahibinin mənsub olduğu millətin müharibələrdən, xəstəliklərdən əziyyət çəkən övladları üçün nəzərdə tutulur.

1992-ci ilin fevralın 24-dən 25-nə keçən gecə Xocalı yandırıldı. Bütün bu düşmənçilik dairəsində Xocalıda təqribi hesablamalara görə yetişəcək, XXI-əsrdə dünyaya gəlməsi, formalaşması ehtimal olunan beş nəslin kökü kəsildi. *Uzun illər idi ki, Vatikan Dağlıq Qarabağ ərazisindən, erməni terror birləşmələrinin Xocalı yaşayış məntəqəsində törətdikləri qırğınlardan danışmırdı. Lakin 2012-ci ilin noyabr ayında isə Vatikanda nəşr olunan gündəlik «Osservatore Romano» («Roma icmalçısı») qəzeti Xocalı haqqında məlumat verərək, Heydər Əliyev Fondunun Moskva Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışını* ***«Bəşəriyyətin, bütün əsrlərin çağırışı» adlandırdı*** (Bax: eyni mənbə.2012, XI-22).

Lakin «Xocalı qırğınları»nı törədənlər isə hələ də gizlənməyə macal tapırlar. Tarixdəkiləri gecikdirmək olar, amma gizlətmək mümkün deyil...

Məlumata görə, bu qırğınları törədənlərin əksəriyyətinə «Milli qəhrəman» adı da verilib. Onların fədakarlıqları (?) haqda kitabçalar yazılaraq dünyanın erməni diaspor təşkilatlarına paylanıb.

Ermənistan Ədliyyə Nazirliyində 2001-ci il iyunun 17-də qeydiyyatdan keçmiş «Milli Dirçəliş Təşkilatı» da (Yunanıstan) 1992-1993-cü illərdə Laçın və Kəlbəcərin, Qubadlı və Zəngilanın işğalında fəal olub (təşkilat 2001-ci ildə qeydiyyatdan keçsə də, o 1990-cı ildən aktiv olub. 1991-ci ildə Ağdam səmasında vertolyotun vurulmasında iştirak edib. 2001-ci ilədək qeydiyyatsız fəaliyyət göstərib). Gerbi, himni və nizamnaməsi qanla yoğurulmuş bu təşkilatın rəhbəri milliyyətcə erməni olan, snayperçi Elvira Qalustyan adlı bir qadındır. İxtisasca uşaq həkimi olan bu qadın Qarabağda ilk

amputasiya otağının təşkilatçısı olub (Kəlbəcər). Xocalı faciəsində altı nəfərlə iştirak etmiş «Elviranın qrupu» uşaqların öldürülməsində və yandırılmasında iştirak edib. Bu qadının vəzifələrindən biri də Qarabağ ərazisindən çəkdiyi kadrları ərəb ölkələrində, Kipr və Yunanıstanda «erməni millətinin faciəsi» kimi yayıb, nümayiş etdirmək idi. Bu təşkilatın özünəməxsus təlim-məşq zonası vardı. Onlar burada terror aktlarının yerinə yetirilməsi, təşkili və bu istiqamətdə informasiyaların toplanması, «Həmzə» deyilən dərs proqramlarının icrası qaydalarını öyrənirdilər (erməni ekstremistlərinin Şuşada nəşr olunan «Hücum» qəzeti, 8 aprel 2001-ci il, səh. 2).

Araşdırma materiallarına görə, «Elviranın qrupu» qadın terror təşkilatının üzvlərinin bir neçəsi isə azərbaycanlı analara məxsus Ana südünün toplanması ilə məşğul idi (Bax: Azərbaycan Respublikası, "Bank informasiya" SMA-nın materialları.2003,V).Onlar topladıqları bu südü dərhal da Yerevanda süddən kəsilmiş analara göndərirdilər. Məhz bu eybəcər qəhrəmanlıqlarına görə zabit Elvira Aqaronovna Manukyan (Qriqoryants) ölkəsinin Milli qəhrəmanı adını alır. Mən anlamıram, Xocalıda əsir və girov götürülmüş anaların südü ilə öz övladlarını ölümdən, xəstəlikdən və aclıqdan xilas edən erməni analara nə ad verək? Ən cavan çağlarında intihar edən tanınmış ingilis bioloqu professor Albert və arvadı Santana Aberdinlər öz laboratoriyalarında apardıqları tədqiqatda elmə sübut etdilər ki, Qafqaz xalqları arasında azərbaycanlı anaların südü qədər orqanizmdə güc və immunitet yaradan, 12 cür xəstəliyə dərman olan ikinci belə birləşmə yoxdur. Tarixdə belə bir millət varmı ki, onun ana südünə terror olsun? Yoxdur. Tarixdə belə bir millət olmayıb. ***Leyla xanım Əliyeva «Xocalıya Ədalət!» deyəndə, haray çəkəndə məhz millətin yüzlərlə xəstəliyin dərmanı olan ana südünə və bəşəriyyəti sülhə, əmin-amanlığa, baş verən hadisələrə vicdanlı olmağa çağıran bayatı və ana laylalarına ədalət istəyirdi. Xocalıda qırılan, məhv olan insanların soy-kökünə ədalət istəyirdi. O, bütün bunlara ədalət məhkəmələrinin qurulmasını istəyirdi.***

Təhlillərimizə görə, Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla Əliyevanın «Xocalıya Ədalət!» çağırışı təkcə kampaniya deyil. Bu hər şeydən əvvəl yeni yüzildə Beynəlxalq Erməni Terroruna qarşı mübarizədə yeni strateji modeldir. Bu strateji modelin həyata keçməsi üçün, tarixin bütün mərhələlərində yaşaması üçün heç bir top, tüfəng, mərmi, güllə və yaxud bomba lazım deyil. Bu ideyanın yaşaması, insanları düşündürməsi üçün sadəcə söz lazımdır. Müdrikcəsinə deyilən, güclü məntiqi dayaqları olan idrak, düşüncə

və bir də faktlara, sənədlərə, sübutlara əsaslanmış söz lazımdır. «Xocalıya Ədalət!» Leyla xanım Əliyevanın həyat tərzi, saflığı və əxlaqıdır.

İşgəncələrin qadağan olunması sahəsində 9 dekabr 1985-ci ildə qəbul edilmiş və 28 fevral 1987-ci ildə qüvvəyə minmiş işgəncələrin aradan qaldırılması və onların tətbiqinə görə cəza haqqında Amerika Konvensiyası mühüm əhəmiyyət kəsb edir. Lakin biz bunun güc və qüdrətini Xocalı qırğınlarında, xüsusən, hamilə qadınların başına gətirilən fəlakətlərdə hələ də görmürük. Nədənsə, dünya birliyi susurdu...

Biz Xocalı qırğınlarının günahkarlarını, baş verən cinayətlərin təşkilatçılarını və iştirakçılarını hələ də axtarıb, aramaqdayıq. Məsələn, 1996-cı ilin iyul ayının 22-də Livanda erməni kvartalındakı «Kilsə arxivi» kimi tanınan erməni arxivində bizə məlum oldu ki, Xocalı qırğınlarının «Qəhrəmanlıq dastanı» kimi qələmə verən və bu istiqamətdə onu araşdıran erməni alimlərindən ibarət «xüsusi qrup» yaradılıb. Xocalı qırğınlarında Rusiyanın 366-cı alayla yanaşı, keçmiş İttifaqın ərazisində və ölkə hüdudlarından kənarda leqal və qeyri-leqal fəaliyyət göstərən 17 erməni terror dəstəsi iştirak edib. Onların bir neçəsinin adı artıq ABŞ Dövlət Departamentinin sənədlərində qeyd olunub.

Qarabağda zahirən sakitlikdir. Həqiqətdə bu nəzarətsiz zonaya bəlkə də hər gün yeni-yeni şirkətlər, dəstə və qruplar ayaq açır. Daha dəqiq desək, ermənilər tərəfindən işğal olunmuş ərazilərimiz artıq beynəlxalq terrorizmin yuvalarından birinə çevrilib.

Suriyada özəyi qoyulmuş «Qaflan» kürd separatçı təşkilatının liderlərindən olan Cəmil Bank (kapitan) və «ASALA» erməni terror təşkilatının bir qolu olan «Qara qartalın Akopu» adlı 9 nəfərlik dəstənin üzvü, təhlükəsizlik mayoru Cumbat Aloyan 1991-ci il mayın 12-də Yerevana, oradan Sisiyan rayonuna, oradan da Xocalıya gəlir (Bax: “Jmanak (“Zaman) qəzeti. İstanbul-Ankara. 1995, VIII). Mayın 14-də isə onlar Laçın ərazisinə yaxın olan Xnatsak erməni kəndində məşvərət keçirirlər. Məşvərətdə Rusiya tərəfindən Baş Kəşfiyyat İdarəsinin altı nəfərlik qrupu (başçı polkovnik Aleksandr İvanoviç Aleksandrov), Yerevan MN-nin məsul eksperti, 1980-86-cı illərdə Azərbaycanın sərhəd qoşunlarında xidmət etmiş Arkadi Aqayan iştirak edirdi. Həmin gecə Xnatsakdan Malıbəyli və Caqazur (Laçın ərazisi) kəndlərinə ilk silahlı erməni dəstəsi girdi. Mayın 15-də isə həm Laçında, həm də Şuşada «Qaflan» kürd separatçı təşkilatının özəyi yarandı. Bütün bu bir neçə günlük mənzərəni müşayiət edən tarixçi Serj Orduyan (Ermənistan Tarix İnstitutu) «Köhnə tarixi təzələyənlər» adlı 58 səhifəlik kitabçasında yazır: «***...Biz Şuşaya qayıtdıq. Şuşa da yenidən doğuldu... Əsgərləri***

***saxlamaq olmurdu. Onlar türklərdən qalma nə vardısa, söküb-tökür, dağıdıb yandırırdılar. Bu, onların haqqı idi. Qızmış, vətən və torpaq həsrəti ilə sifətləri yanmış əsgərlərin qabağını almaq çətin idi. Amma mənim əsgər qardaşlarım düz edirdilər. Azərbaycanlılara Şuşanı unutdurmaq zamanı çatmışdı…»*** (S.Q.Orduyan: «Köhnə tarixi təzələyənlər» kitabı. Yerevan, 1996-cı il, səh. 19).

Məlumata görə, Şuşa həbsxanasında 1992-ci il mayın 11-də 197 nəfər əsir alınmış azərbaycanlı var idi. Bu rəqəm 1992-ci il mayın 14-də Tehran radiosunun məlumatında 197 nəfərdən 83-ə enmişdi (Bax: Ermənistanda Helsinki İnsan haqları üzrə nümayəndə M.Danelyanın Erevan Teatr meydanında çıxışından. "Azadlıq" radiosu. 1993, III-9). Qalan 114 nəfər haqqında məlumat verilmirdi.

1992-ci il mayın 13-də isə İsfahanda erməni icmasının iclas salonunda fars mənşəli Yadigarinin Xocalıdan çəkib gətirdiyi sənədli kadrlar nümayiş etdirildi. Həmin kadrlarda müxtəlif üsullarla öldürülmüş 114 xocalılının, azərbaycanlının taleyindən danışılırdı. Mayın 14-də Tehran rəsmiləri həmin kadrları göstərməyi qadağan edir. Mayın 14-də Tehran vaxtı ilə saat 22:00-da rejissor Yadigari həmin sənədli (18 dəqiqəlik lenti) kadrları Rusiyanın İrandakı səfiri Vladimir Qudiyevə satır («Keyhan» qəzeti, Tehran.«Müsahibə» yazısı. 1992, №214, səh. 6).

Yadigari bunu da qeyd edir ki, Şuşanın qərbindəki Xəlfəli yaşayış məntəqəsində «…gördüklərimdən sarsıldım…». Rejissor Yadigari yazır: ***«…Mən bütün bunlar haqqında, ermənilərin – Şuşada, Xocalıda gəzib-dolaşan, öldürülmüş adamları təhqir edən ermənilərin və rusların «Lur» İnformasiya Agentliyinə danışdım… Onları unuda bilmirəm. Ölüləri soymaqla, onlara işgəncələr verməklə məşğul idilər. Mən qərara aldım ki, Xocalı və Şuşa haqqında çəkdiyimi heç olmazsa, Türkiyəyə ötürə bilim…»*** (Bax: eyni mənbə).

…1993-cü il aprelin 19-da «Keyhan» (İran) qəzetinin 8-ci səhifəsində belə bir məlumat verilir ki, 37 yaşlı Əhməd Baqir Yadigari adlı cavan rejissor avtomobil qəzasında həlak olub… Rusiyanın Tehrandakı səfiri Vladimir Qudiyevin Yadigaridən aldığı 18 dəqiqəlik sənədli lent isə məlumata görə XİN-nə, oradan da Baş Kəşfiyyat İdarəsinin arxivinə verilir.

1992-ci il mayın 16-da «Keyhan» qəzetində və «Sinema» jurnalında (Bax: eyni mənbə. Tehran, VI) erməni icmasının liderlərindən olan Vartan Vartanyan mərhum Yadigari ilə bağlı elan verir. Göstərilir ki, erməni icması Dağlıq Qarabağda «milli azadlıq hərəkatı» ilə bağlı çəkilişlər aparan Yadigarinin bütün lentlərini almağı planlaşdırıb və Qarabağla əlaqədar ən kiçik kadra belə istənilən qiyməti, məbləği verməyə hazırdır…

Məlumata görə, 80-ci illərdə İran İslam Respublikasında yaradılmış «Müharibə qurbanlarına yardım fondu»nun fəaliyyəti haqqında danışan inqilabın rəhbəri Ayətulla Xomeneyi ermənilər tərəfindən dağıdılmış və böyük insan tələfatı ilə nəticələnən Xocalı qırğınlarını yada saldı: «…Fondun əsas prinsiplərindən biri ədalət prinsipidir. Dünyada baş verən müharibələrdə əzizlərini itirənlərin, yurdlarından, ev-eşiklərindən didərgin olanların işlərinə ədalətlə yanaşmaq lazımdır. O cümlədən Xocalıdakı hadisələri unutmaq, yaddan çıxarmaq olmaz. Orada bizim qardaşlarımız, bacılarımız həlak olub» (İran, Tehran. Camaran. Mətbuat konfransı, 2010-cu il).

Başqa bir məlumatda qeyd edilir ki, İrandakı erməni diasporunun üzvləri indiyədək dünya sənət adamları tərəfindən çəkilmiş, Dağlıq Qarabağda törədilən cinayətləri əks etdirən 16 adda sənədli filmi alıb gələcəkdə onları saxtalaşdırıb ermənilərin faciələri kimi dünya ictimaiyyətinə təqdim etmək məqsədi ilə Eçmiədzinə təhvil veriblər.

Araşdırma materiallarına görə, 2010-cu il martın 10-da Parisdə ermənilər tərəfindən «Letter de la nasion» (la letter de la Nation) («Milli məktub») qəzetinin nəşriyyatında işğal olunmuş rayonlarımızın hər biri barədə yanlış mövqedən yazılmış, tarixi saxtalaşdıran kitabçalar çap olunaraq Strasburqda paylanıldı. Erməni diasporunun Strasburqdakı aktiv fəaliyyəti, şübhəsiz, Azərbaycan tərəfini heç vaxt çaşdıra bilmir. Çünki tarixin səhifələrini saxtalaşdırmaq olsa da, həqiqəti gizlətmək mümkün deyil.

Lakin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışları və bu çağırışlardakı Xocalı qırğınlarını təsdiq edən fakt və sənədlərin, istintaq materiallarının, fotoşəkillərin Strasburqun mətbuat və kütləvi informasiya vasitələrinə çıxarılması, eləcə də AŞ-dakı deputat korpusunun aktiv fəaliyyəti erməniləri çaşdırdı. Ermənilər nə qədər çalışdılarsa da Xocalı ilə bağlı fakt və sənədləri təkzib etsinlər, mümkün olmadı. Məlumata görə, 2011-ci il iyulun 15-də və 2012-ci ilin aprelin 16-da Parisdə nəşr olunan «Le Mond» qəzetinin apardığı sorğunun nəticələrinə görə «Xocalıya Ədalət!» çağırışı əsrin zülm və haqsızlığa, müharibələrə qarşı bir çağırışıdır.

## «ERMƏNİSTAN TARİXİ»NDƏKİ XOCALI

Ermənistan MEA-nın professoru Movses Horenats isə «Ermənistan tarixi» kitabında iddia edir ki, «Ara Prekrasnıy» (erməni Allahı) həmişə türk dünyasını bəlalardan xilas edib, təbii fəlakətlərdən qoruyub. Köçəri həyat sürdükləri üçün «Ararat dağının ətəklərində onlara yaşamaq hüququ verib». **Movses Horenats daha sonra yazır: «…Hər bir türkü doğulduğu gündən ölümə məhkum edin. Onların dirilməsinə imkan verməyin. Çünki dirilən türk bizim üçün fitnələr yaradıb, faciələr törədir…»** (Yerevan. «Ermənistan tarixi» kitabı, 1990, səh. 85).

Araşdırma materiallarına görə, Ermənistan diasporu tərəfindən təkcə 2012-ci ildə Xocalı qırğınları ilə bağlı 104 müxtəlif kitab nəşr olunub. Erməni tarixçiləri və diplomatları, siyasətçiləri bu kitablarda iddia edirlər ki, Xocalı yaşayış məntəqəsində heç bir «...qırğın, genosid, ...terror» hadisəsi baş verməyib. Biz bunu təbii qəbul edirik. Çünki ermənilər bu ağır cinayəti öz üzərlərinə götürməkdən çəkinirlər. Amma fakt faktlığında qalır. Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı rəqəmlə, sənədlə, faktla danışır. Fakt isə Şahdır. Ermənistan isə bu Şah qarşısında Mat olaraq qalıb.

*Ermənistan MEA-nın akademiki Harri Sarkisyan isə ermənilərə xatırladır: «...Bilin və agah olun. Dünyaya gələn hər bir erməni balası anlamalıdır ki, onun düşməni kimdir, dostu kim. Mən istəməzdim ki, övladlarımız hər gələnin üzünə qapı açsın. Erməni balası beşikdə ikən dərk etməlidir ki, o, nə üçün doğulub, kimin üçün yaşayacaq. Bunun üçün hər bir erməni anası yenicə doğulan uşağının qulağına Böyük Tiqranın... və «Müqəddəs Ara»nın nəsihətlərini oxumalı, ona dua suyu içirməlidir...»* (O.Adamyan. Moskva. «Вестник древней истории», 1984-cü il, səh. 46).

Yazıçı Silva Kaputikyan isə məsələni bir qədər konkretləşdirir: ***«…Hayk bilməlidir ki, (Allahı sevən ermənilər) ailəsində dünyaya göz açan erməni yaşamaq üçün yox, öncə erməni millətinə kömək üçün doğulub. Buna görə yeni doğulan erməni uşağının qulağına bərkdən, lap bərkdən demək lazımdır: «Ey, Aram… sənin düşmənin türkdür… Allahdan qabaq vətəndir. Vətəndən qabaq kilsədir. Kilsədən qabaq Böyük Tiqrandır. Böyük Tiqrandan qabaq «Böyük Ermənistandır»…*** (S.Kaputikyan «İlk dəfə…» Oçerklər kitabı. MEA-nın iclasındakı çıxış. 1988-ci il. Yerevan, rus və erməni dillərində nəşr olunub, səh. 46).

Bədnam yazıçı öz xələflərinə bunu da məsləhət bilir ki, *«…imkan düşdükcə türkü, xüsusən onun azərbaycanlı qanadını…» vurub sındırın. «…On-*

*ları ifşa edin. Onlara qarşı üsyan edin. Hər bir azərbaycanlıya qarşı vuruşmamız «Dövlət Proqramı» çərçivəsində aparılmalıdır»* (səh. 76). Yazıçının bu tezisləri üzərində işləmək üçün professor S.A.Akopyanın səkkiz nəfərlik qrupu yaradıldı. Qrupa respublikanın tanınmış simaları daxil edildi.

1991-ci il dekabrın 29-da Ermənistanın təhlükəsizlik və strateji məsələlər üzrə konsepsiyasının ilkin variantı hazırlandı.

1992-ci il fevralın 16-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasının iclasında milli maraqlar naminə hazırlanmış bu sənədə əlavələr edildi. Baş Qərargahı Yerevanda yerləşən «Milli Azadlıq Hərəkatı»nın liderlərindən olan O.Şahnazaryan və **Q.Markaryan həmin sənədi (bu onun ikinci sənədi idi) yeni bir adla çap etdirib yaydılar. 1996-cı ilin fevralın 25-də bu sənəd 1500 nüsxə ilə çap olundu. Kitabça belə adlandırıldı: «Azərbaycan millətinin düşüncələrini ifşa edən sənəd»** ( Bax: eyni mənbə. Yerevan. Q.Markaryan. 1995).

O bu sənəddə erməni millətini, döyüşçülərini ayıq-sayıq olmağa çağırır (?). Ermənistandakı, eləcə də, dünyanın bir sıra ərazilərində qərar tutan erməni din xadimlərinin və radikal, ifratçı Din qurum və cəmiyyətlərin birliyini istəyir. Q.Markaryan yazır: «…Din bizim silahımız, kilsə bizim ideya mərkəzimiz, dini cəmiyyət isə bizim səngərimizdir... Xüsusən məşhur olan «Sonasar-Baqdasar» dini cəmiyyətin Xocalıdakı fəaliyyəti alqışlansın…»(Bax: eyni mənbə).

Araşdırma materiallarına görə, «Sonasar-Baqdasar» erməni dini cəmiyyətinin Kaliforniya ştatının cənubundakı Stokton yaşayış məntəqəsindəki bürosuna başçılıq edən Karen Baqdasar Karuxen (Karen Baqdasaroviç Karaxanyan – *red.*) 1988-ci il aprelin 9-da Reddiq şəhərindəki «Qriqoryan»-«SAEAM» – cadugərlik məktəbini bitirərək, üzərində «AREV» yazılmış şəhadətnamə alır. 1989-cu il iyulun 2-də Yerevana, 9-da isə Xankəndinə gəlir. O, ilk günlər «Böyük Ermənistan» xülyasına qoşulub könüllü olaraq silahlı birləşmələrə yazılan gənclərin üstünə Varfolomey suyu çiləyir, onlara dua edir, «gülləbatmaz» nəğməsi ilə ovsunladığı şərbətdən içirir və xatırladır: «…Böyük Ermənistan kilsədən başlayır. Müsibət onda qopacaq ki, bu kilsələri yadlar zəbt etsin…». («Krua» qəzeti. Paris. 1989, №9. «Dini icmadan missionerliyədək»).

«Sonasar-Baqdasar» erməni mifologiyasını bir neçə xətt təşkil edir. Xətlərdən biri bu idi ki, ermənilər öz qızlarını və qadınlarını zəbt etmək istədikləri ərazilərin dövlət və hökumət başçılarına, nüfuzlu məmurlara ötürərək, onları ərə verir, nəticədə bir ağaca, bir ailəyə… və nəhayət, bir nəslə sahib edirdilər. Cəmiyyətin «Artsax» (Xankəndi) bürosunun təşkilatçılarından

olan Laura Nalbandyan (məşhur cadugər Arab Nalbandyanın nəvəsi – müəll.) «Stokton bürosu»na məlumat verir: «…Mən Karenlə fikir ayrılığına görə müstəqil yol tutdum. Mənim yardımlarımı özümə aid edin, ianələri şəxsən mənə göndərin. Öz büromu yaratdım. Nəticələrimi yazıram… 1991-ci il avqustun 4-də Kəlbəcərdə bir toyda iştirak etdim. Bu toya Bakıdan da gəlmişdilər. Vardanesin Akunk kəndində yaşayan Elulaneni Kəlbəcərdə ərə verdim… Bu, mənim gördüyüm altıncı iş idi…» («Tiqranın vəsiyyətləri» bülleteni. Stokton. Oktyabr 1992, №10, səh. 21).

Cadugər Lauranın ovsunladığı adamlardan biri, 42 yaşlı Ağalar Əmrah oğlu Dünyamalıyev 1992-ci ilin yanvar ayında Azərbaycan DİN-ə ünvanladığı məktubunda yazır: «***…Xocalıda cadugərliklə məşğul olan erməni qadınları hisslərimizlə oynayır, ağıl və fikirlərimizi dolaşdırırlar. İpə-sapa yatmayan, yola gəlməyən oğlanları, cavanları ot-ələf yandıraraq, tüstüyə verir, onları dəli və şikəst edirlər. Bir neçəsi kor olub, bir neçəsi isə, artıq, dünyasını dəyişib…***».

Cadugərlərlə işi sistemləşdirmək üçün Ermənistan Təhlükəsizlik Komitəsinin Vardenis və Martuni rayon şöbələrində xüsusi proqramlar tərtib edildi. Məsələn, 1992-ci ildən 1999-cu ilədək Vardenis rayon şöbəsinin kəşfiyyat qrupuna başçılıq edən Spartak Markaryan «Sonasar-Baqdasar» qrupunu nəzarətə götürdü və cadugərlərin regiondakı sistemsiz işini qaydaya saldı, onlar üçün xüsusi proqramlar tərtib etdi. Proqrama görə, cadugər qadınlar öncə Kəlbəcərdə və Xocalıda fəaliyyət dairələrini genişləndirməli, hərbi qruplarla, silahlı dəstələrlə təmaslar qurmalı, regiondakı ictimai-siyasi, hərbi durumla bağlı xəbərlər verməli, məlumatlar yığmalı idilər. Bir qrupun vəzifəsi isə hamilə qadınlarla bağlı idi. «Dadivanq andı» proqramının əsas mahiyyəti ərazidə əhali artımının qarşısını almaqdan ibarət idi. Cadugərlər hamilə qadınların ünvanlarını araşdırır, həmin ailələrə yol tapır, övlad gözləyən analarla əlaqələr yaradırdılar. Sonda hamilə qadınların bir qismi ya doğuş zamanı övladı ilə birgə ölür, ya dəli olur, ya da vaxtından qabaq azad olurdu. Şübhəsiz, bu zaman uşaqlar ölü doğulurdu. Respublika Səhiyyə Nazirliyinin arxiv sənədlərinə istinadən bildiririk ki, təkcə Xocalı yaşayış məntəqəsində 65 uşaq ölü doğulmuşdu. Xankəndindəki xəstəxananın həkimlərindən Fina Nersesovna Saakyan və Arina Yerenovna Arutunyanın Bakıya respublika Səhiyyə Nazirliyinə ünvanladıqları 26-214/9 saylı (16 fevral 1992-ci il) məktublarında isə bildirilirdi: «…Kəlbəcərdə və Xocalıda doğum iki dəfə artıb. Doğulan uşaqların 70,5 faizinin çəkisi normadan artıqdır. Heç bir xəstəlik müşahidə edilməyib. Ölüm halları 1,5 dəfə azalıb».

1992-ci il aprelin 16-da isə Fransanın «Antenn-3» dövlət telekanalının adı ilə Kəlbəcərdə və Xocalıda doğuş zamanı ölən qadın və uşaqlar lentə

alınır. Aprelin 21-də Los-Ancelesdə çap olunan «Los-Angeles Times» qəzetində «Dünya ekranları» bölümündə şərh olunur.

1990-1992-ci illər ərzində Xocalıda 52 oğlan uşağı şikəst edilib.

Şikəstlik əlamətləri:

– **Görmə qabiliyyətinin itməsi (çəpgözlük);**

– **Danışma qabiliyyətinin itməsi (nitqin pozulması);**

– **Əsasən sağ qolun işləməməsi, funksiyadan düşməsi;**

– **Bioloji sistemin pozulması (eybəcərlik);**

– **Ruhi xəstəlik. Huşsuzluq və ağılın itməsi («MDB çərçivəsində gördüklərim». Los-Anceles. Həkim Mayk Kolombonun hesabatı. 1999-cu il, səh. 73).**

«Sonsuzluq» proqramının icraçılarından olan toksikoloq Lidiya Karapetovna Asratovanın (Asratyan) evində hazırladığı dərman preparatları öz işini görürdü. 1991-ci il noyabrın 14-də Martuni rayon epidemioloji stansiyanın həkimi Romik Rubenoviç Baqdasaryanın hazırladığı yeni dərman preparatları L.Asratyanın proqramına əlavə edilir. Məlumata görə, təkcə 1992-ci ilin iki ayı ərzində Kəlbəcər rayonunda 23, Xocalıda isə 47 hamilə qadın erməni cadugərlərinin mənəvi-psixoloji terroruna məruz qalıb. Həddi-buluğa çatan, yaşı 18-20 arası olan 19 oğlan uşağı araşdırılması mümkün olmayan bəladan vəfat edir.

Erməni kəşfiyyat idarəsinin Amerikada xüsusi cadugərlik «təhsili» almış erməni qadınlarla qurduğu əlaqələr Xocalıda mənəvi-psixoloji terrorun başlanğıcını qoydu. Erməni yazıçısı Silva Kaputikyan belə qadınları «Erməni xalqının kəşf olunmamış gülləsi» adlandırıb. O, yazırdı: «Dağlıq Qarabağda Milli Azadlıq Müharibəsini ilkin olaraq bu qadınlar başladılar. Onlar topsuz və tüfəngsiz bütöv bir kəndi işğal etmək gücünə malik idilər…» («Qara kağız». S.Kaputikyan. Yerevan. 1992-ci il, səh. 29).

1991-ci il dekabrın 13-də işğal olunmuş ərazilərimizdə, xüsusilə, Xocalı yaşayış məntəqəsində qadınlardan ibarət «Milli iftixar» terror təşkilatı yaradılıb. Bu təşkilatın üzvləri ərazilərdəki erməni məktəblərində «Böyük Ermənistan» ideyalarının təbliği ilə məşğul olur, qızlara hərbi dərslər keçirlər.

Məlumata görə, «Milli İftixar» qrupunun üzvləri 2009-cu ilin aprelin 14-dən başlayaraq, «Xocalıya Ədalət!» çağırışının əleyhinə kampaniyaya başlayır. Bu qrupun maliyyə mənbəyi isə ermənilərin Praqada yaratdıqları «Strateji Araşdırma Mərkəzi» olub.

Lakin «Xocalıya Ədalət!» çağırışı zülmə və terrora, işğalçılıq siyasəti əleyhinə yeni yüzilliyin güclü ideologiyası olduğundan, o bütün mərhələlərdə zəfər çalır.

Materiallar təsdiq edir ki, görə, Xocalı yaşayış məntəqəsinə separatçıların silahlı basqınlarında Ermənistanın Müdafiə Nazirliyinin Hərbi Kəşfiyyat İdarəsi də iştirak edib. Regionda azyaşlı uşaqların oğurlanması və alqı-satqısı ilə məşğul olan «Müqəddəs Sultan-Karapet» qrupunun üzvləri həmin ərəfədə Xocalıya gəldilər. İstintaq materiallarında qeyd olunur ki, altı nəfərlik qrupa 1989-cu ildən 1992-ci ilədək Həştərxanda HDQ-də xidmət etmiş və səhhəti ilə bağlı istefaya çıxan Leon Qustavoviç Abramyan başçı təyin olunur. Təyinatın «hökmü» Fransanın Marsel şəhərində məskunlaşan «Qretta» erməni dini icmasının Baş Qərargahından gəlirdi. 1991-ci il avqustun 16-da Fransa politoloqu, Milli Elmi Araşdırmalar Mərkəzinin direktoru, professor Jül Kenel yazırdı: «…Ayrı-ayrı şəhər və rayonlara səpələnmiş bu adamların, din libası geyinmiş bu keşişlərin hər sözündə məqsəd və cəhd var. Öz cəhdlərini məqsədləri üstündə quran bu adamlar daha ciddi və məxfi yerdən idarə olunur və maliyyələşdirilir…» («Tədqiqat». J.Kenel. Paris. 1991-ci il, səh. 79)

1992-ci il yanvarın 24-də mülkü geyimdə olan keşiş Leon Abramyan qədim erməni ailələrin nümayəndələrindən ibarət xeyriyyə mərkəzi təşkil edir. Yanvarın sonunadək mərkəzin 11 nəfər üzvü olur. İlk xeyriyyə iclası Xocalıda keçirilir. Bir neçə gündən sonra mərkəzin mahiyyətini anlayan ermənilərin altısı etiraz edərək «Müqəddəs Sultan-Karapet» qrupundan çıxır. Fevralın 2-də isə Gorusdan qrupa məxsus, Yerevan kəşfiyyat xidmətində işləmiş xüsusi dəstə Xocalıdakı mərkəzə gəlir və cənub istiqamətdə səpələnir. Təşkilatın üzvləri bilavasitə aşağıdakı vəzifələri icra etməli idilər:

– Erməni böyüklüyünü təbliğ etmək;

–Yerli sakinlərdən istifadə edib onları maliyyələşdirərək, şayiələrin yayılmasına nail olmaq;

–Azyaşlı oğlan uşaqlarını yığmaq və sıradan çıxarmaq;

–Nəsil və ailələr arasında ədavəti qızışdırmaq.

Məlumata görə, Xocalının şimal-qərb hissəsindəki yaşayış məntəqəsində oğurlanmış uşaqların saxlanma bürosu var idi. Bütün bunları təsvir edən **Livan jurnalisti Məhəmməd Salim-Müslüm yazır: «…Müharibə ərəfəsində Ermənistanın Azərbaycanla sərhəd rayonlarında belə saxlama kameraları çox idi. Bir qismi boş olsa da, əsasən Xocalı yaşayış məntəqəsində yerləşdirilmiş belə kameraların bir neçəsində uşaqlar gördüm. Onlarla maraqlandığımdan zonaya giriş mənə qadağan edildi.**

**Amma gecələr uşaqların qorxulu qışqırıqlarını, səs-küyünü eşidirdim. Orada onları qorxudurdular…»** («Qorxulu nağıldan, qorxulu həqiqətlərədək». Beyrut. 1997-ci il. «Əş-Şərq» nəşriyyatı, səh. 104).

Bu qorxu və stress insan geninə asanlıqla təsir edib onu dəyişir və yaxud parçalayır. Bu barədə İsrail həkimlərinin də dəyərli tədqiqatları var. Məsələn, məlumata görə, Yerusəlimdəki Yəhudi İnstitutunun və Beer-Şevedəki Ben-Qurion adına Universitetin alimləri ciddi açıqlamalar veriblər. Onların fikrincə, insan orqanizmi əsəb hüceyrələrindən – neyronlardan özünə «tor qurub». Onlar baş verən hər hansı bir qıcıqlanma haqqında beyin mərkəzinə xəbər verir və beyin mərkəzindən orqanizmin bütün əzalarına bu ağrı siqnalı ötürülür. Neyronların normal funksiyaları üçün orqanizmdə xüsusi ağ qan hüceyrələri olur. Nə vaxt insanın, əsasən, uşaqların gözü qarşısında hər hansı terror aktı, ölüm hadisəsi, işgəncə və əzab baş verirsə, onun genində dramatik dəyişiklik baş verir, gen zədələnir. Bu işin tədqiqatçısı, professor Xermon Sorek «ASNE» adlı geni öyrənib. Alimlər hansı stress və qorxunun uşaqlara təsirini göstərir və qeyd edir ki, əlavə iynələrdən sonra bu dəyişiklik əbədi olur.

Araşdırmalarımıza görə, xaricdən, əsasən Fransadan, Suriyadan, Livandan, Amerikadan və Rusiya Federasiyasından sərhəd zonalarına axıb gələn və bilavasitə kəşfiyyat xidməti ilə əlaqələr quran dini icmaların liderləri və ideoloqları ilə görüşən erməni həkimləri Xocalıdan oğurlanan uşaqları aradan çıxarırdılar. Məsələn, neçə ay öncə Laçın-Qubadlı istiqamətində «Qretta» erməni dini icmasının üzvləri ilə Parisdəki Nekker adına xəstəxananın həkimləri arasında «Günəş uşaqları» adlı əməliyyat keçirildi. Rəsmi sənədlərdə bu, «xeyriyyə marafonu» kimi təqdim olunsa da, mahiyyət başqa idi.

MDB çərçivəsində, xüsusən münaqişə və yaxud müharibə zonalarında depressiyaya uğramış ailə və nəsilləri öyrənən, onun itmə və yaxud həyatdan silinmə səbəblərini araşdıran «Ətraf mühit və sağlamlıq məsələləri ilə məşğul olan hökumət institutunun» (ABŞ) bu istiqamətdə ciddi nəticələri və bu nəticələr sırasında bəlalara məruz qalan Azərbaycan, onun erməni terrorçu birləşmələri tərəfindən işğal edilmiş əraziləri də var.

**İnstitutun direktoru, professor Kennet Olden 1997-ci ildə Ağ Evə ünvanlanmış hesabat sənədində xatırladır: «…Ermənistanın Azərbaycan istiqamətində apardığı müharibənin nəticəsində Xocalıda kütləvi insan qırğını baş verdi. Burada təbiətlə insan arasındakı mütənasiblik pozuldu. Xocalıda, müharibə baş verən ərazilərdə qızıl torpaqların və nadir bitki**

**və heyvanatın, dərman preparatları üçün çiçəklərin, kolların tələf olması ilə yanaşı böyük insan nəsillərinin də kökü kəsilib. Bu, Xocalıya müharibənin vurduğu ən eybəcər yaralardan biridir…»** («Science Digest» jurnalı. ABŞ. Dekabr 1997-ci il, səh. 14).

Araşdırmalarımıza görə, erməni cadugərlərinin və hərbi həkimlərin sərhəd zolaqlarında və işğal olunmuş ərazilərdə apardıqları «Etnik viruslar» məxfi proqramının birinci mərhələsi 1996-cı il mayın 21-də tamamlandı. Odur ki, biz itkin və əsir düşən qadın və uşaqların bir qismini Qərbin, eləcə də Şərqin erməni həkimlərinin çalışdıqları eksperimental institut və laboratoriyalarında axtarmalı idik. Xüsusən Xocalıya diqqət yönəldən erməni həkimləri, eləcə də milliyyəti bəlli olmayan təbiblər ciddi nəticələri olan araşdırmalar əldə ediblər.

1986-cı ildən 1992-ci ilədək Azərbaycanın cənub bölgəsindən, xüsusən Lənkəran (Gərmətuk, Vilvan) və Masallının (Şərəfə, Türkoba) kəndlərindən Xocalıya dörd gəlin köçüb, 12 nəfər isə işləməyə göndərilib. Astaradan 6 nəfər Xocalı yaşayış ərazisinə ərə gedib, ailə qurub… Bu gün bu ailələri və eləcə də onlardan olan övladların heç biri sağ deyil.

Maraqlıdır, məlumatlara görə, o illərdə həmin rayonlarda və talışların sıx yaşadıqları cənub bölgəsində bu etnik qrup arasında kütləvi ölümə səbəb olacaq heç bir xəstəlik, o cümlədən qan qohumluğu xəstəliyi qeydə alınmayıb.

1998-ci il avqustun 16-dan etibarən işğal olunmuş ərazilərə dünyanın bir sıra ölkəsində məskunlaşan erməni ailələrinin yaşlı nəsli köçürüldü. Bu sırada ilk ailə 1935-ci ildən Fransada yaşayan Qabriel Ter-Qriqoryants və övladları oldu. Onlar Şuşada məskunlaşdılar. Həkim Qabriel Ter-Qriqoryants isə Laçında öz klinikasını açdı.

Məlumata görə, 2012-ci ilin avqust ayında Xocalıda vaxtilə azərbaycanlıların dəfn olunduğu qəbiristanlıq «Erməni qəbiristanlığı» kimi istifadəyə verilib. Araşdırma materiallarına görə bir gündə ermənilər 160 müsəlman qəbirinin altını üstünə çeviriblər. Amma onlar maraqlı bir üsula da əl atıblar. Qəbiristanlıq dağıdılmamışdan qabaq onu lentə alan ermənilərin «Armenfilm» studiyası həmin lenti dünyanın bütün diplomatik korpuslarına göndərib. Guya hər şey olduğu kimi qalıb (?). «Xan» adlı həmin qəbiristanlıqda, artıq, ilk ermənilər dəfn olunub. Məlumata görə, bu qəbiristanlıqda guya xaricdə ölən və Şuşada basdırılmasını vəsiyyət edən ermənilər dəfn olunur. Başqa bir məlumatda isə bildirilir ki, bu qəbiristanlıqda xaricdə səfil həyat keçirən kimsəsiz və tənha ermənilərdən başqa heç kəs dəfn olunmur (?). (Bax: "Artsax " qəzeti. 2012, XII).

Xocalıda yüz yaşı, bəlkə də min yaşı olan qəbiristanlıq, artıq, yoxdur. Öz dədə-babalarının qəbirlərini yanan və dağılan görən xocalılar bu üsulla *ermənilərin yeni bir terror hücumuna – mənəvi, psixoloji terror hücumuna məruz qaldı.* «Heydər Əliyev Fondu»nun vitse-prezidenti, Rusiya Nümayəndəliyinin rəhbəri, İslam Konfransı Təşkilatının Gənclər Forumunun Baş əlaqələndiricisi, Rusiyalı Azərbaycanlı Gənclər Təşkilatının lideri Leyla Əliyevanın «Xocalıya Ədalət!» siyasi hərəkatının əsas məqsədlərindən biri də terrorun bu növünü ifşa etmək olub. Belə bir hərəkat isə yeni yüzillikdə beynəlxalq terrora qarşı mübarizənin yeni bir strateji başlanğıcı idi. Şəhərdən şəhərə, ölkədən-ölkəyə, qitədən-qitəyə keçən «Xocalıya Ədalət!» terrora qarşı yeni strateji bir modelin əsl mahiyyəti, artıq, Böyük Britaniyanın, ABŞ-ın, Fransanın, Rusiya Federasiyasının, Şərqi Avropa dövlətlərinin, bir sıra islam ölkələrinin insan resurslarını, onun mənəvi-psixoloji durumlarını araşdıran institutlarında, elmi-tədqiqat mərkəzlərində, xüsusi xidmət orqanlarında öyrənilməkdə idi. «Xocalıya Ədalət!» deyib, bəşəriyyəti ayağa qaldıran, insanları düşünüb-daşındıran, beynəlxalq terroru ən yeni modellə hədəf seçməkdə şans qazanmış bu xanımla bağlı sorğu keçirən ölkələr də olurdu. Kimdir bu xanım?

*Bu gənc xanım 1985-ci ildə dünya şöhrətli siyasətci, nüfuzlu dövlət xadimi, müasir müstəqil Azərbaycanımızın memarı, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Liderimiz Heydər Əliyevin, Respublikamızın indiki Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ailəsində anadan olub. O, bütün fəaliyyət istiqamətlərində ön sıralardadır. Leyla Əliyeva ölkəsində keçirilən bir sıra xeyriyyəçilik layihələrini dəstəkləyir. O, həmçinin, "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı olmaqla, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində erməni silahlı qüvvələri, terror dəstələri tərəfindən dinc əhaliyə qarşı törədilmiş soyqırımına dair həqiqətləri dünya ictimaiyyətinə çatdırmağı qarşısına məqsəd qoyub.*

*Özünün də qeyd etdiyi kimi, «bizim kampaniyanın məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqınların və məcburi köçkünlərin düşdüyü ağır vəziyyət haqqında bütün həqiqəti dünya birliyinə çatdırmaqdır. Torpaqlarımız hələ də işğal altındadır, erməni cəlladları öz tamahkar məqsədlərinə çatmaq üçün günahsız insanları amansızcasına qətlə yetirmişlər. Xocalı faciəsinin beynəlxalq birlik tərəfindən insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanınmasına nail olmaq hər bir azərbaycanlının vəzifəsi, o cümlədən mənim də vəzifəmdir. Bu cinayət bir daha təkrarlanmamalıdır».*

*Heydər Əliyev Fodnu Leyla xanımın təşkilatçılığı ilə ardıcıl olaraq bir neçə ildir ki, dünyanın 70-dən çox ölkəsində Xocalı faciəsinə həsr edilmiş tədbirlər keçirir. Fond konfranslar, xatirə gecələri təşkil edir, kitablar, bukletlər dərc edir, DVD çarxlar buraxır, filmlər çəkir. 2008-ci ildən başlanan «Xocalıya Ədalət!» beynəlxalq kampaniyası çərçivəsində bütün dünyada yüzlərlə aksiya keçirilib. Avropa İttifaqının üzvü olan dövlətlərin demək olar ki, hamısında, MDB, Asiya, Cənubi və Şimali Amerika ölkələrində konfranslar, seminarlar, piketler keçirilib. Bu kampaniya sayəsində bir sıra beynəlxalq forumlar Xocalı faciəsini artıq tanımışlar. Fondun və İKT Gənclər Forumunun təşəbbüsü ilə 31-dən çox ölkənin deputatları Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanımış və belə ölkələrin sayı artmaqdadır. Dünyanın 20-dən artıq ölkəsində aparıcı universitetlər arasında gənclərin fleşmobları keçirilir. Bununla dövlət və hökumət başçılarına, ATƏT-in Minsk qrupuna, AŞPA-ya, BMT Baş Katibliyinə, Dünya Parlamentlərinə və Beynəlxalq Təşkilatlara ünvanlanmış, bu faciəni soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbi irəli sürülən petisiya və müraciətlər yaymışlar. Petisiyanın mətni onların saytında yerləşdirilmiş və artıq minlərlə insan həmin mətni imzalamışdır.*

*«Xocalıya Ədalət!» kampaniyasının məqsədi təkcə Xocalı faciəsinin deyil, başqa etnik təmizləmələrin də qurbanları üçün ədalətə nail olmaqdır. Məhz elə buna görə də «Xocalıya Ədalət!» kampaniyasını dəstəkləyən milyonlarla insan bu faciəyə beynəlxalq birlik tərəfindən hansı hüquqi, mənəvi və insani qiymət verilməsinə əsla biganə qala bilməz.*

*Leyla Əliyeva bir çox zəngin layihələrə, o cümlədən incəsənət, təhsil, səhiyyə, mədəniyyət, ekologiya və s. öz imzasını atmış, müasir gəncliyimizə əsl vətəndaşlıq nümunəsi göstərə bilmiş, təşkilatçılıq bacarığı, cəsarəti, vətənpərvərliyi ilə fərqlənmişdir. Hər zaman gülərüz və pozitiv olan Leyla Əliyeva fərqli layihələrin öhdəsindən ləyaqətlə gəlir. L.Əliyevanın «Xocalıya Ədalət!" çağırışı Heydər Əliyev fondunun təşkil edib keçirdiyi müxtəlif formatlı beynəlxalq elmi-nəzəri konfransları, mədəni-kütləvi tədbirləri, siyasi aksiyaları ilə dünya ictimaiyyətini Beynəlxalq terrorun bir qolu olan erməni terroruna qarşı mübarizəyə səsləyən ən dəyərli bir strateji model olaraq insan haqlarının qorunması, müdafiə edilməsi baxımından mahiyyətinə, əhəmiyyətinə görə dövrümüzün diqqətəlayiq siyasi təbliğat-təşviqat kampaniyasıdır. Xalqların, kütlənin müəyyən təbəqələrinə yaşından, cinsindən, dilindən, dinindən asılı olmayaraq terrorun insanlara qarşı törətdiyi faciələrdən söhbət açır, sənədlər, fotoşəkillər, videoçarxlar və filmlər nümayiş etdirilir, kitablar, bukletlər, dövrü mətbuat materialları yayılır. Bu*

*xoş sözləri Leyla xanımın ünvanına onun şəxsi insani keyfiyyətlərinə, mənəvi-əxlaqi dəyərlərinə, yüksək savadına və təşkilatçılıq bacarığına, beynəlxalq siyasi arenadakı əvəzedilməz fəaliyyətinə görə deməyə, əzizləməyə mənəvi haqqımız çatır. H.Əliyev məktəbinin yetirməsi Leyla xanım Əliyeva özünün gündəlik ictimai, siyasi fəaliyyəti ilə müstəqil Azərbaycanın çırpınan ürəyi kimi dünyanın ən mötəbər tribunalarından beynəlxalq terrora- "Yox!" deyərək, dinindən, dilindən asılı olmayaraq planetin bütün xalqlarını, dövlətlərini terrorla mübarizəyə çağırır, humanizm prinsiplərini təbliğ edir, haqqın, ədalətin yer üzündə bərqərar olması üçün hamını birliyə səsləyir. Bəli, Azərbaycan gəncliyinin vətənpərvər nümunəsi kimi ölkəmizin hər bir vətəndaşının Leyla xanımla fəxr etməyə haqqı var! Bu gənc Azərbaycan xanımının gərgin ictimai, siyasi fəaliyyəti artıq öz bəhrəsini verməkdədir.*

*Yeri gəlmişkən, qeyd etməliyik ki, 18 il ardıcıl olaraq Ağ Ev üçün ABŞ Dövlət Departamentinin hazırladığı "Beynəlxalq Terror Təşkilatlarının Siyahısı"na "ASALA" Erməni Silahlı Terror Birləşməsinin adını salmırdı. Niyə? Nə üçün? Məgər dünya birliyi «ASALA» Erməni Terror Təşkilatının mövcudluğundan, törətdiyi terror aktlarından, cinayətlərdən, erməni vandalizmindən xəbərsiz idimi? Xeyr! Hamı hər şeydən xəbərdar idi. Lakin... ABŞ-dakı erməni lobbisi və digər erməni ictimai təşkilatları, xüsusilə Erməni Milli Azadlıq Cəbhəsinin üzvləri erməni iş adamlarının yaratdıqları maliyyə mənbələrindən istifadə edərək «ASALA»nın bu rəsmi siyahıya salınmasına maneçilik törədirdilər. Necə? Diqqətinizi çox mühüm bir fakta cəlb etmək istərdik. Terror təşkilatlarının siyahısının ABŞ-ın Dövlət Departamentində Mərkəzi Kəşfiyyat İdarəsinin polkovniki, milliyyətcə erməni olan Martin Abramyan adlı şəxs hazırlayırdı. Əldə etdiyimiz məlumata görə, 2013-cü ilin oktyabr ayının 25-də Martin Abramyan öz vəzifəsindən uzaqlaşdırılıb və nəticədə «ASALA» Erməni Terror Təşkilatının adı ABŞ Dövlət Departamentinin hazırladığı «Beynəlxalq Terror Təşkilatlarının Siyahısı»na salınıb. Güman edirk ki, ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi «ASALA»nın ifşası üçün bütün arxiv materiallarını da dünya ictimaiyyətinə açacaqdır.*

*Artıq Ermənistanın rəsmi dairələri «Xocalıya Ədalət!» çağırışının intensiv və cəsarətli fəaliyyətindən narahatçılıq keçirir, bu kampaniyanın zərərləşdirilməsi üzərində düşünürlər. Bu heç də təsadüfü deyil. 2008-ci ildən uğurulu və qətiyyətli start götürmüş «Xocalıya Ədalət!» çığırışı Ermənistan hökumətini ciddi sürətdə səksəkəyə saldığı üçün elə 2009-cu ilin mayın 26-da «15 nömrəli direktiv» Ermənistan Təhlükəsizlik Şurasıın müzakirəsinə çıxarılır. Həmin məxfi sənədin birinci bəndində «Xocalıya*

*Ədalət!» kampaniyasına, bu starteji layihəyə qarşı çıxmaq məsələsi müzakirə edilir.*

Heydər Əliyev Fondunun əsas amalından yazan "BeauxArts" jurnalı qeyd edib ki, 2004-cü ildə Azərbaycanın mədəni dəyərlərini qoruyub, onları dünyada tanıtmaq məqsədilə yaradılan Heydər Əliyev Fondu ölkəııin ən böyük qeyri-hökumət və qeyri-kommersiya təşkilatıdır. Fondun fəaliyyətinin əsasında humanitar proqramlar, habelə təhsil, səhiyyə və elm sahələrinin inkişaf etdirilməsinə yönəldilmiş layihələr durur: "Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəsində müasir incəsənət sahəsinin əsas simalarındandır. O, nüfuzlu akademik təhsilə yiyələnmişdir. Leyla Əliyeva, Londonun Queen's Kollecində, həmçinin Parisin ən böyük kolleclərindən olan Avropa Biznes Məktəbində təhsil alıb. Leyla Əliyeva 2008-ci ildə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda magistr dərəcəsinə yiyələnib. Lakin bununla belə onun müasir incəsənətə olan sevgisi azalmayıb. Leyla Əliyeva uşaqlıq çağlarından yaradıcı mühitdə böyümuşdür. O, dünyada tanınan qədim və zəngin Azərbaycan ənənələrini qiymətləndirmək ruhunda tərbiyə alıb. Bu mədəniyyət nümunələri olan qədim saxsı qablar, xalçalar, zinət əşyaları Parisin Luvr, Nyu-Yorkun Metropoliten, Sankt- Peterburqun Ermitaj, Londonun Viktoriya və Albert muzeylərində saxlanılır.

Son illər Azərbaycanın müasir incəsənət aləmi diqqət mərkəzindədir. 2009-cu ildə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan Müasir İncəsənət Muzeyi Azərbaycan avanqardını özündə təcəssüm etdirir. "Bakıya uçuş" ("Fly to Baku") layihəsi isə 20-dən artıq rəssamın 100-ə yaxın əsərini öz ətrafında toplayıb və bu müasir incəsənət sərgisi Leyla Əliyeva tərəfindən dəstəklənmişdir. Sərginin əsərləri Parisdən Vyanayadək, Moskvadan Romayadək və Berlindən Londonadək təqdim edilib.

Bu gənc kosmopolit xanım "Baku" jurnalında bir sıra rəsm əsərlərini nəşr etdirir və monumental işlərin layihələndirməsinə imza atır. O, "Brain" - ürək şəklində olan və Niki de Sen Fallin əzəmətli əsərini xatırladan heykəlin müəllifıdir.

2013-cü ilin iyul ayında Kann şəhərindəki Kruazett bulvarında bu coşqun ölkəni tərənnüm edən coxsaylı sərgilər nümayiş olunub. Qərb və Şərq sivilizasiyaları arasında yerləşən bu respublika 1991-ci ildə SSRİ-nin tərkibindən çıxmış və öz müstəqilliyini bərpa etmişdir. Tanınmış incəsənət

xadimləri möhtəşəm həftə ərzində öz əsərlərini nümayiş etdirir, bu da öz növbəsində zəngin incəsənət aləminə qərq olmaq imkanı yaradır.

* * *

Biz isə araşdırmalarımızı davam etdiririk. 2009-cu il fevralın 17-də Yerevanda səhiyyə işçilərinin müşavirəsində mikrobiologiya sahəsində ciddi araşdırmalar aparan professor Akop Arakelyan son aylar erməni nəsilləri arasında biokimyəvi və genetik xüsusiyyətlərin pozulmasının çoxalması məsələlərini açıqladı. Professorun fikrincə, erməni ailələrinin təqribən 54,3 faizində «irsi dəyişkənliyin qanunları» pozulub. Məlumata görə, 1992-1997-ci illər arasında özünün mikrobioloji elmi araşdırmalarını əsasən azərbaycanlı əsirlər üzərində quran (onun Gorus və Vardenis Xocalı yaşayış məntəqələrində qapalı laboratoriyaları var) professor A.Arakelyan çıxış yolunu Ermənistan ərazisini sağalmaz xəstəliklərə tutulmuş insanlardan təmizləməkdə, ərazilərin bioloji və ekoloji depressiyalara məruz qalan hissələrini bərpa etməkdə, şikəst və əlil olan, əmək qabiliyyəti anadangəlmə olmayan şəxslər üçün ayrıca düşərgələrin yaradılmasında görür. O, məsələ ilə bağlı təkliflərini 2009-cu il fevral ayının 25-də ölkənin Təhlükəsizlik Şurasına təqdim edir və yazır: «***…Cənab general! Mənim bu təkliflərim gələcək erməni nəsillərinin fiziki cəhətdən sağlam, mənəvi cəhətdən zəngin, psixoloji cəhətdən möhkəm… əqli və zehni cəhətdən güclü olmasına yönəlib. Proqramımı Ermənistan Milli Təhlükəsizlik Konsepsiyasının tərkib hissəsi kimi qəbul edin…***» (Ermənistan. MEA-nın «Xüsusi bülleten»i. Yerevan. 2 mart 2009-cu il, səh. 12).

Professor A.Arakelyan 2009-cu il martın 3-də Ermənistan MN-nə çağırılır və ondan xahiş olunur ki, irəli sürdüyü təkliflərlə bağlı xüsusi proqram hazırlasın (Bax: Ermənistan MN-nin strateji proqramında səsləndirilib. "Xüsusi bülleten".2009, VII-21). Professorla görüşən hərbi ekspert, kəşfiyyat polkovniki Arkadi Miqranyan bunu da xatırladır ki, proqram Ermənistanla məhdudlaşdırılmasın, Dağlıq Qarabağ ərazisi də nəzərə alınsın. Yerevanda Baş Qərargahın maliyyə yardımı ilə çap olunan «Hərbi bülleten»in (1991-ci ildən rus və erməni dillərində min nüsxə ilə nəşr edilir) 2009-cu ilin 10-cu nömrəsində belə bir elan verilir ki, MEA-nın professoru A.Arakelyan ölkənin Təhlükəsizlik Şurasına bilavasitə dağıdılmış Xocalı yaşayış məntəqəsilə bağlı 14 səhifəlik «Xüsusi proqramı»nı təqdim edib və bu proqramın işlənməsində, həyata keçirilməsində Ermənistan SQ-nin, xüsusi xidmət orqanlarının yardımı olmalıdır.

Müzakirəyə çıxarılmış **«Xüsusi proqram»ın mahiyyəti** aşağıdakı kimi açıqlanırdı:

–**Birinci variant:** Ağır və sağalmaz xəstəliklərə tutulmuş şəxslərin əhalinin sıx yaşayan yerlərindən çıxarılmasını təmin etmək. Vərəm dispanserlərinin, onkoloji xəstəxanaların, depressiyalara, sarsıntı və stresslərə məruz qalmış, nəticədə ağıl və əmək qabiliyyətini itirmişlər üçün nəzərdə tutulan sağlamlıq düşərgələrinin yaşayış mərkəzlərindən təqribən 200-250 km aralıdakı zonalarda yerləşdirilməsi.

–**İkinci variant:** Dağlıq Qarabağ ərazisində, xüsusən Xocalı yaşayış massivində vərəm dispanserlərinin, onkoloji şöbələrin, digər profilaktik mərkəzlərin, laboratoriyaların tikintisini sürətləndirmək. Həkim briqadalarının həmin ərazilərə göndərilməsini təmin etmək… Xüsusi sağlamlıq zonalarını yaratmaq. 2009-2015-ci illəri əhatə edən xüsusi proqram hazırlamaq.

Professor A.Arakelyanın «Xüsusi proqramı»na martın 14-də Müdafiə Nazirliyində əlavələr edildi. Proqram hərbi həkimlərin məsləhət və təcrübələrinin, ekspert rəylərinin nəticələri fonunda yenidən işləndi və martın 21-də aşağıdakı hərbçilərdən ibarət «işgüzar komissiya» yaradıldı;

–**Araz Arustamyan (polkovnik-bioloq);**

–**Henri Baqdasaryan (mayor, hərbi xəstəxananın həkimi);**

–**Yangibar Qalustyan (MN-nin əməkdaşı, ekspert);**

–**Armaik Sattaryan (Toksikoloji İnstitutun əməkdaşı, professor);**

–**Akop Arakelyan (MEA-nın əməkdaşı, mikrobioloq, istefada olan kəşfiyyat polkovniki).**

**Bioloq Araz Daraqunoviç Arustamyan** 1957-ci ildə Xankəndində anadan olub. Azərbaycan dilini yaxşı bildiyindən 1983-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib. İki il Bakıdakı hərbi hospitalda çalışıb. Sonra həmişəlik Yerevana köçüb. 1990-cı ildən Xocalı xəstəxanasında çalışıb. İrsi dəyişkənliklə bağlı elmi araşdırmaları var.

**Henri Ayvazoviç Baqdasaryan** 1950-ci ildə Dəməşqdə anadan olub. Dağlıq Qarabağın işğalında könüllü erməni dəstəsində vuruşmaq üçün Yerevana gəlib. 1994-cü ildə nəşr olunan «Sisiyan qəhrəmanları» qəzetində (1993-cü il mayın 14-dən nəşrə başlayıb, 1995-ci ilin avqustun 9-da isə çapı dayandırılıb. Cəmi 26 nömrəsi çıxıb) onu şəxsən tanıyan, Aqudi kənd məktəbinin direktoru Zorik Alaverdiyan yazır: «…Eşidəndə ki, torpaqlarımızın (?) azadlığı uğrunda vuruşan qəhrəmanlardan biri Henri Ayvazoviçdir, sevindim. Onu şəxsən tanıyıram. Mən 1980-ci ildə Suriyada olanda Henri Ayvazoviçin

Xocalı, Şuşa ilə bağlı vətənpərvər işinin bir daha şahidi oldum…» («Sisiyan qəhrəmanları». 1994, №19, səh. 3).

1992-ci ildə Dağlıq Qarabağda vuruşan Şahab Əl-Qasimi 1996-cı ildə Suriyada çap olunmuş «Vətənə yol…» siyasi oçerklər kitabında yazır: «…Dağlıq Qarabağda vuruşanların arasında tanışlarım çox idi. Henri Ayvazoviç onlardan biri kimi diqqətimi cəlb etdi. Bu adam Dəməşqdə Erməni Milli Azadlıq Hərəkatının üzvlərindən biri olub… Bu təşkilatın üzvləri Xocalının işğalından azad olmasında canlarını qoyub. Onlar əsl vətən övladı, qəhrəman kimi döyüşüblər. «ASALA»-nın fəxri qovluğunda onun adı var…» (Dəməşq. «Əl-Vəhda» nəşriyyatı. 1996-cı il, səh. 34).

**Ekspert Yangibar Erokuloviç Qalustyan** 1980-85-ci illərdə Gəncə vertolyot təmiri zavodunda mühəndis işləyib.

Araşdırmalarımıza görə, «Xüsusi proqram»da adı çəkilən terrora və basqınlara məruz qalmış yaşayış məntəqələri, xüsusən də Xocalı, professor Akop Arakelyana görə, ciddi demoqrafik problemlərlə üzləşib. Onun Təhlükəsizlik Şurasına ünvanladığı hesabatda Xankəndi, Şuşa, Xocalı intiharı çox olan şəhər kimi fakt və rəqəmlərlə göstərilir (30 mart 2009-cu il). Məsələn, işğal altında qalan Dağlıq Qarabağ ərazisində analoqu olmayan vərəm virusları aşkar edilib. Kəlbəcər, Laçın, Xocalıda ayrıca vərəm sindromu yaranıb. Bu sindromların müalicəsi üçün hələlik heç bir preparat-vaksin aşkar edilməyib. Nəticədə 2001-ci il fevralın 25-dən etibarən Ermənistan Səhiyyə Nazirliyinin kollegiyasının qərarı ilə bu şəhərlərdə vərəm dispanserləri, təcrübə laboratoriyaları bağlanılır. Kamodakı vərəm dispanserinin Vardenis rayon ərazisinə köçürülməsi yerli əhalinin etirazına səbəb olur. Odur ki, dispanser bir neçə gündən sonra, 2008-ci il martın 2-də Vardenisdən işğal olunmuş Kəlbəcər ərazisindəki Zar yaşayış məntəqəsinə köçürülür.

(«MDB ölkələrinin paytaxt səhiyyəsi». Moskva. 2010-cu il, səh. 63-65).

Maraqlı burasıdır ki, ermənilər özlərinin terrorçularının qurbanına çevriliblər. Belə ki, erməni alimləri iddia edirlər ki, millətin belə əzab çəkməsinə, doğulan erməni millətinin mənəvi və fiziki şikəstliyinə səbəb ərazidə baş verən terror hadisələridir. Xocalıdakı kimyəvi silahlardan istifadə edərək etnik təmizləmələridir.

«İşgüzar komissiya»nın tərkibinə salınmış toksikoloq Armaik Sattaryanın fikrincə, «…Bu rəqəmlərin açılıb göstərilməsi, eləcə də xəstəxana və dispanserlərin şəhər mərkəzində olması cavan nəslə psixoloji təsir edir… Təcili olaraq, Dağlıq Qarabağdakı ərazilərimizdən səmərəli istifadə etmək lazımdır…» («Erməni icması» qəzeti. Xankəndi, 2011, №16. «Paytaxt səhiyyəsi» yazısı. Kitabın şərhi). Martın 29-da Ermənistan Səhiyyə Nazirliyi

ilə Müdafiə Nazirliyi arasında proqramın reallaşdırılması üçün qarşılıqlı yardımetmə sənədi imzalanır. Səhiyyə Nazirliyinin 2009-cu il 2 aprel tarixli sifarişi ilə respublika Kartoqrafiya İnstitutunda Dağlıq Qarabağ əraziləri ilə bağlı «xüsusi səhiyyə xəritələri» çəkilir. Bu xəritələrdə salınacaq vərəm dispanserləri, qarayara və onkoloji xəstəxanalar, dəlixanalar, şikəstlər üçün sağlamlıq zonaları işarələnir.

Ermənistan Kartoqrafiya İnstitutunun buraxdığı 1000 nüsxədən ibarət xəritələr Artsax televiziya kanalında nümayiş etdirildikdən sonra aprelin 1-də həkim-psixoloq Ağacan Aravisyan qeyd edir: «***…Dağlıq Qarabağ ərazisində sağlamlıq mərkəzlərinin tikintisi üçün xarici ölkələrdə yaşayan qardaş və bacılarımızın yardımına ehtiyacımız var. Biz bu çağırışı etmişik. İnsanları xeyirxahlığa və xeyriyyəçiliyə öyrətmək lazımdır. Yaddan çıxarmayaq ki, nə ediriksə, erməni xalqının, gələcək nəslin firavanlığı və inkişafı naminə edirik…***» (Bax: “Artsax “ TV.Xankəndi 2009. “Qartal uçuşu” verilişində A.Qriqoryanın yazısı səsləndirilib).

Məntiqə görə, həkim A.Aravisyanın düşüncəsi yanlış idi. Törədilən cinayətlərin, Xocalıda yandırılan insanların faciəsindən doğan bumeranq qayıdıb ermənilərin özlərinə dəyirdi.

Ölüm ayağında olan xəstələrin, eybəcər doğulanların, sağalmaz xəstəliklərdən əziyyət çəkənlərin Ermənistan ərazisindən işğal altında qalan Azərbaycan torpaqlarına köçürülməsinə 2009-cu il aprelin 2-dən planlı şəkildə başlandı.

Ermənistan Səhiyyə Nazirliyində 2009-cu il martın 27-də hazırlanmış «Regionda keçici və yoluxucu xəstəliklərə qarşı mübarizə aylığı» proqramı aprelin 2-dən reallaşdı. Ermənistan Təhlükəsizlik Şurasının çıxardığı nəticəyə görə, bu proses ilkin mərhələdə kütləvi xarakter almamalı, tədricən yoluna qoyulmalıdır. Çünki bu məsələ əhali arasında həm birmənalı qarşılanmadı, həm də çaşqınlıq və narahatçılığa səbəb oldu. Hökumətin bu istiqamətdəki təbliğat proqramı zəif olduğundan hələ çox işlər görülməli idi. Fakt isə bu idi ki, işğal olunmuş torpaqlarımız ermənilər tərəfindən yenidən işğal olunurdu…

Bəziləri elə güman edir ki, Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı təkcə erməni terror birləşmələrinin Xocalı ərazisindəki törətdikləri cinayətlərlə bağlıdır. Xeyr! Belə düşünmək sadəlövhlükdür. Bu çağırış nə qədər ki, keçmiş İttifaq məkanlarında səslənir, bu çağırış haraydır. Sərhədləri aşanda isə bu çağırış artıq üsyana çevrilir. Müasir mərhələdə beynəlxalq terrora qarşı «üsyan modeli» kimi qəbul etsək, daha ciddi təsiri olar. Fikrimizcə Leyla xanım Əliyevanın terrorizmə qarşı mübarizə modeli

xalqa məxsus sərvətləri dağıdıb məhv edənlərə qarşı üsyandır. Bu milli-mənəvi dəyərlərimizi, tarixi abidələrimizi, yurd yerlərimizi, tariximizi, ədəbiyyatımızı, incəsənətimizi… dağıdanlara qarşı üsyan olaraq qalır.

Məsələn, Zəngilan ərazisindəki 107 hektar qoruq (1974-cü ilin iyulun 4-də yaradılıb), demək olar ki, sıradan çıxıb. Çinar meşəliyi hissə-hissə kəsilərək İranın tikinti-sənaye komplekslərinə, mebel fabriklərinə satılıb. Məsələn, ölkənin hərbi-sənaye komplekslərində istifadəsi nəzərdə tutulan 42 hektar sahənin ağacı (söhbət çinardan gedir) xüsusi qurğulardan, kimyəvi-yuyucu məhlullardan keçirilərək toz halına salınıb. Bundan da ağır silahların, ümumən hərbi sursatların qablaşdırılmasında istifadə olunub. Araşdırmalarımızdan bu da məlum olub ki, Zəngilan qoruğunun çinarlarının yaratdığı iqlim vərəm viruslarını 19 saniyə ərzində məhv edir (bəlkə də bunun nəticəsidir ki, 1980-ci ildən 1990-cı ilədək – 10 il müddətində bu regionda vərəmə tutulanların sayı cəmi 34 nəfər olub. Məhz buna görə 1995-ci il martın 12-dən 1997-ci ilin iyulunadək Bəsitçay sahilində xarici ölkələrdən gələn 136 nəfər vərəmdən müalicə olunub.

Xocalı ərazisində isə torpaq zəhərləndiyindən, yaşayış zolaqları zəhərə tutulduğundan… oralarda təqribən 25 il (professor A.Alekseyev) heç nə əkmək mümkün deyil(Bax: RF.MEA-sı "Fəlsəfə, tarix, hüquq" jurnalı.1998, №3).

2012-ci il aprelin 4-də isə Ermənistan MN-də sərhəd yaşayış məntəqələri kimi qeyd olunan Gorus, Qafan və Xocalı haqqında strateji «Layihə-02» adlı operativ tədbirlər planı müzakirə edildi. Qeyd olundu ki, ilkin mərhələdə bu işə Müdafiə Nazirliyi öz hesabından 47 min ABŞ dolları sərf edib. Aprelin 5-dən etibarən Gorus, 6-dan isə Qafan çevik hərbçi qrupları Yerevandan və Sevan istiqamətindən gətirilən vərəmin ağır formasına tutulmuş 26 xəstəni qəbul edir…

Gorus şəhər xəstəxanasının həkimi Bablumyan bunları humanist addım kimi qiymətləndirir və «Yerevanın səsi» radiosunun xarici ölkələr üçün xəbərlər bülletenində belə bir açıqlama verir: «…Burada elə bir siyasət axtarmağın özü gülüncdür. Bu, Ermənistan hökuməti tərəfindən atılan ciddi humanist və müdrik addımdır. Xəstələrin səfalı zonalara köçürülməsində elə bir ciddi məqsəd yoxdur. Onların bu zonalarda daha ciddi müayinə olunub sağalma ehtimalı isə çoxdur…» (2 aprel 2012-ci il. «Yerevanın səsi» radiosu. Fars bürosu.)

Ermənistan Müdafiə Nazirliyində aparılan «bölgü» aşağıdakı kimi tərtib olunur:

–Ermənistan ərazisində ağır vərəmə yoluxmuş xəstələrin Yerevanın mərkəzi şəhər xəstəxanalarından Zəngilana və rayonun Razdərə, Ördəkli

kəndlərinə köçürülməsi;

– Mincivan ərazisində qəbiristanlığın salınması.

Əldə etdiyimiz fakt və məlumatlardan bu da aydın olur ki, ermənilər işğal etdikləri rayonların adlarını bölgü sənədlərində olduğu kimi saxlayırlar.

İlkin məlumata görə, vərəmin ağır sindromundan son günlərini yaşayan 87 xəstə 2012-ci il aprelin 2-dən 5-dək Yerevandan xüsusi hərbi vertolyotla Gorus və Qafan rayonlarına köçürülür. Oradan isə xəstələr Cəbrayıl, Füzuli rayon ərazilərinə paylanılır:

– Cəbrayıl yaşayış məntəqəsinə – Harovlu kəndi ərazisində qəbiristanlıq sahəsi ayrılır. Onkoloji xəstələr üçün Hacılı və Minbaşılı kəndlərində əvvəlcədən nəzərdə tutulmuş evlər təşkil olunur;

– Füzuli yaşayış məntəqəsinə – Üçbulaq və Cuvarlı kəndlərində əsgərlərin kiçik yaşayış evləri təcili təmir olunur. Rayon mərkəzində isə qəbiristanlıq üçün sahə ayrılır.

Bu arada Ermənistan MN-nin kəşfiyyat xidmətindən tərxis olunmuş polkovnik Arman Qalayan «Vestnik Armenii» bülleteninə maraqlı bir açıqlama verir. O, bülletenin icmalçısı Qalina Avakyanla söhbətində göstərir ki, bu köçürmə siyasəti yeni məsələ deyil. Bu məsələ 1994-cü ildə də ortaya atılmışdı. Lakin Yerevanda böyük etiraza səbəb oldu. Digər tərəfdən, faktların bir qismi beynəlxalq təşkilatlarda, demokratik institutlarda başqa cür hallandı. Kəşfiyyat polkovniki daha sonra qeyd edir: «…Bu gün isə mənzərə başqadır. Hər şey qanun çərçivəsində görülür. Zorla heç bir xəstə bir yerdən başqa yerə köçürülmür. Digər tərəfdən, Ermənistanda son dərəcə yoxsul yaşayan əhalinin sayı çoxdur. Ölüm ayağında olan və sağalması mümkün olmayan xəstələr… ehtiyac içərisində yaşayan ailələrə yük olaraq qalır. Artıq xəstə sahibləri dərk edirlər ki, onların, məsələn, xərçəngə mübtəla olmuş yaxını ölümlə üzbəüz dayanıb, sağalma ehtimalı yoxdur… Bütün bunları insanlar dərk edirlər. O biri tərəfdən də, Dağlıq Qarabağ ərazisindəki müalicə yerlərinə göndərilən xəstələrə əvvəlki kimi həkim nəzarəti qalır…» (Stavropol. «Vestnik Armenii» bülleteni. Aprel, 2012-ci il, №12, səh. 6. Moskvada erməni icmasının nəşr etdirdiyi eyni adlı bülletenlə qarışdırmamalı).

…Bunlar etirafdır. Bunlar Ermənistanın dövlət və hökumət səviyyəsində Azərbaycana qarşı mənəvi-psixoloji terrorudur. Qarabağda salınmış erməni ölüm düşərgələri Azərbaycanın gələcəyinə uzanmış qatil və cəllad əlləridir…

# XOCALI: SİYASƏT VƏ CİNAYƏT

Xocalı faciəsi törədilmiş beynəlxalq cinayətdir. Ermənistanın Azərbaycan xalqına qarşı, işğal edilmiş Dağlıq Qarabağ ərazisində yaşayan müsəlman ailələrinə qarşı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsi olaraq qalır. Bu istiqamətdə Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun Ekspert Komissiyasında ciddi araşdırmalar da aparılıb. Adını qeyd etdiyimiz institutun direktoru, Dr. Aytən xanım Mustafayevanın başçılığı ilə Ekspert Komissiyasının hazırladığı Qətnamənin mətni isə ciddi hüquqi-siyasi sənəd kimi diqqəti cəlb edib (bundan öncə, 2003-cü ildə bu məsələni professor, mərhum R.Mustafayev qaldırmışdır). Tarixi baxımdan həmişə canlı və yeni olan bu siyasi-hüquqi sənədi yenidən vərəqləmək, məsələlərin beynəlxalq hüquq normaları çərçivəsindən təhlilinə nəzər salmaq maraqlıdır. Çünki bu tarixi sənəd həm hüquqi, həm də siyasi baxımdan XXI əsrin və eləcə də üzümüzə gələn yeni yüzilliklərin ən qüdrətli və yadda qalan elmi siyasi sənəddir. Qətnamədə deyilir:

**– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dövründə Azərbaycan xalqına qarşı həyata keçirilmiş ən dəhşətli cinayətlərdən biri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində ermənilərin törətdiyi tarixdə insanlığa qarşı görünməmiş vəhşilikdir. Bir gecənin içində yüzlərlə günahsız insan xüsusi qəddarlıqla məhv edilib. Xocalı şəhərinin işğalının faciəli nəticələri bunlardır: 613 nəfər, o cümlədən 106 qadın və 63 uşaq qətlə yetirilib, 487 nəfər şikəst olub, 1275 adam əsir götürülüb, 150 nəfər itkin düşüb, şəhərin özü isə yerlə-yeksan edilib. Bu faciənin nəticəsində onlarca uşaq, qadın və qoca güllələnib. Ermənistanın Silahlı Qüvvələri və muzdlular bütöv ailələri məhv edib, insanları amansızcasına qətlə yetirmişlər: adamların dərisi soyulub, qulaqları kəsilib və başlarının dərisi soyulub çıxarılmışdır.**

**I. Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsi.**

Soyqırımın hüquqi məzmunu BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur və hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlərdən ibarətdir:

– bu cür qrup üzvlərinin öldürülməsi;
– belə qrup üzvlərinə ağır bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi;

- hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;
- uşaqların zorla bir insan qrupundan alınıb başqasına verilməsi.

Soyqırımı cinayəti üçün xüsusi niyyətin olması zəruri ünsür sayılır. Bu, soyqırımı cinayətini obyektiv cəhətinə görə oxşar beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırımı cinayətini təşkil edən əməllərdən hər biri öz xarakterinə görə şüurlu, biləməkdən və iradə ilə diktə olunan əməllərdir. Həmin əməllər heç bir halda təsadüfən və ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, həmin əməlləri törətmək niyyəti və onların mümkün nəticələrinin ümumən dərk edilməsi əməlin soyqırımı kimi tanınmısı üçün kifayət deyildir. Burada cinayətkarın fikrinin xüsusi istiqamətini və ya əməlin neqativ nəticələri ilə bağlı əvvəlcədən mövcud olan konkret niyyəti ortaya çıxarmaq tələb olunur.

Qabaqcadan xüsusi olaraq qurulmuş pusqulardan qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin avtomat, pulemyot və başqa silahlardan güllələbaran edilməsi məhz soyqırımı niyyətini sübut edir.

Həmin cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi də danılmaz faktdır.

Soyqırımı cinayətini təhlil edərkən onun üç əsas ünsürünün mövcud olması aydınlaşır:

- tanınan milli, etnik, irqi və ya dini qrupun olması;
- bu cür qrupu tamamilə və ya qismən məhv etmək niyyətinin olması (*mens rea*);
- tanınan qrupla bağlı soyqırımı hərəkətlərindən hər hansı birinin törədilməsi (*actus reus*).

***Deməli, soyqırımı aktı hökmən milli, etnik, irqi və ya dini qrupa qarşı yönəlməlidir.*** Başqa qrupa, məsələn, siyasi və ya sosial qrupa qarşı yönələn bu cür hərəkətlər soyqırımı kimi qiymətləndirilə bilməz.

«Soyqırımı» anlayışı qadağan olunmuş əməlin ümumi nəticələrinə dair konkret niyyətin olmasını tələb edir. Soyqırımı cinayətinin tövsifedici əlaməti kimi niyyət özündə bir neçə cəhəti birləşdirir:

– niyyət, təsadüfi, bu və ya digər konkret qrupa məxsus olan bir, yaxud bir neçə şəxsin deyil, qrupun məhv edilməsindən ibarət olmalıdır. Fərdin şəxsiyyəti yox, məhz müəyyən qrupa mənsubluğu soyqırımı qurbanlarını təyin etmək üçün həlledici meyardır;

– niyyət özü-özlüyündə, başqasından fərqlənən bir qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırımı bütöv insan qrupunun mövcudluğu hüququnu tanımaqdan imtinadır. Adamöldürmə (hemosid) isə ayrı-ayrı insan varlıqlarının yaşamaq hüququnu tanımaqdan imtina kimi səciyyələnir. Deməli, actus reus (qadağan olunmuş əməl) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğu əleyhinə yönəlməlidir;

– niyyət, qrupun «tamamilə və ya qismən» məhv edilməsindən ibarət olmalıdır;

– niyyət məhz milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırımı cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb kimi qoyulmur. Bunun üçün həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərdən hər hansı birinin müəyyən qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi kifayətdir.

Soyqırımı cinayətinin obyektiv cəhətinə aid olan məhvetmə anlayışı qrupun ən müxtəlif vasitələrlə cismən məhv olunmasını bildirir.

«Barselona Traction Case» işi üzrə qərarında BMT-nin Beynəlxalq Məhkəməsi soyqırımı aktlarının qadağan olunması ilə bağlı öhdəlikləri **erga omnes** öhdəliklər adlandırmışdır. Beynəlxalq Məhkəmə soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın əsasında duran prinsipləri beynəlxalq adət hüququnun bir hissəsi, bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanımışdır.

**II. Xocalı soyqırımının beynəlxalq cinayət kimi tanınması üçün əsas verən hüquqi sənədlər:**

1. BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiya;
2. Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (Nizamnamədə birbaşa soyqırımı cinayəti göstərilməsə də, həmin cinayəti təşkil edən əməllər insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri kimi nəzərdə tutulmuşdur);
3. Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi (mad. 4);
4. Ruanda Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi;
5. Beynəlxalq Cinayət Məhkəməsinin Statusu (mad. 6);
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (mad. 103);
7. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli Fərmanı.

**III. Xocalı soyqırımının beynəlxalq hüquqi nəticələri.**

Beynəlxalq hüquq soyqırımı cinayəti ilə əlaqədar aşağıdakıları müəyyənləşdirmişdir:

1. Soyqırımı cinayəti törətmiş şəxslərin cinayət mühakiməsi və cəzalandırılması labüddür;
2. Soyqırımı cinayətinin təkcə icraçıları deyil, soyqırımı törətməyə sui-qəsd, soyqırımına birbaşa və açıq təhrikçilik, soyqırımında iştirak etmək də cinayət məsuliyyəti doğurur;
3. Soyqırımı cinayəti törətmiş şəxslərə universal yurisdiksiya prinsipi tətbiq olunmalıdır;
4. Soyqırımı cinayətini törətməkdə əmrin icrasına istinad, şəxsi cinayət məsuliyyətindən azad etmir;
5. Soyqırımı cinayətinin törədilməsinin qarşısının alınması üçün tədbir görməməyə görə rəhbər şəxs məsuliyyət daşıyır;
6. Soyqırımı cinayətlərinə cinayət məsuliyyətinə cəlbetmə müddətləri tətbiq edilmir;
7. Soyqırımı cinayətinə görə qanunun retroaktiv tətbiqinə yol verilir;
8. Soyqırımı cinayətini törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilməsi üçün tələb edən dövlətə verilməlidir.

***Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırımı kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır.***

**Yuxarıda göstərilən sənəd üç dildə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət komitəsinin vasitəsilə aşağıdakı təşkilatlara göndərilmişdir**

**I ərazi şöbəsi**

| | |
|---|---|
| 1. Rusiya Federasiyası | «Heydər Əliyev Fondu»nun RF-dakı Moskva nümayəndəliyinin «Xocalıya Ədalət!» çağırışının ideya müəllifi, nümayəndəliyin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyeva<br>Fondun Rumıniya, Fransa nümayəndəliklərinə<br>Ümumrusiya Azərbaycan Konqresi<br>Federal Milli Mədəni Muxtariyyət «AZERROS» |
| 2. Qazaxıstan Respublikası | Səfirlik<br>«Xəzər» İctimai Birliyi<br>«Turan» Konqresi |
| 3. Özbəkistan Respublikası | Səfirlik Mədəniyyət Mərkəzləri Assosiasiyası |
| 4. Tacikistan Respublikası | «Dostluq» Cəmiyyəti |
| 5. Qırğızıstan Respublikası | «Azəri» İctimai Birliyi |
| 6. Gürcüstan Respublikası | Səfirlik<br>Gürcüstan Ziyalıları Birliyi<br>«Gürcüstan mənim Vətənimdir» Cəmiyyəti |

**II ərazi şöbəsi**

| | |
|---|---|
| 1. İsveç (Stokholm) | -Nadir Hollenbrand – Azərbaycan naminə<br>Səməd Fərtaş – Azərbaycan dərnəyi |
| 2. Norveç | – Xəzər Yanar dərnəyi, Nəzərova – 3. |
| 3. Finlandiya | Azərbaycan-Finlandiya Dostluq Cəmiyyəti |
| 4. Danimarka | – Azərbaycan |

| | |
|---|---|
| | Kültür Ocağı |
| 5. Fransa | – «Azərbaycan Evi» Assosiasiyasının sədri |
| | Mirvari Fətəliyeva – Azərbaycan-Fransa Gənclik Assosiasiyasının sədri |
| | – Fransada Azərbaycanlı Tələbələr Assosiasiyasının sədri |
| | – Azərbaycan-Fransa Azad Mübadilələr Assosiasiyasının sədri |
| | – Fransa-Azərbaycan Elm və Təhsil İnkişafı Assosiasiyasının sədri |
| | – «Fransa-Türk» Federasiyasının sədri |
| 6. İtaliya | – «Dostluq» Azərbaycan Assosiasiyasının sədri |
| | – «Azəri» cəmiyyətinin sədri |
| 7. İspaniya | – «Azəri» Assosiasiyasının sədri |
| | – Azərbaycan Dostluq Cəmiyyəti |
| 8. İsveçrə | – İsveçrə-Azərbaycan Dostluq Cəmiyyətinin sədri |
| | – Azərbaycan türkləri Kültür dərnəyinin sədr müavini |
| | – İsveçrə-Azərbaycan Əməkdaşlıq Cəmiyyətinin sədri |
| 9. Ukrayna Respublikası | – UAK-nın sədri |
| | – Xarkov vilayəti, Ukrayna-Azərbaycan Dostluq Cəmiyyətinin sədri |
| 10. Belarus Respublikası | – Belarus-Azərbaycan İcmaları Konqresi |
| 11. Moldova Respublikası | - Moldova Azərbaycanlıları Konqresi |
| 12. Estoniya Respublikası | – Estoniya-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri |
| 13. Litva Respublikası | – Litva Azərbaycanlıları Cəmiyyəti |
| 14. Latviya Respublikası | – «Azəri-Vəhdət» Latviya-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbəri |
| 15. Rumıniya Respublikası | – Rumıniya-Azərbaycan Gəncləri və Mədəniyyət Assosiasiyasının Prezidenti |
| 16. Çexiya Respublikası | – «Azəri-Çex» Cəmiyyətinin sədri |

| | |
|---|---|
| 17. Macarıstan Respublikası | – Macarıstan -Azərbaycan Dostluq mərkəzi |
| 18. Polşa Respublikası | – Azərbaycan Mədəniyyət və İnformasiya Mərkəzinin sədri |
| 19. Bolqarıstan Respublikası | – Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri |
| 20. Böyük Britaniya və Şimali İrlandiya Krallığı | – Azərbaycan Cəmiyyətinin sədri |
| 21. Belçika Krallığı | – «Belçika-Azərbaycan Evi»nin sədri |
| 22. Niderland Krallığı | – «Azərbaycan Türk Kültür Mərkəzi»nin sədri<br>– «Avropa Qafqaz Elm və Mədəniyyət Mərkəzi»nin sədri |
| 23. Avstriya Respublikası | – «Avstriya-Azərbaycan Akademik Birliyi»nin sədri |
| 24. Almaniya Federativ Respublikası | – «Avropa Azərbaycanlıları Konqresi»nin prezidenti<br>– Mayns Azərbaycan Cəmiyyətinin sədri<br>– «Almaniya-Azərbaycan Cəmiyyətləri Federasiyası»nın sədri<br>– «Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyəti İnstitutu»nun sədri |

**III ərazi şöbəsi**

| | |
|---|---|
| 1. Kanada | – Kanada-Azərbaycan Assosiasiyaları Federasiyasının İcraçı direktoru<br>– Kanada-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının prezidenti, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Hamilton Kvebek Azərbaycanlıları Assosiasiyasının prezidenti, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Monreal<br>– Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası |

İdarə Heyətinin üzvü, Toronto
– Azərbaycan Ağsaqqallar Şurasının sədri, Toronto
– Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Toronto
– Kanada-Azərbaycan Alyansı İdarə Heyətinin üzvü, Toronto
– Azərbaycan İcmaları Assosiasiyasının sədri, Kanada-Azərbaycan Assosiasiyaları Federasiyası İdarə Heyətinin üzvü, Toronto
– Azərbaycan Kültür Ocağı İdarə Heyətinin üzvü, Vankuver
– «Odlar Yurdu» radiosunun prezidenti, Vankuver
– «Qaflant» adına Azərbaycan-Kanada Cəmiyyətinin sədri, Vankuver

2. Avstraliya – Avstraliya-Azərbaycan Assosiasiyasının prezidenti, Sidney

## YENİ ERMƏNİ DİASPOR TƏŞKİLATLARI "XOCALIYA ƏDALƏT"LƏ ÜZ-ÜZƏ

***«...Azərbaycan xalqının gücü bir yerə toplanmalıdır, hamı bir hədəfə vurmalıdır... gərək hər kəs Vətən, torpaq, namus yolunda öz payını versin, öz borcunu versin...»***

***Xalqın övladları bu torpaqda doğulub dünyaya gəliblərsə, atalarımımzın, babalarımızın ruhu bizim üçün müqəddəs və əzizdirsə, öz borcumuzu verməliyik... Torpaqlarımızı erməni terrorundan azad etməliyik...***

**Heydər Əliyev**

Araşdırmalarımıza görə, Yerusəlimdəki Yəhudi İnstitutunun və Bin-Qurion Universitetinin (İsrail) alimləri iddia edirlər ki, insanların qrup və yaxud fərd şəklində hansı rəngə, hansı rəng çalarlarına meylli olmaları onların genofonduna işarədir. Moskvadakı 1110 nömrəli erməni məktəbinin 1-ci və 4-cü sinif şagirdlərinin çəkdikləri rəsm əsərlərində (2010-cu ilin mart, aprel aylarında) ən çox işlədilən rəng qara olub. Bu da ümumən 470 şagirdin çəkdiyi rəsm əsərlərinin 83,5 faizini təşkil edir. 1650 nömrəli başqa bir erməni məktəbində isə bu göstərici 87 faiz təşkil edir.

Yeddi yaşlı ermənilərin rəsm müsabiqəsində uşaqlar qara yaylıqlı tənha ana, batmış günəş, sönmüş şam, kilsə zəngi, sınmış budaq, dağıdılmış kənd, yandırılmış meşələr kimi anlayışlara meylli olub. Uşaqların bir qrupu isə göz yaşı, qurumuş çay, qanadı qırılmış quş kimi komponentləri canlandırıblar. ***Separatçıların millət vəkili Zori Balayan «Azad Artsax» qəzetinə verdiyi müsahibədə qeyd edir:***

«... Bütün bunlar bizi qorxutmur. Qoy hər bir erməni dərk etsin ki, uşaqlarımızın, övladlarımızın yaddaşlarına hopmuş, onların psixoloji aləmlərinə daxil olmuş... bu eybəcərliklər azərbaycanlilaların və onları sevən islam dünyasının bizlərə vurduqları yaraların nəticəsidir. Övladlarımızın psixikasını korlayan bu eybəcərliklərin günahı azərbaycanlilardadır... Biz bu günahı heç kəsə bağışlamırıq» (2010-cu il, 5 may).

Rusiya Federasiyasındakı təhsil ocaqlarında bütün buna bənzər məsələləri müşahidə edib araşdıran **ingilis psixoloqu Maykl Frayd əsərinin birində yazır: «Rusiya Federasiyasındakı erməni məktəblərində**

**aparılan tədqiqatın nəticələri bir filosof kimi məni çox düşündürür. Görünür, keçmiş Sovet İttifaqı ərazisindəki bir çox etnik qruplar öz övladlarını ekoloji mühitin dağıdılmasından doğan mənəvi terrordan xilas etməkdə acizdir. Rusiya Federasiyasında günəşin rəngini, Orta Asiyada Ay işığından tökülən rəngi, Ermənistanda qara rəngi, Gürcüstanda narıncı rəngi, Azərbaycanda isə dənizin tünd mavi rəngini çox sevirlər. Mənim ən çox qorxduğum qara rəngdir. Çünki qara rəng gen kodlarını terrora hazırlayır...»** (M. Frayd. «Мысль». M., Наука. 2010, səh. 47).

Dağlıq Qarabağ müstəqil Azərbaycanın beynəlxalq terrorizmin və separatizmin tərkib hissəsi olan erməni terrorçuları tərəfindən işğal edilən, təhqir olunan, əzilən və dara çəkilən taleyinin bir parçası olaraq qalır. Erməni uşaqlarının çəkdikləri rəsmlərdə təsvir olunmuş qara bayraqların birində isə səlib yürüşünü xatırladan 1096 – 1270 illər qeyd olunmuşdu. Bu lövhə çoxlarının diqqətindən qaçsa da, rus rəssamı A.Gerasimovun nəzərindən qaçmadı. O, bunu «millət üçün tərbiyəsizlik» adlandırdı. Çünki bu illər tarixin bədnam səlib yürüşlərinə işarə idi.

«Xocalıya Ədalət!»in siyasi proqramı geniş mənalı bir proqramdır. Bu ideoloji proqramda Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın fikirləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, işğal olunmuş ərazilərimizin təbii sərvətlərini də əhatə edir. Əslində «Xocalıya Ədalət!»in böyüklüyü və dünyəviliyi də elə budur.

**«Xocalıya Ədalət!»lə dünyanın ən mötəbər tribunalarından Leyla xanım Əliyeva Dağlıq Qarabağda baş verən kütləvi qətlanları xatırladaraq, terrora məruz qalmış torpaqlarımız haqqında da danışmağı özünün vətəndaşlıq borcu hesab edir. O çıxışlarının birində bir daha dünyaya xatırladır:**

**«...1988-93-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox azərbaycanlı (ümumi əhalinin 15%-i) qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Azərbaycanın 20%-dən çox ərazisi işğal olundu. Ermənistanda yaşayan 250 min nəfər həmyerlimiz öz doğma yurdlarından zorla qovuldu. Nəticədə 20 min nəfər azərbaycanlı həlak oldu, 100 min nəfərdən çoxu yaralandı, 50 min nəfərə qədər insan müxtəlif dərəcəli bədən xəsarətləri alaraq şikəst qaldı. Təqribən 120 min**

**müsəlmanların namaz dəsti (yəni təsbeh, möhür, «Çərəkə» və «Ayətul-Kürsü», «Dua» kitabları, canamazlar) məhv edildi.**

**Müharibə dövründə 4853 nəfər itkin düşüb. Bunun da 1500 nəfəri din xadimi, yəni müxtəlif vaxtlarda Məşhədi, Kərbəlanı, Məkkəni ziyarət edən adamlar olub. Bu günədək onlardan heç bir xəbər yoxdur. Onlardan cəmisi 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədirlər.**

**Hərbi təcavüz Dağlıq Qarabağın 17 min km$^2$ ən məhsuldar torpaqlarının işğalına, eləcə də 900 yaşayış məntəqəsinin, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km avtomobil yolunun, 160 körpünün, 23 min km su və 15 min km elektrik xəttinin dağıdılmasına gətirib çıxarıb. Təcavüzkarlar ərazilərimizdə olan 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət edərək yandırmış, nadır tarixi əhəmiyyətli 40 min eksponatı talan etmiş, 44 məbəd və 9 məscidi, 927 kitabxananı, 4,6 min kitab və qiymətli əlyazmaları, 53 mindən artıq VIII, IX, X, XI əsrləri əhatə edən islam atributlarını məhv etmişlər.**

**İqtisadçıların təhlillərinə görə, mənəvi-psixoloji zərbələrdən əlavə Azərbaycan iqtisadiyyatına 60 mlrd. ABŞ dollarından çox ziyan dəyib.**

**İşğal olunmuş rayonlarda 152 ədəd qiymətli ağac növü, 13197,5 ha qiymətli meşə sahələri, 5 ədəd geoloji obyekt tar-mar edilib.**

**İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, jad, nefritoid və s.) 11 şirin yeraltı su və 10 mineral su yataqları yerləşir ki, bu da respublikanın iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edirdi.**

**Göllərin içərisində ən çox antropogen təsirə məruz qalan Azərbaycanın Laçın rayonu ilə Gorus rayonu arasında yerləşən İşıqlı Qaragöldür. Uzunluğu 1950 metr, maksimal eni 1250 metr, maksimal dərinliyi 7-8 metr, suyunun həcmi isə 10 milyon m$^3$ olan İşıqlı Qara-gölün şəffaflığı vaxtilə 4,6 metr idi. Hazırda gölə radioaktiv tullantıların atılması nəticəsində suyun təmiz tərkibi və rəngi dəyişib. Gölün**

**ətrafındakı (Şimal-Şərq istiqaməti) «Məhəmməd övladları» ziyarətgahı dağıdılaraq məhv edilib. Bu ziyarətgah IX əsrdə Seyid Pir Allahı tərəfindən tikilib. İslam tarixinin gözəl nümunəsi olan bu abidə yerlə yeksan oldu.**

**Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində irili-xırdalı 7 göl qalıb: Kəlbəcər-Laçın rayonu yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl və Ağdərə rayonu ərazisində (Tərtərin qolu olan Torağaçayda) Qaragöl kimi təbii sərvətlər bu gün işğal altındadır. Zalxagöl, məlumata görə, dini bir abidədir. Əfqan yazıçısı Yusif Xanı yazır ki, vaxtilə yerli adamlar Qurani-Kərimin nüsxələrini köçürərkən bu gölün suyu onlar üçün mürəkkəb olub.**

(1989-90-cı illərdə Ermənistan tərəfindən Oxçuçayın bir il ərzində çirklənməsinə görə o dövrün qiyməti ilə 7,5 milyard rubl iddia sənədləri keçmiş SSRİ Arbitrajında baxılmaq üçün qəbul edilmiş, faktlar sübuta yetirilmişdir – ***V.S., R.V.***).

Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində 247352 hektar meşə sahələri (Azərbaycan Respublikası Torpaq və Xəritəçəkmə Komitəsinin 03 oktyabr 2005-ci il tarixli məlumatı) qalmışdır ki, bu, Ermənistanın bütün meşələrinin 25%-dən çoxdur. Bütövlükdə Azərbaycanın meşələri Ermənistanın meşələrindən 2,5 dəfə artıqdır («Лесной фонд СССР». I cild, 1986 il.). Araşdırmalarımıza görə, Qarabağ meşələrində 123 müqəddəs şəxsin dəfn olunduğu tənha məzarlar var. Bu məzarlıqların təqribən 70-i dünyanın islam araşdırma mərkəzlərində qeyd olunur. Məsələn, Laçın, Kəlbəcər meşələrində tənha məzar-ziyarətgahları, o cümlədən «Babayar», «Çiçəkli seyid», «Ballı məzar» İranın Qum şəhərində 1982-ci ildə çap olunmuş «İslami yaddaş» kitabında təsvir olunur.

Araşdırmalarımıza görə, bir tank tırtıllarının səsindən 50-100 metr məsafədə olan gül kollarından 70%-i, davamlı «immunitetli» ağaclardan 20%-i, bulaqlardan 5%-i, sərçələrdən 10%-i, kiçik çay yataqlarındın 2%-i... tədricən sıradan çıxaraq məhv olur. Bir «AK» gülləsinin səsi təqribən 500-600 ağac yarpağının tökülməsinə səbəb olur. Bir artilleriya mərmisi 80-100 hektar meşə zolağını yandırıb, həmin ərazini öldürür. Havadan atılan kiçik ölçülü «bomba»nın təsirindən ətraf mühitin 16 gün normal iqlim şəraiti pozulur, rəngli yağışlar yağır, 200-300 metr məsafədə olan içməli su kəhrizləri 22 gün lilli qalır, durulmaq bilmir. Və yaxud, bir hərbi vertolyotun

atdığı mərmilərin nəticəsində həmin ərazinin torpaq qatı çat verir, yağış yağarsa 15, yağmazsa 9 gündən sonra mərmi düşən zolaq «ölü zona»ya çevrilir. İyirmi il həmin yerlərdə heç nə bitmir. Ətrafdakı yaşayış məntəqələrində vərəm sindromu 2,5 dəfə artır.

Ərazidən qalxan və enən hər hansı bombardmançı və yaxud qırıcı təyyarənin səsindən ətrafdakı meşə zolaqlarının böyük bir qismi «qorxudan» öz-özünə yanıb quruyur (b a x : əlavə olaraq pr. A.Sidorovun, D.Melnikovun (RF), F.Alfredin (Almaniya), K.Faumanın (ABŞ), A.Smitin (İngiltərə) ekologiya ilə bağlı əsərlərinə).

Şuşanın ərazisinin 20%-ni meşələr tuturdu. İndi bu, 17%-dir.

İşğaldan qabaq ərazidə 30 kənd olub. İndi isə 21 kənd qalıb.

Keçəldağ aşırımı Şuşa rayonundadır. Bu ərazi indi hərbiləşdirilib. Əsasən, Yura və Tabaşir çöküntüləri yayılmışdır. Müxtəlif növ tikinti materialları yataqları və mineral su bulaqları (Turşsu, Şirlan) var. Orta temperatur yanvarda –4°C-dən –1°C-yə qədər, iyulda isə müsbət 16-19°C, illik yağıntı 700-800 mm olur. Rayon ərazisindən Qar-qar çayı axır. Torpaqları, əsasən, qəhvəyi dağ-meşə, çimli dağ-çəməndir. Yüksək dağlıq sahədə subalp və alp çəmənlikləri ilə örtülüdür. Alçaq dağlıq və dağətəyi sahələrdə qırılmış meşələrin yerində çəmənlər və kserofit kolluqlar mövcuddur.

İri yaşayış məntəqələri Şuşa şəhəri, Malıbəyli və Daşaltı kəndləridir.

Şuşa üzlük daş yatağı ehtiyatları 397 min $m^3$ olan kərpic-kirəmit istehsalına yararlı Keçəldağ (Lısoqor) gil yatağı, istismar ehtiyatları 389 min $m^3$/gün olan Şuşa yeraltı şirin su yatağı, 342 min $m^3$/gün və 70 min $m^3$/gün olan Şirlan və Turşsu mineral su yataqları erməni separatçılarına qalıb (2).

**Daşaltı Dövlət Təbiət yasaqlığı.** Şuşa və Əsgəran ərazisində nadir təbiət komplekslərini qorumaq üçün 1988-ci ildə təşkil edilən bu yasaqlıq 450 hektar ərazini əhatə edirdi. 1992-ci ildən işğal altında olan bu yasaqlıq daha yoxdur, məhv edilib.

Şuşa rayonunda Qarqar çayının sol sahilində, Şuşa şəhərindən cənubda dəniz səviyyəsindən 1365 m hündürlükdə Titon dövrünün əhəngdaşı süxurları içərisində intişar tapmış 114 m uzunluğunda olan «Xan mağarası» isə dağılıb və çöküb. Araşdırma materiallarına görə, 100-dən artıq islama aid qədim kitabxana dağıdılıb. Məlumata görə, XII əsrin məşhur islam kitabxanalarından olan Hicri Əyyutin «Qızıl kitabxanası»nın bir hissəsi

məhz bu mağarada gizlədilib. Ermənilər həmin kitabxananı uçuraraq batırıblar.

Şuşa rayonunun yeraltı su ehtiyatlarını öyrənmək məqsədilə 1984-86-cı illərdə Şuşa rayonu ərazisində kompleks hidrogeoloji tədqiqatlar aparılmışdı. Nəticədə üst və orta sulu komplekslərin 6 perspektiv sahə üzrə yeraltı su ehtiyatları qiymətləndirilmişdi. Bütövlükdə Şuşa rayonu üzrə içməyə yararlı yeraltı suların ehtiyatı 5,0 mln. $m^3$/gün təşkil edirdi.

Müstəqil Azərbaycanın memarı olam Heydər Əliyevin abidələr şəhəri adlandırdığı Şuşada, vaxtilə 190 hektarlıq qoruq zonasında 235 tarixi abidə, 550 qədim yaşayış binası, 870 m uzunluğunda qala divarları vardı. İslam tarixi abidələrinə aid edilən 23 abidə respublika və dünya miqyaslı abidələrə aid idi…»

Ən ali məclis və yığıncaqlarda bu faktları bir daha xatırladan Leyla xanım Əliyeva yüksək və hərtərəfli hazırlıq keçən, məharətli diplomat sayıqlığı ilə məntiqi çıxışlar edən, Azərbaycan vətəndaşı kimi, əsl azərbaycanlı övladı kimi özünü təsdiq edib.

Xocalı yaşayış məntəqəsinə gəlincə o, bununla bağlı öz xarici həmkarlarına məlumat verərək göstərib:

«...Xocalı rayonu Yuxarı Qarabağın dağətəyi hissəsində qədimdən azərbaycanlılar yaşayan Xocalı qəsəbəsi və onun ətrafındakı torpaqların hesabına yaradılmışdır. Dəniz səviyyəsindən 500 m hündürlükdə yerləşir.

Xocalı rayonu Şuşa-Ağdam yolunun üstündədir. İran alimlərindən Ə.Mehdipur iddia edir ki, bu yolun üstündə (Şuşa-Ağdam yolu) təqribən IX əsrə gedib çıxan on bir müqəddəs şəxsin məzarlıqları var. Lakin bu qəbirlər araşdırılmadı. Tökülən mərmilərdən bu yerlər – islam dininin əvəzsiz yadigar yerləri dağıdılıb.

Xocalı ilə Bakı arasında olan məsafə 375 kilometrdir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri başdan-başa yandırıldı.

Xocalı rayonu ərazisində təsdiq edilmiş ehtiyatları uyğun olaraq 32 min $m^3$ və 2039 min $m^3$ olan və istismara verilən Zərinbağ və Ağçay üzlük daşı yataqları ehtiyatları 12434 $m^3$ olan və istismara verilən qırmadaş və əhəng istehsalına yararlı Şuşa əhəngdaşı yatağı, 962 min $m^3$ ehtiyatlara malik, kərpic istehsalına yararlı Xocalı gil yatağı, ehtiyatları 7280 min $m^3$ olan Xankəndi (Əsgəran qrupu) qum-çınqıl qarışığı yatağı, istismar ehtiyatları 9 min $m^3$/gün olan Xankəndi yeraltı şirin su yatağı erməni işğalı altındadır.

Xocalı rayonu ərazisində, Bədərə çayı hövzəsində «Yeddi kilsə» adlanan ibadət yerində (Pirkal meşəsi) nadir fıstıq-palıd meşələri talan edilərək, xarici ölkələrə daşınır. Xocalı qəbiristanlığının altı üstünə çevrilib. 647 qədim müsəlman qəbiristanlığı məhv edilib.

*Araşdırma materiallarına görə,2012-ci ildən Xocalı ərazisində yeni «qəhrəmanlıq» abidəsi (?) ucaldılıb. Amma 2012-ci ilin iyun ayının 14-də baş verən kiçik yeraltı təkandan sonra həmin abidə yerlə yeksan olub. Məlum olub ki, həmin abidə kütləvi qırğından sonra dəfn olunmuş azərbaycanlıların məzarı üstündə qurulubmuş... Bununla bağlı məlumatı isə Gürcüstanın Rustavi kanalı verib (2012-ci il, 5 iyul).*

*Biz, həmçinin, «Xocalıya Ədalət!» hərəkatı çərçivəsində Azərbaycan mətbuatında, eləcə də ölkənin tədqiqat və araşdırmaları ilə bağlı irəli sürülən layihələrdə ilk dəfə olaraq işğal olunmuş ərazilərimizdə aparılan terror hadisələri ilə bağlı açıqlamalar və məlumatlar verməyi də qərara aldıq. Çünki Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!»i bu gün işğal altında qalan bütün Dağlıq Qarabağı əhatə edir.*

# EKOLOJİ TERRORA QARŞI «XOCALIYA ƏDALƏT!» ÇAĞIRIŞININ KONSEPSİYASI

Laçın rayonu dağlıq relyefə malikdir. Rayonun şərqində Qarabağ silsiləsinin cənub-qərb yamacları, şimalında Mıxtökən silsiləsi yerləşir. Cənub-qərb hissəsini Qarabağ yaylası tutur. Rayonun ən hündür nöqtəsi Qızılboğaz dağıdır (2823 m). Ərazidə yura-antropogen çöküntüləri yayılmışdır. Ərazinin çox yerində qışı quraq keçən, mülayim-isti və soyuq iqlim üstündür. Orta temperatur yanvarda 0-dan –10°C-dək, iyulda müsbət 10–22°C-dir. İllik yağıntı 600-900 mm-dir. Ən böyük çayı Həkəridir. Əsasən, çimli dağ-çəmən, qəhvəyi dağ-meşə və karbonatlı dağ-qara torpaqları yayılmışdır. Bitki örtüyü kollu və seyrək meşəli çəmənliklərdən, enliyarpaqlı dağ meşələrindən (palıd, vələs və s.) subalp və alp çəmənliklərindən ibarətdir. Alçaq dağlıq yerlərdə seyrək ardıc ağacları çox yayılmışdır.

Laçın rayonunda Alıcan kəndindən başlayaraq, şimal-qərb istiqamətində yan süxurları yararaq üzə çıxan maqmatik süxurlar boyunca narzan tipli əhəmiyyətli debiti olan mineral bulaqlar mövcuddur. Bu bulaqlar Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turşu-tiqiq, Nurəddin (böyük debitə malikdir), Nağdalı, Hacıxanlı (Xallanlı, Başlıbel-Kəlbəcər rayonunda) narzan tipli sular olmaqla böyük müalicəvi əhəmiyyətə malikdir.

Rayonun Cicimli, Güləbirt, Zeyvə, Malıbəy, Yənqiça, Bülövlük, Araflı, Alqulu, Malxələf, Soltanlar, Züsülü, Kosalar, Seyidlər, Pircahan, Minkənd, Kürdhacı kəndlərində və Laçın şəhərində daşdan yonulmuş islam atributlarını özündə əks etdirən 12 qoç fiquru, 28 at fiquru, 36 müxtəlif süjetli yazı və rəsmləri olan sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış bir-birinə bənzəməyən fiqurlar, sənət rəmzləri həkk olunmuş qəbirüstü daşlar və Yaxşı ananın (Sarı aşığın sevgilisi) məzarı dağıdılıb.

Cicimlidə məbəd, qədim anbar, Güləbirtdə Sarı aşığın qəbirüstü ziyarətgahı, Zeyvədə Şeyx Əhməd, Soltanbaba, 2-ci Soltanbaba, Minkənddə XV əsr islami kitablarda adı çəkilən «Qəyyum» məbədi, Kosalarda IX əsrin Ağoğlan – «Mehdi» məbədi və qəsri, Qarıqışlaqda Dəmirovlu pir-məbədi, Bülövlük kəndinin şimalında yerləşən qədim Kişpəyədə Alban məbədi, Picənisdə Alban məbədi, Xan qəbiristanlığında Zəngəzurun sultanları Qara-Murtuza bəyin, 1-ci Alməmmədin, 2-ci Alməmmədin hasardakı türbələri, Şeyx Şamillə dostluq etmiş, ona köməklik göstərmiş Cəbrayıl bəyin türbəsi,

bütövlükdə Qaratel Paşabəy qızının mərmər türbəsi, Araflıda Murtuza Sultanın anasının türbəsi, Pircahan çayında Usta Məşədi Mehralının islami dəyərləri özündə əks etdirən, üstündə Quran ayələri yazılmış yaşı bilinməyən «Sərdabə» abidəsi və min bir naxışlı, arxitekturalı körpülərinin, Minkənd ziyarətgahından X əsrə aid islam heykəllərinin və xeyli bulaqüstü abidələrin aqibəti bu gün məlum deyildir.

İslam memarlıq abidələrindən Hoçaz kəndində mağara-məbəd (V əsr), Cicimli kəndində Məlikəjdər türbəsi (XIV əsr), adsız türbə (XVII-XVIII əsrlər), Zeyvə kəndində Kafir qalası (XVII əsr), Sultan Baba türbəsi, Şeyxəhməd türbəsi, adsız türbə (XIX əsr), Qarıqışlaq kəndində məscid (1718), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761), Həkəri çayı üzərində körpü (XVIII əsr), Ağoğlan çayı üstündə məbəd (XIX əsr), Güləbirt kəndində türbə viranə qalıb.

Laçın rayonunun ərazisində ümumi ehtiyatları 1124,0 ton olan 3 (Narzanlı, Çilgəzçay, Sarıbulaq) civə yatağı; ehtiyatları 2533 min $m^3$ olan və istismara cəlb edilən, üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı yatağı; ümumi ehtiyatları 5125 min $m^3$ olan və mişar daşı istehsalına yararlı 2 (Ağoğlan, Əhmədli) tuf yatağı; ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı yatağı; ehtiyatları 998 min $m^3$ olan və kərpic-kirəmit istehsalına yararlı Novruzlu gil yatağı; ehtiyatları 2144 min $m^3$ olan Quşçu pemza yatağı; ehtiyatları 15794 min $m^3$ olan Yuxarı Həkəriçay qum-çınqıl qarışığı yatağı; ehtiyatları 10 ton əqiq və 0,9 ton jad olan 2 əlvan-bəzək daşı yatağı; ümumi ehtiyatları 10449 min ton olan 3 vulkan külü yatağı, istismar ehtiyatları 4300 min $m^3$/gün olan Minkənd mineral su yatağı var idi.

Laçın rayonu üzrə 33285 hektar meşə fondu torpaqları var idi ki, bunun da meşə ilə örtülü sahəsi 26647 hektar və ya 80,05% təşkil edirdi.

Laçın rayonunda Həkəri çayının sağ sahilində yol tikinti idarəsinin həyətində diametri 210 sm, hündürlüyü 26 m, yaşı 400 il olan 1 ədəd şərq çinarı, Zabux kəndində diametri 210 sm, hündürlüyü 25 m, yaşı 400 il olan 1 ədəd şərq çinarı təbiət abidəsi kimi qeydə alınaraq qorunurdu.

Laçın rayonunun Meşə təsərrüfatının dövlət meşə fondunda 1092 ha sahəni əhatə edən 5, 6, 8, 10, 18, 32, 57 caylı meşə məhəllələrində ardıc ağacı xüsusi olaraq qorunurdu. Dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən həmin meşəlikdə şabalıd və qaraçöhrə ağacları mühafizə edilirdi.

Azərbaycan Respublikası Nazirlər Sovetinin 17 noyabr 1987-ci il tarixli 408 nömrəli qərarı ilə Qaragöl (Sevliç) respublikalararası Dövlət Təbiət qoruğu yaradılmışdır. Qaragöl Dövlət Təbiət qoruğu Laçın rayonu ilə Gorus rayonu sərhədində dəniz səviyyəsindən 2658 m hündürlükdə yerləşir. Qoruğun ümumi sahəsi 240 hektardır. Buraya 176 hektar İşıqlı Qaragöl akvatoriyası və gölün sahili boyunca 100 metr enində 64 hektar quru sahəsi aiddir.

İşıqlı Qaragöl (Sevliç) dəniz səviyyəsindən 2658 m hündürlükdə, Qarabağ vulkanik dağ silsiləsinin cənub hissəsində, Həkəri çayının sağ qolu olan Ağoğlan çayının mənbəyinə yaxın ərazidə Böyük İşıqlı dağının (3548 m) şimal ətəyində, şimali-qərbdən Dəmirdaş və Kiçik İşıqlı (3452 m) dağı ilə, şimaldan Canqurtaran (2790 m) dağı, şərqdən isə alçaq moren tirəsi ilə əhatə olunmuşdur. Bu göl sönmüş vulkan kraterini xatırladan relikt su mənbəyidir.

Gölün uzunluğu 1950 metr, maksimum eni 1250 m, sahil xəttinin uzunluğu 5500 m, dərinliyi maksimum 7,8 m-dir. Hesablamalara görə, göldə suyun həcmi 10 mln. $m^3$-dir. Gölün dibi sahilə yaxın yerlərdə müxtəlif ölçülü daşlardan ibarətdir. Mərkəzə doğru isə daşların (süxurların) ölçüsü azalır və nəhayət, mərkəzi hissəsi xırda dənəli çöküntülərdən ibarətdir.

Oktyabr ayının ikinci yarısından aprelin axırlarına kimi gölün səthi donmuş olur. Sahildən mərkəzə doğru 20-25 metrə qədər məsafədə buzun qalınlığı 50 sm-dən çox olur. Burada qarın qalınlığı isə 40-45 sm-ə çatır.

Qoruqda 102 bitki növü olub. Bu bitkilərdən 25-nin adı Şərqin böyük filosofu Bəhmənyarın tərtib etdiyi «Qədim islamın şəfa kitabındakı bitkilər» cərgəsindədir. Həzrəti Peyğəmbərin (ə) ürək ağrılarını aradan götürən «Ələf» şəfa çiçəyi məhz burada – Canqurtaran ziyarətgahında bitirdi.

Gölə heç bir yerdən su axını yoxdur. Suyu çox təmiz və şəffaf, həm də şəfalı olduğu üçün xalq bu gölə müqəddəs ibadət yeri kimi baxırdı.

Qoruqda cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq qorunurdu. Laçın Dövlət Təbiət yasaqlığının sahəsi 21,4 min hektar olub. Həmin sahənin 7369 hektarı və ya 34,5%-i meşə ilə örtülü idi. 1448 hektar və ya 6,8%-i alp çəmənliyi, 7430 hektar və ya 34,8%-i subalp çəmənliyi, 4257 hektar və ya 20%-i otlaqlar, 862 hektar və ya 4%-i qayalar və uçqunlar, 34 hektarı isə xüsusi təyinatlı torpaqlar idi. Qoruğun ərazisi orta və yüksək daşlıq əraziyə xas olan relyefə malikdir.

Ən yüksək zirvə Qırxqızlar (2825 m), Şəlvə, Biçəniş, Qorçu çaylarının axdığı dərin dərələr vasitəsi ilə dağ silsiləsi yaratmışdı. X əsrin yadigarı olan «On iki imam» ziyarətgahına düşən bomba və yaxud top mərmiləri Şəlvə dərəsini batıraraq xarabazara çevirdi. Yasaqlığın ərazisinə qışı quraq keçən soyuq iqlim tipi hakimdir. Bitki örtüyünə görə yasaqlığın ərazisi iberiya palıdlarından ibarət olan dağ-meşə (1000-1700 m), şərq palıdından ibarət olan yuxarı dağ-meşə (1700-1800 m), subalp (1800-2500 m) və alp (2500-2800 m) çəmənlikləri qurşaqlıqlarına ayrılır. Subalp qurşağı üçün quraq yamacların bozqırlaşmış və nisbətən rütubətli yamacların mezofil çəmənləri, alp qurşağı üçün müxtəlif orta çəmənliklərin üstünlüyü və alp xalısının zəif inkişafı ilə səciyyələnmişdir.

Yasaqlığın ərazisində ibtidai, az qalın, çimli dağ-çəmən, tipik karbonat qalıqlı bozqırlaşmış qonur dağ-meşə, çürüntülü-karbonatlı dağ-meşə, tipik və bozqurlaşmış qəhvəyi dağ-meşə torpaqları yayılmışdır.

Meşələrə nisbətən dağ-çəmən qurşağı və meşə qurşağının meşəsiz sahələri otlaq kimi antropogen təsirə çox məruz qalır.

Bununla bərabər burada bir sıra vəhşi heyvan və quşların məskunlaşması üçün əlverişli şərait var. Onların sayı və növü kifayət qədərdir.

*(1989-cu ildə yasaqlıqda aparılan yoxlamada: dağ keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 110 baş, çoxlu sayda canavar, porsuq, dələ və s. heyvanlar, qırqovul 200 baş, kəklik 1500 baş və s. quşlar qeydə alınmışdı –* ***V.S., R.V.****)*

Yasaqlığın ərazisində Hacışanlı meşəsində dünyada ən qiymətli palıd (qızıl palıd) olub. Həmin ağacdan istifadə etmək üçün hələ çar hökuməti dövründə fransızlar çətin dağlar ilə, Xankəndindən Qırxqız dağını keçməklə, araba yolu çəkmişdilər. Ruslar və ermənilər öz dinlərinə məxsus atributları hazırlamaq üçün meşəni salan Ayətulla Səid Hacışamlıdan icazə istərdilər. Həmin rəsmi dini sənədlər Parisin Milli kitabxanasında saxlanılır.

Həmin ağacın materialından qiymətli mebel və, xüsusən, konyak spirti saxlamaq üçün çəlləklər düzəldilməsində istifadə edilirdi. Bu ağac Azərbaycanda yalnız həmin yataqlarda qorunurdu.

Laçın rayonunda olan Picənis və Hacışanlı meşəliklərində dünya şöhrətli qırmızı palıd 4000 hektardan artıq sahəni ahatə edir. Hələ əsrin əvvəllərində fransızlar firəng yolunu (Picənis-Xankəndi yolu) çəkərək qırmızı palıdı daşıyıb *konyak istehsalında çəllək hazırlanmasında* istifadə edirmişlər.

İşğal olunmuş Laçın rayonunun torpaqları 2006-cı ilin mart ayından başlayaraq, xüsusi kisələrə doldurulub Yerevana daşınır. Erməni professoru Karen Sumbatyan iddia edir ki, Laçında qiymətli uran yataqları var.

*Araşdırma materiallarına görə, erməni terroruna məruz qalmış Laçın rayonunun Narzanlı, Gilgəzçay, Sarıbulaq civə yataqları 2012-ci ilin yayından RF-na məxsus Gümrüdəki 102 saylı hərbi bazaya daşınır (?).*

# İTİRİLMİŞ ŞÖHRƏT

Sahəsi 3054 $km^2$ olan Kəlbəc\ər rayonunda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 122 kənd vardı (1980). Mərkəzi Kəlbəcər şəhəridir. Kəlbəcər ərazisinə tarixdə «Müqəddəslər ərazisi» də deyirlər. Məlumata görə, bu ərazidəki təqribən 140 nəfər müxtəlif titullu din xadiminin dəfn edildiyi qədim məzarlıq, qədim tarixi abidələr dağıdılıb.

Səthi dağlıqdır (Murovdağ, Şahdağ, Şərqi Göyçə, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsi). Ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Tabaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılmışdır. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qollarıdır (Lev çayı, Tutqunçay və s.) Bazarçayın da mənbəyi Kəlbəcər rayonu ərazisindədir. Saf sulu gölləri (Ala göllər, Zalxa gölü və s.) var. Əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılmışdır. Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşə (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda alp və subalp çəmənlikləri geniş yer tutur. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və s. faunasını zənginləşdirir.

İri yaşayış məntəqələri Kəlbəcər şəhəri, şəhər tipli İstisu qəsəbəsi, Başlıbel, Zəylik, Zar, Qılıclı və Zülfüqarlı kəndləridir.

İslam memarlıq abidələrindən olan Tərtərçayın başlanğıcındakı Xudadəng məbədi (XIII-XVIII əsrlər) dağıdılıb.

Kəlbəcər rayonu zəngin meşələri ilə fərqlənir. Kəlbəcər meşə təsərrüfatının ərazisi 32774 hektar təşkil edirdi.

Kəlbəcər rayonunun ərazisində yerləşən meşələr I qrupa aid olub, su saxlayıcı, rekreasiya və gigiyenik, havatəmizləyici əhəmiyyətə malikdir.

Onlardan:

Qiymətli balıq hövzəsinin olduğu çayların ətrafında yerləşmiş qoruq meşələri – 13471 hektar, ətraf mühitin mühafizəsi üçün əhəmiyyətli meşələr – 15531 hektar, şəhər və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıqlar – 2740 hektar, meşə park zonası 80 hektar olmuşdur.

Tərtər çayı – uzunluğu 184 km olmaqla, su toplayıcı sahəsi 2650 $km^2$-dir. Çayın en kəsiyindən ən az sulu illərdə 13,4 $m^3$/san., orta sulu illərdə 23,1 $m^3$/san., çox sulu illərdə isə 41,6 $m^3$/san. su axır.

Tərtər çayının qolları Tutqu, Lev və Ayrım çaylarıdır. Kəlbəcər rayonunun ərazisində azı 78 növ mineral, 36 növ süxur daşları vardı.

Kəlbəcərin zənginliyi həm də onun mineral daş müxtəlifliyinə malik olması ilə ölçülürdü. Qaradağlı yurdu adlanan sahədəki tuf, Nağdalı yurdu və Zənginin çalası deyilən yerlərdəki ağ, qırmızı, göy və sarı tuflar Başlıbel, Əsrik kəndlərinin ərazisində və başqa mərkəzlərdə olan travertin yataqları, Mollabayramlı, Zar, Məmmədsəfi kəndlərində və Keyfi dağı ətrafında olan pemza yataqları, Zallar və Yanşaq kəndləri yaxınlığındakı mərmər yataqları bitib-tükənən deyil.

Rayonda bir neçə növ bazalt daşları müəyyən edilmişdir. («Pişikli», «Sandıqlı», «Gəlin Qayası», «Xanım Dərəsi» adlanan VIII əsr islami dəyərləri özündə birləşdirən qədim abidələr dağıdılıb). Bunlar ən gözəl tikinti materialları hesab edilir (mərkəzin fondunda saxlanan şəkillər).

Kəlbəcər rayonu ərazisində 4 mindən artıq müxtəlif növ bitki var. Bunlardan 200-ə qədəri dərman bitkiləridir.

Erməni politoloqu İ.Muradyan işğal edilmiş Xankəndində çıxış edərkən bildirib: «... Kəlbəcəri azərbaycanlılar özlərinin şöhrət qalası elan ediblər. Biz artıq həmin qalanı zəbt etdik» (2006.II.9).

## ERMƏNİLƏRİN ƏN ÇOX QORXDUQLARI ƏRAZİ

Ağdam rayonu Azərbaycanın mərkəzində, Kür-Araz ovalığının Kiçik Qafqaz dağlarına söykəndiyi yerdə əlverişli mövqe tutur. Rayondan Avrasiya Nəqliyyatı Dəhlizi (TRASEKA) keçən Yevlax stansiyasına qədər olan məsafə 75 km-dir.

Əhalisinin sayına görə ən böyük rayonlardan olan Ağdam rayonunun 88.395 hektar sahəsi 23 iyul 1993-cü ildə işğal olunub. 119 kənd və qəsəbə dağıdılıb.

Ağdam ərazisindən Yevlax-Laçın-Naxçıvan, Ağdərə-Füzuli magistral şosse yolları keçir. Bakı ilə Ağdam şəhərləri arasında hava nəqliyyatı var idi. 1967-ci ildə Yevlax-Ağdam dəmir yolu istifadəyə verilmişdi. Xaçıntürbəli kəndindəki Şeyx-ül-islam Qutlu Musa oğlu türbəsi (1314) və Kəngərli kəndindəki Şeyx Musa türbəsi (XIV əsr) rayonun ən qədim memarlıq abidələridir. Papravənd kəndində XVIII əsrə aid 2 türbə, müsəlmanların ibadətgah yeri, məscid vardı.

Ağdam rayonunda ehtiyatları 64863 min $m^3$ olan və mişar daşı istehsalına yararlı, istismar olunan Şahbulaq əhəngdaşı yatağı; sement istehsalına yararlı Çobandağ əhəngdaşı (ehtiyatları – 140464 min ton), Boyəhmədli gil (ehtiyatları – 44708 min ton) və Şorbulaq gil (ehtiyatları 25197 min ton) yataqları; ehtiyatları 3999 min $m^3$ olan və üzlük daşı istehsalına yararlı Gülablı əhəng daşı yatağı; kərpic istehsalına yararlı Ağdam gil (ehtiyatları 1599 min $m^3$) yatağı; ümumi ehtiyatları 29599 min $m^3$ olan 2 (Xaçınçay və Qarqarçay) qum-çınqıl qarışığı yatağı ermənilər tərəfindən işğal edilib.

Rayonun keçmiş Lenin küçəsindəki diametri 80 sm, hündürlüyü 25 m, yaşı 150 il olan 2 ədəd şərq çinarı, 28 aprel prospektində diametri 90 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı, Qasımlı sovetinin Şelli kəndindəki diametri 100 sm, hündürlüyü 25 m, yaşı 250 il olan 1 ədəd şərq çinarı, Ağdamın Qarağac adlanan hissəsindəki diametri 90 sm, hündürlüyü 25 m, yaşı 250 il olan 2 ədəd şərq çinarı, Seyidli kəndindəki diametri 100 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 3 ədəd şərq çinarı, Sarıhacılı kəndində diametri 120 sm, hündürlüyü 28 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı, Əliağalı kəndindəki diametri 110 sm, hündürlüyü 26 m, yaşı 200 il olan 2 ədəd şərq çinarı və Boyəhmədli kəndi ətrafında geniş bir sahəni əhatə edərək ərazinin susaxlama xüsusiyyətlərinə kömək edən, diametri 220 sm, hündürlüyü 25 m, yaşı 400 il olan 71 ədəd şərq çinarı təbiət abidəsi kimi

daha qorunmur. Viranə qalmış bu mənəvi sərvətlər bu gün talan edilib, Ermənistana daşınır.

Rayonun işğal altında qalan kəndləri yandırılıb, külü göyə sovrulub. İşğal olunmuş rayonun Yusufcanlı, Novruzlu, Bağbanlı, Saybalı, Sarıcallı, Baş Qarvənd... əraziləri başdan-başa yandırılıb.

Rayonun ərazisindən keçən ən iri çay – Xaçınçaydır. Çayın uzunluğu 104 km, su toplayıcı sahəsi 657 $km^2$ -dir.

# DAĞIDILAN YURD YERLƏRİ

Füzuli rayonu Azərbaycan Respublikasının cənub-qərbində əlverişli iqtisadi-coğrafi mövqedə yerləşir. Araz çayı üzərində salınan körpü onu İranla birləşdirir.

İslam memarlıq abidələrindən Əhmədalılar türbəsi, Babı türbəsi, Mirəli türbəsi, Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), Qarğabazar kəndində Hacı Qiyasəddin məscidi (1682), karvansara (1684), türbə (XVIII əsr), Qoçəhmədli kəndində məscid (XVIII əsr) düşmənlərin girovuna çevrilib.

Köndələnçay Araz çayının sol qolu olmaqla uzunluğu 102 km, su toplayıcı sahəsi 536 $km^2$-dir. Orta sulu illərdə çayın en kəsiyində 1,57 $m^3$/san, az sulu illərdə 0,71 $m^3$/san, çox sulu illərdə isə 2,43 $m^3$/san su axır.

Füzuli rayonunda ümumi ehtiyatları 58858 min $m^3$ olan və mişar daşı istehsalına yararlı, istismar olunan 2 (Dövlətyarlı, Dilağarda) əhəngdaşı yatağı; kərpic-kirəmit istehsalına yararlı, 11211 min $m^3$ ehtiyatlara malik Kürdmahmudlu gil yatağı; ehtiyatları 13053 min $m^3$ olan Quruçay qum-çınqıl qarışığı yatağı işğal altındadır.

Füzuli rayonunda İşıqlı kəndində Tağlı körpünün yanında diametri 250 sm, hündürlüyü 25 m, yaşı 500 il olan 1 ədəd şərq çinarı, orada diametri 450 sm, hündürlüyü 25 m, yaşı 900 il olan 1 ədəd şərq çinarı, Mandalı kəndində Mustafa adlanan yerdə diametri 150 sm, hündürlüyü 40 m, yaşı 300 il olan 5 ədəd şərq çinarı, Böyük Bəhmənli kəndində İranla sərhəd yaxınlığında diametri 100 sm, hündürlüyü 20 m, yaşı 200 il olan 1 ədəd şərq çinarı, Seyidəhmədli kəndinin «İbə piri» adlanan sahəsində diametri 520 sm, hündürlüyü 30 m, yaşı 1400 il olan 1 ədəd şərq çinarı, həmin yerdə diametri 250 sm, hündürlüyü 25 m, yaşı 550 il olan 1 ədəd şərq çinarı, Pirəhmədli kəndində, Mandalı kəndində diametri 180 sm, hündürlüyü 45 m, yaşı 400 il olan 1 ədəd şərq çinarı daha qorunmur. Bu ağaclar kəsilib doğranılaraq xaricə daşınıb.

# DÜNYANIN YADDAŞINDAN SİLİNƏN ƏRAZİ

«Cəbrayıl» sözü eyni adlı kəndin adından götürülmüşdür. Kəndin əsasını qoymuş «Cəbrayıl ata» XVIII əsrdə yaşamış Sultan Əhməd adlı hökmdarın yaxın adamlarından biri olmuş və Ziyarət dağından Araz çayına qədər ərazilər «Cəbrayıl ata» və onun oğullarına məxsus olmuşdur. Bu müqəddəs şəxs hələ sağlığında böyük hörmət sahibi olub, vəfat edərkən öz mülkünün axar-baxarlı bir yerində, Alpaşa dağı üstündə dəfn edilmişdir. Cəbrayıl kəndinin şimalında «Cəbrayıl Ata» adı ilə məşhur olan bu məqbərə və onun ətrafındakı məzarlar dağıdılıb.

Səthi, əsasən, maili düzənlikdir (İncəçöl, Gəyən çölü). Rayonu şimaldan alçaq dağlıq sahə əhatə edir (Qarabağ dağ silsiləsinin cənub-şərq ətəkləri). Dəniz səviyyəsindən hündürlüyü Araz çayı sahilində təqribən 200 m (bəzi yerlərdə daha alçaq), şimalda 1000 m və daha yüksəkdir.

Qədim islam memarlıq abidələrindən Cəbrayıl şəhərində Sultan Allahverdi hamamı, Xudayarlı kəndində dairəvi və səkkizguşəli türbələr (hər ikisi XIX əsr), Şıxlar kəndində dairəvi türbə (XIV əsr), Araz çayı üzərində məşhur Xudafərin körpüləri işğalçı ermənilərin yeni xəritələrindən silinib.

Cəbrayıl rayonunun işğalda qalan 4039 hektar meşə sahəsi var.

Cəbrayıl rayonunda mişar daşı istehsalı üçün yararlı olan və istifadəyə verilmiş Talus tuf (ehtiyatları 2937 min $m^3$) yatağı, ümumi ehtiyatları 5434 min $m^3$ olan 2 (Çaxmaxçay, Soltanlı) tikinti qumu yatağı, kərpic istehsalına yararlı Qaracallı (ehtiyatları 296 min $m^3$) gil yatağı, sement istehsalına yararlı Göyərçin-Veysəlli (ehtiyatları 6644 min ton) vulkan külü yatağı, ehtiyatları 1323 min ton olan Minbaşlı gəc yatağı, əhəng istehsalına yararlı Ağtəpə (ehtiyatları 5226 min ton) əhəngdaşı yatağı, ehtiyatları 4130 min $m^3$ olan Cəfərabad qum-çınqıl qarışığı yatağı, zərgərlikdə istifadəyə yararlı Şahverdi yəşəm (ehtiyatları – 504 ton) və Çaxmaqqala xalsedon (ehtiyatları 1348 ton) yataqları var idi. Cəbrayıl rayonunda şəhərdə diametri 250 sm, hündürlüyü 30 m, yaşı 500 il olan şöhrəti bütün Zaqafqaziyaya yayılmış 1 ədəd şərq çinarı, Hacılı kəndində diametri 350 sm, hündürlüyü 30 m, yaşı 700 il olan 1 ədəd şərq çinarı, həmin kənddə diametri 800 sm, hündürlüyü 45 m, yaşı 1000 il olan 6 ədəd şərq çinarı, Karxulu kəndində diametri 90 sm, hündürlüyü 25 m, yaşı 200 il olan 1 ədəd şərq çinarı, Funqanlı kəndində diametri 450 sm, hündürlüyü 30 m, yaşı 900 il olan 1 ədəd şərq çinarı, həmin

kənddə diametri 370 sm, hündürlüyü 30 m, yaşı 750 il olan 1 ədəd şərq çinarı, Horovlu kəndində diametri 400 sm, hündürlüyü 30 m, yaşı 800 il olan 1 ədəd şərq çinarı, İşıqlı kəndində diametri 400 sm, hündürlüyü 25 m, yaşı 800 il olan 1 ədəd şərq çinarı, Xələfli kəndində diametri 60 sm, hündürlüyü 9 m, yaşı 300 il olan 1 armud ağacı işğala qədər qorunurdu.

Cəbrayıl rayonunda Dağtumas kəndindən 2 km şərqdə, dəniz səviyyəsindən 870 m hündürlükdə yerləşən, uzunluğu 30 metr olan «Divlər sarayı» adlanan mağara bu gün erməni terrorçularının silah anbarına çevrilib.

Cəbrayıl rayonunun şimalında Alpaşa dağında yerləşən müqəddəs «Cəbrayıl Ata» türbəsi keçmiş Cəbrayıl kəndinin təməlini qoymuş Ayətulla Cəbrayıl Həsənzadə Vedilinin qəbiri üzərində tikilmişdir. Bu VIII-IX əsrə aid uzunluğu 4,5 metr, eni 2,4 metr, hündürlüyü 1,8 metr, üzərində heç bir epiqrafik yazı olmayan alban türbəsidir. İşğala qədər tikildiyi formada qalmışdı. İşğaldan sonra dağıdıldığı barədə məlumatlar alınmışdır.

Müşahidə və düşmən hücumundan uzun müddət müdafiə olunmaq məqsədi ilə Araz çayının sol sahilində, Diridağın üzərində XII-XIII əsrlərdə tikilmiş «Qız qalası» və V-VI əsrə aid edilən, 500 $m^2$ ərazini əhatə edən «Sirik qalası» da mənfur erməni siyasətinin qurbanı olmuşdur. Şahidlərin və əsirlikdən qayıtmış girovların söylədiklərinə görə, hər iki qala tamamilə dağıdılmışdır.

Araz çayı üzərində biri 11, digəri 15 aşırımlı Xudafərin körpüləri Azərbaycan memarlığının əvəzedilməz incilərindəndir. Birinci körpünün uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. İkinci körpünün uzunluğu 200, eni 4,5, hündürlüyü 10 metrdir. Körpülər bir-birindən 800 metr aralıdır.

Minillərin təbii təsirinə sinə gərmiş, müstəsna mühəndislik qabiliyyətini özündə əks etdirən, işğaladək öz bütöv-lüyünü saxlayan bu körpülər də müharibə gedişində bir sıra uçuntulara məruz qalmışdır.

İran tərəfdən baxılan görüntülərdə Arazın sol sahilində olan Cəbrayıl rayonunun «Qızıl təpə», «Kəmərbəndli» kimi qədim islam memarlıq abidələrindən əsər-əlamət belə yoxdur. Yaşıllıqlara qərq olan kəndlər xarabalığa bənzəyir. Cəbrayıl rayonunun dağ zonası kəndində yerləşən XIII-XIV əsrlərə aid edilən gümbəzin – üstü açıq olduğuna görə «Başıkəsik gümbəz» deyilən abidənin hündürlüyü 12 metrə, diametri 5 metrə çatır. Müharıbədən qabaq gümbəz bərpa edilmişdi. İşğalçılar tərəfindən gümbəz bir neçə yerdən dağıdılmışdır. Cəbrayıl rayonunun Şıxlar kəndi yaxınlığında eyni üslubda XIV əsrdə tikilmiş Şıxlar türbəsinin hündürlüyü 8 metrə,

diametri 6 metrə yaxındır. Gümbəzin yuxarı hissəsinin də ermənilər tərəfindən dağıdıldığı qeyd olunur.

Ərazinin şimalında memarlıq üslubuna görə, orta əsr tarixində özünəməxsus yer tutan XV əsrə aid «Dairəvi türbə», XVI əsrə aid 8 guşəli türbə işğalçılar tərəfindən yerlə yeksan edilib.

Cəbrayıl rayonunun Çələbilər kəndi ərazisində XVI əsrə aid olan Məhəmməd İbn-Hacı Qaraman Əhmədli tərəfindən 1678-ci ildə tikilmiş əzəmətli bir məscid-mədrəsə var idi. Bu mədrəsədə böyük alimlər, din xadimləri, o cümlədən, XVIII əsr Azərbaycan şairi Molla Vəli Vidadi dərs demişdir. Məscid xüsusi hücrələrdən, dərs otaqlarından ibarət olmaqla özünəməxsus kompleks təşkil edirdi.

Cəbrayıl rayonunda təbiət abidəsi kimi qorunan 800 yaşı olan məşhur çinar ağacının ermənilər tərəfindən kəsilməsi nəticəsində həmin sahədə yerləşən sərin «Sulu kəhriz»in məhv olduğu bildirilir.

## ZƏHƏRLİ SULAR

Qubadlı rayonu Azərbaycanın cənub-qərbində, Zəngəzur dağları ilə Dağlıq Qarabağ silsiləsinin arasında 35 km uzunluğunda Ermənistanla sərhəddə yerləşir.

Ərazisi dağlıq olsa da, onun əlverişli Gəyən, Yazı düzü, Həkəri, Bərgüşad çay vadiləri vardır.

Müxtəlif mənbələrə görə, rayon XVI əsrdə həmin ərazidə yaşamış Qubad bəyin adını daşıyır.

Doxsan üç kənddən ibarət olan rayonun ərazisi dağlıq, dağətəyi və aran zonalarından ibarətdir. Zəngin coğrafi şəraiti, mülayim iqlimi, münbit torpağı var.

**Bərgüşad çayı** (Bazarçay) – Araz çayının sol qolu olmaqla öz mənbəyini Kəlbəcərdən götürür, uzunluğu 158 km, su toplayıcı sahəsi 5600 $km^2$-dir. Ona Qubadlı ərazisindən Ağa, Bəxtiyarlı və Davudlu kiçik çay qolları axır. Çayın hövzəsindən azca aralı dəfn olunmuş Ayətulla Xankişinin, Ayətulla Muradın, Ayətulla Faruzun ziyarətgaha çevrilmiş məzarları partladılıb. Məlumata görə bu üç ayətullah İrandan köçüb gələn din xadimlərindən olub. Çayın hövzəsinin 2020 $km^2$-i, çay yatağının isə 93 kilometri Ermənistan ərazisinə düşür. En kəsiyindən az sulu illərdə respublika ərazisində 9,3 $m^3$/san, çox sulu illərdə isə 29,9 $m^3$/san su axır. Ermənilər sənaye və məişət-çirkab sularını bu çaya yönləndiriblər.

**Həkəri çayı** – Araz çayının sol qolu olmaqla uzunluğu 113 km, su toplayıcı sahəsi 2570 $km^2$-dir. Çayın en kəsiyindən az sulu illərdə 6,27 $m^3$/san, orta sulu illərdə 15,3 $m^3$/san, çox sulu illərdə isə 24,2 $m^3$/san su axır. Çayın suyundan içmək və suvarma məqsədi ilə istifadə olunurdu. Bu gün ondan – zəhərli sudan istifadə edilməsi mümkün deyil.

Qubadlı rayonunda 600-dən çox mineral maddələrlə zəngin, soyuq, şəfalı suyu olan təbii bulaqlar var idi. Bunlardan: Armudlu, Həcər, Şirinpir, Sobu, Çayzəmi, Topağac, Üçağac, Qaraağac, Kəklik, Söyüdlü-Əli, Gölçük, Qaraqışlaq, Fətə, Narlı, Turşsu, Bağırbəyli-çinar, Dəvədərə, İşıqlı-novlu, Zağlıq, İmamzadə, Qoçlar-çinarlı, Səvədərə, Ağsu, Bəylik, Almalıq, Qış bulaq, Hütməyit novlu, Mustanlı dağ, Çilli, Hacılı Əli, Quyubulaq, Şorbulaq və başqa dağ, meşə bulaqları: Novlu, Seytas, Göyərçik, Göyarabas, Xallava, Aşağı Çibikli, Yuxarı Çibikli, Əyin, Çardaxlı, Mehrili, Xocamsaxlı, Zor,

Poladlı, Dəmirçilər, Hərtiz, Göyyal, Fərcan, Saldaş, Qiyaslı, Tatar, Əliquluuşağı, Eyvazlı, Davudlu, Qədili, Qundanlı, Balahəsənli, Müskanlı, Məlikəhmədli, Qayalı, Xıdırlı, Mahmudlu, Hacılı, Hat, Deşdahat, Başarat, Armudluq, Muradxanlı, Xəndək, İşıqlı kəndlərinin təbii bulaqları daha məşhur idi. Bundan başqa 46 km uzunluğunda içməli su kəmərləri, Hal, Mahzurlu, Məmər və Xanlıq kəndlərini içməli su ilə təmin edirdi.

Qubadlının 80.250 hektar torpaq sahəsi işğala məruz qalıb. Rayonun «Yazı düzü», «Gəyən düzü» və «Məzrə düzü» kimi münbit torpaqları məşhur idi. Bu düzlər quraqlığa davamlı olduqları üçün orada əsasən taxıl, üzüm əkilirdi.

Qubadlının meşə sahəsi 13160 hektardır. Meşələrindəki qırmızı palıd, vələs, qoz, şam, ağcaqayın, göyrüş, söyüd, ardıc, yemişan, armud, zoğal, qarağat ağacları sürətlə kəsilərək daşınır.

Qubadlı rayonu ərazisində ehtiyatları 6247 min $m^3$ olan və mişar daşı istehsalı üçün yararlı, istifadəyə verilmiş Hacılı trovertin yatağı; kərpic istehsalına yararlı Xanlıqkənd (ehtiyatları 990 min $m^3$) gil yatağı; ehtiyatları, 1,1 min ton olan Eyvazlı bəzək-əlvan daşlar yatağı; istismar ehtiyatları 84 min $m^3$/gün olan Qubadlı yeraltı su yatağı işğal altındadır.

Qubadlı qəsəbəsinin ərazisində diametri 80 sm, hündürlüyü 35 m, yaşı 160 il olan 2 ədəd şərq çinarı, diametri 150 sm, hündürlüyü 20 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı, diametri 150 sm, hündürlüyü 20 m, yaşı 300 il olan 2 ədəd şərq çinarı, Gödəklər kəndində diametri 80 sm, hündürlüyü 8 m, yaşı 150 il olan 1 ədəd saqqız ağacı, Xanlıq kəndində diametri 800 sm, hündürlüyü 40 m, yaşı 1600 olan 3 ədəd şərq çinarı, Zilanlı kəndində Daşlı adlanan yerdə diametri 150 sm, hündürlüyü 35 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı dövlət qeydiyyatına alınmış təbiət abidəsi kimi qorunurdu. İşğaldan sonra bu yerlər dağıdıldı.

Muradxanlı kəndində «Qalalı» mağarası və Əliquluuşağı kəndində «Kilsə kaha» abidə kompleksi də ən qədim təbiət abidələrindən hesab olunurdu. Qubadlı şəhərində, Mahmudlu, Qayalı, Məlik Əhmədli, Ləpəxeyranlı, Avdalanlı, Xıdırlı, Balahəsənli, Armudlu və Qədili kəndləri ətrafındakı təbii qayalar haqqında fransızlar və almanlar sənədli filmlər çəkib.

Poladlı kəndinin qarşısındakı «Kəmərə qaya», «Ala qaya» və onların ətrafındakı əhəng daşlarından düzülmüş sədd, «Pisirin» bulaq qaya kompleksi, «Avadanlarlı» dərəsindəki «Damcı» bulaq ən gözəl təbiət yadigarları idi.

Başarat kəndi ərazisindəki «Topağac» mənzərəsi əfsanəvi yurd yeri idi. Məlumata görə rayonun təbii su ehtiyatlarının 31%-i «zəhərli su hövzəsi» kimi qeyd olunub.

# ÖLÜ ZONA

Zəngilan rayonu Azərbaycan Respublikasının cənub-qərbində Ermənistan və İranla sərhəddə Bakı-Culfa-Naxçıvan magistral dəmir və şosse yolları üzərində strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bir mövqedə yerləşir. Araşdırma materiallarına görə bu ərazidə ilk din xadimi Hacı Faiq Camal idi.

Rayonun ərazisi orta və alçaq dağlıq sahədə yerləşərək mürəkkəb və dərəli-təpəli səth quruluşuna malikdir. Şimal-qərbdən əraziyə daxil olan Bərgüşad silsiləsi (Süsən dağı, 1304 m) alçalaraq Bazarçayla Oxçuçay arasında Ağ Oyuq maili düzünü (hündürlüyü 400-600 m) əmələ gətirir. Şimal-şərqdə Qarabağ silsiləsinin Araz və Həkəri çaylarına tərəf alçalan yamacları təpəli Gəyən (Geyan) çölünə keçir. Qərbdə Mehri (Mehri-Güney) silsiləsinin şərq kənarı Bartaz dağı (2270 m) yerləşir. Burada yura, tabaşir və neogen çöküntüləri yayılmışdır. Ərazinin çox yerində qışı mülayim keçən isti iqlim hakimdir. Həkəri, Oxçu, Bəsit çayları rayonun cənub sərhədindən axan Araz hövzəsinə aiddir. Düzən və dağətəyi sahədə dağ-şabalıdı, dağ boz-qəhvəyi, dağlıq sahədə qəhvəyi dağ-meşə, çay dərələrində çimli çəmən torpaqları yayılmışdır. Bitki örtüyündə çöl formasiyası geniş yer tutur. Quru çöl, dağ kserofil bitkiləri, kolluqlar, dağlıq hissədə enliyarpaq meşələr (palıd, vələs və s.) geniş yayılmışdır.

Rayonda 107 hektar sahəsi olan Bəsitçay Dövlət Təbiət qoruğu, 2,2 min hektar sahəsi olan Arazboyu yasaqlıq, 4 ədəd təbiət abidəsi, 10 min hektar xüsusi mühafizə olunan Araz palıdı meşəsi, 12864 hektar dövlət meşə fondu, 1200-dək büllur sulu təbii bulaqlar, 4 mənbədən ibarət olan, tərkibcə «Yessentuki–4» suyunun tərkibinə uyğun gələn «Qotursu» mineral bulaqları, Seyidlər və Gəyəli kəndlərində turşsu mineral bulağı işğal edilib.

Rayonun ərazisindən Bakı-Yerevan dəmir yolu (Mincivandan Qafana yol ayrılır), İmişli-Laçın və Bakı-Şərur magistral şosse yolları keçirdi.

İslam memarlıq abidələrindən Hacılı kəndində dairəvi bürc, Məmmədbəyli kəndində səkkizguşəli türbə (1304-1305), Şərifan kəndində sərdabə (XIII əsr), Yenikənddə sərdabə (XIV əsr) mühafizə olunurdu. Bu gün həmin tarixi yerlər dağıdılıb.

**Araz çayı** – ərazinin ən iri çayıdır – Respublikanın ikinci əsas su mənbəyi sayılan Araz çayı öz başlanğıcını Türkiyədən götürür. Uzunluğu 1072 km (daxildə 77 km), su toplayıcı sahəsi 102000 $km^2$ (daxildə 15700 $km^2$ təşkil edir). Çay suyundan suvarmada istifadə olunur, Arazboyu tuqay meşələrinin də suvarılmasını təmin edir.

Ermənistan ərazisində yaranan çirkab suları mütəmadi olaraq (2,1 min $m^3$ /gün) təmizlənilmədən birbaşa Araz çayına axıdılır. Arazın çirkləndirilməsi Naxçıvan və Zəngilan ərazisi ilə Ermənistandan axan qollar vasitəsilədir.

Araz çayının sol qolu olan Oxçuçay öz mənbəyini Zəngəzur dağ silsiləsindən (Qapıçıq dağı) götürməklə uzunluğu 82 km-dir. Çayın su toplayıcı hövzəsi 1140 $km^2$ olmaqla en kəsiyindən saniyədə 5,9 $m^3$ (ən az sulu illərdə), 10 $m^3$ (orta sulu illərdə) və 14,6 $m^3$ (ən çox sulu illərdə) su axır. Ermənistan Respublikası ərazisində yerləşən Qaçaran mis-molibden, Qafan missaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qaçaran şəhərlərinin (o cümlədən, kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən (zərərsizləşdirilmədən) birbaşa Azərbaycan ərazisində Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini «Ölü zona»ya çevirmişdir. Çayın yatağının 43 kilometri, su toplayıcı sahəsinin isə 455 $km^2$-i Azərbaycan ərazisinə düşür ki, bu hissə daim çirklənməyə məruz qalır. Nəticədə, çay suyunda əzəldən formalaşmış mikroflora – fauna da məhv edilmiş, öz-özünü təmizləmə prosesi dayanmışdır.

Bəsitçay – Araz çayının sol qolu olmaqla öz mənbəyini Ermənistandan götürür. Çayın uzunluğu 44 km (17 km-i Azərbaycan ərazisinə düşür), su toplayıcı hövzəsi isə 354 $km^2$-dir (156 $km^2$-i Azərbaycan ərazisinə düşür). Çay, Ermənistanın dağ kəndlərindəki donuz fermalarının tullantıları ilə çirkləndirilir.

Zəngilan rayonunda Dövlət Meşə Fondu və digər ərazilərdə 10 min hektar Araz palıdı (guerocus araks) meşələri dövlət tərəfindən xüsusu olaraq qorunurdu.

Zəngilan rayonu təbii iqlim şəraitinə və münbit torpağına görə zəngin meşə və hər növ bitki örtüyü ilə xarakterikdir. Ərazinin daha çox hissəsini əhatə edən Araz palıdı fıstıqkimilər fəsiləsindəndir. Nadir növdür. Rayonun Bartaz, Gəyəli, Ördəkli, Şayıflı, Yeməzli, Keçikli, Rəzdərə və başqa kəndlərinin ətrafında geniş yayılmışdır. Aşağı dağlıq qurşaqda dəniz səviyyəsindən 1000-1300 metr yüksəklikdə bitir. Kserofit seyrək meşə əmələ gətirir. Zəngilan rayonunda xüsusi qiymətli meşə kimi qorunurdu.

Rayonda geniş yayılan bitkilərdən biri də şərq çinarıdır (platanus orientalis). Şərq çinarı ehtiyatı azalmaqda olan relikt növdür. Zəngilan rayonunun Bəsitçay və Oxçuçay vadilərində təbii halda bitir, digər sahələrdə də geniş yayılmışdır, çay sahillərində dəniz səviyyəsindən 1000 metr

yüksəkliyə kimi dərələr boyunca qrunt sularının kifayət qədər rütubətləndirdiyi sahələrdə bitir. Bəsitçay Dövlət Təbiət Qoruğunda mühafizə olunurdu. Bu qoruqda 1895-ci ildən mövcud olan «Babayurd» islam ziyarətgahı da bu ərazidə idi. Məlumata görə bu ziyarətgah ermənilər tərəfindən dağıdılıb. Halbuki 1979-cu ildə yazıçılar qarşısında çıxış edən erməni yazıçısı M.Şaqinyan deyirdi: «...«Babayurd» müqəddəs yerdir. Oranın ziyarəti məni iki dəfə sağaldıb».

Şərq çinarı quraq yamaclarda çay vadilərində bitən, ərazidə geniş yayılmış bitkidir. Zəngilan rayonunun Bartaz, Ördəkli, Vejnəli, Beşdəli, Genlik, Yeməzli kəndlərində daha çox yayılmışdır.

Zəngilan rayonunun Muğanlı kəndində diametri 50 sm, hündürlüyü 8 m, yaşı 250 il olan 1 ədəd dağdağan, Mincivan qəsəbəsində diametri 60 sm, hündürlüyü 20 m, yaşı 120 il olan 1 ədəd şərq çinarı, həmin qəsəbədə diametri 100 sm, hündürlüyü 30 m, yaşı 300 il olan 1 ədəd şərq çinarı, Ördəkli kənd sovetində Zəmiyeri adlanan sahədə diametri 60 sm, hündürlüyü 12 m, yaşı 160 il olan 1 ədəd palıd ağacı təbiətin nadir varlığı kimi qorunurdu.

Zəngilan rayonunda Vejnəli qızıl yatağı, ehtiyatları 6618 min $m^3$ olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı yatağı, təsdiq edilmiş ehtiyatları 129 mln. ton olan soda və «əhəng südü» istehsalına yararlı Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı yatağı, qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı (ehtiyatları 6024 min ton), Bartaz-I və Bartaz-II porfirit (ümumi ehtiyatları 28943 min $m^3$) yataqları; kərpic-kirəmit istehsalına yararlı Zəngilan gil (ehtiyatları 1102 min $m^3$), ehtiyatları 17367 min $m^3$ olan Zəngilan qum-çınqıl qarışığı yatağı işğal altında qalıb.

Zəngilan rayonu coğrafi mövqeyinə, torpaq və iqlim xüsusiyyətlərinə görə füsunkar gözəlliyə, zəngin təbiətə malikdir. Təsadüfi deyildir ki, Avropada birinci, dünyada ikinci təbii çinar meşəliyi məhz bu rayona nəsib olmuşdur və mühafizə olunması məqsədilə Kiçik Qafqazın cənub-qərb hissəsində Bəsitçay vadisində Azərbaycan hökumətinin 4 iyul 1974-cü il tarixli qərarı ilə Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Qoruğun ərazisi ilkin mərhələdə 117 hektar təsdiq olunmuşdu. Lakin sonralar, 1980-ci ildə heç bir əsaslı səbəb olmadan qoruq ərazisi 10 hektar azaldılmış, 107 hektara endirilmişdir. Qoruğa məxsus olan 107 hektardan 100 hektarını meşə, 7 hektarını isə qumluqlar, daş yığınları təşkil edir. Hazırda Bəsitçay Dövlət Təbiət Qoruğu ərazisinə görə respublikamızın qoruqlarının ən kiçiyidir. Bəsitçay Dövlət Təbiət Qoruğunun uzunluğu 15

kilometrə, eni isə bəzi yerlərdə 150-200 metrə çatır. Qoruq Ermənistanın Qafan və Azərbaycanın Zəngilan rayonunun dövlət meşə fondu torpaqları ilə həmsərhəd idi.

Qoruq dəniz səviyyəsindən 600-800 metr hündürlükdə, əsasən dağlıq ərazidə yerləşir.

Bəsitçay qoruğunun və onun ətraf sahələrinin hidroqrafiyası, əsasən, Bəsitçaydan, onun Sobuçay, Topçay, Şıxavuzçay qollarından ibarətdir. Bəsitçayın uzunluğu 44 km:, hövzəsinin sahəsi 354 $km^2$-dir. Dəniz səviyyəsindən 2600 m hündür olan Zəngəzur dağ silsiləsindən başlayıb Araz çayına tökülür. Qar, yağış, qismən də yeraltı sulardan qidalanır. İllik axımının çox hissəsi yazda və payızda müşahidə edilir.

Bəsitçay Dövlət Təbiət qoruğunun sahəsinin 93,5%-ni çinar meşələri tutur. Onlar Bəsitçay və onun qolu Şıxavuzçayın dərəsində yerləşir. Burada həm təmiz, həm də qarışıq çinar meşəliyi yayılmışdır. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə bir metrdir. Burada yaşı 1200-1500 ilə, hündürlüyü 50 metrə, diametri 4 metrə çatan çinar nümunələri var.

Qoruq ərazisinin ətrafındakı meşələr gürcü palıdı, qafqaz vələsi, adi göyrüş, söyüd, ardıc, dağdağan, saqqız və s. ağaclardan ibarət mezofit və arid meşələr çinarlığın müxtəlif tərəflərində, sərhəddindədir. Bu çinar meşələrinin əmələ gəlməsi haqqında müxtəlif fikirlər var. Bəzi tədqiqatçılar onlara qədim meşələrin qalıqları kimi baxırlar (A.A.Grossheym), bəziləri isə vaxtilə cənub-qərbi Zaqafqaziyanın çay dərələrində geniş yayılmış təbii çinarlıqların qalığı hesab edirlər (L.Y.Prilipko, Y.S.Səfərov).

Zəngilan rayonu öz coğrafi mövqeyinə görə, tarixi qədimliyinə görə heyrətamiz abidələr məskənidir.

Zəngilan şəhərindən 8 km aralı Əsgülüm dağında 30 m hündürlüyündə, 150 metr enində «Qala» hörgü divarları 3-5 əsr bundan əvvəl tikilmiş, müdafiə əhəmiyyəti kəsb edən tarixi islam memarlıq abidələrindən biridir. Qala divarlarının üstündə Quran ayələrindən yazılmış daş parçalarının bir qismi qoparılaraq... ayaqyoluna düzülüb. Belə bir təhqiredici işlə bağlı Bakıdan on iki ziyalının imzası ilə BMT-yə 1996-cı ilin sentyabrında məktub göndərildi. Bu etiraz məktubuna hələ ki bir cavab yoxdur.

Həmin «Qala»dan 2000 metr aralıda olan və içərisində 100-150 nəfər gizlənə bilən «Kuful» deyilən daş yarığı uzaq tarixi keçmişimizdən yadigardır. Bu «Kuful»un hündürlüyü 15 metrdən çoxdur. İşğaldan qabaq həmin tarixi sahələr gənclərin ekskursiya yerinə çevrilmişdi. Rayonun

Məmmədbəyli və Babaylı kəndlərində olan türbələr, Şərifan kəndində olan qədim abidələr, naməlum tarixə malik batmış yeraltı qədim Şəhri-Şərifan şəhəri tariximizin açılmamış sirr yaddaşıdır.

Zəngilan rayonunda olan Bəsitçay Dövlət Təbiət Qoruğu Ermənistanın Sav və Hənd kəndləri ilə sərhəddə yerləşir. Qoruğun Avropada analoqu olmayan bu nəhəng çinar ağacları ermənilər tərəfindən qəddarlıqla məhv edilir. Ermənistanın Sav kəndindən olan mənbədən əldə edilən məlumata görə, Bəsitçay qoruğu yerləşən Rəzdərə kəndində mebel materialı hazırlayan sex açıb işlədirlər və ətrafda olan çinar, palıd, qoz ağaclarını tamamilə qırıb məhv edirlər. Ermənin dediyinə görə, sex fasiləsiz olaraq işləyir. Qırılan ağacların izini itirmək üçün kökünə partlayıcı maddə qoyub dağıdır, sonra isə yandırır və yerini də əkirlər.

1996-cı ildə «Daş-başı» və «Leşkar» meşələrində ermənilər yanğın törədiblər. Həmin ilin payızında «Leşkar» meşə sahəsində isə yararlı ağacları tam qırıb aparıblar. «Leşkar» meşə sahəsində 1957-58-ci illərdə 55 ha ərazidə qoz meşəsi salınmışdı. Orada olan 40-60 illik qoz ağacları da ermənilər tərəfindən qırılaraq aparılıb.

1996-97-ci illərdə Top və Şükürataz meşə sahəsində 3 ədəd T-130 markalı traktorla meşələrə yol çəkirmişlər. Bu zaman həmin meşə sahələrində olan 350-400 yaşı olan palıd ağacları da ermənilər tərəfindən qırılıb aparılıb. Məlumata görə, «Daş-başı» meşəsinin ərazisində (Cənub tərəfdə) ermənilərin təsadüfən tapdıqları iki yüz yaşı olan İslam dinilə bağlı qədim kitabxananın sərvəti talan edilib yandırıldı. «Ağabazar ibn Yəhya» adı ilə tanınan bu kitabxana haqqında isə tarix hələlik susur.

İşğal olunmuş ərazilərimizin coğrafiyasını tədqiq edən erməni alimi, professor A.Aftandilyan 2011-ci ildə Yerevanda nəşr etdirdiyi «Qədim erməni kitabı»nda qədim Zəngilan ərazisini yaxın illərədək sıradan çıxmaq ehtimalı böyük olan «Böyük ölü zona» adlandırıb.

**P.S.** Erməni separatçıları tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində onların törətdikləri ekoloji terrorun miqyası dəhşətdir. Bununla bağlı 2013-cü ilin dekabrın 18-də Azərbaycan MEA-nın İnsan hüquqları İnstitutunda "NATO və Cənubi Qafqazda təhlükəsizlik konsepsiyası" mövzusunda keçirilən konfransda Avropa ölkələrinin Azərbaycandakı diplomatları iştirak edib, törədilmiş terror faciəsi haqqında geniş bəhs olunub, fakt və sənədlərlə bir daha tanış olublar.

# EYNİ FACİƏNİN SİNDROMLARI: KORSİKA-XOCALI

*(söhbət hər iki genosid olunmuş ərazidə məhv edilmiş inanc yerləri və din xadimləri haqqında gedir)*

2002-ci il aprelin ortalarında prezident seçkilərinin 1-ci turuna cəmi bir neçə gün qalmış Fransa prezidenti Jak Şirak ən problemli region olan Korsikaya səfər etdi. O, separatçıların bütün ümidlərini alt-üst edərək, Bastiya hava limanına uçuş zamanı qətiyyətlə bəyan etdi: «Mən Korsikanın bu və ya digər üsulla ölkədən ayrılmasına yol verməréəm» və adanın gələcəyi barədə «ikimənalı müzakirələri» dayandırmağa çağırdı.

«Korsikalı problemi mövcud deyil, Korsikada problem var, – deyə prezident əlavə etdi: – Bu, sosial dincliyi kökündən sarsıdan, dinlərarası münasibəti sarsıdan, iqtisadi inki-şafa mane olan və ciddi özəl investorları qorxudan zorakılığın dayandırılmamasıdır».

Fransada Baş nazir seçkilərinə iki il qalmış sosialist Neospenin geniş muxtariyyət vermək yolu ilə Korsika probleminin nizamlanması üzrə təklif etdiyi «Mation prosesi» səhv və «tədricən təsir göstərən bomba» idi. Fransanın sağ təmayüllü siyasətçiləri, artıq, dəfələrlə bu nöqteyi-nəzəri dəstəkləyiblər. Neospenin və digər solların ideyası ilə adaya geniş səlahiyyətlər verən qanun layihəsi 2004-cü ildən başlayaraq, parlamentdə qızğın mübahisələrdən sonra 2005-ci ilin əvvəlində Konstitusiya Şurası tərəfindən ləğv edilmiş və sağlar qalib gəlmişlər. Korsika Məclisinə – yerli qanunverici orqana səlahiyyət verən 1-ci maddə dəyişdirilmiş, onlara «Fransa Parlamentinin nəzarəti altında» öz qanunlarını qəbul etmək hüququ verilmişdi (Korsika Fransadan ayrılmaq istəyir. Bu da Fransanın ərazi bütövlüyünə qəsd kimi qiymətləndirilir –***V.S., R.V.***)

Bir il əvvəl adanın statusu barədə danışarkən Jak Şirak öz fikirlərini belə ifadə etmişdi: «Açıq və aydın deyirəm: 2004-cü ildə və ya nə vaxtsa dünən rədd etdiyimə sabah yol verməyəcəyəm. Respublika, xalq vahiddir, qanun hamı üçün eynidir və yalnız respublika parlamenti onları qəbul edə bilər. Separatçılar «özbaşınalıqlara son qoymalıdırlar». Beləliklə, Korsika problemi üzrə kurs, Prezident tərəfindən dəqiq müəyyən edilmişdir. Buna baxmayaraq, baş verən bir sıra terror aktları keçirməklə və səs-küylü çıxışlar

etməklə, separatçılar sahibkarlara və investorlara yeni başağrısı gətirmiş adanın mənfi investisiya imicini yaratmışlar. Terror aktlarının yeni dalğasının başlanmasından sonra bir çox sığorta şirkətləri partlayış və yanğından zərər çəkə bilən daşınmaz əmlaklı binaların, şəxsi villaların və digər obyektlərin sığortalanmasından imtina etmişdi. On bir kilsə və ibadət mərkəzi dağıdılmış, 642 nəfər din xadimi güllələnmişdi. Maraqlısı bu idi ki, bu dini ədavətin alovları, artıq, Fransanın bəzi yaşayış məntəqələrini gəzməkdə idi.

2003-cü ilin avqustunda müsahibə verən Korsika prokuroru Patrik Lodon da hadisələri belə qiymətləndirir: «Biz, uzun illər ərzində öz ərazimizdə yaşadığımız hədsiz qaranlıq bir dövrə daxil oluruq». Prokuror daha sonra əlavə etmişdir ki, Korsika hakimiyyəti zorakılıq aksiyalarının sonrakı artımından qorxur. Bu, həm də əldə düzəldilən partlayıcı qurğulardan istifadə yolu ilə klassik tipli terror aktları, həm də hədsiz ağır nəticələr verən hərbi aksiyalar tipli ola bilər.

Sonda prokuror demişdir: «Biz öz narahatçılığımızı hakimiyyətin yüksək ierarxik sistemi üzrə söyləmişik və ümid edirik ki, yaxın günlərdə bizə həm adamların, həm də maddi əmlakların təhlükəsizliyini təmin etməyə imkan verən əlavə qüvvə və vasitələr təqdim ediləcək».

Biz maraqlı məqama toxunduq. Fransa ATƏT-ə üzv olan dövlətlərdən biri kimi, Dağlıq Qarabağ probleminin həllində iştirak edir. Dağlıq Qarabağla Korsika arasındakı oxşarlığa baxın. Hadisələr bir-birini tamamlayır. Təəssüflər olsun ki, Fransa heç vaxt bu oxşarlıqdan çıxış etmir, ərazi bütövlüyümüzə qəsd edən erməni separatçılarını bu ədalətsiz əməllərindən çəkindirməyə çalışmır.

Fransanın «Antenn-1» telekanalı vasitəsilə Dağlıq Qarabağın erməni keşişləri və başqa dini liderləri haqqında hazırlanan və təkrar-təkrar yayımlanan verilişlərdə qeyd olunurdu ki, islam heç vaxt ədaləti bərpa etməyib. Ədalət ancaq xristianların, ümumən xaç gəzdirənlərin əlindədir.

Verilişdən sonra (bu veriliş 2004-cü ilin iyul ayında, 2010-cu ilin mart ayında qondarma «Artsax TV»də yayımlandı) torpaqlarını, yurdlarını itirmiş insanlar ermənilər tərəfindən güllələnmiş din xadimlərinin, eləcə də üstündə Quran yandırılan uşağın fotosunu Fransanın Azərbaycandakı səfarətxanasına məktubla bir yerdə təqdim ediblər.

# "XOCALIYA ƏDALƏT!» YENİ YÜZİLLİYİN STRATEJİ MODELİ KİMİ… VƏ YA «XOCALIYA ƏDALƏT!» AZƏRBAYCANLILAR ÜÇÜN YENİ İDEOLOGİYA

Bu gün bəşər tarixində beynəlxalq terrora qarşı, zülmə və zülmkarlara qarşı, ədalətsiz və vicdansız işlərə qarşı, günahsız insanları məhv edən separatçılara qarşı, torpaqları işğal edib, viran qoyan silahlı birləşmələrə qarşı… barışmaz mövqedə dayanan və bütün bunlara öz möhürünü vuran Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı bizim üçün möhtəşəm bir ideologiyanın başlanğıcı ola bilərmi? Ulu Öndərimiz Heydər Əliyevin ötən əsrdə səsləndirdiyi «Qoy ədalət zəfər çalsın» çağırışı ideoloji mübarizədə ən böyük siyasi sənəd və yaxud proqram idi. Biz bu çağırışı bu gün bəşəriyyəti düşündürən və onu hərəkətə gətirən Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!»in başlancığı kimi qəbul edirik. Fikrimizcə «Xocalıya Ədalət!»in fəlsəfəsi ictimai-siyasi baxımdan getdikcə bizim üçün ideologiyaya çevriləcək. Məsələn, fransızların «De Qol sülh istəyir» fikri ölkənin ictimai-siyasi mühütində vaxtilə ən ciddi ideoloji baza sayılırdı. Sonra bu ideologiyadan çıxış edən ölkə rəhbərliyi, siyasi partiyalar, hərbi və təhlükəsizlik qurumları bu ideoloji çağırışları rəhbər tutaraq terrora və müharibələrə qarşı mübarizəyə başladılar. Fransada həmin vaxt «De Qol sülh istəyir» çağırışı eyni məqsəd uğrunda müxalifət və iqtidar partiyalarını da bir sıraya gətirmişdi. Biz bu gün eyni xətti «Xocalıya Ədalət!»də görürük. Qısa zaman fasiləsindən sonra Azərbaycanda da iqtidar və müxalifət partiyaları erməni separatçılarına qarşı mübarizədə bir araya gəlməyə müvəffəq olacaqlar.

«Xocalıya Ədalət!» ideoloji çağırışı çərçivəsində biz, beynəlxalq terror təşkilatlarının, erməni silahlı birləşmələrin və qrupların torpaqlarımızı – Dağlıq Qarabağ ərazilərini necə dağıdıb, viran qoymalarını da təhlil etməyi bacarmalıyıq. Çünki belə bir yanaşma metodologiyasını verən də məhz «Xocalıya Ədalət!» siyasi çağırışıdı. «Xocalıya Ədalət!» bizə imkan verir ki, terrora məruz qalmış insanlarımız və ayrı-ayrı yaşayış məntəqələrimiz haqqında da ictimaiyyətə, eləcə də bəşəriyyətə, demokratik institutlara məlumat verək. «Xocalıya Ədalət!»in siyasi uğurlarından biri də elə budur.

Araşdırma materiallarına görə, Vatikanda baş ideoloq Jozef Ramrinqer tərəfindən (o, həm də Vatikanın Ermənistan üzrə məsləhətçisidir – **V.S.,**

**R.V.**) «İsa Mərkəzinin müraciəti. Kilsə və İsa Peyğəmbərin vahid və universal azadlığı haqqında» Doktrina 2010-cu ilin aprelin 20-də Ermənistanın Təhlükəsizlik Şurasında müzakirəyə çıxarıldı. 2010-cu il aprelin 29-da isə Vatikanda nəşr olunan «Roma şərhçisi» ( "Osservatore Romano") gündəlik dini-siyasi qəzeti Eçmiədzindən gələn xəbərlərə münasibətini açıqlayır. Qəzet yazır ki, Dini Doktrinaya münasibət bildirən Erməni kilsələri ... dualarını yarımçıq saxladılar. Roma Papasına məktub ünvanlayan ermənilər soruşurlar: biz nə edək? Din qardaşlarınız boğulur və özlərini qəfəsdə hiss edir. Bizim (yəni Ermənistanın – ***V.S. və R.V.***) bir tərəfimiz Türkiyə, bir tərəfimiz İran, bir tərəfimiz də Azərbaycandır. Hər üçü də müsəlman əraziləridir. Balalarımız hər səhər, axşam bu ərazilərdəki məscidlərdən qalxan azan səsindən qorxub qaçırlar... Vatikan Doktrinasında bizim kimi kiçik ərazilərdə yaşayan və Allaha ibadət edən din qardaşlarınızın taleyi unudulub. Bizə yardım edin. Türklərin ayağı altında və işğalında qalan əzəli torpaqlarımızı azad edin...» (Bax: "MAF" agentliyiniin 2010-cu ilin aprelin 20,24,26,29-da yaydığı xəbərlər. Əlavə olaraq, bax: "Osservatore Romano" qəzeti. Vatikan.2010 IV-29).

Bundan bir qədər sonra erməni kilsəsinin Livandakı katolikosu və ermənilərin ölkədəki başçısı I Aram Tehran erməni kilsəsilə, o cümlədən Avropadakı, Amerikadakı erməni kilsələrilə əlaqələrin genişləndirilməsinə çağırdı və ABŞ-ın Merilend ştatında keçirilən dini yığıncaqda (Emitteberq şəhəri, 2010-cu il, iyulun 6-sı) etdiyi çıxışında bir daha vurğuladı: «...Torpaqlarımız min illərdir ki, (?) türklərin ayaqları altındadır. Baxın, XVIII əsr dünyaya insan hüququ verdi, XIX əsr insana siyasi azadlıq verdi, XX əsr iqtisadi inkişafı verdi... XXI əsr də, şübhə etmirəm ki, mənəvi dəyərlərin, dini baxışların oyanmasını və inkişafını verəcək...» (bax: «Tribuna» qəzeti, (ABŞ), 2010).

Məlumata görə, dünya kilsələrinin bu harayından sonra (çünki, artıq, kilsə din xadimləri Vatikan Doktrinasını deyil, Ermənistandakı xaç qardaşlarının «acınacaqlı vəziyyətini» müzakirə edirdilər – ***V.S. və R.V.***) Ermənistana yardım üçün təqribən 1,5 milyard dollar vəsait ayrıldı... Məqsəd regionda baş verənləri, xüsusən Dağlıq Qarabağ ərazisindəki hadisələrə dini don geyindirməyə çalışaraq, bu istiqamətdə «...bir anlığa dünyanı sarsıda biləcək Səlib yürüşünü təşkil etmək...» idi. (Ermənistan Təhlükəsizlik generalı E.Abramyanın 1990-cı il yanvarın 14-də Parisdə jurnalistlərlə keçirilən görüşündən) (Bax: "DRO"nun bülleteni. Erevan.1990, I-20).

Araşdırma materiallarına görə, Erməni icmasının RF-dəki Daimi Nümayəndəliyində (nümayəndəliyin rəhbəri Ara Abramyandır) Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» Beynəlxalq terrora qarşı strateji yeni modeli ilə bağlı erməni iş adamlarından və alimlərindən ibarət xüsusi tədqiqat komissiyası yaradılıb. 2009-cu ilin fevralın 20-dən başlayan (komissiyanın ilk iclası Moskvada, «Ararat» mehmanxanasında, 2-ci mərtəbədə 2009-cu ilin fevralın 18-də keçirilib) bu «Xüsusi tədqiqat komissiyasi»nın əsas vəzifəsi «Xocalıya Ədalət!»in kampaniyası ilə bağlı keçirilən bütün tədbirlərdə irəli sürülən fakt və sənədləri təkzib etmək, beynəlxalq aləmə yalan məlumatlar yaymaqdan ibarət olub.

Müharibədən əvvəlki və müharibədən sonrakı araşdırma materiallarına nəzər salaq. 1991-ci il iyun ayının 3-də (ünvan: Ermənistan, Yerevan, Baqramyan prospekti, 71) «Xaçların ittifaqı» yaradıldı (məlumata görə, bu İttifaq Ermənistan Hərbi Xüsusi İdarəsinin layihəsi əsasında yaradılıb. B a x : Azərbaycan Respublikası Prezidenti Yanında Xüsusi İdarənin məlumatları.1994, qovluq №408. MTN-in arxivi). Sonra təcili olaraq bu separatçı dini ittifaqın Xocalıda və onun əsas əhalisinin sıx olduğu yaşayış məntəqələrində, Xankəndində, Laçında, Şuşada, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda, Ağdərədə, Ağdamda, Füzuli və Cəbrayıl ərazilərində özəkləri quruldu. Ordudan və xüsusi xidmət orqanlarından tərxis olunmuşlar işə cəlb olundular. Bu vaxt onların qarşısında ancaq bir vəzifə qoyulurdu: hər kəs öz ərazisində islam dininin atributları, xüsusən hörmət və izzət sahibi olan din xadimləri, məscid, dini ibadət, ziyarətgahlar, Bakı ilə qurulan dini əlaqələr haqqında məlumatların toplanmasını təşkil etmək üçün xüsusi «kəşfiyyat materialları» əldə etməlidir. Ermənistan qoşun kontingenti üçün nəşr olunan «Artsak» bülletenində göstərilirdi ki, «Erməni Gənclər Təşkilatı» Dağlıq Qarabağ ərazisində 1350 islami atributu məhv edərək dağıdıb. Onların yerində isə «Xaçkara»lar qurulub. Məsələn, təkcə Xocalıda 22 nəfər din xadimi səbəbi olmadan güllələnib, 600 nüsxədən çox Qurani-Kərim yandırılıb. Xocalıdan ilk dəfə (1988-ci il) Həcc ziyarətinə getmiş Hacı Mahmud Əlirza oğlu Mürsəlov dar ağacından asılıb.

Araşdırma materiallarına görə, 1991-ci il sentyabrın 21-də müstəqillik qazanan Ermənistan birinci olaraq ölkənin müstəqil xüsusi xidmət orqanlarını – «Ermənistan Hərbi Xüsusi İdarəsi»ni yaratdı. 1991-ci il sentyabrın 26-da Xüsusi İdarədən göndərilən «əsgərlər» Dağlıq Qarabağ ərazisindəki «Xaçlar İttifaqı»nın yerli şöbələrinə işə göndərildilər. 1991-ci il

sentyabrın 29-da isə respublikada keçmişdə xüsusi xidmət orqanlarında çalışan şəxslərin səfərbərliyi elan olundu. 1991-ci il oktyabrın 4-də isə Ermənistana Vatikandan və Cənubi Afrika Respublikasından, Bəhreyn və Qətərdən... eləcə də, Şərqi Avropanın bir neçə ərazisindən kömək üçün (?) emissarlar göndərildi. Ermənistanda buraxılan xüsusi vərəqələrdə iddia olunurdu ki, guya azərbaycanlılar Dağlıq Qarabağ ərazisində «İncil» və «Tövrat»ı yandıraraq kilsə və sinaqoqları təhqir edir, keşişləri, yepiskopları, ravvinləri öldürür, onların meyitlərini eybəcər hala salırlar (B a x: Azərbaycan Respublikası Prezidenti Yanında Xüsusi İdarənin 1994-cü ildə tərtib olunmuş arayış-hesabatlarından, qovluq №207. MTN-nin arxivi).

Məlumata görə, bundan sonra Keyptaunda (CAR) ermənilərdən ibarət olan «İnsan Hüquqları Müdafiə Təşkilatı»nın siyası bürosu Ermənistanın xeyirinə bəyanat imzalayıb. Siyasi sənədə görə dünyadakı bütün kilsələrin ermənilərin müdafiəsi üçün hazır olmaları lazım bilinirdi. Siyasi mərkəzdə hazırlanmış sənədə görə ermənilərə qarşı edilən hücumlar mahiyyət etibarı ilə «Dini-siyasi hücumlar» idi. Azərbaycanın Dağlıq Qarabağ yaşayış məntəqələrində baş verən hadisələr haqqında isə o vaxt Azərbaycan DTK-nın Dağlıq Qarabağ şöbəsi susurdu. Xankəndi ilə nəqliyyat əlaqələri, demək olar ki, pozulmuşdu. Ermənista-nın müstəqillik əldə etməsinə baxmayaraq, Yerevan DTK-sı RF-nin xüsusi xidmət orqanları ilə mövcud olan əlaqələrini qırmağa tələsmədi. Nəticədə, bir-birinin ardınca Kremlə göndərilən teleqram və məktublarda ermənilər iddia edirdilər ki, Azərbaycan tərəfi Ermənistana qarşı dini müharibəyə başlayıb. Məsələn, həmin vaxt Yerevan DTK-sının mayoru Arames Odelyan Kremlə ünvanladığı teleqramda yazırdı: «...Bu gün Yerevan iki böyük din xadimini dəfn etdi. Tanınmış hər iki din xadimi (Sulvan Manvelyan və Sidor Canıbekyan) regionda əsl sülh carçıları idi və onlar qardaş qırğınlarının (?) əleyhinə idilər. Hər iki din xadimi Stepanakertin mərkəzində güllə ilə vuruldular. Azərbaycanlılar bizə– xaç gəzdirənlərə qarşı əsl dini hücuma keçiblər. Bizi qırırlar. Biz nə edək? Xaçımızı, kilsəmizi düşmənlərdən xilas edin...» (B a x: SSRİ (RF), MN arxivi, f.1781,s.173392, İ2).

Araşdırma materiallarına görə, Sulvan Manvelyan və Sidor Canıbekyan adlı erməni din xadimləri olub, lakin onlar Stepanakertdə (Xankəndində – ***V.S. və R.V.***) deyil, Türkiyənin Antaliya yaşayış məntəqəsində kürdlər tərəfindən qətlə yetiriliblər. Hadisə isə 1990-cı il mayın 9-da baş vermişdi...

Təəssüf ki, Moskva bu yalan və uydurma xəbərləri icmal şəklində Kremldə məxfi qaydada yaratdığı (bu qurum keçmiş İttifaqın müsəlman regionlarında ictimai-siyasi vəziyyəti araşdırmaq üçün Baş Kəşfiyyat İdarəsinin nəzarətində olan məxfi mərkəz idi. Məlumata görə 1986-cı ildən 1994-cü ilədək bu məxfi mərkəz kəşfiyyat generalı L.D.Xromovun nəzarətində olub) Ali Dini Şuraya baxılmaq üçün göndərirdi.

Tehranda nəşr olunan «Keyhan» gündəlik qəzetində isə (1991-ci il aprelin 16-da) çap olunmuş xəbərlər sırasında məlumat verilirdi ki, erməni separatçıları Stepanakertdə (Xankəndində) 76 yaşlı din xadimi Əli Abbas Qədirullah İrəvani adlı birisini qətlə yetirdilər.

Araşdırma materiallarına görə, o vaxt Azərbaycan xüsusi xidmət orqanlarına heç bir xəbər verilməmişdi. Ümumiyyətlə, Dağlıq Qarabağ ərazisində müsəlman din xadimlərinə, eləcə də azyaşlı müsəlman uşaqlarına verilən işgəncələr haqqında, çıxarılan ölüm hökmləri və qətllər haqqında Azərbaycan tərəfi məlumatsız idi.

Yerevan isə Bağdadda nəşr olunan kürd yönümlü «İraq» adlı qəzetdə (1991-ci il, 26 iyul) erməni jurnalisti, Bağdadda yaşayan Şamul Osipyanın imzası ilə yazdığı xəbərdə bildirirdi ki, türklər (oxu azərbaycanlılar – ***V.S. , R.V.***) Stepanakertdə erməni yepiskoplarını güllələbaran ediblər. Nədənsə, Azərbaycan tərəfi bu xəbəri təkzib etməyə tələsmədi. Vatikan kardinalları regionda xristianlığın müdafiəsini təşkil edə biləcək «Xüsusi Bəyannamə» hazırladılar. Bu məsələlər göstərirdi ki, Dağlıq Qarabağ ərazisində baş verən ən kiçik bir hadisə beynəlxalq aləmin diqqətinə ötürülürdü.

Araşdırma materiallarına görə, digər azərbaycanlı din xadimi Hüseyn (Abbasnur) Etimadi Xocalı ərazisində ermənilər tərəfindən öldürülən, qətlə yetirilən ən məşhur din xadimlərindən biri idi (bax: "Keyhan" qəzeti. İran.1994, 19 iyul).

Öldürülən din xadimi həm Orta Asiyada, həm Qafqazda və həm də Şərq ölkələrində tanınan din xadimi idi. Ə.A.İrəvani insanların xatirində və nəzərində xeyirxah və müqəddəs bir varlıq kimi qalmışdı. Lakin onun ölümündən bir qədər sonra erməni separatçıları onun evini, arxivini ələ keçirərək, qızlarına və arvadına, nəvələrinə divan tutdular, yandırdılar. Məlumata görə gecə saat 4-dən başlanan yanğın səhərədək davam etmişdi.

Başqa bir məlumat sənədlərində göstərilir ki, Dağlıq Qarabağ ərazisində erməni separatçıların yaratdıqları «Xaçlar İttifaqı»nın rayon özəkləri haqqında o vaxt Stepanakert şəhər prokurorluğunda işləyən, Rusiyanın BKİ

ilə sıx əlaqələr quran müstəntiq E.Qəribyan ciddi məlumatlara malik idi. Doxsanıncı illərdə onun Moskvaya – xüsusi şöbəyə ünvanladığı arayışlarda (MN-nın BKİ-sinin) hər bir separatçı erməni özəyi və onun fəaliyyəti haqqında müfəssəl məlumat var idi. Məsələn, «Xaçlar İttifaqı»nın Laçında yaratdığı özəyi haqqında yazılırdı ki, bu özəkdə çalışan ermənilərin arasında kənardan gəlmə şəxslər də görünürdü. Müstəntiq E.Qəribyan tərtib etdiyi arayışların birində yazırdı: «...Moskva, 04/247 nömrəli sifarişçiyə:

Həmkarım Maksimov M.D. mənimlə görüşdü. İttifaqın Nizamnaməsində etdiyimiz dəyişikliklər effekt vermədi və yaxud, yaxşı qarşılanmadı».

Araşdırma materiallarına görə, 247 nömrəli sifarişçi əslən erməni olan və 1990-cı il avqust ayının 14-dən Rusiyanın «Suxoy» hərbi-sənaye kompleksində çalışan, ixtisasca müəllim Aleksey Damadyan adlı birisi idi. A.Damadyan 1990-cı il dekabrın 1-dən Rusiyanın MN-nın hərbi kəşfiyyatına daxil olur. Bir aydan sonra oradan qovulur. Məlumata görə, onun qovulmasına səbəb işlədiyi idarənin nizamnaməsini pozması olub. A.Damadyan tez-tez Fransanın RF-dəki diplomatik korpusuna təşrif gətirib... MN-nın müstəntiqi M.Maksimov isə onunla bağlı verdiyi arayışda qeyd edir ki, A.Damadyanla heç bir dostluq əlaqəsi olmayıb. Onunla cəmi iki dəfə görüş keçirilib. O, işğal olunmuş regionda dini zəmində hadisələri dərinləşdirən, siyasi qətllər törədən adam olub. Dağlıq Qarabağda İslam dininin parçalanmasına xidmət edən, dindarlara qarşı törədilmiş siyasi aksiyaların iştirakçısı və təşkilatçısıdır. Başqa bir məlumatda isə kəşfiyyat polkovniki M.Maksimov bildirir ki, o, Parisdə Azərbaycanın din xadimlərini, İslam mədəniyyətini təhrif edən «Müsəlmanların Dağlıq Qarabağdakı hiylə pərdəsi» adlı kitabını nəşr etdirməyə cəhd göstərib. Lakin yerli müsəlmanlardan qorxduğu üçün kitab nəşr olunmayıb. M.Maksimov bunu da bildirib ki, kitabın nəşrinə maneçilik törədənlər Azərbaycanın Fransadakı diplomatları olub. M.Maksimovun başqa bir açıqlamasında isə bildirilir ki, erməni A.Damadyanın bu kitabı və kitab haqqında geniş məlumat RF-nin Baş Kəşfiyyat İdarəsində saxlanılır. Orada hamının Dağlıq Qarabağın hər bir yaşayış məntəqəsində «Xaçlar İttifaqı» terror təşkilatının dini zəmində törətdikləri cinayətlər var ( bax: "Yeni gün". Türkiyə. 1994, 2 fevral ) .

Araşdırma materiallarına görə, Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» strateji konsepsiyasının (biz ona manifest də dedik) əsas xətlərindən birini Azərbaycan xalqının Xocalı timsalında zəngin və tarixən

qədim olan milli-mənəvi dəyərlərinin, əxlaqi keyfiyyətlərinin, dünyanın müasir və demokratik prinsiplərini özündə qoruyub saxlayan zəngin adət-ənənələrinin qorunub saxlanılması istiqamətindəki çağırışlar təşkil edir.

Xocalı qırğınlarında təkcə əhalisinə deyil, onların minillər boyu qoruyub saxladıqları əxlaqlarına, tarixinə, dininə və mənəviyyatına qarşı da amansız hücumlar edilib. Dünyanın heç bir Beynəlxalq fondlarının və onların xarici ölkələrə səpələnmiş bürolarının (Daimi Nümayəndəliklərində) nizamnamə və proqramlarında yuxarıda qeyd etdiyimiz məqsəd və vəzifələri əhatə edən heç bir fikir, düşüncə və maddə yoxdur. Beynəlxalq Strateji Araşdırmalar Mərkəzlərinin (məsələn, Vatikan Strateji Araşdırmalar Mərkəzinin, «Əl-Əzhar» (Misir) Universitetinin SAM-nin) məlumatlarına görə dünyada əhalinin orta hesabla 75 faizi mənəvi ehtiyacdan əziyyət çəkir. «Xocalıya Ədalət!»in üstünlüklərindən biri də hər tərəfdən ağır məhrumiyyətlərə məruz qalmış əhaliyə mənəvi dayaq olmasıdır. Azərbaycan xalqı əsrlər boyu onun başına gətirilən müsibətlərin xeyli hissəsini unudub. Filosof Y.Dinns deyir ki, Azərbaycan xalqı öz tarixinin təqribən bir milyon səhifəsini araşdırmadan, oxumadan başlı-başına buraxıb. «Xocalıya Ədalət!» isə bu faciəni insanların, yetişən yeni nəsillərin yaddaşına yazır, onu itməyə, pozulmağa qoymur.

Erməni separatçılarının yaratdığı «Xocalı İttifaqı»nın əsas fəaliyyət dairəsində tarixdə özünə ləyaqətsiz və cinayətkar işlərilə yer alan fakt, sənəd və hadisələri vurub, sıradan çıxarmaqdır. Bunun üçün onlar həmçinin dünyanın 50-dən çox ölkəsinə səpələnmiş erməni diaspor təşkilatlarından geniş istifadə edirlər. Bu istiqamətdə onlara, məlumata görə, 370 qəzet və jurnal, 31 telekanal, 104 radio proqrammı, 12 strateji mərkəz, 42 nəşriyyat xidmət edir. Diqqət etsək, ciddi düşünüb-daşınsaq görərək ki, «Xocalıya Ədalət!» çox güclü təbliğat maşını olan separatçı bir qurumla – bir orduyla üz-üzə dayanıb. Bunu isə, görməmək mümkün deyil.

Araşdırma materiallarına görə, bu separat qurum dünyanın dini aksiyalar keçirən, dünya dinlərini bir-birinə qarşı qoyan, ən böyük ziyarətgahlarda terror aktlarını icra edən, islam mədəniyyət mərkəzlərini, məscid və ziyarətgahları dağıdan, din xadimlərini fiziki cəhətdən məhv edən 14 dini qurumuyla sıx əlaqələrə malik olub (əldə olunan məlumatlardan aydın olur ki, ABŞ Dövlət Departamentinin hazırladığı (2015-ci il üçün) «Dünyanın Terror Təşkilatları» siyahısına ermənilərin «Xaçlar İttifaqı»nın da adı salınıb).

**«Xaçlar İttifaqının» Xocalı və Laçın yaşayış məntəqələrindəki özəyi haqqında əldə etdiyimiz məlumata görə, bu terror qrupuna əvvəllər başçılıq edən, Rostov vilayətinin (RF) keşişi, ixtisasca hərbçi olan Xayri Kaşanov adlı birisi olub.** Onun haqqında saxlanılan arayışda qeyd olunur ki, (SSRİ(RF), MN, «Xüsusi Qovluq», №21601) Xayri Omar oğlu Kaşanov həmişə hansı millətdən olmasını gizlədib (ancaq erməni olması ilə fəxr edib – ***V.S., R.V.***). **X.Kaşanovun iştirakı ilə Xocalıda 1991-ci il martın 10-da «Xaçlar İttifaqı» terror qrupu yaradılıb (bu təşkilatın əvvəlki adı «Xaçların İttifaqı» olub – V.S., R.V.). Məqsəd Dağlıq Qarabağ ərazisini, daha sonra Türkiyə, Gürcüstan, Azərbaycan ərazilərini islam dəyərlərindən təmizləmək olub** (bax: Moskva, MN, «Xüsusi qovluq», №2014).

Məlumatlara görə, X.Kaşanov Xocalıda və Laçında din xadimlərinə qarşı amansız mövqedə dayanıb. Onun Xocalıda tanınmış din xadimi Molla Əliqulu Haşimoğlunun və ailəsinin başına gətirdiyi müsibətləri açıb göstərən «arayışlarda» qeyd olunur ki, bu adam ləyaqətsizin və əxlaqsızın biri olub. Arayışlardan xəbəri olan, **rusiyalı Q.Muravyov adlı bir islamşünas qeyd edir ki, X.Kaşanovun Xocalıda törətdiyi cinayətlər Beynəlxalq məhkəməlikdir. Terrorçu X.Kaşanov əvvəlcə Quran kitabını Molla Əliqulu Haşimoğlunun sinəsinə qaynaq edib, sonra isə əl-qolunu bağlayaraq ağacdan asıb.** İki gün ağacdan asılı qalan bu din xadiminin sinəsinə qaynaq edilmiş Quran kitabı qan içində idi. Həmin vaxt, yəni döyüşlər gedən günü Rusiyada yaşayan ermənilərin Xocalıya yola saldıqları tibbi ləvazimatların, dava-dərmanların sayı-hesabı bilinmirdi. **Ermənilərə yardım edən həkim S.Qriqoryevin imzası ilə yazılmış məlumatda göstərilir ki, "...mən belə vəhşilik görməmişdim".** O, qeyd edir ki, Molla Əliqulu Haşimoğlu onun qaldığı həyətin çardağında asılmışdı. X.Kaşanov da həmin həyətdə qalırdı... Həkim S.Qriqoryev verdiyi arayışda bunu da yazır ki, o, səhərədək qışqıran, ağrıdan zarıyan yaşlı bir kişinin səsini eşidib...

Xocalının din xadimi Molla Əliqulu Haşimoğlunun belə ölümü X.Kaşanov üçün adi idi. Araşdırma materiallarına görə rus həkimi S.Qriqoryev o vaxt RF-nin Səhiyyə Nazirliyinə ünvanladığı arayışda əlavə olaraq qeyd edir ki, ermənilər azərbaycanlı din xadimini sinəsindəki Quran ilə bir yerdə od vurub yandırdılar (bax: Rus həkimi S.Qriqoryev yazdığı arayışı 1992-ci il mayın 14-də Səhiyyə Nazirliyinə təqdim edib. Qeydiyyat – 1.716, 1992 № 14). Bundan cəmi iki gün sonra məktub MN-nın BKİ-nin

əməkdaşları tərəfindən götürülüb (məktubu imza edib, götürənlər: U.F.Salexov, X.M.Qolikov).

Məlumata görə, 1992-ci il iyunun 1-dən 5-nə kimi erməni quldurları din xadimlərinə qarşı bir sıra terror aktlarını həyata keçiriblər. Onların arasında iki nəfər rus vətəndaşı olan din xadimi də olub. Bununla bağlı 1994-cü il sentyabrın 19-da Qarabağdakı rus icmasının nümayəndələri Mockvaya etiraz məktubunu da göndəriblər. (bax:"Qolos"qəzeti.Moskva.1994,X. Jurnalist A.S.Petrovun "Müharibə icmalı" məqaləsi). Ərazidə 1600 Quran kutabına od vurulub yandırılıb. 66 yerdə ziyarətgah dağıdılıb. 22 yaşayış məntəqəsinin qəbiristanlığı çevrilib. Başqa bir məlumatda isə bildirilir ki, RF-nin MN-dan Rusiyanın Ali Müftisinə, Rusiyanın Ali Müsəlmanlar Şurasına, eləcə də, Avropa və MDB Ali Dini İdarələrinə bu barədə yazılı məktub göndərildi. Erməni X.Kaşanov isə Xocalıda qəddarlığından əl çəkmirdi. 1992-ci il Xocalı qırğınlarından, işğalından sonra əsir və girov götürülmüş 165 din xadimi haqqında isə hələlik tam məlumatımız yoxdur. Erməni terrorçusu X.Kaşanov 1999-cu il aprelin 3-də Eçmiədzin yepiskopu U.Xramyana yazırdı: «Mənim bu döyüşlərdə missiyam islam dininə və onu təbliğ edənlərə, Quran kitabına qarşı hərəkat yaratmaqdır... Mənim ordu ilə işim yoxdur, biz ayrı-ayrı qurumlarıq ...»

Araşdırma materiallarına görə, X.Kaşanov bir gündə 25 nəfər din xadimini güllədən keçirib. Sonra müqəddəs Quran kitablarını ağaclara bağlayaraq...onları nişangaha çevirib (Azərbaycan Respublika Prokurorluğunun, MTN və DİN müstəntiqləri tərəfindən verilən ifadələrə görə X.Kaşanov tək deyildi. S.Uduryan, B.......(familiyası məlum deyil), Ş.Şamişiryan, F.Ovanesyan... da ən qəddar aksiyalarda iştirak ediblər).

Məlumata görə, 1992-ci il dekabr ayının 30-da «Xaçlar İttifaqı»nın Baş Qərargahı Cavaxetiyə köçürülür (Gürcüstan). İstefada olan iki erməni generalı B.Vartanyan və S.Şagiyan, eləcə də yepiskop Ş.Şahenyan «Xaçlar İttifaqı»-nın yeni rəhbərləri təyin edilirlər.

1993-cü il fevralın 9-da Kəlbəcər ərazisində terror təşkilatının özəyi yaradıldı. Hüquqşünas Vano Xanzadyan rəhbər təyin edildi (bax: «İttifaq» qəzeti. Cavaxeti. 1992, № 49). «Cavaxeti» hərəkatı Axalkalaki rayonu ərazisində erməni millətçi-separatçıların yaratdıqları hərəkatdır.

«Xaçlar İttifaqı»nın Cavaxetiyə köçürülməsi Tbilisini də narahat edirdi. Çünki çağırılmamış qonaqlar ... Gürcüstan ərazisindəki müsəlman din xadimləri ilə bağlı məktublar yazırdılar. Məlumata görə 1993-cü il yanvarın

14-də Gürcüstan Kəşfiyyat Xidmətinin rəhbərliyi polkovnik S.Matiaşvilini və İ.Çoburadzeni Bakıya ezam edir. Gürcü kəşfiyyatçıları Azərbaycana xəbərdarlıq edirdilər ki, Dağlıq Qarabağ ərazisində müsəlman din xadimlərinə divan tutan «Xaçlar İttifaqı»nın erməni terror qrupu Axalkalakiyə köçürülüb (ermənilər həmin əraziyə Cavaxeti deyirlər). Təklifə görə gürcülər Bakını bu terror qruplaşmasına qarşı birgə əməliyyata çağırırdılar. Təklif cavabsız qaldı. «Cavaxeti» qəzeti yazırdı: «...Azərbaycan Dağlıq Qarabağ ərazisində strateji tədbirlər həyata keçirə bilmir. Bizim (yəni ermənilərin) azadlıq «İttifaqı», artıq, yaxın günlərdə Kəlbəcəri də düşməndən azad edəcək. Bu istiqamətdə «Xaçlar İttifaqı»nın yaradıcılarından olan Santa Beqlaryan izahat verib ki, onların qrupuna dünya xristianları böyük dəstək verəcək...»

Separatçıların ittifaqına o vaxt istefada olan kəşfiyyat polkovniki O.Nobaryan başçılıq edirdi. Onu Kaşanovla müqayisədə daha amansız və qəddar adam kimi təsvir edirdilər. Həmin vaxt, yəni 1993-cü il mart ayının 5-də Tehranda çıxan «Keyhan» qəzeti xəbər verirdi ki, Xocalı din xadimlərinin müdafiəsi üçün Ərdəbildən və Təbrizdən gedən 9 nəfər iranlı din xadiminə amansız hücumlar edilib. Separatçı O.Nobaryanın dəstəsi 1993-cü il aprelin 2-də İranın İslami-Təbliğat Mərkəzindən göndərilən kiçik bir qrupu həbs edir, dəstənin başçısı Haşimi Nəzəri diri-diri torpağa basdırır. Məlumatlarda həm də bildirilir ki, 1993-cü il aprelin 4-də O.Nobaryan və onun dəstəsində iştirak edən Ermənistan Hərbi Kəşfiyyatının əməkdaşları Y.Mambeyev (?) və M.Əsgəryan Xocalının mərkəzində Hacı İsmayıl Ağanın evində ailəsinə hücum ediblər. (Eyni hğcumlar Kəlbəcərdə də baş verib). 11 nəfər yaş həddi 10-11 olan qız uşağına divan tutulub. O.Nobaryan, M.Əsgəryan, İ.Xaradze... bu cinayətin başında olublar. Məlumata görə, 1994-cü ildə olan dövlət başçılarının telefon danışıqlarından sonra (H.Əliyevin E.Şevardnadze ilə telefon əlaqəsi) kəşfiyyat kapitanı İlya Xaradze vəzifəsindən kənarlaşdırılır. Əslində o, Bakıya təhvil verilməli idi. Lakin İ.Xaradze işdən qovulduqdan üç gün sonra ABŞ-ın Gürcüstandakı emissarı Con Terri ilə birgə qətlə yetirilir.

RF-nin BKİ-nin «Xüsusi Qovluq»larında ermənilərin Dağlıq Qarabağ ərazisində yaratdıqları terror dəstələri haqqında kifayət qədər məlumatlar var. «Xaçlar İttifaqı»na gəlincə (təşkilatın əsl adı «Xaçların İttifaqı»dır), bu təşkilata 1995-ci ilin fevral ayında Fransanın, 1997-ci ilin iyul ayında ABŞ-ın, 2000-ci ilin mart ayında İngiltərənin, 2003-cü ilin sentyabrında isə

Almaniyanın..., eləcə də Şərqi Avropanın bir neçə ölkəsinin də qoşulduğu bildirilir. İlk böyük yığıncaq isə «Müqəddəslərin yığıncağı» adı ilə Vatikanda (2005-ci il martın 15-də) keçirilir. RF isə bu ittifaqdan imtina edir və birmənalı şəkildə belə bir təşkilatın öz ərazisində fəaliyyətinə qadağalar qoyur.

«Xaçların İttifaqı» erməni terror təşkilatının Dağlıq Qarabağ ərazilərində islam dininə qarşı, müsəlman ailələrinə qarşı amansız planlarının açılmasına hələlik, görünür, böyük dövlətlər ehtiyac duymurlar.

Amma əldə olunmuş məlumata görə, bu terror təşkilatı işğala və dağıntıya məruz qalmış Azərbaycan ərazilərində bir il ərzində (1994-cü il nəzərdə tutulur) 1900 İslam dininə məxsus atributları məhv edərək, Xocalıda fəaliyyət göstərən islam mədrəsəsinə od vurub yandırdılar. Məlumata görə Pakistanda nəşr olunan «Morning nyus» (Səhər xəbərləri) qəzetinin ingilisdilli yazarı (qəzet 1953-cü ildən İslamabadda nəşr olunur) Katerina Vanas «Müsəlman dünyası: baş verənlər,... sabahkı hadisələr» kitabında İraq, Pakistan, Hindistan, Türkiyə, Azərbaycan olaylarında (Dağlıq Qarabağ ərazisində), Livanda baş verən, islam dünyasına edilən hücumlardan, öldürülən din xadimlərindən... geniş bəhs edir. Müəllifin Bağdadda 2008-ci ildə «Ayna» nəşriyyatında çap olunan bu kitabında Xocalıda öldürülən Quran dərsi alan uşaqlardan bəhs olunan yerlər var. Məsələn, **xanım K.Vanas yazır: «.. mən müsəlmanların ali, müqəddəs kitabları olan Quranla bir yerdə güllələnmiş və yandırılmış onlarla uşağı gördüm. Bütün bunları mən Azərbaycanın erməni terrorçuları tərəfindən işğala məruz qalmış Dağlıq Qarabağın Xocalı ərazisində gördüm. Mənə qadağan olundu bunu yazmaq. İslamabadda kitabımı nəşr etmədilər.** Bağdadda isə bir nəşriyyat bunu boynuna götürdü. Kitab ABŞ-ın İraqdakı səfirliyinin nəzarəti ilə çap olundu...»

**Məlumata görə, xanım K.Vanas Suriyada ermənilər tərəfindən öldürülüb.** 2009-cu il fevralın 19-da baş verən bu hadisədə «Xaçların İttifaqı»nın əli olduğu bildirilsə də, əslində «Mİ-6»nın (İngiltərə) xarici məlumatlar bürosunun yazdığına görə, xanım K.Vanası Ermənistan «DRO» hərbi silahlı birləşməsinin üzvləri qətlə yetiriblər.

Araşdırma materiallarına görə, ermənilər Kəlbəcərin Daşbulaq ərazisində də üstündə Quran ayələri yazılmış tarixi daş abidələri, qədim qəbiristanlıqları yandırıb, viran qoyublar. Bütün bu qanlı faciələr haqqında Azərbaycan parlamentinin nümayəndələri, artıq, dünyanın bir sıra müsəlman

parlamentlərində, həmçinin RF-nin Dövlət Dumasında etiraz ediblər. Terror isə davam edir. Azərbaycanın işğal olunmuş ərazilərində əsir və girov götürülmüş 11 nəfər xristian dininin təəssübkeşini və onların ailələrini, Müqəddəs İosif Atanı da güllədən keçirib məhv etdilər. «Artsax» qəzeti 1993-cü ilin 17-ci sayında bütün bunları Azərbaycan tərəfinin üctünə yıxsa da, mümkün olmadı. Çünki RF-nin BKİ-nin arayışlarında bu hadisənin əsl səbəbləri də qeyd olunur. Araşdırmalarımıza görə Moskva bu qətlləri törədən erməni saatsazı Baras Alibekyanı, Qustav Saakyanı öz ərazisində arzuolunmaz şəxs elan etdi. Hazırda hər iki terrorçu Dağlıq Qarabağ vətəndaşı kimi Şuşada məskən salıb (b a x : «Hayastan» bülleteni, 1994, № 3).

Məlumata görə, «Xaçların İttifaqı»nın Qubadlı yaşayış məntəqəsində də törətdikləri cinayətlərin miqdarı bilinmir. 1993-cü il iyulun 27-də yaradılmış bu terror mərkəzi avqustun 10-da rayonun Fərcan kəndində 14, Xanlıq kəndində isə 8 nəfər din xadimini qətlə yetiriblər. Qubadlıda islam dininə qarşı amansız mövqe tutan ermənilər bu rayonu Laçınla birləşdirən yolun üstündə – Qaracallı kəndində ərazidən yığılmış namaz paltarları, təsbehləri, xeyli sayda müqəddəs Quran kitablarını yandırıblar. RF-nin XİN-nə ünvanlanmış rus dili müəllimi E.Valentin-Xamranın məktubunu oxumaq maraqlı olardı. Şübhəsiz, biz o məktubu oxumadıq. Moskvada nəşr olunan «Vedomosti» qəzeti 1993-cü il avqustun 28-də Qubadlıdan göndərilən məktubu çap edib. Məlumata görə, həmin məktubda təsvir olunan erməni vəhşiliklərinin səbəb və nəticələrindən də danışılır. Məsələn, müəllim E.Valentin-Xamra yazırdı ki, ermənilər onun dərs dediyi şagirdi güllələyib, sonra boş dərələrdən birinə atıb yandırdılar. O, yazır: "...Mənim dərs dediyim şagird ərazidə tanınan din xadimi Hacı Seyidin nəvəsi idi. Ermənilər onu öldürdükdən sonra nə qədər çalışdılarsa, uşağın (onun adı Mətləb idi) sinəsinə sıxıb saxladığı Müqəddəs Quranı onun əlindən qoparıb ala bilmədilər. O, müqəddəs kitabla bir yerdə yandırıldı..."

Məlumata görə, Qubadlıda bu qanlı hadisələri həyata keçirən, vaxtilə Azərbaycan MEA-nın institutlarından birində çalışan, sonra isə oranı müəmmalı şəkildə tərk edən Nəzər Eyvaz (Ayvaz) oğlu Səfərov(yan) olub. Onun ətrafında o zaman Bakıdan gedən P.Dadamlı(yan), H.Tavrakyan da olublar. Hər halda biz ərazilərimizdə baş verən soyqırımlarını ölüb gedənlərin sümüklərinə qədər təhlil etməsək, axtarıb tapmasaq, əsl həqiqətləri beynəlxalq aləmə göstərməsək, yaxın gələcəkdə əsl tariximizi də

bizə unutdurarlar. Erməni tarixçiləri və siyasətçiləri belə bir taktikanı çoxdan seçiblər.

Ulu Öndərimizin adını daşıyan Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışında bütün bunlarla bağlı çox ciddi və tutarlı arqumentlər var. Leyla xanım Əliyeva erməni separatçılarının dinimizə, islami dəyərlərə, tarixi keçmişimizə etdikləri amansız hücumların, terror hadisələrinin əsl mahiyyətini bəşəriyyətə tanıtmaq üçün həmişə yeni layihələr irəli sürür.

Araşdırmalarımıza görə, ermənilərin yaratdıqları terror təşkilatlarının, sadəcə «İttifaq» adlandırdıqları mərkəzin Zəngilan özəyi də tariximizin ağrılı yeri olaraq qalır. Məlumata görə, 1992-ci ildə Xocalının yaşayış məntəqələrində əsir götürülmüş 55 nəfər qadın Zəngilana gətirilir (1993.VI). Qadınların bir qismi də güllələbaran edilir. Yaşayış məntəqəsinin Şayıflı və Hacılı kəndləri arasındakı ərazidə ola bilsin ki, gələcəkdə əbədi bir heykəl ucaldılsın. Çünki bu ərazidə 76 nəfər güllələbaran edilib. 1993-cü il sentyabrın 28-də yaradılmış terror özəyinin üzvləri oktyabrın 26-da amansız bir aksiyaya imza atdılar. Üstündə «Hacı», «Məşhədi», «Kərbəlayi» yazılmış qəbir daşları yığışdırıldı. Zəngilan qəbiristanlığını çevirib, sümükləri bir yerə yığan və onların üstündə şəkil çəkdirən (b a x : «Ararat» qəzeti, 1993-cü il, № 22) erməni Stepan Mirzəxanyan iddia edir: «...Biz heç kəsi öldürməmişik... Bütün bunlar hələ başlanğıcdır. Biz Nizamnaməmizi dəyişdirə bilmərik. Mən əvvəldən müsəlman dünyasını, onların sığındığı islam dinini, Quran kitabını sevməmişəm. Mən ancaq «Ermənistan qanunları» kitabını sevmişəm...»

Məlumata görə, Stepan Mirzəxanyan Müqəddəs Quran kitabını ona görə qəlbinə yaxın buraxmayıb ki, Quran yer üzünün ən böyük həqiqətlərindən biri olaraq qalır. Bu gün Suriyadakı erməni kilsəsində çalışan terrorçu Stepan Mirzəxanyan haqqında isə Bakıda çox məxfi qaydada 1992-ci ildə nəşr olunan «İcma» qəzetində qeyd olunurdu:

«... Cəsur Stepan öz atalarının və babalarının yolunu mərdliklə davam etdirdi. O, Bakıda doğulub. Bu fərq eləmir. Harada, hansı ailədə doğulsa da, erməni ermənidir. Böyükdür...»

Bu da məlum olur ki, S.Mirzəxanyan qəzetin redaktorlarından biri idi. Daha sonra onun haqqında yazılır: «...O, əsl erməni idi. Babalarımızın intiqamını alanların Böyük Ermənistanın tarixində özünəməxsus yeri var...»

Araşdırma materiallarına görə, S.Mirzəxanyan Bakıdakı Təzə-Pir məscidinin yandırılmasına da cəhd edib. Hadisə 1992-ci il martın 20-də olub.

Hüquq-mühafizə orqanları bununla bağlı cinayət işi qaldırsa da, S.Mirzəxanyan ... yayınaraq Bakını tərk edib.

Məlumata görə, «Xaçların İttifaqı» terror təşkilatı (torpaqlarımızın işğalından sonra bu təşkilat Beynəlxalq Erməni təşkilatlarından birinə çevrildi) islam dininə qarşı ən böyük, tarix boyu yaddaşlardan silinməsi mümkün olmayan qanlı missiyasını Dağlaq Qarabağın Şuşa yaşayış məntəqəsində icra edib. Təşkilatın Şuşada özəyi 1991-ci il noyabrın 10-da yaradılıb. 1980-ci illərdə Şuşa rayon şöbəsinin (söhbət o vaxtkı DTK-dan gedir) rəis müavini Humayun Baqramyan bu özəyin rəhbəri təyin olunur. Şuşanın Çanaqçı kəndində doğulan H.Baqramyan ilk terror aksiyasını da öz balaca kəndlərində başladı. Bir gecədə kənddəki 45 azərbaycanlı din xadimi terror edildi.

Şuşadakı Göy Məscid 1992-ci il martın 8-də onun rəhbərliyilə yandırıldı. 1992-ci ilin aprel ayından Şuşada fəaliyyətə başlayan «Zəhra» dini dükanı dağıdıldı. Divarlardakı Quran ayələri gülləyə tutuldu. Bu gün məlumata görə H.Baqramyan qondarma «Dağlıq Qarabağ Respublikası»nın kəşfiyyat idarəsinə rəhbərlik edənlərdən biridir.

Araşdırmalara görə, **ermənilər işğal edilmiş Azərbaycan ərazilərində – Dağlıq Qarabağda 120 qədim və yeni müsəlman qəbiristanlığını yerlə yeksan ediblər.**

Erməni terrorçuları tərəfindən Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli yaşayış məntəqələrində müsəlman ailələrinə tutulan divanda, ölən və itkin düşən din xadimlərinin, yandırılan Müqəddəs Quran kitablarının araşdırılmasında bizim üçün müəmmalı olan məsələlər var.

Araşdırmalarımıza görə, Ermənistanın «Nüvə axtarışları sahəsindəki ilk proqramları» 2010-cu il dekabrın 14-də açıqlandı. Yerevanda qapalı keçirilən Təhlükəsizlik Şurasında bu tezisləri hazırlayanların adları da qeyd olundu (Pr. Q.Ter-Akopyan, pr. K.Ter-Martirosyan, pr. S.Avakyan, pr. K.Alanakyan...). **Erməni professoru Ter-Akopyan iddia edirdi: «...Əvvəlcə bu millətin (söhbət azərbaycanlılardan gedir – *V.S., R.V.*) genetik «düşüncəsi»ni, genetik kodlarını zəhərləmək lazımdır. Sonrası asandır – bundan sonra o, öz-özünə öz dinindən, imanından, sağlam düşüncəsindən əl çəkib uzaqlaşacaq. İslam dinindən qorxmaq lazım deyil. İmkan varsa, «pərdə arxası»nda o dini qəbul edin. Məscidlərə girin, İslam din xadimləri ilə bir süfrədə oturun... Qalib gəlmək üçün**

**hər şeydən istifadə edin... Beləliklə, birinci addım nüvə axtarışı olsun. Bu türk dünyasını, onun qanındakı islam dinini ancaq belə məhv edə bilərik...»** (professor Q.Ter-Akopyanın «Artsax» TV-dəki 2010-cu il martın 7-dəki çıxışından). Otuz altı maddədən ibarət olan bu strateji proqramda dörd yerdə (12-ci, 14-cü, 19-cu və 26-cı maddələrdə) işğal olunmuş Dağlıq Qarabağın adı çəkilir, ərazilərin bir qismi «nüvə zonaları»na ayrılır. Yerevan Fizika İnstitutunun müəllimi S.Stepanyan 2011-ci il aprelin 9-dan 11-dək institutda «Nüvə tədqiqatları, İslam və Ermənistan» mövzusunda keçirilən yığıncaqda bu yerlərin adını çəkib. (bax : institutun "Məruzələr icmalı". 2011,30 aprel, səh.4).

Ermənistanın SQ-dəki yeni elmi-tədqiqat mərkəzlərinin açılması və yaxud genişləndirilməsi məqsədəuyğun hesab edilib.

Məlumata görə, işğal olunmuş Xocalı ərazisinin üç müxtəlif nöqtəsində «ASALA» erməni terror təşkilatının yeni, radikal qanadı üçün təlim düşərgələri salınıb:

1. Seyidbəyli ərazisi.
2. Xanabad ərazisi.
3. Ballıca ərazisi.

(Bu ərazilərin adı 2011-ci il avqustun 14-də Beyrutdakı (Livan) «Qıçak» erməni partiyasının eyni adlı nəşriyyatında çapdan çıxan «Dağlıq Qarabağ» (№-6) xüsusi bülletenində kəşfiyyat zabiti L.O.Gevorkyanın «Milli azadlıq cəbhələrimizin müdafiə strukturu» yazısında çəkilir). Və bu təlim düşərgələri rəsmi sənədlərdə «Etmənistan Millı Azadlıq Cəbhəsi»nin «Müdafiə bazası» kimi qeyd olunur. Araşdırmalarımıza görə, «ASALA»nın Livanda fəaliyyət göstərən «Həmas» və «Hizbullah» silahlı-terrorçu dəstələri ilə də ciddi əlaqələri var. Bu istiqamətdə maraqlı nəticələr əldə edən, **Belorusiya tədqiqatçısı Yevgeniy Kojuşko «Современный терроризм» kitabında yazır: "ASALA"-terror təşkilatıdır. Müstəqil Ermənistanın köhnə sərhədlərinin bərpa olunması uğrunda (?) mübarizə aparır. Bu sərhədlər, onların fikrincə, Şərqi Türkiyəni (Artvin, Kars, Ərzurum, Van daxil olmaqla), Şimali İranın bir hissəsini, Azərbaycanın Naxçıvan ərazisini əhatə edir..."** (Bax: eyni mənbə, Minsk, «Xarvest» nəşriyyatı, 2000. səh. 218).

Başqa bir məlumatda isə «ASALA»çılardan ibarət xüsusi kiçik «Mühafizə qrupları» deyilən qruplar təşkil edilib. Bu qruplar bilavasitə «Həmas» (Livan) silahlı birləşmələri ilə sıx əlaqədə fəaliyyət göstərir (bu dəstənin Xankəndi-Yerevan-Beyrut xüsusi təyyarə reysi var).

Tədqiqatçı Y.Kojuşko kitabında daha sonra qeyd edir: "ASALA"-nın əsas bazalarından biri Livandadır, Fələstin Azadlıq Təşkilatı ilə əməkdaşlıq edir. Onu dünyanın bir sıra ölkəsində erməni diaspor təşkilatları müdafiə edir. Digər bazaları Suriyada, Fransada, ABŞ-da, Böyük Britaniyada və Ermənistanda yerləşir..."(bax: eyni məmbə səh.218).

Araşdırmalarımıza görə, erməni terror birləşmələrinin Azərbaycan torpaqlarının işğalı (Qarabağ torpaqları) siyasətini dəstəkləyən hansı səbəblərdənsə müsəlman «Həmas» qrupu olub. «İslam müqavimət hərəkatı»nın (Harakat al-Muqavama al-İslamiya) – «Həmas»ın meydana gəlməsi 1987-ci ilin sonuna təsadüf edir. Təşkilatçısı və dini lideri Şeyx Əhməd Yasindir. Məlumata görə, *1988-ci il martın 3-dən 7-dək Livana səfər edən sovet nümayəndə heyətinin tərkibində «Hayastan» erməni humanitar təşkilatının Zaqafqaziya üzrə koordinatoru Robert Koçaryan* da var idi. Moskvada nəşr olunan «Pravda» qəzeti məlumat verir ki, ixtisasca mühəndis olan Robert Koçaryan ərəblər arasında şöhrətə malik, erməni millətinə hörmət və ehtiramı olan Şeyx Əhməd Yasinlə görüşüb (bax: «Pravda» qəzeti, 1988-ci il, 5 mart, Moskva, SİTA-nın məlumatı).

İşğal olunmuş torpaqlarımızda (xüsusən Kəlbəcər meşələrində) kiçik çaplı atıcı silahlar üçün qundaqlar istehsal edən ilk müəssisəni də 1999-cu ildə ərəblərin «Həmas» təşkilatının üzvləri yaratdı. Bu məqsədlə ilkin olaraq 120 min dollar investisiya qoyuldu. Böyük miqyasda ən nadir ağaclar qırılıb, xarici iş adamlarına satıldı.

Başqa bir məlumatda isə bildirilir ki, Livandan qayıdan sovet nümayəndə heyətinin üzvü Robert Koçaryan Yerevanda təməli qoyulan «Ermənistan Milli Azadlıq Hərəkatı»nın ideoloqlarından biri olur. Qarabağın «azad olunması» üçün xüsusi «Manifestin» müəllifi kimi tanınır. Həmçinin bu manifest «Həmas» təşkilatının ..... «İzzətdin əl-Qasim» silahlı hərbi qanadının manıfestilə eynilik təşkil edir. 1991-ci il yanvarın 9-da isə «Hayastan» bülleteni yazır ki, humanitar təşkilatın xəttilə Şeyx Əhməd Yasin tərəfindən dörd nəfər Yerevan fizika institutuna elmi araşdırmalar aparmaq üçün göndərilir(bax: eyni mənbə. səh. 7).

Araşdırmamıza görə, işğal olunmuş Dağlıq Qarabağ ərazisində 2001-ci il noyabrın 21-də «ASALA» + «Həmas» + birləşməsi» – deyilən vahid bir cəbhə yaradıldı.

Bu vahid cəbhənin fəaliyyət dairəsindən, strateji proqramlarından aydın olur ki, bu təşkilat işğal edilmiş ərazilərimizin sərvətlərinin xarici ölkələrə satışının təşkilində ən yaxşı vasitəçi rolunu oynayır. Araşdırmalarımıza görə,

bu vahid cəbhəçilər MDB ölkələrinin ərazisindəki NATO-ya üzv ölkələrin diplomatik korpuslarına, səfirlik və ticarət palatalarına, neft şirkətlərinə, xeyriyyə və humanitar yardım mərkəzlərinə qarşı təxribat planlarının «layihə»lərini işğal olunmuş Dağlıq Qarabağın ərazisində reallaşdırırlar. 2002-ci il iyulun 4-də Nyu-Yorkda nəşr edilən «Boston qlob» qəzeti («Boston Globe») xatırladır: "…Nüvə silahı terrorçular üçün nüvə yanacağından daha cəlbedici və əlverişlidir. Ata Buş qeyd edib ki, "Əl-Qaidə" nüvə silahı əldə etmək uğrunda bir neçə dəfə cəhd edib. Onlar bu silahı ABŞ-a tərəf istiqamətləndirmək fikrindədirlər…" (b a x : eyni mənbə. Devid Filipov, səh.2).

Tədqiqatçı S.Ovçinnikovun məlumatına görə, MDB çərçivəsində hakimiyyət və torpaq davası edən, böyüklük iddiasında olan etnik qruplardan ermənilər həmişə yararlanıb.

Amerikanın məşhur «NOVA LOGİC INC» kompüter firmasının «ekran»lara çıxarıb İnternet şəbəkəsinə qoşduğu oyunlardan birini (2011-ci il mart ayının 19-dan may ayının 21-dək) Ermənistanın Azərbaycanla apardığı müharibə səhnəsi təşkil edir. Və bu müharibənin sonuna yaxın erməni tərəfdən üstündə «Armenia» yazılmış qanadlı plastik raketlərin Azərbaycana tuşlanması səhnəsi təsvir olunur. Xüsusən Azərbaycanın dini məkanlarından olan, Bütün Qafqazın Şeyxinin əyləşdiyi Təzə-Pir məscidinə də istiqamətləndirilmiş bu oyun, kompüter oyunu olsa da, bizi düşündürməyə bilməz. Ermənilər buna «Astarcanyan layihəsi» deyirlər (Doktor Astarcanyan 1985-ci ildə Vaşinqtonda erməni lobbisi tərəfindən maliyyələşdirilən «Erməni-kürd» strateji araşdırma mərkəzi»nin başçısıdır). Bu eybəcər layihənin hazırlanması üçün Kaliforniya erməniləri 2010-cu il sentyabr ayının 19-da «Stepanovan» fonduna 1 milyon 360 min dollar (sonradan bu «Hayastan» adlandırıldı) köçürdülər. Həmin vəsaitin 75 faizi Dağlıq Qarabağın ən füsunkar məntəqələrindən yığılan nadir gül kollarının, ağacların, heyvanların daşınmasına sərf olundu. Sentyabrın 26-da isə Yerevandakı Fizika İnstitutunda keçirilən müşavirədə professor Karen Egiyan məsələ qaldırır ki, ABŞ kompüterindəki məsələni reallaşdırmaq lazımdır. Müşavirədə K.Egiyan belə bir məsələni də açıqlayıb ki, üstündə «Armenia» sözü yazılmış ballistik raketləri «həyatiləşdirmək üçün» (onun sözüdür) uran axtarışlarını da Naxçıvan ərazisində aparmaq mümkündür...(?)

Bu da məlumdur ki, ermənilərin Naxçıvan ərazisində 1985-ci ilin mart ayına təsadüf edən ilk uran axtarışları yarımçıq qalır. Ona görə ki, ekspedisiyada olan Yerevan Dövlət Universitetinin fizika fakültəsinin

tələbəsi Arşak Tiqranoviç Xaçikyan naməlum dəri xəstəliyindən vəfat edir. Həkim rəyindən məlum olur ki, o, şüalanmadan keçinib. Nəticədə, 1985-ci il mart ayının 28-də ekspedisiya işlərini yarımçıq qoyub, geri qayıdır. Lakin həm Ermənistan MN-nın strateji xəritəsində, həm də hərbi kəşfiyyat planında Naxçıvan ərazisi uran mənbəyi kimi dairəyə alınır.

Ekspedisiyanın fəaliyyətindən on beş il sonra, yəni 2011-ci ilin dekabr ayında vaxtilə «Araz» ekspedisiyasında tələbə kimi iştirak edən Rafik Dəmirçiyan (alim) Moskva Dövlət Universiteti nəzdindəki D.V.Skobeltsin adına nüvə fizikası və ETM-də çıxış edir (2011-ci il, XII-21. Ünvan: RF, Moskva, «Vorobyevı qorı». Saat 16.00-da Moskva vaxtı ilə). Və guya göstərir ki, «Böyük Ermənistan»ın bir parçası olan Naxçıvan ərazisində uran var. Həmin ilin dekabr ayının sonunda Rusiya Federal Təhlükəsizlik Xidməti üçün hazırlanmış 42 səhifəlik «nüvə icmalı»nda doktor Dəmirçiyanın fakt və rəqəmləri, «Ermənistan ərazisi Naxçıvan» fikri öz əksini tapdı. 2012-ci il fevral ayının 14-də isə RF FTX-nın Kəşfiyyat İdarəsi ilə Ermənistan Təhlükəsizlik Xidməti arasında «nüvə informasiyaları ilə bağlı» məlumat mübadiləsi haqqında sənəd imzalandı.

2012-ci il mart ayının 13-də isə nüvə fizikası üzrə ixtisaslaşan R.Dəmirçiyan Tehranın şimal istiqamətindəki Şəhid Əkbəri küçəsinin 1/6 nömrəli binasında yerləşən «MDB ölkələrilə elmi-texniki tərəqqi üzrə İran cəmiyyəti»ndə peyda olur. Ermənistanın Çarentsavan zavodundakı «Lizin» şirkətinin missiyasını yerinə yetirərək, İranın «Sənəm» hərbi sənaye kompleksilə texniki avadanlığın alış-verişində iştirak edir. «Qolos» qəzeti isə ekspert Qayane Sarmakeşyanın şərhini çap edir: "İranın Ermənistandan aldıqları texniki avadanlıqların hesabına bu ölkədə xeyli müəssisə yaradılıb."

Ermənilərin «Lizin» şirkəti 1999-2011-ci illər ərzində Azərbaycanın işğal olunmuş ərazilərində (Xocavənddən 2,5 km şimalda) toksiki maddələrlə təcrübələr aparan iki kiçik hərbi laboratoriyanı xammalla təchiz edib. Araşdırmalarımıza görə, «Lizin» şirkəti 2011-ci ildə öz gəlirinin 25 faizini ən eybəcər bir iş üçün ayırdığını elan edir. Şirkətin rəhbərlərindən olan Serqo Sarayan iddia edir ki, o, və onun bir qrup əməkdaşı Dağlıq Qarabağ ərazisində islam dininin bütün atributlarını məhv edəcək. İslamla bağlı gözə görünən nə varsa, kökündən yandırılacaq. İş adamı S.Sarayan tutduğu yolun səbəb və nəticələrini aydınlaşdırmaqda aciz idi.

Məlumata görə, şirkət tərəfindən Tehrana ezam olunan S.Sarayan İrana buraxılmayıb və Dağlıq Qarabağ ərazisində islam dini ilə bağlı atributlara, xüsusilə Quran və din xadimlərinə qarşı tutduğu mövqeyə görə onu ölümlə

hədələyiblər. «Ettelaat» qəzeti bu istiqamətdə yaydığı xəbərdə qeyd edir ki, erməni iş adamı S.Sarayan nə etdiyini anlamır və «...onun düşüncə və həyat tərzinə İranda yer yoxdur...»(Bax: eyni mənbə.2011,V).

Amma araşdırma materiallarında qeyd olunur ki, erməni S.Sarayan Laçın və Kəlbəcər ərazilərində 11 nəfər din xadimini güllədən keçirən keçmiş rus ordusunun zabiti Əmir Sancaqyanı 100 min dollar ilə mükafatkandırdı.

Hələ də, işğal olunmuş ərazilərimizi dinlərarası müharibə meydanına çevirmək arzusu ilə yaşayanların siyasətinə gəlincə, Azərbaycan tərəfi bu siyasətin əleyhinə olduğunu bildirib.

2011-ci il iyulun 4-də həmin laboratoriyalardan biri partlayaraq, sıradan çıxmış, nəticədə 16 nəfər ölmüş, ətrafdakı kiçik meşə zolağı yanıb məhv olmuşdur(Bax: "Artsax" qəzeti .2011, VIII). Ekspertlərin fikrincə, Xocavənd ərazisində baş verən partlayışdan sonra məlum olub ki, ərtafdakı su mənbələrinə ciddi ziyan vurulub, bulaqların bir qismindən bu günədək istifadə etmək qadağan olunub.

Araşdırmalarımıza görə, ABŞ Dövlət Departamentinin rəsmi sənədlərində «Lizin» erməni şirkəti İran və Suriya dövlətlərinə nüvə texnologiyası və nüvə proqramlarından istifadə nəzərdə tutulan digər komponentlərin satışını təmin edən və həmçinin satan qeyri-ciddi bir obyekt kimi qeyd olunur. Ermənistana iqtisadi sanksiyaların qoyulacağı haqqında məlumat yayılıb. Mart ayının 19-da isə Tehranın «Elm və Texnologiya Universitetində» çıxış edən Dəmirçiyan belə bir fikir də söyləyir ki, hər bir ölkə öz ərazisindəki nüvə tullantıları, onların qorunması və satılması haqqında ciddi düşünməlidir (?). Nə qədər qəribə də olsa, R.Dəmirçiyan «qonağı» olduğu ölkənin nüvə texnologiyası ilə məşğul olan alimlərinə və araşdırıcılarına bunu da məsləhət görür ki, İran öz nüvə tullantılarını qorumaq üçün tikəcəyi anbarların böyük hissəsini ölkənin subtropik və az mülayim iqlimi olan zonalarına salmağa üstünlük verməlidir. Onun fikrincə, nüvə tullantılarının subtropik şəraitdə reaksiya qabiliyyəti iki dəfə azalır (?).

Erməni aliminin təklifindəki istiqamət aydındır. O, öz iranlı həmkarlarına Qərbi Azərbaycanın əyalətlərini nişan verərək bu istiqamətdə, yəni layihələrin işlənməsində Ermənistanın yardımçı olacağına da işarə vurur.

Lakin açıq hava şəraitində qalan və yaxud axar çaylara istiqamətləndirilmiş nüvə tullantılarının «suboğuculuq» qabiliyyəti var. Yəni nüvə tullantıları düşdüyü hər hansı su məcrasında buxarlanmaya güclü təsir edir.

R.Dəmirçiyanın fikir və mülahizələrinə əsasən, 2012-ci il aprel ayının 10-da Ermənistan hökuməti «Strateji layihə» deyilən sənəd hazırladı ki, bunun da kökündə ölkənin AES-dən çıxan nüvə tullantılarının, eləcə də Yerevanın nüvə fizikası ilə məşğul olan elmi-tədqiqat mərkəzlərinin zəhərli qalıqlarının yaşayış zonasından – «Yaşıl zolaqlardan» çıxarılması məsələsi dayanırdı. 1992-ci il iyulun 2-də qəbul olunmuş «Ermənistanın strateji layihəsi»ndə (bu layihə, adətən, ölkənin AES və nüvə materialları ılə bağlı olur) nüvə tullantılarının Azərbaycanın işğal edilmiş ərazilərində – Zod (Şərqi Ermənistan), Qacaran (Cənub-Şərqi Ermənistan), Tanel (Cənubi Ermənistan), Tex (Şərqi Ermənistan) yaşayış məntəqələrində basdırılması planlaşdırılmışdı və bunun üçün ABŞ tərəfi 300 min dollar yardım da ayırmışdı (nüvə tullantılarının oğurlanmaması, daşınmaması və satılmaması üçün). Lakin 1998-ci il oktyabr ayının 30-da Ermənistan Təhlükəsizlik Şurası bu layihəyə paralel ikinci strateji bir layihə irəli sürdü. Azərbaycan torpaqlarının işğalından sonra Yerevan «nüvə coğrafiyası»nı dəyişdi. Bu dəfə Xocalı, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli zonaları seçildi... (Bax: Strasburq. Avropa Şurasının 2009-cu il sənədlər toplusu.Azərbaycanın işğal olunmuş ərazilərində nüvə tullantıları ilə bağlı müzakirələrdə deputat, Azərbaycan MM-nin üzvü R.Hüseynovun çıxışı. Əlavə olaraq, Azərbaycan Respublikası MM-nin arxivi, sənədlər toplusu, s.96 . 2009, VII ).

Məlumata görə, Ermənistanda, artıq, istifadəyə verilmiş, daha dəqiq, yenidən qurulmuş silah istehsalı zavodunda birləşmiş uran və urandan hazırlanmış döyüş sursatlarının hazırlanması istiqamətində yeni layihələr planlaşması işi davam edir. Ümumiyyətlə, ermənilərin urandan hazırladıqları döyüş sursatı nədir? Qeyd edək ki, yerin tərkibində təbii uranın miqdarı daha çoxdur, nəinki gümüşün və yaxud civənin. O, üç uran izotopundan ibarətdir: a) u-238 (99, 286% ; b) u-235 (0,72%) və c) u-234(0,006%).

İkinci izotop atom bombalarında əsas partlayıcı maddə kimi istifadə olunur. Bu silah müasir dövrün ən dəhşətli silahıdır. Bu, heç də kimyəvi və bakterioloji silahlardan, hətta rentgen şüasından da geri qalmır. Birləşmiş uran izotopu u-238 radioaktiv metaldır, sıxlığı 19,04 q.sm$^3$ olub, yarı sönmüş vəziyyətdə 4 milyard 510 milyon il qalır. Bu, araşdırmamız zamanı əldə etdiyimizin qısa izahıdır, lüğətsiz izah. Məlumata görə, «Erməni Alimlər

Qrupu» 2002-ci ildə Kaliforniyadakı erməni diasporunda çıxış edərkən belə bir məsələni vurğuladılar: «Dağlıq Qarabağda uran var...» (Bax: C.Hendler. “Nüvə silahlarının modernləşdirilməsi”. “Defense News”(“Müdafiə yenilikləri”), (ABŞ).2002, VI).

Araşdırdığımız məlumata görə, Ermənistanın Razdan şəhərində 1998-ci ildən qeyri-leqal olan (Sevan gölünün qərb sahilində) «Nüvə bürosu» fəaliyyət göstərir. Və bu «məxfi nüvə bürosu»na başçılığı Bağdad ermənisi, şəhərdən 35 km şimal-qərb istiqamətində dərman preparatları hazırlayan fabriki maliyyələşdirən Hüseyn Qəffar adlı birisi edir. Məlumata görə, Hüseyn Qəffar 2004-cü il avqustun 13-dən Azərbaycanın işğal olunmuş ərazilərində, xüsusən Xankəndi ətrafında yeni bir «nüvə bürosu»nun yaranması təklifi ilə çıxış edir.

Lakin layihə Xankəndində deyil, Xocalı ərazisində reallaşır. Hərbiləşdirilmiş qrupun nəzarəti ilə işləyən bu mərkəz bu gün faktiki olaraq, İsveçrədən gəlmiş «Kristina qrupu» ilə birgə dərman preparatları üzərində işləyir(Bax: “Artsax yenilikləri” bülleteni, №4. s.13 Erevan. 2004, IV). «Kristina qrupu» isə Azərbaycanın doğum evlərini, doğulacaq müsəlman uşaqlarını, hamilə qadınları hədəf seçir. Müşahidəçilərin fikrincə, həmin ərazi Ermənistan MN-nın sənədlərində «ölü zona»ya çevrilib (?). O da məlum oldu ki, ixtisasca kimyaçı olan Hüseyn Qəffar İsrail əleyhinə kəskin radikal mövqedə dayanan islamçı «Əsbat əl-Ənsar» təşkilatının maliyyə mənbəyidir. Təşkilatın təlimat kitabı olan «SD ROME» digər radikalların da təlimat kitabıdır. Bu kitabın 8-ci səhifəsində yazılır: «Təşkilat vəhdətli bir təşkilatdır. Bu təşkilatda hüququ tapdalanmış adamlar birləşir və bir yerdə mübarizə aparır...»

Əldə etdiyimiz digər məlumatda bu da bildirilir ki, islam təşkilatları içərisində «Taliban»ı nüvə materialları ılə təchiz edən qrup «Əsbat əl-Ənsar» qrupudur. 2004-cü ilin aprel ayının 14-də Sudanda «Əsbat əl-Ənsar» təşkilatının yerli şöbəsi «Əl-Qaidə»də çalışan nüvə araşdırıcıları üçün «Təlimat,... hikmət, hümmət və ya Yer kürəsi» adlı bir kitab nəşr edirlər. Ərəb, puştu və urdu dillərində çap olunan bu kitabın üç müəllifi olur: pakistanlı alim Nazirxan Əhməd, ərəb Şeyx Cabbar Əl-Zahir, erməni (İraq) Arakel Alanakyan. Araşdırdığımız məlumatlara görə, Arakel Alanakyan Ermənistan Dövlət Universitetinin fizika fakültəsini bitirib. 1990-cı ildə Yerevandan Suriyaya, oradan da 1995-ci ildə İraqa köçüb. Bağdad hərbi-sənaye komplekslərinin birinə başçılıq edən «Ter-Qriqoryan» qrupunda işə

başlayıb. Bu qrup hazırda Dağlıq Qarabağ ərazisində ekoloji tədqiqatlarını davam etdirir. Məsələn, məlum olub ki, Xocalı ərazisində su mənbələrinin 26 faizindən istifadə oluna bilməz.

Araşdırmalarımıza görə, A.Alanakyan hətta bir müddət Bakıdakı erməni kilsəsində maliyyə məsələləri ilə məşğul olub. «Kommunist Ermənistanı» qəzeti yazırdı ki, bu şəxs vətənini, dinini və xidmət etdiyi vəzifəsini çox sevir. Qəzetin 1980-ci il 15 avqust tarixində dərc olunmuş «Bakıdakı erməni kilsəsi» yazısında (müəllif S.Muradyan) qeyd olunur: «...İraqda böyük dini və hərbi təhsil görmüş Alanakyan Ermənistanı çox sevir. O, Azərbaycan ərazisində yaşayan bütüm ermənilərə eyni qaydada xidmət edir. A.Alanakyan həm də Bakıda «Erməni Xeyriyyə Cəmiyyəti»nin sədridir...» (Bax: "Kommunist Armenii" qəzeti. 1980, VIII-15).

Digər bir məlumata görə A.Alanakyan Bakıdakı erməni kilsəsi vasitəsilə Qafqaz Müsəlmanları İdarəsinin Dağlıq Qarabağ istiqamətindəki taktikasını və strategiyasını araşdırmaqla məşğul olub. Respublikanın məşhur din xadimləri haqqında, eləcə də dini vəsait çap edən nəşriyyatlarla bağlı məlumat toplamaq isə onun əsas vəzifələrindən biri olub.

Pekində nəşr olunan «Çayna deyli» qəzeti («Çin gündəlik qəzeti») isə ermənilərlə MDB məkanında, eləcə də dünyanın erməni diasporları ilə hər cür əlaqələrin qurulmasını vacib sayir: «...Ermənistan müstəqil ölkə kimi Çinlə münasibətlərini genişləndirməyə çalışır. Ermənilərin hərbi təlim dərsləri almaqları, bu sahədə əməkdaşlığı genişləndirilməsi üçün Çin real təkliflər irəli sürüb. İnvestisiya məsələlərinə gəlincə, Çin bu istiqamətdə də ciddi təkliflər irəli sürməyə hazırdır»(Bax: eyni mənbə. 2008, VI-19).

Çünki ermənilər Çin ərazisindəki uyğurlar məsələsində həmişə Pekin ideoloqlarının tərəfində olduqlarını bildiriblər.

2008-ci ilin ortalarında Pekin tərəfindən Yerevana ötürülən 12 ədəd «Tayfun» raketləri heç də diqqətimizdən kənarda qalmır. Məlumata görə, həmin «Tayfun»lardan ikisi Xocalı ərazisində yerləşdirilib. Qapalı qalan bu məsələnin mahiyyəti heç kəsin gözləmədiyi bir halda mətbuatda şərh olunur. Çin tərəfi isə iddia edir ki, bu raketlərin satılması işində dövlətə məxsus sənaye müəssisələri iştirak etməyib, bu raketləri ermənilərə özəl şirkətlər satıb. Ümumiyyətlə, Çinin bu istiqamətdə tutduğu mövqeyini şərh edən «The Washington Post» qəzeti 2008-ci ilin mart ayının 17-dəki sayında dərc etdiyi məlumatında göstərir: «...Çin MN-nin əməkdaşları 1984-cü ilin aprelində imzaladığı rəsmi sənədlərdə və yardım bəyanatlarda elan etdilər ki,

Çin kütləvi qırğın silahlarının yayılması əleyhinədir... Lakin Çin Pakistana, Hindistana, Suriyaya, Cənubi Koreyaya, Səudiyyə Ərəbistanına, İraqa, İrana, Braziliya və Argentinaya... kütləvi qırğın silahlarının satışını davam etdirir. Məsələnin və məxfi bağlaşmaların üstü açılan tərzdə Çin rəsmiləri bunun özəl şirkətlərə aidliyini, bu işin dövlətdən kənar bir proses olduğunu elan edir...». Məlumata görə, Çin şirkətlərinin bu istiqamətdə Ermənistan şirkətləri ilə əlaqəyə girməsi və onlardan, eləcə də, işğal olunmuş, terrora məruz qalmış Azərbaycana məxsus Qarabağ ərazisindən üçüncü dövlətlərə ötürülən nüvə texnologiyası haqqında kəşfiyyat materialı ABŞ Dövlət Departamentinin 2008-ci ilin dekabr sənədlərində də ciddi bir məsələ kimi vurğulanır. Livana gəlincə, o artıq Azərbaycan torpaqlarının işğalında ermənilərə bilavasitə yardımçı olub. 2009-cu il mayın 26-da həmin «Tayfun»ların 24-ü işğal olunmuş Azərbaycan torpaqlarına daşınır. Araşdırıcı Erik Lafman (İsveç) yazır ki, «Tayfun» raketləri qorxulu və dəhşətli silah növlərindəndir. Bu silah hələ istifadəsiz qaldıqda belə, öz təhlükə potensialını azaltmır. Silah partlayarsa, onun fəsadları bütün canlı orqanizmlər üçün əsl cəhənnəmi yaradır. Partlayışdan 12 saniyə ötmüş, ətrafda olan meşə zolağı yanıb qurumağa başlayır. Torpağın ən dərin qatları belə zəhərlənir. Təbiətin bitki örtüyü, quşlar, heyvanlar, balıqlar tələf olur.

Professor E. Lafman yazır: «... «Tayfun» cinayət törədir. Bu cinayət birinci növbədə təbiətə, ekologiyaya qarşı yönəlmiş cinayətdir» (Bax: "Kvallcposten" ("Axşam poçtu") qəzeti. 2009, X . Dever dilindən tərcümə ölkənin Azərbaycandakı səfirliyinindir).

Ermənilər tərəfindən işğal olunmuş ərazilərimizdə belə silahların yerləşdirilməsi ilk əvvəl bəşəriyyət üçün qorxulu sindromlardan biri olaraq qalır. Müqayisə üçün deyək ki, sözügedən ölkələrin mətbuat səhifələrində, rəsmi dairələrində isə Azərbaycana belə yanaşılmır, ölkəmiz haqqında belə düşünülmür. Halbuki Azərbaycan geostrateji cəhətdən dünyanın həm siyasi, həm də iqtisadi hədəfində olaraq qalır. Bu da maraqlıdır ki, NATO-ya üzv ölkələrin bir qismində Bakı Beyrut kimi səciyyələndirilir. Yəni neft Bakısının Beyruta çevriləcəyi gün yaxınlaşır. Şuşadakı bilavasitə Rusiya tərəfinin təşkili ilə yaranmış «Amerika planlarına qarşı kollektiv kəşfiyyat» blokunun təhlükəsizliyi Xankəndi hərbi Əks-Kəşfiyyat Departamentinə həvalə edilib. Ərazinin strateji vəziyyəti yüksəklik olduğundan, 2010-cu il noyabrın 22-də yaradılmış bu strateji mərkəz işini ancaq 2011-ci il yanvarın 12-də aktivləşdirdi.

Dağlıq Qarabağ ərazisindəki radiasiya durumu haq-qında Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Texniki Əməkdaşlıq Departamentinin Avropa şöbəsinin rəhbəri Məsud Səhmayi və Agentliyin Radiasiya və Radioaktiv Tullantıların Təhlükəsizliyi Departamentinin əməkdaşı Aleksandro Bilbao-Alfonso öz hesabatında məlumat verir. Göstərilir ki, regionda radiasiya normal deyil. Radiasiya araşdırmaları ilə məşğul olan Aleksey Kolesov isə (RF) qeyd edir ki, Dağlıq Qarabağ, Dnestr ətrafı, Abxaziya, Çeçenistan... ərazilərində radiasiya həddini aşıb. Professor yazır: «Təkcə Dağlıq Qarabağ ərazisində 29 radiasiya mənbəyi var. Buna səbəb olan amillərdən biri Metsamor atom elektrik stansiyasının (Ermənistan) radioaktiv tullantılarının bu əraziyə daşınmasıdır...»(bax: A.Kolesov: «Beynəlxalq Agentliyə hesabat». Bülleten. 2011, XII-3, RF MEA).

Əldə etdiyimiz başqa bir məlumatda isə Dağlıq Qarabağda nüvə tullantılarının basdırılması nəticəsində 80 min hektar kənd təsərrüfatına yararlı torpaq, 130 min hektar meşə ərazisi, 22 min hektar həyətyanı sahə, 2 qoruq... məhv edilib. Əsir və girov götürülmüş azərbaycanlıların böyük bir qismi şüalanmalardan məhv edilib. Əsirlərimiz bir qayda olaraq, terrorçular üçün laboratoriyalara çevrilib. Məlumata görə, Xankəndində şərti olaraq «Hərbi dairə» adlandırılan alimlər qrupu ermənilər tərəfindən işğal olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının coğrafi xəritəsini Fransadakı «VIK Nuelears Las» şirkətinin nümayəndələrinə təqdim edib. Şirkətin Paris ofisinin rəhbərliyi dünyanın beş ölkəsində yığılıb qalan (Əfqanıstan, Fransa, Belçika, Rumıniya, Avstraliya) radioaktiv tullantıların Qarabağ ərazisində basdırılması üçün «Seyf-12» adlı məxfi planı həyata keçirib. Bu barədə Ermənistan hərbi sənaye komplekslərinə bilavasitə başçılıq edən «Rusiyadakı ermənilərin ittifaqı» təşkilatının başçısı Ara Abramyana Moskvadakı «Soqlasiye» şirkəti əməkdaşlarının yığıncağında «Nezavisimaya qazeta»nın müxbiri sual verib. Cavab isə yarımçıq qalıb. Məsələni şərh edən xaricdəki erməni diasporunun nümayəndələri, o cümlədən Livandakı ermənilərin katolikosu I Aram Beyrutdakı özəl Mərkəzi (İnformasiya) Agentliyinə («Al-Wikala-al-Markaziya») verdiyi məlumatda bildirir: «...Qarabağda atılan bütün addımlar və görülən bütün işlər erməni xalqının xeyirinə olmalı, genofonda və artıma təsir etməməlidir. Qarabağın bütün təbii sərvətlərindən sabahkı «Böyük Ermənistan» üçün istifadə edin.» Nəticədə şirkət 5 milyon dollar məbləği Xankəndinin büdcəsinə keçirib. Qondarma «DQR»ın «MN»nın əməkdaşlarından olan polkovnik Artur Abramoviç Abramyan və

mayor Vartan Aşotoviç Arustamyan A.Qukasyanın şəxsi göstərişilə vaxtilə 2001-ci il iyulun 2-də Berndə də olublar (1999-cu il avqustun 10-da). Omar Trak və Keykos adalarında qeydiyyatdan keçmiş «SÜN Energi YV» və Baham adalarında mərkəzi ofisi olan «Union Atomis Garbage Pls» şirkətlərinin inşaat qrupu ilə danışıqlar apararaq, Qarabağda xüsusi «betonlaşdırılmış şaxtalar»ın tikintisi ilə bağlı razılıq almışlar (Bax:“ASUN” informasiya agentliyinin məlumatı. Erevan.2001, XI).

Şuşada Baş Qərargahı yerləşən «Kollektiv kəşfiyyat»ın ilk yığıncağı isə, məlumata görə, 2002-ci il yanvarın 14-də keçirilib. Qeyri-leqal keçirilən bu yığıncaqda Yerevandan, Afinadan, Pekindən, Beyrutdan, Suriyadan gəlmiş erməni nümayəndələri müsəlman Azərbaycanına qarşı «Epidemiya» adlı proqramını irəli sürüblər.

Araşdırmalarımıza görə, Yerevan-Dəməşq bağlaşması (2011-cı il iyunun ortaları) əsasən Ermənistanın iqtisadi cəhətdən inkişafı üçün nəzərdə tutulmuşdur. Ondan bir qədər əvvəl, yəni 2010-cu il aprelin 14-də Rusiya ilə Suriya arasında hərbi bağlaşmaya imza atıldı. Məlumata görə, həm Suriya və həm də İran Rusiyanın nüvə texnologiyası sahəsində, eləcə də, digər kütləvi qırğın silahları yönümündə öz işlərini, demək olar ki, yenidən qurdular. Suriya Rusiya istiqamətindən alacağı kütləvi qırğın silahlarının birbaşa deyil, üçüncü bir dövlətin ərazisinə daşınmasında maraqlı idi. Bu dövlət isə Ermənistan idi... Azərbaycan torpaqlarının – Qarabağın işğalından sonra bu işdə marağı olan yeni qruplar meydana gəldi. Məlumata görə, işğal olunmuş və terrora məruz qalmış ərazilərdə bilavasitə beynəlxalq terrorizmdə iştirak edən təşkilatlar və şəxslər göründü.

Bu qrupların üzvlərinə 180 hektar torpaq sahəsi icarəyə verilir. Zəngilan ərazisindən verilən bu torpaq sahəsi hansı məqsədlər üçün verilib? Bununla bağlı heç bir açıqlama yoxdur. 2002-ci il mayın 9-da ABŞ Dövlət Departamenti Pekini, Moskvanı, Kişinyovu, Yerevanı Tehrana nüvə texnologiyası satmaqda ittiham etdi. Bu dövlətlərə məxsus bir sıra strateji məhsullar alış-verişi edən şirkətlərin fəaliyyətinə sanksiya qoydu. Təkcə nüvə texnologiyasının və digər kütləvi qırğın silahlarının İran, Livan, Kipr istiqamətində daşınmasından Ermənistanın büdcəsinə ildə 350 milyon dollar gəlir daxil olur.

Adları çəkilən dövlətlər kəşfiyyat sənədlərindəki fakt və rəqəmlər qarşısında susdular. Heç bir təkzib tələb olunmadı. Nəticədə, erməni tərəfin bilavasitə nüvə texnologiyasının daşınması, ötürülməsi məsələlərinə baxan

«Vartaniol», «Razdanmaş», «Yak-Mak Metaliz» kimi şirkətlər bir yanda qaldı və pərdə arxasındakı «Lizin» erməni şirkətinin adı hallandı. Məlumata görə, bu şirkətlərin hər biri Dağlıq Qarabağ ərazilərində islam dininin parçalanması, dağılması istiqamətində külli miqdarda vəsait ayırıb. Məsələn, «Razdanmaş» şirkətinin islam əleyhinə regionda hazırlanmış hərbi birləşməyə ayırdığı illik «hədiyyə» 2,5 milyon dollar olub. Halbuki, «Razdanmaş»ın, «Vartaniol»un və «Yak-Mak Metaliz» şirkətlərinin, eləcə də «Lizin» biznes mərkəzinin İran İslam Respublikasında, Pakistanda, Səudiyyə Ərəbistanında, Fransada, Rusiya Federasiyasında... filialları var. Mayın 1-də Ermənistan Təhlükəsizlik Şurasının, mayın 13-də MN-nın və MNT-nın, mayın 15-də Xarici İşlər Nazirliyinin, mayın 16-da Maliyyə və İqtisadiyyat İdarəsinin qapalı iclasları keçirildi ABŞ Dövlət Departamentinin rəsmi açıqlamasından 12 gün sonra, yəni 2002-ci il mayın 17-də isə «Pan ARMENIAN» – adlı informasiya mərkəzi kəşfiyyat sənədləri ilə uzlaşmayan belə bir sənəd yayır: «…Erməni şirkəti “Lizin” ABŞ Dövlət Departamentinin “qara siyahısı”na düşüb (Bax: Azərbaycan Respublikası Beynəlxalq terrora qarşı “Bank infornasiya” SAM, qovluq №14, s. 47. 2002, VIII. “qara siyahı” beynəlxalq terrorçuluqda və gizli yolla nüvə komponentlərinin satışı ilə məşğul olan “şirkət”lərin siyahısıdır – ***V.S., R.V.***) Bu şirkət qonşu dövlətlərlə nüvə tədqiqatında əməkdaşlıq edib. Məlumatı “Arminfo” “inanılmış şəxsə” istinadən yayıb. “Arminfo” xəbər verir ki, bu qeyri-qanuni alqı-satqı məsələsini öldürülən Baş nazirin qardaşı Vazgen Sorkisyan icra edib.” (Bax: “Arminfo” (Erevan). 2002, VII-28).

Şübhəsiz, bu məlumatla istənilən «auditoriyada», necə deyərlər, «çırpınmaq» olar. Fakt budur ki, «Lizin» şirkəti iki il bundan qabaq yox, 2001-ci il iyul ayının 26-da Ermənistan Ədliyyə Nazirliyində qeydiyyatdan keçib (şəhadətnamə № 0044413) Bundan iki ay sonra, 2001-ci il oktyabrın 26-dan mart ayının 28-dək bu firma Moskva-Yerevan-Xankəndi-Tehran xətti ilə sənədlərdə adı qeyd olunmayan materiallar daşıyıb və daşınan bütün strateji yüklərə də cavabdeh deyək, Armen Sarkisyan yox, MN-nın kəşfiyyat polkovniki Armais Ağanesyan olub. Faktiki olaraq «Lizin» şirkəti «Razdanmaş», «Vartaniol», «Arşavit», «Yak-Mak Metaliz» şirkətlərinin yarımçıq işlərini tamamlayıb. Araşdırmalarımıza görə, «Razdanmaş» şirkətinin hərbi-sənaye kompleksinin bazasında kiçik ölçülü təyyarələrin (əsasən, idman təyyarələri) buraxılması üçün RF-nin «Suxoy» hərbi-sənaye kompleksinin rəhbərliyi ilə (Baş direktor Mixail Poqosyan) 10 milyon dollarlıq layihə də

işlənilib. Bunun 7,5 milyon dolları RF-nin öhdəsinə düşür. İstehsal olunan (2004-cü ilin sonunadək olan müddət nəzərdə tutulub) təyyarənun qiyməti isə 205 min dollar olacaq (bax.: «Respublika Armeniya» qəzeti. 08.03.2000. İ.Saakyan).

Araşdırmalarımıza görə, bilavasitə raket avadanlığı, eləcə də, kütləvi qırğın silahlarının komponentlərini daşıyan erməni şirkətlərinin, əsasən, strateji mərkəzlərinə daşınmasını və paylanmasını tənzimləyən isə «Akopyan» erməni şirkətinin Suriya, Tehran qərargahları olub. Alınan materialların məbləği isə birbaşa «Razdanmaş»ın, «Vartaniol»un, «Arşavir»in, «Yak-Mak Metaliz»in, «Adamand»ın, «Lizin»in Parisdəki və Marseldəki bank hesablarına köçürülür. Nəticədə, «Lizin» şirkəti Kəlbəcərdə Seyid Mir Əli Ağanın qəbrini-ziyarətgahını dağıdaraq, orada kilsə inşa etdirdi.

1997-ci il fevralın 14-də isə bu xidmətə görə Ermənistan Ədliyyə Nazirliyində «Lizin-1» («Lizin» şirkətilə qarışdırmayın–***V.S.,R.V.***) şirkəti qeydiyyatdan keçir. Şirkətin başçılarından olan professor, mikrobioloq D.Sarkisyan Ermənistan Müdafiə Nazirliyində «Ermənistan istiqamətində Azərbaycan tərəfdən istifadə ehtimalı olan kimyəvi və bakterioloji silahlara qarşı adekvat cavabların hazırlanması» mövzusunda keçirilən müşavirədə belə bir təklif irəli sürür ki, Rind, Zaritap, Dastakert, Kacaran istiqamətindən Naxçıvan ərazisinə, işğal olunmuş Kəlbəcər istiqamətindən isə Gəncə-Qazax zonasına «Sibir xorası»nın tozlarının yayılmasını təmin etmək lazımdır. Müşavirədə iştirak edən kimyaçı-alim O.Akopyan isə bu təklifi «emosional təklif» adlandıraraq, bunun mümkünsüzlüyündən danışır (K.Əlibəyov: «Biotəhlükə». Vaşinqton, 2008, səh.47).

Ümumiyyətlə, araşdırmamıza görə, Xəzəryanı dövlətlərin hər birinin bakterioloji müharibədən qorumaq üçün (2005-2015) «Xüsusi tədbirlər planı» var. Məsələn, Qazaxıstan bu müharibədən qorunmaq üçün 48 milyon dollar, Türkmənistan 45 milyon dollar, Rusiya Federasiyası 257 milyon dollar, İran 467 milyon dollar...ayırıb.

1998-ci ildə Amerikaya mühacir olunmuş rus mikrobioloqu Knaçan Əlibəy sözügedən kitabında yazır: «...Rusiya Federasiyasında və MDB ölkələrində (əsasən, Qazaxstanda, Ermənistanda) ehtiyatda xeyli bakterioloji və toksin silahlar var. Bioloji hücumların ehtimalı XXI əsrdə artacaq və genişlənəcək... Terror qruplaşmalarının əlinə keçəcək. Erməni silahlı

birləşmələrinə gəlincə, onlar Dağlıq Qarabağ ərazisində bu eybəcər silah növündən şüalanmalara qarşı istifadə edəcəklər...» (Bax: eyni mənbə, s.96-101).

Demək, Ermənistan mikrobioloqu, professor D.Sarkisyanın təklifi strateji proqramından hələ silinməyib. Amerika politoloqu Cudit Miller isə iddia edir ki, Rusiya Federasiyasında və MDB regionlarında fəaliyyət göstərən mikrobioloqların bir qismi kütləvi qırğın silahlarının avadanlıqlarını satmaqla məşğuldur və bu istiqamətdə aparılan işlərdə nəzarətsiz qalan Qarabağ ərazisindən və Araz çayının üstündəki qədim Xudafərin körpüsündən istifadə olunur (ABŞ, «The Nyu-York Tayms» qəzeti, 1999-cu il, 2 fevral, səh. 9).

2009-cu il dekabrın 26-da Londonda keçirilən mikrobioloqların beynəlxalq elmi konfransında rus alimləri bunu etiraf etdilər («RUS» jurnalı, 2010, III, 14 səh., London). Pentaqonun mətbuat katibi, polkovnik Ceyms Bruks isə iddia edir ki, həm Moskvanın, həm Yerevanın biotexnoloji məsələlərini öyrənmək üçün hərbi kəşfiyyatın xüsusi layihəsi tələb olunur. Bu arada Amerikanın tanınmış fiziki, professor Stiven Hokinq Londonun «Qardian» qəzetinin 2010-cu il dekabrın 29-da çıxan sayındakı müsahibəsində qeyd edir: «...İnsanlar özləri elə bir virus yetişdirəcək ki, bundan sonra onlar insanlıqlarını itirmiş olacaqlar. Bakterioloji terror nüvə silahından da dəhşətli və amansızdır. Bunun üçün kiçik bir laboratoriya kifayətdir...». ABŞ-ın kəşfiyyat sənədlərində adı hallanan «Lizin» şirkəti və bilavasitə pərdəarxası işlər görən «Lizin-1» şirkəti bu istiqamətdə Azərbaycanın işğal olunmuş ərazilərindəki qiymətli metal yataqlarının istismarında intensiv işlər görür.

Biz bütün bu məsələlərə «Xocalıya Ədalət!» konsepsiyasından yanaşdıq. Bütün bunlara səbəb var. Bu danılmaz və inkarolunmaz faktları araşdırmaq üçün çox vaxt lazım gələcək. **Lakin adlarını qeyd etdiyimiz və ABŞ Dövlət Departamentinin sənədlərində gördükləri işlərə görə beynəlxalq miqyasda, demokratik ölkələrdə nigarançılıq yaradan və "arzuolunmaz şəxs" elan olunmuş bu terrorçu şirkətlər 2010-cu ilin aprelin 22-dən etibarən «Xocalıya Ədalət!» strateji hərəkatına qarşı erməni separatçılarının və təbliğat maşınlarının əsas maliyyə mənbələrinin birinə çevirildi. Məsələn, erməni siyasətçisi və iş adamı A.M.Qriqoryan iddia edirdi: «…Nə qədər desəniz, maliyyə imkanımız var. «Xocalıya Ədalət!»ə imkan verməyin ki, sərhədlərimizi keçsin. İmkan verməyin ki,**

**uşaqlarımız onu eşitsin, onun nə olduğunu anlasınlar. Övladlarımız onun mahiyyətini bildikdən sonra üzümüzə qayıdarlar… Bizdən nə baş verdiyini soruşmaq, öyrənmək istəyərlər. Fikrimizcə «Xocalıya Ədalət!» üçün Ermənistan Dövləti çox ciddi strateji layihə hazırlamalıdır. Biz həmin layihəni maliyyələşdirməyə hazırıq…»** (2010-cu ilin 24-də Bakı vaxtı ilə saat 20-00 da «Artsax» (Xankəndi) televiziyasına verdiyi müsahibə).

Hədəf sərrast nişana alınmışdır. Strateji model olaraq «Xocalıya Ədalət!» çağırışı düzgün seçilmişdi. Böyük əzmkarlıqla, yuxusuz gecələr, gərgin zəhmət hesabına dünya miqyasında hazırlanıb keçirilən tədbirlər, görülən işlər, cəsarətli gedişlər, düşünülmüş siyasi kurs öz bəhrəsini verdi. Artıq erməni təbliğat maşını «Xocalıya Ədalət!»in qarşısında duruş gətirə bilməyir. Elə bunu erməni siyasətçisi və iş adamı A.Qriqoryanın açıqlamaları da bir mənalı şəkildə təsdiq edir.

## ÜÇTƏRƏFLİ «QIZIL» KOMİSSİYASI VƏ XOCALININ HÜQUQLARI

Separatçı Ermənistanın işğal olunmuş ərazilərimizə soxulan «Lizin» şirkəti 2001-ci ildə Ermənistanın Meqradzor və Sotk qızıl yataqlarının işlənməsində fəal olub. 2001-ci il yanvarın 4-dən etibarən «Lizin» və «Lizin-1» şirkətləri Azərbaycanın işğal olunmuş Kəlbəcər və Zəngilan rayonlarında əsl oğurluq iş görürlər. Araşdırma materiallarına görə, bu şirkətlər ilk özəklərini Xocalı ərazisində yaradıblar. Ərazidə 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə törədilmiş cinayətlərdə iştirak ediblər.

«Lizin» şirkəti, artıq, 2001-ci il yanvarın 27-dən başlayaraq Amerikanın Yerevandakı «Clobal Gold» şirkəti və Kanadanın «First Dunasti mines» («FD») şirkətilə müqavilələr imzaladı. Nəticədə, ermənilərin işğal etdikləri Zəngilan rayonu ərazisindəki «Vejnəli», Kəlbəcərdəki "Zod", «Söyüdlü-2», «Qızılbulaq» kimi iri qızıl yataqları Ermənistanla ABŞ və Kanada şirkətləri arasında bölüşdürüldü (Kanada «The Financial Post» (İqtisadi poçt) qəzeti, 2001, III, səh. 4).

Vejnəlidə isə amerikalılar qızıl yataqlarını genişləndirmək üçün bir qəbiristanlığı (XVII əsrdən qalan müsəlman qəbiristanlığını, (el arasında bu yerə həm də «Ziyarətgah» deyirdilər) dağıtdılar. Orada həm də yaşayış massivi saldılar.

Çıxarılan 400 tona qədər qızılın, 2500 ton gümüşün, 1,5 milyon ton misin dəyəri gizlədildi. Azərbaycana isə heç nə çatmadı. ABŞ ekspertlərinin fikrincə, Azərbaycanın erməni terrorçuları tərəfindən işğal olunmuş ərazilərindən çıxarılan qızıl keyfiyyətinə görə Rusiya Federasiyasında çıxarılandan 1,6; Amerikadakından 1,5; Kanadadakından isə 1,9 dəfə üstündür. RF-nin, ABŞ və Kanadanın hərbi sənaye komplekslərində Azərbaycan qızılından geniş istifadə olunur. Ermənistan isə, özünün qızıl ehtiyatlarını işğal olunmuş ərazilərdəki qiymətli filiz yataqları hesabına 3,5 dəfə artırıb və qızıl ehtiyatları Ermənistanın əsas təminatına çevrilib. Ərazidəki qızıl tullantılarından səmərəli istifadəyə gəlincə, ABŞ-ın «Clobal Gold» şirkəti 2,8 milyon dollar investisiya ayırıb...

Erməni terrorçularının işğal olunmuş ərazilərimizdən qızıl əşyaların oğurlanması, qızıl yataqlarının viran edilməsi, Xocalı qırğınları, Xolokost hadisələrilə üst-üstə düşür. Bu tarixi məsələ ilə məşğul olan ABŞ-ın keçmiş Dövlət Katibinin müavini, diplomat Stüart Ayzenstut yazır:

«Mən nasist Almaniyası tərəfindən qarət edilmiş qızılın restitusiyası məsələləri ilə 50 ildən artıq bir müddətdə məşğul olmuş Federal Ehtiyatlar

Bankının Nyu-York filialının mühüm rolunu qeyd etmək istəyirəm. Federal Ehti-yatlar Bankının Nyu-York filialı 1946-cı ildə müttəfiqlər tərəfindən başlanmış bu prosesin lap əvvəlindən qızıl üzrə Üçtərəfli Komissiyanın adından həmin qızılı almaq və qarət edilmiş qızıl barədə təqdim olunmuş bütün iddialar ətraflı nəzərdən keçirilənə qədər bu unikal «qızıl ehtiyatını» mühafizə etmək məqsədi ilə həmin prosesdə fəal iştirak etmişdir. Komissiya öz işini yekunlaşdırdıqdan sonra Federal Ehtiyatlar Bankının Nyu-York filialı da misilsiz mühafizəxana rolunu başa çatdırmışdır.

İkinci dünya müharibəsi dövründə nasistlər tərəfindən qarət edilmiş qızılın taleyinə marağın son illər kəskin surətdə artması baş vermiş faciəli hadisələr barədə çoxdan unudulmuş informasiyanı yenidən üzə çıxarmış və uzun müddət xüsusi canfəşanlıqla gizlədilən faktların və unudulmuş qurbanların üzərinə yeni işıq saçmışdır. Araşdırmalar, qarət edilmiş qızılın mənşəyi və müharibə dövründə həmin qızılın tətbiq sahələri barədə yeni və daha dəqiq məlumatlar əldə etməyə imkan vermişdir. Bu onu göstərir ki, qarət edilmiş qızılın oğurlanması və nasist hərbi maşınının fəaliyyəti üçün həmin qızıldan istifadə edilməsi faktlarının tamamilə aşkar edildiyi vaxtlara qədər dünya birliyi həmin faktları tam dərk etmək iqtidarında olmayıb. Yeni məlumatların üzə çıxması və köhnələrin bir daha yada salınması ilə bağlı bu misilsiz səylər xeyli dərəcədə Ümumdünya Yəhudi Konqresinin rəhbərliyi və təşəbbüsü sayəsində mümkün olmuşdur.»

***Qeyd:*** *Ciddi olan belə bir məsələni Azərbaycanın Parlamentinə, XİN-nə, Avropa Birliyinə və digər Beynəlxalq qurumlarda təmsil olunmuş işçi qrupuna həvalə etmək mümkündür.*

Diplomat daha sonra yazır: «Xolokost (yəhudi soyqırımı) qurbanlarına məxsus bank hesabları, sığorta polisləri, daşınmaz əmlak, incəsənət əsərləri və başqa bədii kolleksiyalar şəklində olan əmlakın taleyinin öyrənilməsi və bu əmlakın identifikasiyası hələ də davam edir. Hərçənd, sikkə şəklində qızılın taleyi problemini daha tam dərk etmək mərhələsinə yaxınlaşmışıq. Birləşmiş Ştatlar, Böyük Britaniya və Fransa işğal edilmiş Avropada nasistlər tərəfindən qarət edilmiş qızılın taleyi ilə bağlı ağrılı və mürəkkəb məsələni qızıl üzrə Üçtərəfli Komissiyanın qarşısında irəli sürdüyü vaxtdan 40 ildən çox keçir».

***Qeyd:*** *Cənab S.Ayzenstut hazırlanmış beynəlxalq şərtlərə də aydınlıq gətirir:*

«***Birincisi***, işğal edilmiş Avropada istər mərkəzi banklardan, istərsə də nasizmin ayrı-ayrı qurbanlarından nasistlərin qarət etdikləri qızılın miqdarı barədə hazırda ümumi qarşılıqlı anlaşma əldə edilmişdir. Bundan əlavə, bizim komissiyalar özlərinin birgə səyi ilə göstərmişlər ki, nasistlər müharibə üçün zəruri təchizat vasitələri alınmasını maliyyələşdirməkdən ötrü bu qarətdən məqsədyönlü və qəddarcasına istifadə etmişlər. (*Qeyd: Bütün bu məsələlərə əhalisi erməni terrorçuları tərəfindən genosid edilmiş Dağlıq Qarabağ prizmasından baxmaq maraqlıdır və vacibdir. Hadisələr, demək olar ki, bir-birinin eynidir*). Müxtəlif komissiyaların apardığı araşdırmalar və Amerikanın özündəki sənədlərin təhlili göstərir ki, müharibə dövründə mühüm ticarət əməliyyatlarının maliyyələşdirilməsində nasistlər tərəfindən qarət edilmiş qızıldan istifadə edilmişdir. Bu faktın həm xarakteri, həm də miqyası sənədlərlə təsdiq edilmişdir. İsveçrə Müstəqil Komissiyasının rəyinə görə, qarət edilmiş və müharibə dövründə İsveçrəyə verilmiş, yaxud bu ölkədən keçirilmiş qızılın ümumi dəyəri təqribən 44 milyon dollar (1998-ci ilin məzənnəsi ilə götürsək, az qala 4 milyard dollar – *red.*) olmuşdur. Həmin komissiyanın məruzəsində daha sonra göstərilmişdir ki, müharibə dövründə Reyxsbankın ümumi qızıl ehtiyatlarının təqribən 82 milyon dollarlıq hissəsi ayrı-ayrı şəxslərdən götürülmüşdür. Nasist rejiminin qurbanlarından qarət edilmiş 2,9 milyon dolları (indi həmin məbləğ 25 milyon dollara ekvivalentdir – *red.*) da nəzərə alsaq, həmin ehtiyatların dəyəri 700 milyon dollara bərabərdir.

***İkincisi***, İsveçrənin müstəqil komissiyasının, eləcə də Portuqaliya, İsveç və İspaniya ekspertlərinin gördükləri işin əhəmiyyətini əsla azaltmadan, eləcə də ABŞ və Böyük Britaniya tərəfindən təqdim edilmiş məruzələri və araşdırmaların nəticələrini nəzərə alaraq, hazırda qəti təsdiq edilmişdir ki, nasistlər tərəfindən qarət edilmiş qızılın alınıb möhkəm valyutaya mübadilə edilməsi yolu ilə Avropada hərbi ticarətin maliyyələşdirilməsində və bu ticarətə kömək baxımından İsveçrə təsisatları, xüsusən İsveçrə Mərkəzi Bankı çox mühüm rol oynamışdır. Bu faktı İsveşrə Müstəqil Komissiyasının məruzəsinə ön sözün müəllifi doktor Berger hamıdan yaxşı ifadə etmişdir. O yazır: «İsveçrə qızıl ehtiyatları tranzitinin mərkəzində dayanmışdır».

***Qeyd:*** *Azərbaycanın işğala məruz qalmış torpaqlarında ən çox investisiya qoyanlar da İsveçrənin iş adamlarıdır. Dağlıq Qarabağa qoyulan investisiyaların həcminin 71%-i məhz onlara məxsusdur.*

***Üçüncüsü,*** ABŞ-ın təqdim etdiyi məruzələrdə gətirilən müxtəlif dəlillər, eləcə də İsveçrə müstəqil komissiyasının məruzəsində nasizm qurbanlarının qızıl məsələsinin hərtərəfli təhlili göstərir ki, nasistlərin əsir düşərgələrindəki qurbanlarına məxsus qızılın çox böyük miqyasda və vəhşicəsinə qarət edilməsinə və nasist hərbi maşınını maliyyələşdirmək üçün Reyxsbankın istifadə etdiyi qızıl ehtiyatlarının bu hesaba artırılmasına əsla şübhə qalmır. Qarət edilərək Reyxsbankın (oxu «Artsaxbank»ın – *red.*) əlinə keçmiş qızılın ümumi miqdarı bəlkə də heç vaxt məlum olmayacaq. Lakin İsveçrə Müstəqil Komissiyasının hesablamalarına görə, bu rəqəm 2,9 milyon dollar (o dövrün məzənnəsi ilə – *red.*), ABŞ-ın hesablamalarına görə 4,6 milyon dollar (o dövrün məzənnəsi ilə – *red.*) olmuşdur. Almaniya və ABŞ arxivlərində aparılmış ciddi axtarışlara baxmayaraq, Reyxsbankın qiymətli metallar idarəsinin sənədləri aşkar edilməmişdir.

Çox ehtimal ki, İkinci dünya müharibəsi başa çatandan sonra nə vaxtsa həmin sənədlər məhv edilmiş, yaxud itirilmişdir.

***Dördüncüsü,*** müharibədən sonra müttəfiq ölkələr, xüsusən üç böyük ölkə – Birləşmiş Ştatlar, Böyük Britaniya və Fransa qarət edilmiş qızılın mümkün qədər çox hissəsini tamamilə mənimsəmək və onu Avropanın azad edilmiş ölkələrinə vermək niyyətində idi. Lakin, təəssüf ki, müttəfiqlər neytral ölkələrdə aşkar etdikləri qarət olunmuş qızılın hamısını geri qaytarmağa müvəffəq olmadılar. İsveçrə də daxil olmaqla neytral Avropa ölkələri 550 milyon dollarlıqdan artıq qarət edilmiş qızılı ələ keçirmişdilər. Qızıl üzrə Üçtərəfli Komissiyanın sikkə qızıl ehtiyat fonduna bu məbləğdən yalnız 78 milyon dolları qaytarılmışdır.

***Beşincisi,*** qarət edilmiş qızılı bütövlükdə ələ keçirmək istəyən müttəfiqlərin bu niyyəti baş tutmasa da, onlar qızıl üzrə Üçtərəfli Komissiya çərçivəsində işi davam etdirir və müharibədən sonrakı bütün dövr ərzində çox qətiyyətli və fədakar tədbirlər görürdü. Qızıl üzrə Üçtərəfli Komissiya 1959-cu ilədək toplanmış 336 tondan artıq qızılın müsadirə edildiyi ölkələrin iddialarını 64% ödəməyə müvəffəq olmuş, müttəfiq ölkələr üçün heç bir səmərə gözləmədən qızılı onun qanuni sahiblərinə qaytarmışdı.

Bu qızıl nasist tədbirlərindən hazırda ehtiyac içində yaşayan qurbanlarına yardım göstərmək məqsədi ilə vəsait toplamaq üçün 1997-ci ildə Birləşmiş Ştatlar, Fransa və Böyük Britaniya tərəfindən London konfransında yaradılmış Nasist Tədbirlərinin Qurbanlarına Yardım Fonduna verilmişdir. Söhbət nasizmin elə qurbanlarından gedir ki, onlar ya heç bir təzminat almamış, ya da çox cüzi miqdarda təzminat almışlar. On beş ölkə, o cümlədən qızıl üzrə Üçtə-

rəfli Komissiyaya müraciət etmiş 10 iddiaçı ölkə və daha beş digər ölkə, eləcə də qızıl üzrə Üçtərəfli Komissiyadan vəsait alan ölkələrin əksəriyyəti özlərinin son əmanətlərini tamamilə, yaxud qismən həmin fonda köçürəcəklərini öhdəyə götürmüşlər. Qalan vəsait bu ölkələrin özlərində yaşayan nasizm qurbanlarına yardım göstərilməsinə sərf ediləcəkdi. Belə bir faktı bildirməkdən xüsusən məmnunam ki, Birləşmiş Ştatlar həmin fonda 25 milyon dollar köçürməyi vəd etmişdir.

Qızıl üzrə Üçtərəfli Komissiyanın yarıməsrlik fəaliyyətini başa çatdırmaq Fransa və Böyük Britaniya Nasist Tədbirlərinin Qurbanlarına Yardım Fondu təsis etməklə bu işi ədalətli sonluğa gətirib çıxarmaq üçün böyük iş görmüşlər».

***Qeyd:*** *Araşdırma materiallarına görə, erməni silahlı birləşmələri, gücsüz və tənha qalan Xocalılara terror edən terrorçu qruplar ərazidən orta hesabla 125 kq qızıl, 1650 ədəd qədim xalça, 121 adda antikvar, qarabazarda hər birinin qiyməti 100 mindən 300 min evro civarında olan (hesablamalara görə) 85 Qarabağ atı, gümüşdən işlənmiş çox qiymətli gümüş və başqa zinət əşyaları… oğurluq və yaxud qarət edərək aparmışlar.*

*«Heydər Əliyev Fondu»nun RF-dakı Daimi nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» harayında, həyəcan təbilində bütün bu məsələlər açıq qoyulur. Şübhəsiz, bu Xocalı qırğınları ilə bağlı Beynəlxalq Məhkəmələrdə məsələnin ayrıca, müstəqil bir qolunu təşkil edəcək. İnsanlar «Xocalıya Ədalət!»in çaldığı həyəcan təbilinə çoxdan oyanıb… Ərazi bütövlüyünə qəsd edilmiş, insanları zorakılığa və genosidə məruz qalmış Azərbaycan dövləti Üçtərəfli Komissiyaya məqamında müraciət etmək onun öz hüququdur. Beynəlxalq miqyasda təsdiq edilmiş Müstəqil Azərbaycanın Hüququ.*

Araşdırmalarımıza görə, Qətər ərəb dövlətinin ərazisindən yayımlanan «Əl-Cəzirə» telekanalının Direktorlar Şurasının üzvlərindən biri «Hayastan» təşkilatının ideoloqlarından biri olan Aram Arustamyandır. Bunun isə tarixi var. «Əl-Cəzirə»nin Direktorlar Şurasının sədri Şeyx Həmada bin Tamer Əl-Tani «Əl-Manar TV» – Livan kanalına verdiyi müsahibəsində ərəb dünyasının erməni diasporunun fəaliyyətlərinə olan strateji maraqlarını açıqlayıb. Ərəb mənşəli milyonçu Gevorq Torayanın adını, onun başçılıq etdiyi «Hayastan»ı qeyd edib. Məlumata görə, G.Torayan işğal olunmuş Azərbaycan torpaqlarında yanacaq resurslarının axtarışına başlayıb. Qazıntıların aparılması üçün əlavə olaraq, 350 min dollar da «Artsaxbank»a keçirib. Bu, 2004-cü ildə qoyulan investisiyadan çoxdur (2004-cü ildə

qazıntı üçün 210 min dollar ayrılmışdı). «Əl-Manar TV»yə gəlincə, araşdırmamıza görə, bu kanal Livan ermənilərinin də güclü meyl göstərdikləri «Hizbullah» ekstremist mərkəzinə xidmət edir («Culf Times» qəzeti. Qətər (Doha) 2002. – 47. səh.1). Erməni «Hayastan»ı ilə ərəb şeyxlərinin «Əl-Hərəmiyyə»si arasındakı strateji bağlılıq da maraq doğurmaya bilmir.

Məlumata görə, 2001-ci ilin yanvar ayından Qətərin «Əl-Cəzirə» telekanalı erməni terrorçularının işğal etdikləri Qarabağ ərazisində özünün Cənubi Qafqaz və Orta Asiya istiqamətində verilişlərini yayımlamaq üçün mərkəzini təşkil edib. Bu halda isə telekanalın liderlərindən olan Şeyx Həmada Livanın «Monar TV»nə məlumat verib. Əlavə olaraq, bu məlumat İstanbulda çıxan «Jmanak» qəzetinin baş redaktoru Aqa Koçaryanın Praqada keçirilən (2010-cu il mayın 28-i) erməni forumundakı çıxışında bir daha müsbət hal kimi qeyd edilib.

Araşdırmalarımıza görə, hər iki təşkilatın proqramı 94 bənddən ibarətdir. Hər iki təşkilat mahiyyət etibarı ilə proqramlarını erməni və yaxud ərəb diasporları istiqamətində yekunlaşdırırlar. Orta Asiyada, Qafqazda və RF ərazilərində «Əl-Hərəmiyyə» ermənilərin «Hayastan» təşkilatından, onun yerlərdəki özəklərindən məharətlə istifadə edir. Ərəb dünyasındakı erməni diasporunun formalaşmasında isə «Hayastan»çılar «Əl-Hərəmiyyə» təşkilatından yardım alırlar. Səudiyyə Ərəbistanının keçmiş neft naziri Zəki Namaninin oğlu Xari Namaniyə məxsus «Saudi Yuropien investment korporeyşn» şirkətinin bir qrup əməkdaşı 2010-cu ildə Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş ərazilərində, Qarabağ torpaqlarında görünüblər. İlkin məlumata görə, ərəb şirkətinin ayıracağı investisiyanın məbləği isə 350 milyon dollar olacaq (“News from Saudi Arabia” (Ciddə). 2010-cu il, 1-142. səh.1). Digər bir araşdırma materiallarından isə aydın olur ki, «Hayastan» – «ASALA» erməni terror təşkilatının üzvləri üçün təlim paltarları istehsal etmək məqsədilə Marseldə xüsusi fabrik açıb. 2001-ci il iyulun 25-də isə «Hayastan»ın başçılarından olan, əslində neft milyonçusu, ərəb mənşəli erməni Gevorq Torayanın xeyir-duası ilə Mehri yaşayış məntəqəsində neftayırma zavodunun bünövrəsi qoyulub. Ərəb milyonçusu Xan Yamani isə hələ 1998-ci ildə ərəb mətbuatına verdiyi müsahibələrin birində açıqca etiraf edir ki, Yamanilər nəslinin Qarabağda xüsusi meşə zolaqları, torpaq əraziləri var («Al Khalij» qəzeti, BƏƏ (Şərca), 1998, VI-2).

Məlumata görə, 2009-cu il mayın 17-də İran Culfasında açılmış azad ticarət zonasında ermənilər daha aktiv görünürlər. Iran istehsalçıları və

kommersantlarının ittifaqı tərəfindən qurulmuş bu ticarət zonasında alış-verişdən çox məşvərət keçirilir. Hər keçirilən siyasi məşvərətin mərkəzində isə «Böyük Ermənistan» ideyası dayanır.

Bu, bir həqiqətdir ki, bir erməni fikrinin, erməni planının kökündə bir «Hayastan» var. Məlumata görə, «Hayastan» tərəfindən 35 milyon dollar «investisiya» qoyulmuş (Xankəndində) «Armen Pars» dərman preparatları istehsal edən fabrik ölkənin MN-nın sərəncamına verildi. 2009-cu il mayın 26-da isə «15 nömrəli direktiv» Ermənistan Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarıldı.

**Məlumata görə, Xankəndində ermənilər islam və onun Peyğəmbərinə, dini liderlərə qarşı «Biz» nəşriyyatını yaratdılar. «Biz» nəşriyyatı «Quran» ayələrini saxtalaşdıraraq çap etməyi, onu, əsasən, Azərbaycan ərazisində yaymağı bir vəzifə hesab edir.**

**Strategiya isə «Hayastan»ın Vaşinqton bölməsinin irəli sürdükləri «Erməni xalqının milli maraqları naminə» proqramının, təkliflər toplusunun əsasında hazırlanmış, Ermənistan MN-nin Baş Qərargahında sistemə salınmış «15 nömrəli direktiv»də isə aşağıdakı məsələlər Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmışdı:**

Qarabağın yenidən qurulması:

**1. «Xocalıya Ədalət!» strateji layihəsinə qarşı çıxmaq. Kilsələrin, dini məktəblərin tikilməsini sürətləndirmək;**

2. Strateji-hərbi yolların, körpülərin qurulması;

**3. «Anti-islam» nəşriyyatı və mərkəzləri təşkil etmək;**

4. Hərbi Akademiya şəhərciyinin tikilməsi;

5. Yerevandakı silah zavodu filialının qurulması;

6. Zirehli maşınları, tankları və təyyarə mühərriklərini təmir edən işlərin təşkil edilməsi;

7. Artsaxı (Xankəndini) XXI əsr erməni diaspor mərkəzlərindən birinə çevirmək;

8. Dağlıq Qarabağın təbii sərvətlərilə bağlı Ekoloji departamentin yaradılmasını təmin etmək... (Yenə orada, P-d. D.Bənəryanın icmal yazısı, səh.3).

*Araşdırmalarımıza görə, «15 nömrəli direktiv»də irəli sürülən «Azərbaycan dövlətçiliyinə qarşı proqramların yenidən işlənməsi» fikrinin özəyini həm fiziki, mənəvi və həm də iqtisadi terror təşkil edir. Məlumata görə, antiazərbaycan proqramında MDB ölkələri ərazilərində məskunlaşan azərbaycanlılarla fərd və ya qrup şəklində iş prinsipləri də açıqlanır.*

*Məsələn, proqramın ikinci bəndində yazılır ki, vaxtilə Azərbaycanın yaşayış məntəqələrində yaşamış ermənilərin tapılması və onlarla yeni əməkdaşlıq və yaxud «Böyük Ermənistan» naminə əlaqələrin qurulması, hər şeydən əvvəl vətəndaşlıq işidir. Sonra bu «erməni vətəndaşlığı»nın mahiyyəti açılır. Mənəvi, psixoıoji, iqtisadi baxımdan şərh olunur.*

*Məlumata görə, 2020-ci lədək ermənilər, xüsusən «Hayastan»ın Moskva və Dağıstan bürosu Azərbaycanın iri şəhərlərində özlərinin koordinasiya mərkəzlərini yaratmağı qarşılarına məqsəd qoyublar. Bu əlaqələr hansı şəkildə qurulacaq, hansı məqsədlərə xidmət edəcək... bütün bunlar haqqında heç nə deyilmir.*

Araşdırmalarımıza görə, RF-nin Jeleznoqorsk şəhəri giriş və çıxışı məhdudlaşdırılan on «nüvə şəhəri»ndən biridir. Burada «Hayastan»ın şəhər şöbəsi 1995-ci il oktyabrın 2-də yaradılıb. İdarə heyətinin 7 üzvü var. Şəhər prokurorluğunda açılmış 0003121 – saylı cinayət işində plutonium oğurluğunda ittiham olunan iki erməni (1995-ci il oktyabrın 26-da) və bir nəfər ərəb vətəndaşının adları çəkilir («Вечерний Железногорск». 1996-cı il, 19 iyul. Şəhər prokuroru D.S.Lopatinin «Qanun və biz» icmal yazısı).

İstintaq materiallarında bu da bildirilir ki, nüvə texnologiyasında, bombaların hazirlanmasında geniş istifadə olunan plutoniumun oğurlanmasında və satılmasında «Hayastan» beynəlxalq xeyriyyəçi təşkilatın üzvləri olan Rafiq Adamyan, İqor Samvelyan yaxından iştirak ediblər. Onlar İordaniya vətəndaşı, ərəb mənşəli Saleh Ter-Qriqoryana oğurluq plutonium satarkən yaxalanıblar. Amerika xüsusi xidmət orqanlarının kəşfiyyat sənədlərində qeydə alınmış bu faktlar araşdırılmadı. Halbuki, kəşfiyyat sənədlərində qeyd olunur ki, bütün kütləvi qırğın silahları fəlakət rəmzi hesab edilir. Məsələn, Cənubi Karolina ştatından olan deputat, demokrat Con Sprett elan edir: «...Növbəti dəfə terrorçular bizi nüvə və yaxud kimyəvi silaha hədəf seçəcək. Bu hadisənin olub-olmayacağından söhbət getmir. Söhbət bunun nə vaxt baş verəcəyindən gedir...» («Boston Globe» qəzeti. Boston (ABŞ), 2011.21.IX). İstintaq materiallarında qeyd olunur ki, Azərbaycanın işğal olunmuş ərazilərindən ermənilər «plutonium bazarı» kimi istifadə ediblər.

Nyu-Meksiko ştatındakı Los-Alomoss nüvə laboratoriyasının keçmiş direktoru Ziqfrid isə bunu «...ən dəhşətli bəla adlandırıb...»

Məlumata görə, “plutonium oğruları” olan «Hayastan» təəssübkeşləri və iordaniyalı “qonaq” 2011-ci il noyabrın 14-də günahları sübuta yetirilmədiyi üçün buraxılıblar. Ondan bir qədər sonra RF-nin Təhlükəsizlik Şurası belə

bir faktı açıqladı ki, ölkədən kiçik həcmdə olan 84 ədəd nüvə silahı oğurlanıb. Xatırladaq ki, həmin vaxt RF-nin Təhlükəsizlik Şurasına məhz, ermənipərəst general Aleksandr Lebed başçılıq edirdi. Təhlükəsizlik Şurasının katibi kimi də ilk səfərini, ermənilər tərəfindən işğal olunmuş Qarabağ ərazisindən başlamışdı. Ehtimal olunur ki, itmiş nüvə arsenalının bir qismi məhz Qarabağın nəzarətsiz ərazilərindən İran, İraq, Əfqanıstan, Livan... istiqamətlərinə daşınıb... Biz bu faktı ehtimal kimi nəzərə çatdırdıq. Lakin son araşdırmalarımız bunun ehtimaldan çox həqiqət olduğunu deyir. RF-nin nüvə mühərriki üzrə mütəxəssisi Anatoli Zradnikov (nüvə fizikası ilə məşğul olan Dubna mərkəzinin direktoru) belə bir fikrin üstündə dayanır ki, Rusiyanın sərhədləri nüvə obyektlərindən başlayır. Bu materiallar ölkə daxilindən necə kənara çıxır, o məlum deyil. Qarabağa səfər edən erməni ərəblərinin təlim düşərgələri üçün müəyyən zonaların ayrılması da təhlil olunmalı, indiyədək qapalı qalan bu məsələ həm BMT-də, həm Avropa Şurasında, həm də beynəlxalq hüquq mərkəzlərində açıqlanmalı, təhlil edilməlidir. RF-dən yoxa çıxmış 84 ədəd kiçik ölçülü nüvə silahının oğurlanma xəritəsi də, artıq, bizə naməlumdur. Həmin nüvə silahlarından bir neçəsi hələ də Qarabağ ərazisində saxlanılır.

**Əldə etdiyimiz məlumata görə, Heydər Əliyev Fondunun RF-dakı Nümayəndəliyinin rəhbəri, Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» strateji layihəsi əleyhinə Ermənistanın Prezident aparatının ictimai-siyasi şöbəsində yeddi nəfərlik «Siyasətçilər qrupu» yaradılıb. Onlar «Xocalıya Ədalət!» çağırışının əleyhinə kitablar yazır, SD və DVD çarxları hazırlayır, xarici mətbuatda bu kampaniyanı gözdən salmaq üçün iftira dolu, böhtan xarakterli məqalələr çap etdirirlər.**

## BEYNƏLXALQ TERRORA QARŞI YENİ CƏBHƏ: «XOCALIYA ƏDALƏT!»…

İşğal olunmuş Dağlıq Qarabağ ərazilərindəki erməni qoşun kontingentinin arasında yüksək hərbi təlim və təhsil görmüş rus əsgərləri də var. Bunların 79 nəfəri zabitdir, 16 nəfəri 2-ci motoatıcı briqadada (Qaraxanbəyli), 19 nəfəri 538-ci alayda (Ağdaban)... xidmət edib. Məlumata görə, işğal olunmuş ərazilərimizdə 2193 nəfər Ermənistan MN-nın qeydiyyatındadır. Orduya çağırılmış bu adamların hamısı Ermənistanın müxtəlif yaşayış məntəqələrindəki hərbi komissarlıqlarda qeydiyyatdan keçib ( b a x : «ASUN» (Erevan) İnformasiya agentliyinin məlumatı. 2010, XII)

Araşdırmalarımıza görə, Ermənistanda yaradılmış «ərəb xristianlarından ibarət ilk könüllü dəstə» Azərbaycan torpaqlarının işğalında, təbii sərvətlərin üçüncü ölkəyə ötürülməsində aktiv rol oynayıblar. Qarabağın yandırılmasında iştirak ediblər. Tərkibində Livan, Misir, İordaniya, Suriya, İraq, Əlcəzair, Səudiyyə Ərəbistanı, Küveyt... könüllüləri olan silahlı dəstənin Qarabağ torpaqlarında törətdikləri cinayətləri hələlik tam açıqlamaqda çətinlik çəkirik. Amma, araşdırmalar zamanı məlum olub ki, Əyman Əz-Zavahiri və Midhət Ömər Livandan gəlmiş Mahmud Ənsarla (keçmiş Livan zabiti) Xocalı faciəsində bilavasitə iştirak edib («Ararat». Yerevan, 14 aprel 1994-cü il. E.Ambarsumyanın «Qan qardaşı» yazısı). Misirli həkim Əyman Əz-Zavahiri Qətərin «Əl-Cəzirə» televiziya kanalına verdiyi müsahibədə Ermənistanın Zod yaşayış məntəqəsində xristian ərəblər üçün təlim düşərgəsi yaradıldığını və bu təlim düşərgəsinin 1994-cü il iyulun 5-də Laçın rayonu ərazisinə köçürüldüyünü qeyd edir. Dağlıq Qarabağda olmuş Ayətulla Hacı Mir Hadı Əsgərzadəyə istinadən «Cümhuriye islami» qəzeti yazır: «... Kəlbəcərdə, Şuşada, Ağdamda, Qubadlıda, Cəbrayılda dağıdılan müsəlman qəbiristanlıqları dinc dövrdə, yəni müharibədən sonra dağıdılıb. Müsəlman ləyaqəti təhqir olunub. Lakin Kəlbəcər yaşayış məntəqəsinin təqribən 10 km-də yerləşən Zəylik kəndində (cənub-qərb istiqaməti – ***V.S.,R.V.***) bir-birinin yanında doqquz qəbir gördük. Bu qəbirlər təzə salınmışdı. Orada «Əfqan ərəbləri» deyilən bir dəstənin üzvləri dəfn olunmuşdu. Bu haqda bizə Kəlbəcərdə erməni kilsəsi tikən iranlı fəhlələr məlumat verdilər...» (b a x : 2010.V.9) (Bax: “İslam Respublikası” qəzeti (Tehran).

Araşdırmalarımıza görə, «Suxoy» hərbi-sənaye kompleksinin Novosibirsk, İrkutsk, Komsomolsk-Amur... mərkəzlərində (2012-ci il aprelin 12-nə olan məlumat), artıq, 31 nəfər milliyyətcə erməni alimi, mütəxəssisi çalışır.

Burada «Krasnopol» adlı nüvə başlıqlı mərmı də istehsal olunur ki, bunun da 180 ədədi 2011-ci il mayın 26-da Ermənistana daşınıb.

Erməni politoloqu Qayane Sarmakeşyan isə iddia edir: «...Ermənistan qatı düşmənlər əhatəsindədir- Türkiyə, Azərbaycan... Bəli, bu çox ciddidir. Eyni zamanda, bizi hər zaman dəstəkləməyə hazır olan iki güclü, güdrətli müttəfiqimiz var – Rusiya və İran… Stabil və firavan Ermənistan onların maraqları dairəsindədir...»(«Artsax» qəzeti. 2012, II-25, təkrar çap).

Araşdırmalarımıza görə, erməni terror təşkilatlarının Dağlıq Qarabağ istiqamətində nəzərdə tutduqları 28 səhifəlik «strateji tədbirlər planı»na 16 səhifə də əlavə edildi (1990-cı il). Terrorçular bu dəfə DQ-ın işğal olunmuş ərazilərində, xüsusən Xocalıda öz məqsədlərini dörd istiqamətdə yekunlaşdırdılar. Bu da işğal olunmuş Dağlıq Qarabağ torpaqlarında, eləcə də Azərbaycanın digər ərazilərində terror ğzğn yeni ba□lan□□c idi.

1. Nüvə terrorizmi (Həsənriz, Ağdaban, Kuropatkin, Xanabad);
2. Bioloji terrorizm (Kiş, Aşağı Veysəlli, İstisu);
3. Kimyəvi terrorizm (Havaslı, Vejnəli)
4. Kompüter terrorizmi (Şuşa, Xankəndi) (Bax: Q.Kristensen. "Unudulmuş bombalar". "Vlast" jurnalı 1997, №7, s.133).

Nüvə terrorizmi ilə bağlı ABŞ-MKİ-nin ekspertləri «Yaxın Şərq və Cənub-Şərqi Asiya komitəsinə belə bir məsələni çatdırıblar ki, Əfqanıstan, eləcə də MDB ərazisi narkobiznesin, silah alverinin, nüvə materialları qaçaqmalçılığının «körpüləri»dir. Nəticədə bu həyəcanlı çağırışa ABŞ prezidenti 13.129 nömrəli sərəncam verdi (Presidental Documents Executive Order 13/129).

Bilavasitə Qarabağda islama qarşı nüvə terrorizminə 1986-cı ildən Yerevan Fizika İnstitutunun əməkdaşı olmuş, fizika elmləri namizədi Stepan Baqdasaroviç Zmiryanın qrupu başçılıq edirdi. Bioloji terrorizmlə isə kimya üzrə ixtisaslaşan və uzun müddət Yerevandakı 4, 8, 12 nömrəli əczaxanalarda işləyən doktor Tamara Saakovna Lepandyan məşğul oldu. Kimyəvi və kompüter terrorizmləri isə bilavasitə DQ-ın ordu birləşmələrinin BQ-na keçirildi.

DQ ərazisində yaradılmış «Yardımçı» doqquz müxtəlif qrupa bölünmüş silahlı dəstələrin üzvləri isə 2011-ci il avqust ayının 3-dən etibarən öz silahlarını qondarma respublikanın MN-də qeydiyyatdan keçirdilər. Və bu doqquz qrupun üzvləri də, əsasən, işğal olunmuş ərazilərdən Azərbaycan istiqamətində fiziki, mənəvi və iqtisadi terror planlarının icrası üçün təminatlandırırdılar (Şuşadan təqribən 12 km aralı istiqamətdəki Xəlifəli yaşayış ərazisində, Cəbrayıl ərazisində, mərkəzdən 1,5 km aralı Xorovka ərazisində, Qubadlı ərazisində mərkəzdən şərq istiqamətdə). Araşdırmalarımızdan da aydın oldu ki, məhz 2010-cu ildə atom enerjisinə və nüvə tullantılarına Beynəlxalq Nəzarət Agentliyinin yüksək çinli məmurları dünyaya səs saldılar ki, MDB ölkələri ərazilərində «Nüvə mafiyası» yaradılıb. Tarixdə və siyasi həyatında ilk «nüvə ordusu» termini vətəndaşlıq hüququ qazandı. MDB məkanında bu adı da qazanan, bu adla çağırılan Atom (bu, onun doğma adıdır) Abramoviç Melkonyan oldu (Bax: RF-nin FTX-nin "Nüvə silahlarına qarşı" Moskvada 2010-cu il oktyabrın 1-də keçirilmişdir konfransdan yayılan icmalı).

1999-cu ildə ermənilər Kəlbəcərin Çaykənd yaşayış ərazisində rus mütəxəssislərinin köməyi ilə nüvə tullantıları anbarı inşa etdilər. Qəribə bu idi ki, bu anbara nəzarət etmək işi 1999-cu il may ayının 19-dan Ermənistan ərazisinə daxil olan bir qrup Əfqanıstan və Pakistan vətəndaşına həvalə edildi. Əslində, bu adamların Ermənistana, oradan da işğal olunmuş Dağlıq Qarabağ ərazisinə «pənah gətirmələrində» heç bir dolanışıq və iqtisadi məqsəd yox idi. 1999-cu il martın 27-də Ermənistana gələn və ölkənin fizika institutlarının birində təhsili üçün «Vətən» cəmiyyətinə müraciət edən əfqan Məhəmməd Murad, Yerevan Təhlükəsizlik Xidmətinin yüksək çinli məmuru tərəfindən «Armeniya» (Ermənistan) mehmanxanasının 5-ci mərtəbəsinin 59-cu otağına söhbət üçün dəvət edilir. Araşdırdığımız materiallardan bəlli olur ki, əfqan Məhəmməd Muradın «Wagt» (Zaman) qəzetinə (Lahorda nəşr edilir) 1999-cu il sentyabr ayının 17-də verdiyi müsahibədə (səh.3) Yerevan Təhlükəsizlik Xidmətinin polkovniki Serj Samvelyanın adını çəkir. Və bunu da iddia edir ki, təhlükəsizlik polkovniki nüvə materiallarının qeyri-qanuni satılmasında, qaçaqmalçılığında adına «Yusuf oba» deyilən qrupla əlbirdir. 1989-cu ildən Əfqanıstanın Pişəvar yaşayış ərazisində əfqan ərəblərinin kəşfiyyat dəstəsində xidmət edən Məhəmməd bunu da etiraf edir ki, o, öz yoldaşları ilə Ermənistana və Dağlıq Qarabağa məhz nüvə materiallarından ötrü gəlmişdi. O, üç ay polkovnikin nəzarətilə «Yusuf oba»nın qrupunda

İrana, İraqa tərkibində u-239-izotopu olan nüvə birləşməsini – plutoniumu... aparıb.

«Əfqan ərəbi» bunu da qeyd edir ki, Yerevana bu nüvə materialı xüsusi təyyarə reysləriylə, alınan kompüter dəstlərinin və digər hərbi sursatların arasında gətirilir. O, verdiyi müsahibəyə belə yekun vurur: «...Yerevanda nüvə oğrularının 2009-cu il avqust ayının 28-dək Baş Qərargahları, yəni yığıncaq məskənləri, məşvərət ocaqları elə Yerevanın özündə idi. Bütün qapalı söhbətlər və mənə edilən təkliflər (?) MN-də, 14-cü otaqda baş verirdi». 2009-cu il sentyabr ayının 4-dən bu məşvərət otağının bir hissəsi Artsax (Xankəndi) mərkəzinə keçirildi.

Yerevan Təhlükəsizlik Xidmətinin polkovniki Serj (Gevorkoviç) Samvelyana gəlincə, o da «Vartan cəngavərləri»nin bilavasitə «nüvə terrorizmi» qrupuna başçılıq edən Suriyadan gəlmiş erməni keşişi Stepan Baqdasaroviç Əmiryanla eyni cərgədə, eyni siyahıda dayanırdı. Çünki təhlükəsizlik polkovnikinin əli, artıq, Rusiya Federasiyasının nüvə anbarlarınadək gedib çatırdı.

Ermənistanda «nüvə məsələləri»lə (deyək ki, mafiya ilə) məşğul olan şirkətlərə gəlincə, hələ ki, ölkə «Razdanmaş», «Yak-Mak Metaliz», «Arşavir», «Akopyan» (geyim istehsal edən fabriklə qarışdırmayın), «Vartaniol» şirkətləri gedir. «Yak-Mak Metaliz» (1947-ci ildən), «Akopyan» (1998-ci ildən) DQ-nin ərazisində özlərinin məxfi elmi-tədqiqat laboratoriyalarını da açıblar («Vartaniol» qrupuna gəlincə, onların Naxçıvan zonasında 2010-2025-ci illər üçün nəzərdə tutduqları «Uran axtarışı proqramı» da vardır.

«Yak-Mak Metaliz» şirkəti DQ ərazisində ötürücü və yaxud əlaqələndirici rolu icra edir. Məsələn, əldə etdiyimiz məlumata görə, 2010-cu il noyabr ayının 16-dan 20-dək bu ərazidən Ukraynadan gətirilmiş və yaxud gizli yolla əldə edilmiş raket texnologiyası üçün lazımlı olan 650 heroskopun, 146 ədəd «hərəkət-uçuş mexanizmi» sistemində istifadəsi nəzərdə tutulmuş polad örtüyün və əyləclərin yola salınmasında (İrana və İraqa) «Yak-Mak Metaliz» şirkəti yerli sərhəd-keçid məntəqələrinin köməyilə birgə işləmişdir. (Nəzərdə Zəngilan, Cəbrayıl sərhəd-keçid məntəqələrini saxlayın). Digər tərəfdən, Dağlıq Qarabağ ərazilərinə daşınmış «S-300» və «Tayfun» raketlərinin modernləşdirilməsi yolunda da maraqlı üçtərəfli tədqiqatlar aparılır. Və bu raket texnologiyası istiqamətində 2010-cu il iyul ayının 23-də Moskva-Pekin-Yerevan danışıqları da var. Professor Kim Jen Sen (Çin) – Viktor Mixaylov (RF) – Ter-Saakyan (Ermənistan) qrupu da öz

işlərini davam etdirir. Kim Jen Sen Pekində nüvə tədqiqatları, eləcə də lazer istiqamətində araşdırmalar aparan mütəxəssisdir, Çin MN-nın ETM-də çalışır. Viktor Mixaylov RF-də (Saratov şəhəri) nüvə mərkəzinin elmi mütəxəssisidir (biz əvvəlki səhifələrdə bütün bunlar haqqında məlumat vermişik).

Araşdırmalarımıza görə, 2010-cu il iyul ayının 9-dan 12-dək qonşu dövlətlərin «Şüa» sənaye konserninin əməkdaşları da DQ ərazisində, eləcə də Yerevanda bu işlə məşğul olan şirkətlərlə əməkdaşlıq etmək üçün bu regionlarda göründülər. Çünki, məlumata görə, həm Yerevanı, həm də Moskvanı lazerlər vasitəsilə güclü enerji məsələsi çox düşündürür. Onlar ABŞ mütəxəssislərinin «ABL», «Alpha», «Thel» raket texnologiyasında lazerdən istifadə proqramlarını araşdırdılar və birlikdə «High-Rower Lasers in Energy Engineering» (lazerdən güclü enerjinin alınması) proqramını irəli sürdülər. Müştərək müqavilə imzaladılar. Digər tərəfdən, 2001-ci ildə Xankəndində Moskvadakı «VPK MAPO» – ETM-nin də filialı açıldı və işlərini güclü proqramla həyata kezirmək üçün «Razdanmaş» sənaye mərkəzilə (həm də şirkət) əlaqələrini qurdu. Xatırladaq ki, «VPK MAPO» mərkəzi reaktiv sərnişin təyyarələrinin layihələşdirilməsi və reallaşdırılması istiqamətində işlər görür. Məhz bu mərkəz ötən il Bağdadda (İraq) reaktiv təyyarə mühərriklərinin istehsalı üçün 145 min ABŞ dolları dəyərində lisenziya satıb. Bu mühərrik raket texnologiyasında geniş istifadə edilir.

Hazırda DQ ərazisində ermənilərin yeni dərman fabrikinin tikintisi məsələsi də ortaya çıxıb. Bu istiqamətdə hələ Ermənistan hökuməti 2006-cı ildə təkliflə çıxış etdi, lakin işlər yarımçıq qaldı. İşğal olunmuş ərazilərdə dəyəri 14 milyon 650 min dollar olması nəzərdə tutulan dərman fabrikinin inşasında Yerevan + Tokio + Moskva əməkdaşlığı 2011-ci il dekabr ayının 24-dən qüvvəyə mindi. Araşdırmalarımıza görə, Ermənistan MN-in Rusiya Federasiyasının Dövlət Atoma Nəzarət İdarəsində 2011-ci il dekabr ayının 4-də bağlaşması da var. Bu bağlaşmaya görə, Ermənistan işğal etdiyi DQ ərazilərinin müəyyən qismini Rusiya Federasiyasında nüvə texnologiyası ilə məşğul olan alimlərin və mütəxəssislərin istifadəsi üçün ayırıb. Məsələn, 1998-ci il aprelin 3-də əldə olunmuş razılığa əsasən, Peterburqdakı Nüvə Fizikası İnstitutunun laboratoriyalarından biri Xankəndinə köçürülməli idi. Minsk (Belarus) və Xankəndi (DQ) alimlərinin birgə tədqiqatları üçün Laçın meşələrində ikimərtəbəli bir elmi-tədqiqat mərkəzinin yaradılması qərara alındı. Məlumatlara görə, həmin bina, artıq, hazırdır. 2010-cu il may ayının 22-də bu binaya Belarus DU-nun nəzdindəki nüvə problemlərilə məşğul olan

Elmi-Tədqiqat İnstitutunun «Silenko tədqiqat qrupu»nun üzvləri baxış keçirib. 2011-ci il iyun ayının 13-də isə burada ilk laboratoriyalar quraşdırılıb. 2011-ci il sentyabr ayının 6-da isə Laçın rayon mərkəzindən cənub istiqamətdə salınmış Zabux deyilən ərazidə əsas binası Moskvanın Kurçatov meydanı 1-də yerləşən Kurçatov institutunun «Pr.Averyan qrupu»nun tədqiqat mərkəzi açıldı. İnstitutun pulu olmadığından, bu mərkəzin bütün xərclərini (120 min dollarlıq avadanlığı) «Vartan cəngavərləri»nin Xankəndindəki BQ-nın ideoloqu, ixtisasca bioloq olan Karen Karpoviç Sevasyan çəkib (Bax: «Artsax TV». Xankəndi, 2011-ci il, 14 sentyabr, saat 21.00 yayımlanan veriliş. Aparıcı A.Manukyan).

Araşdırmalarımız və əldə etdiyimiz məlumatlara görə, Dağlıq Qarabağın erməni terrorçu korpus və birləşmələri tərəfindən işğal olunmuş ərazilərimizdəki nüvə tədqiqatı laboratoriya və mərkəzlərində 9 nəfər «əfqan ərəbi», 3 nəfər Bağdad universitetinin məzunu, 6 nəfər pakistanlı, 2 nəfər İsfahandan gəlmiş riyaziyyatçı, 17 nəfər erməni və 4 nəfər ərəb ölkələrindən (Səudiyyə Ərəbistanından və Suriyadan)gəlmiş mütəxəssislər öz şəxsi elmi axtarışlarını davam etdirirlər. Nəticədə bizə bu da aydın oldu ki, ayrılmış ərazilərdə erməni və rus alimləri birgə sınaq təcrübələrinin ilkin nəticələrini də alıblar. (?) 2011-ci il may ayının 14-də RF-nin Dövlət Atoma Nəzarət İdarəsinin şöbə müdiri Yuri Volodin ciddi bir açıqlama verdi. O, Moskvada keçirilən konfransda etiraf etdi ki, nüvə materiallarının oğurlanması ilə bağlı RF-də və, xüsusən, MDB ərazisində onlarca hadisə baş verib. Nəticədə nüvə materiallarının bir qismi oğurlanıb, xaricə daşınıb. RF MN Baş İdarəsinin rəisi general-polkovnik İqor Volınkin isə (bu şəxs nüvə obyektlərinin təhlükəsizliyinə cavabdeh şəxsdir) söhbətlərin birində RF-də, Ermənistanda və Qazaxıstan ərazisində görünən əfqan ərəblərini, iş üçün gələn İraq və Pakistan vətəndaşlarını, onlara qoşulan yerli zabitləri (?) lənətləyir. O deyir: «...Rusiya silahlı qüvvələrinin zabitləri iki dəfə nüvə obyektlərinə basqınların qabağını alıb...». (?) General üçün məntiqi bir sual çıxır: harada? (Bax: Xankəndi. «Korpus». Bülleten 2011. №6, s.9-11. Moskva. «Atom enerjisi ilə bağlı materiallar.» Bülleten. 2011. №6, s.24. Əlavə ABŞ Dövlət Departamentinin 2011-ci il «Nüvə silahlarının oğurluqları ilə bağlı açıqlaması).

Bir az əvvələ qayıdaq.

Hələ 1994-cü il oktyabr ayının 21-də RF-nin eks-prezidenti Boris Yeltsinlə, Ermənistanın eks-prezidenti Ter-Petrosyan arasında hərbi müqavilə imzalandı. Bu müqaviləyə əsasən, Moskva öz hərbi bazasını

Gümrüdə yerləşdirməli idi. 1997-ci il aprelin 18-də RF Dövlət Duması bunu ratifikasiya edib qüvvəyə mindirdi. Nəticədə bura 3 min nəfər hərbçi daxil oldu. «Su-27» təyyarələri, havadan müdafiə sistemi qurğuları gətirildi, «S-300» tipli raketlər quruldu. (Bir az ötmüş Çindən «Tayfun» raketləri yerləşdirildi). İlk nüvə oğurluğu da elə Gümrü ərazisində baş verdi. Ərazidəki nüvə anbarından 28 qram Uran oğurlandı. 2011-ci il iyun ayının 4-də İran sərhədini keçməyə cəhd edən əfqan vətəndaşı Gül Əhmədxan Sahib və milliyyətcə erməni olan Hamburq Arakelovic Ayrumyan saxlanıldı... Nəticəsi isə bilinmədi. Lakin araşdırmamız zamanı məlum oldu ki, 2011-ci il avqust ayının 7-də Gül Əhmədxan təhlükəsizlik polkovnikinin – Serj Gevorkoviçin sərəncamına verilib. Hamburq Arakeloviç Ayrumyan isə «Vartan cəngavərləri»nin işğal olunmuş Cəbrayıl rayonu ərazisindəki Dağ-Tumas təlim düşərgəsinə göndərilib.

**RF Təhlükəsizlik Şurasının nümayəndəsi Raisa Udoviçenko isə 2011-ci il oktyabr ayının 10-da keçirilən yığıncaqda belə bir fikrin üstündə dayandı: «... Taliban emissarları fevral ayında nüvə məsələlərilə məşğul olan institut əməkdaşlarına təklif ediblər ki, onlara yüksək qiymətə nüvə texnologiyası satsınlar. Və yaxud yüksək maaşla onlar üçün işləsinlər. Üç nəfər institutdan getdi. Hansı ölkəyə – bilmədik...» (Bax: Çıxışçının RF-nin "Ren TV"-yə 2011-ci ilin oktyabrın 10-da verdiyi müsahibədən).**

**Halbuki, xanım Raisa Udoviçenko bilirdi. Bilirdi ki, bu üç nəfərdən ikisi milliyyətcə erməni, biri isə rusdur. Beləliklə, nüvə mühərrikləri üzrə araşdırmanı aparanlar: Kurçatov adına institutun elmi işçisi Aftandil Abakumoviç Ter-Akopyan, akademik Lavrentyev adına Lazer Fizikası İnstitutunun əməkdaşı Qriqori Martirosoviç Barilyan və Moskvadakı M.F.Salmax adına «Polyus» – ETM-in aparıcı mütəxəssisi Boris İvanoviç Şestakov... 2011-ci il mart ayının 26-da İrana, oradan da Əfqanıstana keçirlər.**

*Digər bir məsələni xatırlayaq ki, 2010-cu il aprel ayının 2-də Xankəndində məskunlaşan «Vartan cəngavərləri»nin Baş Qərargahından Beyrutdakı Ümumerməni Kilsə Şurasına belə bir məktub yola salındı: «...Biz, artıq, təşkilatlanmışıq. Bizə edəcəyiniz və ayrılmış yardımları da aldıq. Qardaş və bacılarımıza kömək məqsədilə əlbir işləyirik. Nə üçün ehtiyat edək? Biz ehtiyat etmirik. Hər yerdən qayğı və ehtiramla dövrəyə alınmışıq...» («Hesabat» – Roma, «Bülleten» – 2010-cu il, 16-cı nömrə, səh. 14).*

2011-ci il həyatda və cəmiyyətdə hələlik – «Nüvə mafiyası» ili kimi qalır. Çünki, hesablamalara görə, ötən illərdən fərqli olaraq, bu il daha çox nüvə materialları oğurlanaraq, üçüncü ölkəyə daşınıb. Əldə etdiyimiz məlumata görə, ötən illərə nisbətən bu tipli oğurluğun həcmi 20 faiz artıb. Məsələn, ABŞ Dövlət Departamentinin açıqlamasına görə, 2010-cu ildə MDB ərazilərindən `12 kiloqram uran yoxa çıxıb. Digər bir oğurluqda isə 6-kiloqram uran-235 qeydə alınıb. Səkkiz kiloqram «3D 20» nişanlı plutoniumu asanlıqla sərhəddən keçiriblər.

Araşdırmalarımıza görə, erməni separatçılarının 2010-2020-ci illəri əhatə edən «Doğma Qarabağın yaşayış məskənlərində islami dəyərlərin son daşınadək araşdırılması və məhvi... yenisilə əvəz olunması...» proqramının müzakirəsi keçiriləcək.

Göründüyü kimi, bütün təhlil və araşdırmalarımız göstərir ki, işğal olunmuş Azərbaycan ərazilərində bilavasitə islam dininə qarşı geniş strateji planlar hazırlanmaqdadır.

ABŞ MKİ-nin sənədlərində, eləcə də RF-nin xüsusi xidmət orqanlarının materiallarında Qazaxıstan (Aktau), Ukrayna, Ermənistan... əraziləri nüvə oğruları üçün sərhədsiz və nəzarətsiz zonalar kimi qeyd edilib...

Ermənistan və Dağlıq Qarabağ ərazisində yuva qurmuş «Vartan cəngavərləri»nin «ASALA» erməni qruplarında fəaliyyət dairələri, əsasən, 1991-ci ildən başlayıb. Şuşanın (1992-ci il, may) işğalı zamanı ələ alınmış əsirlərin dindirilməsində, işgəncələr verilməsində və nəhayət, güllələnməsində onların cinayətkar əməlləri danılmazdır. Araşdırmalarımız zamanı belə faktlara da rast gəldik ki, Dağlıq Qarabağ təkcə fizika və deyək ki, nüvə terrorizminin məskəni olmayıb. Burada insanlar üzərində amansız bir mənəvi terrorun da əsası qoyulub.

1994-cü il yanvar ayının 16-da ABŞ-da eks-energetika naziri cənab Xeyzel Oliri senatdakı çıxışında belə bir məsələyə toxundu ki, "...biz şüalanma və insan orqanizmindəki ən ağır xəstəlikləri müalicə edə bilirik. Bunun üçün insan orqanizminə nəzərdə tutulmuş miqdarda plutonium iynələrinin vurulması kifayətdir." (Bax: "Azadlıq" radiosunun materialları. 1994-cü il yanvarın 16-17 səslənən icmal). Nazir, həmçinin bu istiqamətdə ərazi və bölgəyə görə 200 müxtəlif proqramın olmasını da vurğuladı. Araşdırmalarımıza görə, bu proqrama daxil olan ərazi və bölgələr cərgəsində MDB-nin nəzarətsiz zonaları da qeyd edilir (xatırladaq ki, ABŞ vaxtilə, yəni 1947-ci ildə də belə bir proqram reallaşdırmaq üçün yollar axtarırdı. O vaxt bu proqram-layihə «Manhetten» adlanırdı və həmin layihəni ABŞ-ın

Kaliforniya Universitetində (San-Fransisko) gerçəkləşdirən həkim qruplarından birinə dr. Arabel Baxtoviç Akopyan başçılıq edirdi).

Əsasən, plutonium iynələrilə (radioaktiv xassəli kimyəvi element) xərçəngi müalicə edən Arabel Akopyanın özü də sonra 76 yaşında xərçəngdən ölür.

Kaliforniya onkoloqları arasında dr. Akopyanın keçmişinə və bu gününə nəzər saldıq.

Beləliklə, baba d-r Akopyanın yerini yeni Akopyan isminin başlanğıcı olan d-r Arçun Akopoviç Akopyan tutur. 1994-cü ilin sentyabr ayında nəvə, d-r Arçun Akopoviç Akopyan babasının yarımçıq qalmış layihəsinə əlavələr edir. Ölkənin Atom Enerji Komissiyasına yazılı müraciət edir. Lakin komissiya «Akopyan layihəsi»ni qəbul etmir. Nəticədə, 1994-cü il noyabr ayının 5-də doktor Arçun Akopyan Rusiya Federasiyasına, oradan da Ermənistana gəlir. Ölkənin MN-nə məxsus hərbi hospitalında laboratoriya açır. Venadaxili radioaktiv maddələrlə yüklənmiş iynələrin vurulmasından sonra araşdırmalarını aparan d-r Arçun Akopyan, məlumata görə, 1995-ci il iyun ayının 3-də Xankəndinə gəlir... Azərbaycanlı əsirlər üzərində rüsvayçı bir tədqiqat layihəsini həyata keçirir. D-r Akopyanın bu işi «The Vashington Post» qəzetində kəskin tənqid edilib (b a x : «The Vashington Post» qəzeti, 1998, XII-2.)

1997-ci il sentyabr ayının 15-də Akopyan Amerikaya qayıdır. Ölkənin radiobioloji məsələlərlə məşğul olan elmi-tədqiqat mərkəzlərində, o cümlədən Çikaqoda, Ok-Ridceddə, Kaliforniyada, Vaşinqtonda və Nyu-Yorkda... Hərbi Onkoloji hospitallarda, elmi-tədqiqat mərkəzlərində çıxış edir. Araşdırmalarımıza görə, Ermənistan və Rusiya Federasiyası milli təhlükəsizlik və kəşfiyyat sənədlərində işğal olunmuş Dağlıq Qarabağ ərazisinə nüvə bazası kimi baxılır.

Ermənistan və RF-nin nüvə proqramlarında bununla bağlı ayrı bəndlər var.

Bütün bunlar islam dünyasının bir parçası olan Azərbaycana qarşı yönəlmiş erməni siyasətinin tərkib hissəsi olaraq qalır.

Araşdırmalarımıza görə, Ermənistanın nüvə proqramı ilkin olaraq 2010-cu il dekabrın 14-də qəbul edilib. Yerevanda keçirilən Təhlükəsizlik Şurasında bu proqramı hazırlayanların adları açıqlanıb (Pr. Q.Ter-Akopyan, pr. K.Ter-Martirosyan, pr. S.Avakyan, pr. R.Saakyan, pr.K.Alanakyan). Otuz altı maddədən ibarət olan bu strateji proqramda dörd yerdə (12-ci, 14-cü, 19-

cu və 26-cı maddələrdə) işğal olunmuş Qarabağın adı çəkilir, ərazilərin bir qismi 2 «nüvə zonaları»na ayrılır.

2011-ci ilin noyabr-dekabr aylarında ermənilərin Axalkalaki qruplaşmaları – «Pedianı» təşkilatının üzvlərinin (kvant fizikasından Tbilisi Universitetində dərs deyən doktor Aşot Arakelyan və laboratoriya müdiri Ermik Susumyan) başçılığı ilə Gürcüstanın Misxet yaşayış məntəqəsindən uran-238 materiallarının və tədqiqat üçün ayrılmış (əslində sınaq üçün) nüvə mühərriklərinin oğurlanması planlı şəkildə həyata keçirilir. Məlumata görə, ərazidən təqribən 2 kiloqram uran-238 materialı oğurlanıb. Üstəlik, Suxumi nüvə tədqiqatları mərkəzindən çox da böyük olmayan üç mühərrik aparılıb. Amerikadakı beynəlxalq məsələlər və elm üzrə Belfer mərkəzinin (Harvard Universiteti nəzdində) nüvə tədqiqatları üzrə məsləhətçisi Metyu Bann Gürcüstan ərazisindən oğurlanmış nüvə materiallarına işarə edərək xəbərdarlıq edir: «...Terrorçular bütün imkanlardan istifadə edirlər ki, bu materiallardan heç olmasa bir qismini əldə etsinlər... Biz də bunun müqabilində bütün gücümüzü ortaya qoymalıyıq ki, onlar bu qırğın silahlarını ələ keçirməsinlər...» (« The Vaşinqton post» qəzeti, 2011-ci il, 3 iyun. Müəllif Cobi Uorrik). Harvard Universitetinin «nüvə təhlükəsi» ilə bağlı MKİ-nə ünvanladığı hesabatda isə göstərilir: «...Kim atom bombası üçün material axtarırsa, o, çalışıb tapacaq. Oğurluq yolla da olsa, tapacaq, qaçaqmalçılıq yolu ilə də olsa... Milli təhlükəsizlik naminə ciddi addımlar atılmalıdır...» (Bax: eyni mənbə, avqust).

«Nüvə laboratoriyaları», mühərriklər və nüvə texnologiyasının Gürcüstan ərazisindən oğurlanmış komponentləri Ermənistan ərazisindən kənara çıxmayıb. Nüvə materiallarının bir qismi Livan ermənilərinə satılıb. Həmin materialların bir hissəsinin «Həmas» terrorçu qrupunun əlinə keçməsi də həqiqətdir (bu istiqamətdə xüsusi araşdırmalarımız var). «İslam bombası»nın hazırlanması isə ehtimaldan çox, reallıqdır.

***Ermənistan nüvə tədqiqatçıları son iki ildə bu sahədə aktiv iş aparırlar. Məsələn, Rusiya Federasiyası ərazisindəki nüvə tədqiqatları mərkəzlərində fəaliyyət göstərən erməni mütəxəssisləri istəyirlər ki, onların vətənində – Ermənistanda nüvə silahı yaradılsın. Ermənistan nüvə ölkəsi olsun.*** Çünki onların fəlsəfəsinə görə, «Türkiyə və Azərbaycan» bu istiqamətdə Ermənistana həmişə təhlükəli görünür. Məlumata görə, ***artıq, RF-nin müxtəlif institutlarında işləyən erməni alimlərinin bir qismi laboratoriyalarını Yerevana və yaxud Dağlıq Qarabağ ərazisinə***

***köçürüblər. Məsələn, artıq, Kurçatov adına Fizika İnstitutunun nüvə mühərriki üzrə tədqiqatlar aparan L.Mikailyan, Nüvə Tədqiqatları İnstitutunun müəllimi G.Ter-Akopyan, Nəzəri və Eksperimental Fizika İnstitututun professoru R.Saakyan, Nəzəri və Eksperimental Fizika İnstitutunun müəllimi, doktor L.Ter-Petrosyan özlərinin tədqiqat laboratoriyalarını açıblar*** («İran» qəzeti, Tehran, 2011, VII-6).

Araşdırmalarımıza görə, Yerevan Fizika İnstitutunun alimlərindən, nüvə texnologiyası sahəsində tanınmış tədqiqatçılardan N.Egiyan, K.Alananyan, Ə.Şərabyan Kəlbəcər yaşayış məntəqəsində «Nüvə və kvant fizikası ilə mühərriklərin hazırlanması, həmçinin nüvə enerjisi məsələləri ilə məşğul olan ayrı-ayrılıqda fəaliyyət göstərən xüsusi laboratoriya»lara başçılıq edirlər. «Nüvə silahlarına nəzarət üzrə Viskonsia proqramı»nın direktoru, doktor Herm Millolinin fikrincə, «...bu yerlərə, yəni nüvə tədqiqatı ilə, alış-verişlə məşğul olan yerlərə strateji materiallar, adətən, (nüvə texnologiyasını nəzərdə tutur) RF-dən gəlir. Bu region nüvə qaçaqmalçılığına öz qapılarını geniş açıb...» («Nuclear Times». Nyu-York, 2011, 12 dekabr, səh. 6). Amerika MKİ-nin eks-başçısı Corce Terner isə dünyanı sarsıdan nüvə oğrularına «müharibə elan» edilməsini istəyib. Onun açıqlamalarına görə, Amerika Birləşmiş Ştatlarının qorxusu və ehtiyatı növbəti «nüvə terroru» ola bilər. Toplanmış kəşfiyyat materialları bunu deməyə əsas verir. Məlumata görə, bunun əksi olaraq, «Nüvə əleyhinə kampaniya»nın sədri Kerol Noton (İngiltərə) isə qeyd edir: «...Müharibə – bu cavab deyil. Silaha silahla cavab vermək düzgün deyil. Bu, yeni «bin laden»lərin yaranmasına gətirib çıxaracaq...» (eyni mənbə. K.Notonla müsahibə. 2011, 21 fevral, səh.9).

2011-ci il mayın 26-dan etibarən, Ermənistan ərazisində «Hökumət və məxfilik» proqramı qüvvəyə minib. Bu strateji-siyasi proqramın açılmasından iki gün ötmüş (mayın 28-də) işğal olunmuş Dağlıq Qarabağ ərazisində belə bir addım atılmışdı.

Proqramın məzmununa gəlincə, Xankəndinin kəşfiyyat zabiti O.Aleksandryan belə bir açıqlama verir ki, məqsəd strateji obyektlərə, yarışmalara və erməni alimlərinin mikrobiologiya, kimya və nüvə tədqiqatları üzrə apardıqları araşdırmalara ciddi nəzarət mexanizminin qurulmasıdır. Onun fikrincə, bu mexanizm, artıq, qurulub. Məxfilik prinsipi isə bu mexanizmin əsasını təşkil edir.

Məlumata görə, Ermənistanda tətbiq edilən «Hökumət və məxfilik» proqramı məzmun və mahiyyətinə görə, Amerika Alimlər federasiyasının

(Vaşinqton) MKİ-nin eks-başçısı Corc Ternerə təqdim etdikləri layihənin əsasları üzərində yazılıb (Amerika alimləri belə bir proqram layihəsini hələ 2000-ci ildə Ağ Evə, MKİ-nə təqdim ediblər. Burada söhbət ölkənin nüvə texnologiyası ilə məşğul olan elmi-tədqiqat obyektlərinin, tədqiqat sahələrinin qorunmasından gedir) («SECRECU IC VASK IN FASHSION/VULL. OF THE ATOMIC SCIENTISTS – Chicago. 2010, səh.56, N-6P, 25-29).

Məlumata görə, Yerevanın strateji mərkəzlərində tez-tez ölkə kəşfiyyatının zabitləri görünür, ayrı-ayrı şəxslərə ciddi nəzarət qaydaları tətbiq olunur. Artıq, təkcə bu ilin may ayı ərzində strateji tədqiqatlarla məşğul olan 13 erməni alimi ölkədən çıxarılıb.

Professor Andranik Lalayan «Armyanskiy vestnik» bülleteninə verdiyi müsahibəsində göstərir: «...Ermənistan istəyir ki, strateji tədqiqat mərkəzlərində bürokratik məxfilik prinsiplərinə son qoysun, həqiqi siyasi məxfilik kursuna keçsin. Bu, müharibə şəraitində olan Ermənistan üçün həmişə, hər vaxt lazım olan məsələdir...» («Armyanskiy vestnik», M...., 2010, 26 may, səh. 3).

Məlumata görə, aprelin 2-dən (2011-ci il) Ermənistan hərbi kəşfiyyat və əks-kəşfiyyat xidmətlərində «Post-14» adlı proqramın işlənməsilə bağlı SQ Baş Qərargahında xüsusi müşavirə keçirilib. Bu proqramın da mahiyyətində ərazidəki nüvə tədqiqatları ilə məşğul olan elm adamlarının, analitiklərin qorunması məsələsi dayanır. Hərbi kəşfiyyat xidmətində (p-k S.Alaverdiyan), eləcə də hərbi əks-kəşfiyyat xidmətində (p-k O.Ambarsumyan) «Kütləvi qırğın silahlarına nəzarət bölmələri» yaradılıb. Yeni olan bu strateji şöbələrin başçılarının prezidentin Təhlükəsizlik Şurasında iyunun 12-də hesabatları da dinlənilib.

Ermənistan Fizika Tədqiqatları İnstitutunun professoru (Ermənistan MEA Aştarak-2) Serj Ter-Avastisyan ölkə kəşfiyyatında aparılan belə bir islahatın Ermənistan üçün, onun milli təhlükəsizliyi üçün «misilsiz...qiymətsiz bir addım» olduğunu vurğulayıb.

Araşdırmalarımıza görə, Ermənistanın nüvə tədqiqatçıları həm RF, həm də iranlı həmkarları ilə də ciddi elmi əlaqələr qurublar. Lakin əvvəllər müəyyən mərhələlərdə açıq görünən bu əlaqələr, bu gün daha qapalı və məxfilik prinsipləri əsasında həyata keçirilir.

Təhlillərimizə görə, siyasi hadisələrin bir-birini əvəzetmə və dəyişmə sürəti (zaman və məkan daxilində), dəqiq desək, çevikliyi, XXI əsrin ilk illərində (2010-cu ilə nisbətdə), məsələn, 2001-ci ildə 2,5 dəfə artıb. 2005-ci ildə rəqəmin 3, 2011-ci ildə 3,8 dəfə, 2015-ci ildə isə 6,3 dəfə olacağı qeyd

edilir. Bütün bunlar hər hansı bir dövlətin «Milli Təhlükəsizlik Konsepsiyası»na öz mənfi təsirini göstərir və nəticədə hər şey dəyişir. Proseslərdən kənarda qalan və yaxud gecikən ölkə, xalq, millət və siyasətin... hesablamalara görə, 2010-cu ildə xəritədən silinməyi, parçalanmağı, məhv olub sıradan çıxmağı və yaxud məhv olmamaq üçün kiminləsə birləşməyi labüddür.

Zamanın və dünyanın ikinci hökmü isə kütləvi qırğın silahlarındadır. Bu, ehtimal deyil, bu, reallıqdır. «Raket atlası»nda (London, 2010-cu il) bir-birini əvəz edən hədəfəçatma məsafəsinə görə fərqlənən nüvə başlıqlı qanadlı raketlərdən tutmuş, əsəb və sinirləri sıradan şıxaran, insanı başdan ayağadək çürüdən kimyəvi, bilavasitə genləri məhv edən bakterioloji silahadək... təhlükə olaraq qalır və bu təhlükə səngimir, əksinə artıb çoxalır.

Türkiyə nüvə fizikası ilə məşğul olan məşhur professor Xeyrəddin Qılıc deyir ki, Türkiyə hökmən nüvə silahı istehsal etməlidir. AES-in tikilməsi bu məsələyə xidmət edəcək. Çünki bu, Türkiyənin enerjiyə olan ehtiyacının cəmi 4 faizini verəcək. Birincisi, Türkiyə AES-in tikintisi 2800 Mq Vt gücündə olan mərkəz olacaq. Bu da Aralıq dənizi sahillərində, Meroin şəhərciyində tikiləcək.

*Bu, təbiidir. Çünki, NATO-ya üzv ölkələr nüvə silahı ilə, eləcə də kimyəvi, bakterioloji silahlarla əlləşən və bilavasitə Türkiyə sərhədlərini ələk-vələk edən Ermənistana qarşı heç bir rəy açıqlamırlar. Nəticədə, Türkiyə öz ölkəsinin erməni fitnəsindən qorunması üzərində düşünür. Bu da təbiidir. Ona görə ki, NATO-ya üzv ölkələrin hər birində, tutaq ki, hərbi-sənaye komplekslərində, parlament və departamentlərində, kəşfiyyat mərkəzlərində, bank və şirkətlərdə potensial imkanı olan ən azı 20-25 % milliyyətcə erməni siyasətçiləri var . Və nəinki Türkiyənin, eləcə də, bir-birindən ayrı düşən türk dünyası xalqlarının informasiya müharibəsində Qərbin dəstəyinə ehtiyacı var. İstəsək də, istəməsək də bu, belədir.*

*Gəlin təhlil edək. Türkiyə SQ BQ rəisi, general Hüseyn Qırıqoğlunun Ermənistanda kütləvi qırğın silahlarının olması faktını, harayını dəstəkləyən hansı, tutalım NATO-ya üzv ölkə oldu? Halbuki,* **1994-cü il iyun ayının 14-də erməni fizikləri ilə birgə bədnam Zori Balayanı və prezident Ter-Petrosyanı qəbul edən RF-nin «qayğıkeş» prezidenti B.N.Yeltsin belə bir sual vermişdi: «...İndi sizin nəyiniz çatmır?...» Bədnam Zori Balayan həya etmədən demişdi: «...Boris Nikolayeviç, etdiyiniz yaxşılığa görə minnətdarıq. (?) ...Ermənistanın bir dövlət kimi yaşaması və türk dünyasından qorunması üçün ona nüvə silahı hökmən lazımdır...» Boris**

**Nikolayeviç: «...Vaxt və zamana ehtiyac var. Şübhə etmirəm o da olacaq...» («Artsax» qəzeti. 1994-cü il, iyun ayının 26-sı. Xankəndi. №-43. səh. 2. «Boris Nikolayeviç vəd verdi...»).**

Araşdırmalarımıza görə, nə qədər qəribə də olsa, Ermənistanın Naxçıvanla sərhəd ərazilərində – Armaş, Rind, Zəritap, Aqdui, Kəcəran yaşayış məntəqələrindəki quru qoşun birləşmələrində, sərhəd dayaq dəstələri tərkibində 9 xüsusi təyinatlı qrup kimyəvi və bakterioloji müharibədə (?) təhlükəsizlik məsələlərini icra edəcək (hər dəstədə də 18 nəfər xidmət edir).

**Moskvada belə bir ünvan var: Leninqrad prospekti, ev № 80 (ora radiocihazlarla bağlı saxta bir lövhə də vurulub)**. Araşdırma apararkən maraqlı faktlardan biri də bu oldu ki, altı mərtəbəli bozumtul binada tam məxfi şəraitdə kütləvi qırğın silahları üzrə, eləcə də radarların hazırlanması üzrə təcrübələr aparılır. Və bu təcrübə aparan qruplardan birinə də doktor Ambarsum Georgiyeviç Muradyan başçılıq edir. Vaxtilə (1988-1990) Ermənistan MEA-nın Toksikoloji İnstitutunda işləmiş bu şəxsin doktotluq dissertasiyasının mövzusuna fikir verin: «Qafqaz genlərində toksikoloji prosеslər və immunitetli preparatlar». Erməni tədqiqatçı, ilkin araşdırmamıza görə, bu istiqamətdə ilk araşdırmalarını 1994-cü il iyul ayının 22-dən 1995-ci il iyun ayının 14-dək Azərbaycanın işğal olunmuş ərazilərində, əsir düşərgələrində, xüsusən Şuşa həbsxanasında saxlanılan dustaqlar üzərində aparıb. Cənab A.Muradyan radiocihazların hazırlanması üzrə Elmi-Tədqiqat İnstitutunun katibliyinə ünvanladığı hesabatında (1995-ci il, 21 iyul) yazır: «...Mən öz sınaq təcrübələrimin ilk variantından razı qaldım. Mənim üçün ayrılmış sınaq palatasından 6 nəfər «könüllü»dən (?) üç nəfəri preparatlara dözə bilmədi. Qalan üç nəfər isə, artıq, sağalıblar. Özlərini yaxşı hiss edirlər. Sifətlərində müşahidə olunan səpkilər çəkilib gedib. Qan dövranları normal işləyir...» (Bax: "Vestnik+MO" (Erevan) bülleteni №6. 1995-ci il).

Maraqlı cəhətlətdən biri də bu idi ki, institutun direktoru, general Boris Vinoqradov bu hesabatı imza və möhürlə təsdiqləyib.

Digər tərəfdən, araşdırma zamanı bu da aydın oldu ki, mərkəzi bazası Vaşinqtonda yerləşən «Qafqaz investisiya bankı»nın livanlı başçısı Adnan Xaşoqqi tərəfindən də erməni aliminə 147 min ABŞ dolları dəyərində texniki avadanlıq yardımı edilib.

Başqa bir erməni alimi Anastas Qurgenoviç Karpov isə 2010-cu ilin sentyabr ayından başlayaraq, Tehrandakı mikrobiologiya məsələləri ilə məşğul olan Elmi-Tədqiqat İnstitutunda öz təcrübələrini fars alimləri ilə birgə aparmaq üçün dəvət alıb. Halbuki, İran İslam Respublikasında kimyəvi

və bakterioloji silahlardan əziyyət çəkənlərə yardım assosiasiyasının baş katibi d-r Abdulla Mazandarani hesabatında (2011-ci il 3 dekabr. İİR-nın Parlamenti) göstərir: «...İraqla müharibədə 25 min iranlı əsgər və zabit kimyəvi və bakterioloji silahlardan ölüb, 65 min nəfər isə iflic vəziyyətindədir». Digər tərəfdən, Aştarak-2-də işləyən (Ermənistan MEA-nın ərazisi) erməni mikrobioloqlarından olan E.Aşkinazyan, D.Davidyan, O.Ohanesyan Şimali Koreyada da sınaq təcrübələrindən keçiblər. Maraqlı və ciddi məsələdir. Çünki Şimali Koreya dünyada məhz kimyəvi və bakterioloji silahların hazırlanması və istifadəsi istiqamətində ən böyük arsenalı olan dövlətdir. Şimali Koreyada gündə 15 ton kimyəvi-zəhərləyici maddələr və bakterioloji viruslar hazırlamaq gücündə olan səkkiz müəssisə var. Ölkənin şimal-şərqindəki dörd elmi-tədqiqat mərkəzindən biri tam məxfi qaydada işləyir. Ölkədə altı müxtəlif anbar var və həmin *«Unfu-3» tipli, tutumu 25 ton olan anbarlardan birinin 2011-ci ilin ortalarında DQ ərazisində tikilməsi də başa çatdırılıb.*

Nyu-York politoloqu Cudit Millerin məlumatına görə («Nyu-York tayms» qəzeti. 2010, 4-16) RF-də «Noviçok» adlı yeni kimyəvi silah istehsal edilib («İki kimyəvi element birləşərək, ölümsaçan silah yaradır. Həmin birləşmələr mərmilərdə də istifadə edilir...» RF-də (Moskva) çap olunan «Sintez» jurnalında isə (2011, VII-2) erməni alimi L.M.Teroyants qeyd edir: «Noviçok» adlı silah «binar silahıdır». Orada silahın istehsalında və hazırlanmasında mənim xidmətimə qiymət verən rus alimlərinə minnətdaram...(?). Biz əsəb sistemini iflic edib, «insanı əridən» (?) bu su üzrə həm Ermənistanda (Yerevan), həm də Azərbaycanın işğal olunmuş ərazilərində (Qubadlı) xüsusi laboratoriyalar yaratmışıq."

Lakin təhlükəni hiss edən erməni mütəxəssisləri Yerevandakı laboratoriyanı Türkiyə sərhəddi istiqamətinə köçürürlər (2011-ci il, 2 iyul). Məqsəd də bu olur ki, onların tədqiqatlarının nəticəsindən Ermənistanın hərbi-sənaye mərkəzlərində bioloji silahların hazırlanmasında istifadə olunsun. İşin maraqlı cəhətlərindən biri budur ki, həm Yerevanda və həm də işğal olunmuş ərazilərimizdə bir nəfər tapılmadı ki, bu alimlərdən soruşsun: Siz nə edirsiniz? Və yaxud, məqsədiniz nədir?.. Halbuki, 2010-cu ilin aprel ayında B.A.Şakaryanın və elmi işçi S.O.Köçaryanın qonağı olan Beyrut Bioloji Araşdırmalar Mərkəzinin əməkdaşı Feyzulla Yusif, Livanda nəşr olunan «Artsax» qəzetindəki (may, 26-cı nömrə) yol qeydlərində yazır: «...Mən bir erməni qardaşımın elmi laboratoriyasında oldum. Gördüklərim

elmi nəticələr haqqında biz də fikirləşməliyik... Çünki Livan üçün də Ermənistan qədər bir təhlükə var...».

2010-cu ilin aprelində müşahidə edilən, 2011-ci il fevralın 3-dən, artıq, qarşısı alına bilməyən bir xəstəliyin – qarayara xəstəliyinin virusları Ermənistan ərazisində yayıldı... Lakin professor ilkin olaraq bu virusun ilk sınaqlarını Qarabağ ərazisinin işğal olunmuş hissəsindən Azərbaycanın SQ birləşmələrinin yerləşdiyi Tərtər, Goranboy, Ağcabədi istiqamətində, eləcə də Naxçıvan istiqamətində keçirmək niyyətində olub (bax: Ermənistan MEA-nın 2011-ci il iyulun 21-dəki hesabatı. Hesabat doktor O.D.Qalabek-yanın imzası ilə hazırlanıb. Toksikoloji nəticələr iclasının yekun sənədi, səh. 9).

Buna da şübhə etməyək ki, Azərbaycan istiqamətində bu məsələ çox az şəkildə reallaşa bilərdi. Lakin erməni alimlərini qorxudan bu olub ki, Azərbaycan ərazisində əsən küləklər tez-tez istiqamət və sürətini dəyişdiyindən, hər şey əksinə alına bilər. Onları, nə qədər qəribə də olsa, bu qənaətə Moskva Federal Elmi-Tədqiqat Mərkəzinin (mikrobiologiya üzrə) professoru A.Prokopov gətirib. Yerevan Toksikoloji Araşdırma Mərkəzinə bu addımın törədə biləcəyi əks-zərbələrin nəticəsini bildirib (yenə həmin sənəd, səh. 21). Lakin, artıq, Yerevanda Sibir xoralarının, yəni qarayara viruslarının oyanması üçün nəzərdə tutulan mexanizm Aştarak-2-də quruldu. Bu isə təbiətə və insanlara qarşı ediləcək cinayətlərin başlanğıcı olaraq qalır... Bilavasitə insan orqanizmindəki «Sİ-Sİ-ER 2» və «Sİ-Sİ-TH 5» genlərinə təsir edib onu şikəst edən və ömrü məhv edən Sibir xorası – qarayara viruslarının Ermənistan ərazisində olması, işğal olunmuş əyalətlərimizdə elmi laboratoriyaların tikilməsi məsələni daha da ciddiləşdirir.

Rusiya Federasiyası və Ermənistan isə işğal olunmuş torpaqların bir qismini zahirən icarəyə götürsə də, əslində, heç bir icarə haqqı ödəmədən zəbt ediblər, necə deyərlər, özəlləşdiriblər. Beləliklə, Dağlıq Qarabağda «nüvə zonası» deyilən zonalar yaradıldı. Tikanlı məftillərlə dövrələnmiş bu zonalarda həm Rusiya və həm də Ermənistan tərəfi özlərinin nüvə qalıqlarını yerləşdirməklə məşğuldur. Ermənistan ərazisindən (çəlləklərdə) qablaşdırılmış, üstünə «A-TOOZ» sözləri yazılmış xüsusi qutularda yola salınan nüvə tullantıları əvvəlcədən nəzərdə tutulmuş kəndlərdə, ərazilərdə xüsusi çalalarda basdırılır.

Apardığımız araşdırmalara görə, artıq, Xocalı yaşayış ərazisinin şimal-qərb hissəsindəki Kolataq, Seyidbəyli və Almalı kəndlərinin həm bitki «faunası», həm də «iqlim zolağı» dəyişib. Ötən il təkcə Kolataq yaşayış

məntəqəsində Ermənistandan göndərilən nüvə tullantıları (AES) yığılmış 11 dəmir qutu basdırılıb, Seyidbəyli və Almalı kəndləri isə, sözün əsl mənasında, tikanlı məftillərlə əhatəyə alınmış «nüvə qəbiristanlığı»na çevrilib. Lakin, ermənilər heç də bununla kifayətlənmirlər. Digər bir məlumata görə, Rusiya tərəfi öz nüvə tullantılarını (hazırda öz tullantılarını Almaniyaya və Yaponiyaya satır) Dağlıq Qarabağın ərazisində yerləşdirərkən, bütün beynəlxalq hüquq normalarını pozur, özünəməxsus yeni qanunlarını yazır.

***Məşhur politoloq, yazıçı Frankis Fukuyama (Yaponiya) bütün bunlara işarə edərək, «Zamanın sonu» əsərində yazır: «...Dünya bitir. Amma deyəsən, bir qisim dövlət qalacaq ki, onlar da dünyanın son işığınadək bir-birilə vuruşacaq... və bu vuruşmada onlar bilərəkdən, Allahın və bəndənin acığına torpaqlara zəhər qatacaq, suları bulandıracaq, ağacları, gülləri yandıracaqlar... Bu da terrordur. Bu, təbiətə qarşı, insanlığa qarşı, vicdan və əxlaqa qarşı terrordur. Bu terrora isə nə insanlıq davam gətirər, nə də təbiət... Yer kürəsini, zamanı məhv edən də elə bu terror olacaq...» (Bax: "Kompas" (Mockva), 2011-ci il, №21).***

Araşdırmalarımıza görə, 2011-ci il iyul ayının 21-də Amerika Birləşmiş Ştatlarının «hərbi strategiyası»nın əsas müddəalarını əks etdirən 30 səhifəlik «Məxfi» bir hesabat dinlənildi. Həmin müddəaların birində belə bir qeyd var: «...Amerika nüvə, kimyəvi, bakterioloji silahlardan qorunmalıdır. O, planetin vacib nöqtələrinə nəzarəti artırmalıdır...»

«Vacib nöqtə» deyəndə sənəddə Avropa, Şimal-Şərqi Asiya, Şərqi Asiya rayonları, Yaxın Şərq, Cənub-Qərbi Asiya... kimi coğrafi ərazilərin adını çəkir. İçməli su üstündə, torpaq üstündə vuruşan münaqişə və ya müharibə zonalarını xatırladır. Təəssüf ki, bu münaqişə və müharıbə zonaları cərgəsində torpaqları qəddarlıqla bölünmüş, kütləvi terror yolu ilə işğal olunmuş Azərbaycanın... Dağlıq Qarabağın adı çəkilmir.

İşğal olunmuş Qubadlıda isə ermənilər öz «nüvə qəbiristanlıqları»nı bir az da genişləndiriblər. Nəticədə, ərazinin Bərgüşad və Həkəri çayları arasındakı vaxtilə yurd yerlərimiz olmuş (şimal və şimal-şərq hissələri) Qayalı, Mahmudlu, Qaracallı, Sarıyataq kəndlərinin ərazilərində nüvə tullantılarının basdırılması üçün xüsusi sahələr ayrılıb. Və bu işi bir qayda olaraq, «Dağlıq Qarabağ ordusu»nun (?) «radiokimyəvi qrupu»nun əsgərləri görür. 2010-cu ildə Xankəndinin hərbi hospitalına qan xərçəngi ilə müraciət edən gənclərin (onların hamısı vaxtilə orduda «radiokimyəvi qrup»da xidmət edənlərdir) sayı 22 nəfər olub. Digər tərəfdən, ordudan tərxis olunmuş ermə-

nilərin ailələrində dünyaya gələn uşaqlarda isə kütləvi sepsis xəstəliyi – yəni qanın zəhərlənməsi xəstəliyi müşahıdə olunub.

Maraqlı cəhət budur ki, Tennessi ştatında (ABŞ) Vanderbil və Nasbil universitetlərinin milliyyətcə erməni olan həkim qrupu da zonalarda tədqiqatlarını davam etdirmək niyyətində olublar. Həmçinin, onlar Xankəndində erməni uşaqları arasında yayılmış sepsis xəstəliyinə qarşı, qandakı bakterioloji infeksiyanın qarşısını alan «Zovin» preparatlarından da geniş istifadə edəcəklərini bildiriblər.

Bütün bunlarla yanaşı, Dağlıq Qarabağ ərazisində ermənilərin yeraltı nüvə anbarlarının sayı artmaqda davam edir.

Bunu da xatırladaq ki, Türkiyədə «iki saat yarım ərzində müharibə strategiyası» adlı hərbi konsepsiya hazırlanıb. Əsasını mobil zirehli korpuslar təşkil edən bu konsepsiya üç istiqamətdə müəyyənləşib:

1. Terror qruplarına qarşı;
2. Kütləvi aksiyalara qarşı;
3. Dini radikal təşkilatlara qarşı.

Həmçinin, bunlara nəzarət edən «Xüsusi taktiki kəşfiyyat» məktəbi də yaradılıb. Fikrimizcə, Azərbaycanın da belə bir quruma ehtiyacı var.

Araşdırmalarımıza görə, Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisində – Xankəndində ofisini açmış (9 oktyabr 1996) «ARTSAXBANK»-ın 2010-cu ilin yekun hesabatında qeyd olunur ki, bank öz bölmələrindən birini Milli Azadlıq Hərəkatı naminə mübarizə meydanlarına atılan azsaylı xalqların, etnik qrupların xidmətinə verib (azsaylı xalqlar və etnik qruplar üçün hesab nömrəsi: «Armen Kur № 002211 Karton»). Bankın İdarə Heyətinin sədri Kamo Nersesyan fransız həmkarlarına verdiyi məlumatında xatırladıb: «...Bu, bizim öz torpaqları və hüquqları uğrunda mübarizə meydanlarında barrikada quran hər bir xalqa və etnik qrupa edəcəyimiz xeyirxah işin başlanğıcıdır. Bu, erməni xalqının vətəndaşlıq borcudur...»

Erməni iqtisadçısı K.Nersesyanın (əslən fars mənşəli ermənidir. Onun əmisi oğlu vaxtilə 1970-80-ci illərdə C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının rejissoru olub), məlumata görə, «ARTSAXBANK»da «Sadval»ın, «Talış Birliyi»nin də bank hesabları var. Məlumat üçün bildirək ki, «ARTSAXBANK» qondarma «DQR»-in aparıcı banklarından biridir. 1996-cı il fevralın 14-də yaradılıb (Mərkəzi Bankın və Əmanət Bankının əsasında). Bankın təsisçiləri «DQR»-in qondarma hökuməti, 6 bank, 12 nəfər

fiziki şəxsdir. Araşdırmalarımızda belə bir fakt da var ki, həmin fiziki şəxslərdən ikisi azərbaycanlıdır. Həmçinin, «ARTSAXBANK» Almaniyanın, RF-nin «Müxbir bankları» ilə sıx təmasdadır (6 fevral 2001). Frankfurtda, Vyanada, Moskvada bankın xüsusi filialları açılıb. Başqa bir məlumatda isə bildirilir ki, çeçen səhra komandiri Şamil Basayevin və Londondan daimi yaşamaq üçün sığınacaq istəyən keçmiş səhra komandiri Əhməd Zakayevin də adına 1999-cu il iyunun 2-də bankda hesab açılıb (Ş.Basayevin bank hesabı: «Armen.koor: AR A-Bank-2463 Saud»). «Saud» Ş.Basayevin beş məxfi adından biridir. Bu məsələlərə aydınlıq gətirən çeçen Ə.Zakayev "Reyter" agentliyinə müsahibəsində (2 aprel, 2004) qeyd edir: «Bizim silahlı qüvvələrə pul, bir qayda olaraq, RF-dən ötürülür. O pullar İçkeriya vasitəsilə göndərilir. Bizə nazirlər, dövlət və hökumət strukturlarında işləyənlər..., kənd müəllimləri pul göndərirlər. Bizim pul problemimiz yoxdur...».

Məlumata görə, «ARTSAXBANK»da Azərbaycanda, eləcə də onun işğal edilmiş ərazilərində islam dininə qarşı, din xadimlərinə qarşı mübarizə aparmaq üçün xüsusi «Maliyyə şöbəsi» var.

*Qondarma «DQR»-ın terrorçu lideri A.Qukasyanın 2011-ci ildə «Armen-Press» xəttilə nəşr olunmuş «Dirilmə» xatirələrində oxuyuruq: «...Dağlıq Qarabağ uğrunda döyüş meydanlarına atılanda ilk yardım edənlərdən bir qrupu elə Bakıda, Gəncədə, Sumqayıtda yaşayan, mənşəcə erməni olan azərbaycanlılar idi...» (A.Qukasyanın xatirələri rus, erməni, fransız, ingilis dillərində nəşr olunub. Redak-toru: Z.Balayan. Ön söz də Z.Balayanındır).*

Tehranda yaşayan publisist Ağa Rəhim Fəxrinecad isə 116 səhifəlik «Düşüncələr» kitabının «Müsəlman torpağındakı kilsələr» bölməsində yazır: «...O zaman (1989-1992-ci illərə işarə edirəm) İrana təşrif gətirən mücahidləri – Bakı azadlıqsevərlərini hörmət və ehtiramla qarşıladıq. Amma onların bir qismini anlamadıq. İki nəfərini erməni kilsəsində işləyən Tumas Afşaryan apardı. Bu adamların səsini indi də Bakıdan eşidirəm...» (Ermənistanda 2011-ci ildə istehsalı tamamlanmış «Qarabağ» iki hissəli bədii filmində də ermənilər yaratdıqları Kərim və Bəhlul «obrazlarında» beynəlxalq aləmə göstərmək istəyiblər ki, torpaqların qaytarılmasında (?)... həqiqəti sevən, tarixə hörmət edən...» (yazıçı D.Akopyan) azərbaycanlılar öz qonşularına (?) necə kömək ediblər).

Biz baş verən hadisələrdə işğalçı erməni hiyləsinə, erməni məkrinə bələdik.

Bütün bu məsələləri hələlik açıq saxlayırıq. Çünki bu istiqamətdə araşdırmalarımız hələ bitməyib...

Yerevan parlamentində 2010-cu il martın 12-də keçirilən yığıncaqda («Banklar haqqında qanun»a yenidən baxılırdı) deputat O.D.Bağdasaryan «ARTSAXBANK»ın İdarə Heyətinin sədri K.Nersesyana belə bir sual verir:

– Sizdə Rusiyadan, İrandan, Türkiyədən, Gürcüstandan neçə nəfərin hesabı var? İnvestisiyaların həcmi nə qədərdir?

K.Nersesyan:

– Amerikadan, Almaniyadan, Avstriyadan,... İsveçrədən, Kanadadan, Fransadan, İtaliyadan... kifayət qədər investisiyalar qoyulub.

Bir il sonra qəzet həmin məsələyə qayıdır. Parlament müxbiri N.Aleksanyans bankın rəhbəri K.Nersesyana sual verir:

– Çirkli pulların yuyulmasında iştirak edən bankların cərgəsində adınız çəkilir. Buna münasibətiniz?

– Bütün bunlar Azərbaycan mətbuatının uydurmasıdır. «ARTSAXBANK» Gürcüstanın siyasi liderlərindən olan M.Saakaşvili cənablarından martın 26-da məktub alıb. Həmin məktubda banka qoyulan gürcü investisiyalarından, hesablardan, şəxslərdən söhbət gedir. Bank sirri və müştərilərə etibarlılıq nöqteyi-nəzərindən bunu açıqlaya bilmərik...»

Xankəndində qeyri-qanuni özünə yuva quran erməni bankı 5 islam ölkəsinin kommersiya strukturu ilə sıx əlaqələrə malikdir və kommersiya strukturlarından ikisi Azərbaycanla bağlıdır. «ARTSAXBANK», artıq, özünün beynəlxalq bank sisteminə – əlaqələrini genişləndirmək üçün xüsusi «Strateji maliyyə proqramı»na malikdir. Həmin proqrama əsasən, guya bank yaxın gələcəkdə (?) Azərbaycanla sərbəst və açıq investisiya əlaqələri quracaq. Bunun üçün vaşinqtonlu həmsədr S.Mənn və onun dəstəsi yardımçı olacaq.

Beynəlxalq bank sistemində belə bir maliyyə qurumu var: «MIGOM», yəni MDB və Baltik ölkələri məkanında hesab açmadan fiziki şəxslərin qeyri-ticari pul köçürmələrini həyata keçirməyə imkan verən bir proqram («MIGOM» da, məşhur «Western Union», «Money Gramm»... kimi beynəlxalq pul köçürmələri sistemlərindən biridir). «ARTSAXBANK» özünün beynəlxalq maliyyə sistemində elektron pul və bank əməliyyatlarında, artıq, yeni kompüter şəbəkələrini yaradır. Fakta görə, «MIGOM»un «ARTSAXBANK»a heç bir aidiyyəti yoxdur. Erməni bankının «Doyçe bank»la (Almaniya), «CENTRO BANK»la (Avstriya),

«SBERBANK»la (RF)... maliyyə-pul əlaqələrinin həcminin 2015-ci ilin ikinci yarımilində 3,5 dəfə artması ehtimal edilir. Burada, artıq, beynəlxalq «Subercash», «First Noldungs», «Citicorr»... sistemlərindən istifadə olunur. Belə olanda «ARTSAXBANK»ın «MIGOM» sisteminə ehtiyacı qalmır.

«ARTSAXBANK» hazırda «Avropa İttifaqı»nın yardımı ilə «CAFE» – Avropa layihəsində iştirak edir. Bu istiqamətdə RF-dəki erməni bankları əsl maliyyə körpüsü rolunu oynayır. Məsələn, RF-də fəaliyyət göstərən, investisiya layihələri hazırlayan Arames Vladimiroviç Martirosyan, bank əməliyyatları keçirən «Anelik RU» – şirkətinin başçısı Armen Araratoviç Kazaryan, «Rosinterrefond»un vitse-prezidenti Lev Sergeyeviç Asaryan, «Fundament Bank»ın İdarə Heyətinin sədri Vladimir Qurqenoviç Poqosyan, Rusiya Banklar Assosiasiyasının prezidenti Qaregin Aşotoviç Tosunyan, «Ticari Bank»ın üzvü Vahan Xaçaturoviç Brutyan... «ARTSAXBANK»-la Azərbaycanın bir neçə bankı arasında çirkli pulların ötürülməsində əsl körpü rolunu oynayır. Həmçinin erməni bankının tərkibində 2010-cu il avqustun 3-dən Dubayın (BƏƏ) "SMB Computers" şirkətinin ofisi də fəaliyyət göstərir. Məlumata görə, adını çəkdiyimiz şirkət isə qeyri-qanuni nüvə texnologiyasının daşınmasını təmin edən şirkət kimi ABŞ Dövlət Departamentinin rəsmi məlumatında qeyd olunur. Şirkət beynəlxalq aləmdə nəzarətsiz zona kimi qeyd olunan Dağlıq Qarabağ ərazisindən tranzit kimi istifadə edir. Həmçinin, şirkətin sahibi Əbu Tahir və erməni eksperti Serj Avakyans qeyri-qanuni işlərinə görə ittiham olunub.

Araşdırmalarımızda başqa bir məlumat da var. Məsələn, RF-ə məxsus Gümrüdəki 102 saylı hərbi bazanın bütün maliyyə sistemi də məhz işğalçıların Xankəndində qurduqları «ARTSAXBANK»dan keçir. Rus hərbçilərinə məxsus maaş cədvəlləri orada tərtib olunur. Yəni ruslara məxsus bank-pul məsələləri bütövlükdə «ARTSAXBANK»da həll edilir. Bütün bunlara aydınlıq gətirilməlidir.

Zəngilandakı yataqların aşkarlanmasında və işə düşməsində, qiymətli metalların təmizlənməsində Əfqanıstandan və İrandan gələn 29 muzdlu fəhlə işləyir. Kəlbəcərə isə bu məqsədlə Konqodan, Mozambikdən... könüllü 17 nəfər işçi qüvvəsi gəlib. (?) Nəzarətsiz zonalarda, Azərbaycanın işğal olunmuş ərazilərində işə başlayan və İnterpol-dan gizlənən bu şəxslərin kimliyi və hansı məqsədlə özgə torpağa soxulmaları həmişə diqqət mərkəzində olmalıdır. Bizi düşündürən başqa bir məsələ var. Bütün bu beynəlxalq hüquq normalarına sığmayan qanunsuz işlər DQ problemini həll

etmək üçün tez-tez dəyişən beynəlxalq qurumların gözü qarşısında baş verir. Amma buna da hər hansı bir reaksiya verilmir. Çünki erməni işğalına məruz qalmış DQ ərazisində irili-xırdalı bir sıra dövlətlərin siyasi maraqlarından daha çox iqtisadi maraqları barədə, artıq, mate-riallarımız kifayət qədərdir. Kaliforniyada erməni icmasına məxsus «Baykar» («Mübarizə») mətbu orqanı isə iddia edir ki, «...Dağlıq Qarabağ ərazilərinin iqtisadi inkişafını təmin etmək üçün «ARTSAXBANK» öz fəaliyyət dairəsini genişləndirməlidir. Vaxt var idi erməniləri aciz, gücsüz və tənha bildiyimizdən DQ ərazilərini işğal edə, orada qanlı aksiyalar törədə biləcəklərinə utopiya kimi baxırdıq. Amma hər şey dəyişdi. Fikrimiz, xəyalımız... düşmən gülləsinə tuş gəldi». Fikrimizcə, ermənilər bu sahədə, artıq, birinci mərhələni bitiriblər. Yəni erməni işğalçıları bir-birinin ardınca Fransada, ABŞ-da, RF-də, İtaliyada, İranda, İsveçrədə, Kolumbiyada, CAR-da, Kanadada, Suriyada, Küveytdə... qondarma «Dağlıq Qarabağ Respublikasının» nümayəndəliklərini(?), diplomatik korpus səviyyəsində konsulluqlarını yaradıblar. Dağlıq Qarabağ Müstəqil Respublika kimi özünün pul vahidini də buraxıb. Məsələn, 1 Dağlıq Qarabağ dramı Londonun birja bazarında 0,99 funt sterlinqdir.

Zamanın və dünyanın ikinci hökmü isə kütləvi qırğın silahlarıdır. «Həm Azərbaycanı, həm də Türkiyəni bununla susdurmaq olar» (tarixçi İ.Ter-Petrosyan). Bu, ehtimal deyil. Bu, reallıqdır. Məhz bu səbəbdəndir ki, ABŞ-da kütləvi qırğın silahları əleyhinə tədbirlər üçün yeni hərbi-strateji qurum yaradıldı. «Hərbi-məxfi əməliyyatlar» adlı yeni quruma briqada generalı Bryus Loulor başçılıq edir. Qurumun Baş Qərargahı isə Norfolk şəhərində (Virciniya ştatı) müəyyənləşdirildi. Büdcəsi (illik) 4 milyon dollar olan bu hərbi-siyasi təşkilatın 28 ekoloji eksperti var.

Zəngin yanacaq resursları olan Xəzərətrafı ölkələrinsə belə bir strateji proqramı yoxdur. Və sabah buna da şübhə etməyək ki, **kütləvi qırğın silahları üçün çalışan Ermənistan ayrı-ayrılıqda bu dövlətlərin (Xəzəryanı dövlətlərin) hər birinə meydan oxuyacaq. Artıq, Nyu-Yorkdakı Henri Stimson Araşdırmalar Mərkəzi kimyəvi və bakterioloji silahlarla bağlı «Toksikoloji Arxipelaq» adlı strateji hesabatının yeni variantını Ağ Evə təqdim edib və bu hesabatın da 14-cü səhifəsində «MDB ölkələri» paraqrafında Ermənistanın adı çəkilir və göstərilir ki, Yerevan yaxın beş ildə bakterioloji və kimyəvi silahların potensial bazasına çevriləcək.**

Ümumiyyətlə, MDB ölkələrində bakterioloji və kimyəvi silahları ləğv etmək üçün, məlumata görə, ilə 18,6 milyon dollar lazımdır. Ermənistanda və, eləcə də, Azərbaycanın işğal olumnuş ərazilərində altı müxtəlif elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Məsələn, Xankəndində tikilən laboratoriya insan orqanizmi fonunda fizioloji və ekoloji tədqiqatlar aparır. Şuşada isə professor Adamats Daniloviç Qriqoryanın başçılıq etdiyi alimlər qrupu Biotexniki və Molekulyar Biologiya İnstitutunda genlərin öyrənilməsi, diferensial təsirlər, genetik nəsildəyişmələr araşdırılır və bilavasitə Ermənistan MN-in «21504-a-VS-04» lisenziyaları ilə ordu üçün orqanizmin zəhərli maddələrdən qorunması fonunda preparatların hazırlanması işi görülür.

Aparılan araşdırmalardan bu da aydın olur ki, MDB ölkələrinin hər biri hər an törədiləcəyi gözlənilən bioterrorizmin qarşısında aciz və gücsüzdürlər.

*Amerikanın Səhiyyə və Sosial Nazirliyinin bioterrorizm və kimyəvi silahlar üzrə aparıcı mütəxəssisi Marqaret Xemberq yazır: «...Bu real təhlükədir. Bu təhlükəni dəf etmək lazımdır». Eləcə də, Con Hopkins Universitetinin nəzdində əhalinin biomüdafiə problemlərini öyrənən mərkəzin direktoru Con Henderson yazır: «...Yaxın 10 ildə bu hücum mümkündür. Bu hücum ola bilsin İraq tərəfdən, Şimali Koreya tərəfdən, İran və Livan tərəfindən olsun. Eləcə də, MDB ölkələrindən birinin bu aksiyada iştirak etməsi məsələsi var...».*

## ZƏHƏRLİ MİKROBLAR HAZIRLANIR

Araşdırmalarımıza görə, RF-yə məxsus «Vektor» bioloji laboratoriyasının iki elmi-tədqiqat şöbəsi işğal edilmiş Xocalı və Zəngilan ərazilərində yerləşir. Laboratoriyanın müdiri, professor Sergey Netosovun 2005 və 2010-cu illərin əvvəllərində və sonlarında DQ ərazisinə ezam edilməsi, erməni alimlərindən olan S.T.Petrosyan və S.O.Mikoyanla görüşməsi də maraqlıdır.

Həmçinin qeyd edək ki, «Vektor»da 4000 adam işləyir ki, bunun da 15 faizini milliyyətcə erməni olanlar təşkil edir. Burada – «Vektor» mərkəzində 4-cü dərəcəli bioloji zəhərli mikroblar öyrənilir, yeniləri hazırlanır. Mütəxəssislər bunu da öyrəniblər ki, bu mikroblarla lazım olan ərazinin 50 faizini məhv etmək olar. Bunun da qarşısını ala biləcək heç bir vaksin yoxdur. «Vektor»da laboratoriyaların dördü ölüm halları yarada bilən mikroblar hazırlayır. Burada milliyyətcə erməni olan 6 nəfər işləyir.

Həmçinin, bütün bunlar üçün heç bir vaksin yoxdur. Məsələn, «Ebola» virusu barədə yeni nəticələr əldə edilib. «Elqefalit» virusunun yeni növləri hazırlanıb. «Vektor»un bir nömrəli binasında çoxlu soyuducular var. Nömrələnmiş bu soyuducular güclü enerji ilə təmin olunurlar. Burada təqribən trilyon bakteriya var. ABŞ-ın buioloji silahlar üzrə mütəxəssisi, Vaşinqtondakı Beynəlxalq Tədqiqatlar və Strateji Araşdırmalar Mərkəzinin eksperti Entoni Kordesman deyir: «Ora girmək mümkün deyil... Hər tərəfdən yoxlanılırsan».

Ermənistanın toksikoloji sahə üzrə tədqiqatçısı, hərbi həkim Q.O.Babayan isə Beyrut alimləri ilə (2010-cu il avqust müşavirəsi. Moskva. «Bioloji məlumatların ən yenisi üzərində düşüncələr...» mövzusunda) söhbətində belə bir ifadə vurğulayıb ki, təcrübə mübadiləsi üçün biz ora asanlıqla girib-çıxırıq...». Araşdırmalarımızdan bu da aydın oldu ki, RF-də 47 belə mərkəz var. Ermənistan ərazisində 14 belə laboratoriya fəaliyyət göstərir. 2011-ci il noyabr ayının 21-dən başlayaraq, «Vektor»dakı avadanlıqlar DQ-in ərazisinə daşınmışdır. Bu isə hər şeydən əvvəl nəzarətsiz qalan torpaqlarımızın başı üzərində dolaşan növbəti fəlakətdən xəbər verir. Həmin soyuducuların ikisi Türkiyə sərhədi istiqamətinə, biri Naxçıvanla sərhəd istiqamətinə, digəri isə Cəbrayıl rayonu ərazisinə daşınıb.

Araşdırmalarımıza görə, soyuducular əvvəlcədən nəzərdə tutulmuş yerlərdə quraşdırılarkən, rus və erməni sərhədçiləri tərəfindən xüsusi mühafizə dəstələrinə müəyyən texniki məsələlərdə ehtiyatlı olmaq lazım

bilinib. Bütün bu müşahidələrdən sonra Pentaqonun polkovniki Denis Deplanter hesabatında qeyd edir: «...Biz hələ ki, öyrənməyə çalışırıq...». Amma sual olunur: nəyi?

Erməni professoru V.S.Qevedyan isə RF-in Mikrobiologiya və Virusologiya İnstitutundakı (Moskva vilayəti, Pokrov şəhəri) DQ-in işğal olunmuş ərazilərinin (xüsusən, Zəngilan və Qubadlı yaşayış ərazilərində təcrübə aparmaq üçün) mikrobioloji xəritəsini cızır. Professor Varonik Qevedyan öz elmi işini əsasən qarayara istiqamətində aparırdı.

2011-ci il noyabrın 3-də London hərbi ekspertlərinin rəyincə, belə bir məlumat verilir ki, bir sıra ölkələrdə «etnik silah»ların ixtirası istiqamətində işlər tamamlanıb. Bu ölkələr sırasında İraq, İran, Rusiya və bir neçə MDB-yə üzv ölkələrin adları çəkilir. Araşdırmalarımız zamanı məlum olur ki, bu silah növünü, tutalım, Rusiya kimi ölkə üçün araya gətirmək elə də çətin deyil və maraqlıdır ki, bu silah növünün hazırlanmasında qırmızı şam ağacından istifadə olunur. 2011-ci ilin məlumatına görə isə, RF-nin mülki geyimli qrupları Laçın və Kəlbəcər meşələrində 12 hektarlıq ərazidən cavan qırmızı şam ağaclarını kəsib aparmışlar (b a x : Dağlıq Qarabağda ekoloji məsələlərlə məşğul olan qrupun üzvü, həkim-ekoloq Aruşan Caqaxanyan. Xankəndi. «Ararat» qəzeti. 2011-ci il, XII.4)

Məlum olur ki, bu etnik silahların yaradıcılarından biri də Ermənistan MEA-nın professoru Serj Hasakulyandır. Və bu silaha qarşı da hələlik əks-vaksinlər ixtira edilməyib. Artıq, bu da məlum olub ki, Fars Körfəzindən İraq istiqamətində vuruşan bəzi əsgərlər bu silahların yaydığı xəstəliklərə düçar olaraq sıradan çıxıblar.

Bəzi böyük dövlətlər, Beynəlxalq qurumlar Azərbaycana Qarabağ probleminin həllində prinsipial mövqe tutmur, boş-boş vədlər verməklə işlərini bitmiş hesab edirlər. İkili standartlarla Azərbaycana Qarabağdan da böyük vədlər verilir, Qarabağdan da böyük yalanlar satılır. ATƏT-in yeni həmsədri, erməni biznesmenləri və iş adamları ilə sıx təmasda olan Stiven Mənn iddia edir ki, Azərbaycan Dağlıq Qarabağ problemində Ermənistana güzəştə getməlidir (?). Və yaxud Yerevanda ABŞ-ın Avropadakı silahlı qüvvələrinin komandan müavini general Çarlz Uoldla Ermənistan silahlı qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Mixail Arutyunyan arasında imzalanmış sənəddə də «qarşılıqlı xidmətlər»dən söhbət gedib, işğal olunmuş Azərbaycan torpaqlarından yox. Araşdırmalarımıza görə, bu «qarşılıqlı xidmət» sənədlərində bilavasitə Azərbaycanın milli maraqlarını kölgələyən məqamlar var.

Məsələn, 2010-cu ilin mayında ABŞ-ın STRATFOR (Strategic forecast) analitik mərkəzi «Keçmiş Sovet İttifaqı uğrunda mübarizə», «Ermənistanı əldə etmək üçün» (Battle for the FSV: Wooing Armenia) adlı rəsmi sənəddə – hesabatda bu məsələni şərh edir. Ekspert V.Volker göstərir ki, generallar arasında xüsusi bir sövdələşmə var (Yəqin ki, Azərbaycan tərəfin bu məxfi sövdələşmələrdən hələ ki, xəbəri yoxdur).

Vaşinqton Ermənistan ərazisinə strateji məqsədləri üçün nəzər salır. Bu strateji məqsədlərdə İran faktoru daha qabarıq nəzərə çarpır. General Çarlz Uold isə Ermənistanda mövcud olan hərbi hava limanlarına, təlim-məşq zonalarına... baş çəkib. «The Vashington Post» qəzeti ondan bir qədər əvvəl Cənubi Qafqazdakı hadisələri şərh edərkən yazırdı: «...Ermənistanda uçuş və enmə zolaqları hərbi təyyarələrin enmə sürətinə nisbətdə altı dəfə davamlı olan altı hava limanı var. Ölkənin «Zvartnots», «Erebuni», «Gümrü» hərbi hava limanları daha davamlı və məqsədə uyğundur. Oradan İranın istənilən ərazisinə uçmaq mümkündür (?). Adlarını qeyd etdiyimiz bu hərbi hava limanlarında 178 bombardmançı və qırıcı təyyarələr yerləşdirmək mümkündür. Ermənistanda dörd xüsusi hərbi-şosse yolları var. Ən çətin anlarda bu hərbi yollara istənilən hərbi yük təyyarələrini endirmək mümkündür». (Eyni mənbə, 6 dekabr).

Və yaxud ABŞ-ın STRATFOR-un analitiklərinin fikrinə nəzər salın: «...Ermənistan qonşu Azərbaycanın ərazilərini zəbt edib və açıq şəkildə onları geri qaytarmaq niyyətində olmadığını bildirmək istəmir. Ancaq ABŞ-ın tərəfdaşına (?) (yəni Azərbaycana) qalib gəlmək yalnız ABŞ-ın tərəfdaşına çevrilməklə mümkündür...» (Bax: STKATFOR(ABŞ) SAM-nın 2009-cu ilin iyulun 14-də yayılmış hesabatından).

Araşdırmalarımıza görə, son on ildə ardicil olaraq ABŞ-ın rəsmi sənədlərində Dağlıq Qarabağın Azərbaycana qaytarılması məsələsi qoyulur.

ATƏT-in amerikalı sədri, DQ-ni ermənilərə güzəşt etmək planı ilə gəzib-dolaşan Stiven Mənnlə, 1919-cu il avqustun 22-də Ermənistan parlamentində çıxış edən, erməni separatçılarına haqq qazandıran və Amerikanın onları hər vaxt dəstəkləyəcəyini xəbərdar edən polkovnik, «Ali komissar» V.N.Haskel arasında heç bir fərq yoxdur. Məlumata görə, cənab Haskel Dərələyəzdən qiymətli əşyaların daşınmasında iştirak edib (2019-cu ildə Haskelin erməni parlamentindəki separatçı çıxışının 100 ili tamam olacaq). Bu faktı və sənədi xatırlamaqla bir daha diplomatiyamıza və insanlara xatırlatmaq istəyirik ki, Amerika Ermənistan üçün elə Amerika olaraq qalır. Siyasət dəyişmir. Dəyişən insanlardır. Dəyişən, rəngdən rəngə,

cilddən-cildə düşən siyasətbazlardır. Məlumata görə, V.H.Haskelin ideyaları Azərbaycan üzrə müvəkkil C.S.Rey, Bakıdakı vitse-konsul C.Rodolf vasitəsilə Dağlıq Qarabağa və Naxçıvana yeridildi. 1919-cu il sentyabrın 1-də Azərbaycan Nazirlər Şurasının sədrinə ünvanladığı məktubda ermənilərin işğalçılıq siyasəti yürütdükləri bölgələrə dair iki siyasi plan irəli sürür:

a) İyirmi maddəlik plan. Bunun on bir maddəsi təbii sərvətlərlə bağlıdır.

b) On iki maddəlik plan. Bunun dördü təbii sərvətlərlə bağlıdır

Hər iki planda işğalçı və separatçı daşnak rejimini dəstəkləyən mövqe var. Və hər iki maddədə Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən azad və sərbəst (?) zona yaradılması məsələsi qoyulur. Yaranmış zona isə Amerika qubernatorları tərəfindən idarə olunmalı idi (b a x : Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix arxivi, f.970, 1, iş 93, v.3-4)

1919-cu il sentyabrın 29-da isə Azərbaycan polkovnik Haskelə etiraz məktubu göndərir. Bitərəf zona ideyası rədd edilir. Bölgənin Azərbaycanın ayrılmaz hissəsi kimi qalmaq şərti ilə Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə isə razılıq verilir (Ola bilsin, general Çarlz Uold günün birində DQ ərazilərində ABŞ-ın general qubernatoru təyin olunsun).

Dərələyəz-Şərur və Naxçıvan zonasını Azərbaycan ərazisindən «kəsib götürmək» ehtirası ilə yaşayan ermənilərin regionda fəaliyyəti aktivləşir. Ermənistanın Baş naziri A.Xatisyan oktyabrın 23-də (1919-cu il) amerikalı Haskelə 279 nömrəli bir məktub göndərir (məktuba görə, amerikalı «həmsədr» cənab Haskelə «Daşnaksütyun» partiyasının bir nömrəli biletinin verilməsi məsələsi Ermənistanda maraqla qarşılanıb). O yazır: «...Biz, Şərur-Naxçıvan bölgəsinin Qafqazdakı ingilis ali komandanlığı tərəfindən Ermənistan idarəçiliyinə verilməsinə baxmayaraq, həmin ərazinin Amerika qubernatoru tərəfindən idarə olunmasına razıyıq» (b a x : «Azərbaycan» qəzeti, 1919, № 209, 1 noyabr).

Ötəri də olsa, bu tarixlərə nəzər salmaqda məqsədimiz budur ki, diplomatiyamızın «Qarabağ konsepsiyası»nda Vaşinqton və Moskva planlarının bir daha yenidən nəzərdən keçirilməsinıə, ciddi təhlil edilməsinə ehtiyac olub-olmamasını onlara xatırlatmaqdır.

Kaliforniya ştatı ərazisində bu gün erməni separatçılarının altı beyin mərkəzi fəaliyyət göstərir. Fakta görə, Dağlıq Qarabağın işğalında həmin beyin mərkəzlərindən silahlı muzdlular «ezam olunub». Bəzi dövlətlər də dünya xəritələrinin yeni nəşrlərində Dağlıq Qarabağ Ermənistan ərazisi kimi təqdim olunur.

Bütün bunlara hələ ki, aydınlıq gətirilmir. Nəticə etibarilə ikiüzlü siyasət, ancaq iqtisadi maraqların güdülməsi... heç bir dövlətə başucalığı gətirmir. Belə siyasət həmişə iflasa uğrayır. Məsələn, Vaşinqtondakı Pyu Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi ekspertlərinin fikrincə, ABŞ-ın Cənubi Qafqaz siyasətindəki (o cümlədən, ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisinə münasibətdə) ikili standart onu çox məsələlər qarşısında aciz qoyur.

Amerikada belə bir ictimai təşkilat var: «Milli təhlükəsizlik arxivi təşkilatı». Bu təşkilat 1994-cü ildən Afrika regionlarında baş vermiş «soyqırım» məsələlərini araşdırmaqla məşğuldur. Maraqlıdır ki, təşkilatın ekspertləri iddia edirlər ki, məsələn, Ruanda Respublikasında 1994-cü ildə baş verən soyqırımda, bilavasitə ABŞ administrasiyası günahkardır. Soyqırımın 10 illiyi münasibətilə regionda yayılmış rəsmi sənəddə qeyd olunur ki, hadisənin törədilməsi ərəfəsində Klinton administrasiyası, Mərkəzi Kəşfiyyat İdarəsi sanki baş verəcək dəhşətli hadisəni (etnik qarşıdurmanın nəticələrini) seyr etmək üçün amfiteatr axtarışında idi. Vaşinqton istəsəydi, Ruandadakı 100 minlərlə adamın qırılmasının qarşısını ala bilərdi. Amma belə etmədi. Soyqırım ona lazım idi...(?). Bu da siyasət idi. Amma ən iyrənc və tarixin heç vaxt bağışlaya bilməyəcəyi səhv siyasət...

İşğal olunmuş Dağlıq Qarabağda qeyri-qanuni fəaliyyət göstərən Beynəlxalq «Artsaxbank»ın və onun antiislam xəttinin erməni terror şəbəkələrinə gizli yardımı davam etdikcə, separatçı rejimin xaricdəki fəaliyyəti bir o qədər diqqəti cəlb edir. Onu da qeyd etmişdik ki, ermənilərin «Hayastan» Beynəlxalq Xeyriyyə Fondu da MDB məkanında qadın terrorçu birləşmələrinin hazırlanmasında xüsusi maliyyə yardımlarına malikdir.

Məlumata görə, ABŞ senatının maliyyə məsələlərilə məşğul olan komitəsi Amerikanın vergi müfəttişliyinin bu istiqamətdə hazırladığı məxfi maliyyə sənədlərini tələb edib (2 iyun 2010). Sənədləri araşdıran komitənin mütəxəssisləri belə qənaətə gəliblər ki, dünyada mövcud terror şəbəkələrinin bir qismi xeyriyyə fondları ilə əlbirdir. Çirkli pulların yuyulmasında, təbii sərvətlərin talan olunub daşınmasında həmin fondlar daha aktivdir. Məsələn, sənədlər əsasında məlum olub ki, Orta Asiya və Qafqaz regionlarında filialları olan «BİF», «SAAR Fondation», «Nely Land Fondation for Relief and Develorment» (ABŞ), «OXFAM» (İngiltərə), «NRA» (Misir), «Qətər humanitar təşkilatı», «Hayastan» (Ermənistan), «Ümumdünya müsəlman təşkilatı», «Ümumdünya müsəlman gənclər assosiasiyası», «Beynəlxalq islama yardım və xilasetmə təşkilatı», «Əl-Hərəmiyyə» (Səudiyyə Ərəbis-

tanı), eləcə də bir sıra bank, o cümlədən «Əl-Şimal» (Xartum), «Barklayz» (London), «Jirokredit (Vyana), «Jirobank» (Keniya), «Artsaxbank» (Dağlıq Qarabağ), «Pervıy Russkiy Bank» (İsveçrə)... son illər beynəlxalq terror aksiyalarında maliyyə mənbəyi kimi fəaliyyətdə olub.

«Artsaxbank» Azərbaycandan gedən qaz və neft kəmərlərinin partlayışlarında terrorçu qruplara bilavasitə yardımçı olub. Məlumata görə, terrorçuların strateji planlarında Cənubi-Qafqaz qaz kəmərinə (Bakı-Tbilisi-Ərzurum) qarşı hücumların hazırlanması haqqında xüsusi «təlimat proqramı» var. Bu kəmərin Azərbaycan ərazisindən keçəcəyi məsafə 442 km-dir (kəmərin ümumi dəyəri 3,2 milyard dollar edir). Beynəlxalq qaz kəmərindən ildə 20 milyard $m^3$ qaz nəql olunacaq.

Göründüyü kimi, Azərbaycanın enerji daşıyıcılarına qarşı təxribat və terror planları bir an da olsun səngimir. Araşdırmalarımıza görə, erməni bankının Cənubi Qafqazda məşhur olan «Meşə qardaşları» terror təşkilatı ilə sıx əlaqəsi var və təşkilat işğal olunmuş ərazilərdə qeyri-qanuni narkotik plantasiyalarının salınması üçün 110 min dollar ayırıb. ABŞ-ın senat komitəsi bankın idarə heyətinin sədri Nersesyan haqqında ayrıca sənəd toplayır. Artıq, məlumata görə, ermənilərin «Hayastan» xeyriyyə fondunun Kaliforniya və Vaşinqton ofisləri bağlanılıb. Məlum olub ki, «Hayastan» həm Türkiyədə, Rusiyada və həm də Azərbaycanda baş verən son terror aktlarında terrorçular üçün maliyyə dəstəyi olub, erməni və kürd qadın separatçılarından ibarət yeni silahlı birləşmələrin hazırlanmasına yardım edir.

Məlum olduğu kimi, işğal olunmuş ərazilərimizdə, nəzarətsiz qalmış Dağlıq Qarabağ torpaqlarında «Artsaxbank» və «Hayastan»ın yardımı ilə Azərbaycan və Türkiyə istiqamətində terror aktları törədə biləcək qadın terrorçu qrupları üçün təlimlər keçirilir. Belə bir məlumat da verilir ki, «Kürd birliyi» qadın terror qruplaşmasının bir neçə üzvü Dağlıq Qarabağdan Ermənistana, oradan da Türkiyə ərazisinə keçib (Türkiyə MN-nin məlumatı. «Bülleten». 2010, № 4).

Bu səbəbdən Bakıda ofisləri olan bütün beynəlxalq xeyriyyə fondlarının fəaliyyətlərinə ciddi nəzarət olmalıdır.

Cənubi Qafqazda, ümumiyyətlə, MDB məkanında baş verən siyasi hadisələr, separatçılıq, terrorçuluq və işğalçılıq cəhdilə ayrılıb, özlərini «müstəqil respublika» kimi tanıdan ərazilərdəki hərbi vəziyyət beynəlxalq mətbuatda, fond və mərkəzlərdə, kəşfiyyat idarələrində geniş şərh olunur. *MKİ-nin son hesabatında XXI əsrin ilk 25 ili ərzində 100 xırda müstəqil*

*dövlət yaranacağı göstərilir.* Şübhəsiz, belə bir parçalanma siyasəti uzun müddətdir ki, aparılır. Çünki kiçik və qondarma dövlətləri idarə etmək, imkan düşəndə, lazım gələndə onları bir-birilə vuruşdurmaq, asılı vəziyyətdə saxlamaq daha asandır. Məsələn, Gürcüstan hadisələrindən əvvəl qondarma respublika ərazilərinin birində – Azərbaycanın işğal olunmuş ərazisi olan Dağlıq Qarabağda, separatçı Dnestryanı ərazinin, Cənubi Osetiyanın, tanınmayan İçkeriya respublikasının, olmayan Ləzgistanın, «müstəqil» Dağıstanın və s. terrorçuluq və işğalçılıq siyasətini əsas tutan nümayəndələrinin birgə memorandumu imzalandı. Şuşada imzalanmış bu separatçı sənədin elan olunmasından sonra Amerikadakı Erməni Milli Komitəsinin başçısı Kan Xaçikyanın məktubu oxunub. Məktubda qeyd olunur ki, dünyada nə baş verirsə, bizim (oxu: separatçıların və terrorçuların) xeyirimizə baş verir. «...Buradan – dünyanın ən uca zirvəsindən (o, Amerikanı nəzərdə tutur – **V.S., R.V.**) hər yer görünür, hər yer açıq görünür. Artıq, rahat olun ki, rahat işləyin və rahat durun ki, dünyanın ən böyük dövlətləri və qurumları bizləri yaxşı başa düşür, yaxşı dərk edirlər. Bizi dəstəkləyənlərin arasında əvvəllərdə olan şübhə və etinasızlıq azalır. Çünki bizim apardığımız mübarizə, bəzilərinin dediyi kimi terrorçu mübarizə deyil, müstəqillik uğrunda mübarizə aparanların mübarizəsidir. Biz Milli Azadlıq Hərəkatının önündə gedənlərik. MDB məkanında olan dayaqlarımız da böyükdür. Bax, hamı öz problemilə məşğuldur. Bəs biz nə üçün verilən şansdan istifadə etməyək?...» (Bax: Erməni Milli Komitəsi, Vaşinqton. «Birlik» qəzeti. 2005. II. X.Xaçikyanın məktubu).

Məktubda Qərbi Avropada böyük nüfuza malik olan, separatçıların liderlərindən sayılan, DQ-ın işğalında azərbaycanlıların kütləvi qırğınlarını təşkil edən... Murad Papazyanın tövsiyəsinə də toxunulur. Məktubda qeyd olunur: «...NATO-dan arxayın olun. O, bizləri müdafiə edir. Dostumuz Murad Papazyanın təklifi var: amerikalı həmsədr (ATƏT-in), diplomat, ermənilərin dostu olan Stiven Mənn cənablarına Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təminatçısı kimi, müstəqillik və demokratiya uğrunda mübarizəyə qoşulanların himayəçisi və yardımçısı kimi «xüsusi mükafat» ayrılmalıdır. Bu mükafat qondarma «müstəqil DQ respublikası»nın paytaxtında təntənəli şəkildə bu ilin sonunda, daha dəqiq desək, ermənilərə qarşı soyqırımın 90 illiyi ərəfəsində təqdim ediləcək...» (Bax: eyni mənbə. 2005. II).

Separatçı M.Papazyanın «xüsusi mükafat»ının nədən ibarət olmasını bilmirik. Amma alınan məlumatlardan belə bir fakt aydın olur ki, ermənilər

ATƏT-in amerikalı həmsədrinə «Daşnaksütyun» partiyasının da «fəxri qonaqlara ayrılmış» bir nömrəli biletini və döş nişanını, artıq, təqdim ediblər. Bu faktı Co Tatikyan adlı bir amerikalı separatçı erməni xəbər verib.

Məlumata görə, separatçıların Şuşa yığıncağında Cənubi Osetiyaya yardımların, silahlı birləşmələrin göndərilməsi məsələsi də müzakirə olunub.

Araşdırmalarımıza görə, qondarma DQ «respublika»sına Rusiyadan, ABŞ-dan, Fransadan, Almaniyadan yardım ediləcəyi gözlənilir...

Amerika Birləşmiş Ştatlarının H.Kissincer Strateji Araşdırmalar Mərkəzi, RF-nin Cənubi Qafqaz Strateji araşdırmalar Mərkəzi, Fransanın Siyasi Tədqiqatlar Mərkəzi, İngiltərənin London Strateji Araşdırmalar Mərkəzi, Almaniyanın Beynəlxalq Təhlükəsizlik və Siyasət İnstitutu, İsrailin «Kamminqs» mərkəzi... ümumən Qafqaz regionlarında tədqiqatlar aparan strateji-analitik idarələrin və sosioloji rəy bürolarının Azərbaycanla bağlı illik hesabatlarda, sorğuların nəticələrində yanlışlığa yol verilir. Bilavasitə, mənsub olduqları dövlətlərin maraq çərçivəsindən kənara çıxmayan bu siyasi mərkəzlər Azərbaycanla bağlı hazırladıqları hesabatlarında işğal altında qalan və «nəzarətsiz zona»lar cərgəsində qeyd olunan Dağlıq Qarabağ ərazisində baş verən bütün neqativ əmsalları-göstəriciləri, fakt və iqtisadi tənəzzülü əks etdirən rəqəmləri «Cənubi Qafqaz, Demokratik prinsiplər və Müstəqil Azərbaycan...» (belə bir problemin adı 2011-ci ilin avqustunda Vaşinqtonda nəşr olunan ABŞ Konqresinin rəsmi «Congressional Record» icmalında çəkilir) paraqrafına şamil edirlər. Yəni işğal altında qalan DQ ərazisində baş verən ictimai-siyasi hadisələrin təhlilinin neqativ nəticələri Azərbaycanla bağlı hadisələrdə əks olunur. Beynəlxalq miqyasda müstəqil Azərbaycanın imicinə güclü zərbələr endirilir. Məsələn, ABŞ politoloqu Daniel Kaufman qeyd edir ki, «...bu, təbiidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində öyrənilir və araşdırılır... Ərazi bütövlüyü baxımından burada heç bir prinsip pozulmur...»

Şübhəsiz, erməni terroruna məruz qalmış DQ ərazisi Azərbaycanın işğal olunmuş parçasıdır. «O, nəzarətsiz və qanunların işləmədiyi bir ərazidir» (ABŞ Dövlət Departamentinin 2010-cu il hesabatı). DQ-da baş verən neqativ hadisələri, qeyri-qanuni formalaşdırılan dövlət atributlarını və strukturlarını Azərbaycanın tarixi səhifələrinə yazmaq düzgün deyil. Adları çəkilən beynəlxalq strateji araşdırma mərkəzləri DQ işğal altında qalan və nəzarətsiz, münaqişəli zona kimi müstəqil araşdırmalı, müstəqil təhlil etməlidirlər.

Məsələn, ABŞ analitiklərindən olan Helman Cool yazır ki, Cənubi Qafqaz regionlarında «dövlətin zəbt olunması»nda «inzibati korrupsiya» əsas rol oynayır və bu da kölgə iqtisadiyyatının çiçəklənməsinə gətirib çıxarır. «Erməni işğalında qalan Dağlıq Qarabağın insan resursları ilə yanaşı, təbii sərvətləri də talan edilib... Bunu öyrənmək, araşdırmaq Avropa üçün, ləyaqəti olan hər kəs üçün maraqlı olardı...» («The Vaşinqton Post». 2010, III.26).

Başqa bir ABŞ analitiki Cons Kraint yazır: «...Dövlətin zəbt olunması, ekoloji yaraların açılıb göstərilməsi, təbii sərvətlərin talan olunması» demokratik islahatların iflic olmasına gətirib çıxarır. Məsələn, Cənubi Qafqaz regionlarında aparılan tədqiqatlardan bəlli olur ki, korrupsiya, kölgə iqtisadiyyatı və dövlətin zəbt olunması, şübhəli bank sistemi, narkobiznes, dini ekstremizm, insan və silah alveri, nüvə silahı üçün komponentlərin qeyri-qanuni satışı, ekoloji tarazlığın pozulması, bütövlükdə beynəlxalq terrorizm istiqamətində ciddi nəticələrimiz var. Təhlillərimizə görə, təbii sərvətlərə edilən təcavüzün indeksi Gürcüstanda 14,7, Acarıstanda 16, Cənubi Osetiyada 9, Abxaziyada 13, Ermənistanda 28,5, Azərbaycanda 24,9, Dağlıq Qarabağda 77,4 faizdir...» (müəllifin qeyd etdiyi «Dağlıq Qarabağda 77,4 faizdir» ifadəsinə diqqət yetirin – ***V.S., R.V.***)...

Daniel Kaufmanın, Helman Coolun, Cons Kraintin bir-birindən fərqli açıqlamaları güman edirik ki, Azərbaycanın rəsmi orqanlarının, ilk növbədə, Xarici İşlər Nazirliyinin diqqətindən yayınmayacaqdır. Çünki aldadıcı və çaşdırıcı informasiyalar çox vaxt dövlət, hökumət və parlament səviyyəsində müzakirəyə səbəb olur. Bütün hallarda Azərbaycan təhlil edilərkən, ermənilər tərəfindən işğala məruz qalmış Dağlıq Qarabağ ərazisi ayrıca təhlil olunmalıdır. Çünki bu zona həm nəzarətsiz, həm də qanunların və demokratik prinsiplərin işləmədiyi bir «zonadır». Başqa araşdırma materialında isə qeyd olunur ki, Azərbaycanın işğal altında qalan DQ ərazilərində vaxtilə qondarma respublika qurmağa cəhd edən Arkadi Qukasyan 2010-cu il aprelin 23-də daxili sərəncamında yeni Dövlət Şurası yaradıb:

« 11 nəfərdən ibarət olan bu qondarma şura, əsasən, regionda ekstremal şəraiti doğuran səbəblərlə, qoyulan xarici kredit və investisiyalarla məşğul olacaq, 2005-2015-ci illəri əhatə edəcək «İqtisadiyyatda demokratik islahatlar» və «Ekoloji mühit» istiqamətində proqram-tezislərini hazırlayacaq . Bizi maraqlandıran məsələnin başqa tərəfidir (və güman edirik ki, həm ATƏT rəsmilərini, həm Azərbaycanın XİN-ni də bu məsələ ciddi

düşündürə bilər – ***V.S.,R.V.***). Məsələn, məlumata görə, qondarma respublikanın terrorçu «prezident»i A.Qukasyanın altı müşavirindən üçü və dörd məsləhətçisindən ikisi xarici ölkə vətəndaşlarıdır. Yəni, onların əksəriyyəti ATƏT-ə üzv olan ölkələrdən gəlmələrdir. Terrorçu-prezident A.Qukasyanın təhlükəsizlik üzrə məsləhətçisi keçmiş zabit (ABŞ), bakterioloji silahlar mütəxəssisi Corc Sunia, investisiyalar, kreditlər və onların təyinatı üzrə bölünməsi istiqamətində məsləhətlər verən Rolf Olson (İsveçrə), immiqrasiya üzrə əlaqələndirici Mişel Liotar (Fransa), sərhəd məsələləri üzrə məsləhətçisi keçmiş sərhədçi, polkovnik, uzun müddət Naxçıvanda sərhəd bölmələrində işləmiş Aleksandr İvanoviç Bezrukov, ekologiya və iqtisadiyyat üzrə Edmund Biski... adlı şəxslərdir.

Azərbaycan bu istiqamətdə araşdırmalar aparmalı, əldə olunan əlavə məlumatları beynəlxalq hüquq normaları çərçivəsində təhlil etməlidir.

Adları qeyd olunan vətəndaşların qeyri-qanuni işğal olunmuş Azərbaycan ərazilərində fəaliyyətinə gəlincə, bu heç bir demokratik cəmiyyətdə qəbul olunmur.

Araşdırmalarımıza görə, Arkadi Qukasyanın yaratdığı qondarma Dövlət Şurasına daxil edilmiş bu şəxslərin Dağlıq Qarabağ istiqamətində çoxillik proqram sənədinin tezisləri də hazırlanır.

Avropa İttifaqında «Müdafiə Taktikası» adlı strateji proqramın tezisləri üstündə daha çox baş sındırırlar. On ildən artıq gedən müzakirənin nəticəsi isə Brüsseldə açıqlanıb və bildirilib ki, (17 aprel 2010-cu il) siyasi qurumun «Müdafiə taktikası» proqramı müəyyən düzəlişlərlə qəbul edilib. Münaqişə və müharıbə zonalarında stabilliyə nəzarət edə biləcək 1500 nəfərlik «Çevik taktiki hərbi qruplar» yaradılması qərara alınıb. Bu da qərara alınıb ki, belə qruplar Afrikanın, Asiyanın, Latın Amerikasının... həmçinin Cənubi Qafqaz regionlarının, Orta Asiya ərazilərinin... münaqişə və müharibə ocaqlarında iştirak etsinlər. Məsələn, Avropa İttifaqına məxsus qruplar (HHQ-nin və HDQ-nin), quru qoşunlarının hissələri münaqişəli Afrika regionlarını nəzarətə götürəcək.

Məlumata görə, 1999-cu ildən Kosovoda müstəqil hərbi əməliyyatlar aparan Avropa İttifaqının qoşun kontingenti regionda daha çox sülhməramlı işlərin görülməsinə fikir verir. Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi general Havyer Solonanın açıqlamalarına görə, yalnız belə taktiki gedişlər ayrı-ayrı regionlarda müharibənin odunu söndürə bilər. Generalın fikrincə, Avropa İttifaqında fəaliyyətə başlayan, sülhməramlı əməliyyatlar aparan çevik qrupların bir

qismi yaxın günlərdə Dnestryanı ərazilərə, Abxaziyaya və Dağlıq Qarabağa göndəriləcək. Sülhməramlı «Müdafiə taktikası» proqramını regionlarda həyata keçirən qrupların tərkibində İngiltərənin, Fransanın, Almaniyanın... qoşun kontingentləri əsas rol oynayacaq.

Rusiyalı politoloq Aleksandr Kondraşovun: «Belə qrupların Dağlıq Qarabağ ərazisinə göndərilməsi mümkündürmü?... Hansı nəticələri verə bilər?...» sualına, general H.Solona cavab verib ki, mümkündür. O, deyib: «...Biz, artıq, belə bir addımın atılmasının tərəfdarıyıq. Çünki günahsız insanlar, artıq, əziyyət çəkir. Ərazinin ekoloji panoramasına ciddi zərbələr endirilir. Digər tərəfdən, torpaqları əldən getmiş, ərazisi parçalanmış Azərbaycanda demokratik islahatların həyata keçirilməsi üçün bu, vacibdir. Həmçinin regiondakı torpaqları talan olunmuş nəzarətsiz zonalar demokratik inkişafdan, dünyanın «inkişaf proqramları»ndan geri qalır...»

Generalın fikrincə, Avropa İttifaqının «Müdafiə taktikası» strategiyası ABŞ Dövlət Departamentinin sənədlərində «nəzarətsiz zona» kimi qeyd olunan Azərbaycanın işğal olunmuş ərazilərinə – Dağlıq Qarabağ ərazisinə göndərilməsi nəzərdə tutulub (Avropa İttifaqı NATO-dan fərqli olaraq, neytral mövqeyə malikdir).

Dağlıq Qarabağ problemilə məşğul olan ATƏT isə meydandan çıxacaq, öz fəaliyyətinə xitam verəcək. Çünki ATƏT faktiki olaraq, bütün anlarda və məqamlarda hərəkətedici orqan kimi yox, müşahidəedici orqan kimi olub. Siyasi məsələlərin həllində qərəzli mövqelərdən daha çox çıxış edib.

Fikrimizcə, bütün bu məsələlərdə də diqqətli gedişlər etmək yaxşı olardı. Çünki heç bir sülhməramlı qurum və yaxud proqram hələ ki, Dağlıq Qarabağı erməni işğalından azad edə bilmir. Məlumata görə, Dağlıq Qarabağla bağlı Fransanın iştirakı ilə 86, İngiltərənin iştirakı ilə 59, Amerikanın iştirakı ilə 71, RF-nin iştirakı ilə 83, Almaniyanın iştirakı ilə 29 – ciddi hesab olunmuş strateji və yaxud nəticəsinə şübhə edilməyən... proqramlar qəbul edilib. Hələ də heç bir nəticə görünmür. (?)

Azərbaycan tərəfi bu məsələlərdə məlumat, fakt və rəqəmləri bir daha beynəlxalq ictimaiyyətə açıqlamalıdır.

Uzunmüddətli araşdırmalar zamanı əldə etdiyimiz fakt və rəqəmlər NATO-ya və ATƏT-ə üzv olan ölkələrin diplomatlarının açıqlamalarının üstündən qələm çəkir. Məlumata görə, işğal olunmuş ərazilərimizdə ilk «qızıl əməliyyatı»nı ABŞ-ın «Clobal Gold» şirkətilə ermənilərin «Gold Armenia» şirkəti aparıb və 1997-ci il mayın 15-dən isə bu işə Kanadanın «FD» şirkəti qoşulub ("Financikal Times of Kanada". Toronto

(Kanada).2010, №29). Nəticədə işğal olunmuş ərazilərimizdə – Zəngilanın «Vejnəli», Kəlbəcərin «Söyüdlü» və «Qızılbulaq» qızıl yataqlarının ağzını açdılar (hər iki şirkət haqqında Beynəlxalq İqtisad Məhkəməsində iş qaldırmaq üçün bütün əsaslar var). Başqa bir ABŞ şirkəti – «R.V. İnvestment» şirkəti də əməliyyata qoşuldu. «Prodakşn-serinq» tipli müqavilə də bağlanıldı. «Müqavilənin şərtlərinə görə, işğal olunmuş yataqlardan hasil ediləcək 470 ton qızıl, 2500 ton gümüş, 1,6 milyon ton misdən... əldə edilən gəlirin hətta 51 faizi Azərbaycana verilməli idi. Hanı bəs? Təkcə işğal altındakı «Qızılbulaq» yatağında on il bundan əvvəl (1994-cü ildə) 13,5 ton qızıl ehtiyatı olub. İndi isə burada erməni ekspertlərinin rəyinə görə, 2,3 ton qızıl ehtiyatı qalib. (Ermənistan isə qızıl ehtiyatını 6,5 dəfə artırıb). Bu faktları araşdırmaq üçün ABŞ diplomatı Rino Harnişin Xankəndində «Azad Artsax» qəzetinin 2010-cu ildə nəşr olunmuş mart-aprel qovluqlarının «Clobal Gold» və «R.V. Investment» şirkətlərinin maliyyə-bank sənədlərinin vərəqlənməsi kifayət edərdi (əlavə olaraq bax: «Commercial and Chronicle». Nyu-York. 2008, № 9. «The New York Times». 2008.X-21). Və yaxud işğal olunmuş Kəlbəcərin cənub-şərq zolağındakı Vəng yaşayış məntəqəsində Amerika biznesmenlərinə məxsus ağac emalı kombinatına nəzər salaq. Xankəndində nəşr olunan «Azad Artsax» qəzetinin baş redaktorunun müavini Naira Ayrumyan İsveçrədəki «Sosial-Siyasi araşdırmalar Mərkəzi»nin hesabat materiallarında təqdim etdiyi arayışda göstərir ki, Vaşinqton DQ ərazilərində biznesdə kifayət qədər «...onlara yardım edir...». Erməni politoloqu N.Ayrumyanın bu təqdimatı İsveçin Lalten şəhərində on bir dildə çap edilərək, az nüsxədə olsa da, yayılıb. Məsələn, onun rus nəşrini Harnişin nəzərinə çatdırırıq. Hesabatda oxuyuruq: « Qarabağın çox hissəsi qiymətli ağac növlərilə(palıd, fısdıq, qoz) zəngin olduğuna görə, sərmayələrin çoxunun məhz bu sahəyə qoyulacağı təhmin edilirdi. Amerikalı iş adamı (bu Kirk Kirkoryandır –**V.S., R.V.**) Mardakert rayonunun Vank kəndində ağac emalı kombinatı açıb və oraya 2 mln. dollar sərmayə qoyub. Ondan əlavə, Vankda bir sıra əyləncə və məişət təyinatlı obyektlər açılıb… » («Central Asia and the Caucasus» – araşdırma materialları toplusu. İsveç (Lalea). 2010, № 6, səh. 212. N.Ayrumyanın materialı).

Və yaxud başqa bir araşdırma materialında isə oxuyuruq ki, ABŞ-a məxsus investisiyaların böyük bir hissəsi, ərazidəki qondarma «DQR»-na məxsus «Artsaxbank»da qorunur.

Məsələn, hesabat materiallarında oxuyuruq: “Artsaxbank”ın aksiyalarının 70%-i İsveçrənin və Amerikanın payına düşür...”

Əlavə olaraq, məlumata görə, Avstriyadan və ABŞ-dan olan şirkət sahibləri 2010-cu ildə «Nairi» və «Qarabağ» otellərini tamamlayıblar.

Strateji mərkəzin erməni hesabatında daha sonra deyilir:«…Stepanakertdə (Xankəndində-V.S.,R.V.) Amerikanın iş adamları açdıqları iki xalça şirkətinə 3 mln. 150 min dollar investisiya yatırıblar. Buranın məhsulları məhz Amerika üçün nəzərdə tutulub. » (səh.214).

Araşdırmalarımıza görə, ABŞ-da fəaliyyət dairəsi geniş olan «Arslanyan», «Kadciyan», «Manukyan», «Ovnanyan», «Vartanyan», «Kirkoryan»... şirkətlərinin DQ-nin işğal olunmuş ərazilərinə qoyduqları unvestisiyaların ümumi həcmi 542 milyon dolları keçir. Ermənilər iddia edirlər ki, ABŞ-ın, Fransanın, İsveçrənin, Argentinanın, Yaponiyanın, İngiltərənin, Almaniyanın, İranın, RF-nin qoy-duqları investisiyalar DQ-da təhlükəsizliyi və sabitliyi artırır. Torpaq, artıq, bahalaşıb. Xankəndindən yayımlanan erməni televiziyasının «İqtisadiyyat. Dağlıq Qarabağ regionlarında» (?) proqramında ardıcıl nümayiş etdirilən «De Birs», «Adamand Co. Of Armenia», «Almazı-Rossib-Saxa», «Backes», «Arelanian Catting», «Renevir», «Tomson», «Partax», «Simens»... kimi şirkətlərin işğal olunmuş ərazilərimizə qoyduqları investisiyaların həcmindən, bağlanmış yeni müqavilələrdən (?) (2010-2015-ci illəri əhatə edə biləcək müqavilələr – ***V.S.,R.V.***) geniş bəhs edilir. Vaşinqtonda və Kaliforniyada yanacaq resurslarının bərpası və layihəsilə bağlı konsorsiuma, şirkətlərə başçılıq edən Qalust Gülbekyan isə televiziyaya verdiyi müsahibələrində (2011.IX-2, XII-9. Xankəndi) Dağlıq Qarabağa qoyacağı əlavə investisiyalardan danışır. Əsasən, Portuqaliyada geniş şirkətlərə sahib olan erməni iş adamını işğal olunmuş torpaqlarımızın «iqtisadi dirçəlişi» daha çox düşündürür (?).

Ermənistan Dövlət Universitetinin müəllimi, iqtisadçı Amaliya Sarıbekyan isə iddia edir ki, ABŞ-ın müxtəlif şirkətləri DQ-da «Milli iqtisadiyyatın beş illik proqramı»nı hazırlayırlar (2005-2010-cu illəri əhatə edir).

Həmçinin, bunu da xatırladaq ki, ATƏT-in amerikalı həmsədri C.S.Mənnin vasitəçiliyi ilə Azərbaycanın işğal edilmiş torpaqlarında – Dağlıq Qarabağda «Xarici ticarətin qapıları Dağlıq Qarabağ üçün...» strateji proqramı da hazırlanır. Və yaxud Mərkəzi Kəşfiyyat İdarəsinin sənədlərində hələ də Dağlıq Qarabağ «Ermənistanın bir parçası kimi təqdim olunur» (?). Bütün bunlar və buna bənzər eybəcər hadisələr məhz ATƏT rəsmilərinin gözləri qarşısında baş verir.

Dağlıq Qarabağdan oğurlanıb xaricə daşınan milli sərvətlərimizin sayı-hesabı bilinmir. Məsələn, bu günədək Azərbaycan xalçası haqqında dünyada tanınan 142 kitab yazılıb. Bu kitabların 91-i Sovet İttifaqı dağılandan sonra erməni müəlliflərinin adı ilə çap olunub.

1993-cü il avqustun 9-da Saratovda (RF) nəşr olunan «Qolos» qəzetinin müxbiri A.Karpov yazır ki, Bakıdan gələnlər (?) 14 Qarabağ xalçasını dəyər-dəyməzinə kilsəyə satdılar (?). Sonra A.Karpov «Bakıdan gələnlər» ifadəsini açır və məlum olur ki, bu adamlar Azərbaycandan köçüb getmiş ermənilərdir. Hadisələri müşahidə edən amerikalı yazar Stifen Koln qeyd edir ki, döyüşlərdə «...yüzlərlə qədim əşya, tikili və toxunma xalçalar, zinət nümunələri... maşınlara yüklənilib aradan çıxarıldı. Hər şeyi qoparıb daşıyırdılar...».

Məlumata görə, təkcə Şuşa məscidlərindən yaşı 300 və 450 il olan altı qədim xalça oğurlanıb. 1998-ci il martın 25-də isə həmin xalçalardan üçü Nyu-Cersi ştatında Ümummilli Erməni Konqresinin iclasında nümayiş etdirilib (?).

1999-2010-cu illər ərzində ermənilər işğal etdikləri Dağlıq Qarabağdan qiymətli, üstündə qədim islami naxışlar və atributlar olan, 1422 ədəd qədim Azərbaycan xalçası oğurlayıblar.

Qədim xalçaların Rusiya, eləcə də dünya bazarlarına necə yol alması bu günədək qaranlıq qalır. Halbuki, qədim xalçaların ölkədən çıxarılmasını məhdudlaşdıran BMT-nin və YUNESKO-nun sərt və bəzən qadağan edən qanunları var. Məsələn, Azərbaycan qanunvericiliyinə görə, 1950-ci ildən əvvəl toxunan xüsusi tarixi əhəmiyyəti olan xalçaların ölkədən çıxarılması üçün yalnız Ekspertlər Şurası qərar verir. Belə bir qurum respublikada mövcuddursa, bəs baş verənlər nədir? Bu Şuranın tərkibi nə üçün açıqlanmır? Gördükləri işlər barədə ictimaiyyətə nə üçün məlumat verilmir?

Məlumata görə, ABŞ Dövlət Departamenti dünya ölkələrinin milli dəyərlərini araşdıran xüsusi hesabat hazırlayıb. Əsasən, strateji mərkəzlərin və institutların məlumatları əsasında hazırlanmış bu sənəddə Azərbaycanın da adı var. Respublika öz milli dəyərlərinə, tarixi keçmişinə etinasız bir region kimi qələmə verilir: «Məlumata görə, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ xalçaları həm tez satılır, həm də keyfiyyətinə görə digərlərindən fərqlənir. Məsələn, Quba-Şirvan xalçalarında 26-38 ilmə olur. Quzu yunundan toxunan xalçalar parıltısı və çeşidi ilə fərqlənir."

*Araşdırmalarımıza görə, qədim xalçalarımızdakı təbii boyalar, ilmələr, düzümlər... insan orqanizmində gedən bioloji proseslərə bilavasitə təsir edir.*

*Məsələn, İngiltərədə qan təzyiqini, ürək çatışmazlığını, sinir sistemini normal vəziyyətə gətirmək üçün qədim xalçaların əhəmiyyətii misilsiz sayılır. ABŞ-da isə qədim xalçalarımız bilavasitə bədənin təravəti, yeddi xəstəliyin müalicəsi üçün əsas rola malikdir.*

Dünyanın «qara bazar»ında iki əsr "yaşı" olan qədim xalçamıza 120 min ABŞ dolları verilib.

Eskpertlər Şurasının bu problemdən yəqin ki, xəbəri yoxdur. Bir xalça mafiyasının üzvləri ildə 32 milyon dollar gəlir götürürlər. Bir ildə Dağlıq Qarabağ ərazisindən 211 $m^2$ yaşı 200-250 il olan xalça çıxarılır və qeyri-qanuni yollarla xaricə daşınır. Almaniyanın, İngiltərənin, Amerikanın, Yaponiyanın, Fransanın... işğal olunmuş Azərbaycan ərazilərində özləri üçün şirkətlər təşkil edə iş adamları və Ermənistandakı diplomatik korpusların 11 nəfər işçisi Azərbaycandan dəyəri təqribən 2 milyon dollar olan qədim xalçanın çıxarılmasına nail olublar. Əcnəbi diplomatlar Bakıdan, adətən, Gəncə xalça məktəbindən «Dəmirçilər», «Borçalı», «Qaraqoyunlu» bədii kompozisiyalı xalçalar; Qarabağ xalça məktəbindən «Qarabağ», «Dəryanur», «Buynuz», «Saxsıdagül; Təbriz xalça məktəbindən ən çox toxunan (xovsuz xalçalarından) kilim, vərni, zililər; Bakı xalça məktəbindən «Goradil», «Fındığan», «Ciyi palaz»... və digər xovsuz xalçalar... daşıyıblar. Başqa bir məlumatda isə bildirilir ki, tarixən qədim, yaşı 200-250 il olan xalçaların həcmi 11 dəfə azalıb. 100-130 il yaşı olan xalçaların həcmi isə 17 dəfə azalıb (Bax: bu fakt və sənədlər 2006-cı ilin martın 7-də BMT-nin Azərbaycandakı Nümayəndəliyinə təqdim olunmuş məktubdan götürülüb. Məktubu 65 yaşlı xalçaçı, Şuşa qaçqını Məleykə Mehdi qızı Hüseynova, 75 yaşlı Xocalı Xalçaçılar kursunu təşkil edən Əliyeva Fatimə Məmməd qızı, 69 yaşlı ağdamlı xalçaçı Cəfərova Maneə Lətif qızı əlavə olaraq 47 nəfər Qarabağ xalçaçıları imzalayıb. 2006-cı ilin noyabrın 19-da isə məktbub UNESKO-ya və Heydər Əliyev Fonduna təqdim olunub. Məhz bundan sonra oğurluq xalçaların bir qismi Azərbaycana qaytarılıb. Əlavə bax: M.Məcidli «Zerkalo» qəzeti 2006. V).

UNESKO-nun isə mədəni sərvətlərin qanunsuz daşınmasının və mülkiyyət hüququna verilməsinin qadağan olunmasına yönələn tədbirlər barədə 1970-ci il Konvensiyası olsa da, ona əməl olunan mexanizm yoxdur.

Məlumata görə, 2010-cu il sentyabrın 23-də Ermənistanın müstəqilliyi günü münasibətilə Yerevana qonaq kimi dəvət olunmuş qondarma «Dnestryanı Respublikanın», Dağlıq Qarabağın, Cənubi Osetiyanın, Abxaziyanın (Moskvadakı ofisinin nümayəndəsi) yüksək rütbəli zabitləri MDB-nin «Təhlükəsizlik qurumu» deyilən hərbi sazişə imza atdılar. Həmin

sənədə əsasən, münaqişəli ərazilərin «başçı»larına istənilən zaman bir-birlərinin ərazilərindəki təbii sərvətlərdən istifadə etmək hüququ verilirdi. (?) Əlləri müxtəlif cinayət hadisələrində qana batmış qondarma "respub-lika"ların generallarının imzaladıqları bu sazişə bir-birinə silahlı dəstələrin göndərilməsi və hərbi qarşıdurmalarda iştirakı barədə də xüsusi bir bənd salınıb. (Qondarma «Dağlıq Qarabağ Respublikası»nın (?) eks «prezidenti» A.Qukasyanın imzaladığı sərəncama əsasən, nəzarətsiz zonanın eks müdafiə naziri, hazırda Ermənistanın MN-i Seyran Ohanyana (O, həmçinin Xocalı soyqırımının əsl səbəbkarlarından biridir). «Qızıl Xaç» ordeni də bu mərasimdə təqdim edilib –**V.S., R.V.**).

Başqa bir məlumatda isə bildirilir ki, qondarma «respublika»nın ərazi-sində hər birində 180 nəfər olmaqla iki legionun («Naxçıvan legionu» və «Beynəlmiləlçi erməni legionu») yaradılması məsələsi də gündəlikdə dayanırdı. Ümumiyyətlə, DQ ərazisində ordu quruculuğu istiqamətində erməni separatçılarının hazırladıqları «2010-2015-ci illər DQR-da (?) yeni ordu quruculuğu proqramı» üçün 25 milyon dollar ayrılıb. («DQR-da illik büdcə 14 milyon dollardır). Vəsaitin 11 milyon dollarını «Hayastan» Beynəl-xalq Erməni Təşkilatı öhdəsinə götürüb. 7 milyon dolları Fransadakı 410 min ermənini birləşdirən «Ümumerməni Birliyi» təşkilatı, 4 milyon dolları Kaliforniya ştatındakı «Ermənilərə yardım təşkilatı», 3 milyon dolları isə erməni kilsələri tərəfindən (Livan, Suriya, İran, RF, İngiltərə, Avstriya, İsveç...) ödənilib. Azərbaycanın işğal olunmuş ərazilərində – Dağlıq Qara-bağda «Yüksək hazırlıqlı erməni legionları»nın təşkili məsələsi yeni deyil. Bu haqda hələ 2004-cü il avqustun 4-də «Karabaxskiy kuryer» həftəliyi ayrıca yazı da çap etmişdi və orada göstərilirdi ki, bu legionlar, əsasən, Ermənistanın Naxçıvanla həmsərhəd zolaqlarında və Gəncə-Goranboy yaşayış məntəqələrinə yaxın ərazilərdə yerləşdiriləcək. Qondarma «DQR» qoşun kontingentinin beynəlxalq əlaqələr üzrə eksperti B.S.Baqramyanın fikrincə, belə legionların təşkilində «respublika»nın MN-i Fransa təcrübəsini öyrənib (Fransada Polşa legionunun strukturu əsasında – **V.S., R.V.**).

31 saylı Naxçıvan legionuna beş illik «hərbi müqavilə»yə əsasən bir sıra ölkələrdən «həvəskar və yaxud peşəkar zabitlər» dəvət olunur. Qondarma «respublika»da yaradılacaq bu legionlarda, əsasən, beynəlxalq terror təşki-latlarında, o cümlədən ABŞ-da geniş fəaliyyət proqramı olan «13-lər» cinayətkar qrupunun üzvləri də iştirak edirlər. Qeyd edək ki, tərkibində ermənilərin də olduğu «13-lər» terror təşkilatı Vaşinqtonda və Nyu-Yorkda 2011-ci ildə törədilmiş cinayətlərdə xüsusilə aktiv olublar. ABŞ Dövlət

Departamentinin 2005-ci ilin birinci yarısı üçün hazırladığı «Beynəlxalq terror təşkilatları» hesabatında «13-lər»in də adı çəkilir.

DQ-a göndərilən və yaxud gələn muzdlular üçün Fransada, Almaniyada, ABŞ-da, RF-da, İordaniyada, CAR-da, Suriyada, Livanda, İranda, Misirdə, İtaliyada, İngiltərədə erməni diasporları nəzdində «Qeydiyyat və göndəriş məntəqələri» açılıb. Məlumata görə, Şərqi Avropa ərazilərində əlavə 5 belə məntəqə yaradılıb. Həmin məntəqələrdə Ermənistanda çap olunmuş xüsusi sorğu anketləri, DQ haqqında «döyüş kitabları» da qoyulub.

Yaranmaqda olan «Naxçıvan legionu»na polkovnik Aşot Georgiyeviç Nazaryan adlı bir erməni zabiti başçılıq edir. Məlumatlarda bildirilir ki, zabit A.G.Nazaryan vaxtilə ölkənin təhlükəsizlik sistemində işləyib. 1983-cü ildə adam oğurluğunda təqsirkar bilinərək, həbs olunub. Azadlığa çıxandan sonra bir müddət Moskvada diasporda çalışıb və 2002-ci ilin yayında Dağlıq Qarabağa gəlib. «Naxçıvan legionu»nun tərkibində vaxtilə Naxçıvanda yaşayan, Azərbaycan vətəndaşlığını gəzdirən ermənilər çoxluq təşkil edəcək. Bu legionun məramnaməsi, hərbi tezisləri Azərbaycana qarşı istiqamətləndirilmiş Ermənistan dövlətinin işğal-çılıq siyasətinin tərkib hissəsidir. «Naxçıvan legionu»ndakı muzdlulara keçirilən hərbi təlimlərdə körpülərin, hava limanlarının, daha əhəmiyyətli strateji obyektlərin dağıdılması... kimi terror dərsləri də öyrədiləcək.

Yeni yaradılmaqda olan 26 saylı «Beynəlmiləl erməni legionu» isə «DQR» ərazilərində fəaliyyət göstərəcək. Bu legiona ediləcək hərbi yardımların bir hissəsinin Avropadakı erməni iş adamları tərəfindən ödənilməsi məsələsi də əlavə xərc kimi qeyd olunub. Legiona, əsasən, hərbi hissələrdən istefaya çıxmış zabitlər dəvət olunublar. Bu istiqamətdə yeni legiona, artıq, Rusiyadan 107 nəfər üzv yazılıb. Legionun «Hərbi hazırlıq qrupu»nun zabiti olan mayor D.O.Cahangiryan məlumat verib ki, Rusiyadan 107 nəfər qeydiyyatdan keçsə də, onların ancaq 96 nəfərinə «söz verilmişdir». 107 nəfərin 96-sı ilə müqavilə bağlanılıb. Müqavilənin öz şərti var və şərtlərə görə müqaviləyə imza atan şəxs xidmət etdiyi müddətdə DQ ərazisindən çıxmamalı, türk və Azərbaycan dillərində aparılan dərslərdə mütəmadi iştirak etməlidir.

Araşdırmalarımıza görə, Azərbaycanın ermənilər tərəfindən işğal olunmuş Dağlıq Qarabağ ərazisində – Xankəndində ofisini açmış «Artsaxbank»ın 2010-cu ilin yekun hesabatında qeyd olunur ki, bank öz bölmələrindən birini Milli Azadlıq Hərəkatı naminə mübarizə meydanlarına atılan azsaylı xalqların, etnik qrupların xidmətinə verib (azsaylı xalqlar və

etnik qruplar üçün hesab nömrəsi: Armen. Kur. № 002211; Karton). Bankın İdarə Heyətinin sədri Kamo Nersesyan fransız həmkarlarına verdiyi məlumatda xatırladıb: «...bu, bizim öz torpaqları və hüquqları uğrunda mübarizə meydanlarında barrikada quran hər bir xalqa və etnik qrupa edəcəyimiz xeyirxah işin başlanğıcıdır. Bu, erməni xalqının vətəndaşlıq borcudur...»

Həmin erməni bankının ayırdığı vəsait hesabına işğal olunmuş ərazilərimizdə islam dininin atributlarına qarşı, din xadimlərinin məhvinə dair amansız planlar icra olunub. Belə ki, milli-mədəni, mənəvi sərvətlərimizin məhv edilməsi, insanlığa qarşı qatı cinayətlərin törədilməsi məqsədilə bank 2010-cu ildə 1,5 milyon, 2011-ci ildə isə 2 milyon dollar vəsait xərcləyib.

# «XOCALIYA ƏDALƏT!»

# BEYNƏLXALQ KAMPANİYASI FOTOREPORTYORLARIN TƏQDİMATINDA


Xocalıya ədalət
XOCALI
1992 - 2013








ətçiləri tərəfindən
in qanlı səhifəsidir
Heydər Əliyev


ВРЕМЯ ДЕЙСТВОВАТЬ!
КАМПАНИЯ
СПРАВЕДЛИВОСТЬ ХОДЖАЛЫ




XOCALI




366
Xocalı Faciəsi










КАРАБАХСКИЙ ДНЕВНИК
КАРАБАХСКИЙ ДНЕВНИК
1992
ГЕНОЦИД
ПРЕСТУПЛЕНИЯ
ПРЕСТУПЛЕНИЯ
ТЮРКИ
АРМЯНЕ
ПРЕСТУПЛЕНИЯ
КАРАБАХСКИЙ ДНЕВНИК
ПРЕСТУПЛЕНИЯ


26.02.92




stice for Khojaly


UNUTMA
UNUTTURMA!




Gülləlienmiş heykəllər
Üzeyir Hacıbəyli
Xurşidbanu
Natəvan
Bülbül
Erməni işğalçı ordusunun törətdiyi vandalizm!

# ERMƏNİSTANİN TƏCAVÜZÜNÜN NƏTİCƏLƏRİ




## Qaçqınlar və məcburi köçkünlər

| | |
|---|---|
| Ermənistandan olan qaçqınlar | - 250 000 |
| İşğal olunmuş ərazilərdən olan məcburi köçkünlər | - 660 000 |
| Ermənistanla həmsərhəd və işğal xətti boyunca ərazilərdən olan məcburi köçkünlər | - 100 000 |
| **Ümumilikdə** | **- 1 010 000** |

Copyright 2005
Ministry of Foreign Affairs of Azerbaijan
All rights reserved

**İşğal edilmiş ərazilərdəki Ermənistana məxsus silahlı qüvvələr**

Tanklar - 316  Artilleriya - 322
Zirehli döyüş maşınları - 324  Şəxsi heyət - 40 000

**İşğal edilmiş ərazilərə qanunsuz olaraq köçürülmüş insanlar**

| | |
|---|---|
| Dağlıq Qarabağ | - 8 500 |
| Laçın | - 13 000 |
| Kəlbəcər | - 700 |
| Zəngilan | - 520 |
| Cəbrayıl | - 280 |
| **Ümumilikdə** | - 23 000 |

**Qaçqın və məcburi köçkünlərin məskunlaşdığı müvəqqəti yaşayış məntəqələri**

**Məcburi köçkünlərin çadır düşərgələri**

**İşğal olunmuş ərazilər**

**İşğal xətti**

**Keçmiş Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədi**

## Azərbaycanın işğal edilmiş əraziləri

### *Dağlıq Qarabağ bölgəsi*

| | |
|---|---|
| Ərazisi | - 4 388 km$^2$ |
| Əhalisi (1989) | - 189 085 |
| Ermənilər | - 145 450 (76,9%) |
| Azərbaycanlılar | - 40 688 (21,5%) |
| Ruslar | - 1922 (1%) |
| Digər xalqlar | - 1025 (0,6%) |

### *Şuşa rayonu*

| | |
|---|---|
| Ərazisi | - 289 km$^2$ |
| Əhalisi (1989) | - 20 579 |
| Azərbaycanlılar | - 19 036 (92,5%) |
| Ermənilər | - 1 377 (6,7%) |
| İşğal olunduğu tarix | - 8 may 1992 |

### *Dağlıq Qarabağın ətrafındakı işğal edilmiş rayonlar*

| | *İşğal olunma tarixi* | *Köçkünlər* |
|---|---|---|
| Laçın | - 18 may 1992 | - 71 000 |
| Kəlbəcər | - 2 aprel 1993 | - 74 000 |
| Ağdam | - 23 iyul 1993 | - 165 600 |
| Füzuli | - 23 avqust 1993 | - 146 000 |
| Cəbrayıl | - 23 avqust 1993 | - 66 000 |
| Qubadlı | - 31 avqust 1993 | - 37 900 |
| Zəngilan | - 29 oktyabr 1993 | - 39 500 |

### *Təcavüzün qurbanları*

Qətlə yetirilib - 20 000  Əlil edilib - 50 000  İtkin düşüb - 4 866

### *Dağıdılanlar və dəymiş zərər*

| | |
|---|---|
| Yaşayış məntəqələri | - 890 |
| Evlər | - 150 000 |
| İctimai binalar | - 7 000 |
| Məktəblər | - 693 |
| Uşaq bağçaları | - 855 |
| Səhiyyə ocaqları | - 695 |
| Kitabxanalar | - 927 |
| Məbədlər | - 44 |
| Məscidlər | - 9 |
| Tarixi yerlər | - 9 |
| Tarixi abidələr və muzeylər | - 464 |
| Muzey eksponatları | - 40 000 |
| Sənaye və kənd təsərrüfatı müəssisələri | - 6 000 |
| Avtomobil yolları | - 800 km |
| Körpülər | - 160 |
| Su boru kəmərləri | - 2 300 km |
| Qaz kəmərləri | - 2 000 km |
| Elektrik xətləri | -15 000 km |
| Meşələr | - 280 000 hektar |
| Əkin sahələri | - 1 000 000 hektar |
| Suvarma sistemləri | - 1 200 km |

***Zərərin ümumi dəyəri 60 milyard ABŞ dollarına qədərdir***


memory of Srebrenica
victims from " Justice for Khojaly "






XOCALI SOYQIRIMI
KHOJALY GENOCIDE
VİRAN EDİLƏN
XOCALI YENİDƏN
DİRÇƏLƏCƏK!
XOCALI SOYQIRIMI
DÜNYA BİRLİYİ SUSUR,
TARİX SUSMAYACAQ!
XOCALI SOYQIRIMI
DÜNYA BİRLİYİ SUSUR,
TARİX SUSMAYACAQ!
XOCALI, SREBRENİTSA
RUANDA...
SOYQIRIMA SON






YENİ AZƏRBAYCAN PARTİYASININ BİRGƏ TƏŞKİLATÇILIĞI İLƏ
SİYASİ-HÜQUQİ QİYMƏTLƏNDİRMƏDƏ BEYNƏLXALQ
ADLI BEYNƏLXALQ KONFRANS
RENCE CALLED "JUSTICE FOR KHOJALY: INTERNATIONAL COOPERATION
POLITICAL AND LEGAL ASSESSMENT" ORGANIZED JOINTLY BY THE EXECUTIVE
DISTRICT AND THE NEW AZERBAIJAN PARTY
ЕРЕНЦИЯ "КАМПАНИЯ" СПРАВЕДЛИВОСТЬ К ХОДЖАЛЫ" : МЕЖДУНАРОДНОЕ
ЛИДАРНОСТЬ В ПОЛИТИКО-ПРАВОВОЙ ОЦЕНКЕ", ОРГАНИЗОВАННАЯ
ЕЛЬНОЙ ВЛАСТЬЮ КАРАДАГСКОГО РАЙОНА И ПАРТИЕЙ "НОВЫЙ АЗЕРБАЙДЖАН"


QARADAĞ RAYONU


BEYNƏLXALQ DİASPOR MƏRKƏZİ
TERROR


XOCAL
QARADAĞ RAYON İCRA HAKİMİYYƏTİ VƏ YENİ AZƏRBAYCAN PARTİYAS
“XOCALIYA ƏDALƏT” KAMPANİYASI: SİYASİ-HÜQUQİ QİYMƏTLƏN
ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK ADLI BEYNƏLXALQ KONFRANS
INTERNATIONAL CONFERENCE CALLED “JUSTICE FOR KHOJAL
AND SOLIDARITY IN THE POLITICA
POWER OF GARADAGH DISTRICT
МЕЖДУНАРОДНАЯ КОНФЕРЕНЦИЯ “КАМПАНИ
СОТРУДНИЧЕСТВО И СОЛИДАРНОСТЬ В ПОЛИТ
СОВМЕСТНО ИСПОЛНИТЕЛЬНОЙ




XOCALI
QARADAĞ RAYON İCRA HAKİMİYYƏTİ VƏ YENİ AZƏ
RTİYASININ BİRGƏ TƏŞKİLATÇIĞI İLƏ
"XOCALIYA ƏDALƏT" KAMPANİYASI:
MƏDƏ BEYNƏLXALQ
ƏMƏKDAŞLIQ VƏ HƏMRƏYLİK ADLI
INTERNATIONAL CONFERENCE CALLED
NAL COOPERATION
DINTLY BY THE EXECUT
: МЕЖДУНАРОДНО
АНИЗОВАННАЯ
"НОВЫЙ АЗЕРБАЙД



## Erməni terrorçularının təlim düşərgələri




Erməni Missionerlər Assosiasiyası Xocalı zonasında işləməkdən imtina etdi (1998.X.03). Mərkəzi Kaliforniyada olan bu assosiasiyanın dörd nəfərlik "Kilsələrə Təlimat" qrupu 1999-cu ilin fevral ayından missionerlər hazırlayan baza yaratmaq üçün ayırdığı maliyyə vəsaitini Xankəndinə köçürdülər.

Erməni Katolik Kilsəsinin altı nəfərlik qrupu bu ərazidə heç bir kimyəvi silahlardan istifadə olunmaması haqqında BMT-yə məlumat verdi (1996.XI.21). Amma həmin ərəfədə DQ-da qrupun tərkibində olan hüquqşünas Sartik (Spartak) Qalabaşyan "Sibir xorası"ndan öldü.

# İŞĞAL OLUNMUŞ AZƏRBAYCAN ƏRAZİLƏRİNDƏ ERMƏNİ SEPARATÇILARININ QOŞUN KONTİNGENTİ



# Ermәni terrorçularının tәlim düşәrgәlәri, dağıdılmış müsәlman qәbiristanlıqları vә nüvә tullantıları zonaları




1. Qәbirstanlıq dağıdıldı. Әrazinin cәnub-qәrb hissәsindә, mәrkәzdәn tәqribәn beş yüz metr aralı "Evkrapa"çıların ölüm düşәrgәsi. Hәr ikinci gün (bir ay) adamların güllәlәnmәsi nümayiş etdirilirdi.
2. Qәbirstanlıq dağıdıldı. "ASALA"nın "Konjan-2" qrupu әrazinin şәrq hissәsindә azәri әsirlәrinin qanından ibarәt "Türk gölü" deyilәn göl düzәltdi. Bu kiçik qan gölmәçәsi videolentlәrә köçürülüb dünyaya yayıldı.
3. Qәbirstanlıq dağıdıldı. Әrazinin qәrb hissәsindә "Feliks"çilәr qrupu on altı nәfәr әsir düşmüş 11-12 yaşlı qızları güllәdәn keçirib qırdılar.
4. Qәbirstanlıq dağıdıldı. Ermәnilәrin "Qara bant"çılar qrupu yaşayış әrazilәrinin cәnub hissәsindә hәr şәnbә günü (bir ay) altı әsir azәrbaycanlı üçün "Hind tonqalları" qurdular, adamları yandırdılar.
5. Qәbirstanlıq dağıdıldı. "ASALA"nın "Acayan" qrupu (5 nәfәrlik qrup) әrazinin cәnub-qәrb hissәsindә altı әsir azәrbaycanlının başını kәsdilәr. Sonra Fransanın "Marsel" TV kanalının nümayiş etdirdiyi kimi yandırdılar.
6. Qәbirstanlıq dağıdıldı. Әrazinin şәrq hissәsindә "Topuzyan"çılar qrupu atasız, anasız qalmış qız uşaqlarını güllәlәdilәr. Oğlan uşaqlarını isә Yerevana, oradan da "Haydad"ın Livan bürosuna göndәrdilәr.

P.S. İşarә olunmuş әrazilәr videolentlәrә köçürülәrәk, ermәni diasporlarına mәxsus özәl telekanallarda (Marseldә, Parisdә, Keindә, Kaliforniyada, Tehranda, Londonda, Madriddә, Livanda, Suriyada) nümayiş etdirildi.



## İşğal olunmuş ərazilərdəki "Ölü zona"lar



## Erməni terrorçularının təlim düşərgələri. Vertolyot faciəsi



## Ermənistan hərbi hissələri tərəfindən işğal olunmuş ərazilərdəki narkotik əkin sahələri (Kəlbəcər regionu)



## Ermənistan hərbi hissələri tərəfindən işğal olunmuş ərazilərdəki narkotik əkin sahələri (Laçın regionu)



# ERMƏNİSTAN ƏRAZİSİNDƏ HƏRBİ SEPERATÇI VƏ TERRORÇU QRUPLAŞMALAR



# ERMƏNİ SEPARATÇILARI "XOCALIYA ƏDALƏT!"DƏN NİYƏ QORXUYA DÜŞÜBLƏR?

Ermənistanın Artaşest yaşayış məntəqəsində ermənilərin yeni sırf gənclərdən ibarət «Çeqakron» antitürk qrupunun yuvası, artıq, qurulub.

Bu təşkilat Ermənistanda qeydiyyatdan keçməyən qeyri-leqal təşkilatdır. Heç bir beynəlxalq hüquq normalarına sığmayan bu təşkilatın məramnaməsində deyilir: «...Sizi (yəni erməni gənclərini – ***V.S.,R.V.***) vuruşa çağırırıq. Hələ alınmayan qalalarımız, torpaqlarımız var. Alınmayan torpaq bizim deyil. Dini savaşa hazır olun!...» (Bax: "Çeqakron" təşkilatının Kanada bürosunun dünyanın erməni gənclərinə müraciətindən. Müraciət 1999-cu ilin avqustun 22-də eyni adlı qəzetin 2-ci sayında nəşr edilib).

1998-ci ildə əsası qoyulan (bünövrəsi Vaşinqtonda qoyulub–**V.S., R.V.**) «Çeqakron» antiislam qrupunun ötən ilin mart ayında qızlardan ibarət qanadı da təşkil olundu: «...Onlar yaxşı güllə atır, mərmi qutularını daşıyır, mina-atanların sirlərinə bələd olur, sürücülük edirlər.» Bu sətirləri Livan jurnalisti Əbdül Saleh yazır. O, daha sonra qeyd edir: «Mən əlbəyaxa döyüşlərin qaydalarına oğlanlardan yaxşı riayət edən erməni qızlarını gördüm... Sonra mənə orada, sərhədin kənarında bir yeri nişan verib dedilər: «...Ora Sədərəkdir».

Sədərək Şərurun mərkəzindən 27 kilometr Şimal-Qərb istiqamətində Sədərək düzündədir. Sədərək düzü Arazboyu düzənliklərdən biridir. Cənub-Şərqdə Vəlidağ və Dəhnə yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Şimal-Qərbdə isə Ararat (Ermənistan) düzü ilə birləşir.

1997-ci ilin aprelin 26-da Almaniyada Azərbaycanı öyrənən bir qrupun qeydlərində Sədərək camaatı şotlandlarla müqayisə edilərək, göstərilirdi: «...Azərbaycanda comərd yerlər çoxdur. Sədərək (o Naxçıvandadır) həmin yaşayış məntəqələrindən biridir. Burada insanları tez qızışdırmaq olar. Çünki onlar hissə daha tez qapılırlar...» (Bax: bu qeydlər "Azadlıq" və "Amerikanın səsi" radiolarında səsləndirilib. 1999-cu ilin sentyabrın 1 və 3 verilişi).

Sədərəkdə sərhəd zonasında yaradılmış «Çeqakron» antiislam dəstəsinə Xocavənd rayonunun «Amaras» kilsəsi yaxınlığında milis işçilərinə divan tutub, onları qətlə yetirən Harri Sarkisyanın yaxın qohumu, silahdaşı Vano Sarkisyan (ləqəbi «Beço»dur) başçılıq edir.

42 yaşlı Vano Sarkisyan 2 il Türkiyə və İran İslam Respublikasında yaşayıb. Erməni icmasının başçısı Vartan Vartanyanla dostluq əlaqəsi

saxlayıb. Yüksək hərbi təlim görüb, bir müddət Rusiya sərhəd dəstəsində (1989-cu il) kəşfiyyat bölməsində xidmət edib, oradan istefaya göndərilib. Sədərək barəsində xüsusi plan hazırlayan bu dəstənin Ermənistan MN-in xüsusi xidmət orqanları ilə iş planları da mövcuddur. Dəstədə MN üçün strateji əhəmiyyəti olan informasiyalar toplayan 6 nəfərlik «analitik qrup» da fəaliyyət göstərir. Bu qrupun öz mətbəəsi, çap avadanlığı var. Təqribən 1500 $m^2$ ərazidə salınmış təlim düşərgəsində isə dərslər aşağıdakı proqramla keçilir:

a) Silahlardan istifadə qaydaları;
b) Əlbəyaxa döyüş növləri;
c) Partlayıcı maddələrin hazırlanması və istifadəsi;
ç) Naxçıvanda strateji mərkəzlər.

Sədərək Naxçıvanın ən kövrək hissəsidir. Düşmən bu yaşayış mərkəzi üçün harın nəfsini heç vaxt gizlətmir. Kaliforniya ştatının (ABŞ) Beverli-Hils şəhərində «Armenia fond ink» şirkətinin Dağlıq Qarabağa yardım adıyla keçirdiyi marafondan topladıqları 2,3 milyon dolların 28 faizi məhz Sədərək istiqamətindəki təxribatlar üçün ayrılmışdı.

Bunu da xatırlayırıq ki, hələ 4 il bundan qabaq Rusiyadan alınan silahların, hərbi sursatın bir hissəsi Sədərək zolağına daşındı.

Rusiya Federasiyasının ordu generalı Mixail Kolesnikov 13/3/0220 saylı şifroteleqramında yazırdı: «...Öz adımızdan Sizə, Ermənistan Müdafiə Nazirliyinə 55 ədəd «T-72» tankı verməyinizi əmr edirəm...» (Bax: Moskva MN-nin "Bülleteni". 1998, №4).

Həmin tanklardan 9-u hazırda Sədərək istiqamətinə «gətirilib», özünə yer tutub. «Çeqakron» həmin tanklardan istifadə qaydalarını öyrənir. Rus «müşavirləri» isə bu tankların atıcılıq qabiliyyətindən, uzaqvuran mərmisindən, sürətindən həvəslə söz açırlar. Sədərək istiqamətində qurulmuş təxribat yuvalarının hamısı bir nöqtədən idarə olunur. Ermənistan dövləti həmin təxribatçı dəstələri nə qeydə alır, nə də onları nəzərdən kənarda qoyur.

Sədərəyin şimal hissəsində yerləşdirilmiş «Araz» qrupu iki bölmədə (hər bölmədə 6 nəfər) hazırlıq keçir. Qrupa keçmiş DTK mayoru Alik Baqramoviç Gevorkov başçılıq edir. O, həm də «Seyran» adı ilə tanınır. Alik Gevorkovun əmisi vaxtılə Bakıda sərhəd dəstəsində, sonra Mərkəzi Aparatda işləyib.

«Seyranın məktəbi»ni Artaşanda az adam tanıyır. Çünki, qapalı olan bu məktəb həm də ciddi nəzarət altındadır.

Ermənilər Azərbaycana qarşı dini hücumlarını genişləndirmək məqsədi ilə bu məktəbdə çox təhlükəli missionerlər qrupu hazırlayırlar.

Sədərəkdə baş verən gündəlik hadisələr, psixoloji vəziyyət haqqında, Türkiyə ilə strateji və iqtisadi əlaqələr barədə informasiya toplanılır.

Onu da qeyd edək ki, 1998-ci ildən «Seyranın missioner məktəbi»ni bitirən cavanlardan bir neçəsi oxumaq üçün Rusiyanın kəşfiyyat mərkəzlərinə – Moskva ətrafındakı qısa kurslara göndərilir.

Ararat yaşayış məntəqəsində 1998-ci ilin oktyabr ayında özəyi qurulmuş «Sədərək» təxribat qrupu isə daha ciddi proqrama malikdir. 14 (əsas qüvvə) nəfərlik «Sədərək» təxribat mərkəzinə 1947-ci ildə Şuşada doğulmuş Alo Aramoviç Babayan adlı birisi başçılıq edir. O, vaxtilə Laçın rayonunda «Ermənistan müqavimət hərəkatı»na başçılıq edənlərdən biri idi. Alo Babayan Laçında, arxa cəbhədə xeyli cinayətlər törədib.

Onun «Sədərək» adlı vərəqəsində yazılır: «Laçına birinci biz girmişdik. Onda Laçında sakitlik idi. Adamlara tez qaynayıb-qarışdıq. Laçının ilk hərbi gücü, əsgərlərin döyüş qabiliyyəti, adamların həyəcan və təlatümü... haqqında topladığımız məlumatları mərkəz (Yerevan – ***V.S.,R.V.***) geniş istifadə edirdi. Laçında rahat yaşayırdıq. Tapşırılan işi rahat görür, əlaqələrimizi qururduq. Sədərəkdə də Laçın variantına əl atmaq daha yaxşı nəticələr verəcək...» (Bax: eyni mənbə, 1993-cü il, №17).

«Sədərək» qrupunun üzvləri Livandan, Fransadan, Suriyadan, İrandan, Rusiya və Amerikadan olan erməni icmasının nümayəndələrilə gizli görüşlər keçirirlər. Alo Babayanın «Laçından sonra Sədərək» adlı xatirələrini Fransada yaşayan ermənilər həvəslə çap edib yaydılar.

O yazır: «Bizimkilərdə (öz qrupunu nəzərdə tutur – ***V.S.,R.V.***) Naxçıvanı parçalamaq üçün, onu hissə-hissə iflic və məğlub etmək üçün hər cür imkan var. Sadəcə, əmr gözləyirik... Mən Sədərəyi qana bulanmış, dağılmış və parçalanmış, dilənçi kökündə görəcəyəm» (Bax: eyni mənbə, №21).

A.Babayanın başçılıq etdiyi təxribat dəstəsindəki «Sədərək müxalifəti ilə iş qrupu»nda 4 nəfər fəaliyyət göstərir. Bu adamlar vaxtilə Sədərəkdə yaşayıb işləmişlər.

«İqtisadi kəşfiyyat qrupu» isə bilavasitə Ermənistan Gömrük Komitəsi tərəfindən maliyyə yardımı alir və toplanmış iqtisadi informasiyalar, iqtisadi araşdırmaların nəticələri onlara ötürülür. Bu qrupa 1952-ci ildə Yerevanda anadan olmuş Armik Ağayaroviç Adamyan başçılıq edir. O, az müddət Ermənistan Təhlükəsizlik xidmətində işləyib. Sədərək istiqamətində

görüləcək təxribat planları, şübhəsiz, onun adı ilə bağlıdır. O, ötən ilin mart ayında Artsvanik kəndində əsir düşərgəsinə baş çəkmiş, azərbaycanlı əsirlər arasında erməni dilini mükəmməl bilən adamların siyahısını tərtib etmişdir. Xatırladaq ki, Artsvanikdəki əsir düşərgəsində cəza üsulları daha ağır və işgəncəlidir.

1999-cu ilin aprel ayından isə Armik Ağayaroviç Fransa ermənilərinin yardımı ilə qısa kurslar təşkil edir. Fransa xüsusi xidmət orqanlarının məxfi nümayəndələri bu kurslarda iştirak etmiş əsirlərdən «ən layiqli olanlarına» yaxşı həyat vəd edərək, özləri ilə aparmışlar. Bu işin arxasında gələcək üçün nələr planlaşdırıldığını anlamaq o qədər də çətin deyil.

Erməni təxribat mərkəzlərinin qarşılarına qoyduqları məqsədlərdən biri də narazı olan təbəqənin arasına yol tapmaq, onları indiki hakimiyyətə qarşı qaldırmaq, giley-güzarlı, iqtisadi vəziyyəti çətin olan şəxslərə nüfuz edib sarsıtmaq, yeri gələndə onlardan istifadə etmək kimi prinsipcə adi görünən, lakin dərin ictimai kökləri olan, faciələrə aparıb çıxara bilən məsələlərdir.

Şübhəsiz, Sədərək camaatını belə fitnələrlə sındırmaq, əzmək, fikirlərini dolaşıq salıb sarsıtmaq çətin məsələdir. Bu yolda sədərəklini həqiqi sədərəkli kimi möhkəm və bükülməz görməyi qarşılarına məqsəd qoyan, onları mənəvi aşınmalardan, inamsızlıqdan və imkansızlıqdan qoruyan Bakıdakı «Sədərək» cəmiyyəti az iş görmür. Amma nə etmək olar ki, düşmən məkrindən əl çəkmir. Son dərəcə ehtiyatlı olmaq lazımdır.

İndi Sədərək daha ağır bir qüvvə ilə üz-üzə dayanıb. Bu da sərhəd məntəqəsi zonasında ermənilərin yaratmağa səy etdikləri «Naxçıvan korpusu»dur. Şübhəsiz, belə bir korpusun yaranmasının ilk xeyir-duasını elə Ermənistan MN-in Baş Qərargahı verib...

Bu korpusdan əvvəl isə ermənilər özlərinin «Naxçıvan icması»nı təşkil etdilər. «Naxçıvan icması»nın «həmvətənlərə» müraciətində deyilir: «...Biz öz icmamızı yaratdıq. Vətənə, ata-baba ocağına dönmək üçün, sönmüş ocaqlarımızı, əcdadlarımızın soyumuş məzarlarını isitmək üçün, yenidən alovlandırmaq üçün «Naxçıvan» adlı bir icma yaratdıq! «Naxçıvan icması». Naxçıvan ermənilərinin ata-babalarının doğulduğu tarixi torpaqlarında yaşamaq haqqını bərpa etmək üçün də mübarizə aparacağıq. Biz dini sitayiş ocaqlarına sərbəst gedib-gələcəyik».

Bu icmanın beşiyi Yerevandır. İlk mahnısı da orada çalınıb. İcma üzvlərinin yaxasında bütöv Naxçıvanı əks etdirən döş nişanı var. «Naxçıvan» adlı qəzetin ilk nömrəsi də çapdan çıxıb (Bax: "Naxçıvan" qəzeti (Yerevan). 1998, II-V). İcmanın özünəməxsus bir Şurası da təşkil edilib. Ermənistanda

ictimai-siyasi xadim kimi tanınan Rafael Ambarsumyan Şuraya başçı seçilib. Akademik Lanser Aqolovyan, Lendriş Xurşudyan, Yuri Xocəmiryan, Sos Sərkisyan kimi tanınmış adamlar şuraya üzv olublar.

Bu icma onu da qeyd edir ki, onlar BMT-nin insan hüquqları Deklarasiyasına, qaçqınların, deportasiya edilən şəxslərin daimi yaşayış yerinə qaytarılması haqda beynəlxalq qurumların qəbul etdiyi sənədlərə uyğun Naxçıvan ermənilərinin haqlarını müdafiə etmək niyyətindədir.

«Naxçıvan icması» yarandığı gündən dövlət orqanları, o cümlədən xüsusi xidmət orqanları öz proqramlarında xüsusi dəyişiklik etdilər. Fevral ayında (2010-cu il) bu icmanın erməniləri müdafiə məqsədilə «Naxçıvan» adlı hərbi qanadı yarandı. Vaxtilə Hərbi Dəniz Donanmasında işləmiş (Pribaltika) polkovnik Ram Avanesoviç Kazaryan adlı birisi bu hərbi qanada başçılıq edir. Bura vaxtilə Əfqanıstanda, Qarabağda xidmət etmiş, hərbi hazırlıq keçmiş şəxslər daxil edilir. Bu «könüllü dəstə»lərə Sədərəyin şərq hissəsində onlar üçün təlim-məşq zonasının da yaradılması planlaşdırılır. Hərbi qanadın yeddi nəfərdən ibarət iki qrupu isə Rusiya, Fransa, İran erməni icmaları ilə ilkin əlaqələr yaratmaq üçün oraya müntəzəm ezam olunurlar.

2011-ci ildə isə icmanın «Vartan cəngavərləri» adlı bir qanadı da yarandı. Bu qanad öz iş prinsipini, əsasən, İslam dinindəki «Cihad» istiqamətində qurur. «Naxçıvan» hərbi qanadının üzvlərinin Rusiya xarici kəşfiyyat xidmətinin rəhbərlərilə məxfi görüşləri də maraq doğurmaya bilməz.

«Naxçıvan korpusu» ilk yardımı, artıq, Ermənistan MN-dən alır. Korpusun hərbi qüvvə kimi təşkilatlanması üçün birinci 10 müxtəlif zirehli maşın, 10 «T-72» tankdan ibarət iki bölmə, əlavə olaraq, radiotelefon avadanlığı verilmiş, avtomobil xidməti bölməsi xəritələrlə təmin edilmiş, tibb məntəqəsi yaradılmışdır.

«Naxçıvan korpusu»nun özünün əlavə olaraq «Azərbaycan müxalifəti qrupu» var. 8 nəfərdən ibarət bu qrupun üzvləri Azərbaycanın siyasi partiyalarında, cəmiyyət və təşkilatlarında siyasi-psixoloji vəziyyəti araşdırır, təhlil edir, məqsəd və məramlarını öyrənirlər. Korpusun üzvləri müxalifət dəstələrində özlərunə «yaxınlaşanlarla» ciddi maraqlanır və bu yolda yeni hərbi-siyasi planlar işləyirlər.

Bizcə, bütün bu hadisələrə tarixi baxımdan yenidən nəzər salmaq lazımdır. Hadisələr, Naxçıvan iddiası bir əsr bundan əvvəlki iddianın davamı

olaraq qalır. O vaxt Şərur, Dərələyəz, Zəngəzur, Naxçıvan bölgələrinə tamah salan erməni separatçıları bu gün də eyni ssenarini ortaya qoyublar.

1919-cu il noyabrın 23-də ABŞ diplomatiyasının səyilə Azərbaycanla Ermənistan arasında saziş imzalanır. Sazişi Azərbaycan tərəfdən hökumətin başçısı N.Yusifbəyli, Ermənistan tərəfdən Nazirlər Şurasının sədri A.Xatisyan, ABŞ nümayəndəsi C.Rey, Gürcüstan XİN E.Gegeçkori imzaladılar (b a x : Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivi. f. 970, siy. 1, iş 190, v.9).

Nəticədə, separatçı erməni dəstələri şərtləri pozaraq Zəngəzurun, Dərələyəz mahalının dinc müsəlman əhalisinə divan tutdu. Minlərlə dinc əhali «genosid maşını»ndan keçirildi. Ərazidəki 94 nəslin kökü tamam məhv edildi, güllələbaran olundu.

Fikirlərimiz aydın olsun deyə, bir az əvvələ qayıdaq.

Amerika hökuməti baş verən hadisələrdən istifadə edərək özünün bir sıra emissarları-müttəfiqlərin Ermənistana ali komissar təyin etdikləri polkovnik V.N.Haskel, onun Azərbaycan üzrə müvəkkili C.S.Rey, Bakıdakı vitse-konsul C.Randolf və başqaları vasitəsilə Naxçıvan bölgəsinə nüfuz etməyə girişdi.

Qafqazda nüfuz dairəsi qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən, Şimali Azərbaycanın, xüsusilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə, yəni onun vasitəsilə bir sıra ölkələrə çıxa bilmək imkanına əhəmiyyət verən, ermənilərin bu mahalı ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edən ABŞ müxtəlif vasitə və üsullarla bölgədə möhkəmlənməyə çalışıb. Buna görə də, 1919-cu ilin ikinci yarısında ingilislərin bölgədəki mövqelərinin zəifliyini görən Birləşmiş Ştatlar burada daha fəal siyasət yeritməyə başladı. Paris Sülh konfransında Dördlər Şurasının əlilə Qafqaz mandatına yiyələnməyə cəhd göstərən ABŞ-a bu dövrdə hələlik Ermənistan üzərində mandat təklif olunmuşdu.

Haskelin 1919-cu il sentyabrın 1-də Azərbaycan Nazirlər Şurasının sədrinə göndərdiyi məktub (Azərbaycan Mərkəzi Dövlət Yeni Tarix Arxivi, f. 970, siy. 1, iş 93,
v.3-4), 1919-cu il 27 sentyabr tarixli bəyanatı (MDYTA, f. 970, siy.1, iş 92, v.7) onun bölgəyə dair planının mahiyyətini açmağa imkan verir. 20 maddədən ibarət olan bu məktubda (onu Haskelin birinci layihəsi adlandırırlar) və 12 maddəlik bəyanatda (bu isə ikinci layihə hesab olunur) Naxçıvan və Şərur-Dərələyəz torpaqlarını əhatə edən bitərəf zona yaradılacağı, onun Haskelin təyin etdiyi Amerika qubernatoru tərəfindən

idarə ediləcəyi bildirilir, bölgənin həyatının müxtəlif sahələri ilə bağlı məsələlərə toxunulurdu (b a x : «...Tarixi keçmişimiz...». Bakı, «Azərnəşr», 1995, səh 228).

Naxçıvan mahalını Azərbaycandan qoparmağa çalışan Ermənistanın və bölgədəki əhalinin əksəriyyətini təşkil edən azərbaycanlıların Haskelin planına olan münasibətlərinin araşdırılması da olduqca mühüm məsələdir. Ermənistanın baş naziri Xatisyan Haskelə yazdığı 1919-cu il 23 oktyabr tarixli 279 nömrəli məktubda bildirirdi ki, strateji ərazidə erməni əhalisinin mövcudluğu, tarixi şərait və s. mülahizələrə görə Şərur-Naxçıvan bölgəsinin Qarabağdakı ingilis ali komandanlığı tərəfindən Ermənistanın idarəçiliyinə verilməsinə baxmayaraq, həmin rayonun müvəqqəti olaraq Amerika qubernatoru vasitəsilə idarə olunmasına razıdır. «Daşnaksütyun» partiyasının orqanı olan «Hayastan Aşxatavor» qəzeti isə Haskelin guya Azərbaycanın tələsinə düşdüyünü, onun təkliflərinin Ermənistanın mənafelərinə, ilk növbədə isə «ərazi bütövlüyünə» toxunduğunu yazırdı («Azərbaycan» qəzeti, 1 oktyabr 1919-cu il, № 209).

Diyarın azərbaycanlı əhalisi qətiyyətlə Haskelin planına qarşı çıxdı. 1919-cu il oktyabrın 1-də Rəhim xan Naxçıvanskinin mənzilində Səmədbəy Cəmillinskinin, Xəlilbəyin və Kəlbalı xan Naxçıvanskinin Haskelin nümayəndəsi general Robenzonla birgə müşavirəsi keçirildi. Müşavirədə Şərur və Naxçıvan ərazilərində Amerika general-qubernatorluğu yaradılması məsələsi müzakirə edildi, onun yekunu kimi 12 maddədən ibarət olan bir cavab yazılı surətdə Robenzona təqdim olundu («Azərbaycan» qəzeti, 14 noyabr 1919-cu il, № 246). Həmin sənəddə bölgənin Azərbaycanın ayrılmaz hissəsi olduğu, həmin rayonların ADR-in qurumları ilə azərbaycanlılar tərəfindən idarə edildiyi, bu torpaqların xalqın iradəsinə zidd olaraq kiminsə vasitəsilə ermənilərə verilməsinin qeyri-mümkünlüyü, Amerikanın burada öz general-qubernatorunu yox, sadəcə, nümayəndəsini saxlamağa razılıq və s. bildirilirdi.

Əvvəlcə şəraiti düzgün qiymətləndirə bilməyən C.Rey 1919-cu il oktyabrın 16-da Naxçıvan Müsəlman Milli Şurasına məktubunda bölgənin Müttəfiqlərin idarəçiliyində qaldığı və ABŞ ordusunun mühəndisi, polkovnik Edmond D.Dellinin oraya qubernator təyin olunduğunu bəyan etdi. Lakin oktyabrın 24-də Naxçıvana gələn və səhərisi gün yerli əhali ilə görüşən C.Rey xalqın güclü müqaviməti nəticəsində öz mövqeyini dəyişərək, Dellinin burada Amerikanın qubernatoru yox, nümayəndəsi kimi saxlandığını bildirdi. Bir az sonra Delli, onun ardınca isə 1920-ci ilin

yanvarında bütün amerikalı zabitlər Naxçıvanı tərk etdilər (MDYTA, f. 970, siy. 1, iş 65, v. 121).

Erməni separatçılarının Naxçıvan iddiaları isə səngimir. 2008-2010-cu illər ərzində Ermənistan Naxçıvanla bağlı tarixi saxtalaşdıraraq, 82 adda irili-xırdalı kitab buraxıb. Kitabların 26-sı məşhur, adı Quranda çəkilən Əshabi-Kəflə, 11-i Nuh gəmisilə bağlıdır. Onlar bu iddiada yenə də Londonu, Vaşinqtonu axtarıb tapıblar. Separatçılara belə qəyyumluğu isə kimliyindən asılı olmayaraq, heç kəs bağışlamır.

Araşdırmalarımıza görə, elektron poçtu kəşfiyyatın tərkib hissəsi olduğundan, ABŞ təhlükəsizlik xidməti bu istiqamətdə, ümumiyyətlə, internet şəbəkəsində ciddi rejimə keçdi. Çünki ölkədə baş verən terror aktlarının törədilməsində Harvard Universitetinin Strateji Araşdırmalar və Tədqiqatlar Mərkəzinin məlumatına görə, dünyanın münaqişəli zonalarında, o cümlədən işğal olunmuş və nəzarətsiz qalan Dağlıq Qarabağ ərazisində fəaliyyət göstərən şirkətlərin, demək olar ki, hamısı təbii sərvətlərin daşınması istiqamətində «Xüsusi Proqrama» malikdir.

Diplomat, Milli Təhlükəsizlik Agentliyinin analitiki cənab Styuart Beykerə görə, elektron poçtları və eləcə də onun büroları ciddi nəzarətə götürülməlidir. Çünki elektron poçtları ekoloji sahədə fəaliyyət göstərən terrorçuların fəaliyyət dairələrinin genişləndirilməsində, qaçaqmalçılıq, silah və narkobiznes məsələlərində... nüvə materiallarının çıxarılmasında və oğurlanmasında ən etibarlı mənbədir, daha dəqiq desək, «elektron xəritə»dir...

FTB (ABŞ) ölkənin əsasən strateji mərkəzində fəaliyyət dairələrini genişləndirən informasiya mərkəzinə və elektron poçtlarına nəzarət üçün «Garnivar» adlı kommunikasiya-nəzarət sisteminin tətbiqinə keçib.

Elektron poçtlarının büroları regionun və yaxud ərazinin strateji nöqtələrində yerləşdirilir.

2005-ci il dekabr ayının 13-də («İravunk» qəzeti, dekabr) Ermənistan MN-də elektron və telekommunikasiya məsələləri ilə bağlı yığıncaqda nazirliyin kəşfiyyat bölməsinin aparıcı zabit olan polkovnik Artur Ağabekyan Azərbaycan və Türkiyə istiqamətində qurulacaq kəşfiyyat kommunikasiya sistemindən geniş danışır və bu istiqamətdə amerikalılardan öyrənməyə çağırırdı. Bu mexanizm ərazilərimizin təbii sərvətlərinin daşınması və talanı üçün ən sərfəli iş metodu idi.

Bu həm də ermənilərə ciddi məsələnin bir neçə mərhələdə həyata keçirilməsi üçün şərait yaratdı. Kəşfiyyat polkovnikinin dediyinə görə, nazirlik elektron mərhələni iki hissədə başa çatdırmalıdır:

1. «DQR»-də (?) dini qurumları nəzarətə götürmək;
2. Xarici missionerlərin cəlb olunması;

Digər tərəfdən, Türkiyə və Azərbaycan, işğal olunmuş DQ sərhədlərində hərbi mövqelərini möhkəmləndirən beşinci ordu korpusu komandanı, polkovnik Aykaz Bəhmənyana, birinci ordu korpusu komandanı, polkovnik Levon Eronosyana, ikinci ordu korpusu komandanı, polkovnik Seyran Saroyana təbii sərvətlərlə bağlı strateji informasiyaların toplanmasında və işlənməsində komandanlığın tərkibindəki elektron poçtlarının şəbəkəsinin genişləndirilməsi işi tapşırılır. Azərbaycan və Türkiyə istiqamətində qurulan elektron mərkəzlərinə də nəzarəti bilavasitə müdafiə naziri, general (Ermənistanın hazırki Prezidenti- **V.S., R.V.**) Serj Sarkisyan edir. Həmçinin, bu məqsədlə, yəni elektron kəşfiyyat məsələlərinə dərindən bələd olmaq üçün bu ilin aprel-may aylarında Yerevandan və Xankəndindən ayrılmış 56 nəfərlik zabit qrupu RF-ə, Çin Xalq Respublikasına, İrana, Livan və Suriyaya gedib (?). İyun ayının 19-da (2011-ci il) isə Amerika Erməni Demokratik Şurası (Armenian-American Democratic Leadersin Counsil) tərəfindən (M.Axdesyanın qrupu) Dağlıq Qarabağın «özünümüdafiə dəstələrinə» (?) 30 adda müxtəlif kompüter və elektron avadanlığı «hədiyyə» edilib (?). Səkkiz nəfərlik mühəndis qrupu Ermənistanın Türkiyə və Azərbaycan sərhədləri istiqamətində həmin elektron avadanlıqlarının quraşdırılmasında iştirak ediblər.

***Maraqlı faktlardan biri də budur ki, hələ 2010-cu il sentyabr ayının 23-də Ermənistanda olan Roma Papası II İohan da qondarma DQ respublikasının başçısı Arkadiy Qukasyana da ordunun internet şəbəkəsindən geniş istifadəsini, eləcə də dünyadakı erməni diasporları arasında qurulacaq elektron poçtlarının genişləndirilməsini tövsiyə edir. Bu barədə geniş şərh verən «Osservatore Romano» («I Osservatore Romano») qəzeti 2003-cü il sentyabr ayının 28-də nəşr etdiyi nömrəsində yazır: «...Roma Papası II İohan Ermənistanın Türkiyə ilə həmsərhəd rayonu ərazisindəki Xor-Viran monastırına getdi... və çıxışında bildirdi: «Vatikan hökmən islama qarşı erməni Qriqorian kilsəsi ilə bütün əlaqələri genişləndirməli və möhkəmləndirməlidir».***

***Sonra Vatikanda erməni səfiri olan Eduard Nalbandyan Dağlıq Qarabağda – Şuşada və Xocalıda aparılan vuruşmalardan bəhs edən yeni kitabları Papaya hədiyyə verdi... (?).***

***Məlumata görə, Roma Papası ermənilərə tövsiyə edib ki, Bakıdakı Dini Qurumlar Üzrə Dövlət Komitəsini həmişə nəzarətdə saxlasınlar. Çünki bu Komitə regionda ən ciddi islami dəyərlər məsələsini qaldıra biləcək gücə malik bir komitədir.***

Ermənistanın Azərbaycan istiqamətində planlaşdırdığı «islama qarşı hücumu»nda «Qütblərdə strateji məntəqələrin müəyyənləşdirilməsi və həmin dairələrdə elektron poçtların – büroların yaradılması» məsələsi əsas təşkil edir. Bu məqsədin planlı və ardıcıl surətdə həyata keçirilməsi üçün erməni kəşfiyyatı təkcə «daxili resurs»larla deyil, eləcə də xaricdəki erməni diaspor mərkəzləri ilə də əlaqələrini genişləndirirlər.

Məsələn, Fransa, Suriya, Yerevan və Xankəndində güclü əlaqələri olan, Tehranda (İran) kök salmış «Akopyan» erməni firmasının nəzdindəki internet şəbəkəsinin elektron poçt və rabitə-kommunikasiya mərkəzinin Təbrizdə, Ərdəbildə, Culfada, Biləsuvar və Parsabadda quraşdırılmış bürolarını araşdıraq. Bilavasitə İrandakı erməni diasporu ilə əməkdaşlıq edən və dünyada geniş anti-islam hərəkatına qoşulan «Akopyan» firmasının lazımi texniki imkanlara malik olması və bu imkanların Azərbaycan istiqamətində yönəlməsi, araşdırılması vacib olan məsələ kimi diqqətdən yayınmamalıdır. Həmçinin, bu bürolarda qurulan və Azərbaycanın sərhədləri istiqamətində «start» götürən güclü «Armenia» ötürücüləri, elektron poçtları Astara-Lənkəran, Biləsuvar-İmişli bölgələrini asanlıqla əhatə edir. Dağıstan ərazisində fəaliyyət göstərən və, eləcə də, öz emissar müxbirlərini «Araz» erməni cəmiyyətində(Mahaçqala,Şamil küçəsi,14) təlimatlandırıb şimal rayonlarına – Şəki, Zaqatala, Balakən, Qusar... ərazilərinə istiqamətləndirən ermənilər, elektron poçtlarının bir qismini ayrı-ayrı şirkət və firmaların (neft şirkətləri həmçinin), insan hüquqlarının müdafiəsini «təmin edən» cəmiyyətlərin, beynəlxalq xeyriyyə təşkilatlarının, KİV-in nəzdində asanlıqla qura bilirlər.

***Ermənilərin kəşfiyyat prinsipləri əsasında qurduqları «Azərbaycan ərazisindəki elektron poçtları»nın vəzifələrindən biri də, əsasən, müxalifət mətbuatı vasitəsilə böhtan, tələb və təkid məzmunlu məktubların, xəbər və məlumatların göndərilməsidir.***

Məlumata görə, Xankəndində separatçı Tano Saakyanın yanında keçirilən hərbi müşavirədə (2011-ci il, VII-9, saat 18.00-da) Kaliforniya ştatının (ABŞ) keçmiş qubernatoru Edvard Ceresyanın məktubu oxunur. Milyonçu erməni Edvard Ceresyana görə, Kaliforniyada erməni diasporunun müstəqil «Artsax» (Xankəndi) bölməsi yaradılıb və bu bölmənin də fəaliyyəti Xankəndinin ordu quruculuğuna yardımlardan ibarət olacaq (?).

Ermənistan avqust ayının 2-də (2011-ci il) RF-nin FTX-nin nəzarətində olan «Qafqaz» informasiya blokuna qoşulmaq üçün müraciət edib. Avqust ayının 4-də isə (2011-ci il) Xankəndindən də eyni ünvana belə bir müraciət daxil olub. Rusiya Federasiyasının Təhlükəsizlik Şurasında müzakirəyə çıxarılmış və qəbul olunmuş (2001,IV.19) «İnformasiya Təhlükəsizliyi Konsepsiyası»ndan sonra onun xüsusi xidmət orqanlarında güclü texnoloji proqram təminatı sistemi yaradılıb. Hansı ki, bunun vasitəsilə ayrılmış kanalla «provayder»ə çıxış mümkündür.

***Müstəqil Azərbaycana və onun ərazi bütövlüyünə qarşı erməni qadın terrorçuları da bu məsələdə aktiv fəaliyyət göstərirlər.***

***İnsanın psixoloji cəhətdən parçalanmasına, şikəst hala salınmasına xidmət edən bu «mənəvi ekoloji proqram»ın kökü var. Bədnam yazıçı S.A.Aloyan öz xələflərinə bunu da məsləhət bilir ki, "...imkan düşdükcə türkü, xüsusən, onun azərbaycanlı qanadını vurub, sındırın. Onları ifşa edin. Onlara qarşı üsyan edin. Hər bir azərbaycanlıya qarşı vuruşmamız «Dövlət Proqramı çərçivəsində aparılmalıdır»*** (Bax: eyni adlı kitab və çıxış. 1988, V-12, səh. 76).

Məlumata görə, bundan sonra yazıçının bu tezislərini həyata keçirmək üçün, professor S.A.Akopyanın səkkiz nəfərlik ekoloji kəşfiyyat qrupu yaradıldı. Qrupa respublikanın tanınmış simaları daxil oldu.

1994-cü il fevralın 16-da Yerevanda keçirilən Təhlükəsizlik Şurasının iclasında milli maraqlar naminə hazırlanmış bu sənədə yeni əlavələr edildi. Baş Qərargahı Yerevanda yerləşən «Milli Azadlıq Hərəkatı»nın liderlərindən olan Q.Şahnazaryan və Q.Markarov(yan) həmin sənədi yeni bir adla çap etdirib yaydılar. 1500 tirajla çap olunmuş bu kitabça belə adlandırıldı: «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı»» (bax: Yerevan. Q.Markarov. «Ekologiya», 1994).

Araşdırmalarımıza görə, hələ 1994-cü il mayın 21-də Parisin məşhur «Kontinental» otelində akademik A.Aqanbekyanın başçılığı ilə «Azərbaycan millətinə qarşı erməni millətinin «Ekoloji proqramı» kitabı çap olundu (bax: Yerevan. Q.Markarov. «Ekologiya», 1994) Akademik-iqtisadçının

əlavələrindən sonra bu kitab yenidən çap olundu (beləliklə, Azərbaycana qarşı ekoloji bir hücumun başlanğıcı qoyuldu).

***Mahiyyəti məxfi saxlanılan «Azərbaycana qarşı ekoloji proqram»da, əsasən, üç məsələ formalaşmışdı:***

***1. Azərbaycan ərazisində kişilərin sinir sisteminə təsir edən, onu iflic vəziyyətinə qoyan preparatların yayılması;***

***2. Xüsusilə, Azərbaycanın orta və ali təhsil sistemində təhsil alan qızların və anaların arasında əməliyyatların keçirilməsi;***

***3. Azərbaycanda artımın kütləvi azalması istiqamətində işlərin qurulması*** (Bax: Yenə həmin mənbə, səh. 76).

Əldə etdiyimiz məlumata görə, Azərbaycanın mənəvi saflığına, zəngin təbiətinə qarşı yönəlmiş bu proqram kortəbii proqram deyildi. Artıq bu proqramın reallaşması üçün Yerevan özünün «Vətən» cəmiyyəti xətti vasitəsilə dünyada məşhurlaşan icmalarına da müraciət etmişdi və bu müraciətlərdə «Azərbaycan» sözü ilkin variantda çıxarılmışdı. Nəticədə Yerevan «Ermənistanın ekoloji fəlakəti»lə bağlı müraciətlərinə Fransada, Kaliforniyada, Londonda, Livan və Suriyada, İran və İraqda... yaşayan ermənilərdən ilkin yardım alırdı. Məsələn, Marseldə yaşayan iş adamları, milliyyətcə erməni olan Qustav Bablumyan Robert Safaryanla birgə 102 min dolların yardım «Çeki»ni Yerevana göndərirlər.

Məlumata görə, 1995-ci ilin son aylarında (oktyabr, noyabr) ilkin olaraq, Dağlıq Qarabağ istiqamətində start götürən üç kiçik laboratoriya istifadəyə verildi. Araşdırmalarımıza görə, bu laboratoriyalardan biri (DK-3) bilavasitə «pestisid» kimyəvi məhsullarının araşdırılması, laboratoriya şəraitindəki ilkin nəticələri ilə maraqlanırdı. (Tehran 1992-ci ilin may ayında Pekindən 500 kiloqram «pestisid» məhsulu alıb. 1992-ci il may ayının 26-da isə Yerevan Tehrandan təcrübə üçün 150 kiloqram «pestisid» alır. Müxtəlif zəhərli materialların və preparatların, qazların alınmasında bu materialdan geniş istifadə olunur). 1995-ci il iyunun 19-da hərbi həkim, Gorusdakı kiçik elmi-tədqiqat mərkəzinin direktoru, professor K.Fazilyan ölkə başçısının adına məktubla rəsmi müraciət edir. Məktuba görə, ərazidə artıq öyrənilməsi müşkül olan xəstəliklərin sindromları yaranıb. Məsələn, hamilə qadınlar arasında yayılmış vərəmin Azərbaycanda, onun işğal edilmiş ərazilərində yeni formaları, sindromları yarandı. Məlumata görə, təkcə Füzuli, Cəbrayıl rayonu ərazilərində vərəmin dörd növü aşkarlanıb. İlk təcrübələr isə əsir götürülmüş azərbaycanlı qadınlar üzərində aparıldı. Hər şey ölçülüb-biçildiyindən, erməni alimləri ciddi nəticələr əldə edirdilər. Gorusdakı

kimyəvi batalyonun bir qismi işğal olunmuş Cəbrayıl rayonu ərazisinə köçürüldü. Məqsəd, bu zonadan Ağcabədi, Beyləqan istiqamətində «Ekoloji müharibə»nin ilkin planlarını, artıq, reallaşdırmaq idi. Araşdırmalarımıza görə, 2010-cu il avqustun 9-da Ermənistan Səhiyyə Nazirliyi regiondakı sağalmaz xəstəliklərə tutulmuş şəxslərin taleyi ilə bağlı yeni layihə irəli sürür. Ərazidən vərəmə tutulmuş xəstələrin bir qisminin (təxminən 150 ağır xəstə) Dağlıq Qarabağ ərazisinin cənub-şərq hissəsinə köçürülməsi məsələsi irəli sürülür. Nəticədə, «Şəfa» layihəsinə əsasən, sentyabrın 14-də (2010-cu il) işğal olunmuş Güneyxırman yaşayış məntəqəsindəki ikimərtəbəli xəstəxanaya 115 nəfər vərəmə tutulmuş xəstə göndərilir. Yer çatışmazlığından xəstələr əlavə yarımçıq tikililərdə yerləşdirilir. Əraziyə işləmək üçün İran İslam Respublikasından həkim-mütəxəssis qrupu da göndərilir. Məlumata görə, Yerevanda işlənmiş bu layihəyə, əsasən, regionda «SPİD» (QİÇS) xəstəliyinə tutulmuş şəxslərin də Ağdamın Əlimədətli yaşayış ərazisinə göndərilməsi planlaşdırılır. Artıq, bu bəlaya tutulmuş 25 erməni qadın əraziyə göndərilib. Digər bir məlumatda deyilir ki, ərazidə, artıq, vərəmdən ölənlər üçün qəbiristanlıq sahəsi də ayrılıb. Məlumata görə, 2005-ci il sentyabrın 30-da Yerevanda səhiyyənin problemlərilə əlaqədar keçirilən müşavirəyə dəvət edilən, Xankəndindəki «səhiyyə problemlərilə bağlı layihələr hazırlayan» qeyri-dövlət qurumunun eksperti, həkim-professor Ararat Yekunyan çıxışında xatırladır: «...Zonaya göndərilmiş xəstələrin taleyi qaranlıqdır. Artsaxın elə bir maliyyə imkanı yoxdur. Ölüm halları artır. Xocavəndin cənubu ölüm zonası kimi diqqəti cəlb edir...» («Artsax» (Xankəndi) telekanalı. 2010, X-9).

Ermənistan hərbi-kəşfiyyat xidmətinin bölmə və şöbələrində regionun ekoloji vəziyyəti nəzarətə götürüldü. Təhlükəsizlik xidmətinin kapitanı Albert Baqdasaryanın səyilə «Dairə» adlı ekoloji kəşfiyyat layihəsi işlənildi. Əslində, Yerevanın Azərbaycanın ekoloji vəziyyətinə yönəlmiş «Dairə» planı kimyaçı-alim Karapet Kazakyanın adı ilə bağlıdır. Təhlükəsizlik xidmətinin kapitanı bir tərəfdən yeni planlar cızır, digər tərəfdən də ekoloji terrorçuların hazırlanması məsələsini irəli sürürdü.

Məlumata görə, kimyaçı-alim Karapet Kazakyan 1981-ciilədək ABŞ-da yaşayıb. Kimyaçı-alim ilk illərdə Yerevandakı «Nairi» kauçuk sənaye mərkəzində işləyib. AES-lə bağlı xüsusi tədqiqatlar aparıb. Lakin Dağlıq Qarabağın işğalından sonra K.Kazakyan iş prinsiplərini dəyişdi. Tam başqa bir istiqamətdə işləməyi üstün tutdu. İlk dəfə Ermənistan ərazisindəki zəhər «seli»ni Azərbaycan istiqamətinə yönəldən proqram və rəsmi sənəd də onun

adı ilə bağlıdır. Yəni «Dairə» layihəsinin müəllifi də odur. İşğal olunmuş ərazilərdə erməni alimlərinin təcrübə-sınaq otaqları (Laçın, Qubadlı, Kəlbəcər ərazilərində) yaradıldı. Aparılan elmi-tədqiqatların bir qolunu Azərbaycan ərazisində sərhəd kəndlərinin kütləvi zəhərlənməsi təşkil edirdi. Ermənistan hərbi kəşfiyyatında sirr kimi saxlanılan «ERRİ-BAL» adlı zəhərli maddənin bir qisminin kimyəvi silah kimi işlədilməsi qərara alındı. Bu kimyəvi silah toz halında olaraq, xüsusi elektron qurğuları vasitəsilə Dağlıq Qarabağ ərazisindən, eləcə də, Naxçıvana yaxın olan yaşayış məntəqələrindən Azərbaycan istiqamətinə ötürülür. İlkin araşdırmalara görə, təbiətə və insana güclü təsir edən, bir sıra xəstəliklərin yaranmasına səbəb olan bu kimyəvi silahın təsir dairəsi 5 km məsafədən 75 km məsafəyədək ərazini tutur. Ermənistanın bu istiqamətdə apardığı elmi işlərin nəticəsi məxfi olaraq qalır. Yerevanda çap olunan «Lider» – səhiyyə bülleteninin 2011-ci ilin 6-cı sayında belə bir qeyd var: «...Ermənistan özünün hərbi-potensial gücünü qoruyub saxlamaq, onu artırmaq üçün xeyli iş görür. Məsələn, ilkin olaraq nəzərdə tutulan ərazi bölməsində, tutaq ki, Beyləqan-Ağcabədi ərazisində keçirilən sınaq təcrübəsindən sonra ciddi nəticələr əldə etdik...»

Kəşfiyyat polkovniki Sart Alekseyeviç Kasparyanın imzaladığı bu sənəddə nəticələr açıqlanmır. Sənəddə adları qeyd olunan rayonlardakı ekoloji və mənəvi-psixoloji vəziyyətə nəzər saldıqca, mənzərələr aydınlaşır və məlum olur ki, erməni alimlərinin Beyləqan-Ağcabədi istiqamətində keçirdikləri sınaq təcrübələri nəticəsində Beyləqan rayonunun sərhədə yaxın kəndlərində (Qəhrəmanlı və Şahsevəndə) uşaq ölümü ötən il 3,5 dəfə artıb. Hər beş hamilə qadından biri uşağı ilə vəfat edib. Eləcə də, Ağcabədi rayonunun ərazisində (Arazbarı və Kürdlər kəndi) bu məsələnin nəticələri bizi düşündürməyə bilmir.

Araşdırmalarımıza görə, Fransa dövləti də Korsika inzibati ərazisində baş verən separatçılıqdan əziyyət çəkir. Korsika ayrılıb müstəqil yaşamaq istəyir. Yəni Müstəqil Fransanı parçalamaq siyasəti yürüdülür. Nəticədə, prezident Jak Şirak hadisələrə münasibətini, sərt mövqeyini izah edir: «...Aydın və açıq bildirirəm. Respublika vahid əraziyə malik olaraq qalacaq. Onu heç kəs, heç bir dəstə, qrup bölüb-parçalaya bilməz. Qanunlar hamı üçün eynidir. Separatçılar öz iyrənc və faciələrə aparan ambisiyalarına son qoysunlar...» (bax: «Liberasion». Paris. 2010, IX.21).

Bütün bu fakt və sənədləri göstərməkdə, xatırlamaqda məqsədimiz var – «Demokratik cəmiyyət» yaratmaq tələbi, arzusu, istəyi ilə canfəşanlıq edən

bəzi beynəlxalq qurumlar, dövlətlər Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmalı, Dağlıq Qarabağda törədilmiş genosid siyasətini, ekoloji fəlakətləri, dağıdılmış, hərrac edilmiş, maddi, mənəvi, mədəni, təbii sərvətləri, viranə qalmış meşə zolaqlarını, «ölü zona»ya çevrilmiş torpaq və əkin sahələrini «Beynəlxalq genosid» siyasətinin bir hissəsi kimi qəbul etməlidirlər. Hamı hər şeyi görür, bilir və dərk edir. Artıq xalqları, millətləri, dövlətləri hansısa maraqlara görə növlərə bölməklə Beynəlxalq Hüquqi, əxlaqi normalara sığmayan ikili standart siyasət yürüdülməsinə son qoyulmalıdır!

# XOCALIDA ÖLDÜRÜLƏN DİN XADİMLƏRİ HAQQINDA ATƏT-ə MƏKTUB

1994-cü ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə(ATƏM) tarixində mühüm bir hadisə baş verdi. Belə ki, bu dövrə qədər əsas vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM, 1994-cü il dekabrın 6-da, artıq, bütün sahələrdə əməkdaşlığı əhatə edən, sülh, təhlükəsizlik və sivil birgəyaşayış qaydalarını qoruyacaq bir təşkilata – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına çevrildi. Bu hadisə 1994-cü il 5-6 dekabrda ATƏM-in Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən sammitində baş verdi.

ATƏM-in Budapeşt sammitində ümummilli liderimiz Heydər Əliyev də iştirak etmişdir. Sammitdə həmçinin Dağlıq Qarabağ problemi ilk dəfə olaraq xüsusi bir məsələ kimi gündəliyə salınaraq, müzakirə edilmiş və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qətnaməsi qəbul olunmuşdu.

Qətnamə müzakirə edilərkən ümummilli liderimiz Heydər Əliyevin irəli sürdüyü ciddi bir təklif də var idi. Bu da insanların dini və başqa mənəvi duyğularına hörmət və ehtiram etmək idi. Dağlıq Qarabağ ərazisində erməni separatçılarının ərazidəki müsəlman din xadimlərinə, ziyarətgahlara etdikləri insanlıqdan kənar işləri, günahsız güllələnənlər, əli Quranlı insanlara qurulan dar ağacları, məscidlərin yandırılması məsələləri ciddi məsələ kimi həll olunmamış qalırdı. Erməni mətbuatı iddia edirdi ki, müharibə dinlərarası müharibənin başlanğıcıdır. H.Əliyev isə beynəlxalq miqyasda təkzibolunmaz fakt və sənədləri, artıq, ortaya qoymuşdu. Dünya mətbuatı səhifələrində Dağlıq Qarabağ ərazilərində erməni muzdlu dəstələrin çevirdikləri, viran qoyduqları müsəlman qəbiristanlıqlarını, yandırılmış ziyarətgahları əks etdirən fotoşəkillər dərc edilirdi. Həmin ərəfədə Moskvada (RF) nəşr olunan «Utro» qəzeti Xankəndində vuruşan Bəhreyndən gəlmiş "Karmatlar dəstəsi"nin öldürülmüş üzvlərini nişan verərək yazırdı: «...Karmatlar islam dininə, müqəddəs Qurana, müsəlmanlara, məscidlərə... qarşı vuruşmaq üçün Dağlıq Qarabağa gəlmişdilər. Onlar erməni kilsələri tərəfindən

maliyyələşdirilmiş muzdlular idi... Siz minaya düşən və bir daha dirilməsi mümkün olmayan Karmat muzdlusunu görürsünüz...».

Bununla yanaşı, sammitdə qəbul olunmuş «Yeni Əsrdə Əsl Tərəfdaşlığa Doğru» bəyannamə və terrorizm probleminə aid müvafiq qərarlar qəbul olunmuş və prezident H.Əliyev tərəfindən də imzalanmşdır.

ATƏT bütün fakt və sənədlərə tab gətirə bilmirdi. Azərbaycan tərəfi bir daha təsdiq edirdi ki, Bakı bütün konvensiyalara əməl edir. Onun torpaqları separatçı ermənilərdən təmizlənməlidir.

Nəticədə növbəti sammit Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirildi. Sammitdə Avropanın 52 dövlətinin, ABŞ və Kanadanın, həmçinin müşahidəçi qismində Asiya və Afrikanın bir neçə dövlət başçısı iştirak edirdi. Sammitdə beynəlxalq, regional və dövlətlərarası münasibətlərin gələcək perspektivləri, Avropada sivilizasiyalı birgəyaşayış və qarşılıqlı təhlükəsizliyin əsas tendensiyaları və perspektivləri, əməkdaşlıq, konfliktlərin həlli və s. məsələlər müzakirə olundu (bax əlavə: Ə.Həsənov: Azərbaycan və ATƏT. Bakı. 1997, səh 19). Sammitdə dünyanın 16 ölkəsindən xristian və islam dünyasının liderləri də iştirak edirdilər.

Dağlıq Qarabağ münaqişəsinə gəlincə, Azərbaycan nümayəndə heyətinin səyi nəticəsində ATƏT sədrinin münaqişəyə aid üç bənddən ibarət bəyanatı qəbul olundu.

Görüşün sonunda terrorizmə aid bəndin də yer aldığı XXI əsr Avropa üçün ümumi və əsaslı təhlükəsizlik modelinə dair Lissabon bəyannaməsi və Silahlara Nəzarət Haqqında Çərçivə sənədi iştirakçı dövlətlər tərəfindən, o cümlədən Azərbaycan Respublikası tərəfindən də qəbul olundu.

ATƏT-in keçən əsrdə son zirvə görüşü 1999-cu il noyabr ayının 17-18-də Türkiyənin İstanbul şəhərində keçirilmiş və 54 ölkənin dövlət və hökumət rəhbərləri iştirak etmişdir. Sammitdə müasir beynəlxalq münasibətlərə aktiv surətdə müdaxilə edən bir sıra qlobal problemlər, o cümlədən terrorizm, dinlərarası münaqişəyə dair problemlər də müzakirə olunmuş və sammitin sonunda İstanbul Bəyannaməsi və Avropa Təhlükəsizlik xartiyası kimi mühüm əhəmiyyətli sənədlər imzalanmışdır.

**Heydər Əliyevin ABŞ-da baş verən terror aktları ilə bağlı bəyanatında deyilirdi:**

«Terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Biz bu gün daha artıq əzmkarlıq və qətiyyətlə belə əməkdaşlığa hazır olduğumuzu bildiririk.

Müasir dövrdə terrorçuluq bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər. Azərbaycan bu istiqamətdə üzərinə götürdüyü öhdəlikləri bundan sonra da dönmədən yerinə yetirəcəyini və terrora qarşı mübarizədə dünya birliyinin səylərini birmənalı şəkildə dəstəkləyəcəyini bəyan edir» (bax: Azərbaycan qəzeti, № 209 (3221), 11 sentyabr 2002-ci il).

Antiterror koalisiyasına qoşulduğunu bəyan edən Azərbaycan Respublikası, ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi antiterror əməliyyatlarına da yaxından kömək etmişdir. Öz hava sahəsini və hava limanlarını ABŞ təyyarələri üçün açıq elan edən Azərbaycan Respublikası, həmçinin, beynəlxalq terrorçuluqda şübhəli bilinən bir neçə terrorçunu həbs etmişdir. Buna, Misir hakimiyyət orqanlarının xahişi ilə terror fəaliyyətində şübhəli bilinərək, ölkəmizdə həbs olunan Misir vətəndaşlarını və beynəlxalq səviyyədə axtarışda olan digər təhlükəli terrorçuların həbs olunmasını misal göstərmək olar.

Tarix tarix olaraq qalır. Onu dəyişmək mümkün deyil.

2002-ci il sentyabrın 11-də Bakıda MDB Daxili İşlər nazirlərini qəbul edən prezident Heydər Əliyev bildirmişdir ki, son zamanlar Azərbaycan hüquq-mühafizə orqanları Əl-Qaidə beynəlxalq terror təşkilatının bir neçə təhlükəli üzvünü həbs etmişdir (Bax: Azərbaycan qəzeti, № 206 (3218), 7 sentyabr 2002-ci il).

2002-ci il sentyabrın 12-də Birləşmiş Ştatlarda baş verən terror aktlarının ildönümü ilə bağlı ABŞ-ın Azərbaycandakı səfiri Ross Uiltsonla Azərbaycan prezidenti Heydər Əliyevin keçirdiyi görüşdə də beynəlxalq

terrorizm məsələsi müzakirə olunmuşdur. Azərbaycanın antiterror koalisiyasındakı fəaliyyətinə diqqət yönəldən səfir bildirmişdir ki, Azərbaycan beynəlxalq terrorizmlə mübarizədə ABŞ-la yanaşı, ön yerlərdən birini tutur və ABŞ-da baş verən terror aktlarına reaksiya verən ilk dövlətlərdəndir. Səfir, həmçinin, bir neçə beynəlxalq terrorizmdə günahlandırılan şəxsləri həbs etdiyinə görə Azərbaycan dövlətinə öz dövləti adından təşəkkür etmişdir (b a x : Azərbaycan qəzeti, № 210 (3222), 12 sentyabr 2002-ci il).

Hadisələrin təbii inkişafı nəticəsində Avropada Təhlükəsizlik və əməkdaşlıq üzrə Təşkilat (ATƏT) münaqişə təşkil edən ziddiyyətlərin təsir mərkəzinə düşdü. Sovet İttifaqı dağılandan sonra, sülh danışıqlarında effektiv vasitəçilik gözləntilərini və hamı tərəfindən qəbul edilən siyasi tənzimləmə haqqında gələcək razılaşmaların şərtlərinin yerinə yetirilməsinə nəzarəti məhz ATƏT-lə bağlayırlar. Məlumata görə, həmin ərəfədə ATƏT-in Budapeşt sammitinə, işğal olunmuş Dağlıq Qarabağ ərazisindən 1300 nəfər din xadiminin, Lissabon sammitinə isə 2000 nəfərdən artıq işgəncələrə məruz qalan müsəlman qadın və uşaqların imzası ilə məktub və teleqramlar göndərildi.

Həmin vaxt Pakistanın «Cihad» («Jihad») gündəlik qəzetində (1994-cü il, №24) Xocalıda və Laçında çəkilmiş fotoşəkillər nümayiş olundu. Şəkildə öldürülmüş müsəlman uşaqlarının açıq sinəsində bir cüt müqəddəs Qurana od vurulmuşdu. Qəzetin fotomüxbiri Saleh Səlahəddinxan iddia edir ki, qəzet mövcud olandan bəri, hələ belə ürək ağrıdan, ləyaqətsiz və insanları sarsıda biləcək bir şəkil dərc olunmayıb (qeyd edək ki, bu qəzet 1974-cü ildən Pişavərdə çap olunan ən ciddi müsəlman qəzetlərindən biridir).

Sonra bu şəkil dünyanın başqa müsəlman mətbuatının səhifələrində göründü. Araşdırmalarımıza görə, bu şəkil erməni fotomüxbiri Arun Musaelyan tərəfindən çəkilib və 2010-cu il ermənilərin «Papazyan mükafatı»na layiq görülüb. Erməni jurnalisti A.Musaelyana gəlincə, o, etiraf edir ki, hələ uşaq ikən valideynləri onu və iki bacısını Azan səsilə, Quran kitabı ilə..., Məhəmməd, Əli, Hüseyn... adları ilə çox qorxudardı.

Başqa bir araşdırma materiallarında isə qeyd olunur ki, üstündə Quran yandırılan şəkil Xocalının Təzəbinə kəndində çəkilib...

ATƏT isə susurdu. Əslində, bu beynəlxalq təşkilatın baş verən hadisələrə heç bir reaksiya verməməsi, gələcəkdə onun bu müharibələrdə lazımsız və gərəksiz bir qurum olacağına işarə idi...

Digər münaqişələr halında olduğu kimi, qeyd etmək lazımdır ki, bu təşkilatda həlledici rolu «əsas dövlətlər» adlandırılan «nəhəng»lər oynayır. Onların içərisində də, öz növbəsində, aparıcı rolu ABŞ və bütövlükdə götürülmüş Avropa İttifaqı oynayır. Bilavasitə ona toxunan məsələlərdə Rusiyanın da səsi böyük çəkiyə malikdir. ATƏT-in digər dövlətləri siyasi problemlər üzrə mübarizələrdə yalnız o dərəcədə iştirak edirlər ki, o onlara aiddir, qalan hallarda isə Avropa İttifaqının baxışlarını bölüşdürürlər.

Siyasi qüvvələrin belə bölgüsünün reallığı ATƏT-in Kosovo tənzimləməsində, eləcə də Kodra siyasətində iştirakı ilə təsdiq edilmiş və təsdiq edilir: bu təşkilatda bütün mühüm postları NATO dövlətlərinin və yaxud onun üzvlüyünə fəal surətdə cəhd edən ölkələrin vətəndaşları tutur. Məsələn, ATƏT-in missiyasında və digər strukturlarda olan 1199 vəzifədən 504 «kürsü» (42%) münaqişə zonalarında və ya mümkün münaqişələrin qarşısının alınması zonalarında yerləşmişdir. Onlardan 184-nü ABŞ nümayəndələri, 136-nı Almaniya, 109-nu Böyük Britaniya, 75-ni Fransa nümayəndələri tutmuşlar. Əgər buna ATƏT büdcəsinin xatırladılan dörd dövlət hesabına 42% ödənildiyini əlavə etsək, onda bu təşkilatın funksional və coğrafi fəaliyyətində olan disproporsiyaları da müəyyənləşdirən digər mühüm strukrur disbalansı tamamilə aydın olar. Funksional və coğrafi fəaliyyət dedikdə, ilk növbədə postsovet və postyuqoslav məkanında, bəzən həmin məkanın önündə yerləşən dövlətlərin maraqlarını nəzərə almadan insan hüquqlarının vəziyyəti üzrə monitorinq məsələlərində prioritet diqqət başa düşülür.

Araşdırmalarımıza görə, 2003-cü ildə 593, 2009-cu ildə 1700, 2011-ci ildə isə 2000-ə qədər məktub ATƏT-ə göndərilib. Bu məktubları isə bilavasitə müsəlman din xadimləri, islamşünaslar, islam siyasətçiləri göndəriblər. Fikrimizcə, ATƏT-in «əsas ölkələri» heç də həmişə münaqişə regionlarında sabitlik yaratmağa can atmırlar. Onların mövqeyi, əsasən, nəzarət etməkdən ibarətdir. Həmin konsepsiyaya müvafiq olaraq, bu təşkilatın məqsədi sabitliyə nail olmaq deyil, özünün siyasi və iqtisadi

maraqlarını möhkəmləndirməkdir. Bu konsepsiyanı beynəlxalq təhlükəsizlik məsələləri üzrə görkəmli Amerika mütəxəssisi Maykl Mihalka kifayət qədər dəqiq təsvir etmişdir. O yazırdı: "Bəzi şərhçilər Sovet imperiyasının nisbətən dinc dezinteqrasiyasını (dağılmasını) ATƏT (əvvəllər Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə adlandırılırdı) çərçivəsindəki proseslərin hesabına yazırdılar, belə ki, o özünün «insan meyarı»nı irəli sürürdü. Həqiqətən, təhlükəsizliyin, ən azı ATƏT kontekstində, stabilliyi ifadə etməsi mütləq deyil. Ən yaxşı halda, ATƏT prinsipləri əsasında təhlükəsizliyin istənilən yeni modeli nəzarət edilən sabitsizliyin yalnız müxtəlif növlərini təklif edə bilər. Avropada mövcud olan stabil və qeyri-stabil mənbələrə baxış zamanı bu daha aydın olur» (Mihalka Murestructuring European Security//Transition. Vol.1, № 11, 30 June 1993, p.3).

Amerikalı mütəxəssis baş verən dini qarşıdurmalardan bəhs edərkən, xatırladır: «...bu qurum dini qarşıdurmalardan ehtiyatlanır və ondan qorxur...».

## XOCALININ CANİ HƏKİMLƏRİ

Azərbaycanın immunsisteminin böyük bir hissəsi Dağlıq Qarabağın Xocalı ərazisidir və bu gün həmin immunsistem iflic olub… Həm iqtisadi-siyasi, həm də mənəvi-psixoloji cəhətdən.

Meksika Milli Universiteti nəzdindəki Biotexnologiya İnstitutunun tədqiqatçıları sübut ediblər ki, hər bir ağacın və kolun, bitkinin özünəməxsus təhlükəsizlik sistemi var.

Molekulyar Biologiya Departamentinin direktoru Federiko Sançes Rodriqes bu barədə məlumat verir və qeyd edir: «…Bitkilərdə təhlükəsizlik mexanizmi var. Bu sistemi aydınlaşdırdıq. Bitkilərdə və kollarda gedən reaksiyaları öyrəndik. Aydın oldu ki, müşahidə etdiyimiz bütün hissələrdə molekulyar baza və güclü immunsistem var…» (Bax: F.S. Rodriqes. "Təhlükəsizlik" məqalələr məcmuəsi.1999-cu il. MMU-nun nəşriyyatı).

Adlarını aşağıda açıqlayacağımız bədnam həkim qrupu ilkin olaraq öz «sınaq təcrübələrinə» – immunsistemin ifliclәşdirilməsinə Xocalıda başlamışlar:

- **Aida Nersesovna Saakyan (həkim);**
- **Ariya Avanesovna Qriqoryan (həkim-psixoloq);**
- **Arina Yeremovna Arutunyan (həkim-toksikoloq);**
- **Mixail Qevondoviç Arutunyan (həkim-cərrah);**
- **Lidiya Karapetovna Asratyan (həkim-mikrobioloq);**
- **Ruben Ayrapetoviç Baziyan (həkim-cərrah);**
- **Elmira Surenovna Stepanyan (uşaq həkimi);**
- **Georgi Aramoviç Narinyan (uşaq həkimi);**
- **Romik Rubenoviç Baqdasaryan (həkim);**
- **Laura Monovna İşxanyan (uşaq həkimi).**

Xocalıda bu «həkimlər» üçün hər şey adiləşmişdi. Məsələn, yerimə qabiliyyətini itirmiş, hər iki ayağından iflic olmuş 9 yaşlı Lətif Əbdüləli oğlu Qasımovun taleyi Arina Yeremovna Arutunyan adlı bir həkimə həvalə olundu… Məlumata görə, bu həkimlərin hər birinə işğal olunmuş Azərbaycan ərazisində – Xocalıda «övlad» və yaxud «mərhəmət» payı ayrılmışdı.

1993-cü il oktyabrın 19-da Xanyeri, Daşbulaq yaşayış məntəqələrində Nəcəf kişinin evini səyyar düşərgəyə çevirdilər. İkimərtəbəli evin dağılmış,

uçulub tökülmüş divarlarına Ağdamdan gəlmiş 216/01.VE nömrəli hərbi hissənin əsgərləri (kapitan A.D.Babayan) yenidən suvaq çəkdilər… Oktyabrın 21-dən başlayaraq bura döyüş zonasından əsir alınmış uşaqlar göndərildi. Üstündə hərbi hissələrə məxsus nişanı olan maşınlar əsir uşaqlar üçün ayrılmışdı. Oktyabrın 28-də «əsir maşınları» kimi tanınan «03-09.VRE» və «21-93.OVR» «QAZ-69» maşınları Ağdama sürülür.

«Xanyeri» əsir düşərgəsinə bir həftə ərzində 16 şikəst, əlil uşaq daşınır. Noyabrın 14-də isə bu uşaqlar erməni həkimləri Arina Arutunyan, Laura İşxanyan, Ruben Baziyan və Lidiya Asratyan arasında bölünür. Noyabrın 22-də Laçında milliyyətcə ərəb olan beş əli silahlı döyüşçü görünür. Onlar Xocalı qəbiristanlığından azca aralıdakı düzənlikdə ölən iki ərəbi dəfn edirlər. Noyabrın 28-də əsir götürülmüş uşaqlardan ikisi aclığa, xəstəlik və ağrılara dözməyib vəfat edir. Həmin uşaqlar muzdlu ərəblərin ayaqları altında dəfn olunurlar (İran. Tikmədaşlı Səyyah Hüseyn. «Laçın dəftəri» kitabı. Təbriz. «Morteza qardaşları» nəşriyyatı. 1995, səh. 47).

1994-cü il martın 26-dan «Xanyeri» əsir düşərgəsi Yerevanda, Gorus və Razdanda «Xanyeri» bazarı» kimi tanındı. Bu bazarın qapıları «Sərhədsiz həkimlər»in, Qırmızı Xaç Cəmiyyətlərinin… insan hüquqları ilə məşğul olan beynəlxalq təşkilatların üzünə bağlı idi. «Xanyeri»nə giriş Laçın rayon hərbi komendantı, polkovnik Qran Əmiryanın imzası və hərbi hissənin (209/10. V.O.X.) möhürü olmadan mümkün deyildi.

***İlk muzdlu terrorçular Xocalıya 1989-cu ildə gəldilər. Həmin vaxt «Laçın» qəzeti Meşəli və Badara kəndləri ilə maraqlanan və orada həmişəlik yaşamağa meyilli olan 21 yaşlı Saleh Mömün (Sudan), Cabbar əl-Farah (Misir), Yəhya Məhəmməd (Livan), Hüveys Zeytun (İordaniya)… haqqında ilkin məlumatları dərc etdi və göstərdi ki, bu adamlar Xocalının tarix muzeyində oldular, Şəlvə və Almalı kəndlərində gecələdilər.***

1990-cı il iyunun 12-də Sudanın Əl-Übeydə yaşayış məntəqəsində «Erməni icmalarının birgə mübarizə ittifaqı» yaradıldı (İordaniyada, Misirdə, Liviyada, Əlcəzairdə və Sudanda fəaliyyət göstərən erməni icmaları nəzərdə tutulur). Bu ərazilərdə fəaliyyət göstərən erməni icmalarının hər biri ayrı-ayrılıqda həmin regionların təhlükəsizlik və yaxud kəşfiyyat xidməti ilə sıx əlaqədə olublar. Bu icmaların fəaliyyətlərinə nəzarət etmək üçün yerli xəfiyyə təşkilatlarından koordinatorlar da ayrılıb.

Məlumata görə, Xocalıya göndərilən Saleh Mömün Sudan kəşfiyyat xidmətinin, Cabbar əl-Farah Misir hərbi kəşfiyyatının, Yəhya Məhəmməd Livan xüsusi xidmət dəstəsinin, Hüveys Zeytun isə İordaniya krallığının təhlükəsizlik mərkəzindən olublar. Bu barədə İordaniyadakı «Erməni cəmiyyəti»nin ideoloqları Aram Yasaulyan və Harri Maratla (Ambarsumyan) Əmmandakı «Jordan press» Fondunda İordaniya təhlükəsizlik xidmətinin başçısı Səid Benonun 1991-ci il 21 noyabr görüşündə də qeyd olunub. Fondun «Al-Rai» («Fikir») qəzeti 1991-ci il dekabrın 26-da 2-ci səhifədə dərc olunmuş «Qafqaza münasibətimiz» adlı yazıda erməni Harri Maratın belə bir açıqlamasını dərc edir: ***«…Dağlıq Qarabağ uğrunda erməni qardaşlarımıza həm mənəvi, həm iqtisadi və həm də hərbi yardım göstərmək üçün cəmiyyətin imkanı var. Biz bu imkanı Dağlıq Qarabağdakı qardaşlarımızla böldük. 1991-ci il oktyabrın 26-da ərəb ölkələrindəki icmalarımızın Əmmanda Mərkəzləşdirilmiş Erməni İcmalarının İttifaqı adlı mərkəzi yaradıldı. Bu ittifaqın dünyanın 11 ölkəsində bank hesabı var…».***

Mərkəz beynəlxalq erməni təşkilatı kimi məhz Kral Hüseynin göstərişi ilə elə 1991-ci il oktyabrın 29-da Əmmanda qeydə alındı. Bu, regionda kralın şəxsi göstərişi ilə qeydə alınan ikinci Qafqaz təşkilatı idi («Çeçen-inquş dostları cəmiyyəti»ndən sonra. Təşkilatın rəhbəri Şeyx Əbdül Camodur).

Əldə etdiyimiz məlumata görə, Şeyx Camo Xocalı qırğınları zamanı erməni separatçılarına 50 min dollarlıq dava-dərman, güllə və müxtəlif növ silahlar göndərib. Bu haqda isə «Qafqaz» informasiya bürosu məlumat verib. (bax:«Qafqaz» informasiya bürosu, «Müsahibə». Şeyx Camo danışdı. 2006, IX-5).

Nə qədər acınacaqlı olsa da qeyd etməliyik ki, erməni separatizmini, erməni terrorçularını dəstəkləyən, onlara kömək edən dövlətlərin sırasında məhz müsəlman ölkələrinin də olması faktları bizi hiddətləndirib, təəccübləndirir. Məgər Rəbbimiz müsəlmanlara din bacı-qardaşlarımızın bir-birinə qənim kəsilməsini, günahsız insanlara zorakılıq etmələrini, zülm, işgəncələr verməklə onların nahaq yerə qanlarının axıdılmasını tövsiyə etmişdimi? Xeyr! O Böyük Allah yaratdığı bəndələrindən mehribanlıq, sülh, əmin-amanlıq şəraitində yaşamalarını, haqqın, ədalətin bərqərar olmasına çalışmalarını tələb etmişdi. Lakin din qardaşlarımızın islami dəyərlərə yaraşmayan əməllərinin şahidi olur, təəssüflənirik. Biz də müsəlman olaraq din bacı-qardaşlarımızdan soruşmaq istərdik: müsəl-

manların inanc mənbəyi **Uca Allahın nazil etdiyi Qurani-Kərimdir. Bu müqəddəs kitabın tələblərinə görə, deyin bilək, haqqı nahaqqa vermək olarmı?**

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə ikinci gəlişindən sonra Azərbaycanın islam ölkələri ilə sıx əlaqələr yaradaraq qarşılıqlı anlaşma şəraitində fəaliyyət göstərmələri üçün xüsusi dövlət proqramı hazırlandı və dini qurumlarla birgə həyata keçirilməsi tapşırıldı. Ulu Öndərin bu sahədəki müdrik dövlət siyasəti öz bəhrəsini verdi. Bu barədə kitabın ikinci cildində ətraflı söhbət açacağıq.

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ POZULMUŞ QƏTNAMƏLƏRİ

BMT nizamnaməsinin 1.1. maddəsində deyilir ki, BMT-nin əsas məqsədlərindən biri beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq məqsədilə sülhə, təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün təcavüz aktlarını və digər sülhün pozulması hallarını yaratmaq üçün səmərəli kollektiv tədbirlər görmək, sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasina və yaxud həll olunmasına müvəffəq olmaqdır.

Bu günədək Dağlıq Qarabağ ərazisində 87 yaşlı Ayətulla Səfayi, 90 yaşlı Şeyx Möhtəşəm, 92 yaşlı Şeyx Mirzadə, 80 yaşlı Ayətulla Bakılı, 79 yaşlı Axund Maarif, 75 yaşlı Ayətulla Bərxudar və neçə-neçə digər din xadimi qəddarlıqla qətlə yetirilmişlər.

Həmçinin, BMT Nizamnaməsinin VII Fəsli bütövlükdə sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlərə aid edilmişdir.

Dağlıq Qarabağda bütün qəbul olunmuş Konvensiyalar pozulub.

BMT Baş Məclisinin 36-cı sessiyası çərçivəsində 1981-ci il dekabrın 10-da keçirilən iclasında 36/109 saylı Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında qətnamə, BMT Baş Məclisinin 38-ci sessiyası çərçivəsində 1983-cü il dekabrın 30-da keçirilən iclasında 38/130 saylı Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında qətnamə və BMT Baş Məclisinin 42-ci sessiyası çərçivəsində 1987-ci il dekabrın 7-də keçirilən iclasında Beynəlxalq terrorizmə aid 42/22 saylı Beynəlxalq Münaqişələrdə Hədə-Qorxu Gəlmə və Güc Tətbiq Etmək Prunsiplərindən İmtina Etmənin Effektivliyinin Gücləndirilməsi Haqqında Bəyannamə adlı qətnamələr qəbul edilmişdir. Həmçinin, BMT Təhlükəsizlik Şurasının 1985-ci il dekabrın 18-də qəbul etdiyi 579 saylı Girovgötürmə insidentləri haqqında, 1989-cu il iyunun 14-də qəbul etdiyi 635 saylı Terror aktları ilə əlaqə haqqında və 1989-cu il iyulun 31-də yenidən təkmilləşdirilmiş variantını qəbul etdiyi 638 saylı Girovgötürmə insidentləri haqqında qətnamələri terrorizmə aiddir.

Həmçinin, 1991-ci ildə keçirilən BMT Baş Məclisinin 46-cı sessiyasının gedişində, dekabrın 9-da Baş Məclisin 67-ci plenar iclasında 46/51 saylı Beynəlxalq Terrorizmin Qarşısının Alınması Yolları Haqqında Qətnamə müzakirəyə çıxarılmış və qəbul edilmişdir. Bu qətnamə 1972-ci il dekabrın 18-də qəbul olunmuş 3034 (XXVII), 1976-cı il dekabrın 15-də qəbul olunmuş 31/102, 1977-ci il dekabrın 16-da qəbul olunmuş 32/147, 1979-cu il dekabrın 17-də qəbul olunmuş 34/145, 1981-ci il dekabrın 10-da qəbul olunmuş 36/109, 1983-cü il dekabrın 19-da qəbul olunmuş 38/130, 1985-ci il dekabrın 9-da qəbul olunmuş 40/61, 1987-ci il dekabrın 7-də qəbul olunmuş 42/159 və 1989-cu il dekabrın 4-də qəbul olunmuş 44/29 saylı qərarların əsasında hazırlanmışdı. Qətnamə, həmçinin, BMT Baş Məclisinin 34-cü sessiyasının materiallarına, BMT-nin Nizamnaməsinə və Beynəlxalq Hüququn Prinsipləri Çərçivəsində Dövlətlər Arasında Dostluq və Əməkdaşlıq Əlaqələri Haqqında Deklarasiyaya, Beynəlxalq Təhlükəsizliyi gücləndirmək haqqında Deklarasiyaya uyğunlaşdırılmışdı.

Qətnamələrdə terrorizmin beynəlxalq təhlükə halında olduğu və dövlətlərarası münasibətlərin pozulmasına aktiv təsir etdiyinə görə beynəlxalq əməkdaşlığı gücləndirmək və terrorizmin qarşısının alınmasının vacibliyi bildirilmişdir (bax: UN General Assembly, 9 December 1991 – A/RES/46/31. 67th plenary meeting. Measures to elimimate international terrorism).

1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyası çərçivəsində keçirilən 85-ci plenar iclasda, dekabr ayının 20-də 48/122 saylı İnsan Hüquqları və Terrorizm adlı qətnamə qəbul edilmişdir. Bu qətnamə BMT Nizamnaməsinin prinsiplərinə, İnsan Hüquqları Üzrə Ümumi Deklarasiyaya və insan hüquqları üzrə beynəlxalq razılaşmalara, həmçinin, insan hüquqları üzrə beynəlxalq konfransda qəbul edilmiş Vyana Deklarasiyasına və fəaliyyət proqramına, bu sahədə hüquqi aktlara, beynəlxalq müqavilələrə, insan hüquqları və fundamental azadlıqlar haqqında prinsiplərə uyğun hazırlanmışdı.

Qətnamədə kim tərəfindən və harada törədilməsindən asılı olmayaraq, terrorizmin bütün forma və metodlarının, həmçinin, fundamental insan hüquqlarına və demokratiyaya, dövlətlərin ərazi bütövlüyünə və təhlükəsizliyinə, hakimiyyətin legitim əsaslarının sarsıdılmasına, dövlətlərin sosial-iqtisadi inkişafına qarşı yönəldilmiş qeyri-qanuni fəaliyyətin qarşısının alınması məqsədilə milli, regional və beynəlxalq səviyyədə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi bildirilmişdir (bax: UN General Assembly,

20 December 1993 – A/RES/48/122. 85th plenary meeting. Human rights and terrorism).

BMT Baş Assambleyasının 1994-cü ildə keçirilən 49-cu sessiyası çərçivəsində, 84-cü plenar iclasda 49/60 saylı qətnamə qəbul edilmişdir. Bu qətnamə BMT Baş Assambleyasının 1991-ci il 9 dekabr tarixli 46/31 saylı qətnaməsi və 1993-cü il 9 dekabr tarixli 48/411 saylı qərarına, həmçinin, Baş Katibin məruzəsinə istinadən hazırlanmışdı. Beynəlxalq terrorizmlə mübarizəni genişləndirmək məqsədi ilə BMT-nin Baş Katibi bütün üzv dövlətləri, Təhlükəsizlik Şurasını, Beynəlxalq Məhkəməni, müxtəlif ixtisaslaşdırılmış təşkilatları və strukturları bu qətnaməyə qoşulmağa çağırmışdır. Qətnamədə beynəlxalq terrorizmin qarşısının alınması məqsədilə milli və beynəlxalq səviyyədə müvafiq tədbirlərin görülməsinin vacibliyi bildirilmişdir (bax: UN General Assembly, 9 December 1994 – A/RES/49/60. 84th plenary meeting, ensures to eliminate international terrorism).

BMT Baş Assambleyasının 1995-ci ildə keçirilən 50-ci sessiyası çərçivəsində, dekabrın 11-də keçirilən 87-ci plenar iclasda 50/53 saylı Beynəlxalq Terrorizmin Aradan Qaldırılması Yolları Haqqında Qətnamə qəbul edilmişdir.

Bu qətnamə BMT Baş Assambleyasının 1994-cü il dekabrın 9-da qəbul edilmiş 49/60 saylı qətnaməsinə, Təhlükəsizlik Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının 1992-ci il yanvarın 31-də keçirilmiş görüşündə elan edilmiş Təhlükəsizlik Şurası Sədrinin bəyanatına, BMT-nin 50 illiyi münasibətilə qəbul edilmiş Deklarasiyaya əsasən hazırlanmışdı. Qətnaməni imzalayan dövlətlər terrorizmin bütün forma və təzahürlərini cinayət əməli kimi pisləmiş və bütün dövlətləri terrorizmə qarşı mübarizəyə səsləmişlər (bax: UN General Assembly, 11 December 1995 – A/RES/50/53. 87th plenary meeting. Measures Human rights and terrorism to eliminate international terrorism).

BMT Baş Assambleyasının 1996-cı ildə keçirilən 51-ci sessiyası çərçivəsində, dekabrın 17-də keçirilən 88-ci plenar iclasda 51/210 saylı Beynəlxalq Terrorizmin Aradan Qaldırılması Yolları Haqqında Qətnamə qəbul edilmişdir.

BMT Baş Assambleyasının 1997-ci ildə keçirilən 52-ci sessiyası çərçivəsində, dekabrın 15-də keçirilən 72-ci plenar iclasda 52/165 saylı

Beynəlxalq Terrorizmin Aradan Qaldırılması Tədbirləri Haqqında Qətnamə qəbul edilmişdir.

Bu qətnamə BMT Nizamnaməsinin prinsip və məramlarına, BMT Baş Assambleyasının 1994-cü il 9 dekabr tarixli 49/60 saylı qətnaməsinə, 1995-ci il 15 dekabr tarixli 50/53 saylı qətnaməsinə və 1996-cı il 17 dekabr tarixli 51/210 saylı qətnaməsinə, BMT-nin 50 illiyi münasibətilə qəbul edilmiş Bəyannaməyə istinadən hazırlanmışdı. Qətnamədə terrorizmin dünyada geniş yayılmasından narahatçılıq hissinin keçirilməsi önə çəkilərək, əvvəlcə ABŞ, sonra digər beynəlxalq təşkilat və agentliklər, regional təşkilatlar və qurumlar, eyni zamanda BMT ilə terrorizmin bütün forma və təzahürlərinin qarşısının alınması və ləğv edilməsi məqsədilə beynəlxalq əməkdaşlığın gücləndirilməsinin zəruriliyi bildirilmişdir.

Dövlətlər terrorizmin bütün forma və təzahürlərini pisləmiş və bildirmişlər ki, terror aktları heç nə ilə özünə haqq qazandıra bilməz (bax: UN General Assembly, 15 December 1997 – A/RES/52/165. 72th plenary meeting. Measurto eliminate international terrorism).

BMT Baş Məclisinin 53-cü sessiyasında 1998-ci il dekabrın 8-də, 83-cü plenar iclasda 53/108 saylı Terrorizm adlı qətnaməsi qəbul edilmişdir. Qətnamə BMT Nizamnaməsinin məqsəd və prinsiplərini rəhbər tutaraq, BMT-nin 9 dekabr 1994-cü il tarixli 49/60 saylı qətnaməsinə, 17 dekabr 1996-cı il tarixli 51/210 saylı qətnaməsinə, 15 dekabr 1997-ci il tarixli 52/165 saylı qətnaməsinə, BMT-nin 50 illiyi münasibətilə qəbul olunmuş Bəyannaməyə uyğunlaşdırılmışdı.

Qətnamədə terror aktlarının bütün dünya üçün təhlükə olduğu bildirilərək, Baş Katibə BMT-nin və digər ixtisaslaşdırılmış qurumların beynəlxalq terrorizmlə mübarizənin gücləndirilməsi tövsiyə olunmuşdur. Qətnamədə terror cinayəti kim tərəfindən və nə məqsədlə həyata keçirilməsindən asılı olmayaraq pislənmiş, bütün dövlətlər terrorizmi müəyyənləşdirməkdən, terrorçulara dəstək verməkdən əl çəkməyə çağırılmış, terrorizmin bütün forma və təzahürləri pislənmiş və bildirilmişdir ki, BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquq normalarına və digər beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, beynəlxalq birlik terrorizmə qarşı mübarizə aparmalıdır.

Həmçinin, qərara alınmışdır ki, BMT-nin 54-cü sessiyasında beynəlxalq terrorizmlə mübarizə üçün birgə tədbirlər planı hazırlamaq məqsədilə xüsusi

iclas keçirilsin (bax: UN General Assembly, Fifty-thurd session, 8 December 1998 – A/RES/53/108. Terrorism).

BMT-nin terrorizmə aid növbəti qətnaməsi, artıq, ABŞ-da baş verən 11 sentyabr terror aktlarından sonra qəbul edilmişdir. Baş Məclisin 56-cı sessiyasının gedişində, 12 dekabr 2001-ci ildə keçirilən 85-ci plenar iclasda qəbul olunmuş 56/88 saylı bu qətnamə BMT Nizamnaməsinin prinsip və məqsədlərinə, BMT-nin 50 illiyi münasibətilə qəbul edilmiş Bəyannaməyə, BMT-nin Millenium Sammitinin Bəyannaməsinə, Baş Məclisin və Təhlükəsizlik Şurasının terrorizmə aid bütün qətnamələrinə uyğun hazırlanmışdır. Qətnaməni qəbul edən dövlətlər Nyu-Yorkda, Vaşinqtonda, Pensilvaniyada baş vermiş dəhşətli terror aktlarını qətiyyətlə pislədiklərini bəyan edərək bildirmişlər ki, bu terror aktları Baş Məclisin 12 sentyabr 2001-ci il tarixli 56/1 saylı qətnaməsinin, BMT Təhlükəsizlik Şurasının 12 sentyabr 2001-ci il tarixli 1368 (2001) saylı və 28 sentyabr 2001-ci il tarixli 1377 (2001) saylı qətnamələrinin qəbul olunmasına səbəb olmuşdur. Qətnamədə terrorizmə aid bütün beynəlxalq razılaşmalar və terrorizmə qarşı aparılan mübarizə əsas götürülərək bildirilmişdir ki, (...) terror aktı, metodu və praktikasına harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, cinayət kimi yanaşmaq lazımdır; keçirilən terror aktları özünə heç nə ilə bəraət qazandıra bilməz, dövlətlər BMT Nizamnaməsinin norma və prinsiplərini əsas götürərək, 51/210 saylı qətnamənin 3-cü bəndinin a-f yarımbəndlərinə uyğun olaraq, terrorizmə qarşı mübarizə aparmalıdırlar, dövlətlər terror aktlarını hər hansı formada maliyyələşdirməkdən, terror aktlarına dəstək verməkdən çəkinməlidirlər, dövlətlərə Təhlükəsizlik Şurasının 1373 (2001) saylı qətnaməsinə uyğun olaraq, terrorizmə aid beynəlxalq razılaşmalara qoşulmaq tövsiyə olunur; terrorçuları məsuliyyətə cəlb etmək üçün milli qanunvericilik təkmilləşdirilməlidir və s. (bax: UN General Assembly, Fifty-sixth session, 12 December 2001 – A/RES/56/88. measures to eliminate to international terrorism).

***Qeyd:*** *Regionda beynəlxalq sülhün və təhlükəsizlik məsələlərinin qorunub saxlanılmasında BMT maraqlı olduğundan erməni separatçılarının və silahlı terror birləşmələrinin işğalına məruz qalmış Azərbaycanın Dağlıq Qarabağ yaşayış məntəqələrilə bağlı siyasi dəyərinə görə ciddi qətnamələrə imza atdı (BMT-nin dörd qətnaməsini xatırlayın).*

Amma bu dörd siyasi sənədin gücü və təsiri olmadığından, onlar ictimaiyyət tərəfindən qəbul olunmadı, dəyərləndirilmədi. Məsələn, 1996-cı ildə (sorğu avqust-sentyabr aylarını əhatə edir) Şuşa və Kəlbəcərdə yurdları, ailələri terror edilmiş azərbaycanlılar arasında belə bir irimiqyaslı sorğu keçirildi:

1. Siz işğal olunmuş ərazilərimizlə bağlı Birləşmiş Millətlər Təşkilatının müsbət fəaliyyətinə inanırsınızmı?

Sorğuda iştirak edən 500 nəfər Şuşa və 500 nəfər Kəlbəcər qaçqını Dağlıq Qarabağ probleminin həllində BMT-nin yardım edəcəyini böyük ümid və inamla qeyd edirdi.

2006-cı ildə eyni qayda ilə təşkil olunan sorğunun nəticələrinə görə rəyi soruşulanların 96,3%-i BMT adlı bir siyasi quruma inanmadıqlarını bildirib, onun qəbul etdiyi qətnamələri «dəyərsiz sənəd» adlandırıblar.

***Qeyd:*** *İlk baxışdan beynəlxalq terrorizm və separatizmlə, mütəşəkkil cinayətkarlıqla bağlı BMT sənədlərində irəli sürülən şərtlər ciddiliyi və aktuallığı ilə diqqəti cəlb edir. Lakin işğal olunmuş, erməni separatçıları tərəfindən terrora məruz qalmış Dağlıq Qarabağ problemi ilə bağlı gördüyü işlər hələlik qənaətbəxş hesab edilə bilməz. Yəni, BMT kimi bir siyasi qurumda qəbul edilmiş sənədlər etibarsız sənəd kimi kağız üzərində qalır.*

ABŞ-dan olan ekspert S.Kraser ermənilərin Dağlıq Qarabağda törətdikləri cinayətləri yeni əsrdə başlanacaq «Səlib yürüşü» adlandırmayıb. Güman edirik ki, işçilərinin 17%-i mənşəcə erməni olmasına baxmayaraq, BMT qəbul etdiyi rəsmi sənədlərin həyata keçirilməsinə təşəbbüs göstərəcəkdir.

***İnanırıq ki, Erməni silahlı birləşmələri tərəfindən terrora məruz qalmış Azərbaycanın Dağlıq Qarabağ ərazilərində, kütləvi qırğınların qurbanına çevrilmiş Xocalıda baş verən faciələr yaxın gələcəkdə dünya tarixinin ən ağrılı, acılı bir səhifəsi olaraq, milyonları düşündürəcək. Erməni terrorçularının insanlığa, təbiətə qarşı alçaq cinayətləri onlara dünya ictimaiyyətinin qəzəbini, lənətlərini qazandıracaqdır. Bu işdə Leyla xanım Əliyevanın «Xocalıya Ədalət!» çağırışı beynəlxalq terrora və onun bir qolu olan erməni terroruna qarşı mübarizədə əsas qüvvələrdən biri olacaq və onun tariximizdə öz xalqına , millətinə əvəzsiz bir xidməti kimi qalacaqdır. Şübhəsiz, Leyla xanım Əliyevanın şəxsində Heydər Əliyev Fondunun keçirdiyi «Xocalıya Ədalət!» beynəlxalq kampaniyası terrora məruz qalmış insanların haqlarının müdafiəsində dünya xalqlarını, dünya birliyini humanizmə,***

***ləyaqətə, nəcibliyə, vicdana, haqqa, ədalətə, yüksək mənəvi dəyərlərə səsləyən strateji bir model kimi bütün xalqlar üçün bəşər tarixində rolu əvəz-olunmaz olacaqdır. Yaşadığımız yüzillikdə dünyamızın bu cür çağırışa ehtiyacı olduğunu gələcəkdə tarix özü təsdiqləyərək dəyərləndirəcəkdir.***

Erməni terroruna, erməni separatizminə qarşı mübarizədə hamımız birləşməli, birgə mübarizə aparmalıyıq. Xaricdə yaşayan soydaşlarımız da azərbaycansevərləri ətrafına toplamalı, Azərbaycanın haqq, ədalət yolunda apardığı mübarizədə xüsusi fəallıq göstərməlidirlər. **Ulu Öndərimiz Heydər Əliyevin tövsiyələrini həmişə xatırlamalı əsas strateji Milli Fəaliyyət Proqramını heç zaman unutmamalıyıq. O demişdir:**

**– Əziz xalqım! Əzəmət və qüdrətinə, namus və qeyrətinə arxa-landığım və güvəndiyim Azərbaycan övladları!**

**... Əminəm ki, taleyinə düşmüş ağrı-acılara, əzab-əziyyətə mətanət-lə sinə gərən, üz-üzə gəldiyi çətinlikləri cəsarətlə dəf edən xalqımızın polad iradəsini düşmən hədə qorxusu, nə də nankor övladlarının bəd əməlləri sarsıda bilməz. Qurub-yaratmaq eşqi, qələbə əzmi ilə yaşayan və döyüşən insanların sarsılmaz inamı qarşısında heç bir qüvvə dura bilməz. Bunu hamı bilməlidir.**

**Qələbəmizin yaxınlaşması, müstəqilliyimizin reallaşması və xalqı-mızın bu tarixi sınaqdan şərəflə çıxması üçün milli birliyimiz, vətəndaş həmrəyliyi bu gün həmişəkindən daha vacibdir.**

# İSTİFADƏ OLUNMUŞ ƏLAVƏ ƏDƏBİYYATIN SİYAHISI

## *Azərbaycan dilində*

1. Azərbaycan İslam Konfransı təşkilatı sıralarında: İslam Konfransı Təşkilatının Kasablanka (1994), Tehran (1997), Məkkə (2005) və Dakar (2008) zirvə görüşləri və Xarici İşlər Nazirləri Şurasının 33-cü Bakı sessiyasının (2006) materialları əsasında. Bakı, 2008, 484 s.
2. Azərbaycan qanunvericiliyində uşaq hüquqları. 2009-cu il noyabrın 1-dək edilmiş dəyişikliklər və əlavələr nəzərə alınmaqla. Bakı, 2009.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2006.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 26 fevral 2002-ci il.
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımının 11-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 26 fevral 2003-cü il.
6. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 25 fevral 2004-cü il.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 24 fevral 2005-ci il.
8. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 24 fevral 2007-ci il.
9. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 31 mart 1999-cu il.

10. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, yeni 2001-ci il yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 30 dekabr 2000.
11. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 28 mart 2001-ci il.
12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 30 mart 2004-cü il.
13. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 30 mart 2005-ci il.
14. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 28 mart 2006-cı il.
15. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 29 mart 2007-ci il.
16. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 29 mart 2008-ci il.
17. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın "Deutsche Welle" teleradio kanalına müsahibəsi. - "Azərbaycan" qəz., 21 fevral 2007-ci il.
18. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın "La Lettre Diplomatique" jurnalına müsahibəsi. - "Azərbaycan" qəz., 18 may 2007-ci il.
19. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyanın "Nikkey" ("Nihon Kedzay Şimbun") qəzetinin müxbirinə müsahibəsi. - "Azərbaycan" qəz., 17 iyun 2007-ci il.

20. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemləri müzakirə olunan müşavirədə giriş və yekun nitqi. - "Azərbaycan" qəz., 5 sentyabr 2007-ci il.
21. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litvada çıxan "Verslo zinios"/"Business news" və "Verslo klase"/"Business class" jurnalının müxbirlərinə müsahibəsi. - "Azərbaycan" qəz., 13 sentyabr, 2007-ci il.
22. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Reyters" agentliyinə müsahibəsi. - "Azərbaycan" qəz., 24 fevral 2009-cu il.
23. Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycanın mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar bəyanatı. 19 aprel 2002.-"Dirçəliş-XXI əsr" jurnalı, №50, 2002, s. 25-26.
24. Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımı (genosidi) günü haqqında qərarı. -"Azərbaycan" qəz., 25 fevral 1994-cü il.
25. Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Bəyanatı, 26 fevral 2002-ci il. -"Azərbaycan" qəz., 27 fevral 2002-ci il.
26. Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Qərarı, 27 fevral 2007-ci il. -"Azərbaycan" qəz., 1 mart 2007-ci il.
27. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2007.
28. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. /Kitabın ideya rəhbəri- akademik R.Mehdiyev; redaktor-professor Ə.Həsənov; buraxılışa məsul-B.Sadıqov / Bakı, 2012, 424 s.
29. Bizi əsirlikdən qurtarın. Bakı, 2006, 680 s.
30. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilməsi üsulları və nəticələri. Bakı, 2008, 224 s.

31. Çaladze T. Qarabağ: müharibə üzlərdə: 1992-1994: cəbhə albomu. Bakı, 2004, 199 s.
32. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin milli televiziya və radio ilə xalqa müraciəti, 2 noyabr 1993-cü il. -“Azərbaycan” qəz., 3 noyabr 1993-cü il.
33. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası). Bakı, 1994, 184 s.
34. Erməni terroru // Armenian terror // Армянский террор, Bakı, 2007, 168 s.
35. Əhmədov E. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması Azərbaycanın xarici siyasətində əsas prioritet istiqamətdir. -“Xalq qəzeti”, 3 dekabr 2009-cu il.
36. Əhmədov E. Ermənistan-Azərbaycan münaqişəsi Cənubi Qafqazda ən uzunmüddətli münaqişə kimi – “Qarabağ dünən, bu gün və sabah” 3-cü Ümumrespublika elmi konfransın materialları (25-26 may, 2004-cü il). Bakı, 2004, s. 30-35.
37. Əhmədov E. Ermənistan-Azərbaycan münaqişəsi İslam Konfransı Təşkilatında – “Hərbi bilik” jurnalı. Bakı, 1998, №1, s. 94-98.
38. Əhmədov E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq-hüquqi aspektləri. –“Strateji təhlil” jurnalı, №1(2), aprel-iyun, 2011, s. 93-108.
39. Əhmədov E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasında. -“Xalq qəzeti”, 6 aprel 2010-cu il.
40. Əhmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (təhlili xronika 1992, fevral-dekabr). -“Geostrategiya” jurnalı, №6, avqust, 2011, s. 34-43.
41. Əhmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti və ATƏT. –“Diplomatiya aləmi” jurnalı, №25, 2009, s. 33-44.
42. Əhmədov E. XX əsrin sonunda Ermənistanın etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin nəticələri. - “Qarabağ dünən, bu gün və sabah”

10-cu Ümumrespublika elmi konfransın materialları (25-26 may, 2011-ci il). Bakı, 2011, s. 48-59.

43. Əhmədov E. Xocalı faciəsi Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin tərkib hissəsidir. -"Xalq qəzeti", 23 fevral 2012-ci il.
44. Əhmədov E. Ermənistanın etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin nəticələri. -"Xalq qəzeti", 29 aprel 2012-ci il.
45. Əhmədov E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair ATƏT-in Minsk qrupunun yaradılması və fəaliyyəti. - "Qarabağ dünən, bu gün və sabah" 11-ci Ümumrespublika elmi konfransın materialları (22 may, 2012-ci il), Bakı, 2012, s. 25-35.
46. Əhmədov E. Şuşa - Azərbaycanın strateji əhəmiyyətli tarixi mədəniyyət mərkəzi. - "Qarabağ dünən, bu gün və sabah" 11-ci Ümumrespublika elmi konfransın materialları (22 may, 2012-ci il), Bakı, 2012, s. 36-47.
47. Əhmədov T. Erməni xəyanəti: Qarabağ, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında erməni cinayətləri: 1918-1920-ci illər. Bakı, 2008, 96 s.
48. Əhmədova F. Tarixi sənədlər erməni separatizmini ifşa edir (Qafqazda "erməni məsələsi" üççildliyinin (1906-1914, Bakı, 2011) materialları əsasında). - "Qarabağ dünən, bu gün və sabah" 10-cu Ümumrespublika elmi konfransın materialları (25-26 may, 2011-ci il). Bakı, 2011, s. 82-86.
49. Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı. Bakı, 2003. 289 s.
50. Əliyev İ. Ə. İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi. Bakı, 2009.
51. Əliyev Z. N. İnsan hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
52. Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu, 31 may 1996-cı il. -"Azərbaycan" qəz., 1 iyun 1996-cı il.

53. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar (28 kitabda). Bakı, 1997-2009.
54. Həsənli C. (Həsənov C.) Qarabağın qara günü. - “Qarabağ” qəz., №№23-24, 2010; №№1-23, 2011-ci illər.
55. Həsənli C. (Həsənov C.) Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı, 2012, 656 s.
56. Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Bakı,1997, 80 s.
57. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Doktorluq dissertasiyasının avtoreferatı, Bakı, 2000, 76 s.
58. Həsənov Ə. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, 2011, 440 s.
59. Hüseynov L. N. İnsan hüquqlarının beynəlxalq müdafiəsi. Bakı, 2008.
60. Xəlilov C. C. Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Bakı, 2004.
61. İbayev V. Ə. İşgəncələr qadağandır. Bakı, 2002.
62. İnsan hüquqları. Bəşər rifahının təməli. Bakı (BDU), 2001.
63. Mahmudov Y. Azərbaycanlılar (etnik-siyasi tarixə ümumi baxış). 3 dildə. Bakı, 2008, 61 s.
64. Mahmudov Y., Mustafayev C. Şuşa-Pənahabad. Bakı, 2012, 152 s. Bakı, 2009, 144 s.
65. Mahmudov Y., Şükürov K. Qarabağ. Bakı, 2006, 380 s.
66. Mehdiyev R. Ə. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006.
67. Məmmədov R. K. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi. Bakı, 2004.
68. Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Bakı, 2009, 360 s.
69. Məmmədova H. Xocalı: Şahidlər, Şahidlər. Bakı, 2003, 197 s.
70. Musayev M. T. Ermənilər Amerikada. Bakı, 2012.

71. Mustafayeva A. İ. Beynəlxalq hüquqda və milli qanunvericiliyimizdə bioetik normalar və prinsiplər. Bakı, 2013.
72. Nəsirov E. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, 2010, 392 s.
73. Novruzoğlu R. Azərbaycan dövlətçiliyinə qarşı təhlükə mənbələri. V cilddə. Bakı, 2004-2007.
74. Novruzoğlu R. Beynəlxalq terror təşkilatları (Ensiklopedik məlumat). Bakı, 2012.
75. Novruzoğlu R. Ecmiədzin. Məxfi planlar, sənədlər. Bakı,
76. Novruzoğlu R. Genosid... Ekosid. Bakı, 2006.
77. Novruzoğlu R. Xocalı. Məxfi arayış. Bakı, 2012.
78. Novruzoğlu R. Qarabağ nəzarətsiz zona. (Azərbaycan, rus, ingilis, fransız dillərində). Bakı, 2006.
79. Ulusel R. Heydər Əliyev və Azərbaycan-Dünya münasibətləri: siyasətdən mədəniyyətədək. Bakı, 2010.
80. 1948-ci il Ümumdünya İnsan Hüquqları Konvensiyası və ona əlavə edilmiş protokollar.

### *İngilis dilində*

81. Banton Michael, Racial Theories, Cambridge: Cambridge University Press. 1998.
82. Berenbaum Michael and Abraham J. Peck (eds.), The Holocaust and History, The Known, The Unknown, The Disputed and The Reexamined, Indiana University Press 1998.
83. Browning Christopher R., Ordinary Germans or Ordinary men? A replay to the Critics, in Michael Berenbaum and Abraham J. Peck (eds.), The Holocaust and History, The Known, The Unknown, The Disputed and The Reexamined, Indiana University Press 1998.

84. Bruce Deborah, In Trough the Gates and Out Through the Chimneys: Gypsies and Holocaust, in Anatomy of Genocide, State-Sponsored Mass-Killings in the Twentieth Century, (eds.) Alexandre Kimenyi and Otis L. Scott, Symposium Series, Volume 58, The Edwin Mellen Press, Lewin, 2001.
85. Chomsky Noam, What Uncle Sam Really Wants Making Guatemala a Killing Field, Odonian Press, 1992; <http://free.freespeech.org/americanstateterrorism/centralamerica/Guatemala.html.
86. Clayton Anthony, The wars of French Decolonization, London 1994.
87. Cohen J. M., (ed.) The Four Voyages of Christopher Columbus, London: Penguin Book, 1969.
88. Cook F. Sherburn, The Conflict Between the California Indian and White Civilization, University of California Press, Berkley, 1976.
89. Cowlishaw Gillian, Black, white or brindle: Race in rural Australia, Cambridge, Cambridge University Press. 1988.
90. Cristopher Colomb, And the Great Age of Exploration, World Book, 2004.
91. Dimitrov Vesselin, In Search of a Homogeneous Nation: The assimilation of Bulgaria's Turkish Minority, 1984-1985, The London School of Economics and Political Science, 2000.
92. Eltis David, The Rise of African Slavery in the Americas, Europeans and African Slavery in the Americas, 2000.
93. Finkelstein G. Norman, The Holocaust Industry, Reflections on the Exploitation of Jewish Suffering, London: Verso, 2000.
94. Forbes Jack D., Black Africans and Native Americans: Race, Color and Caste in the Evolution of Red-Black Peoples, Oxford University Press London/New York, 1988.
95. Genocide of European Roma (Gypsies), 1939-1945, United States Holocaust Memorial Museum, Washington, D.C., Determining the percentage or number of Roma who died in the Holocaust (called the Porrajmos, "paw-RYE-mos" in Romani, a word which means "the

Devouring") is not easy (Ian Hancock, http://216.239.59.104/search?q=cache:466jeZOt_CwJ:www.geocities.com/Paris/5121/genocide.htm+German+Genocide&hl=tr)

96. Hindess and P. Hirst, Pre-Capitalist Modes of Production, London, 1975.
97. Horne Alistair, A Savage War of Peace, Algeria 1954-1962, Macmillan London Limited, 1977.
98. Jong F. De, Names, Religious Denomination and Ethnicity of Settlements in Western Thrace, Leiden, E.J.Brill, 1980.
99. Kevles Daniel, In the Name of Eugenic. Genetics and the Uses of Human Heredity. Cambridge, Massachusetts-London: Harvard University Press, 1995.
100. Kiernan Ben, The Genocide of native Americans, The Colonists: from Columbus to Roosevelt, there's only one word to describe settlers in North America have treated their host, Bangkok Post, 29 July 2001.
101. Klein Herbert S., The Atlantic Slave Trade, New Approaches To The Americas, Cambridge university Press, 1999.
102. Kull Steven, Minds at War: Nuclear Reality and the Inner Conflicts of Defense Policymakers. New York: Basic Books, 1988.
103. Kvist Roger, Swedish Sami Policy 1548-1992, The Changing Circumpolar North: Opportunities for Academic Development (Ed.) Lassi Heinien, Rovaniemi: Arctic Center Publications 6, 1994.
104. Lemkin Raphael, in Hinton, Genocide: an anthropological reader (ed.) Alexander Laban Hinton, Blackwell Publishers 2002.
105. Lovejoy Paul E., Transformations in Slavery, Cambridge University Press, 2000.
106. Marx Karl, Inaugural address to the First International October, 1864; http://free.freespeech.org/ american stateterrorism/bibliographies /AfrcnAm.html
107. Nuclear technologies and nuclear waste in the occupied territories of the Republic of Azerbaijan. PACE. Doc.9444. 2002, 7 May.

108. Page Willie F., The Dutch Triangle: The Netherlands and The Atlantic Slave Trade, 1621-1664, Studies in African American History and Culture. New-York: Garland Publishing, 1997. Bibliographical references and index.
109. Palmer Colin A., Chapter 2: The company trade and the numerical distribution of slaves to Spanish America, 1703-1739, in Lovejoy, Paul E., Editor Africans in bondage: studies in slavery and the slave trade: essays in honor of Philip D. Curtin on the occasion of the twenty-fifth anniversary of African Studies at the University of Wisconsin, 1986.
110. Petkova Lilia, Budapest Economics, The Ethnic Turks in Bulgaria: Social Integration and Impact on Bulgarian – Turkish Relations, 1947-2000, the Global Review of Ethnopolitics Vol. 1, no. 4, June 2002.
111. Slavery, World Book, 2004.
112. Sonyel Salahi R., The Great War and The Tragedy of Anatolia' Turkish Historical Society Printings Hause, Ankara, 2000.
113. Staiko Trifonov, in Vesselin Dimitrov, In Search of a Homogeneous Nation: The assimilation of Bulgaria's Turkish Minority, 1984-1985, The London School of Economics and Political Science, 2000.
114. Stanton Gregory H., "Eight Stages of Genocide", Originally written in 1996 at the Department of States; presented at the Center for International and Area Studies, Yale University, 1998.
115. Stoyanov Valery, The Turks of Bulgaria, in Relation of Compatibility and Incompatibility between Christian and Muslim in Bulgaria, Sofia: International Centre for Minority Studies and Intercultural Relations Foundation, 1994.
116. The Khojaly Genocide. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh". Baku, 2005.
117. United States Holocaust Memorial Museum, Washington, D.C.; http://www.ushmm.org/wlc/article.php?lang=en&ModuleId=10005629

118. Utley Robert M. and Wilcomb E. Washburn, Indian Wars, Houghton-Mifflin Co., Boston, 1997
119. Vandalism: genocide against the historical names. Baku, 2006.
120. Vaserman A., Ginat R. National, Territorial or Religious Conflict? The Case of Nagorno-Karabakh// Studies in Conflict and Terrorism. 1994, vol. 17, №4.
121. Weindling Paul, Health, race and German politics between national unification and Nasizm, 1870-1945. Cambridge: Cambridge University Press. 1989.
122. Weindling Paul, International Eugenic: Swedish Sterilization in Context, Scandinavian Journal of History 1999.
123. Wilson James, The Earth Shall Weep: A History of Native America Grove Press, 1998.
124. Zhelyazkova A., The Social and Cultural Adaptation of Bulgarian Immigrants in Turkey, in A. Zhelyazkova (ed.) Between Adaptation and Nostalgia: The Bulgarian Turks in Turkey, Sofia: International Centre for Minority Studies and Intercultural Relations, 1998.
125. Zulfugarli M. Tragedy of Garadaghly: armenian terror in Nagorno-Karabakh: February 17, 1992. Baku, 2010.

***Rus dilində***

126. Азаров А., Ройтер В., Хюфнер К. Защита прав человека. Москва, 2000.
127. Араслы Дж. Армяно-азербайджанский конфликт: военный аспект / Центр стратегических и международных исследований/. Баку, 1995, 88 с.
128. Арвеладзе Б. В. Армянский батальон имени Баграмяна и этночистка грузин в Абхазии. Тбилиси, «Универсал», 2009. (в соавторстве с Т. Мибчуани).
129. Асадов С. Миф о «Великой Армении». Баку, 1999, 280 с.

130. Ахундов Ф. А. Разрушители фальсификаций. I том. Баку, 2012.
131. Велиханов Н. Зорию Балаяну. Размышления по поводу книги «Дорога». – История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 364-377.
132. Величко В. Кавказ. Русское дело и межплеменные вопросы. Баку, 1990, 224 с.
133. Война с мусульманами. Армяне опять нападают. – История Азербайджана по документам и публикациям. Баку, 1990, с 257-259,
134. Гаибов И., Шарифов А., Армянский терроризм. Баку, 1991, 48 с, фотоальбом.
135. Гамисония Н. В. Некоторые вопросы армянского метода «Национально-освободительной» борьбы в 1917 году. «Кавказ и мир», №4, 2009.
136. Гарабаглы Салех бей. Ходжалинский геноцид. Баку, 2001, 64 с.
137. Гасанлы Дж. Редкий документ, подтверждающий депортацию азербайджанцев из Армении. – газ. «Зеркало» 19 февраля 2005 г.
138. Гордиевский О., Эндрю К. КГБ. Разведывательные операции от Ленина до Горбачева. Москва, 1999.
139. Европейский суд по правам человека. Избранные решения. В двух томах. Москва, 2000.
140. Жорж де Молевил. Армянская трагедия 1915 года. Баку, 1990, 128 с.
141. Занегин Б. США в региональных конфликтах: малые войны и большая политика. «США- Канада» (экономика, политика, культура), №8, 1999, с. 20-29.
142. Иванов Р. Н. Оборона Баязета: правда и ложь. Москва, 2005.
143. Казимиров В. Карабах. Как это было. – жур. «Международная жизнь», №5, 1996, с. 41-52,
144. Казимиров В. Россия и Минская группа СБСЕ. – газ. «Сегодня» 14 октября 1994 года.

145. Карташкин В. А. Права человека… Москва. 2009.
146. Копылов М. Н. Введение в международное экологическое право. Москва, 2007.
147. Лисичкин В. А., Шелепин Л. А. Третья мировая война. Москва, 1999.
148. Люкимсон П. Нагорный Карабах: хроника конфликта: записки бакинского еврея. Баку, 1992, 32 с.
149. Мамедов Л. «Террористическая деятельность шовинистических армянских политических организаций в Карабахе в 1917-1920 гг» - «Qarabağ dünən, bu gün və sabah» 1-ci Ümumrespublika elmi konfransın materialları (24-25 may, 2002-ci il). Баку, 2002, с. 117-119.
150. Марусин И. С. Международный уголовный трибунал по бывшей Югославии и его роль в поддержании мира на Балканах. Издательство юридического факультета Санкт-Петербургского государственного Университета. 2007.
151. Международное уголовное право. Москва. 1999.
152. Мустафаев Р. Марш смерти: преступления армянства. – «Dirçəliş-XXI əsr» jur., 2007, №№112/113, с. 99-115.
153. Мустафаев Р. Марш смерти. Преступления армянства против еврейского народа. Москва, 2008, 69 с.
154. Мустафаев Р. Преступления армянских террористических и бандитских формирований против человечества. (XIX-XXI вв.). Баку, 2002.
155. Мустафаев Р. Страсти по виртуали. Баку, 2006.
156. Мюллерсон Р. А. Права человека: идеи, нормы, реальность. Москва. 1991.
157. Почепцов Г. Г. Как ведутся тайные войны. Харьков, 1999.
158. Прокофьев В. Ф. Тайное оружие информационной войны. Москва, 1999.
159. Рагимов И. М. Философия преступления и наказания. Санкт-Петербург, 2013.

160. Рзаев К. Правда и ложь о Карабахской войне. Баку, 1997, 252 с.
161. Салех бей. Армянство. Баку, 1994, 440 с.
162. Салимов К. Политика государственного терроризма. – газ. «Бакинский рабочий», 4 апреля 1994 года.
163. Самедзаде З. Нагорный Карабах: Неизвестная правда. Баку, 1995, 83 с.
164. Севдималиев Р. Международный терроризм – глобальная проблема современности. Баку, 2004, 312 с.
165. Солдатова Г. У. Психология межэтнической напряженности. Москва, 1998.
166. Справка прокурора Эчмиадзинского синода А. Френкеля, представленная в 1907 году святейшему Синоду. – История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 77-82,
167. Томас де Ваал. Черный сад: Армения и Азербайджан между миром и войной / пер. с англ. О. Алякринского/. Москва, 2005, 413 с.
168. Церковь и армянская диаспора. Москва, 1999, 320 с.
169. Чаладзе Т. Сострадание. Баку, 1995, 232 с.
170. Чантурия Р. И. Парижская мирная конференция и «армянский вопрос». «Кавказ и мир», №№3, 7, 9, 12 – 2009, №№1, 11 – 2010.
171. Шенсой Н. Геноцида армян не было. - «Независимая газета», 6 апреля, 2000.
172. Энтин М. Л. Международные гарантии прав человека. Опыт Совета Европы. Москва, 1997.
173. Эфендиев О. Ф. Военные преступления: от Нюрнберга до Карабаха (международно-правовой анализ). Москва, 2000, 224 с.
174. Юридическая энциклопедия. Москва, Юрист. 1997.
175. ЮСИА. Информационная служба США. Американское Посольство. Баку, Азербайджан, 1992-2000.

### *Türk dilində*

176. Abbaslı N. Yüzyılın soykırımı Hocalı. İstanbul, 2011, 288 s.
177. Ahmedov E. Ermenistan'ın Azerbaycan'a saldırısı ve AGİT. – "2023", 15 nisan 2010, sayı 108, s. 53-57.
178. Ahmedov E. Hocalı gerçeklerinin dünyaya anlatılması ve uluslararasıalanda yayılması. – www.habergunebakis.com – 05.03.2011.
179. Ahmedov E. XX yüzyılın başlarında ermenilerin azerbaycanlılara karşı etnik temizleme ve soykırım politikası. - www.habergunebakis.com – 12.07.2011.
180. Ahmedov E. Ermenistanın etnik temizlik, soykırım ve saldırganlık politikasının aşamaları - www.tasep.org – 30.10.1012.
181. Kamal O. Ermeni meselesi. İstanbul, 1986.
182. Karabağ: sorular ve gerçekler / Azerb. dilinden terc. S. Demir; tert. A. Tecim/. İstanbul, 224 s.
183. Paşayev A. Ermenilerin Azerbaycan Halkına Karşı Toprak İddiaları, Soykırımı ve Tehcirleri: XIX-XX yüzyıl. Bakı, 138 s.
184. Sarıahmetoğlu N. Karabağ. İstanbul, 2011, 336 s.
185. Selvi H. Türkiye-Ermenistan İlişkilerinin Halhazır Durumu ve Geleceği. Ankara, 2003.
186. Taşkıran J. Gecmişten günümüze Karabağ meselesi. Ankara, Genelkurmay Basım evi, 1995, 195 s.
187. Ermeni iddiaları ve tarihi gerçeklikler. Ankara: Dışişleri Bakanlığı. Stratejik Araştırmalar Merkezi, 1998, 72 s.

## Yerli ve xarici mətbuat

### *Azərbaycan dilində*

188. "Xalq" qəzeti, 1992-1994.
189. "Vətən səsi" qəzeti, 1992.

190. “Respublika” qəzeti, 2005-2013.
191. “Azərbaycan” qəzeti, 1992-1994.
192. “Odlar yurdu” qəzeti, 1992-1994.
193. “Ədalət” qəzeti, 1992-1994.
194. “Yeni Azərbaycan” qəzeti, 2001-2013.
195. “Şərq” qəzeti, 2001-2011.
196. “Qarabağ” qəzeti, 1991-2011.
197. “Qarabağa aparan yol” qəzeti, 2011
198. “Olaylar” qəzeti, 1991-2002.
199. “Geostrategiya” jurnalı, 2011.
200. “Dirçəliş-XX əsr” jurnalı, 1999-2010.
201. “Qanun” jurnalı, 1997-1998.
202. “Hərbi bilik” jurnalı, 1996-1999.
203. “Açıq söz” jurnalı, 1990.

### *İngilis dilində*

204. “The Washington Post”, February 28, 1992.
205. “The Washington Times”, January-March, 1993.
206. “The Washington Times”, January-February, 1994.
207. “Caspian Crossroads” Journal, 1992-1994.
208. “Foreign Affairs” Journal, 1992-1995.
209. “Middle East Journal”, 1992-1996.
210. “The Age”, March 6, 1992.
211. “The Sunday Times”, March 8, 1992.
212. “The Times”, April 4, 1988 – March 4, 1992.
213. “The Wall Street Journal”, April 11, 1992-1994.
214. “The Wall Street Journal”, November 20, 1992.
215. “World of Diplomacy” Journal, 2008-2010.
216. Release-news, USIS, January 9, 1997.

## Rus dilində

217. "Красная Звезда" газ., Москва 1992-1995.
218. "Бакинский рабочий" газ., Баку 1992-1996.
219. "Зеркало" газ., Баку, 1992-1994.
220. "Эхо" газ., Баку, 1992-1993.
221. "Известия" газ., Москва, 1992-1995.
222. "Комсомольская правда" газ., Москва, 1992-1998.
223. "Московские новости" газ., Москва, 1992-1995.
224. "Независимая газета", Москва, 1992-1996.
225. "Правда" газ., Москва, 1988-1994.
226. "Сегодня" газ., Москва, 1994-1996.
227. "Советский Карабах" газ.,--------- 1988-1995.
228. "Хазар" жур., Баку, 1990-1995.
229. "Новое время" жур., Москва, 1988-1994.
230. "Международная жизнь" жур., Москва, 1992-2002.
231. "Мировая экономика и международные отношения" жур., Москва, 1992-1995.
232. "США: экономика, политика, идеология" жур., Москва, 1992-1996.
233. "Центральная Азия и Кавказ" жур., Швеция, 1999-2010.

## Türk dilində

234. "Cumhuriyet", 1992.
235. "Hürriyet", 1992.
236. "Milliyet", 1992.
237. "Türkiye", 1992.
238. "Yeni Yüzyıl", 1992.
239. "Zaman", 1992.

### *İnternet resurslar*

240. http://www.aif.ru
241. http://aivazovski.ru
242. http://almanaxi.ucoz.com
243. http://amkob113.narod.ru
244. http://aniv.ru
245. http://annuaire-fr.narod.ru
246. http://www.armenianhouse.org
247. http://azcongress.ru
248. http://www.bakililar.az
249. http://baku.eparhia.ru
250. http://www.bibliard.ru
251. http://www.biblioclub.ru
252. http://budetinteresno.info
253. http://www.ca-c.org
254. http://www.catholic.uz
255. http://caucasia.geurasia.org?????
256. http://www.central-eurasia.com
257. http://chronologia.org
258. http://deyerler.org/ru
259. http://www.doverchiv.narod.ru
260. http://dugward.ru
261. http://elar.usu.ru
262. http://www.ezdixane.ru
263. http://www.georgians.ru
264. http://www.globalyorumrusca.com
265. http://www.gumer.info
266. http://gumilevica.kulichki.net
267. http://history.kubsu.ru
268. http://iberiana.wordpress.com
269. http://ixbook.net

270. http://karabakh-doc.azerall.info/ru
271. http://kavkasia.net
272. http://krotov.info
273. http://www.kurdist.ru
274. http://libbox.info
275. http://libraries-yanao.ru
276. http://lingvarium.org
277. http://lukeford.net
278. http://www.maof.rjews.net
279. http://www.mospravda.ru
280. http://nauka1941-1945.ru
281. http://www.noravank.am
282. http://www.nplg.gov.ge
283. http://www.nukri.org
284. http://www.regnum.ru
285. http://www.ruskolan.xpomo.com
286. http://shax-dag.ru
287. http://www.spsl.nsc.ru
288. http://svlourie.narod.ru
289. http://ua.bookfi.org
290. http://www.ucmoku.ru
291. http://www.voanews.com
292. http://www.vostlit.info
293. http://zerrspiegel.o...le.de
294. http://www.1news.az
295. http://www.26.itmc.ru

# MÜNDƏRİCAT

Xocalı....................................................4
Xocalının dağıdılmış mədəni irsi....................................................4
Erməni təcavüzkarları tərəfindən işğal olunmuş Azərbaycan əraziləri....................................................6
Unutmayaq....................................................7
***Qısa arayış.*** Heydər Əliyev Fondu....................................................12
***Ön söz.*** Sərt üzlü şahid....................................................14
"Xocalıya Ədalət!" çağırışının tarixi kökü....................................................23
Yadda saxla, Vətən övladı! Əzəli, əbədi torpağımız Qarabağ!....................................................35
Xocalı soyqırımı (genosidi) günü haqqında....................................................40
Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı....................................................41
Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti....................................................45
Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı....................................................47
Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət....................................................51
Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət....................................................53
Xocalı soyqırımının ildönümü münasibəti ilə Azərbaycan xalqına müraciət....................................................55
Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciət....................................................57
Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Qərarı....................................................60
Xocalı haqqında məxfi arayış....................................................67
Leyla Əliyeva: "Xocalıya Ədalət!"....................................................77
Xocalıda "Markarov qardaşları"nın törətdikləri cinayətlər....................................................80
Xocalı konfransı....................................................96
Xolokost, Ruanda, Xocalı....................................................122
"Xocalıya Ədalət!" "Hayastan"doktrinasına qarşı....................................................130
Yeni yüzilliyin manifesti....................................................144
"Ermənistan tarixi"ndəki Xocalı....................................................155
Xocalı: siyasət və cinayət....................................................172
Yeni erməni diaspor təşkilatları "Xocalıya Ədalət"lə üz-üzə....................................................180
Ekoloji terrora qarşı "Xocalıya Ədalət!" çağırışının konsepsiyası....................................................187
İtirilmiş şöhrət....................................................192
Ermənilərin ən çox qorxduqları ərazi....................................................194
Dağıdılan yurd yerləri....................................................196
Dünyanın yaddaşından silinən ərazi....................................................197

Zəhərli sular ........................................................................................ 200
Ölü zona ................................................................................................ 203
Eyni faciənin sindromları: Korsika-Xocalı ...................................................... 208
"Xocalıya Ədalət!" yeni yüzilliyin strateji modeli kimi…
və ya "Xocalıya Ədalət!" azərbaycanlılar üçün yeni ideologiya .................... 210
Üçtərəfli "qızıl" komissiyası və Xocalının hüquqları ........................................ 239
Beynəlxalq terrora qarşı yeni cəbhə: "Xocalıya Ədalət!" ................................ 248
Zəhərli mikroblar hazırlanır ...................................................................... 271
Erməni separatçıları "Xocalıya Ədalət!"dən niyə qorxuya düşüblər? ............ 289
Xocalıda öldürülən din xadimləri haqqında ATƏT-ə məktub .......................... 304
Xocalının cani həkimləri ........................................................................... 310
Birləşmiş Millətlər Təşkilatının pozulmuş qətnamələri .................................. 314
İstifadə olunmuş əlavə ədəbiyyatın siyahısı .................................................. 321

**VASİF SƏMƏDOV, RÖVŞƏN VƏLİZADƏ**

**LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"**
**(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA**
**QARŞI YENİ STRATEJİ MODEL)**


Yığılmağa verilib: 04.12.2013.
Çapa imzalanıb: 15.01.2014.
Formatı 70x100 $^{1}/_{16}$. Həcmi 21.5 ç. v. Sayı 1000.
Qiyməti müqavilə ilə.

***Kitablar hazırlanarkən, Respublika Baş Prokurorluğunun, MTN-nin, DİN-nin birgə yaratdıqları "İstintaq qrupu"nun materiallarından və "AzərTAC"-ın foto-arxivindəki şəkillərdən istifadə edilmişdir. Müəlliflər kitabların hazırlanmasında əməyi olan, qayğısını əsirgəməyən şəxslərə və təşkilatlara, o cümlədən Azərbaycan MEA-nın İnsan hüquqları İnstitutunun əməkdaşlarından F.Kərimova, N.Fərəcovaya, E.Orucovaya, A.Mustafayevə, Bakı Slavyan Universitetinin doktorantı S.Hüseynovaya təşəkkür edib, minnətdarlıqlarını bildirirlər.***

Texniki redakor: Cəsarət Qasımov
Korrektor: İradə Səmədova

CBS POLYGRAPHIC PRODUCTION
Tel:447-75-05, Faks: 447-75-04

**mətbəəsində çap olunmuşdur**